RAQUF BUDAQLI

# BUDAQLI ELATI

"Elm və təhsil"
Bakı - 2022

**Redaktor və  rəyçi:  Sakit Əliyev (Budaqlı)**

*Azərbaycan Respublikası Prezidenti yanında*
*Dövlət idarəçilik Akademiyasının elmi katibi,*
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**Məsləhətçi:** **İnqilab Miskin**

*Şair- publisist, Budaqlı tayfasının ilk ziyalısı*

**Məsləhətçi:** **Həsən Aslanov (Budaqlı)**

*Beyləqan rayon Eyvazalılar kənd sakini,*
*təqəüddə olan  riyaziyyat müəllimi*

**Korrektor:** **Rövşən Budaq**

*Şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin*
*üzvü,  "Novator" qəzetinin redaktoru,*
*Prezident təqaüdçüsü*

**Tərtibatçı:** **Saleh Həsənov**

**Raquf  Budaqlı. Budaqlı  elatı.**
**Bakı, "Elm və təhsil", 2022, 536 səh.**

"Budaqlı Elatı" kitabında kökü qədim oğuz türklərindən süzülüb gələn Budaqlı tayfasının həm keçmişi, hən də bu günü haqqında geniş məlumat verilir. "Dədə qorqud" boyundan qaynaqlanan Budaqlı tayfasının ağsaqqalları və  ziyalıları haqqında ətraflı məlumat verilmişdi. "Budaqlı Elatı" kitabında bu gün ki, nəsil öz  ulu babalarının kimliyini və özlərini görə biləcəklər.

**ISBN 978-9952-37-330-1**

**© Raquf  Budaqlı, 2022**

## RAQUF BUDAQLI



Tarverdiyev Raquf (Budaqlı) Tarverdi oğlu 1957-ci ildə İmişli rayonunun Əliqulular kəndində anadan olub. 1974-cü ildə Əliqulular kənd tam orta məktibin 10-cu sinifini bitirib. Ali təhsillidir. Raquf Budaqlı gənc yaşlarından bədii yaradıcılıqla məşğul olmuş və ədəbiyyata keçən əsrin 80-ci illərində gəlmiş, dövrü mətbuatında şeirləri müntəzəm olaraq dərc olunmuşdu. 2012-ci ildə "Məni hara səsləyirsən ay dünya", 2014- 2016-ci illərdə "Araz" ədəbi birliyi, Ədəbi almanax kitabında şeirləri çap olunmuşdur. 2016-cı ildə "Tale Yükü" adlı şeirlər kitabı çap olunub. 2017-2018-ci illərdə XVII-XVIII "Sözlü-Sehrli Dünya" adlı almanax kitabında şeirləri çap olunmuş, 2018-ci ildə "Zamanın Hökmü" şeirlər kitabı çapdan çıxıb. Onun yeni yazdığı "Budaqlı Elatı" adlı kitabı artıq oxucuların ixtiyarına verilir, "Qarabağın Sədası" adlı şeirlər kitabı çapa hazırlanır. Raquf Budaqlı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, AYB-nin Beyləqan bölməsinin katibi, "Novator" qəzetinin baş redaktoru, Prezident təqaüdçüsüdür. 1975-ci ildən Beyləqan şəhərində yaşayır, müxtəlif vəzifələrdə çalışmışdı. Ailəlidir üç övladı:- iki oğlu, bir qızı və altı nəvəsi var.

# Müəllifdən

Mən, Raquf Budaqlı 15.08.1957-ci ildə İmişli rayon Əliqulular kəndində dünyaya göz açmışam. Öz qanımda və genimdə Budaqlı tayfasının iki tirəsinin qanını daşıyıram. Atam Tanrıverdi Budaqlı tayfasının Mehdilər tirəsindən, Kəlbəlayı Mehdinin bacısı nəvəsi yetim Məhəmmədin oğlu, anam Münəvvər isə Hacalılar tirəsindən Hacı Qasımın oğlu Fərhadın kiçik qızıdır. Budaqlı elat tayfası haqqında yazmaq mənim illərlə beynimdə daşıdığım düşüncələrimin bəhrəsi olubdu. Bu düşüncələr ətrafında 30 ilə qədər ömür yolu keçdim. Uşaqlıq illərimdən başlayaraq gənclik dövrümdə də həmişə ağsaqqal və ağbirçəklərin söhbətlərindən doymadım. Onların təbii ki, həm öz gördükləri, həm də yaşlarından qabaq olan hadisələrlə, keçmişdə baş vermiş olaylarla daha çox maraqlanırdım. Mənim anlamadığım bir şey olduqda onu təkrar-təkrar sual verib, eşitdiklərimi kəlmə-kəlmə yığıb yaddaşımda saxlamağı bacarmışdım. Mən başa düşürdüm ki, bütün tayfaların hər birinin keçib gəldiyi ömür yolları olub. O cümlədən də mənim yaşayıb boya, başa çatdığım Budaqlı tayfasının keçmişini, onun Oğuz qolundan qaynaqlanması məni daha çox maraqlandırırdı. XX əsrin ortalarında yaşamış Budaqlı ağsaqqalları və digər qonşu tayfalardan olan yaşlı nəslin nümayəndələri ilə maraqlı söhbətlər aparmışdım. Demək olar ki, ömrümün 60-illiyindən sonra "Budaqlı Elatı" haqqında ətraflı təd-

qiqatlar aparmağa başladım. Məqsədim bu tayfanın keçmişini indiki nəslə çatdırmaq və gələcək nəslə ötürmək olub...

Budaqlı tayfasının ilkin yaşayış məkanı İrəvan ətrafından və "Ağrı Dağ"ın ətəyindən başlaması bizə məlumdur. Zamanında sürgün təcavüzünə məruz qalan tayfalardan biri də Budaqlı tayfası olmuşdu. Budaqlı tayfasının çox hissəsi VI-VII əsrdə "Ağrı Dağ"dan indiki Dərbənd şəhər ərazisinə sürgün olunmuşdu. Lakin bu tayfa orada bir müddət yaşasa da sonradan Quba, Xaçmaz ərazisində "Şah Dağ"ın ətraflarında məskunlaşmış və Borçalı mahalına qədər gedib çıxmışdı. Elə buna görə də Budaqlı tayfası hazırda beş böyük məkanda kompakt formada yaşamaqdadırlar. Bu yaşayış məkanları:

- İrəvan ətrafında yaşamış Budaqlılar. (Hazırda Bakı şəhərində yaşayırlar).
- İranda Budaqlı kəndi.
- Muğan, Mil, Qarabağda yaşayan Budaqlılar.
- Türkyədə Budaqlı kəndi.
- Borçalıda yaşayan Budaqlılar.

Borçalıda Budaqlılar "Kəpənəkçi" kəndində yaşayırlar. Borçalıda yaşayan Budaqlıların bir hissəsi zaman-zaman yaşayış məkanlarını dəyişərək Qazax və Tovuz rayonlarında məskunlaşıblar. Tovuz rayon Əlibəyli kəndində 60 evdən yuxarı Budaqlı tayfası yaşamaqdadır. Mən bunlardan yalnız Muğanda, Mildə və Qarabağda məskunlaşmış Budaqlılar haqqında ətraflı araşdırmalar aparmışam...

Budaqlı tayfası beş tirədən ibarət olmaqla hər birinin eyni kökə bağlılığı demək olar ki, təmiz qan qohumluğu olmağından irəli gəlir. Tayfada elə bir insan olmaz ki, bir-birinə yaxın qan qohumu olmasın. Zaman-zaman haqqında düşündüyüm bir ideyanı həyata nə dərəcədə keçirdiyimi yəqin ki, dəyərli

oxucularım, tayfanın ağsaqqaları və ziyalıları qiymətləndirəcək. Çalışdım ki, müasir nəslimiz, keçmişini yaxşı tanıya bilsin və hər bir şəxs bu kitabda özünü görə bilsin.

"Budaqlı Elatı" kitabını yazmağa başladığım andan həm Budaqlı ziyalıları, qonşu tayfalardan olan keçmiş zamanlarda qonşu olmuş yaşlı nəslin nümayəndələri, həm də tayfanın keçmişindən məlumatlı olan insanlar öz köməyini əsirgəmədilər. Mən kitab materiallarının toplanmasında kifayət qədər faktlara və dəqiq tarixlərin yazılmasına çalışmışam. Tayfanın bütün tanınmış, həyatda sözünü demiş ağsaqqaları və ziyalıları haqında çalışmışam ki, düzgün məlumat verəm.

Mən əminəm ki, "Budaqlı Elatı" kitabı hər bir Budaqlının stolüstü kitabı olmaqla, yeni ailə quran gənclərimizin ən dəyərli cehizləri olacaq.

*Raquf Budaqlı*

## BİR TAYFANIN ÖMÜR YOLU

Milli təfəkkürə, milli mənlik şüuruna və milli özünüdərkə malik olmayan insanın, qövmün, nəslin, xalqın və millətin gələcəyi yoxdur. Qədim Yunan mütəfəkkiri Sokrat tez-tez deyirdi ki, “özün-özünü dərk et” çünki özünü dərk etməyən insanı başqaları dərk edə bilməz. Milli özünüdərk isə milli kimlikdən başlayır. Sən kimsən sualına cavab verə bilməyən insanın milli mənlik şüuru yoxdur. Ona görə də hər bir insan bilməlidir ki, onun Vətəni haradır, hansı millətin nümayəndəsidir, hansı dinə inamı var, hansı dövlətçiliyə malikdir, hansı mədəniyyətin daşıyıcısıdır, əcdadları və ulu babaları kimlər olub, hansı adət və ənənələrin daşıyıcısıdır, hansı görkəmli şəxsiyyətləri var, doğma ana dili hansı dildir. Bu suallara cavab verə bilən insan özü-özünün dərk edən və mili mənlik şüuruna malik olan insandır.

1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələri ilə Azərbaycanın dövlətçiliyi süquta uğradıldı və ərazisi iki yerə parçalandı. Həmin dövrdən Azərbaycanın təkcə ərazisi iki yerə parçalanmadı, Azərbaycanın tarixi, dili, mədəniyyəti, mənəviyyatı, adət-ənənələri də iki yerə parçalandı. Həmin vaxtdan etibarən Cənubi Azərbaycanın dili, tarixi, mədəniyyəti, adət və ənənələri fars təsiri altında, Şimali Azərbaycanınkı isə rus təsiri altında inkişaf etməyə başladı. İki yüz il bizi milli kimlikdən, milli mənlik şüurundan və milli özünüdərkdən məhrum etdilər. Yalnız Şimali Azərbaycan 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra millətimizin

milli şüurunda oyanış baş verdi və milli özünüdərk və milli kimlik bərpa olundu. Azərbaycanın milli tarixi, fəlsəfəsi, ədəbiyyatı yenidən yazıldı və qaranlıq səhifələr üzərinə işıq düşdü.

Bu baxımdan şair-publisist Raquf Budaqlı olduqca zəhmətli, məsuliyyətli və xeyirxah bir iş görərək Budaqlı elinin nəsil şəcərəsinin tarixinə həsr olunan "Budaqlı elatı" kitabını yazmışdır. Çünki tarix yatmış yaddaşları oyadır, buna görə də hər bir nəslin tarixi haqqında biliklər onun həyat və fəaliyyətini, onun mövcudluğunu, yaşam tərzini doğru-düzgün əks etdirən güzgüdür. Tarix xalqları, millətləri, ibrət dərsləri ilə tərbiyə edir, onlara həqiqəti qiymətləndirməyi, keçmiş nəsillərin faciəli səhvlərindən nəticə çıxarmağı öyrədir. Keçmişi unutmaq olmaz, doğru olaraq deyiblər ki, keçmişini unudanları gələcək topa tutar. Buna görə də Raquf Budaqlının "Budaqlı Elatı" kitabı təkcə indiki nəsil üçün yox, gələcək nəsillər üçün də daha əhəmiyyətlidir. Çünki hazırki şəraitdə dünya çox kiçikdir, sərhədlər götürülüb, insanlar dünyanın müxtəlif ölkələrinə kütləvi şəkildə köç edərək öz doğma dillərindən, mədəniyyətlərindən özlərindən asılı olmayaraq ayrılırlar, assimliyasiyaya məruz qalırlar, milli mənlik şüurlarını itirirlər. Mədəni qloballaşma və Qərbləşmə milli mədəniyyətimizə və mənəviyyatımıza mənfi təsir göstərir. Körpə uşaqlar hər gün evimizdə yad mədəniyyətə, əxlaqa və adət-ənənələrə xas olan cizgi filmlərinə, gənclər yad teleseriallara, musiqilərə baxır və onun təsiri altına daha tez düşürlər. Bütün bunlar millətimizə xas olan müsbət əxlaqi dəyərləri unutdurur, milli mənəviyyatımızda yadlaşmaya və aşınmaya səbəb olur. Bu baxımdan kitabın dəyəri daha böyükdür və qiymətlidir. Kitab həmçinin Budaqlı nəslinin hər bir nümayən-

dəsi üçün həm bir yaddaş kitabıdır, həm də xoş bir xatirədir. Kitab oxuyarkən xəyallarım çox uzaqlara – uşaqlıq və gənclik illərimə getdi. Kitabda olan insanların hamısı mənim üçün doğma və əziz insanlardır. Həmin insanların əziz xatirələri (xüsusilə də dünyadan köçənlərin) məni kövrəltdi. Gur, səsli-küylü şəhər həyatını xoşlamayan və kənd həyatını sevən bir insan kimi bu kitab uşaqlıq və gənclik xatirələrimi yenidən oyatdı.

Raquf Budaqlı kitabda Budaqlı tayfasının mənşəyi və yayıldığı coğrafi məkanla bağlı geniş və əhatəli araşdırmalar aparıb, faktlar və arqumentlərə əsaslanaraq Budaqlı tayfasının kök və mənşəyinin Dədə Qorqud dövrünə qədər gedib çıxması qənaətinə gəlmişdir. Raquf Budaqlının bu fikrinə əlavə olaraq qeyd etmək istəyirəm ki, tərəkəmə türk tayfalarının Azərbaycan ərazisində yaşaması eramızdan əvvəlki minilliklərə gedib çıxır. Tərəkəmə türk tayfalarının ilk tədqiqatçısı olan tarix üzrə fəlsəfə doktoru Xaliyəddin Xəlilov "Qarabağın elat dünyası" əsərində yazır ki, " Arxeoloji araşdırmalar Azərbaycanda, o cümlədən Qarabağda hələ mezolit dövründə əhalinin məişətinə daxil olan maldarlığın neolit dövründə geniş inkişaf tapdığını təsdiq edir. Artıq eneolit dövründə Azərbaycanda, o cümlədən Qarabağda iribuynuzlu və xırdabuynuzlu maldarlıq yüksək inkişaf səviyyəsində olmuşdur. Qarabağın cənub sərhəddi Muğanda Əliköməktəpə adlanan yerdə arxeoloqların aşkar etdiyi arxeoloji materiallar burada eneolit dövründə iki at cinsindən istifadə edildiyini göstərir. Bu tapıntı Avrasiya materikində atdan istifadə edilməsi haqqında ən qədim məlumatdır. Arxeoloji tədqiqatlar Qarabağda tunc dövründə dəvədən istifadə olunduğu haqqında məlumat verir. Azərbaycanın digər düzən zonaları kimi, Qara-

bağ düzü də qoyunçuluğun beşiyi hesab olunmuşdur". Həmçinin kitabda Budaqlı tayfasının yayıldığı coğrafi ərazinin Şərqdə Orta Asiyadan başlamış Qərbdə Ağrı dağının ətraflarına, indiki Ermənistan ərazilərinə, Şimalda Dərbənddən və Gürcüstan ərazisindən başlamış cənubda Cənubi Azərbaycan ərazilərində yayılması tarixi faktlarla göstərilmişdir. Kitabın yazılmasının məsuliyyətini dərk edən Raquf Budaqlı qeyd edir ki, kitabla bağlı materialların toplanmasında dəqiq tarixi faktlara və mənbələrə istinad etməyə çalışmışam.

Raquf Budaqlı, Budaqlı tayfasının tərəkəmə Təklə tayfasının bir qolu olduğunu bildirir. Təklələr türk tayfalarının ən böyük və geniş yayılmış tayfalarından biridir. Budaqlı tayfasının Təklə tayfası ilə bağlı olması haqqında İmişli rayonunun yaranmasının 80 illik yubileyinə həsr olunmuş "Tarix olduğu kimi: İmişli 80" adlı kitabda qeyd olunur ki, "Yazıçı Mirələkbər Gövhərli" , "İmişli və imişlilər" kitabında yazır: " Hələ çar hökuməti dövründə Təklə tayfasına on üç oba daxil idi. Bunlar iki Sarıxanlı, iki Buludlu, Boşçallar, Əliqululular, Budaqlı, Talıbxanlı, Hacılı, Murtulu, Əlipənahlı, Muradxanlı və Tanrıqulular obaları idi. O vaxtlar Qaradonlu uyezdinə tabe olan həmin obalara yüzbaşılar rəhbərlik edirdilər. 1910-cu ildən Təklə tayfasına Budaqlı obasından olan Hacı Qasım yüzbaşılıq edərmiş".

Qeyd etmək istəyirəm ki, Budaqlı tayfasının Ağqoyunlu hökmdarı Uzun Həsənin mənsub olduğu Bayandır tayfası ilə və Əmir Teymurun mənsub olduğu Barlas tayfası ilə də bağlılığı vardır. Məşhur türk tayfası olan Bayandır tayfası Uzun Həsənin rəhbərliyi ilə nəhəng Ağqoyunlu dövlətini yaratdı. Mən rəhmətlik Gülnisə nənəmdən soruşanda ki, sən hansı tayfadansan , o, həmişə deyirdi ki, mən Bayandır tayfasında-

nam. Budaqlıların Barlas tayfası ilə bağlılığa gəldikdə isə 1370-ci ildə Əmir Teymurun yaratdığı böyük türk imperiyasına Azərbaycan da daxil idi. Əmir Teymurun mənsub olduğu Barlas tayfasının nəslindən qalan bir qolu hazırda Beyləqan rayonunun Dünyamalılar kəndində yaşayır. Onlar özlərini Barlaslar adlandırır. Onların da Dünyamalılar kəndindəki Budaqlılarla sıx qohumluq əlaqələri var. Dünyamalılar kəndində yaşayan Barlaslarla bağlı Türkiyənin "Zaman" qəzetində böyük yazı da nəşr olunmuşdur.

Kitabda tərəkəmə elatlarının yaddan çıxan adət-ənənələri, məişətləri, mədəniyyətləri, mətbəxləri, geyimləri və gündəlik fəaliyyətlərinin yenidən canlandırılması olduqca maraqlı və əhəmiyyətlidir.Tərəkəmə inancları ilə bağlı misalların çəkilməsi kitabi daha da oxunaqlı edir.

**Sakit Əliyev (Budaqlı)**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

## ULU BABAMIZ BUDAQ DƏDƏ

Mənim aləmimdə Budaq dədə ucaboy, enlikürək, buxara papağına bənzər papağı, iri pəncəli, uzun saqqal, uzaq görən müdrik bir kişi olubdu. O, tayfa yığıncaqlarında sözünü deyən, ağıllı məsləhətlər verən, zəmanəsinə görə tanınan, ağır məclislərdə öz sözünü deyən sanballı bir kişi olubdu. Budaq dədəyə Qara budaq deyərmişlər. Qara sözü həm də böyük deməkdir. Şair Raquf Budaqlının araşdırmalarına görə, Budaqlının yayılma coğrafiyası qərbi Azərbaycan, cənubu Azərbaycan, Dərbənddən tutmuş Borçalı mahalına, Qazağa, Tovuza qədər gedib çıxır.

Səni çox axtarıram, ay Budaq dədə,
Səni şöhrətinlə, sözünlə gördüm.
Baxdım gözlərinə yaranmışların,
Mən səni qartalın gözündə gördüm.

Çətinə düşəndə işim, əməlim,
Gözümdə canlandı sənin heykəlin.
Belinə minəndə çəkib, kəhərin,
Sənin qeyrətini özümdə gördüm.

Soyların içində ulusan, ulu,
Ay qoca türkümün möhtəşəm qolu.
Dolaşıq düşəndə ömrümün yolu,
Qeyrəti səndəki dözümdə gördüm.

Əziz dostum, qardaşım Raquf müəllim, mən çox şadam ki, həyatın bu keşmə-keşli zamanında vaxt tapıb, Budaqlı elatı haqqında araşdırmalarla məşğul olmusunuz. Həyatda iz qoymaq hər kəsə nəsib olmur. İnsan ömrü çiçək kimi açılır, bir anda da yox olub gedir. Həyatı geri qaytarmaq mümkün deyil, çünki taleyin çarxı tam sürətlə irəli gedir. Bəşəri-aləm yaranandan geriyə yol yoxdu, ancaq irəli gedir. Ona görə də həyatda elə yaşayıb iz qoymalsan ki, sonra peşman olmayasan. Çünki tarix səhvi bağışlamır. Sizin qələminiz kəsərlidir. Siz zəhmətkeş olmaqla yaradıcı insansınız, yorulmadan həmişə axtarışdasınız. Biz bilirik ki, zəhmət insanı ucaldır, məhşurlaşdırır, hörmətə mindirir, firavanlığa doğru aparır.

Raqub Budaqlının çəkdiyi zəhmət hədər getməyəcək, onun qələmə aldığı "Budaqlı Elatı" adlı kitabı harda olmasından, harda yaşamasından asılı olmayaraq bütün Budaqlıların stolüstü kitabı olacaq. Gələcək nəslimiz kimliyini, öz keşmişini bu kitabda axtaracaq.

Raquf müəllim, Allah zəkanıza qüvvət, hafizənizi iti, qələminizi həmişə əlinizdə eləsin. Yeni kitablarınızın ərşəyə gəlməsində sizə yaradıcılıq uğurları arzulayıram.

**Həsən Aslanov (Budaqlı)**
**Beyləqan rayon Eyvazalılar kənd sakini**
**təqaüddə olan riyaziyyat müəllimi.**

## TƏHLƏ TƏRƏKƏMƏLƏRİ

Beş minillik tarixə malik olan Azərbaycanın dövlət quruculuğunda Türk tayfalarının böyük rolu olub. Türk tayfaları Arutta, Lullubi, Kuti, Manna, Midiya, Atropatena, Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Səddadilər, Rəvvadilər, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Avşarlar, Qacarlar kimi böyük dövlətlərin yaradılmasında və idarə olunmasında fəal iştirak ediblər.

Böyük tarixçi alimlərimizin apardıqları çox saylı tədqiqatlara əsasən, əvvəllər Sırdəryanın sağ sahilində yaşayan Oğuz türkləri (tərəkəmələr) XI əsrdən başlayaraq, Zaqafqaziya, İran, Kiçik Asiya və Mesopotamiyaya yayılmışlar. Bu köçəri həyat tərzi sürən türklərin bir hissəsi tərəkəmə (ərəbcə təraki-mə-türkümənlər) deyiblər. Tərəkəmələr əsasən Azərbaycan, Dağıstan, Türkiyə və Gürcüstanın müəyyən bölgələrində icma halında yaşayırdılar. Onların özlərinə məxsus adət-ənənələri olub ki, bu günə qədər də onlar qorunub, saxlanmaqdadır. Azərbaycan ərazisində isə tərəkəmələr, Kür-Araz ovalığında, Mil-Qarabağ, Muğan və Şirvan düzlərində, Qərbi Azərbaycanın Göyçə mahalında yaşamışdılar. Tərəkəmə elatı, təkcə heyvandarlıqla deyil, həm də əkinçiliklə də məşğul olurdular. Tərəkəmə elat camaatının bir hissəsi qoyun və mal-qaranı yaylağa aparanda, digər hissəsi isə aranda qalmaqla əkinçiliklə məşğul olurdular. Bu kimi hallar XVIII-XIX əsrlərdə artıq tam qaydada formalaşmağa başlamışdır.

## BUDAQLI ELATI

Elat tərəkəmələri əsrlər boyu yaşadıqları dövrdə Qarabağ xanlığına (Qarabağ bəylərbəyliyi) tabe olmuş, onların ərazisində “Qaraağac” mahalında məskunlaşmışdılar.

Tərəkəmələrin özlərinə məxsus adət-ənənələri var ki, orada Azərbaycan dilinin, ən dərin qatlarında onların söhbətlərində və yaxud lətifələrində demək olar ki, yaşam tərzində üzə çıxır. Tərəkəmələr böyük türk tayfalarıdır.

Qarabağ bəylərbəyliyi geniş əraziyə mənsub olmaqla Səfəvilər dövlətinin böyük əyalətlərindən biri idi. Bəylərbəylik doqquz mahala və iki ölkəyə bölünürdü.

Zəyəm mahalı- Hazırkı Şəmkir rayonunun Zəyəm (Şəmkir) ərazisində yerləşib.

-Bərgüşad mahalı - Hazırkı Qubadlı rayonunun ərazisində yerləşib.

-Pəmbək mahalı

-Loru mahalı - Hazırkı Barana rayonu, Allahverdi rayonu, Cəlaloğlu rayonu və Vorontsovka rayonunun ərazisində yerləşib.

-Qaraağac mahalı - Hazırkı Ağdam və Ağcabədi ərazisində yerləşib.

Axıstabad mahalı - Hazırkı Ağstafa rayonu ərazisində yerləşib. Hətta XVIII əsrin I rübündə Osmanlılar tərəfindən tutulduqda belə əyalətin ərazisi dəyişməz olaraq qalmışdı. Tədqiqatçı Hüsaməddin Məmmədov-Qaramanlı bu barədə yazır: "İstər XVI əsrin sonunda, istərsə də XVIII əsrin əvvəllərində Gəncə-Qarabağ əyalətinin ərazisi, əsasən, dəyişməz olmuşdur. Əyalətin sərhədləri şimalda Kür çayı boyunca davam etmiş, Kürün Arazçayı ilə birləşdiyi yerdən Araz çayı boyunca qərbə doğru, Bərgüşad livasına (sancaq, qəza-nəzərdə tutulur) və buradan da şimal istiqamətində Göyçə gö-

lünün şərq hissəsindən keçərək yenə də şimala doğru, Tiflis əyalətinə daxil olmuş, Borçalının cənub hissəsi və Taşır nahiyəsi ilə həmsərhəd olan Lori qəzasına qədər uzanırdı".

Tərəkəmə türk tayfalarının ən geniş yayılan qollarından biri Təklə tayfasıdır.Təklə, coğrafi ad kimi Türk dünyasının tərkibinə daxil olan bir çox ölkələrin ərazisində mövcuddur. Təklələr Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan Qara dənizin şimal sahilində, Volqa boyu ərazilərdə məskunlaşıblar. Gürcüstanda Ağtəklə və Qaratəklə adlı kəndlər var. Borçalılar həmin kəndlərin adlarını "Təklə" kimi tələffüz edirlər. Çində, İranda, Suriyada, İordaniyada və digər ölkələrdə də tərəkəmələrə rast gəlmək mümkündür. İraqın Kərkük əyalətində məskunlaşmış Təklələr, Mərkəzi Asiyada olduğu kimi səpələnmiş halda yaşayırlar. Hətta Qazaxıstanın Taldu-Qurqan vilayətində "Təklə" adlı şəhər var. Bu coğrafi adın yayılma arealına Azərbaycanın bir çox rayonları da daxildir. Müxtəlif tarixi və coğrafi mənbələrdə Takla, Takle, Tekle, Tekla, Tokle, Teklo, Tekli və sair yazılış variantları bu coğrafi adın ayrı-ayrı xalqların dialekt təsirinə məruz qalmasından irəli gəlir. Bu fakt toponimin tayfa adı olmasını da sübuta yetirir. Minlərlə çay, göl, dağ, yamac, zirvə, təpə, dərə, bulaq, yaylaq var ki, onlar Təklə adı ilə bağlıdır. Toponimik araşdırmalar Təklə toponimlərinin Səlcuq Türklərindən olan eyni adlı Təklə Türk tayfasının adından alındığını təsdiq edir.

Bəzi tədqiqatçılar Təkləni Azərbaycanın yerli tayfası saymayıblar. Halbuki, son zamanlarda aparılan tədqiqatlar təsdiq edir ki, türklər Qafqazda və Anadoluda hələ eramızdan çox əvvəllər yaşamışdılar. Təklə tayfası Səfəvilər xanədanının ən çox etibar etdiyi tayfalardan birincisi olubdur. Buna görə

də Təklələr Səfəvilər imperiyasının müxtəlif ərazilərində demək olar ki, məskunlaşa bilmişdilər. Azərbaycan xalqının etnogenezinin formalaşmasında iştirak edən Təklə tayfası igid, qorxmaz bir tayfa olmaqla, Türk tayfaları arasında mədəni-ticarət əlaqələri möhkəmlənmişdir. Təklənin və yaxud Təklə tayfalarının daxil olduğu Qızılbaşlar Azərbaycan, Kiçik Asiya və Suriyada yaşamış türkdilli tayfa ittifaqı olmaqla əvvəl Şamlı, Rumlu, Ustaclı, Tələli, Əfşar, Qacar, Zülqədər, Qaradağlı, sonra isə Boyat, Qaramanlı, Baharlı, Alpout, Qazaxlı və sair türkdilli tayfaları öz ətrafında birləşdirib.

XIX əsrin axırlarında Azərbaycanda artıq Təklə tayfasının bir neçə qolları yayılmışdır ki, bunlar: I Təklə, II Təklə, III Təklə, Təklə, Təklə-Mirzəbaba, Təklə-Sofu, Təklə-Şatullu, Təklə-Abdulla, Təklə-Xol, Təklə-Axsaqlar, Təklə-Ağamollalar və Təklənin diğər qolları Budaqlı, Boşçalılar, Əliqulular, Talıbxanlı, Murtulu, Hajılı, Ağamalılar, Avdallar, Buludlu, Sarıxanlı, Binnətli, Tatalılar, Kəbirli, Aşıqlı, Eyvazalılar, Tanrıqullar, Əmirallar, Allahyarlı və sair tayfalar və tirələr yaşayırdılar. Tərəkəmə Təklələri Azərbaycan, rus və tatar dillərində danışmaqla, onların özlərinə məxsus şirin danışıq ləhcələri mövcud olmuşdur. XVI əsrdə Şah Abbasın tərəfdarları tərəfindən Təklə, Qədirli, İlxıçı, Beydilli, Qaradağlı, Əhmədli və sair türkdilli tayfaların birliyi yaradılıb və həmin birliyə Şahsevənlər adı verilib.

Yuxarıda adları çəkilən hər tayfa və tirələrin başçıları, sayılan ağsaqqaları ilə tanınırdı ki, onlar bəyliklər adlanırdı. Tayfa başçıları, öz elinin, obasının məsuliyyətini öz üzərinə götürməklə yuxarı dairələrdən verilən əmr və fərmanları, vergilərin ödənilməsi, naloqun yığılması kimi bütün məsuliyyətlər onların üzərində cəmlənirdi. Tayfa başçısının dediyi söz ha-

mı üçün qanun olaraq nəzərə alınırdı. Tərəkəmələrin təsərrüfat həyatı, mətbəx mədəniyyəti, toy adət-ənənələri tərəkəmə aləminə və prinsiplərinə aydınlıq gətirir. Təklə tərəkəmələrinin musiqi duyumu, dini inanclarını araşdırdıqca, bu elatın keçmişindən xəbər verməsi üzə çıxır. Bütün bunları nəzərə alan Süleyman Əlisa Təklə yazarlarının əsərlərindən bəzi nümunələri, Təklə elinin "söz boxçasını" kitabına daxil etməklə bu elin inkişaf səviyyəsini daha dəqiq və dolğun olaraq göstərmişdir. Professor Həsənbala Sadıqov yazır ki, Azərbaycanda kəndlilərin oturaq həyata keçmələri Səfəvilər dövründə tamamlanıb. Azərbaycan tərəkəmələri heç vaxt yaşadıqları kəndləri boş qoymamışlar. Ona görə də tərəkəmə təklələri köçəri deyil, köçəri maldar idilər. Dünyanın müxtəlif guşələrinə səpələnmiş təklələlilərin qəbiristanlıqları onların həmin yerlərdə yaşadıqlarını əks etdirən daş salnamələrdir. Tərəkəmə təklələrinin yaşadıqları məkanda iki yurd yeri və iki qəbiristanlığın olması onların həyat tərzinin müəyyən olunmasında mühüm rol oynayır. Tərəkəmə təklələri tarix boyu iki yurd yeri arasında hərəkət ediblər və hər iki yurdda öz daş kitabələrini əzizləri ilə birlikdə torpağın sinəsinə sancıblar.

Tərəkəmə tayfaları özünəməxsus köç adət-ənənələrini, köç mədəniyyətini qoruyub saxlayıblar. Yayda otun bol, havanın sərin olduğu yerlərə- yaylaqlara, payızda isə arana köç edib qayıdırlar. Yazın axırlarında köç hazırlığı görülür. Ərzaq, qab-qacaq, pal-paltar, mitil tədarük edilir, farmaşlara, xurcunlara, heybələrə qablaşdırılır. Komalar üçün çubuqlar hazırlanır. Bunun üçün göyrüş, çəkil ağaclarının düz qanadlarını kəsib, koma şəklində yaş ikən əyərək quruyana qədər saxlayırlar. Sonra çadırlar seçilir, yırtıq-deşiyi yamanır, yəhər-

yüyən təmir edilir, atlar nallanır. Atların nallanması da vacib məsələdir. Çünki köç karvanı əsasən dağ yollarından keçir deyə nalsız atların dırnaqlarını daş, çınqıl yeyir, ayağı yaralanır, yaylağa qədər gedib çıxa bilmir, yarı yolda qalır. Odur ki, əvvəlcədən atları nalbəndin yanına aparıb nalladırlar.

Elə ki, köç vədəsi yetişir, dəvələr, atlar, qatırlar yüklənir, camaat yaylağa üz tutur. Beləcə, köç başlanır. Bir tərəfdə qoyun-quzu, mal-qara sürüləri, digər tərəfdə isə at belində yaşlılar, qadınlar və uşaqlar asta-asta, ləngər vura-vura yoluna davam edirlər. Dağa çıxana kimi bir neçə yerdə gecələyirlər. Yol boyu çobanların səs-küyü, qoyun-quzu mələrtisi, it hürüşməsi kəsilmək bilmir. Nəhayət ki, elat yaylağa yetişir. Münasib yer zəndləyib, yataq (arxac) üçün yer seçir, atların, dəvələrin yükünü açırlar. Çubuqların bir ucunu yerə sancır, o biri uclarını bir-birinə çatırlar. Sonra da çubuqların üstünə çadır çəkirlər. Beləcə, tərəkəmələrin dağ evləri-komalar, alaçıqlar yan-yana düzülür. Komanın içinə keçə döşəyir, yorğan-döşəkdən yük yığırlar. Qoyun-quzu üçün də daşı-daş üstə qoyub qalaq qurur, ağzıbir düzəldirlər. Qoyunu və quzunu gecələr bu qalaqlarda saxlayırlar.

Tərəkəmə üçün otun, otlağın, biçənəyin, xamın, xəsilin öz mənası var. İtin hürməyi, atın kişnəməyi, qurdun ulamağı, quzu mələrtisi tərəkəmə üçün nəsə deyir. Bir körpə quzunun, necə deyərlər, "burnunun qanaması" belə tərəkəmənin gözündən yayınmaz. İtin də, atın da, köşəyin də öz dəyəri var. Tərəkəmə dövlət becərəndir. Tərəkəmə min də olsa, yüz də olsa, on da olsa, qoyun-quzunun hər birini üzüynən tanıyar, quzunun mələrtisindən hansı qoyunun balası olduğunu dərhal anlar, ilin gəlişindən əkizin, yalxının sayını əvvəlcədən

təyin edər. Bir yetim quzunu aldırmayınca rahatlıq tapmazlar.

Dağ döşünə yayılmış sürülər tərəkəmə həyatının əmin-amanlığından, bərəkətindən və gümrahlığından xəbər verir. Ümumiyyətlə, dağ mövsümü tərəkəmə üçün əsl ruzi mövsümüdür. Çünki bu vaxt gül-çiçək qarışıq ot dizə vurur, heyvanlar yaxşıca kökəlir, südə, ətə-qana gəlir. Tərəkəmə də inəkdən, qoyundan çiçək ətirli yağ-pendir tutur. Onlar yağı da, pendiri də motala yığırlar. Motalı bir neçə illik erkək dərisindən düzəldirlər. Yeri gəlmişkən deyək ki, üçillik erkəyə öyəc deyirlər. Öyəc dərisi iri olur, 40-50 kq pendir tutur. Deyirlər ki, belə dəri, pendiri uzun müddət təravətli saxlayır. Doğrudan da, motalda saxlanan pendir, yağ bir müddətdən sonra dəyir, dadlanır, mataha dönür.

Yaylaqda təndir olmur deyə çörəyi sacda bişirirlər. Ocağın altında, adətən, təzək, qoyun puşu və çırpı yandırırlar. Sacı külləyirlər ki, yuxanı yandırmasın. Yuxa nazik yayılmış mayasız çörək növüdür. Ona yayma da deyirlər. Kündəni nazik yayıb isti sacın üstünə atır, o üz-bu üzünə çevirərək qısa vaxtda bişirirlər. Motal pendirini bir büküm isti çörək dürməkləyib yeyən adamın könlündən daha heç nə keçməz.

Tərəkəmələrin bir yaylaq qayğısı var ki, o da yun qırxımıdır. Yun qırxımı yazda aprel ayında, yayda isə iyul ayında başlayıb, az vaxtda yekunlaşır. Bu işi səriştəsi olanlar görərlər, yoxsa əlinə ilk dəfə qırxlıq (yun qayçısı) alanlar onu bacarmazlar. Bu, hər çobanın işi deyil. Yunu lap dibdən qırxmaq lazımdır ki, itkiyə getməsin. Naşı da qırxlığı düzgün işlədə bilmir deyə ya tez-tez qoyunun dərisini kəsir, heyvana ağrı verir, ya da yunu dərinin üstündə saxlayır, uzun qırxır. Yun qırxımında, demək olar ki, hamı iştirak edir. Qadınlar

yunu çeşidləyir. Qıvraq çobanlar qoyunları bir-bir tutub ayaqlarını bağlayır və qırxıncının yanına gətirirlər. Uşaqlara da tapşırırlar ki, qırxılmış yunu toplayıb xarallara yığsınlar. Yayın ikinci yarısında, yəni yaylaqda qırxılan yuna güzəm, yaz yununa isə yapağı deyirlər. Yaz yunu uzun və yumşaq, güzəm isə qısa və cod olur.

Dağ mövsümü alverçilərlə də yadda qalırdı. Onlar yatağa at, qatır belinə yüklənmiş səbətlərdə gilas, alma-armud, maşınlarda isə qarpız-yemiş gətirərdilər. Çox vaxt onlara "satağançı" da deyirdilər. Tərəkəmələr öz ehtiyaclarını götür-qoy edəndən sonra yunun bir hissəsini ya satar, ya da mer-meyvəyə dəyişərdilər. Elə ki mal-heyvan özünü tutdu, onda da aran-qış tədarükü görülürdü; erkəklər kəsilir, öz yağında qızardılıb küpələrə doldurulurdu. Buna da qovurma deyirlər. Bu, daha çox qış azuqəsidir. Arana dönəndən sonra onu hər dəfə təzələyib dadlı xörəklər bişirirlər...

Bu minvalla yay mövsümü gəlib keçər, dağların başına ilk qar düşər-düşməz elatın arana köçü başlayır. Yenə də yol boyu qələbəlik olur, səs-küy, qoyun-quzu mələrtisi dünyanı ağzına götürür. Yaylaqdakı yurd yerlərimiz boşalsa da, qəribləsə də, köç əhlində bir şadyanalıq olur.

On günə qədər köç arana qayıdır. Qonum-qonşu, qohum-əqrəba ilə görüşən tərəkəmələr bir neçə gün də kəndin həndəvərində dolanandan sonra indi də qış yataqlarına üz tuturlar. Kəndlərdə ev-eşik, bağ-bağat salsalar da, tərəkəmələr, ömrünün böyük hissəsini təbiət qoynunda - sürü qırağında, at belində keçirməyə üstünlük verirlər. Əkin-biçinlə məşğul olan tərəkəmələr isə payız-qış aylarında ev işlərinə güc verir, qoyun-quzudan əldə edilən yundan xalça, kilim, palaz, məfrəş, vərni, heybə və s. toxuyurlar. Xalçaçılıq tərəkəmələrin ən

sevimli məşğuliyyətlərindən biridir. Qışda hər tərəfi qar örtür, çöldən əl-ayaq çəkilir. Tərəkəmə də bekar durmağı heç zaman sevməz. İsti sobanın yanında min bir naxışlı, allı-güllü xalçalar, kişilərə isti corablar və koftalar toxuyur. Onlar bu işə əvvəldən hazırlıq görürlər. Yuyulmuş yunu zoğal çubuğu ilə çırpıb açır, yun darağından keçirir, əlçimləyib üst-üstə yığırlar. Sonra bu əlçimləri cəhrədə əyirib sap eləyirlər. Sapı kirtizləyəndən, yəni hamarlayandan sonra yenidən cəhrədə ikiqat, üçqat bükdərirlər. Başqa sözlə, iki və ya üç sapı bir yerdə burub eşirlər. Yalnız bundan sonra nənələr bardaş qurub hazır ipi səkkiz rəqəmi şəklində dizlərinə sarıyırlar. Bu cür sarınmış ipə kələf deyirlər. Kələfləri boyamaq üçün boyaqçıya aparırdılar. Boyaqçı da onları iri küpdəki rəngin içinə salır, ip rəngi götürənə qədər saxlayırdı. Boyaqçılara çox vaxt küpçü də deyirdilər. Lap qədimlərdə rəngləri yalnız heyvanlardan - böcək və həşəratlardan alırdılar. Yəni tamamilə təbii idi. Lakin bu həşəratların toplanması böyük zəhmət istəyirdi. Məsələn, bir kiloqram al-qırmızı boyaq əldə etmək üçün on minlərlə purpur böcəyi toplamaq lazım gəlirdi. Odur ki, yavaş-yavaş nəbati (bitki) boyaqlardan istifadə etməyə başladılar.

Ən gözəl xalça quzu yunundan çıxırdı. Belə xalçalar uzun illər şuxluğunu itirmir, rəngi getdikcə daha parlaq görünürdü. Tərəkəmələr bu xalçaları, bir qayda olaraq, Novruza qədər toxuyub kəsərdilər. Bunun da öz səbəbi vardı. Novruzdan sonra əkin-biçin işlərinə hazırlıq görülür, hər işin öz vaxtı, vədəsi yetişir, hər yerdə həyat yenidən qaynamağa başlayır deyə bayrama qədər xalça hazır olmasa, işlər üst-üstə düşə bilər. Bir də ki, bayramqabağı kəsilən xalçanın sevinci ikiqat olur axı. Çöl işlərini nizama salandan sonra tərəkəmələri

qarşıdan gələn köç mərasimi gözləyir. Beləliklə, hər şey yenidən təkrarlanır...

Tərəkəmələrin bu gün yaşadığı adətlər qədim türklərdən, hətta Bilgə Xaqan zamanından qalan bir mirasdır. “Kitabi-Dədə Qorqud” dastanında da bəzi adətlər bu gün tərəkəmələr tərəfindən qorunur. Xüsusən də İmişlinin Əliqulular, Sarıxanlı, Muradxanlı kəndlərinin, Borçalı bölgəsinin camaatının tarixin sınağından çıxmış adət-ənənələrinə rast gəlmək mümkündür. Bu ənənə və inanclar həmçinin Beyləqan rayonunun Eyvazalılar, Tatalılar, Bünyadlı, Bərdə rayonunun Hacallı, Mehdili kəndlərində, eləcə də Gədəbəy, Tovuz, Mərkəzi Aran zonası, Lerik, Masallı və bir çox rayonlarımızın kəndlərindəki tərəkəmələr tərəfindən yaşadılır. Turan dünyasında nə qədər inanc, ritual varsa, hamısı tərəkəmələrə şamil olunur. “Qodu-qodu”, “yel gəldi”, “duman getsin” kimi rituallar var. “Qodu-qodu” deyilən nəğmə oxunur və həqiqətən də duman çəkilir. At, it və qoyunla bağlı inanclar var.

Tərəkəmə comərdliyi, sənətkarlığı, həmişə tarixdə adla deyilib. Qadınları lazım gələndə kişilərlə vuruşub, dəvə minib, at çapıb, tərəkəmə itləri, atları və qoyunları tarixdə məşhurdur. Tərəkəmələrin özünəməxsus yeməkləri var, demək olar ki, bu yeməklər başqa yerlərdə bişirilmir, tərəkəmələrin özünə aid dil leksokonu var ki, ancaq onu özləri başa düşürlər. Onlar heyvandarlıqda yeni icadlar eləyiblər, yeni sözlər yaradıblar, itlərinə qoyunlarına atlarına yeni adlar veriblər, onlar bir-birindən fərqləndiriblər. Tərəkəmələr köçəri tayfalar olsa da, onlar yurda, daşa, torpağa bağlı adamlar olublar. Onların yurdu böyük əraziləri əhatə edir. Seçmə qoyun, at, it nəsli yetişdiriblər. Onların ən yaxşılarını qoruyub saxlayıblar. Tərəkəmlərin özlərinə məxsus geyimləri, türkəçarələri, inanc-

ları, nəğmələri, müxtəlif oyunları var. qoyunçuluğun, maldarlığın sirləri nəsildən-nəsilə ötürülüb, bu günə kimi qorunub saxlanılmaqdadır. Onların köç həyatı çox maraqlıdır. Mən özüm də dəfələrlə bu köçin iştirakçısı olmuşam. Qoyunların döl vaxtı, dollək, kərəskə, ağıl, vana, küz, qığ, dəlmə, arxac, yazdıx, payızdıx, güzəm, bulama, kətəməz, koramaz, kətil, vəl, örkən, sijim, sinəbənd, quşqun, tafqır, dizzax, qax, şəddə, örən, xam, örüş, qalax, əriş, arxac, paz, hörük, yal, küt, dirədöymə, qığmərə, çilingağac, oğursaq, boğaz, balax, pota, tələmək, cubuq, yanlıq, əyin ağacı, fərməş, iflik, garvıt, sirkən, qarağan, kətiyyən, küdrü, təzək, kürsək, cemis, buğaya gəlmək, muroya gəlmək, ojax qırağı, yaz ağzı, ceyillik, kor əmçək, duz daşı, əvəlik, quşotu, çobanaldadan, duyçə, kələf, çəhrə, iy, quşnu, dələmə, maya, qursaq, axtarma motal, çalansı, yükaltı, koğa, çomaq, cust, əvədək, quşqaytaran, ənik, day, maydan, dayca, qulan, bağırbeyin, tərəkəmə qovurması, alışma, qəhəl, qəhət, balax, ləvərə, dağarcıx, dəstərxan, qavqarmaq, binə, urfa, doğrama, alıx, yağır, xötək, heybə, ovdux, ağartı, çəkməcə, dəlicə, ətənə, sulux, ağcavaz, qiryəlin, damazdıx, baş covan, subay qoyun, sağmal qoyun, sərdən, poran, təpəl, səkil, əmizlikli, təhlə, puş, gərmə, sidiklik, qana düşmək, qırxılığa düşmək, miyəntək, kəlin qoyun, sarı kürə, ağ kürə, şilə, şəpit, ediləmək, lay, çərttək, toğlamıx, elti, küt, yelin, çətənə, tiyə, toxmaq və yüzlərlə belə sözlərin hamısı tərəkəmə həyatından bəhs edir. Bu sözlərin etmologiyasından, koç həyatından, digər adət və ənənələrdən danışmaq çox maraqlıdır. Tərəkəmə həyatı Azərbaycanda böyük maraq doğurur.

Tərəkəmə tayfalarının nümayəndələrindən olan şair Qəşəm Nəcəfzadə tərəkəmənin bu üç heyvanla bağlı olan adətləri haqqında qeyd edir ki, tərəkəmənin atının quyruğun qırxar-

larsa, bu, ölümlə nəticələnər, yəni at kişi üçün namus, kişilik simvoludur. Tərəkəmənin özünə bir ağac vursan, kar eləməz, itinin ağzına bir çubuq çəkdinsə, qan düşər. Atla bağlı olan başqa inancları isə el adətlərinin bilicisi olan publisist Süleyman Əlisa bu cür əsaslandırır: "Tərəkəmələrin inanclarına görə, əgər at ayağını yerə döyərsə, bu təhlükədən xəbər verir. Tərəkəmə də ona sözsüz ki, inanır. Atın kişnəməsi isə yağışın yağmasına işarədir. Əgər at qışda yerə rahat şəkildə uzanarsa tərəkəmə o saat düşünür ki, aha, deməli, sabah yaxşı hava olacaq. Yox əgər at isti havada belə, üstünün tozunu təmizləyərsə, qar yağacaq".

Atla bağlı olan bu inanclara daha çox Təklə eli və başqa ellərdə (Eyvazalılar, Əliqululular ellərində) inanılır. Tərəkəmə atını sınaqdan keçirən zaman əlində bir parç su ilə onun belinə minir və çapır. Əgər sona çatanda su dağılmırsa o atı özü üçün seçir. At üstündə oğurluq isə tərəkəmənin qəhrəmanlığını göstərən əlamətlərdəndi.

Böyük qırğız yazıçısı Çingiz Aytmatovun "Ana tarla" əsərində belə bir səhnə var: yaylaqda olan oba gəncləri at üstündə ötüşür, ən cəld olan çoban isə toğlunu elə at çapa-çapa yerdən götürür və onu ya sevdiyi xanımın ayaqları altına atır, ya da onun qaldığı alaçığın kandarına tullayır. Bəzi tərəkəmə ellərində bu gün də bu adət qalmaqdadır. Toy vaxtı qız və oğlan evinin gəncləri ata minir və bu minvalla ötüşürlər, at üstündə toğlunu götürmək isə hünər sayılır.

Tərəkəmə məzarlıqları həm dağda, həm də aranda olur. Təbii ki, yaylaq zamanı vəfat edən tərəkəməni bir də ilin əksər vaxtları qaldığı qışlağa aparmayıb, elə orda dəfn edərlər. Amma bir tərəkəmə qaydası var: bir elin ölüsünü heç vaxt başqa elin ərazisində dəfn etməzlər. Başdaşıları çox sadə olar

və üzərində at, qoyun, dəvə, ceyran şəkillərinə oxşayan eskizlər olar. Tərəkəmələrin başqa inanclarına da nəzər salaq. Bu barədə Etibar İmanov tərəkəmələr haqqında maraqlı qeydlər aparıb: "At nalın zibilliyə atmazlar ki, evin xeyir-bərəkəti gedər. Yaylaqdan qayıdanda sökülmüş binənin yerinə şirni töküb üstünə su səpərlər. Bu da ona görədir ki, gələn köç vaxtına qədər bu yerlərin bərəkəti qalsın. Qoyun qırxan zaman ona su göstərməzlər ki, qırxılığa düşər. Qoyun qırxılanda quyruğunun tükündən bir əlçim götürüb ağız-burnuna sürtərlər ki, tez qoça gəlsin. Qoyun ikicanlı olan vaxt yanında qurdun adını çəkməzlər ki, balası ölər".

Xalq yazıçısı folklorun və tərəkəmə həyatının mahir bilicisi Mövlud Süleymanlı isə tərəkəmələrin adətləri barəsində bunları qeyd edir: "Arxacı (qoyun saxlanılan yer) kim keçsə çağırarlar:– yolunu burdan sal, ay yol adamı. Bərəkət üstüdü, bərəkət üstündən ac adlama" İtləri alaçığın qabağında yemləməzlər. Sağından sonra quzuçunu çağıranda adı ilə çağırmazlar. Niyəsini sərkərlər (sürünün önündə gedən çobanlar) yaxşı bilir. (Amma bu təbii ki, uzun zamanlardan bəri formalaşan inanca görədir. Sırf bərəkətin qaçmaması ilə bağlıdır.) Əli ağacsız çobana əl çobanı deyərlər. Gecə sürüyə oğru girəndə çoban qoyun öskürəyindən onu bilər və deyər: "Gen dolan, məndən sarp aparamazsan" Tərəkəmə adətləri ilə bağlı maraqlı bir məqam isə yaylaqda bir-birinə qonşu olan iki el arasında gedən kütləvi davalar və tərəkəmə oğurluğudur. Tərəkəmə davası əsasən it, at, örüş sahəsi ya da ki, oğurluq üstündə düşərdi. Bu dava hətta aylarla davam edərdi. Yalnız zopa ilə dava edən tərəkəmə kişiləri bir-birilərini əvəz edən zaman qadınlar sacda yuxa, qovurma hazır edib "dö-

yüş"dən gələnləri yedirər, içirər və döyüşə gedənləri yola salardılar.

Tərəkəmə oğurluğuna gələndə isə onun oğurladığı nə olacaq ki?! Təbii ki, qoyun, quzu, ya obaya aid kişilərdən birinin əşyası. Təbii ki, burada at, it, sursat oğurluğu, yaxud obadakı qadınlara aid hansısa əşyadan söhbət gedə bilməz. Bir obadan başqa obaya elçi gedəndə də qız atası öncə bu oğurluğun olub-olmadığını xəbər alar.

Ailəyə gəlmiş təzə gəlin, bütün ailənin üzvləri tərəfindən əziz tutular. Təzə gəlinin gəlişi bir ailənin və yaxud bir nəslin gələcək simvolu sayılır. Onun dünyaya gətirdiyi övladları nəslin davamçıları deməkdir. Gəlin isməti, həyanı ata ocağından gətirər. Gəlin təzə gələndə qaynata, qayın, bəyin yaxın qohumları tərəfindən ona xələt verilib üzünü görərdilər. Bu da boy görməsi adlanardı. Gəlin gəldiyi gündən ağsaqqal, ağbirçək, evə gələn qonaq yanında yaşmanardı. Qaynanalar gəlinlərinə öz qızları qədər yaxın olmalı, onun qayğısına qalmalıydı. Övlada olan münasibət, eləcə də gəlinə şamil olunardı. Gəlin, qayın və baldızlarını qardaşı və bacısı gözündə görürdü. Gəlinlər çox zaman ürək sirlərini baldızlarına açardılar.

Tərəkəmə elatında qonaqpərvərlik xüsusi olaraq diqqət mərkəzində olardı. Qonaq, Allahın qonağıdır deyərdilər. Evə qonaq gəldisə ona ehtiram göstərib qulluğunda durardılar. Qonaq üçün təzə və təmiz süfrə salınar, xörəyin yaxşısını qonağın qarşısına qoyarlar. Əgər qonaq axşam qalmalı olardısa ona istifadə olunmamış yorğan döşəkdə yer açardılar. İmkanlı ailələrdə isə qonaq üçün xüsusi alaçıq qurulu halda saxlanılırdı.

Qonşuluq özü bir simvoldur. Tərəkəmə camaatı yaxın qonşunu, uzaq qohumdan üstün tutardı. Belə bir deyim var

idi: - “Qonşunu iki inəkli bilki, özün bir inəkli olasan”. Qonşu ilə dalaşmaq, qonşuya sataşmaq, qonşudan oğurluq etmək yasaq olunurdu. Çünki, ən çətin anlarda ilk köməyə gələn məhz qonşu olar. Qonşu qonşunun itinə daş atmaz ki, xətrinə dəyər. Atalar belə deyərdi:

- “Qonşun, qonşu olsa kor qızın ərə gedər”.

Bir tikə çörəyin olsa qonşuyla yarı bölməlisən. Qonşunun namusunu öz namusun bilməlisən. Yuxarıda adlarını çəkdiyim inanclara tərəkəmə elatında olduqca həssas yanaşılardı.

Qeyd:-Tərəkəmə inancları və adətləri barəsində yazının hazırlanmasında Modern.az saytına İctimai Televiziyanın “El sənəti” buraxılışının rəhbəri “Təklə eli, tərəkəmə dünyası” kitabının müəllifi Süleyman Əlisa kömək edib. Tərəkəmə tayfalarından olan şair Qəşəm Nəcəfzadənin və xalq yazıçısı, folklorun gözəl bilicisi Mövlud Süleymanlının tərəkəmə dünyası barəsindəki yazılarından istifadə olunub...



*Tərəkəmə alaçığı*

# BUDAQLI ELATI

## YADDA QALAN XATİRƏLƏR

Budaqlı, tərəkəmə təklələrinin qədim bir qolu olaraq tam tayfa halında formalaşmışdır. Budaqlı köklü bir elat tayfası olmaqla dərin bir kökə bağlı olan tayfadır. Onların əcdadı oğuz kökündən başlayır. Budaqlı elatı kitabi "Dədə Qorqud"un Qara Budaq qolundan qaynaqlanır. Qara Budaq isə Qazan xanın qardaşı və sağ əli sayılan Qara Günənin oğludur. Qara Günə oğlu Qara Budaq qolu VI-VII əsrdə İndiki Dərbənd şəhəri ətrafına sürgün olunublar. Bu tayfanın sakinləri təbii ki, şimaldan qərbə doğru məskunlaşma həyatı yaşayıblar. XI əsrdən başlayaraq bu tayfanın bir qismi icma şəklində Mil-Muğan və Qarabağ ərazisində məskunlaşmış, bir hissəsi isə pərakəndə formada İrəvan, Quba, Qusar, Xaçmaz, Borçalı, cənubi Azərbaycan və Dərbənddə köçəri tayfa olaraq kompakt şəkildə yaşamışdırlar. Bu tayfanın əsas qolu qışlaqda Mil-Muğanda, yəni indiki İmişli, Beyləqan, Füzuli rayonları və Dağlıq Qarabağ ərazilərində oturaq və köçəri həyat tərzi keçirməklə, heyvandarlıq və əkinçiliklə məşğul olurdular.

Budaqlı elatı eyni kökə bağlı olaraq inkişaf etdikcə, əhalisinin sayı artdıqca öz daxilində müxtəlif tirələrə bölünmüşdür. Bu tirələrin artması heç də tayfanın parçalanması, başqa yerə köçüb getməsi kimi sayılmırdı, əksinə eyni ad altında, eyni kökdə, eyni məkanda kompakt formada yaşayaraq, təsərrüfatlarını inkişaf etdirirdilər. Tirələrin yaranma səbəbi tayfa sakinlərinin sayca çoxalması və qismən yer dəyişməsin-

dən yaranan amillərdir. Hər tirə isə öz sayılan ağsaqqallarının adına bağlanırdı. Bu insanlar zaman-zaman evlənib ailə quranların hesabına yaranırdı. O zamanlar bir ailə bir tüstü (bacadan çıxan tüstü) sayılırdı. Tayfanın bütün tirələri Budaqlı adlanır.

XI əsrdən başlayaraq bu günə qədər müasir dövrdə yaşamaqda olan Budaqlı tirəsinin hamısı Hacılar qolunun inkişafına bağlıdır. Ola bilsin ki, yaranan tirələr bu qolun qız törəmələrindən yaranmış nəsillərin davamçılarıdı. Tirələr arasında heç zaman ayrı-seçkilik olmayıb. Gənclər ailə quranda tirələr diqqəti cəlb etmirdi. Bütün tirələr tayfanın ağsaqqalı ətrafında sıx birləşirdi. Budaqlı tayfası həm keçmişdə, həm də bu gün hansı məkanda yaşamasından asılı olmayaraq, qonşuluqda mehriban, dostluqda vəfalı və sağlam ruhda olan insanlardı.

Bu tayfanın müsbət xüsusiyyətlərindən biri də odur ki, heç zaman ocağa gəlmiş gəlin boşanıb ata evinə qayıtmayıb. Bir xanımın boşanması bir ailəyə və yaxud bir tayfaya hörmətsizlik gətirərdi. Bunun da əsas səbəblərindən biri də odur ki, tayfada hər hansı problemlər yarandığı halda, el ağsaqqalları və ağbirçəkləri tərəfindən işlər nizama salınar və öz həllini tez tapardı. Tayfanın başçıları, ağsaqqal və ağbirçəkləri gənc oğlan və qızlara həmişə xatırladıb deyərdi:

-" Su girdi qaba oldu içməli".

-"Gəlin evə gəldi, oldu evin qızı".

-"Gəlin, gəlin olmaz, onun düşdüyü ev gəlin edər".

-"Ocağa gələn gəlin, iki uşaq anası olana qədər öyrənməlidir".

-"Gəlinin bilmədiyi, bacarmadığı işini üzünə vurmaq yox, onu başa salmaq lazımdır".

Tirələr aşağıdakılardan ibarətdir. Yeri gəldikcə onlar haqda lazımi və dəyərli açıqlamalar veriləcək.

1. **Hacıalılar, tayfa başçısı Hacı Qasım.**
2. **Mehdilər, tirə başçısı Kərbəlayi Mehdi.**
3. **Təhməzli, tirə başçısı Kərbəlayi İbrahim.**
4. **Kərbəlayi Şirinli, tirə başçısı Kərbəlayi Şirin.**
5. **İmamqulular, tirə başçısı Hacı İmamqulu.**

Budaqlı tayfası tirələrə bölünməsinə baxmayaraq əslində əzəli bir nəsildən və bir kişinin törəmələridir. Onlar zaman-zaman bir-birinin ya yanında olmuş, ya da tayfa ağsaqqalı kimi bir-birini əvəz etmişdirlər.

Bu tayfa, müasir nəsillərin yaddaşında qalan XIV əsrin ikinci yarısı, XV əsrin birinci yarısında yaşamış Hacı Əlinin törəmələridi. Hacı Əlidən sonra onun davamçısı böyük oğlu Hacı İbrahim olubdu. Hacı İbrahimin böyük oğlunun adı yenə Hacı Əli olubdur ki, o da ailə qurub evlənib və böyük oğluna atasının adını qoymuşdu. İstər Hacı İbrahimdən əvvəl, istərsə də ondan sonra gələn bu tayfanın törəmələri Əli soyadını bu günə qədər yaşadırlar. Bu nəslin nümayəndələri böyük və kiçik mülkədarlardan ibarət olublar. Hacı İbrahimdən sonra onun oğlu Hacı Əli, tanınmış bir şəxsiyyət kimi tarixin və yaşlı nəslin yaddaşlarında qalmışdı. Bugünkü Budaqlının Hacıalılar tirəsi Hacı Əlinin övladları və onun oğul-qızlarından törəyən nəslin nümayəndələridir. Çünki, bu tirələrdə elə bir adam yoxdur ki, bir-birinə qan qohumu olmasın. Hacı Əlinin iki həyat yoldaşından altı oğlu, dörd qızı olmuşdur. Hələ lap qədim zamandan Hacı Əli dövründən başlayaraq Budaqlı tayfasında Azərbaycanın müstəqilliyinə, şura hökuməti gələnə qədər tayfanın kiçik mülkədarlara aid olan vergiləri tayfanın başçıları tərəfindən ödənilərdi və sonradan ca-

maatdan bu vergiləri tədricən hissə-hissə olaraq yığardılar. Bu tayfanın Hacılarının səxavətini görən başqa tayfalardan olan adamlar işləmək üçün öz güzəranlarını bu tayfada tapırdı. Hacılar heç zaman, nökərlərin, qaravaşlarının haqqını kəsən olmamış, əksinə nökər naiblərin qayğısını çəkmişdilər. Hacı Əli öz sağlığında böyük oğlu Astanı həcc ziyarətinə göndərmiş, özündən sonra tayfaya Hacı Astan başçılıq etməyə başlamışdı. Hələ əsrlər qabaq bu tayfanın Hacıları, bəyləri var-dövlət sahibi olduqları üçün, onların mülkləri miras formasında özlərindən sonra gələn nəsillərə ardıcıl olaraq adlamışdı. Hacı Əlinin də varı, mülkü elə atası Hacı İbrahimdən qalmışdı. Çox güman ki, Hacı İbrahimin atası, babası varlı mülkədarlar olmuşdular. Ata-babadan qalan mülklər ya varislər arasında bölünər və yaxud bir təsərrüfatda idarə olunurdu. Elə buna görə də tayfada heç zaman mülk davası olmayıbdı...

Budaqlı elatı əvvəli qədim köklərdən süzülüb gəlməklə, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Budaqlı elatının ağsaqqalı Hacı Qasımın ətrafında sıx birləşmişdilər. Dövrün bu zamanında demək olar ki, aran və yaylaqlarda torpaq mülkiyyəti Hacı Qasıma məxsus idi. Ancaq onun ətrafında olan tayfanın bütün sakinləri bu torpaqdan yararlanırdı. Düzdür, bu insanlar böyük mal və mülkə sahib olmasalar da, kiçik heyvandarlıq təsərrüfatları Hacı Qasımın sayəsində inkişaf edirdi. Hacı onların heç birinə belə, hədd qoymurdu ki, heyvanı nə qədər saxlamaq lazımdır. Hər kəs bacardığı qədər Hacı Qasımın qoyun sürülərinin içərisində öz şəxsi heyvanını saxlaya bilirdi. Bu kimi hallar budaqlı Hacılarının nüfuzunu artırmış, başqa tayfalardan olan tərəkəmələr həmişə onun yanında işləməkdə maraqlı idilər...

## TANINMIŞ EL AĞSAQQALLARI

### HACI ASTAN

**Hacı Astan Hacı Əli oğlu,** atadan qalan mülkün əsl sahibi olmaqla öz tayfasını idarə edərək, el ağsaqqalı kimi camaatın rəğbətini qazana bilmişdir. Atası öləndən sonra subay qalmış qardaşlarını evləndirmiş, bacılarını ərə vermişdi. Hacılar tayfasından qızlar ərə gedəndə özlərinə məxsus o zamanın dəbinə uyğun olaraq gözə çarpan dərəcədə cehiz aparardılar. Gəlin köçən qıza yaraşıqlı bir madyan at bağışlayıb, onu bəzəyərdilər. Ona görə madyan at verərdilər ki, həm Madyan atlar döl verəndi, həm də xanımları ayğır atlara mindirməzdilər. Hətta güclü axan çaydan xanımları keçirəndə onların atının yəhərin alıb erkək atın belinə qoyub sonra ata mindirib çayı keçirərdilər. Hədiyyə olunan atın yəhəri, yüyəni, noxtası və qamçısına qədər təzə olmalıydı. Təzə yorğan-döşək dəsti, yastıq-mütəkkə düzəldilər, təzə toxunmuş bir cüt farmaşlara qabğarıb çatardılar zınqırovlu dəvənin belinə. Farmaşların üstünə xalça, palaz və kilim döşəyib, cehizlik qab-qacaqları da ortasına yığardılar. Gəlini ata mindirib tərkinə bir oğlan uşağı otuzdurardılar. (Gəlin minən atın tərkində oğlan uşağının oturmasının da öz mənası var. Bu o deməkdir ki, gəlin qeyrətli oğul doğmalı və qeyrətli həyat yoldaşına arxalanmalıdır) Gəlin qabaqda, dəvə onun arxasınca və qabağında keçi olmaqla xeyli qoyun-quzu verərdilər. Verilən xırda buynuzlu heyvanların içində bir damazlıq qoç olmaqla qalanları balalı qoyun olardı. Gəlin köçən qızı bir ay müddətində ailəsi və yaxın qohumlarıyla birlikdə qonaq ça-

ğırıb ayaq açdı edərdilər. Bu zaman gəlinə balalı sağmal inək, bəyə və gələn qonaqların hər birinə bahalı ənam verilərdi. Ata evindən köçən gəlin, valideynləri tərəfindən qonaq çağrılmayana qədər ata evinə ayaq açmazdı. Hacı tayfasından gəlin köçən qızlar həmişə bu dəbdəbədə gəlin köçüblər...

Hacı Astan, ətrafında və himayəsində olan ailələri heç zaman özündən narazı salmamışdır. Elin-obanın qeyrətini çəkən kişi olub. Hacı Astan həmişə camaat içində, ətrafında olanlara deyərdi:

-Kişiyə sifət gözəlliyi o qədər də lazım deyil, gözəllik qadına yaraşır.

-Kişi namuslu, qeyrətli, dediyi və verdiyi sözün üstündə durmalı, öldüyü günə qədər şəxsiyyətinə hörmət etməlidir.

Hacı Astanın ətrafında istər öz tayfasından, istərsə də başqa tayfalardan olan sağlam düşüncəli, özünü və sözünü bilən qeyrətli kişilər çoxuydu. O zamanlar oğurluq igidlik sayılsa da Hacı bunu xoşlamaz və deyərdi:

-Kişi haram tikə yeməz, oğurluq igidlik sayılsa da haram sayılır. Özünü igid sayan kişi, oğurluğa gedəndə at oğurlamaz, çünki at və papaq kişinin namusu sayılır.

At oğurluğu ilə qadın əşyaşı oğulanardısa bu qan davasına çevrilə bilərdi. Elə buna görə də deyərdilər:

- Oğru olanda da gərək kişi kimi oğru olasan.

Hacı Astanın bir neçə övladları olmasına baxmayaraq övladları uşaq vaxtı dünyasını dəyişmiş, yalnız dörd oğlu, iki qızı qalmışdır. Onun Məşədi Qasım adlı oğlu gənc yaşlarında dünyasını dəyişmişdir ki, cavan rəhmətə getmiş əmisinin adını Hacı Qasım yaşatmışdı. Hacı Astanın dörd oğlu, iki qızı olubdur.

**Oğlanları: Hacı Alı, Hacı İsmayıl, Məşədi Qasım, Kərbəlayi Rüstəm, qızları: Minə, Zeynəb,**

Hər üç qardaş eyni əsrin adamları olduğu üçün Hacı Alı öz böyüklüyünü saxlamış, (Həm də böyük qardaş kimi) ata mülkünə sahiblik etmişdir. Budaqlı tayfasının əsas inkişafı da bu Hacıların dövründən başlayır.

Tirələrdən asılı olmayaraq, tayfanın başçıları ardıcıl olaraq aşağıda adları çəkilən Hacılar olmuşdur ki, bu tayfa Hacı Alılar (Hacıallar) adı altında bu günə qədər gəlib çıxmış və hazırda bir neçə bölgədə (İmişlidə, Beyləqanda, Füzulidə, Dağlıq Qarabağda, Zəngəzur mahalında, Qubada, Qusarda, Xaçmazda) yaşamışlar. Respublikanın digər bölgələrində də pərakəndə halında Budaqlı elatından yaşayanlar çoxdur.

Hacıalılar tayfasının soyadları babalarından gəlmədir ki, bu nəslin yaxın qolu olan Hacı Əlidən başlayır. Hacı Alıdan sonra gələn nəsillərdə isə bu soyad müasir babaların adına dəyişərək, Əliyevlə bərabər Qasımov, Abdullayev, İsmayılov, soyadını daşıyırlar.

Burada Hacıalılar sözü əslində Hacılar sözündən yaranıb ki, bu tayfanın əsas simaları Məkkə ziyarətində olmuş, öz övladlarını ardıcıl olaraq Həcc ziyarətinə özləri ilə aparmış və yaxud göndərmişdilər. Beləliklə yetişən nəslin hər qolunda Hacı olduğu üçün Hacılar tirəsi kimi tanınmışdılar. Göründüyü kimi, bu tirə başçılarının başında Hacı Əli dayanıb ki, bu günə qədər bu tirənin adamları hələ də Əliyev soyadını daşıyır. Hacı Əli, XV-XVI əsrdə yaşamış böyük mülkə, vardövlətə mənsub olan tanınmış mülkədar olub. Təbii ki, bu nəsildən olan insanlar ağsaqqalların hörmətin gətirmiş, öz yaşayış tərzlərini layiqincə qura bilmişdirlər. Hacı Əlidən

sonra onların var-dövlətləri silsilə formasında özündən sonra gələn oğlanlarına və nəsillərinə miras kimi ötürülmüşdü. Bu var-dövlət Hacı Əlinin oğlu Hacı Astana, ondan sonra isə Hacı Alıya, Hacı İsmayıla, Kərbəlayi Rüstəmə və digər oğlanlarına miras olaraq qalmışdı. Yaşca böyük olan Hacı Alı ömrünün sonuna kimi Budaqlı tayfasının sayılan, sözü keçən başçısı və ağsaqqalı olmuşdur. O, ömrünün ahıllıq dövrünə çatanda tayfanın ağsaqqallığını qardaşı Hacı İsmayıla tapşırmışdı. Hacı İsmayıl öz növbəsində qardaşı oğlu Hacı Qasımı qabağa çəkmiş və Hacı Qasım hələ gənc ikən böyük bir elat tayfasının ağsaqqalı kimi tanınmışdır...

## HACI ALI

Budaqlı tayfasında Hacı Astanın böyük oğlu Hacı Alı təxminən 1820-1890-cı illərdə mahalda sayılan bəy idi. O, təsərrüfatın bütün sahələrinə nəzarət edirdi. Onunla bərabər Hacı İsmayıl da təsərrüfatı tam nəzarətdə saxlayırdı. Yaylaqlarda otlaqların seçilməsi, el köçünün təşkilatçılığı, oba arana dönəndə payızdaqların qorunması, qışlaqda yataqların çəkilməsi, qoyun küzlərinin, vanaların tikilməsi, dəlmələrin qazılması bir sözlə qış hazırlıqları ona baxırdı. O, verdiyi tapşırıqla yanaşı görülən işləri həmişə öz nəzarətində saxlayan adam idi. Heyvandarlıqdan yaxşı başı çıxırdı.

Hacı Alı öz tayfasından olan Xatın xanımla evlənib ailə qurub və onların beş oğlu, iki qızı olubdu. O, övladlarını yüksək səviyyədə böyütmüş, böyük oğlu Qasımı Həcc ziyarətinə göndərmişdi. Hacı Alının həyat yoldaşı Xatın dünyasını dəyişdikdən sonra Kələlayə Bədirnisə adlı xanımla evlənmiş, Şirin adlı bir oğlu olmuşdu.

**Oğlanları: Hacı Qasım, Baxış, Abdulla, Səfəralı, Alıhüseyn, Şirin, qızları: Telli, Güllü.**

Budaqlı elatının yaylaq və qışlaq qonşuları Hacılı, Tanrıqullar, Murtulu, Talıbxanlı, Əliqulular, Boşçalılar, Sarıxanlı, Buludlu Muradxanlı və digər tayfalar idi. Hacı Alı hələ gəncliyindən Hacılı tayfasında bəylik nəslindən olan Ağahəsən bəylə dostluq və yoldaşlıq edirdi. Ağahəsən bəy nəinki Hacılı tayfasında, həm də tərəkəmə elatında çox hörmətli bəylərdəniydi. Hamı onu sözünün ağası və qeyrətli bəy kimi tanıyırdı. Bu iki bəyin dostluğu da elə cavanlıqdan başlamış və iki tayfanın dostluğuna çevrilmişdi. Onlar bir-birinə inanan və bir-birinə arxa duran adamlar olmuşdu. İstər Ağahəsən bəy, istərsə də Hacı Alı gəzməyə gedəndə, səfərə çıxanda həmişə bir yerdə gedib, bir yerdə gələrdilər. Onlar at minib Göyçə, Basarkeçərə, Naxçıvana səfərlərə gedərdilər. El şənliklərində, toylarda at çapıb, gərdək qaçırmaqda çox məşhur idilər. O dövrdə obaya təzə gəlin gələn zaman, igid oğlanlar at çapar, at belində müxtəlif idman hərəkətləri edər, atı çapa-çapa, atdan düşüb-minərdilər. İgid cavanlar atın qarnının altından keçib, şücaət göstərər və təzə gəlinin toy gərdəyini özündən qabaq bəy evinə çatdırıb, toy sahibindən qiymətli ənam alardılar. Bunun üçün igidliklə bərabər atın da sürətli qaçması vacib şərtlərdən biri idi. Belə toyların birində bu iki dost eyni vaxtda gərdəyi birlikdə oğlan evinə çatdırmış və hər ikisi atdan eyni vaxta düşüb gərdəyi təhvil verib ənam almışdır. Elə o gündən də bu cavanlar dost olmuş, bir birinə arxa çevirmişdilər. Hacı Alının Qarabağ at cinsinə mənsub qəmər atı varıydı. Bu, at demək olar ki, ilxının gözü idi. Hacı da bu atı sığallı gəlin kimi saxlayardı. Atın yəhər-yüyən və noxtası xüsusi sifarişlə düzəldilmişdi. Atın belinə minəndə at dal ayaq-

ları üstə qalxıb kişnəyər, cilovunu saxlamaq mümkün olmazdı. Hacının qamçısı da (şallaq) elə atına yaraşan qotazı ilə diqqəti özünə çəkən qamçıydı. Bu qamçı zövqlə köşədən hörülmüş, sapı bəzəkli, tutacağı şirmayidan olmaqla rəngli sədəflərdən hazırlanmışdı. Şirmayının başlığında biləyə keçirmək üçün xuram kəndirdən xüsusi bağ hazırlanmışdı. Ağalar, bəylər çox zaman atdan düşəndə və yeriyəndə qamçılarını xurom çəkmələrinin boğazına taxardılar.

İllər zaman-zaman arxada qalmış, bu gənclər ailə qurmuş, ailə, uşaq sahibi olmuşdular. Hacı Alının böyük övladı oğul, Ağahəsən bəyin böyük övladı gözəl bir qız idi. Onların hər birinin başqa övladları da dünyaya gəlmişdi. Hacı Alının altı oğlu iki qızı, Ağahüseynin isə iki oğlu, iki qızı varıydı. Ayrı-ayrı tayfada yaşayan Ağahəsən bəylə, Hacı Alının dostluğu nəinki, davam etmiş, hətta bu dostluq qohumluğa çevrilmişdir. Onların dostluğu, qohumluğu iki tayfanın münasibətinə də müsbət təsir göstərmiş və qohumluq əlaqələri genişlənmişdir. İstər Hacı Alının, istərsə də Ağahəsən bəyin bir-birinin obasına qonaq getməsi toy-bayram kimi qarşılanardı. Hansı tərəfdə toy, şənlik olardısa, o məclisdə onlar yuxarı başda qoşa əyləşərdilər. Cavanlar qonaqların qabağına qaçar, bir nəfər qonağın atının başın tutar, atın yəhərini alıb rahatlayar, bir nəfər isə onu məclisə qədər ötürərdi. Məclisə daxil olan hər bir kəsə hörmət, ehtiram göstərilərdi.

Hələ, Hacı Qasım və Məşədi Bəyaz uşaq olan vaxtlar idi, onlar öz uşaqlıq dünyasını yaşamaqla məşğul idilər. Günlərin birində el yaylaqda olan vaxtlar Ağahəsən bəylə Hacı Alı Naxçıvan şəhərindən bazarlıqdan gəlirdilər. O vaxtlar həftə bazarlıq deyilən bir şey varıydı ki, elat camaatı çox zaman bazarlıq üçün ya Göyçəyə, ya da Naxçıvana gedərdilər. Bu

səfərlərin birində yolda Hacı Alı söz arası Ağahəsən bəyə demişdi:

- Bəy, istəyirəm sənə bir söz deyəm amma bilmirəm heç yeridi, ya -yox, ancaq deyəcəm.
- Hacı buyur nə sözdü, eşidirəm.
- Düzü heç yeri deyil, bu sözü ikilikdə deyirəm.

Hacı Alı bir az susduqdan sonra, boğazını təmizləyib utancaq səslə dedi:

- Bəy, biz neçə illərdi dostluq edirik, aramızda bir dəfə də olsun söz-söhbət olmayıb, bu gün varıq, sabah yoxuq.
- Ay Hacı, nə demək istədiyini açıq de görüm nə olub ki, o dünyadan danışırsan, hələ bizim görməli xoş günlərimiz qabaqdadır, sözünün canını de, biz həmişə bir birimizə dayaq olmuşuq.
- Düz deyirsən bəy, elə mən də onu demək istəyirəm.
- Eşidirəm, Hacı.
- Bəy, uşaqlarımız yavaş-yavaş böyüyür, istəyirəm bizim dostluğumuz gələcəkdə qohumluğa çevrilsin, bizdən sonra malımız-mülkümüz başqasına qismət olmasın, düzü Bayazın böyüməsini səbirsizliklə gözləyirəm.

Ağahəsən bəy, Hacının hansı simə vurduğunu həmin anda anladı, atının yüyənini bir az çəkib atı sərbəst yeriş halına gətirdi və üzünü Hacıya tutaraq asta səslə dedi:

- Hacı, uşaqlar hələ balacadı, qoy bir az böyüsünlər, özlərini başa düşsünlər, sonra qismət Allahdandır.
- Elə mən də bunu demək istəyirdim bəy, bir qardaş kimi bu söz aramızda qalsın. Mənim yeganə arzum budur ki, Bəyaz mənim gəlnim olsun, onun gözümün üstündə yeri olacaq.
- Ay Hacı, elə demə o sənin qulluqçun ola bilər, bilirsən ki, səninlə qardaş kimiyəm, neçə illərdi çörək kəsmişik, haq-

qı-salamımız var, bir söz demirəm, verək zamanın ixtiyarına, İnşallah yaxşı olar.

- Sağ ol Ağahəsən bəy, əslində əmioğlu ilə əmiqızının kəbinini mələklər göydə kəsib deyərlər, mən səninlə dostluq, qardaşlıq etməkdə heç vaxt yanılmamışam.

Hacı Alı, Ağahəsən bəylə aralarında olan bu söhbəti evə gələndə həyat yoldaşı Xatın xanıma demişdi, amma tapşırmışdır ki, bu söz vədəsi çatana qədər ağzından heç harda çıxmasın. Zaman keçdikcə böyük ailə başçısı olan Hacı Alının, oğlanları, qızları böyüdü ailə qurub ev sahibi oldular.

İki dost Hacı Alı və Ağahəsən bəyin arasında olan bu söhbət bir neçə il keçdikdən sonra öz bəhrəsini verməkdə idi. Hacı Alının məqsədi el adətiylə elçi gedib, dostu Ağahəsən bəyin gözəl və yaraşıqlı qızı Bəyaz xanımı oğlu Hacı Qasım üçün gəlin gətirmək idi.

Ağahəsən bəy elat tayfalarında sözü keçən adam idi. Onun iki oğlu, iki qızı varıydı.

Oğlanları: Baxış bəy, Əhəd bəy, qızları: Məşədi Bəyaz, Məşədi Qönçə.

Böyük oğlu Baxış bəy vurub-tutan dəlisov cavan oğlanıydı. O, Nikolay hökumətinə qarşı üsyan qaldırmış, bunun nəticəsində də qaçaq düşmüşdü.

Elat tayfaları toy şənliklərini çox vaxtı yay fəslinə salardılar ki, bu vaxtlar tayfalar dağda, yaylaqlarda olardılar. Təbiətin ən gözəl güllü-çiçəkli dövrü, yaşıl çəmənliklərin könül oxşayan vaxtı cavanlara toy çalınardı. Hacı Qasım Məkkə ziyarətindən geri dönmüş, o artıq yetkinlik yaşına çatmış, enli kürək, hündür bədən, qalın bığları ətli sifətinə yaraşan bir oğlan olmuşdu. Hələ Hacı Alı, el dağa qalxanda həyat yoldaşı Xatın xanıma demişdi:

-Ay arvad, sən öz hazırlığını gör, yaylağa çıxan kimi Qasıma toy edəcəm.

-Əşi, bəlkə gözləyək Bəyaz bir az da böyüsün.

-Arvad, Bəyaz böyüyüb artıq məşədi olub, Qasım da şükür Allaha daha Hacıdır, nəyi gözləməliyəm.

-Hacı məsləhət sənindi, necə istəyirsən elə də olsun.

-Deyirəm bir Ağahəsən bəylə də söhbət edim, oda işdən agah olsun.

- Allah özü xeyir eləsin ay kişi dedi, Xatın xanım.

Köçəri həyatı nə qədər maraqlı olsa da, o qədər də çətinlikləri olardı. Köç vaxtı hər gün mütəmadi olaraq yorğan-döşəkləri farmaşlara qavğarmaq, qab-qaşıqları xurcunlara doldurmaq, çörəkləri tavakqabına yığmaq, alaçıq çubuqlarını çatmaq, yüngül şeyləri heybələrə doldurmaq demək olar ki, hər gün təkrar olunurdu. Tərəkəmələrdə tuluqlar olurdu ki, qatığı yarıya qədər iki tuluğa doldurub, bir azda üstünə su töküb ulağın belinə aşırardılar. Mənzil başına çatana qədər ulağın belində tuluqda olan qatıq, yağa və ayrana çevrilirdi. Tərəkəmə köçündə ancaq yük heyvanlarından dəvədən, atdan, qatırdan, ulaqdan və öküzlərdən istifadə olunurdu. Hacı və bəylər yük arabalarından istifadə edərdilər. Tərəkəmə adət-ənənəsinə əsasən xanımlar həmişə madyan atlar minərdilər. Bu minvalla köçərilər 8-10 günə yaylağa gedib çata bilirdilər. Çox hallarda alaçıqlar 3-4 mənzil qabağa gedər, heyvan sürüləri arxadan gəlib çatardı...

Elat tayfaları, yaylağa çıxan tərəkəmələr, qoyun sürüsünün arxacı ətrafında alaçıqlar qurmuşdular. Yaylağa yeni qalxmış elat camaatı hərəsi bir işlə məşğul olur, kimi arandan gələn yorğan-döşəkləri çırpıb evə yığır, kimi köç gələndə çirklənmiş paltarları, palazları büllur kimi axan çayın suyunda yu-

yub çəmənliklərə sərib qurudurdular. Çobanlar uzun yol gəlmiş sürünü gözdən keçirir, nalı sökülmüş atların nalını bərkidərdilər, öküz arabalarını təmir edirdilər, Tərəkəmə dilində desək hamının əl-ayağı bir yerə yığışmışdı, yol yorğunluğu artıq geridə qalmışdı. El-obanın da ürəyində kaş bir toy olaydı arzusu yaşayırdı.

Hacı Alı, elə ki, əl-ayaq yığışdı, bir neçə tayfa ağsaqqallarını toplayıb məqsədini bildirdi və onlarla birlikdə Ağahəsən bəyin obasına at sürdülər. Hacı Alı bilirdi ki, ağır yola yüngül adamlarla çıxmaq olmaz. Elə ona görə də el-obada sayılan, tanınmış ağsaqqallarla elçi gedirdi. Hacılı tayfasında qonaqları yüksək səviyyədə qarşıladılar, atlarının cilovunu tutub hörmət göstərdilər. Tərəkəmələr həmişə oturanda heyvandan, köç gedən zamanı yaranan çətinliklərdən, başlarına gələn yol əhvalatlarından, binədən, köçdən danışardılar. Xan Təhlə tayfasından yaşca bunlardan böyük olan Hacı Müslüm oğlu Musa boğazını təmizləyib dedi:

- Ay kişilər, bu sözləri qoyun bir yana görək.

Bu zaman aralıqda ani olaraq bir sükut yarandı. Oturanların hamısının diqqəti Musa kişiyə yönəldi.

- Ağahəsən bəy, biz həmişə sənin qapını xoş niyyətlə açmışıq, süfrəndə çox çörək kəsmişik bu öz yerində, sənin Hacı Alı ilə yaxın dostluğun da var, bunu da bilirik, ancaq bu gün başqa niyyətlə qapına gəlmişik. Musa kişi təzə yandırdığı eşməsindən bir qüllab sümürüb tüstüsünü burnundan havaya buraxdıqdan sonra özünü tarazlayıb əlavə etdi:

- Bizim bugünkü gəlişimizin məqsədi başqadır, sizdən bir diləyimiz var bəy, məqsədimiz el adətiylə, Allahın şahidçiliyi, Peyğəmbərin buyruğu ilə qızın Məşədi Bəyazı, Hacının oğlu Hacı Qasım üçün elçiliyə gəlmişik. Belə düşünürəm ki,

bu qohumluq sizin dostluğunuza da uğur gətirə bilər. Maşallah olsun hər ikisi gözümüzün qabağında böyümüş qüsursuz gənclərdi. Bir az fikirə getdikdən sonra Ağahəsən bəy əlindəki uzun təsbehinin xırda muncuqlarını barmaqlarının arasında sıxaraq qoşalayıb çevirə-çevirə dedi:

- Musa, düzünü deyim ki, bu söz bizim gənclik dövrümüzdə ikimizin arasında olmuşdu. Mən də bildirmişdim ki, uşaqlar hələ balacadı böyüsünlər özlərini başa düşsünlər. Vaxt da elə gəlib keçib ki, elə bil bu söz dünən olub. Nə deyirəm, biz onsuz da Hacıynan bir evli kimiyik, bir birimizi yaxşı tanıyan adamlarıq, bir söz demirəm Allah xeyir versin, xoşbəxt olsunlar. Oturan qonaqlar hamısı bir ağızdan:

- Allah xeyir versin! Xoşbəxt olsunlar!- dedilər.

Qədim el adətinə görə elçi gedən oğlan evi bir yaylığın ucuna bir ədəd də qızıl üzük bağlayıb qoyardılar ciblərinə, işdi elçilik həmin gün baş tutsa üzük qızın barmağına taxılar, yaylığı isə başına örtərdilər. Fürsətdən istifadə edən Hacı Alı kişi qoltuq cibindən Xorasan yaylığını çıxardıb dedi:

- Ay Leyli bacı, bu yaylığı mənim gözəl gəlnimin başına ört və bu üzüyü də Barmağına taxarsan. Bu gündən o mənim əziz balamdır. Məclisə şirinçay gəldi içdilər, şirniyyat qoyuldu, qızardılmış əmlik əti plovun üstündə süfrəyə düzüldü. Ağsaqqallar xörək yeyə-yeyə toyun vaxtını da danışdılar ki, bu on günlükdə toy məclisin qursunlar. Bəli, belə də oldu hər iki tərəf başladı toya hazırlaşmağa.

Hər iki elat tayfalarında böyük canlanma varıydı. Hacı Alı Göyçə mahalından iki dərzi gətirtmişdir ki, təzə bəylə gəlinə toy paltarları tiksinlər. Fürsətdən istifadə edən qız-gəlinlər hərəsi toyda geyinmək üçün bir dəst təzə paltar tikdirir, kimi kofta, kimi don biçdirirdi. Belə zamanlar adətən dərzilər gə-

ləndə özləri ilə məxmər, qirbişin, atlas parçalar gətirərdi. Kişilər, qadınlar özlərin bəzəyərdilər. Obanın qadınları hazırlıq işləri görür, toy yuxası yayan kim, nehrədə yağ çalxayan kim, hər kəs öz bacardığı işin qulpundan tutub iş görürdülər.

Budaqlı tayfasının yaylağı Çaldağım qoynu, Pəri çınqılının ətəyi Muxtar çayının gözünə qədər uzanıb gedən böyük bir ərazidə yerləşirdi. Muxtar çayının dərə aşağı axan suyunun xüsusi gözəlliyi adamı özünə heyran edirdi. Sular daşlara, iri qayalara zərblə çırpılır, özünə məxsus səslər çıxarır, hay-haray salıb, qışqıra-qışqıra elə bil ki, harasa tələsik axıb gedirdi. Dağlarda əriyən qarların hesabına Muxtar çayının suyu birə-beş artmışdı. Çal dağın qoynundan gur və göz yaşı kimi axan Muxtar bulağı Muxtar çayının suyunu xeyli artırırdı. Muxtar bulağı Budaqlı tayfasını içməli su ilə tam təmin edirdi. Çaldağın qoynundan çıxan bu bulağın öz xüsusi gözəlliyi var idi. Çaldağın yaşıl yamacları zövq oxşayır, yamaclara yayılan qoyun sürüləri ota darışmışdı. İnəklərin mələşməsi, atların kişnəməsi Pəri çınqılının böyük qayalarına dəyib əks-səda verirdi. Bu dağların zirvəsi, dərin dərələrin mənzərəsi insanı özünə məftun edirdi. Burada bitən quzuqulağı, kəklikotu, yemilik, baldırğan, qantəpər, gicirtkən, əmənkömənci, ələyəz və qırxbuğumun nə qədər müalicəvi əhəmiyyəti olduğunu biləndə, adam bu dağlardan ayrılmaq istəmirdi.

Hacı Alı, Muxtar çayının qırağında çadırdan böyük iki toy mağarı tikdirmişdir ki, bunların biri bəylər, digəri xanımlar üçün hazırlanmışdı. Mağarlar başdan ayağa qədər Təbriz xalçaları ilə bəzədilmiş, mütəkkə, döşəkçələr və yastıqlar döşənmişdi. Bundan başqa uzaqdan gəlmiş, gecə qalmaq istəyən qonaqlar üçün çayın qırağında bir neçə alaçıqlar tikilmiş, içərisinə isə işlənməmiş yorğan-döşəklər sərilmişdi. Hacının

dəvətini alan qonaqların ardı-arası kəsilmirdi. Hacı Göyçədən üç dəstə saz aşığı və zurna çalanlar gətirtmişdi. Aşbazlar toy qazanlarının başına fır-fır fırlanır, böyük teştlərdə soyutma, quzu bozartması məclisə daşınırdı. Qazanlar boşaldıqca yenisi ilə əvəz olunurdu. Erkəklər qazanda bişir, quzular kababa çəkilir, əmliklər plovun üstündə məclisə paylanırdı. Hacı Alı yeddi gün, yeddi gecə oğlu Hacı Qasıma toy çaldırdı, Ağahəsən bəyin nazlı, qəmzəli qızı Məşədi Bəyaz xanımı evinə gəlin gətirdi. Elat tayfasının bütün adlı-sanlı bəyləri, xanları bu toyda iştirak etdilər. İllər keçməsinə baxmayaraq, bu toyun sədası qulaqlarda qalmış, uzun müddət dillərdə əzbər olmuşdu...

# HACI QASIM

## EL AĞSAQQALI
## BUDAQLI HACI QASIM
## 1850-1936



Hacı Qasım Hacıalılar tayfasında yüksək ədəb ərkan, nüfuza malik olan, böyük mal-mülkə sahib Hacı Alının ailəsində (1850-1936) dünyaya göz açmışdır. O, hündür bədənli, enli kürəkli, qəhvəyi gözləri, enli sifətli, nurani, belində qızıl xəncəri, boy-buxunu yaraşıqlı olmaqla, Allah ona özünə məxsus xüsusi bir gözəllik bəxş etmişdi. Onun sifətindən peyğəmbər nuru ələnirdi. Hacı Qasım öz alicənablığı, ibadət və səxavəti ilə seçilən, dinə bağlı, üç dəfə Həcc ziyarətinə getmiş, Hacılar-hacısı adını almış el ağsaqqalı olubdur. O, Qarabağ, Mil, Muğan zonasında sözü keçən nüfuzlu bir el ağsaqqalı kimi tanınan mömin insan idi.

Hacı Qasım istər məclis olsun, istərsə toplantı və yaxud yığıncaqlara gedəndə hamı ayağa qalxar, ona ehtiram göstərərdilər. Hacı kimliyindən asılı olmayaraq hamıyla əl görüşər, halını xəbər alardı. Bəzən adamlarla görüşəndə qarşısında olan şəxsin ehtiyacını başa düşər, onların dərdindən halı olardı. Hacı sanki, insanların qəlbini, daxili dünyasını qarşısında duran adamın baxışlarından aydın oxuya bilirdi. O, həmişə kasıblara qayğı göstərib, onların təmənnasız olaraq ehtiyacını ödəyibdir. Hacının on min başdan çox qoyun-quzu sü-

rüləri, naxırları, dəvə gəllahı, at ilxısı və böyük torpaq sahəsi var idi. Bununla belə, Hacı çox əliaçıq, qonaqpərvər, elin xeyir-şərini yola verən, imkansızlara əl tutan, qan davasını yatızdıran ağsaqqal olmuşdur. Elat tayfalarında onun bir sözü iki olmamışdır.

Hacı Qasımın hörməti və sözü yuxarı dairələrdə də yetərincə eşidilirdi. O, elat tayfalarında yüksək nüfuza malik olmaqla bərabər, dövlətlə hesablaşan, Dövlətin tələblərini yerinə yetirən, vergiləri vaxtında verdiyinə görə mülkədarlar içərisində sayılan çox nüfuzlu insan idi. Azərbaycanın Mil-Muğan zonası xanlıq dövründə Qarabağ xanlığına tabe idi. Bir zamanlar yığılan vergilər xanlığın göstərişi əsasında ya Qarabağ xanlığına, ya da Çar Rusiyasının Gürcüstan Quberniyasında oturan vergi məmurlarına təhvil verilirdi ki, bu da çar Rusiyasının göstərişi ilə həyata keçirilirdi. XIX əsrin sonlarında Hacı Qasım Tiflis şəhərinə çağırılmış, ona yüzbaşı vəzifəsi həvalə edilmişdi. O zamankı qanunla desək, Hacıya Tiflis şəhərində stol verilmişdi. Yüzbaşı vəzifəsi yüz para kəndin başçısı deməkdir. Bu da Mil-Muğan və aran Qarabağ zonasını əhatə edirdi, indiki Bərdə şəhərindən Saatlı rayonunun Comuşlu kəndinə qədər gedib çıxırdı.

Hacı Qasımın mərdi-mərdanəliyi, qürurlu olması, sözünün yerini bilməsi, görəcəyi bütün işləri yüz ölçüb bir biçdikdən sonra qərar verməsi, dediyi sözün ağası olması ona kökündən, ata-babalarının qanından keçmişdir. Allah ona o qədər səbr vermişdir ki, o əsəbləşib ağzından kiməsə acı söz deyib təhqir etməmişdir. Əsəbləşəndə bir dəfə "Allahu-Əkbər" deyərdi. Çünki, Hacı namaz qılan, oruc tutan ibadətlə məşğul olan mömin adam idi.

Hacı Qasımın ağıllı və təmkinli olması həmişə atası Hacı Alının diqqətini çəkirdi. Elə Hacı Alı da, qardaşı Hacı İsmayıl kimi onun yaxşı gələcəyini görürdü. Hələ, gənc yaşlarında olarkən müxtəlif  tədbirlərdə, el yığıncaqlarında Hacı Qasım atası əvəzindən iştirak edir və yeri gələndə öz sözünü deyə bilirdi.

Hacı Qasım istər yaylaqda, istərsə də qışlaqda alaçıq evini çox böyük tikdirərdi. O, qonaqlı-qaralı adam olduğu üçün böyük alaçıq qurdurar, yanları və üstü atma keçələrlə tutulardı, döşəməyə qalın keçələr salınar, üstünə zövqlü Qarabağ xalçaları döşənərdi. Xalçaların üzərinə yumşaq döşəkçələr, mütəkkə və balışlar qoyulardı. Alaçığın içəridən yanlarına bəzəkli xalça və kilimlər tutulardı. Bundan savayı Hacı gələn qonaqların gecə qalmaları üçün ayrı alaçıq tikdirər və onu xüsusi zövqlə bəzətdirərdi. Qonaqlar üçün xüsusi olaraq yorğan-döşək dəstləri təzə farmaşlarda saxlanılardı. Bundan əlavə qonaqlar üçün qab-qacaq dəstləri, təzə süfrələr, ayran və su içmək üçün xüsusi bardaqlar, kasalar olardı ki, bunları Hacı, Təbrizdən gətizdirərdi.

Tərəkəmə elatında qonaqlara xüsusi hörmət olardı. Qonağın qəbul olunmasından tutmuş yeməyinə və içməyinə, gecə yatmaqlarına diqqət göstərilirdi. Hacıların nəsildən-nəslə keçib gəlmiş adət-ənənələri ardıcıl olaraq öz adətini toxunulmaz olaraq özündə saxlayırdı. Onlar ərzağa xüsusi olaraq diqqət yetirirdilər. Bu ərzaqlar xüsusi alaçıqda saxlanılırdı. Düyü və qənd taynan alınardı. Çay, xurma, şirniyyat, ələlxüsus nabat, kişmişi alanda dəvə yükü alardılar. Onların süfrələri qaymaqsız, balsız olmazdı. Göyçədən betonlarla bal gətizdirərdilər.

Günlərin birində Hacı Alı kişi rəhmətə getdi, tayfanın və ailənin ağırlıqları və ağsaqqallığı Hacı Qasımın üzərinə düşdü. Əmisi Hacı İsmayıl sağ olmasına baxmayaraq, qocaldığı üçün bütün ixtiyarı vermişdi qardaşı oğlu Hacı Qasıma. Hacının iti yaddaşı, güclü hafizəsi həmişə onun karına gələrdi. O, bir dəfə görüşdüyü adamı on ildən sonra görsə belə, onun adını deyərdi. Hacı qarşısında dayanan, onunla danışan adamın gözünün içinə baxanda, onun hansı yuvanın quşu olduğunu həmin an anlayırdı.



**BƏY ALAÇIQLARI**

O, heç zaman yalan sevməzdi və yalan danışan adamı da xoşlamazdı. Yaşadığı müddətdə qardaşlar arasında bir dəfə də olsun söz-söhbət yaranmağa imkan verməmişdi. Obasın-

da, tayfasında olan hər ailəyə can yandırmış, öz səxavətini əsirgəməmişdir. Hacı Qasım həmişə deyərdi:

- Yadınızda saxlayın sizə verilən sualın cavabını fikirləşmədən verməyin, bu sizə yanlışlıq gətirər.

Hacı Qasım yanına gələn qonaqları kimliyindən asılı olmayaraq, sona qədər dinləyər və sözünü bir dəfə deyərdi. Hacı sözünü dəyişən, söz gəzdirən, çuğulluq edən və yaltaq adamları özünə yaxın buraxmazdı. Hacı deyərdi dediyim sözləri yadınızda yaxşı saxlayın ki, dostunuzu düşməninizdən ayıra biləsiniz. Bu dediklərimi unutmayın, ömür boyu yaddaşınızda saxlayın. Bu hikmətli sözlər zaman-zaman dahilərin və aqil insanların zəkasından süzülüb gəlmiş kəlamlardı:

-"Yaltaq adam nə tayfa qeyrətini çəkə bilməz, nə də dost arxasında dayanmaz".

-"Namərdlə dostluq etsəniz zərər görəcəksiniz".

-"Sənə kimsə xəbər gətirsə, bil ki, səndən də xəbər aparacaq".

- "Ən təhlükəli düşmən, dost kimi davranandır".

- "Namərdlər özlərin yaxşı göstərər, məqamında yamanlıq etmək üçün".

- "Yaxşı kişilər əli, ələ verər, nakişilər eli selə verər".

-"Ağıllı olan qışqırmaz, qışqıran adamda da baş olmaz".

-"Ocağı köz alışdırar, dodağı söz danışdırar".

-"Əlsiz savaşmaq mümkün olmadığı üçün, elsiz yaşamaq mümkün deyil".

-"Qurd örüşündə ac qalmaz".

-"Saxta gülən insan düzgün əməl sahibi ola bilməz".

Hacı Qasım dönə-dönə deyirdi dediklərimə əməl etsəniz, həyatda peşiman olmayacaqsınız. Nə vaxtsa, cahillik etsəniz bilin, bunun altını çəkəcəksiniz. Hacı Qasım öz doğma elini,

obasını sevdiyi kimi, tayfasına çox bağlı olan insan olub. O, həmişə elinə güvənər, qürurla deyərdi:
-"Dayağın el olsa qanad açarsan, elə güvənməsən dağdan uçarsan".
- "Satqın gələn babasından, satqın köçər obasından".
-"Mərd savaşda sözünü deyər, namərd ancaq özün öyər".
- "Qanan bildiyini danışmaz, qanmaz danışdığını bilməz".
-"Qanmazla yol getmək, cəhənnəmə getməkdən daha ağırdı".

Elə buna görə də onun ətrafında olan dostları ona ehtiram göstərib, hörmətin saxlayardılar. Hacı Nağı, Hacı Talıb, Hacı Qulu, Hacı Cəfər, Hacı Məmməd, Hacı Ağalar, Hacı Hüseyn, Hacı Murad, Hacı İmamqulu, Talıbxanlıdan Kərbəlayi Şükür, Cəbrayıldan Hacı Göyüş, Tanrıqullardan Hacı Eyvaz onun yaxın adamları olub. O, zamanlar Təhlə mahalında yüz əlli nəfərdən çox Hacı, Kərbəlayı və Məşədi var idi. Bu titulda olan insanlar Hacı Qasımı özlərinə ağsaqqal seçmişdilər. Təhlə tayfalarında hər hansı çətinlik baş verərdisə, mütləq Hacıya müraciət edərdilər. Həmin anda məsələ öz həllin yerində tapardı.

Elat tayfalarının özünə məxsus adət-ənənələrinin biri də onların köç mədəniyyətidir. Bu köç iki dəfə, yəni yazda yaylağa və yayın sonu, payızın əvvəli arana köçməkdir. Ələlxüsus elin yaylağa köçməsinə yüksək səviyyədə hazırlıq görülürdü. Bu işlərə müxtəlif adamlar baxırdı və Hacının özü tərəfindən nəzarət olunurdu. Köç üçün alaçıq çubuqlarından tutmuş digər lazımi avadanlıqların alınması, təzə çadırlar, qalın keçələr, çubuq bağlarının hazırlanması, yol azuqəsinin tədarükü, çörək bişirmək, ədvaları almaq, lampa və fənərləri hazırlamaq, lampalara piltə götürmək, maşınka, onun piltəsi, çörək

bişirmək üçün sac, oxlov, dördayaq, ayran tuluqları, qab-qacaqlar, bel (lapatka) sacayağı, farmaş, xurcun, tavakqabı, yük heyvanlarının yüklənməsi üçün sicim, örkən toxunar, palan düzəldilər, çatı hörülər, itlərin yal qazanı, atların yəhəri, yüyəni, noxtası, dəvələrin cihazları, yük arabalarının təkərləri demək olar ki, tam qaydada səhmana salınırdı. Bundan başqa çobanların geyimləri plaş və yapıncı, onların çarıqları təzələnirdi. Hacı Qasım köç zamanı itlərin yemlənməsinə də diqqət yetirərdi. Hər gün itlərə isti yemək, yal pişirib verərdilər. Tərəkəmələrin saxladıqları itlərin hər biri pələng kimi olardı. Bu itlər ayını, canavarı boğurdu. Buna görə də itlərə də xüsusi xidmət göstərilirdi.

Elatın köçü yola düşməzdən əvvəl ehtiyacı olanlara, kimə hansı yük heyvanı lazımdırsa dəvə, at, ulaq, qatır və öküzlə onlar Hacı tərəfindən təmin olunurdu. Bundan başqa xanımlar minmək üçün at ilxısından madyan atlar seçilər, yəhər, yüyənlə birlikdə tayfanın xanımlarının ixtiyarına verilərdi. Hacı Qasım demək olar ki, bütün at ilxısını camaata paylayardı. Elatın köçü başlayanda Hacının tayfasında çətinlik yaranmazdı.

Budaqlı tayfasında olan tirələrin çoxları böyük xüsusi mülklərə sahib deyildilər. Onların əlli-yüzəlli arası heyvanları, üç-dörd baş qaramalı, atları, ulaqları və dəvələri olardı. Budaqlı camaatı Hacı Qasımın ətrafında birləşirdilər. Kimi sağmal qoyun sürülərinə baxardı, kimi subay heyvan sürülərini otarardı və yaxud quzu sürülərinə, at ilxısına, mal-qara naxırına baxardı, kimlər isə dəvə gəllahına və öküzlərə qulluq edərdilər. Bir sözlə hər kəsin öz işi var idi və hər kəs də öz işinin öhdəsindən layiqincə gələ bilirdi.

Hacı Qasım köç başlayanda həmişə köçdən qabaqda gedərdi və köçün düşən yerini təyin edər, heyvanların otlaq məsələsini həll edərdi. Onun ətrafında elatın qoçaq, igid oğlanları olardı. O, zamanlar qaçaq-quldurlar çox olduğundan Hacının ətrafında olanlar silahlı və mahir atıcılar olardı. Yol boyu köçün qabağından arxasına qədər nəzarət olunurdu. Qardaşı oğlanları Şahpələng, Əyyub, qohumları Salman, Ağadədə onun demək olar ki, cangüdənləri idilər və köçün təhlükəsizliyini qoruyurdular.

Muğan, Qarabağ zonasında Hacı Qasıma sataşan adam ola bilməzdi, olsa belə xeyir tapmazdı. Təxminən 1906-ci illərdə belə bir hadisə olmuşdu. Hacının sürüləri yaylağa gedən zaman İrandan keçən quldur dəstəsi "Yelli gədiyi"ndə (indiki Füzuli rayon ərazisidi) sürülərə basqın etmişdilər. Bu zaman özünə düzgün səngər seçən Ağadədə kişi iyirmi nəfərlə təkbaşına atışmış və camaat köməyə gələnə kimi bir baş da olsun quldurlara heyvan verməmişdir. Adamlar köməyə gələnə kimi Ağadədənin patronu qurtarmış, quldurlar onu güllələmişdilər. Bu hadisəni və Ağadədənin ölümünü qəbul etməyən Hacı Qasım Cənubi Azərbaycana keçmiş və quldur dəstəsinin Bəylər adlı quldur başçısı olduğunu öyrənmişdi. Əhər şəhərinin Budaqlı (Budaqlı elatının İranda Budaqlı adlı kəndi var ki, bu kənddə Hacının böyük hörməti var idi) kəndində igid oğlanlarla görüşüb-söhbət aparmış, bildirmişdir ki, quldurlar onun yaxın adamını öldürüblər. Onların başçısı Bəylərin başını gətirən şəxslərə əlli seçmə erkək verəcəm. Üç gün keçmiş quldur Bəylərin başını gətirmişlər. Hacı deyib:

- Qardaş, sözümüz sözdü, seçin əlli erkəyi aparın.

Onlar Hacının sözünə cavab olaraq demişdi:

- Hacı, onsuz da sənin erkəyinin hamısı seçmədi, bir ucdan əlli erkək sayıb götürmüşdülər.
Hacı ona qarşı olan riyakarlıqla heç zaman barışmazdı. Bu kimi hallar həm də onu göstərirdi ki, Hacıya sataşan xeyir tapmazdı.

Hacı Qasım süfrəsi açıq adam olduğu üçün onun yanına gələn insanlar evə dəvət olunur çay içib, çörək yedikdən sonra gəlişinin səbəbini deyərdilər. Hacı yanına gələn adamları kimliyindən asılı olmayaraq naümid yola salmazdı. Hacı Qasım hərtərəfli, dünya görmüş adamıydı. Muğandan tutmuş Zəngəzur, Göyçə, İrəvana qədər onun yaxşı dostları varıydı. Onun ən yüksək keyfiyyətlərindən biri də yaxşı tanıdığı, el-obasında sayılan bəylərin, xanların qızları ilə qardaşlarını, qardaşı uşaqlarını evləndirməsi, qohumluq əlaqələrini genişləndirməsi idi.

Hacı Qasım qardaşı Səfəralıya Laçının Minkənd kəndindən Gülnisə xanımı, digər qardaşı Alıhüseynə Şuşadan Ələsgər bəyin qızı Zibəndə xanımı gəlin gətirmişdi. O, öz bacılarını da qonşu tayfalardan tanınmış ailələrin oğlanlarına ərə vermişdi. Bacısı Telli xanımı Boşçalar tayfasına, Güllünü isə Qərəndihliyə gəlin köçürmüşdü. O, deyirdi:
-Oğlanlarınıza başqa tayfalarından sayılan kişilərin qızlarını alın ki, onlara arxa çevirə biləsiniz. Qızlarınızı isə tanınmış ailələrin övladlarına verin, hətta kasıb olsa da. Hacı deyərdi:
-Hər şey varla, pulla ölçülməli deyil. Elə igid oğlanlar var ki, yüz bəy oğluna dəyər.

Obanın ağsaqqalları, öz yaxınları çox zaman Hacının ətrafında olurdular, hətta şam yeməyini Hacıyla bir yerdə yeyərdilər. Hacı isə hər dəfə dönə-dönə deyərdi:

- Ey, mənim yaxınlarım, qohumlarım, sözünü bilməyən adamla yaxınlıq etməyin, oğrularla dost olmayın, söz gəzdirən, qeybət edən adamlardan kənar dolanın, onlara üz verməyin, öz qeyrətini çəkə bilməyən adama etibar etməyin.

- "Dili uzun olanın ağlı gödək olar, ağlı uzun olanın isə dili gödək olar".

- "Bəd insanın gerçək üzünü saxta gülüşündən tanımaq olar".

- "Demoqoq və çuğul adamları yaxına buraxmayın".

Hacı Qasım namuslu adamlara önəm verər, bu yolda yanlış addım atanları bağışlamazdı. Deyərdi:

- "Namusu itə atarlar, it yeməz, namuslu insan başqasının namusuna sataşmaz".

- "Yaxşı insan yaşadığı el-obanın qeyrətini çəkməlidir".

- "Çalışın yetim qarnı doyurasınız".

- "Yetimə çörək verən Allaha yaxın adamdır".

- "Adam var sözü tez anlayar, adam var sözü gec anlayar, vay o adamın halına ki, sözü heç anlamaya, anlamazla yoldaş olmayın".

Hacı Qasım böyük mülk sahibi olmaqla yanaşı, onun geniş torpaq sahələri olub. Muğan düzü Kür qırağından tutmuş "Şirin Qum"-a qədər və "Təksaqqız" ağacının ətrafları onun qışlaq sahəsi, qoyun sürülərinin arxac yeri olmuşdu. İndiki, "Sarı-Su" adlanan Budaqlılar yaşayan kənd Hacı Qasımın qış yataq yeridi. Haramıda "Nərgiz Təpə", "Qızıl Qaya" Şıvartıya qədər onun yazdaq yeri olmuşdu. Onun yaylaq yerləri də fərqli olurdu. Budaqlı elatının yaylaq yeri "Çalbayır", "Gəlin Qaya" adlanan yerlər onun yaylaqda yazdağı olardı. Burada 15-20 gün qaldıqdan sonra köçərdilər dib yurduna. Bu yaylaq "Çaldağ" olmaqla "Pəri Çınqılından" "Qızılboğaz" dağı-

nın ətraflarını əhatə edirdi. Çaldağın qoynundan axan güclü bulaqların suyundan yaranan çay, Muxtar çayı adlanırdı. Bundan əlavə bu yaylaqda istisu qaynayırdı ki, bunun müalicəvi əhəmiyyəti olduğu üçün o "Qotur istisu" adlanırdı. Dağa təzə çıxanda yazdağı "Çalbayır" yaylağında, yay yaylağı isə əsasən "Çaldağ"-ın bütün ətrafı və "Pəriçınqılı"-nın ətəyi geniş yamaclar olmuşdu.

Hacı Qasım, Füzuli rayon Qızıl Qaya ərazisində böyük meyvə bağları saldırmış, həmin ərazidə İrandan gəlmiş kənkanlara qırx gözlü kəhriz qazdırmış və qırx gözünü də yeraltı tunellərlə birləşdirərək kəhrizin suyunu meyvə bağına çəkdirmişdi. Bundan əlavə həmin ərazidə un dəyirmanı tikdirmişdi. Bu ərazidə yaşayan əhali kəhrizin suyundan və dəyirmandan istifadə edirdi. Hacı Qasım həm öz tayfasını, həm də ətrafda olan tayfaları aylarla Şirvan, Muğan zonalarında dəyirman növbəsi gözləməkdən azad etmişdi. Hamı ona alqış edirdi. O zamanlar dəyirman əhalinin ən ağrılı yeriydi. Bundan savayı Hacının geniş taxıl zəmiləri və biçənək sahələri olmuşdu. O, pambıq da əkdirirdi. Bu əkin sahələri həm də ətrafda yaşayan kəndlilərin iş yeri olmaqla camaatın işlə məşğulluğunu təmin edirdi. Aranda yaşayan kəndlilər bu torpağın xam yerlərində bostan-tərəvəz bitkiləri əkməklə həm özlərini, həm də Hacının ətrafında çalışanları təmin edirdilər. Ətraf Qarabağ kəndliləri öz dolanışıq tərzlərini burada qururdular. Bütün sahələr üzrə Hacı, inandığı, etibar etdiyi işini bacaran adamları iş başına qoyardı. O, hər kəsi öz zəhmətinə görə qiymətləndirər, onların haqqını doğru-düzgün ödəyərdi. Onları maraqlandırmaq məqsədi ilə əlavə haqq (mükafat) ödəyər, toplanan məhsuldan əlavə pay ayırardı.

Hacı Qasım çoban, ilxıçı və yaxud naxırçını işə götürəndə onun özünəməxsus seçim yolları var idi. O, işçiləri bir növ imtahandan keçirərdi. O zamanlar hamı ayaqqabı qıtlığından aşlanmış mal gönündən qotazlı çarıq tikib geyinərdilər. Bunun üçün xüsusi əldə toxunmuş yun corablar olardı. Çobanlar corabı geyinib, şalvarın balağını coraba saldıqdan sonra çarığı geyinərək, çarığın bağlarını baldır hissəsin sonuna dizə qədər köşə bağı ilə bağlayırdılar. Təzə işə götürülən işçilərin (çobanların) xəlvəti olaraq corablarına xırda daş atdırardı. Çobanlar corab və çarıqlarını geyinib qoyun sürüsünü örüşə otarmağa aparardılar. Onsuz da yer daşlı-kəsəkli olardı çobanların bəzisi heç bilməzdi ki, ayağını əzən yerdəki daşdı, yoxsa corabında daş var. Axşam qoyun arxaca qayıdanda Hacı corabları yoxladardı, əgər daş çobanın corabında qalıbsa onu işə götürməzdi. Deyərdi:

-Ayağının qədrini bilməyən mənim heyvanlarımın qədrini bilə bilməz. Hacı Qasım kişi dünya görmüş insan idi, o deyərdi:

-Çoban var aparıb, gətirər. (Yəni iş xətrinə gününü keçirər axşam düşəndə geri qayıdar), çoban var otarıb gətirər.(Əsil çoban budur).

-Çoban var otu qoyundan seçilir (Otlağın qədrin bilmir, xamı tapdaladır, otlaq korlayır), çoban var qoyunu otdan keçirir. (Heyvanı düzgün otarır, heyvana xam verir, otlağın qədrini bilir).

Hacı Qasım çox arif adam olub, sözü bir kəlmədən başa düşən, yerində cavabını verməyi bacaran dünya görüşlü insan idi. Hacı Qasımın çobanları payızda otlaq sahəsində olan vaxt, baş çobandan sifariş göndərirlər ki, Hacıya deyin ki, südlə yoğururuq, yağla bişiririk, balla yeyirik, bir az yavanlıq

göndərsin. Hacı bunu eşidən kimi tapşırıq vermişdir ki, çobanlar motal pendiri istəyir, təcili onlara dəymiş motal pendiri göndərin.

Hacı Qasım təşkilatçılığı və idarəetməni mükəmməl bacaran ağsaqqalıydı. Onun erməni-müsəlman davasında böyük hünər və zəhməti  olmuşdu. O, gizli yolla dəvə karvanında İrandan, Dağıstandan və Gürcüstandan silah gətizdirib camaata paylamışdı. 1905-ci ildə erməni-müsəlman münaqişəsi başlayan zamanlar Göyçənin Basarkeçər rayonunda yaşayan əhalisinin 80% Azərbaycanlılardan ibarət idi. Təpədən-dırnağa qədər silahlanmış erməni daşnakları, Azərbaycan kəndlərinə hücum edir, günahsız dinc əli yalın əhalini qırıb, mülklərinə od vururdular. Bu zaman  elat tayfalarının imkanlı adamlarını bir yerə yığan Hacı Qasım, silah-sursat almaq üçün pul toplatmış, silah alıb Göyçəyə gətizdirmişdi. Basarkeçər rayonunun "Daşkənd"(əvvəllər bu kəndin adı Çaykənd olub) ərazisində böyük daşlardan istehkam tikdirmiş, müdafiə üçün səngər düzəltmişdi. Bu zaman uzaqda olan sal daşları dəvələrə qoşub yaxına çəkərək, döyüş səngəri qurmuşdular ki, bu qayaya bənzər istehkamlar hal-hazırda olduğu kimi Göyçə mahalında qalmaqdadır. Hətta, Hacı Qasım 1915-ci ildə Azərbaycanın Qarabağ bölgəsində erməni daşnaklarına qarşı vuruşan döyüşçülərin ətə olan tələbatını öz üzərinə götürmüşdü. Onun Qaçaq Nəbi, Qaçaq Süleyman və qaçaq Qardaşxanla şəxsi dostluğu olmuşdu. Bu adamlar dəfələrlə Hacının qonağı olmuş, onun süfrəsində çörək kəsmişdilər.

Hacının yaxın qohumu Salman kişi qaçaq Qardaşxanın dəstəsində uzun müddət qaçaqlıq etmişdi.




*Beyləqan rayonunda Həzrəti  Cərciz Peyğənbər türbəsi*



*Peyğənbər türbəsi yanında  Hacı Qasımın qəbri*

1894-cü ildə Xan qızı Natəvanın, Aran Qarabağa gəlməsi, Cərciz Peyğəmbərin qəbrini ziyarət etməsi, bu ziyarətgahda Peyğəmbərin türbəsinin tikilməsi üçün təməlinin qoyulmasına şərait yaratdı. Türbənin təməl qoyma mərasimində Hacı Qasım on erkək qurban kəsdirdi. Bununla Həzrəti Cərciz Peyğəmbərin türbəsinin tikintisinə rəvac verildi. Mil-Muğan zonasında yaşayan Hacıların, bəylərin köməyi nəticəsində tikinti işləri başladı. Hər Hacı bir dəvə, bir nökər göndərdiyi halda Hacı Qasım iki dəvə, iki nökər göndərmişdi, Həmin dəvələrlə Örənqaladan sökülmüş köhnə bişmiş kərpicləri Peyğəmbər ziyarətgahına daşıyırdılar. Türbənin tikilməsi üçün çəkilən bütün xərcləri Hacılar qoymuş, tikintinin təşkilatçılığını isə bir başa Hacı Quluya tapşırmışdılar. Hətta, fəhlələrin, qulluqçuların yedikləri yeməyinə qədər çəkilən xərci Hacılar tərəfindən ödənilirdi. Beləliklə, bu türbə 1896-ci ildə Təbrizdən gətirilmiş Həsən Təbrizinin sənətkarlığı ilə tikilib başa çatmışdı. Bu türbənin tikilməsində Hacı Qasımın bir dindar kimi böyük zəhməti və təşkilatçılığı olmuşdur. Onu da nəzərinizə çatdırım ki, Hacı Qasım Peyğənbər türbəsinin girəcək qapısının yaxınlığında dəfn olunubdu.

Hacı Qasımın yüzbaşı işlədiyi günlərin birində yazın təzə girən vaxtı Rus İmperiyasının Gürcüstan Quberniyasında yerləşən vergi yığan məmurları Kür qırağında olan tərəkəmə obalarına gəlirlər. Bəyləri, Hacıları, vergi ödəyicilərini çağırıb yığıncaq keçirirlər. Bu toplantıda məmurlar tələb ediblər ki, vergini son qəpiyinə qədər bu gün ödəməlisiniz. Buna hazır olmayan mülkədarlar deyiblər hələ ki, imkanımız yoxdu, hissə-hissə ödəyə bilərik. Belə olan halda çar məmurları bunlarla razılaşmayıblar və mülkədarları yönü günə qarşı otuzdurub, tələb ediblər ki, vergini ödəməyənə qədər onları oturaq

vəziyyətdə yönü günə qarşı saxlayacaqlar. Çar məmurları dedikləri kimi də edirlər. Bunu görən ağaların biri Şirin Quma çapar göndərib ki, Hacı Qasıma çatdırsınlar ki, vəziyyət ağırdı özünü çatdırsın. Həmin vaxt Hacı Qasım, Hacı Qulunun obasına qonaq getmişdi. Çapar çatıb məsələni Hacıya anladıb deyir:

-Ağa, camaatı pis günə salıblar, içməyə bir qurtum su belə vermirlər, aman günüdür özünü ora tez çatdır.

Hacı Qasım məsələnin nə yerdə olduğunu başa düşüb deyir:

- Ay oğul, sən atı çapırsan mənim obama, bizim uşaqlara mənim təsbehimi göstərib, deyirsən bir kisə qızıl versinlər götürüb gələrsən Kür qırağı obaya.

Çapar atını çapıb gedir, Hacının atını gətirirlər deyir:

- Hacı Qulu, atlan gedək.

Hacılar durmadan atı çapıb çatırlar obaya, Hacı görür ki, yazın günəşi mülkədarları qapqara qaraldıb. Hacının ürəyi dözmür vergi məmurlarının başını dolayır qamçıya. Camaat qalxıb Hacını sakitləşdirib deyirlər, Hacı sən səbirli adamsan niyə belə elədin, bu işin axırı yaxşı qurtarmayacaq. Hacı acıqlı halda deyir:

- Bunlar insan deyil kafirdi, adam kimi vergilərini yığsınlar, camaata niyə əzab verirlər.

Hacı Qasım bütün vergilərin hamısını ödəyib, üzünü tutur mülkədarlara:

- Ayıb deyilmi sizin üçün, bilirəm çoxunuzda pul-para var, bunları nə üçün qazanırıq, bu əziyyəti çəkməyə dəyərmi?

Bu işin sonunu yaxşı görməyən Hacı Qulu rus dilini mükəmməl bilən Hacı Cəfərin dilmanclığı ilə məmurları Hacı Qasımla barışdırıb və orada bir böyük qonaqlıq təşkil ediblər. Bu zaman Hacı Cəfər demişdi:

-Ay camaat, atalar yaxşı deyib ki, "sən ucalanda, dostlar səni yaxşı tanıyır, amma sən yıxılanda dostlarını tanıyırsan". Hər biriniz bu gün Hacı Qasımın mərdliyini və ağsaqqallığını gördünüz. Məclisdə iştirak edənlər bir ağızdan dedilər:

-Allah Hacını qorusun, onun kölgəsi üstümüzdən əskik olmasın.

El-obada söz-söhbət düşəndə hamı Hacı Qasımın səbrindən və sözü keçərli ağsaqqal olmasından danışardılar. Bəzən el ağsaqqalları buna qısqanclıqla da yanaşırdılar. Çox adam fikirləşirdi ki, niyə Hacı Qasımın sözü bu qədər keçərlidi, bu hörmətləri necə qazanıb ki, biz bu hörmətə sahib ola bilmirik.

İllərin birində Novruz bayramı günü idi. Yazın isti nəfəsi ətrafı qızdırır, yaşıl otlar göyərir, bütün obalarda bayram süfrəsi hazırlanırdı. Elat camaatının hər birinin qapısında ocaqlar yandırılıb, plov qazanları asılmışdı. Baharın gəlişi öz isti nəfəsini ətrafına çiləyir və bu xoş nəfəsdən sanki insanlar zövq alırdılar. Tərəkəmə elatının milli adət-ənələrinə uyğun olaraq plov qazanları asılır, aş qarası hazırlanırdı. Novruz bayramını elat camaatı martın 22-də keçirərdilər. Həmin gün el adətinə görə heyvan başı kəsilməz, qan tökülməzdi. Heyvanları bir gün əvvəl kəsərdilər. Belə bir deyim var idi ki, martın 22-də Həzrəti-Abbas qırmızı geyinib taxta çıxır. Deməli həmin gün qan tökmək olmazdı. Bu adət-ənənələr hazırki zamanda da Muğan tayfalarında qorunub saxlanmaqdadır. O zamanlar belə bir adət varıydı, obanın və qonşu tayfaların ağsaqqalları cəm halında bölük-bölük evlərə (alaçıqlara) qonaq gələr, bayram plovu yeyib, ardıcıl olaraq digər evlərə adlayardılar. Belə bayramlarda bir neçə ev də qadınlar üçün ayrılardı ki, xanımlar qonaqları yola salandan sonra onlar da qrup halında bayram aşı yeyərdilər. Həmin gün elin

sayılan ağsaqqalları bayram süfrəsinə dəvət olunmuşdu. Burada xeyli tayfa başçıları da var idi, o cümlədən Hacı Cəfər də o məclisdə iştirak edir və Hacı Qasımla yanaşı əyləşmişdi. Məclis əsnasında Hacı Qasımın səxavətindən camaat arasında olan hörmətindən söz açanlar oldu, ona tərif dolu sözlər dedilər. Bu tərifləri qəbul etməyib, yersiz bilən Hacı Cəfər, yediyi plovu əsəbi halda Hacı Qasımın üstünə dağıtmışdı. Hamının diqqəti Hacı Qasımda qalıb ki, bu sonluq nə ilə bitəcək, Hacı ona necə cavab verəcək. Hacı Qasım böyük səbrlə üstündə qalan düyüləri süfrəyə çırpıb, xörəyini yeməyi davam edir və deyir:

- Heç kəs kefini pozmasın, bu gün bayram günüdür, bu gün hətta küsənlərin barışdığı gündür, burda qan qaralığı salmaq olmaz, xörəyinizi yeyin. Süfrədə əyləşənlərdən bir neçəsi Hacıya təskinlik vermək istədi. Bunu görən Hacı deyib:

- Atalar deyib ki, "oğulun dəlisinin başına dönüm", Hacı Cəfərin təmiz ürəyi olmaqla bərabər, həm də bir qədər dəliliyi də var, fikir verməyin çörəyinizi yeyin.

Bunu görən Hacı Cəfər əsəbindən ağlayıb, necə olan şeydi ki, o mənə ağır cavab vermədi, ancaq verə bilərdi deyib süfrədən durub gedib. Bu hadisənin üstündən bir neçə gün keçmişdi ki, Əlipənahlı ilə Murtulu tayfaları arasında dava düşüb. Bu atışmada adam öldüyünə görə dava qurtarmaq bilmir. Murtulu ağsaqqalları deyirlər təcili Hacı Qasıma çapar göndərək gəlsin, yoxsa hər iki tərəfdən çox ölüm olacaq. Bu zaman Hacı Cəfər bildirib ki, əziyyət çəkib göndərməyin, o gəlməyəcək. Səbəbini ondan soruşanda deyib ki, mən onun xətrinə dəymişəm. Ağsaqqallar onu qınayıblar, ancaq çaparı göndəriblər. Bir saat keçməmiş Hacı Qasım boz atının belin-

də iki tayfanın atışmasının arasına atını sürüb, tabel silahı olan “Naqandan” (Hacı yüzbaşı olduğu üçün ona tabel silahı verilmişdi) havaya bir neçə güllə atəşi açır. Tayfalar Hacını görüb silahı yerə endirirlər. Hacı Qasım acıqlı halda tayfa başçılarını yanına çağıraraq deyib:

- Siz başa düşürsünüzmü, kifayət qədər yaşamısınız, dünyanı görə-görə gəlmisiniz, özünüz cəhənnəm, bəs bu cavanları ölümə niyə verirsiniz?

Başlarını aşağı dikən ağsaqqallar:

- Hacı, şeytana nəhlət.

Həmin atışmada Əlipənahlıdan bir nəfərə güllə dəyib ölmüşdü. O, zamanlar belə hadisələr qan davasına çevrilərdi. Hacı Qasım bu qan davasını dayandırmış və tayfaları barışdırmışdı. Hacı demişdi:

- Ölən tərəfdən bir qız bu obaya gəlin gəlməlidir.

Hacı Qasımın dediyi kimi oldu, gəlin gəldi, qan bağışlandı. O, zamanlar qan bahasına gətirilən gəlin hamının diqqətində olardı, ona böyük hörmət və məhəbbət bəslənərdi. Həmin barışıq məclisində Hacı Cəfər Hacı Qasımdan üzr istəyərək deyib:

- Hacı, məni bağışla, bir anlıq özümdə olmadım, əvəzində mənə qarşı xoş söz dediyinə görə ağladım, məclisdə otura bilməyib çıxdım. Hacı isə ona diqqətlə qulaq asıb, demişdi:

- Ay dəli (zarafatla), mən səndən incimərəm, görürsən nə qədər Hacı, Kərbəlayı, Məşədi var, bizim içərimizdə Avropa təhsili alan, rus dilini mükəmməl bilən sənsən. Səni qorumaq, əzizləmək bizim hər birimizin borcudur. Hacı Cəfər, Hacı Qasımı qucaqlayıb öpüb demişdi:

- Mən indi rahat oldum, neçə gündü peşmançılıqdan gecələr yata da bilmirdim.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra M.C.Bağırov Azərbaycanın müvəqqəti İnqilab Komitəsi tərəfindən Dağlıq Qarabağa göndərilmişdir. O, Dağlıq Qarabağda Vilayət İnqilab Komitəsinin sədrinin müavini işlədiyi dövrdə Hacı Qasımla təsadüfi görüşü olmuşdur. Bu görüş Laçın rayonunun Minkəndi yaxınlığında olmuşdur. O, Hacıdan xahiş etmişdir:

- Hacı, ağsaqqalı olduğun el-obanı birliyə çağır, yeni dövlətin tapşırıq və sərəncamlarına əməl edin.

Hacı Qasım öz işini bilən adam idi, bilirdi ki, hökumətlə çəkişməyə dəyməz. Topu yox, topxanası yox. Tayfasını da uçuruma aparan deyil. O, təmkinlə cavab vermişdi:

- Komissar, biz və bizim elat camaatı göydə Allaha, yerdə isə dövlətin qanunlarına tabe olan bəndələrik.

Bu görüşdə M.C.Bağırov Hacı Qasımın cavabından çox razı qalmışdı:

- Hacı deməyim odur ki, yeni hökumətə müqavimət göstərən olmasın, çalışın adamlarınız qaçaq, quldurlara qoşulmasın.

Həmin görüşdə Hacı ona söz verərək demişdi:

- Komissar, siz bizim camaatdan arxayın ola bilərsiniz.

M.C.Bağırov Azərbaycan Respublikası MK-nın birinci katibi işlədiyi dövrdə təxminən 1934-ci ildə Hacı Qasımla ikinci görüşü baş tutmuşdur. M.C.Bağırovun Hacı Qasımla görüşü olmuş və Hacını görən kimi tanımışdı. Onlar xeyli söhbət etmişdilər. Hacının cavabları onun xoşuna gəlmişdi, soruşub ki:

- Hacı, savadın varmı?

-Yoxdur yoldaş Bağırov, dini savadım var. M.C.Bağırov demişdir:

- Çox heyif Hacı.

Sonra bir kağız yazıb qatlayıb verib, Hacı Qasıma.

- Hacı sənə sataşan olsa bu vərəqi göstərərsən.

Hacı da bu vərəqi əzizləyib, dəsmala büküb qoltuq cibində gəzdirərmiş. Bu vərəq rus dilində yazılmışdı. Hacı Qasım bu vərəqi yaylağa gedəndə Göyçənin Basarkeçər royonunda bir rus dili müəlliminə oxudub. "Hacı dövlət adamıdı o, toxunulmazdı".

Həmin dövrdə Hacı Qasımla bərabər Muğan və Mil obalarından beş nəfər keçmiş mülkədarlar MK-ya çağrılmış, onlardan yalnız bir nəfər Hacı Qasım geri qayıtmışdı. Mərkəzi Komitədən Hacıya bir möhürlü məktub verib göndərmişdilər Karyaqin (indiki Füzuli rayonu) rayonunun NKVD rəisinin yanına. Hacı Qasım güman edirdi ki, onu burada həbs edəcəklər. Bunun əksinə olaraq əlində apardığı məktub əsasında Hacı Qasımın böyük oğlu Fərhadı Budaqlı kolxozuna sovet sədri təyin etmişdilər.

Hacı Qasım, Sovet İmperiyasının qələbəsindən sonra yeni qurulan dövlətin şura üzvü seçilmiş, tayfanın kollektiv təşkilatın tərkibinə cəlb olunması ona tapşırmışdılar. 30 yanvar 1930-cu il Kommunist Partiyası Mərkəzi komitəsi qolçomaq təsərrüfatlarının ləğv edilməsi tədbirləri haqqında qərar verdi. O zamanlar sovetlər tərkibində olan Azərbaycanda 24 min vergi təsərrüfat varıydı ki, bunların da biri Budaqlı Hacı Qasım idi. Sovet hökuməti verdiyi qərardan sonra kolxoz yaranmasının tərəfdarı elə Hacı Qasım özü oldu. Hacı Qasım öz mal və mülkündən hər çobana yüz qoyun iki qaramal vermiş qalan dəvə, naxır, ilxı və qoyun-quzu sürülərini könüllü olaraq dövlətə təhvil vermişdir.

1930-cu ilin yazından başlayaraq dövlətə tabe olmayan keçmiş bəylərə, Hacılara və mülkədarlara qarşı təqiblər başlandı. Kimini həbs edirlər, kimləri isə Sibirə və yaxud Qazaxıstana sürgün edirdirlər. Ancaq Hacı Qasıma heç kəs toxunmadı. Çünki, o, dövlətə qarşı müqavimət göstərmədi, könüllü olaraq bütün mal-dövlətini kolxoza təhvil verdi. Hacı Qasımın var dövləti əsasında Budaqlı kolxozu yarandı. Hörmət əlaməti olaraq Hacının oğlu Fərhada dövlət qulluğu verildi. Bunlara baxmayaraq, Hacı Qasımın yaxın dostları Hacılar, bəylər onun yanına gəlib təzyiq edirdilər ki, Hacı, onsuz da bizi hökumət tutacaq, nə qədər gec deyil keçək İrana və yaxud Türkiyəyə. Hacı, onlarla heç vaxt razılaşmadı, həmişə deyirdi:

- Mən bu torpaqda doğulmuşam, bu torpaqda da öləcəm. Mən Vətənimi, doğma yurdumu sevən insanam, axı mən niyə doğma torpağımı tərk etməliyəm. Hacı Qasım dediyi kimi də elədi. Ömrünün sonuna qədər doğma yurdunda yaşadı və doğulduğu torpaqda dünyasını dəyişdi.

Hacı Qasım, ağsaqqalları, tayfanın baş bilənlərini yanına toplayıb demişdi:

- Ay camaat, qurluş dəyişib, bunu başa düşmək lazımdı. Necə deyərlər qanun şahdı, şah qanun ola bilməz. Biz də dövlətlə, dövlətçilik edə bilmərik. Bizim yeganə çıxış yolumuz Budaqlı kolxozu yaratmaq və cəm halında bir eldə-obada yaşamaqdır.

1931-ilin yazında Budaqlı kolxozu yarandı və Hacının məsləhəti ilə kolxozun sədri Budaqlı tayfasında Kərbalayı Şirinli tirəsindən Quluyev Musa Qaraş oğlu təyin olundu. Hacı Qasımın məsləhəti ilə camaat bir yerə toplanmış, kolxoz yaratmışdılar. Kolxoza girməyən ailələrə qarşı elə vergi qoyul-

muşdur ki, onu ödəmək heç kimin gücü daxilində deyildi. Ancaq, kolxoza daxil olanlar bu verginin 1%-dən az belə vergi ödəyirdilər. Buna görə də Hacı Qasım camaatı toplayıb məsləhət bildi ki, kolxozun üzvü olub bu vergilərdən azad olmaq lazımdır. Həm də kolxozun yaranması tayfanın dağılmasının qarşısını alacaq. Hacı Qasımın sağlığında bu tayfadan bir nəfər də olsun başqa yerə köçüb gedəni olmamışdır.

Budaqlı tayfasının dağılması köçüb başqa yerlərə getməsi əsasən 1945-ci ildən, müharibə qurtardıqdan sonra baş vermişdi. Bunun da əsas səbəblərindən biri ölkədə yaranan aclıq olmuşdu. Hər bir ailə bir tikə çörək dalınca müxtəlif yerlərə üz tuturdular. Tirələr bölünərək Xankəndinə, Tuğa, Tağa, Salakətinə və Sisyanın Qızılcıq kəndinə köçüb getmişdilər.

Musa kişi 1941-ci ilin payızına qədər Budaqlı kolxozuna rəhbərlik etdi. O, işlədiyi müddətdə tayfanı ətrafında birləşdirə bildi. Tayfanın sakinləri öz güzəranlarını qura bildilər. Musa kişi rəhmətə getdikdən sonra kolxoza Hacı Qasımın qardaşı Səfəralının böyük oğlu Hacalı kişi rəhbərlik etməyə başladı. Hacalı kişinin sədrlik dövründə 1944-ci ilin qışı sərt keçmiş, kolxozun xeyli qoyun və qara-malı qırılmışdı. Bu itkilər şəxsi təsərrüfat hesabına ödənsə də onu və ferma müdiri əmisi oğlu Əyyubu həbs etmişdilər. Hacalıdan sonra Fərhad kişi kolxoza sədr təyin olunmuşdur. Fərhad kişi ölən gününə qədər Budaqlı kolxozunun sədri vəzifəsində işləmişdir.

Hacı Qasım 1936-cı ilin payızında rəhmətə gedib. Həmin vaxt Aşıqlı tayfasından molla Muxtar onun yanına gəlib təklif etmişdi:

- Hacı, hər gün keçmiş mülkədarları həbs edib aparırlar mərkəz Bakı şəhərinə, bir nəfər də olsun geri qayıtmır. Aldığım məlumata görə indi də bizi axtarırlar. Nə qədər gec deyil

Arazı keçək, o tayda sənin xətir hörmətini istəyən çoxdur. Gedib qalan ömrümüzü orada asudə yaşayaq.
Hacı Qasım bir az fikirləşəndən sonra əlində kəhraba təsbehini çevirə-çevirə molla Muxtara dedi:

- Molla Muxtar, əvvəla mən yuxumu görmüşəm, ömrümün son günüdü, ikincisi mən yurdumdan, doğulduğum torpaqdan niyə getməliyəm axı. Mənim hökumətlə düşmənçiliyim yoxdur. Oğlum da dövlət qulluğundadır.

Molla Muxtar qarşısında olan stəkandan iki qurtum çay içib asta öskürəklə boğazını təmizləyib dedi:

- Hacı, sən çox da humanist olma, hökumətə də çox bel bağlama. Gör ətrafımızdan neçəsini aparıblar, geri qayıtmayıb.
- Bizə ki, toxunmayıblar?
- Bir də görəcəksən toxundular, onda gec olacaq.

Hacı Qasım da qarşısında olan çaydan asta-asta bir qurtum alıb dedi:

- Muxtar, bu gün mənim vaxtımdı, Allah-Tala səni vaxtında mənim yanıma göndərib. Məni dəfn edib, namazımı qılarsan. Sonra hara istəsən gedə bilərsən, məsləhət sənindir, uşaqlar səni ötürəcəklər.

-Hacı inan ki, az vaxtda arxamca gələcəklər, məni axtarırlar.

- Muxtar, tapşıracam sənə dəyən olmayacaq, heç kəsdən qorxun olmasın. Molla Muxtar yarımçıq qalmış çayından bir-iki qurtum alıb rişxəndlə gülümsünərək dedi:
- Hacı, Allah sənin evini tiksin elə danışırsan ki, elə bil yüzbaşı işlədiyin dövrdü.
- Molla Muxtar, heç narahat olma burda sənə zaval yoxdu, ola da bilməz. Mənim qonağıma heç kəs toxuna bilməz.

Molla Muxtar bilirdi ki, onu axtarırlar, hətta o, Hacı Qasıma pənah gətirmişdi ki, onu həbs etməsinlər. İşin gedişatı onu açmasa da yollar qorxuluydu. NKVD işçiləri qrup halında axtarış aparırdılar, əllərinə keçənləri həbs edirdilər. Bir tərəfdən baxanda da Molla Muxtar düz deyirdi, bu hökumətə etibar yox idi.

Hacı Qasım, qohumu Salman kişini çağırtdırdı, üzünü-başını qırxdırdı, su qoydurub paltarını dəyişdi. Kolxoz sədri Musa kişini yanına çağırtdırıb son sözlərini söylədi. Ona tapşırıq verdi ki, tayfanın dağılmasına imkan verməsin. Son olaraq Musa kişiyə dedi:

- Musa, Cavad NKVD qvardiyasında (bu dəstənin üzvləri Cavaddan başqa hamısı rus millətindən idi) xidmət edir. Onlar bura gələ bilərlər, gəlsələr əgər ona deyərsən ki, Molla Muxtarla işləri olmasın, onu ələ verməsin. Molla Muxtar, dəfn namazımı qılıb məni dəfn edəndən sonra onu Araz çayından keçməsinə köməklik edin.

Hacı Qasım çimib namazını qıldı, ailə, uşağa vəsiyyətini etdi və yerini qibləyə saldırıb, gözlərini əbədi yumdu. Onun dünyaya gəlişi kimi elə dünyadan gedişi də möcüzəli olmuşdu. Hacının cənazəsini Cərciz Peyğəmbər ziyarətgahına gətirdilər. Peyğəmbər türbəsinin yaxınlığında həyat yoldaşı Məşədi Bayazın qəbrinin yanında dəfn etdilər. Cənazə dəfn üçün Peyğəmbər ziyarətgahı qəbirstanlığına gətirilən zaman Tək saqqız ağacının yanında NKVD qvardiya qrupu qarşılarına gələn cənazənin kim olduğunu bildikdən sonra, camaatla birlikdə dəfn mərasiminə gəlmiş, Hacının dəfnində şəxsən iştirak etmişdilər. Cavad onlara bildirmişdir ki, rəhmətə gedən onun dayısı Hacı Qasımdı. Cavada hörmət əlaməti olaraq onlar dəfndən sonra üç dəfə yaylım atəşi açmışdırlar.

Dəfn zamanı Cavad, axtarılan molla Muxtarı tanımışdı. Bunu başa düşən Musa kişi, Hacının vəsiyyətini ona çatdırmışdı. Cavad demişdi, bunu təcili Araz çayından keçirin hara istəyir getsin, biz onu axtarırıq. Cavad Hacı Qasımın vəsiyyətinə əməl edərək molla Muxtarı ələ verməmiş, molla Muxtar Araz çayını keçib Cənubi Azərbaycana adlamışdı.

1937-ci ilin yazında Hacı Qasım haqqında dövlətə yalan məlumat vermişdilər ki, guya Hacı Qasım ölməyib, xaricə qaçıb. Bu yalanlardan bəhrələnmək istəyən çuğullar var idi ki, onların məqsədi Hacı Qasımın oğlu Fərhadı vəzifəsindən çıxarmaq idi. Bu zaman Hacının qəbrini açmaq fikrinə düşüblər. Nümayəndə heyəti gəliblər ki, qəbri açsınlar, bunu bilən yerli camaat qəbrin açılmasına imkan verməyib. Qəbrin üstünə təzə torpaq töküb üzərinə "Quranı-Kərim"-i qoyublar. Bu o demək idi ki, qəbrdə yatan doğrudan Hacı Qasımdır. Gələnlər "Qurani-Kərim"-ə hörmət əlaməti olaraq qəbri açmamışlar və geri qayıtmışdılar. Bunu eşidən Hacı Qasımın oğlu Fərhad təcili yaylaqdan geri qayıdıb, Qaradonluya (o zaman İmişli rayonun mərkəzi Qaradonlu idi) gedib dövlət nümayəndələri ilə söhbət aparmışdı. Onları inandırmışdır ki, NKVD nümayəndələri Hacının dəfnində iştirak edib, öz gözləri ilə görüblər. Bununla məsələ bir dəfəlik bağlanmışdı...

Hacı Qasım Bəylik tayfasından ailə həyatı qurmuş, Bəyaz xanımla ömrünün sonuna qədər bir evdə yaşamışdı. Tanrı bu ailəyə yetərincə hər şey verdi, ancaq bir övlad vermədi. Bu iki mömin cütlük heç zaman Allaha qarşı naşükürlük etmədilər. Çoxlarından fərqli olaraq, ailə təməlini möhkəmlədə bildilər. Məşədi Bəyazın ağıllı təklifini Hacı Qasım məmnuniyyətlə qəbul etmişdi. Onlar Hacının qardaşı Baxışın böyük oğlu Fərhadı (1897-1948) körpəlikdən oğulluğa götürüb, onu

doğma balaları kimi böyütdülər. Hacı Qasım, Məşədi ziyarətindən geri dönmüş qardaşı qızı Məşədi Xatını oğlu Fərhada nişanlamışdı. Çox keçmədən Məşədi Xatını evinə gəlin gətirmişdi. Hacı Qasım el adətiylə onlara toy elədi və ömrünün sonuna qədər bir ailədə yaşadılar.



*İmamir Fərhadqızı*

**Fərhad** (1897-1948), Hacı Qasımın qardaşı Baxışın oğlu olmaqla yanaşı, eyni zamanda Hacı Qasımın oğludur. Keçmiş zamanlarda belə bir el adəti varıydı, övladlığa uşaq götürüləndə, götürülmüş uşaq, götürən ananın köynəyindən keçirərdilər. Məşədi Bəyaz da Fərhadı köynəyindən keçirib oğul ki mi qəbul etmişdi. Məşədi Bəyaz bütün mehrini Fərhada salmış, onu doğma balası kimi böyütmüşdü. Fərhad Hacı Qasımın böyük oğlu kimi, Hacının yanında yaşadı və onun mülkünə rəhbərlik etdi. Fərhadın üç qızı, bir oğlu oldu.

Qızları: İmamir (İmiş) , Pəri, Münəvvər.

Oğlu: Xudadat (Xuduş)

Böyük nəvəsinin adını Hacı Qasım özü qoydu: İmamir (1924-2008), ikinci nəvəsi "Pəri Çınqılı"-nın ətəyində olduğu üçün bu qızın adını Məşədi Bəyaz Pəri (1926-1996) qoymuşdu. Onun üçüncü nəvəsi, qızların son beşiyi Münəvvər (1933-1973) anadan olub, onun da adını Hacı Qasım qoyub. Hacı həmişə onu Miniş deyə çağırdığına görə, böyüyəndə də elə ona Miniş deyirdilər. Hacının sağlığında nəvəsi Xudadat

(1935-2016) dünyaya göz açdı. Bu uşaqlar Hacıya baba dedilər. Hacı Qasım rəhmətə gedəndə Xudadatın bir yaşı olub. Fərhad doğrudan Hacıya yaxşı oğul oldu. Hacının bütün işlərin layiqincə yerinə yetirən oğul oldu. Fərhadın böyük qızı İmamir, (İmiş) əmisi Alıhüseynin oğlu Ələsgərlə evlənib, ailə qurdular. İmamir ailəsi ilə bir il yaşaya bildi.

Onun həyat yoldaşı Ələsgər 1942-ci ildə II Dünya Müharibəsinə getmiş və 1945- cü ildə döyüş zamanı həlak olmuşdu. İmamirin bir qızı olmuş, o da körpə vaxtı rəhmətə getmişdi.

İmamir, həyat yoldaşı Ələsgərdən sonra ailə həyatı qurmadığından onun övladı da olmamışdı. O, 2008-ci ildə Budaqlılar kəndində rəhmətə getmiş və həmin kəndin qəbirstanlığında əzizlərinin yanında dəfn olunmuşdu.



***Şəkildə Pəri və həyat yoldaşı Sətdar***

Fərhadın ikinci qızı Pəri, Cəbrayıl rayonu "Papı-Çərəkən" kəndindən Nəcəfqulunun oğlu Sətdarla (1914-1987) ailə qur-

muş və Budaqlı tayfasında yaşamışdı. Sətdar Budaqlı kəndinə ibtidai sinif müəllimi kimi göndərilmiş, sonralar, Fərhadın ölümündən sonra Budaqlı kolxozunun sədri vəzifəsində işləmişdi. Sətdar ömrünün sonuna qədər Budaqlı tayfasının içində yaşamışdı. Bu cütlükdən üç oğlu, dörd qız anadan doğulubdur.

Oğulları: Tofiq, Rafiq, Sahib.

Qızları: Validə, Solmaz, Almaz, Nailə.

Fərhadın oğul övladı, nəvələri, nəticələri bu gün də Qasım soyadını daşıyırlar. Pəri 1996-cı ildə Budaqlı kəndində rəhmətə gedib və Peyğəmbər ziyarətgahı qəbirstanlığında, doğmalarının yanında dəfn olunubdu. Övladları Beyləqan rayonunda yaşayırlar. Böyük oğlu Tofiq (1946-2021) öz xalası Münəvvərin qızı Kubra xanımla evlənmiş, onların iki oğlu: Bəhruz, Elnur, iki qızları: Xatın və Vəsilə dünyaya gəlmişdi. Tofiq 11.11.2021-ci lldə yaşadığı budaqlı kəndində dünyasın dəyişib və həmin kəndin qəbrstanlığında dəfn olunubdur.

Pəri xanım, öz nəvəsinə anası Xatının adını qoyubdur. Bəhruz Cəbrayıl rayon Papı kəndindən ata qohumu Yaqubun qızı Aynurə xanımla evlənib, onların Aytən, Zeynəb adlı iki qızı, Elton adlı bir oğlu var.

Elnur da eynilə Cəbrayıl rayon Papı kəndindən Əlifin qızı Təranə xanımla evlidir. Onların Elcan, Elxan və Elmar adlı üç oğlu var.

Qızı Xatın Ağcabədi rayon sakini Bakirlə evlənib, onların Əsmər, Ülkər adlı qızları və Polad adlı bir oğlu anadan olub. Onlar Ağcabədi rayonunda yaşayırlar.

Pərinin nəvəsi Vəsilə isə öz xalası Şəkuranın böyük oğlu Sabirlə evlidir, Cabir və Ceyhun adlı iki oğlu var.

Validə (1948-2021), Pərinin böyük qızıdır, əmisi oğlu Qara ilə evlənib ailə qurublar. Onların iki oğlu: Nazim, Kamil və iki qızı: Nəcibə, Gülşən anadan olubdur. Validənin övladlarının dördü də evlidir, nəvələri var.



*Fərhadın nəvə və nəticələri*

Rafiq Sətdar oğlu, ana qohumu Hacı Qasımın nəvəsi Qasımın qızı Cəvahir xanımla evlənib ailə qurubdu. Cəvahir xanım yaşadığı kənddə ibtidai sinif müəllimesi işləyir. Bu cütlükdən iki oğlu: Elşən, Orxan və iki qızı: Əminə, Fərqanə dünyaya göz açıblar. Elşən Cəlilabad rayon sakini Tünzalə xanımla ailə qurubdu. Onların Sətdar adlı oğlu və Dünya adlı qızı var. Burada göründüyü kimi Rafiq nəvəsinə atasının adını qoyubdu.

Əminə, Vüqar adlı oğlanla ailə qurub, oğlu Vüsal, qızı Tamella dünyaya gəliblər. Bu ailə məcburi qaçqın kimi Bakı şə-

hərində məskunlaşıbdı. Fərqanə isə Füzuli rayon Veysəlli kəndindən məcburi köçkün Allahverənin oğlu Arzumanla (avtoqəzada dünyasını dəyişib) ailə qurub oğlu Səid və qızı Arzu anadan doğulubdu.

Sahib, Pərinin kiçik oğludur. O, Sara xanımla evlənib Əli adlı bir oğlu və Nigarə adında bir qızı var. Beyləqan şəhərində yaşayır. Pərinin qızları Solmaz, İmişli rayon Bəhrəmtəpə qəsəbəsindən Əhlimanla ailə qurub. Bu cütlükdən iki oğlu: Möhübbət, Ruslan və üç qızı: Mehriban, Kəmalə, Aynurə dünyaya gəlibdi. O, ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır. Almaz yaşadığı kənddə Atamoğlanla evlənib ailə qurub və üç oğlu: Vasif, Samir, Elşad dünyaya gəlib. Onlar Beyləqan şəhərində yaşayırlar. Pərinin kiçik qızı Nailə yaxın qohumu Əsədullanın oğlu Qaçayla evlidir üç oğlu var.

Fərhadın üçüncü qızı Münəvvər uzun müddət Hacı Qasımın yanında çalışmış, sovet hökuməti gələnə qədər Hacının baş çobanı işləmiş yetim Məhəmmədin oğlu Tanrıverdi ilə ailə həyatı qurmuşdu. Onların beş oğlu, beş qızı olubdur. Münəvvər çox cavan, qırx yaşında dünyasını dəyişibdi. Bu ailə üzvlərinin tərkibi aşağıda Mehdilər tirəsində yetim Məhəmməd sürətində öz əksini tapacaq.

**Qasımov Xudadat Fərhad oğlu (1935-2016),** Hacı Qasımın nəvəsidir, Cəbrayıl rayon Papı-Çərəkən kəndindən yeznəsi Sətdar kişinin bacısı qızı Mahnisə xanımla **(1938-2017)** evlənmiş, onların dörd oğlu, dörd qızı olubdu Oğulları: Fərhad, Fazil, Mahir, Yaşar. Qızları: Arifə, Nəsibə, Səbinə, Mahirə.



Qızlardan ikincisi Nəsibə (1968-1971) uşaq vaxtı üç yaşında dünyasını dəyişmişdi. Hacı Qasımın nəticəsi, Qasımov Fərhad Xudadat oğlu, babası Fərhadın adını yaşadır. O, əvvəllər sovxoz direktoru, bələdiyyə sədri və hazırda ərazi nümayəndəsi (sovet sədri) vəzifəsində çalışır. Fərhad elat tayfasından Əsədin qızı Telli xanımla evlənib ailə qurubdu. Onların bir oğlu: Tural, üç qızı: Vüsalə, Gülsarə, Dürdanə yaşadıqları kənddə dünyaya göz açıblar. Qızların üçü də ali təhsillidir. Tural Fərhad oğlu ali təhsilli, iqtisadçıdır. Hazırda Xocavənd rayonunda ərazi nümayəndəliyində işləyir, əmisi Yaşarın qızı Elnarə xanımla ailə qurub. Vüsalə ali təhsilli müəllimədir və bibisi Arifənin böyük oğlu Zaurla ailə qurubdu. Bu cütlükdən iki qız Aysun, Aysel və bir oğlu Tuncay anadan doğulubdu. Hazırda Beyləqan şəhərində yaşayırlar. Gülsarə yaşadığı kənddə xalası oğlu Yasəflə evlidir, Uğur adlı oğlu, Fidan və Duyğu adlı qız övladları var. Dürdanə, yaşadığı kənddə Murtulu tayfasından Musanın oğlu Əliylə evlidir, Musa və Emil adlı övladları var. Dürdanə Bakı şəhərində yaşayır.

Arifə, Xudadatın böyük qızıdır. O, Murtulu tayfasından Şeydanın oğlu Tofiqlə (1952-2019) evlənib iki oğlu: Zaur, Şaiq və bir qızı: Sevinc anadan doğulubdu. Bu ailə Beyləqan şəhərində yaşayır.



*Xudadatın övladları, gəlinləri və nəvələri.*

Fazil Xudadat oğlu, "Sarı-Su" Budaqlılar kəndində yaşayır. O, zəhmətkeş, halallığı sevən insandır. Uzun müddət sürücü işləyib. Fazil xalası qızı Bəsti xanımla ailə qurub, onların üç oğlu var.

Oğlanları: Röyal, Rövşən, Araz.

Röyal ali təhsilli idman müəllimidir, yaşadığı kənddə müəllim işləyir. Araz isə Gəncə Dövlət Universitetini bitirib və ixtisası üzrə magistratura təhsili alır.

Mahir Xudadat oğlu, Budaqlı kəndində yaşayır. O, Sovetlər dönəmində qabaqcıl mexanizator olub. Hazırda şəxsi təsərrüfatında əkinçilik və heyvandarlıqla məşğul olur. Mahir ata qohumu Şahmar kişinin qızı Nazimə xanımla evlənib ailə qurub. Onların bir oğlu: Xəyal, iki qızı: Günay və Nərmin anadan doğulub.

Yaşar, Xudadat oğlu, ailənin kiçik oğludur. O, uzun müddət DİN-nin polis orqanlarında çalışmış və hazırda peşə tə-

qaüdündədir. Yaşar Beyləqan şəhərində yaşayır. O, bibisi oğlu Raquf Budaqlının qızı Pərvanə xanımla evlidir. Onların bir oğlu, iki qızı var.

Oğlu: Amal, qızları: Elnarə, Gülnarə.

Amal, Gəncə Dövlət Aqrar Universitetinini bitirib. Elnarə və Gülnarə isə əkiz doğulublar və Azərbaycan Dövlət Pedaqoji Universitetinin III kursunda təhsil alırlar.

Xudadatın qızlarının hamısı ailəlidirlər. Səbinə xalası oğlu Tapdıqla evlidir, onların Fuad, Fərid və Ləman adlı övladları var. Onlar Cəbrayıl rayon Məcburi Köçkünlər üçün salınmış qəsəbədə məskulaşıblar.

Mahirə xanım, tanınmış Seyid Səccadın nəvəsi Mirsahiblə evlidir, Əli adlı bir oğlu var. Mahirənin Mircavid və Mircahid adlı iki oğlu gənc yaşlarında dünyasını dəyişiblər. Onlar Peyğəmbər ziyarətgah qəbirstanlığında dəfn olunub. Mahirə ailəsi ilə birlikdə Beyləqan şəhərində yaşayır. Xudadat 2016, Mahnisə 2017-ci ildə rəhmətə gedib. Yaşadıqları Budaqlı kənd qəbirstanlığında dəfn olunublar.

Hacı Qasımın sonralar Məşədi Bəyazın təklifi ilə ailə həyatı qurduğu xanımlar olmuşdu, ancaq onların heç birini öz evinə, Məşədi Bəyazın üstünə günü kimi gətirmədi. Hacı heç zaman istəməzdi ki, dünya qədər sevdiyi bəy qızı Bəyaz xanımın qürurunu sındırsın.

Hacı Qasım öz tayfasından əri rəhmətə getmiş, dörd uşağı yetim qalmış Gülgəz xanımla ailə həyatı qurmuşdu. Gülgəz xanım, Kərbəlayı İbrahimin qızıdır. Onun birinci həyat yoldaşı Buludlu tayfasından Məhəmməd kişi dünyasını dəyişmiş və dörd uşağı atasız qalmışdı. Hacı Qasım, Gülgəz xanımı öz evində oğlanları Hidayət, Surxay, Abdulla və bir qızı Maya olmaqla onları öz himayəsində saxlamış və bu uşaqlara

atalıq qayğısı göstərmişdi. Gülgəzdən Hacı Qasımın iki övladı anadan olmuşdu. Oğlu Məhəmmədəli, qızı Səbiqə xanım. Məhəmmədəli II Dünya Müharibəsinə getmiş və döyüşdə həlak olmuşdu. Səbiqə xanım isə nişanlı vaxtı qəflətən rəhmətə getmişdi.

Onu da nəzərə çatdırıram ki, Hacı Qasım, Məstan xanımı, Gülgəz xanımdan əvvəl almışdı. Hacı Qasımın Gülgəz xanımdan olan övladları: oğlu və qızı, Qulamdan kiçik olublar. Hazırda Hacının oğul nəvəsi, Qulamın qızı Gülgəz, nənəsi sayılan Gülgəz xanımın adını daşıyır.

Hacı Qasım, ailə qurduğu xanımlarla aralarında nigah olub və onların övladlarına da atalıq qayğısı göstəribdi.

Hacı Qasım, Gülgəz xanımla bərabər, tanınmış nəsildən olan əri ölmüş, Hacı Qulunun bacısı qızı Məstan xanımla kəbin kəsdirib ailə həyatı qurmuşdu. Hacı Qasım, Məstan xanımı da öz evinə gətirməmiş, ayrı evdə saxlamışdı. Hacı Qasıma sonuncu Məkkə ziyarətində yuxusunda bəyan etmişlər ki, sənin oğlun olacaq, adını Qulammirzə qoyarsan. Hacı Qasımın 1911-ci ildə oğlu oldu, onun adını Qulammirzə qoydu. Qulamın əsil adı Qulammirzədi. Hacı Qasım dünyasını dəyişəndən sonra Məstan xanım başqa kişi ilə yenidən ailə qurub, onların Minə və İbrahim adlı övladları olubdu.



**Əliyev Qulam (Qulammirzə) Hacı Qasım** oğlu, (1911-1962) Budaqlı tayfasında dünyaya göz açıbdı. Hacı Qasım, oğlu Qulamı, Məstan xanımın razılığı ilə ondan almış, Bayaz xanıma vermiş və öz himayəsində böyütmüş, həddi-buluğa çatdırmışdı. Mə-

şədi Bəyaz Qulamı öz doğma övladı kimi böyütmüşdü. Qulamın toyunu Hacı Qasım özü etmiş, Məşədi Bəyazın qardaşı qızı Bəyim xanımı evinə gəlin gətirmişdi. Bu toy şənliyi Hacı Qasıma bütün var-dövlətindən artıq təsir bağışlamışdı. Hacı Qasımın yeganə doğma oğlu yalnız Qulam qalmışdı.

Hacı Qasım böyük sevinclə oğlu Qulama qaynı Əhəd bəyin qızı Bəyim xanımı el adətiylə toy edib gəlin gətirmişdi. Evə təzə gəlinin gəlməsi Məşədi Bəyazın çox ürəyincə olmuş, ocaqlarına sevinc, xoş ovqat gətirmişdi. Bu cütlükdən Qulamın 1930-ildə Qasım (ona babası Hacı Qasımın adı verilmişdi), 1936-cı ildə Rəna xanım və 1941-ci ildə Əfqan adlı oğlu anadan doğulmuşdu. Təəssüflər olsun ki, Bəyim xanım Əfqanı dünyaya gətirən zaman dünyasını dəyişmiş, uşaqlar anasız qalmışdır. Anadan yetim qalan körpə Əfqan on bir ay yaşamışdı. Çox təəssüflər olsun ki, bu körpə uşaq da anasız yaşaya bilmədi və dünyasını dəyişdi. Bu hadisədən sonra Qulam da 1942-ci ildə heç bir günahı olmadan həbs olunmuş və bu səbəbdən də II dünya müharibəsində iştirak etməmişdir.

Qulam kişi həbsdən qayıtdıqdan sonra, Tanrıqullar tayfasından Şavağat kişinin qızı Tamara xanımla ailə qurdu. Qulamın ikinci həyat yoldaşı Tamaradan dörd övladı oldu.

Qulam kişi dünyasını dəyişəndən sonra, ailənin bütün çətinliklərini Qasım kişi öz çiynində daşıdı. Qasım, atasının ikinci ailəsindən olan uşaqları böyüdüb başa çatdırdı. O, qardaşlarını evləndirdi, bacılarını ərə verdi. Qasım kişi hər zaman istər ailədə, istərsə də el-obada öz böyüklüyünü göstərdi. Qardaş-bacıları da onun yolunu həmişə gətirdilər, hörmətini saxladılar...

**Əliyev Qasım Qulam** oğlu (1930-2017), Budaqlı elatında dünyaya göz açıb, atasının himayəsində böyümüş, həya-

tın çox çətin anlarını yaşamışdır. Körpə yaşlarında anasını itirən Qasımı, bir müddət də taleyin amansız hökmü atasız qoydu. Ağrılı acılı günlər yaşadı Qasım.





*Qasım Qulam oğlu, həyat yoldaşı Xanım*

Zamanın burulğanında min əzab görmüş Qasım böyüdü, həddi-buluğa çatdı. O, Kəbirli tayfasından Köçərinin qızı Xanımla ailə həyatı qurubdu. Qasımın ailəsi ilə Köçəri kişinin ailəsi "Qızıl Qayada" uzun müddət qonşu olmuşdular. Bu qohumluq da elə bu mehriban qonşuluğun bəhrəsi olmuşdu. Qasım kişi halal zəhməti hesabına öz həyatını qura bilmişdi. O, yaşadığı Dağlıq Qarabağ Muxtar Vilayətində özünə yetərincə böyük hörmət qazanmışdı. O, çalışmışdır ki, özü gördüyü çətinlikləri övladları görməsin, balaları qayğısız yaşasınlar. Qasım kişinin yeddi övladı dünyaya göz açıbdı.

Oğlanları: Mehman, Əhəd, Vaqif, İlqar (Vahid), Əfqan, Məhəmmədəli (Sərvan), qızı Cəvahir.

Qasım kişi, uzun müddət Hacı Qasım babasının keçmiş oylağı Qızıl Qayada və Hadrut (keçmiş Dizaq) rayonunun Axullu kəndində yaşayıb, heyvandarlıqla məşğul olmuşdu. Qarabağın işğalından sonra 1992-ci ildə doğma yurdunu məcburi surətdə tərk etmiş, yenə də baba yurdu sayılan "Təksaqqız"-ın yanında Sarı-su (əslində bu kənd öz doğru adını almasa da, Budaqlılar yaşayan Budaqlı kəndidir) kəndində məcburi köçkün kimi yaşamışdı. Yaşadığı müddətdə öz şəxsi təsərrüfatı ilə məşğul olmuşdu. Qasım kişi bütün övladlarının toyunu etmiş və yeganə qızını gəlin köçürmüşdü. Onun oğlanları böyüdükcə güzəranı da yaxşılaşdı, nəvə-nəticə sahibi oldu. Bu kimi hallar Qasım kişinin ömrünə ömür caladı o səksən yeddi il ömür sürə bildi. Əgər doğma yurdundan didərgin düşməsə Qasım kişi yüz il yaşaya bilərdi. Çünki, o sağlam gövdəli və saf düşüncəli bir ağsaqqal idi.



***İlqar, həyat yoldaşı Lətifə, oğlanları Vüqar, Habil.***

Qasım kişi 2017-ci ildə Beyləqan rayon Budaqlılar kəndində dünyasını dəyişdi. Qasım kişi, "Təksaqqız"ın yanında salınmış Budaqlı qəbirstanlığında əmisi oğlu Xudadatın qəbri yanında dəfn olunubdur.

Qasımın oğlanları, babaları və atasının yolunu gətirmiş, hazırda onların adını yaşadırlar. Qasımın oğul nəvəsi, Əfqanın oğlu Qasım, həm babası, həm də ulu babasının adını daşıyır, Azərbaycan Dövlət Universitetinin Turizm və Mencment fakultəsini bitirib. Hacı Qasımın nəticəsi İlqar (Vahid) Qasım oğlu geniş torpaq sahəsinin sahibi olmaqla, eynilə Hacı babasının yolunu davam etdirir, halal zəhməti ilə əkinçilik və heyvandarlıqla məşğul olan fermerdir. İlqar (Vahid), yaşadığı Axullu kəndində yaradılmış Özünü Müdafiə könüllülər batalyonunda vuruşmuşdu. O, Xocavənd rayonunda, DİN-nin Xocavənd rayon polis şöbəsində polis nəfəri vəzifəsində çalışmışdı. İlqar dəfələrlə düşmənə qarşı döyüşlərdə iştirak etmiş və döyüş zamanı bir neçə dəfə ağır yaralanmışdı. İlqar həm də babası kimi geniş düşüncəli, süfrəsi açıq, qonaqpərvər və qohumcanlı adamdır. İlqarın həyat yoldaşı Lətifə xanım, Hacı Qasımın qardaşı Səfəralının qız nəvəsidir. Onların iki oğlu, iki qızı dünyaya göz açıbdı.

Oğlanları : Vüqar, Habil, qızları : Gülnar, Leyla.

İlqarın böyük oğlu Vüqar, hazırda yaşadığı Budaqlı kəndində Həsrətin qızı Lalə xanımla ailə qurub, Məhəmməd adlı oğlu, Zəhra adlı bir qızı var. İlqarın qızı Leyla, ata qohumu Qüdrətin oğlu Nicatla ailə qurub və iki oğul anasıdır. İlqarın digər qızı Gülnar xanım, Kəbirli kənd sakini nənə qohumu Eldarla ailə qurub. Bu cütlüyün bir oğlu, bir qızı dünyaya gəlib.

Əhəd Qasım oğlu, nənə babasının adını daşıyır. O, Hadrut rayon Axullu kəndində anadan olub. Əhəd xalası Əzizin qızı Gülçöhrə xanımla ailə həyatı qurubdu. Dağlıq Qarabağda münaqişə başlayan zamandan Özünü Müdafiə könüllülər batalyonunda döyüş yolları keçib və düşmənə qarşı çox amansız olubdu. Əhəd ermənilərlə döyüş zamanı mühasirəyə düşüb, ermənilər tərəfindən girov götürülüb. O, girovluqdan azad olunduqdan sonra da kəndin işğalına qədər, gedən döyüşlərdə ermənilərə qarşı vuruşmuşdu. Başqalarından fərqli olaraq Əhəd istəmirdi ki, baba yurdu ermənilər tərəfindən işğal olunsun. Əhədin iki oğlu, dörd qızı anadan olubdur.

Oğlu: Ramil, Əli qızları: Gülnarə, Alimə, Rəisə, Xəyalə.

Əhəd hazırda məcburi köçkün kimi Bakı şəhərində məskunlaşıb. Əhədin oğlu Ramil Hacılı tayfasından Nuranə xanımla evlidir. Onların Sevil və Könül adlı iki qızları var. Əhədin qızları Gülnarə Vidadi adlı oğlanla, Alimə Qəbələdən Faiqlə, Rəisə Şuşadan məcburi köçkün olan Əlzamanla, Xəyalə isə Bakı şəhər sakini Şəhalətlə ailə qurublar. Hər birinin övladları var.

Mehman Qasım oğlu, Xocavənd (Hadrut) rayon Axullu kəndində doğma baba yurdunda dünyaya göz açıb və taytuşları arasında sayılan, seçilən oğlan olubdur. Mehman da qardaşları kimi Özünü Müdafiə Könüllülər batalyonunda döyüş yolları keçibdir. Mehman xalası Suqranın qızı Məleykə xanımla ailə qurub və onların iki oğlu, iki qızları anadan olubdur.

Oğlanları: Həbib, Təbib qızları: Həqiqət, Bəyim.

Mehmanın qızı atasının nənəsi Bəyimin adını yaşadır. Mehman məcburi köçkün kimi Beyləqan rayon Türklər qəsəbə-

sində özünə yurd seçdi və bu kənddə məskunlaşıbdı. Mehmanın oğlu Həbib Şəki şəhərindən Rahilə xanımla ailə qurub, hələlik övladları yoxdu. Mehmanın ikinci oğlu Təbib qan qohumu Marifin qızı Lamiyə xanımla ailəlidir. Onların Sevinc, Ləman adlı qızları, Mehman və Sənan adlı iki oğlu var. Mehmanın qızı Həqiqət, Füzuli rayon sakini Siyavuşla ailə qurub, iki oğlu var. Mehmanın ikinci qızı Bəyim Şəkili Cabbarla ailəlidir. Onların bir oğul, bir qız ekiz övladları dünyaya gəlib.

Məhəmmədəli Qasım oğlu, Axullu kəndində dünyaya göz açıb, Böyük Vətən Müharibəsində həlak olmuş əmisi Məhəmmədəlinin adını daşıyır. Məhəmmədəli Xocavənd rayon Qaradağlı kəndində Bahadurun qızı Naridə xanımla evlənibdir. Onların üç övladları olub.

Oğlu Qabil, qızları Fəridə və Nərgiz.

Məhəmmədəli məcburi köçkün kimi Xocavənd rayon qəsəbəsində məskunlaşıbdır.

Vaqif Qasım oğlu, babası Hacı Qasımın nəticəsi Gülşən xanımla ailə qurub. Onların iki oğlu Turxan, Duyğun (qardaşlar əkizdi) və iki qızı Gülnaz (Rəna) və Xanım anadan doğulub. Uşaqlar gəncdi, ailə qurmayıblar. Vaqifin qızları göründüyü kimi bibisi Rənanın və nənəsi Xanımın adlarını daşıyırlar. Vaqif hazırda Xocavənd rayon qəsəbəsində məskunlaşıb. Vaqifin övladlarının dördü də ali təhsillidir.

Turxan Vaqif oğlu, Sumqayıt Dövlət Universitetinin Tarix fakültəsini bitirib, hələki işləmir. Duyğun Vaqif oğlu, Ağcabədi rayon Müəllimlər Universitetinin tarix-coğrafiya fakültəsini bitirib.

Gülnaz (Rəna), Ağcabədi Müəllimlər Universitetinin ədəbiyyat fakültəsini bitirib və ixtisası üzrə Sumqayıt Dövlət Universitetində magistratura təhsili alıbdı. Gülnaz xanım ha-

zırda Füzuli rayonunun Beyləqan rayon Türklər qəsəbəsində yerləşən 17 saylı tam orta məktəbin filialında ədəbiyyat müəllimi vəzifəsində çalışır. Vaqifin ikinci qızı Xanım, Sumqayıt Dövlət Universitetinin tarix müəllimi fakültəsini bitirib və ixtisası üzrə ADPU-də magistratura təhsili alıbdı.

Əfqan Qasım oğlu, nənə tərəfindən İmişli rayon Əliqulular kəndində yaşayan, bəylik nəslindən olan yaxın qohumu Şükürün qızı Şahnaz xanımla evlənib ailə qurubdu. Onun Qasım, Hikmət adlı iki oğlu və Aybəniz adında bir qızı dünyaya gəlib. Qasım Azərbaycan Dövlət Universitetinin Turizm və Menecment fakultəsini bitirib. Əfqan hal hazırda Budaqlılar kəndində məcburi köçkün kimi məskunlaşıb.

Qasımın oğlanları demək olar ki, ata-babalarının yolunu getməklə əkinçilik və heyvandarlıqla məşğul olurlar.

Qasımın yeganə qızı Cəvahir müəllimə, Budaqlı ziyalısı kimi tanınır, kəndin bələdiyyə sədri işləmiş, hazırda isə yaşadığı kəndin tam orta məktəbində müəllimə işləyir. Hacı Qasımın nəticəsi Rafiqlə ailə həyatı qurub iki oğlu, iki qızı var.

Cavahir xanım, ailəsi ilə birlikdə Budaqlı kəndində yaşayırlar, öz şəxsi təsərrüfatlarında heyvandarlıq və əkinçiliklə məşğul olurlar

**Rəna Qulam** qızı, 1936-cı ildə Budaqlı tayfasında anadan olubdu. Anası rəhmətə getdikdən sonra onu uşaqlıqdan xalaları və dayısı qəyyumluğa götürüb saxlamışdılar. Hazırda Rəna xanım Sumqayıt şəhərində yaşayır. O, oxuyub ali təhsil almış, ixtisasca mühəndisdir. Rəna xanım, Ağdamdan Hamletlə ailə həyatı qurmuş və bir oğlu, iki qızı dünyaya gəlmişdi. Onun oğlu Əliyev Bahadur Hamlet oğlu Gəncə Politexnik İnstitutunu bitirmiş mühəndis diplomu almışdı. O, hazırda Sumqayıt şəhər Boru-prokat zavodunun direktorudu. Qızı



Əliyeva Hicran Hamlet qızı BDU-nin riyaziyyat fakültəsini bitirmiş, riyaziyyat üzrə fəlsəfə doktorudu. O, hazırda Sumqayıt Dövlət Universitetində çalışır. İkinci qızı Əliyeva Səbinə Hamlet qızı Bakı Neft Akademiyasını bitirmiş, ixtisasca mühəndisdir.

*Rəna Qulam qızı*

Qulam kişi həpsxanadan geri döndükdən sonra, Tanrıqullar tayfasından Şavağat kişinin qızı Tamara xanımla ikinci dəfə ailə həyatı qurub və onların iki oğlu, iki qızı anadan doğuldu.

Oğlanları: Məhərrəm, İsmiyəli, qızları: Bəyaz, Gülgəz.

Qulam kişi 1951-ci ildə Budaqlı kolxozu dağılandan sonra ailəsi ilə birlikdə Dağlıq Qarabağa köçüb Axullu kəndində yaşamışdı. Qulam kişi ömrünün sonuna qədər heyvandarlıqla məşğul olub və 1962-ci ildə yaşadığı Axullu kəndində dünyasını dəyişib və Füzuli rayon Çimən kənd qəbirstanlığında dəfn olunubdu.

**Əliyev Məhərrəm Qulam** oğlu (1946-2005), Budaqlı kəndində anadan olub. O, Budaqlı kolxozu birləşəndən sonra atasının himayəsində uşaq yaşlarında Dağlıq Qarabağa köçüb Xocavənd (Hadrut) rayon Axullu kəndində yaşayıbdı.

Qarabağ münaqişəsindən sonra məcburi köçkünlük həyatı yaşamış, Beyləqan rayon Türklər qəsəbəsində məskunlaşmışdı. Məhərrəm, Tanrıqullar tirəsindən ana qohumu Camalın qızı Pürzə xanımla ailə qurub. Onların bu cütlükdən iki oğlu, üç qızı dünyaya göz açıbdı.

Oğlanları: Şəmsəddin, Qulam, qızları: Vəfa, Səbiqə, Vüsalə.

Yuxarıda göründüyü kimi Məhərrəm öz oğluna atası Qulamın adını oğluna, qızına isə nişanlı vaxtı dünyasını dəyişmiş bibisi Səbiqənin adını qoyubdur. Məhərrəm 2005-ci ildə Beyləqan rayonunda dünyasını dəyişib və Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunubdu.

Şəmsəddin Məhərrəm oğlu, Axullu kəndində anadan olubdu. Hazırda qaçqınlıq həyatı yaşayır. Şəmsəddin Xocavənd rayon Kurapatkin kənd sakini Muradın qızı Gülsarə xanımla ailə qurubdu. Onların Toğrul adlı oğlu və Tamara adlı qızı var. Şəmsəddin öz qızına nənəsinin adını qoyubdu.

Məhərrəmin kiçik oğlu babası Qulamın adını daşıyır. Qulam, Füzuli rayon İşıqlı kənd sakini Sənəm xanımla ailəlidir. Onların iki övladı anadan olubdu. Qulam da öz növbəsində oğluna atası Məhərrəmin adını qoyub. Qızının adı Aylindi.

Məhərrəmin qızları: Vəfa öz kəndlisi Dayandurla (Dayandur rəhmətə gedib) ailəli olub, bir oğlu, bir qızı var. Səbiqə Budaqlı kəndində Südgülün oğlu İlhamla evlidir, bir oğlu, bir qızı var. Vüsalə Dünyamalılar kəndində Qafar müəllimin oğlu Eminlə ailə qurub bir oğlu, bir qızı var.

**Əliyev İsmiyəli Qulamın oğlu** ailənin kiçik oğludur. O da Dağlıq Qarabağda anadan olub, məcburi köçkün kimi ilkin mərhələdə Beyləqan rayonunda məskunlaşıbdı. İsmiyəli ana qohumu xalası qızı olan molla Qaranın qızı Siyasət xanımla

evlənib ailə qurublar. İsmiyəli hal-hazırda Xocavənd qəsəbəsində yaşayır və şəxsi avtomobili ilə ticarətlə məşğuldur.

İsmiyəlinin bir oğlu Xəyal, və bir qızı Xoşbəxt dünyaya gəlibdi. Xəyal, Beyləqan rayon Şahsevən kənd sakini Xəyalə xanımla ailə qurub, Turan və Sərxan adlı iki oğlu dünyaya gəlib.

Xoşbəxt (1984-2018), Budaqlı kəndində yaşayan əslən Füzuli rayon Veysəlli kəndindən olan Sakitin oğlu Mahirlə ailə qurub və axırıncı oğlunu dünyaya gətirən zaman dünyasını dəyişib. Onun Aytən, Rəvan və Sakit adlı övladları yadigar qaldı. Xoşbəxt Budaqlı qəbirstanlığında dəfn olunubdu.

**Bəyaz Qulam** qızı, yaxın qohumu Təhməzli tirəsindən tanınmış ziyalı Kamal İbrahimovun həyat yoldaşıdı, üç övladı var. Bu haqda təhməzli tirəsində ətraflı verilib.

**Gülgəz Qulam** qızı, (1952-2019) Xocavənd rayon Axullu kəndində anadan olub. Gülgəz xanım doğulduğu kənddə atasının və qardaşının himayəsində böyüyüb boya başa çatıb və həmin kəndin sakini Məhəmməd (1949-2018) ilə ailə həyatı qurublar. Bu ailənin beş qızı, bir oğlu anadan olub. Ailənin yeganə oğlu Bəhruz Məhəmməd oğlu Azərbaycan Dövlət Texnologiya Universitetinin İqtisadiyyat və idarə etmə fakültəsini bitirib. O, hazırda Xocavənd rayon icra strukturunda çalışır. Bəhruz, Füzuli rayonunun işğal altında olan Qarğabazar kənd sakini Fidan xanımla evlənib ailə qurubdu.

Onların Aysu adlı bir qızı və Məhəmməd adlı oğlu dünyaya gəlibdi. Məhəmmədin ailəsi Dağlıq Qarabağ münaqişəsinə qədər Axullu kəndində yaşamışlar. Münaqişə nəticəsində doğma torpaqları işğal olduqdan sonra bu ailə, əvvəlcə Beyləqan rayon Allahyarlı kəndində, sonradan isə Məcburi köçkünlər üçün Xocavənd rayon ərazisində yeni salınmış yaşa-



*Gülgəz Qulam qızı, həyat yoldaşı Məhəmməd, oğlu Bəhruz.*

yış kompleksində, Xocavənd rayon qəsəbəsində məcburi köçkün kimi məskunlaşıblar.

Gülgəzin həyat yoldaşı Məhəmməd 2018-ci ildə, özü isə 2019-cu ilin yanvarında Xocavənd rayonunda dünyalarını dəyişmiş və Cərciz Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunublar.

Gülgəzin qızı Zərifə, Gəncə Dövlət Texnologiya Universitetini bitirib və Gəncə şəhər sakini Rafiqlə ailə qurublar. Onların bir qız, bir oğlan övladları var. Gülgəzin ikinci qızı Zülfiyyə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika fakültəsini bitirib. O, Füzuli rayon Kürdmahmudlu kənd sakini Azad bəylə ailə qurub bir oğlu və bir qızı var. Şövqiyyə Məhəmməd qızı, Beyləqanlı Telmanla evlidir bir oğlu var, Ay-

nurə Allahyarlı kənd sakini Bilal ilə ailə qurub bir oğlu var. Şəfəq Kürdmahmudlu kənd sakini Mübarizlə ailə qurub iki qızı, bir oğlu var.

Hacı Qasım yuxarıda bildirdiyim kimi, üç dəfə müqəddəs Məkkə şəhərində Həcc ziyarətində olmuşdu. Bu ziyarətlərin birincisi gənc yaşlarında, yəni yeniyetmə çağlarında əmisi Hacı İsmayılla getmişdi. Hacı Qasım ikinci dəfə təxminən qırx yaşlarında olan vaxtı Həcc səfərinə çıxmışdı. Bu səfər zamanı Hacı, Türkiyənin İzmir şəhərindən olan bir xanımla tanış olub. Söhbət əsnasında xanım ona bildirib ki, dul qadın olduğu üçün ona ziyarət etməyə icazə vermirlər. Belə olan halda Hacı Qasım xanımla razılığa gələrək kəbin kəsdiriblər və şəriət qaydası ilə evlənmişdilər. Onlar ziyarəti birgə başa vurub geri qayıdırlar. Onu da nəzərinizə çatdırım ki, o zaman Həcc ziyarətinin müddəti altı aydan çox çəkirdi. Səfər müddəti onlar bir yerdə ər-arvad kimi yaşamışdılar. Həmin xanımın Hacı Qasımdan bir oğlu olubdur. Bu nəsil hal-hazırda İzmir mahalında yaşayırlar və Hacı Qasımın nəticəsi, eləcə də onun soyadını daşıyan Fikrət Qasımoğlu Türkiyədə "İğdirin səsi mərhaba" qəzetinin baş redaktorudu. Hacı Qasım həmişə yaylağa çıxandan sonra Naxçıvana gedərmiş və ordan Türkiyənin İzmir şəhərinə gedib həftələrlə həmin xanımın yanında qalarmış. Amma, Hacı Qasım bunu ömrünün sonuna qədər sirr olaraq qəlbində saxlamışdı. Son dövr 1997-ci ildə məktublaşma vasitəsilə hər iki tərəfin tanış olub görüşməsi indiki nəslin nümayəndələrinə qismət olmuşdu. Fikrət Hacı Qasımoğlu Azərbaycana gəldi və Beyləqan rayonunda doğma qohumları ilə görüşə bildi...

## EL ANASI MƏŞƏDİ BƏYAZ

Məşədi Bəyaz (1855-1935), elat tərəkəmə camaatında Hacılı tayfasında böyük bir bəylik nəslindəndir. Məşədi Bəyazın atası Ağahəsən bəylə Hacı Alının dostluq münasibətləri olub. Onlar çox zaman elin xeyir-şərində bir yerdə olardılar. Bundan başqa Hacılı tayfası ilə Budaqlı qışlaqda və yaylaqda qonşu olardılar. Onlar bir-birini hələ cavanlıqdan yaxşı tanıyırdılar, artıq ailə dostu olmaqla özləri ağırlığında çörək kəsmişdirlər. Bu iki tanınmış bəylərin yaxın dostluğu son anda qohumluğa çevrilmişdir.

Məşədi Bəyaz, Hacı Qasımın birinci və ən sevimli sözü keçən həyat yoldaşı, xanımı olub. O öz xanım xatınlığı, sözünün keçərliliyi, bütün mahalda sözünün hökmlü olmağı ilə fərqlənən xanım idi. Hacı Qasımın Məşədi Bəyazdan övladı olmamağına baxmayaraq, onun sözünü dinləyir və müəyyən məsələləri bir yerdə həll edirdilər. O çox ağıllı, uzaqgörən, hər şeyin öz yerini bilən bir xanım idi. Hacı Qasım özü belə heç vaxt onun sözünü yerə salmaz, çox zaman onun fikirləri ilə razılaşardı. Allah, Hacı Qasıma verdiyi var-dövləti sanki onun üzünə bəxş etmişdir.

Hacı Qasım Qızıl Qayada olan torpaq sahəsində mal-qara saxlatdırardı. Həmin sahədə Hacı böyük meyvə bağı saldırmış, dəyirman tikdirmiş, kəhriz vurdurmuşdur ki, o zaman bu ərazidə yaşayan insanlar dəyirmandan və kəhrizdən həmişə istifadə edirdilər. Bu məkana ən yaxın olan Füzuli rayonunun aşağı Veysəlli kəndi yerləşirdi.

Hacı Qasım Veysəlli kəndindən cavan oğlanlardan ibarət bir dəstə adam çağırtdırıb, onlarla sövdələşir ki, mal-qara üçün pəyə, qış yeri qazdırsın. Fəhlələr gəlir, Hacı Qasımla

danışıb haqqlarını alırlar. Hacı da öz tapşırığını onlara verib deyir:

- Yeməyinizi verəcəklər yeyin, işinizi səliqəli görün, mənim işim var, başqa yerə gedirəm, sabah qayıdacam.

Hacı sözünü dedi, boz atını minib yola düşüb getdi. Fəhlələr də sözləşdilər ki, buranı iki-üç gün müddətinə qazarıq, yalnız qazancımız bir-iki qarın artıq yemək olar. Bu zaman fəhlələrin zəif işləməsini görən Məşədi Bəyaz gəldi onların yanına dedi:

- Uşaqlar, əlinizi saxlayın, beş nəfər cavan oğlanı ayırdı qırağa onlara dedi:

- Ay uşaqlar, o göy cöngəni yıxıb yerə kəsin.

Təxminən iki yüz kq ət verən cöngəni kəsib, soydular.

Bayaz xanım dedi:

- Ay uşaqlar, bir qol-qabırğasından verin sizin naharınıza hazırlansın, qalanını bölün on iki yerə, qurtarandan sonra aparın ailə, uşağınız da yesin.

Bəyaz xanımın bu alicənablığını görən fəhlələr bir gün müddətinə öz işlərini görüb qurtarmışdılar. Məşədi Bəyaz öz sözünü deyən, hətta qarşısında duran insanların qəlbini üzündən oxumağı bacaran xanım idi.

O, həmişə çoban, naxırçı və başqa xidmətçilərin ailəsini diqqətdə saxlayırdı. Məşədi Bəyaz həm də təbabəti yaxşı bilən, dərman bitkilərindən istifadə etməklə müəyyən xəstəlikləri müalicə edən, boğaz ağrılarını sağaldan, qızılca, məxmirək, soyuqdəymə, sətəlcəm olan insanları təbabət yolu ilə müalicə edən xanım idi. O, anası Leyli xanımın gördüyü işlərə diqqətlə fikir verər, gördüklərini və öyrəndiklərini yaddaşında saxlamağı bacaran xanım olmuşdu. Anası həmişə ona deyərdi:

- Ay qızım, gəl dur yanımda elədiklərimə bax, aşbazlara diqqət ver elədiklərini öyrən ki, sabah ərə gedəndə əziyyət çəkmiyəsən. Bəzən şıltaqlıq edən Bəyaz:

- Ana, onsuz da xörək hazırlayan, evi təmizləyənlər var, mənim bunu öyrənməyim nəyə lazımdır?

- Qızım gördüklərin burda var, bəlkə getdiyin yer, düşdüyün ocaq kasıb oldu, sənin işlərini kim görəcək?

O, uşaqlıq şıltaqlığı ilə: - Ana, mən dəliyəm ki, kasıba ərə gedəm deyib gülərdi.

- Qızım, dünyanın işini bilmək olmaz, həyatda elə işlər olur ki, o bəylikdən, nökərlikdən asılı olmur. O qədər adlı-sanlı bəylərin qızlarını qaçaq, quldurlar qaçırdıb, Allah uzaq eləsin.

- Ana, səncə atam məni kasıb oğlana verərmi?

- Qızım, elə kasıb oğlanlar var ki, yüz dənə qudurğan bəy oğlundan yaxşıdır. "Atalar deyir işini ehtiyatlı tut ki, sonra peşiman olmayasan".

Məşədi Bəyaz nə danışıb, nə edəcəyini bilən xanım idi. Ata evində anası Leyli xanımdan öyrənib, bildikləri artıq onun köməyinə çatırdı. O, nökərlərə tapşırıq verəndə nəticəsini yoxlayırdı, yarıtmaz iş olanda heç kəsi danlamırdı, onları mülayimliklə başa salırdı. Elə buna görə də onun xətir-hörməti hamı üçün əziz olardı. Məşədi Bəyazın öz boğçası, sandığı var idi, bu sandıq ağzınacan dolu olardı. Bayram günlərində Bəyaz xanım qulluqçu xanımlara heç bir ayrı-seçkilik qoymadan bahalı hədiyyələr qızıl əşyalar və yaxud donluq parçalar bağışlayıb deyərdi:

- Ay qız, ay gəlin, aparın bu parçadan bir dəst paltar tikdirib geyinin əyninizə, bayram günlərində al-əlvan geyinmək lazımdır. Gözəllik ondu, doqquzu dondu, deyərdi.

Məşədi Bəyaz atasız və yaxud anasız qalan yetim uşaqları həmişə diqqətində saxlayardı. Qız uşaqlarını daha çox əzizləyərdi. Çünki, Bəyaz xanım görüb götürmüş, bəylikdən olan varlı ailənin qızı olmuşdur. Onun ata ocağında da bu adət-ənənə eynilə belə idi. O, həmişə deyərdi:

- Bir yetimi sevindirən cənnəti sağlığında qazanır.

Hacı Qasım həmişə zarafatla deyərdi: -Bəyaz xanım, Leyli xanım səni doğanda, yetim anası doğub.

Bəyaz xanım gülüb deyərdi:

- Hacı, yetimlərin valideyni olmasa da Allahları yanındadır, biz kimik ki, Allahın buyruğundan çıxaq.

- Bəyaz xanım, ona görə də Allahım sənə bu xanım xatunluğu bəxş edib.

- Qurban olum Allaha hər kəsin qismətini özü verir.

Məşədi Bəyazın gözəl xüsusiyyətlərindən biri də, həm obadan gəlin köçəndə, həm də obaya gəlin gələn zaman xanımlara mütləq bahalı hədiyyə bağışlayıb deyərdi:

- Ay gəlin, götür xələtini xeyir-duamı qəbul elə, Tanrı bəxtini, taleyini versin, evin ruzili-bərəkətli olsun, evindən körpə səsi gəlsin, qucağınız uşaqlı olsun.

Nəsihət edirəm:

- Verən əliniz olsun, şirin diliniz.

- "Qulağınızda sırğa edib yadda saxlayın, gəlin var evin tacıdır, gəlin var zəhərdən acıdır, çalışın evin tacı olun, qaynatanızı atanızdan seçməyin, qaynananızla ana-bala münasibətində olun, qayınlarınızı qardaş gözündə görün, baldızlarınızı bacı kimi əzizləyin, həyat yoldaşınızın sözünü qaytarmayın, yemək-içməyin, çayın-çörəyin vaxtında qarşısına qoyun, deyingən olmayın, özünüzə artıq söz dedirtməyin, uşaqlarınızı atasının yanında vurmayın, ağsaqqal və ağbirçək yanın-

da uşaq öpməyin, çətinlikləriniz olanda onu çox da qabartmayın, elin xeyir-şərində fəal olun. Ərlərinizlə davanız olsa, ata evinə küsülü getməyin. Getsəniz belə qayın, qayınata evinə gedin. Bu dediklərimi yadınızda saxlasanız, dediklərimə əməl etsəniz Allah sizin xoşbəxtliyinizi verəcək, çalışın bu xoşbəxtliyi qoruyub əlinizdə saxlaya biləsiniz".

Məşədi Bəyaz yaxınlarına, el-obasında olan qadınlara həmişə yol göstərib nəsihət edərdi:- "Ay xanımlar, ay qızlar ləçəyinizi (baş yaylığı) qoruyun. Sizin ləçəyiniz atanızın, qardaşınızın, həyat yoldaşınızın və tayfanızın namusu-qeyrəti sayılır. Çalışın ki, el-obanızı başı aşağı etməyəsiniz. Qadının gözəlliyi xarici görünüşü yox, onun namusudur. Hər hansı bir günah etsəniz bağışlanar, ancaq namus məsələsi bağışlanmır. Namus hər bir gözəl qadının xanımlıq simvoludu, həya isə namuslu xanımın cənnət tülündən üz örtüyüdür. Namuslu qadınlar həm bu dünyanın, həm də o dünyanın ən sevimli mələyidir".

Məşədi Bəyaza Allah bütün nazı-neməti bəxş etdi, xanımlığı, ağbirçəkliyi, gözəlliyi, loğmanlığı, var-dövləti, ancaq Tanrı ona bir övlad vermədi. Allah onu bəlkə də ona görə sınağa çəkdi ki, o bir tayfanın anası oldu, bütün yetimlərin, yoxsulların anası oldu, tayfasına neçə-neçə gəlinlər gətirdi, nə qədər qızlar ərə verdi. Hacı Qasım heç zaman Bəyaz xanımın üstünə arvad alıb evə gətirmədi. Bəyaz xanımın işlərini də qulluqçular görürdü. Obanın gəlinləri, hətta öz qayınlarının yoldaşları onun yanında qucağına uşaq almırdı, həya edirdilər. Belə olan hallarda o uşaqların anasına:

- Ay gəlin uşağı, qucağına götür qoyma ağlasın, deməsə, uşaq ağlasa belə ana balasını qucağına götürməzdi. Bu xanımlıq, qüdrətli söz sahibi olmağı ona ata ocağından keçmiş-

di. Məşədi Bəyazın dayıları da adlı-sanlı bəylərdən olmuşdu, dayısı Əşrəf bəy, Cavanşir bəy, Mürşüd bəyin adı gələndə quşlar da qanad salardı. Qardaşı Baxış bəy də dayılarına çəkmişdi, qorxu-ürkü bilməzdi. Baxış bəyi Nikolay dövləti həbs edib, Sibirə sürgün etmişdi. Deyilənə görə, Baxış bəy sürgündən qaça bilmişdi. Məşədi Bəyazın bir dayısı Mürşüd bəy, yüksək vəzifə sahibi olmuşdu. Onu Moskvaya çağırıb bəy nəslindən olduğu üçün orada zəhərləyib, öldürmüşdülər. Sovet rejimi dövründə Ağahəsən bəy də dövlət tərəfindən nəzarətdə saxlanmış və son anda represiyyanın qurbanı olmuşdu.

Bu hadisələr nə qədər acı olsa da Məşədi Bəyaz bunlara dözür, öz təmkinini qoruyub saxlaya bilirdi. Yaşadığı dövrdə Bəyaz xanımın sözü yetərincə qüvvədən düşmədi. O, ömrünün sonuna qədər Budaqlı tayfasının ən sevimlisi oldu, xanımlığını qoruyub saxlaya bildi. Bəli, obanın xoş, firavan günləri məhz Bəyaz xanımın adı ilə bağlıdır. Bugünkü nəsil Məşədi Bəyazı, Bəyaz nənə kimi anırlar və xatırlayırlar.

Məşədi Bəyaz 1935-ci ildə Hacı Qasımdan bir il qabaq dünyasını dəyişib. O, Cərciz Peyğəmbər türbəsinin yanında dəfn olunub. Hacı Qasım dünyasını dəyişəndə Məşədi Bəyazın qəbri yanında dəfn olunubdu. Budaqlı tayfasında bu günə qədər də onun adı anılır. Ona həmişə quran oxudulur və ehsan verilir. Məşədi Bəyazın adını daşıyan nəvəsi Bəyaz xanım hal-hazırda Xocavənd rayonunun Tuğ qəsəbəsində yaşayır və Hacı Qasımın bacısı nəvəsi Kamal İbrahimovun həyat yoldaşıdı. Üç övladı:- oğlu Fəxri, Xəqani və bir qızı Könül Beyləqan şəhərində yaşayırlar...

Budaqlı elatının yaylaqda olan vaxtıydı, Hacı Qasımın qoyun sürüləri gündüzlər örüşdə otlayıb, gecələr "Pəri Çınqılının" ətəyində daş və torpaq çimlərindən hörülmüş qəhəllər-

də saxlanılırdı. Çobanlar gündüzlər sürünü otarıb axşam arxaca gətirəndən sonra, çox zaman Hacının qardaşları və yaxud qardaşı oğlanları gecə növbəsini özləri çəkərdilər. Hacının qardaşı Baxışın oğlu Muxtar Hacının erkək sürüsünə gecə keşik çəkirdi. Gecənin bir aləmində görür ki, sürünü seçirlər. Muxtar onlara qarşı müqavimət göstərir və bu zaman atışma düşür. Muxtara beşatılandan atəş açırlar o qolundan yaralanır. Bu zaman qaçan oğruların birini Kərbəlayı Mehdinin oğlu Salman kişi sərrast atəşlə vurub atdan yerə salır. Güllə oğrunun kürəyindən dəydiyinə görə o həmin anda ölmüşdü.Vurulan tərəf Hacı Qasımla danışıq aparmış meyitlərini almışdılar. O zaman həm ölüm olduğuna görə, həm də yaylaqda həkim olmadığından Muxtarın güllə yarasını Məşədi Bəyaz müalicə etmiş, yaradan gülləni çıxarmış və yaranı tam sağalda bilmişdir. Çünki Məşədi Bəyaz təbabət elmini bilən xanımıydı...

**Əliyev Səfəralı Hacı Alı oğlu**, Hacı Qasımın doğma qardaşıdı. O, sayılan və öz sözünü deyən kişilərdən olubdu. Səfəralı öz elatından Xatın xanımla evlənibdi. Bu evlilikdən bir oğlu Hacalı dünyaya gəlib. Xatın çox cavan vaxtında dünyasını dəyişib. Həyat yoldaşı rəhmətə gedəndən bir müddət sonra Hacı Qasım, qardaşı Səfəralıya Laçın rayonunun Minkənd kəndindən Məhəmmədin qızı Gülnisə xanımı gəlin gətirib. Səfəralının Gülnisədən üç oğlu, bir qızı olub.

Oğlanları: Əjdər, İsgəndər, Möhlət, qızı: Sayıfsul.

Əjdər, II Dünya Müharibəsinə gedib 1943-cü ildə döyüşlərin birində həlak olub. Əjdər müharibəyə gedən zaman subay olduğu üçün övladı olmayıb. Səfəralı kişi hesab- kitabını bilən kişi olub. O, qoyun sürüsünün içinə girib gəzəndə hansı qoyunun sürüdə olmadığını və yaxud itməsini o dəqiqə bilər-

miş. Onu çobanlar aldada bilməzdi. Çünki, heyvandarlıqdan çox yaxşı başı çıxırdı və gözündən heç nə yayınmırdı. Hərdən qardaşı Hacı Qasım ona zarafatla deyərdi:

- Ay Səfəralı, sənin malın, müllkün mənimkindən əslində çox olmalıdı.

O isə gülə-gülə qardaşına deyərdi:- Hacı, niyə elə deyirsən, maşallah sürülərinin ucu-qulağı dönmür.

Hacı yenə zarafata salıb:

- Qardaş, mən o mənada demirəm ey, bir az əlin bərkdi, yəni verən əlin yoxdu, yığdığından da xərcləyən deyilsən. O mənada deyirəm.

- Hacı, hələki yığıram, zamanı gələndə xərcləyəcəm.

- Qardaş, bir az zarafat etmək üçün dedim, birdən xətrinə dəyər.

- Yox Hacı, Allah eləməsin sən bizim böyüyümüzsən, sənin hər sözün bizim üçün bal, şəkərdi.

- Ay Səfəralı, sənə kürdün gözəlini almışam ey, bax bu dövlətdə elə onun üzünədir.

- Allah köməyin olsun, qağa, sənin seçimin heç vaxt yanlış olmayıb.

Doğrudan Səfəralının ikinci həyat yoldaşı Gülnisə xanım, yaxşı ailədən çıxmış, böyük-kiçik yerini bilən xanım idi. O, oğulluğu Hacalını doğma balalarından seçməzdi. Hətta, and içəndə belə Hacalının canına and içərdi. Bu ədəb-ərkan ona ailə tərbiyəsindən gəlmişdi. Onun atası, qardaşları mahalda sayılan-seçilən adamlardan idi. Buna görə də Hacı Qasım onu qardaşı Səfəralıya həyat yoldaşı gətirmişdi. Gülnisə də bu uşaqlara fərq qoymadan onları böyütmüşdü. Doğrusu Hacalı da onu çox istəyirdi. Anasını körpə vaxtı itirən Hacalı, analıq qayğısını ondan almışdı, onun himayəsində firavan

böyümüşdü. Onlar böyüyənə qədər uşaqlar ögeyliklərin hiss etməmişdilər. Budaqlı camaatı onun xətirini çox istəyirdi.

**Əliyev Hacıalı Səfəralı oğlu, (**1903-2007) Budaqlı tayfasında dünyaya göz açdı, böyüdü, öz tayfasında sayılan, seçilən oğlanlardan oldu. Səfəralı böyük oğluna atası Hacıalının adını qoymuşdu.

Ancaq Hacıalı da doğma babasına çəkmişdi. Yəni bu nəsildə baba adını daşıyırdı.




*Şağdan Hacalı, 2-ci həyat yoldaşı Tutubəyim, oğlanları İlham, Sakit, Eldar*

Ancaq babasından fərqli olaraq çox əliaçıq, yeyib-içən kişi olubdu. O, babasının adını yaşatdığına görə də əmiləri də onun xətrini çox istəyirdi. Hacıalı qorxmaz insan olub və həm də ailədə tay-tuşlarından fərqli böyüyürdü. Necə deyərlər ayla, günlə böyüyürdü. Hacalı anasız olduğuna görə heç kim onun xətrinə dəyməzdi. Ona görə də çox ərköyün böyü-

yüb, dediyi sözə yox deyən olmayıb. Hacalı bədəncə hündür, iri gövdəli və özünə görə yaraşıqlı sifəti varıydı. Hacalı kişi, Musa kişi öləndən sonra Budaqlı kolxozunda dörd il kolxoz sədri işləyib. Hacalı həm də qoldan zorlu adam idi. Onun qolunu qatlaya bilən cavan yoxuydu. Hacalı Allahyarlı tayfasından Kərbəlayı Abbasqulunun qızı **Səadət** xanımla (Sədət 1910-2003) evlənib ailə qurdu, onun övladları dünyaya gəldi.

Hacalı kişi mahalda sayılan adam olub. Bütün yüksək vəzifələrdə çalışan adamlarla dostluq münasibəti varıydı. Onu nəinki, yaşadığı bölgələrdə hətta Qarabağda, Zəngəzurda, Göyçədə, İrəvanda tanımayan yoxuydu. Hacalı kişi həm yeyib-içən, özünə yaxşı baxan, həm də sözünü üzə deyən adam olmaqla heç nədən çəkinən kişi olmayıb. Hacıalının iki həyat yoldaşı olubdur. Onun ikinci həyat yoldaşı da təhməzli tirəsindən Tutubəyimdir. Ardıcıl olaraq beş uşaq Səadət xanımdan, üç uşaq isə Tutubəyimdən olubdur. Hacıalının Sədətdən olan övladları dörd oğlan, bir qızı olubdur.



*Hacalı kişinin I həyat yoldaşı Səadət xanım*

Oğlanları: Eldar, Səfər, Sakit, Zahid, qızı: Xatın.

İkinci həyat yoldaşı Tutubəyimdən (1925-2013) olan övladları:

Oğlanları: Füzuli, İlham, Qızı: İlahə.

Hacalı kişi böyük qızına anası Xatının, oğluna isə atası Səfəralının adını qoymuşdu, ancaq Səfər deyə çağrılırdı. Xatın ailəlidir, İmişli rayon Muradxanlı kəndində yaşayır, övladları, nəvə-nəticələri var. Hacalı, Budaqlı kolxozunda 1941-ci ildən 1944-cı ilin yazına qədər kolxoz sədri vəzifəsində işləyib. Onun sədr işləyən vaxtları, elat camaatından bir qadın gəlir Hacalının yanına, deyir:

- Hacalı qağa, uşaqlarım acından ölür, yoldaşım da türmədə yatır mənə bir az buğda köməklik elə, uşaqlarım acından ölməsin.

Qadın yaxasından bir torba qızıl çıxarıb Hacalıya uzadıb deyir:

- Qağa, mən təmənnasız istəmirəm. Bu torbadakı qızılları götür, əvəzində mənə taxıl ver, uşaqlarım acdı, onlar öləndən sonra bunlar mənim nəyimə lazımdı?

Hacalı bir az fikirləşir xanıma yazığı gəlsə də anbarda taxıl olmadığını yaxşı bilirdi. Çünki, aclıq bir evdə deyildi, bütün məmləkəti bürümüşdü. Hacalı bu cavan xanımın üst-başına baxıb yazığı gəlir və ona deyir:

- Ay bacı, bizdə hazırda bir ovuc belə taxıl yoxdu, ancaq sənə bir məktub verəcəm gedərsən Sisyan rayon Qızılcıq kəndinin kolxoz sədrinin yanına, o sənə köməklik edəcək.

Həmin xanım, torba qızılını da götürüb gedir Qızılcıq kəndinə. Sədri tapıb Hacalının məktubunu verir və ondan imdad istəyir. Apardığı qızıl torbasını da verir sədrə. Həmin sədr Hacalının dostu olub. O, fikirləşir ki, qadından qızılı götürməsə taxılı aparmayacaq, çünki qadın çox qürurlu qadındı. Odur ki, bir neçə tay taxıl yığdırıb ağzını bağladır və çuvalın birinin üstünə qara kömürlə xət çəkib xanıma deyir:

- Bacı, evə çatanda bu üstü xətli çuvalı töküb qurudarsan. O biri çuvallar qurudu, bu isə yaşdı xarab ola bilər.

Həmin qadın evə gələn kimi çuvalı tökür yerə qurutsun, baxır ki, verdiyi qızıl torbası taxılın içindədir. İşin nə yerdə olduğunu anlayan qadın, həmin qızılları götürüb gəlir Hacalının yanına əhvalatı olduğu kimi danışır.

- Hacalı qağa, sən də sağ ol, o da sağ olsun, al bu qızılları götür.

Hacalı bilirdi ki, onun dostu bu qızılı götürməyəcək. Həm də baxdı ki, qadının geyimi də əldən düşüb, çox nimdaşdı. Xanıma dedi:

- Ay qızım, mənim dostum var-pul hərisi deyil. Nə veriblər halalın olsun.

-Qızıllarını da götürüb get evinə, lazım olsa geyimini təzələ. Mənə nə pul, nə də qızıl ehtiyac deyil.

Hacalının Budaqlı kolxozunun sədri vəzifəsində işlədiyi dövrdə 1944-cı ilin qışında kolxozun heyvanları qışın sərt çovğunlu keçməsi nəticəsində xeyli tələf olmuşdu. Heyvanın kəmliyinə görə Hacalı kişiylə birlikdə 17 kolxoz sədri həbs olunub və hamısına güllələnmə cəzası verilib. Qaldırılan cinayət işinin istintaqı bitdikdən sonra Hacalı kişiyə məhkəmə güllələnmə hökmü cəzası verib. Ancaq Hacalı kişi 3 ay 5 gün güllələnmə altında yatsa da hökүm icra olunmayıbdı. Hacalı kişiyə hökүm oxunmuşdu, ancaq nəticəsindən heç kəsin xəbəri yox idi. Bir gün Səadət xanım Hacalıdan xəbər tutmaq üçün Bakıya "Bayıl" türməsinə gedir. O zaman türmə rəisi çox zəhimli bir Tatar xanımı olub. Səadət xanım bir neçə vətəndaşlarla birlikdə rəisin qəbuluna düşə bilib. Görüş vaxtı iki barmağının arasında iki ədəd qızıl onluğu rəisin cibinə sala bilib. Rəis Səadət xanımın bu məharətinə təəccüblənir onu

öz kabinetinə aparıb və ona bildirib ki, bu günə qədər heç kəs risk edib mənimlə belə hərəkət edə bilməyib. Mən özümü igid və qorxmaz qadın hesab etmişəm. Lakin sən məndən də ürəkli xanımsan, sənin bu cəsarətinə görə sənə kömək edəcəm. Nə qədər qorxulu olsa da həmin türmə rəisi öz həyatını təhlükəyə ataraq kabinetində Hacalıyla Səadət xanımı görüşdürə bilib. Bu zaman rəis deyib:

- Hacalı, sənin həyat yoldaşın çox ürəkli və qorxmaz qadındı, mən bilmirən sən onun haqqından necə çıxacaqsan?

Hacalı kişi cavabında zarafatla bildirmişdi:

- Rəis, türmədən çıxanda bir arvad alacam ona qulluq edəcək.

Hacalının güllələnmə hökmü 10-il həbs cəzasıyla əvəz olunur. Ancaq Hacalı üç ay beş gün güllələnmə altında yatdığına görə verilən cəzasından üç il çıxılıb, ona yeddi il iş oxunub. Hacalı, sağlam və qorxmaz adam olub. O, həbs müddətində “Bayıl” türməsindən bir dəfə qaça bilib. Hacalının türmədə aldığı məlumata görə Stalin də “Bayıl” türməsində yatmış və ordan qaça bilmişdi. O, həmişə düşünmüşdü, Stalin bu türmədən qaça bilibsə, deməli mən də qaça bilərəm. Hacalı zaman-zaman türmədən qaçmaq yolunu düşünmüş və bir gün istədiyinə nail ola bilmişdi. Hacalı bir yaxın dostu ilə birlikdə türmədən qaçıblar. Onlar çıxıblar şəhərə gedib bir restoranda oturub yaxşı yeyib içiblər, Axşam düşəndə şəhərdən çıxıblar. Hacalının məqsədi İrana keçmək olub. O, bilirdi ki, Azərbaycanda qalsa onsuz da gec-tez onu tapıb tutacaqlar. Odur ki, bir başa gəlirlər İran sərhəddinə ki, Arazı keçib İrana getsinlər. Onlar sərhəddə çatanda artıq hava işıqlanmış olur. Baxıb görürlər ki, sərhəddə at belində keşikçilər hərlənirlər. Hacalı düşünür ki, İrana keçə bilməyəcəklər. Odur ki,

yoldaşına deyir burda qalsaq bizi tutacaqlar, gedək bir başa "Murad təpə" yaylağına. Bu zaman Budaqlı elatı da yaylaqda idi. Hacalı gedib çatır yaylağa, şərəfinə heyvan kəsilir, yeyib içib istirahət edirlər. Onsuz da Hacalı bilirdi ki, onun ardınca gələcəklər. Obaya xəbər gətirdilər ki, Hacalının arxasınca milislər (indiki polis) gəlib, onu axtarırlar. Hacalı deyir qoy gəlsinlər, mən onları gözləyirəm. Beş nəfərdən ibarət milis dəstəsi gəlib Hacalını tutublar. Hacalı deyib:

- Rəis, bilirsiniz ki, istəsəydim məni tuta bilməzdiniz. Bu ucu, bucağı görünməyən çınqıllığa girsəm beş nəfər yox, yüz nəfər də olsanız belə məni tata bilməzdiniz. Mən qaçaq deyiləm, cəza almışam onu da çəkirəm. Yalnız özümü yoxlamaq istədim ki, "Bayıl" türməsindən qaçmaq bacarığım var, ya yoxdu. Onun da öhdəsindən gələ bildim. İndi hara desəniz sizinlə gedə bilərəm.

Hacalının arxasınca gələn milis rəisi onu yaxşı tanıyırdı, bilirdi ki, qorxmaz və mərd kişidi, dəfələrlə süfrəsində çörək yemişdi, Hacalıdan hörmət görmüşdü. Odur ki, dedi:

- Hacalı, səninlə haqqı-salamım var, ancaq biz dövlətin əmrinə tabe olan adamlarıq. Bizim münasibətimiz olsa da qanun, qanundur. Sənin qoluna qandal vurub aparıb lazımi yerə təhvil verməliyəm.

- Rəis, mənim qoluma qandal vurulmayacaq. Əgər belə düşünsən heç məni apara da bilməyəcəksən. Ancaq sizə söz verirəm ki, atdan düşün bir yerdə oturub yeyib-içəyin sonra sizinlə gedib təslim olacam.

- Hacalı bilirəm sən sözünün üstündə kişi kimi duran adamsan. Mən də söz verirəm ki, qoluna qandal vurmayacam.

Rəis dəstəsi ilə düşür yenidən heyvan kəsilir, kabab çəkirlər, yeyib-içib Hacalını gətirib türməyə təhvil verirlər. Beləliklə qayıdıb təslim olandan sonra Hacalının cəzasının üstünə yenidən əlavə üç il də iş kəsirlər.



***Şəkildə soldan Hacalı, oğlu Səfər.***

Hacalı çox qoçaq, uzaqgörən və tədbirli adam idi. O, türmədə tanınmış bir nəsldən həbsdə olan xanımla tanış olur, xanım ona vurulur, o da xanıma. Hacalı o xanımı özünə siğə elətdirib, onunla ailəsi kimi yaşayıb. O, xanım Hacalını çox sevir və ona bir qeyrətli kişi kimi öz ürəyini veribdi. Hacalının bu xanımdan bir oğlu olubdu. Uşaqın adın Sakit qoyublar. Bu xanımın sayılan qardaşları olub. Bacılarının türmə həyatı yaşayan bir kişiylə evlənməyinə qarşı olublar. Ancaq xanımı fikrindən daşındıra bilməyiblər. Belə olan halda xanımın qardaşları, içəridə muzdlu qatil tutub, Hacalını yatdığı

yerdə öldürmək üçün kamerasını və yatdığı yataq taxtını dəqiqləşdiriblər ki, gecə Hacalını öldürsünlər. Təsadüfən həmin gecə Hacalı yerində başqa adam yatızdırıb, özü isə harasa gedibmiş. Həmin gecə Hacalının əvəzinə başqa adam öldürülmüşdü. Hacalı bu real təhlükədən salamat çıxa bilmişdi. Hacalı ciddi rejimdən sərbəst türmə rejiminə çıxa bilib. Düzdü burda Səadət xanım da qaynatadan qalma qızıl toqqasından, qızıl papağından və bir neçə qızıl onluqdan keçməli olmuşdu. Ümumiyyətlə Səadət xanım həyat yoldaşının yolunda çox əzab, əziyyət çəkmişdi.

Hacalı bir-neçə il cəzasını "Bayıl" türməsində çəkib əmək rejiminə buraxılmışdı. Onunla bir neçə nəfər dustaq, türmənin nəzdində Puşkin (İndiki Biləsuvar) rayonunda kalon düşərgəsində heyvana baxırdılar. Bura da cəzaçəkmə düşərgəsi sayılırdı. Hacalı bu düşərgədən də bir dəfə qaça bilmişdi. Amma bunun səbəbi tamamilə başqa şey olmuşdu.

Hacalı, bir neçə nəfər dustaq yoldaşları ilə indi ki, Biləsuvar rayon ərazisində türmənin yardımçı təsərrüfatında olan heyvana baxırdılar, qoyun becərirdilər. Bir gün dustaq yoldaşlarından birinin həyat yoldaşı, ərinin görüşünə gəlir. Bu qadın gözəl və yaraşıqlı olduğu halda onun əri sakit təbiətli cılız adam olub. Hacalının yanında olan başqa bir tustaq başlayıb qadına söz atmağa. Hacalı bir neçə dəfə ona xəbərdarlıq edib ki, ayıbdı, yoldaşının yanına gəlib, ona qarşı hömətsizlik etmə. Bunlar xanım gətirən azuqədən bir yerdə çörək yeyəndən sonra, xanım deyir ki, mən gedirəm. Bu zaman həmin yerini bilməyən dustaq deyir ki, siz oturun mən bu xanımı yola salıb gəlirəm. Hacalı ona xəbərdarlıq edib ki, yerini bil, sən niyə aparırsan, qoy öz həyat yoldaşı aparıb yola salıb gəlsin. O da cavabında Hacalıya çox kobud halda, nalayiq sözlə

deyib ki, sənin nə borcuna qalıb. Hacalı divardan asılmış tüfəngi götürüb sıxır həmin kişinin başına. Kişinin öldüyünü görən Hacalı, fikirləşir ki, yenə onun işini artıracaqlar. Odur ki, ikinci dəfə yenə türmədən qaçır. Cəbrayıl rayonundan olan bir nəfər dustaq da Hacalıyla birlikdə qaçır. Onlar gəlirlər Cəbrayıl rayonuna. Hacalı soruşur:

- Qardaş, həyat yoldaşına etibar edirsənmi, bizi satmaz.

- Hacalı nə danışırsan elə şey olarmı, yoldaşım bizi niyə satmalıdır?

- Qağa, xətrinə dəyməsin,  belə şeylər çox olur, mən cilovu buraxılmış atları çox görmüşəm, birdən bizi ələ verərlər.

- Hacalı, mən bu qədərmi ölü olmuşam ki, məni yaşadığım kənddə ələ versinlər.

- Qağa mən burda gözləyirəm, get ailə, uşağınla görüş gəl, gedək görək, İran tərəfə keçə bilərikmi. Kişi evə gedib bir azdan geri qayıdıb deyir:

- Qardaş, yoldaşım səni gözləyir, deyir gəlsin birlikdə çörək yeyin. Bir yerdə gedirlər evə, oturub bir stəkan çay içirlər, hələ süfrəyə yemək gəlməmiş Hacalı, kişinin arvadından şübhələnir. Xanımın özünü qəribə aparmağı Hacalıda şübhə oyadır. Cibindən "Naqan" tapançasını çıxarıb oturduğu döşəyin altına qoyur. Hacalı türmədə olmasına baxmayaraq həmişə üstündə tapança gəzdirirdi. Bie az keçməmiş onları silahlı milis dəstəsi mühasirəyə alıb tuturlar. Bunları gətirib salırlar Cəbrayıl rayon milis şöbəsinin saxlama kamerasına. Hacalını dindirmə zamanı rəis tanıyır. Rəisin atası ilə Hacalının atası Səfəralı kişi möhkəm dost olublar. Rəis axşam evə gedəndə anasına bu əhvalatı danışıb və anası da ona deyib ki:

- Oğul, nəyin bahasına olursa olsun onu azad elə. Onun atasıyla, sənin atan tonlarla çörək kəsib. Əllərimlə qabaqlarına çörək qoymuşam. Onların süfrələrində çörək kəsmişik. O oğlanın atası da elə-belə kişi olmayıb. Sözün deyən kişi olub.

- Ay ana o dustaqlıqdan qaçıb, üstündə cəzası var mən onu necə azad edə bilərəm.

- Oğul onu azad etməsən südümü sənə halal etmərəm.

Sabahı rəis Hacalını yanına gətizdirdi, ona tanışlıq verdi və anasının sözlərini olduğu kimi ona dedi.

- Hacalı mən bilmirəm sənə necə kömək edim.

- Rəis, mənə kömək etmək istəyirsənsə bizi aparan milisyələr çalış yaşlı olsunlar. Mən onlara xəsarət yetirmədən əllərindən çıxıb qaçacam.

- Hacalı, birini yaşlı adam verəcəm, birini cavan uşaq. Ancaq elə plan cız ki başqa hadisə baş verməsin.

Rəis iki nəfər milis nəfəri ayırıb tapşırıq verib deyir:- dustaqları aparıb Cəzaçəkmə məntəqəsinə təhvil verib gəlsinlər. Milislər dustaqları piyada aparırdılar. Bir xeyli getdikdən sonra Hacalı görür bir kanalın üstündən turba adlayır. Yoldaşına işarə edir ki, artıq qaçmaq məqamıdı, hazır ol. Hacalı qəflətən yaşlı milisə bir yumuruq vurur, milis huşun itirir. İkinci milisə dönəndə görüb ki, silahı atıb qaçır. Hacalının yumuruğu bir zindan gücündə olardı. Onlar turbadan keçib qaçırlar. Bir azdan özünə gələn milis havaya bir-iki güllə atıb geri qayıdır. Hacalı gəlir qaçdığı məntəqəyə, deyirlər kalon rəisi səni axtarır. Amma Hacalı kolan rəisi ilə möhkəm dost olub. Rəis deyir:

- Hacalı, üç gündür hardasan?

- Rəis, düzünü deyim ki, qaçmışdım.

- Hara, niyə?

- O şərəfsizi öldürdüyümə görə.

Rəis deyir ki, onların qaçmaları haqqında məlumat verməmişəm. Hacalı rəisə minnətdarlığını bildirib, öz işinin üstünə qayıdır. Onunla birlikdə qaçan dustağın adını qoydu Qurbanəli bəy.

- Ə, Qurbanəli bəy sənin həm satqın camaatını gördüm, həm də ərinin torbasın tikən həyat yoldaşını.

- Hacalı, onsuz da mən öz evimdə tutulduğum gündən ölmüşəm, bunları üzümə bir də vurma. O kənd də, o ailə də mənim üçün daha yoxdu. Mən bu obaya bir də qayıtmayacam.

Hacalı, Azərbaycan KPMK-nin birinci katibi işləmiş Mircəfər Bağırovun, 12-26 aprel 1956-ci il tarixində, məhkəməsində şahid qismində iştirak edib. Hacalı məhkəmə gedişatında M. Bağırova iki sual ünvanlamışdı: 1- ci sual:

- Yoldaş Bağırov, siz 1944-ci ilin yazında İmişli rayonunda keçirilən müşavirədə 17 nəfər kolxoz sədrini nə üçün həbs etdirdiniz. Həmin insanların hamısına güllələnmə hökmü oxundu. 2-ci sual:- Mərkəzi Komitənin birinci katibi işlədiyiniz dövrdə Elat camaatının yorğan, döşəklərini sökdürüb içindəki yunu hara aparırdınız?

Hacalının verdiyi sulların heç birini M.Bağırov cavablandırmamışdı. Hacalı kişiyə M. C. Bağırovun məhkəməsindən sonra bütün represiya qurbanları ilə birlikdə bərait verilmişdi.

Hacalı kişi 2007-ci ildə rəhmətə gedib, Beyləqan rayon Dünyamalılar kəndində "Soltanbud" qəbirstanlığında dəfn olunub. Hacalının birinci həyat yoldaşı Sədət 2003-cü ildə dünyasın dəyişib Budaqlı qəbirstanlığında dəfn olunubdu. Hacalının ikinci həyat yoldaşı Tutubəyim 2013-cü ildə rəh-

mətə gedib, həyat yoldaşının yanında "Soltanbud" qəbirstanlığında dəfn olunub.

**Eldar,** Hacalının böyük oğludur. O, Budaqlı elatında anadan olub, oturaq həyata keçənə kimi həmişə heyvandarlıqla məşğul olub, Eldar ata qohumu Qaçayın qızı Ballı (1942-2020) xanımla evlənib. O, ağır təbiətli olmaqla mülayim xasiyyətli və zəhmətkeş insandı. Onların dörd oğlu, üç qızı anadan olub.

Oğlanları: Ehtiram, Etibar, Nazim, Elçin, qızları: Təranə, Raziyyə, Ruhiyyə.

Eldarın həyat yoldaşı Ballı xanım, 2020-ci ilin sentyabr ayında yaşadığı Budaqlı kəndində dünyasını dəyişib və Budaqlı kənd qəbirstanlığında doğmalarının yanında dəfn olunubdu.

**Ehtiram** Eldar oğlu, Yardımlı rayon sakini Zəminə xanımla ailə qurub. Onların Nicat adlı bir oğul övladı dünyaya gəlib. Nicat, yaşadığı kənddə Əhədin qızı Aytən xanımla ailə qurub, atası ilə birlikdə Budaqlılar kəndində yaşayır.

**Etibar**, Eldarın ikinci oğludu. O, Dağlıq Qarabağın Tuğ kəndində Ərsalanın qızı Məryəmlə ailə qurub. Onların Sevinc və Səadət adlı iki qızı var. Ehtiram qızının birinə nənəsinin adını verib Səadət. Ehtiramın qızı Sevinc öz xalası oğlu Rüstəmlə ailəlidir. Ehtiramın ailəsi Bakıda yaşayır.

**Nazim**, Şərq qəsəbəsindən Aidə xanımla ailə qurub, Rüfət və Kənan adlı iki oğlu var. Nazimin oğlu Rüfət yaşadığı kənddə Tərlanın qızı Gültəkin xanımla evlənib, onların Uğur adlı bir oğlu var. Kənan Şərq qəsəbəsindən ana qohumu Nərgiz xanımla ailə qurub.

**Elçin** Eldar oğlu yaşadığı kənddə anadan olub. O, Dünyamalılar kəndində Əliyusifin qızı Gülnar xanımla evlənib ailə

qurub. Onların Hacalı və Elnur adlı iki oğlu anadan olub. Elçin öz övladına babası Hacalının adını qoyubdu.



***Yuxarıdan: Cavahir, Arifə, Validə, Ballı, Kubura, aşağı cərgədə Etibar, Nazim, Elçin, Bəhruz, Vidadi. Şəkil gənclər hərbi xidmətə gedən zaman çəkilib.***

Eldarın qızları: Təranə, Beyləqan rayon Bünyadlı kəndində qohumu Eldənizlə ailə qurub, iki oğlu var. Raziyyə, Yardımlı rayon sakini Zaminlə evlənib bir qızı var, Budaqlılar kəndində yaşayır. Ruhiyyə Bünyadlı kənd sakini Ağakərim ilə evlidir, iki qızı, bir oğlu var.

**Səfər Hacalı** oğlu (1944-2005), Budaqlı elatında anadan olub. Səfər gənclik illərini Dağlıq Qarabağda yaşayıb. O, avtoqəza nəticəsində 2005-ci ilin dekabr ayının 31 də dünyasını dəyişdi və Budaqlı qəbirstanlığında əzizlərinin yanında dəfn olunub. Səfər çox mehriban və səmimi insan idi. Onun xətrini bütün el-oba istəyirdi. O, əvvəllər ibtidai sinif müəllimi,

1970-ci ildən rəhmətə getdiyi günə qədər İmişli rayon Texniki Peşə məktəbində müəllim işləmişdir. Səfər İmişli rayon Bəhrəmtəpə qəsəbəsindən Zenfira adlı xanımla evlənib ailə qurubdur. Onların iki oğlu, iki qızı dünyaya göz açıbdır.

Oğlanları: Rövşən, Elşən, qızları: Gülnisə, Məhbubə.

Səfərin ailəsi İmişli rayon Bəhrəmtəpə qəsəbəsində yaşayır. Səfərin oğlu Rövşən İmişli şəhərindən Afaq xanımla evlənib, onların iki oğlu: Səfər, Babək və bir qızı Zəhra anadan doğulub. Rövşən hazırda Bakı şəhərində yaşayır. Elşən xalası qızı Afaqla ailə qurub, iki qızı var.

Səfərin qızları: Gülnisə, İmişli rayon sakini Nurəddinlə evlidi, bir uşaqları var. Məhbubə isə Cəlilabad rayon sakini Famil ilə ailə qurub bir oğlu, bir qızı var...

**Əliyev Sakit Hacalı** oğlu, 1955-ci ildə İmişli rayon Əliqulular kəndində anadan olub. 1978-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, 1978-1983-cü illərdə Beyləqan rayon Sarısu kənd məktəbində tarix müəllimi, 1983-1985-



ci illərdə Memarlıq və İnşaat Universitetinin "Fəlsəfə" kafedrasında baş laborant işləmiş, 1988-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitunun "Tarixi materializm və sosial psixologiyanın fəlsəfi problemləri" şöbəsi üzrə əyani aspiranturasını bitirmiş, fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

Sakit müəllim, 1988-1992-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi və elmi işçi vəzifələrində çalışmış, 1992-1993-cü illərdə Qərb Universitetinin"Sosiologiya" kafedrasında baş müəllim, 1993-1994-cü illərdə Azərbaycan Universitetinin "Beynəlxalq münasibətlər" fakültəsində dekan, 1994-1999-cu illərdə Bakı Sosial idarəetmə və Politologiya İnstitutunun "Sosiologiya" kafedrasında dosent vəzifəsində işləmişdir.

Sakit müəllim 1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası " Fəlsəfə və sosial psixologiya" kafedrasının dosentidir. 2002-2004-cü illərdə DİA-da Magistratura üzrə məsul şəxs, 2004-2011-ci illərdə DİA "Siyasi İdarəetmə" fakültəsinin dekanı vəzifələrində işləmiş, 2011-ci ildən hal-hazıradək DİA elmi katibi vəzifəsində çalışır. Sakit müəllim DİA-nın Böyük Elmi Şurasının və İxtisaslaşdırılmış Müdafiə Şurasının nəzdində fəaliyyət göstərən Elmi Seminarın və İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvüdür.

Sakit müəllim 2009-cu ildə Dövlət İdarəçilik Akademiyası üzrə "İlin ən yaxşı müəllimi"adına layiq görülmüş, 2014-cü ildə elm və təhsil sahəsində fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir.



***Sakit müəllim, həyat yoldaşı Fəridə, kürəkəni Məmməd, qızı Günel, oğlu Tural, gəlini Nigar, nəvələri: Cavidan, Yusif, Fəridə, Elif.***

Sakit müəllim, hazırda "Azərbaycan Respublikasında demokratik siyasi idarəetmənin formalaşması və inkişafı problemləri" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. Sakit Müəllim Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Dövlər Universitetinin, Naxçıvan Dövlət Universitetinin, Azərbaycan Dillər Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Memarlıq və İnşaat Universitetinin alimlərinin birgə hazırladıqları «Sosiologiya» və «Politologiya» dərsliklərinin müəlliflərindən biri olub.

Sakit müəllim, hansı məqamda, mərtəbədə, vəzifə və işdə olmasına baxmayaraq həmişə insanlıq - vətəndaşlıq meyarına arxalanıb, özünün və dostlarının ailə və cəmiyyət adamı kimi tanınmasına çalışıb, onlara mənəvi dəstək verməkdən həzz alıb. Onun fəlsəfə sahəsində çalışmasından əlavə həm də təbiətindəki filosofluq, bir qədər dəqiq desəm klassik Şərq kişilərinə xas müdriklik çox mətləblərdən danışmağa əsas verir.

**Filologiya elmlər doktoru, professor Şamil Vəliyevin Sakit müəllim haqqında yazdığı bir məqalə diqqətimi özünə cəlb etdi:**

Yazılan hər bir söz yaxın və uzaq tarixə ünvanlanan həqiqətdir. Onun içində tale yaşantıları, hikmət və məntiq olanda daha aydın və parlaq olur, yadda qalır, yaddaşlarda yaşayır. Lakin hər kəs və hər şey haqqında yazmaq, söz söyləmək çətin və ağırdır. Çünki, sözün əsli, mayası haqdır, onsuz yazılanlar az müddətdən sonra payız vaxtı xırman üstə yığılan quşlar kimi uçub gedir və yerdə yalnız ömür-gün bərəkəti qalır. Hər bir şəxsiyyətin həyatı nümunəsində bunu görmək mümkündür. Xüsusəndə ömrünü elmə, maarifə, ailəsinə, dostlarına, millətinə, vətən və dövlətinə həsr etməyi özünə şərəf bilən, bunu şüarda, vəddə deyil, gündəlik işində, əməllərində gerçəkləşdirən insanların taleyi təsdiqləyir. Ona görə ki, belə insanlar öz ailəsini, cəmiyyətini, ictimai mühitini qurmaq-yaratmaq ideyasını sadəcə həyat normativi bilmir, həm də bu işdən həzz alır, gördüyü işin zövqü ilə yaşayır, başqalarının da bu hissi, məfkurəni qorumasını vacib bilir, ətrafındakılara nümunə olur və inanır ki, bu yol çətin olsa da xalqın yüksəlişi, ailənin və millətin özünütəsdiq yoludur.

Sakit müəllimi uzun müddətdir ki, tanıdığımdan birmənalı deyə bilərəm ki, o hansı məqamda, mərtəbədə, vəzifə və işdə olmasına baxmayaraq həmişə insanlıq - vətəndaşlıq meyarına arxalanıb, özünün və dostlarının ailə və cəmiyyət adamı kimi tanınmasına çalışıb, onlara mənəvi dəstək verməkdən həzz alıb. Onun fəlsəfə sahəsində çalışmasından əlavə həm də təbiətindəki filosofluq, bir qədər dəqiq desəm klassik Şərq kişilərinə xas müdriklik mənə çox mətləblərdən danışmağa əsas verir.

Sakit müəllim, Sisyan rayon Qızılcıq kəndindən ata qohumu Fəridə xanımla ailə qurub. Onların bir oğlu, bir qızı var.

Oğlu: Tural.

Qızı: Günel

**Tural Sakit oğlu,** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Menecment" ixtisasını bakalavr pilləsini, Azərbaycan Dövlət İqdisad Universitetinin "Biznesin təşkili və idarə olunması" ixtisası üzrə magistr pilləsini bitirmişdir. Hal-hazırda "Az Finans MMC " şirkətində mühasib vəzifəsində çalışır. Tural Sakit müəllimin əmisi Möhlətin nəvəsi Nigar xanımla ailə qurub, iki qız övladları var: Fəridə və Elif.

**Günel Sakit qızı,** Azərbaycan Dövlət İqdisad Universitetinin "Mühasibat uçotu və audit" ixtisası üzrə bakalavr pilləsini bitirib. Bakı şəhərindən Məmməd adlı oğlanla ailəlidir. Hazırda "Azərsu ASC "də aparıcı mühasib vəzifəsində çalışır. İki oğul övladları var: Yusif və Cahandar.

**Əliyev Zahid Hacalı** oğlu, 1958-ci ildə İmişli rayon Əliqulular kəndində anadan olub. Orta məktəbi Beyləqan rayon "Şəfəq" qəsəbəsində bitirib. 1979-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasının Neft Mexanikası fakültəsinə daxil olub və Akademiyanı 1985-ci ildə əla qiymətlərlə bitirib. İlk əmək fəaliyyətinə 1985-ci ildə Rusiyanın Tumen vilayəti Noyabrski şəhərində gənc mütəxəssis kimi başlayıb. 1989-cu ildə Azərbaycana qayıdıb. 1990-



cı ildən 1996-cı ilə kimi ADNA-da öz ixtisası üzrə elmi işçi vəzifəsində çalışıb. 1996-cı ildən 2000-ci ilə kimi Bakı Dövlət Universitetində müəllim işləyib. 2000-2003-cü illərdə Bilik Maarifçilik cəmiyyətində, 2003-cü ildən Beynəlxalq İxtiraçılıq və biznes İnstitunda Psixologiya və Parapsixologiya fakültəsinin rəhbəri və müəllimi, eyni zamanda "Budaqlı" Psixoloji kömək mərkəzinin rəhbəridir. Bununla yanaşı AR Gənclər və idman nazirliyinin xüsusi proqramı üzrə psixoloqdur. Futbol Federasiyasının və "Ulduz" FK-nın psixoloqu və baş məsləhətçisidir.

Zahid müəllim, ekologiya, seysmologiya, tibbi psixologiya, astronomiya və s. sahələr üzrə 25 elmi əsərə və kəşfə görə Azərbaycan Respublikası Müəlliflik Departamentinin müəlliflik şəhadətnaməsini alıb. 6 Beynəlxalq layihənin müəllifidir. Bunlardan biri Azərbaycan İdman və Gənclər nazirliyi tərəfindən qəbul edilmiş, eyni zamanda Azərbaycan Futbol Federasiyası tərəfindən qəbul edilmişdir. Eyni layihə Türkiyə İdman və Gənclər nazirliyi tərəfindən diplomatik sənəd kimi qəbul edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının fəlsəfə, hüquq və sosialogiya İnstitunun 2011-ci ildən doktorantıdır. "Hər ömür bir əsərdir" şeirlər kitabının müəllifidir. Məhz buna görə də Azər KİV Hİ-nin qərarına əsasən Əliyev Zahid Hacalı oğlu "Qızıl Qələm" mükafatına layiq görülüb. Bu yaxınlarda ona "Xalqın Nüfuzlu Ziyalısı" Sahibkarlıq və Hüquq qəzetinin fəxri diplomunu, ideal sülhün təbliği fondunun "Qalib Sultan" fəxri diplomları verilmişdi. Hal-hazırda Beynəlxalq İxtiraçılıq və Biznes İnstitunun psixologiya bölməsinin rəhbəri və müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvü, Şimali Amerika Yazıçılar Birliyinin fəxri üzvü və bu təşkilatın Azərbaycan filialının rəhbər müavini-

dir. Eyni zamanda BMT-nin Beynəlxalq Sülh Səfiri diplomu verilməklə Sülh səfiri təyin edilmişdi. Zahid müəllim 30 nəşr olunmuş kitab müəllifi və yüzdən çox klassik əsərin müəllifidir. Zahid Budaqlı, Azərbaycan Pedoqoji Universitetinin tanınmış professoru Soltankərim Axundovun qızı, APU-nin elm işçisi, Pedoqoji Elmlər namizədi Arzu xanımla ailə qurub, onların iki övladları var.

Oğlu Orxan, qızı Nurtən

**Orxan** Zahid oğlu, İslam Universitetini bitirib, Türkiyə Dövlət Anadolu Universitetinin 4-cü kurs tələbəsidir. Psixologiya sahəsində çalışır. Azərbaycan Beynəlxalq Tədris və Elmin inkişafı Akademiyasının rəhbəridir.

**Nurtən** Zahid qızı, Azərbaycan İqtisad Universitetinin Beynəlxalq İqtisadiyyat fakültəsini bitirmiş və Beynəlxalq Ticarəti üzrə magistaturanı qırmızı diplomla başa vurmuşdur.

**Füzuli** Hacalı oğlu, Beyləqan rayon Daşburun qəsəbəsindən İlahə xanımla ailə qurub. Onların Budaq və Röya adlı övladları dünyaya gəlib. Budaq, Azərbaycan Polis Akademiyasını bitirib və hüquq mühafizə orqanlarında müstəntiq vəzifəsində çalışır. Röya Azərbaycan Xarici Dillər Universitetini bitirib, ingilis dili ixtisası üzrə çalışır. Füzuli ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

**İlham** Hacalı oğlu, əsli Laçın rayon Minkəndindən olan Qarakişinin qızı Rəna xanımla ailə qurub. Onların Qorxmaz, Samir adlı iki oğlu, Təhminə, Əsnayə və Gültəkin adlı üç qızları anadan doğulub. Qızlardan Təhminə ana qohumu Azayla evlənib iki oğlanları dünyaya gəlibdi. İlhamın qızı Əsnayə BDU-nin sosial iş fakültəsini, Gültəkin isə BDU-nin tarix fakültəsini bitiriblər. Əsnayə və Gültəkin Bakı şəhərində dövlət qulluğunda çalışırlar. İlham ailəsi ilə birlikdə hazırda Dünya-

malılar kəndində yaşayır, şəxsi fermer təsərrüfatı ilə məşğuldu.



**Əliyev Möhlət Səfəralı** oğlu, 1930-cu ildə Budaqlı tayfasında Səfəralının ailəsində dünyaya göz açıbdı. Atasını çox erkən itirmiş, qardaşı Hacıalının himayəsində böyümüşdü. O, Sisyanın Qızılcıq kəndində ana qohumlarından Həsənqulunun qızı Gülsuma ilə ailə həyatı qurmuşdu. Ailə qurduqdan sonra demək olar ki, ömrünün çox hissəsini 1944-cı ildən etibarən Qızılcıq kəndində yaşamışdı. Onun Həyat yoldaşı Gülsumanın dayısı İbad kişi Qızılcıq kəndində kolxoz sədri, atası Həsənqulu kişi isə ferma müdiri işləyirdi. Möhlətin böyük qardaşı Hacalının Budaqlı kolxozunda sədr işləyərkən həbs olunması, onların yaylaqdan birbaşa Sisyan rayonunun Qızılcıq kəndinə köçməsinə səbəb olmuşdu. Bunun səbəbi isə Hacalının himayəsində yaşayan Gülnisə, onun uşaqları İsgəndər, Möhlət və Sayifsulun başsız qalması olmuşdu. Yəni onun doğmaları bu ailəyə sahib çıxmadılar. Elə buna görə də onlar Qızılcıq kəndində özlərinə yurd seçdilər. Qızılcıq camaatı Gülnisəni və uşaqlarını himayələrinə götürüb, kənddə yurd yeri verib, onlara dam tikiblər. Ümumiyyətlə Qızılcıq camaatı çox xeyirxah insanlar olublar. Möhlət və İsgəndər

qərib olmalarına baxmayaraq sonralar Sisyan mahalında böyük hörmət və nüfuz qazandılar. Onlar Qızılcıq kəndindən ailə qurdular və kənd camaatı ilə qaynayıb qarışdılar. Möhlət əsasən 1944-cı ildən bu kənddə yaşamağa başladı. Onlar hamısı babalarının yolunu tutmuşdular, yalnız heyvandarlıqla məşğul olurdular. Möhlət qoyun fermasında briqadir, və uzun müddət ferma müdiri işləmişdi. Möhlətin dörd oğlu və beş qızı anadan olubdu.

Oğlanları: Rafiq, Nadir, Bəxtiyar, Sadə.

Qızları: Ulduza, Qənirə, Ziyafət, Kifayət, Elnurə.

**Əliyev Rafiq** Möhlət oğlu, Ermənistanın Sisyan rayon Qızılcıq kəndində anadan olub və Azərbaycan Dövlət Pedoqoji İnstitutunu bitirib, müəllim işləyir. Rafiq müəllim ata qohumu Zakirin qızı Sevda xanımla evlənib və onların iki oğlu, bir qızı anadan doğulub. Oğlu Əjdər, Aqil və Qızı Nəzakət xanım. Rafiq müəllimin böyük oğlu, atasının əmisi Əjdərin adını yaşadır. O Azərbaycan Beynəlxalq Universitetini bitirib. Rafiq müəllim ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

**Nadir** Möhlət oğlu, Qızılcıq kəndində anadan olub, 1988-ci ildə erməni işğalçılarının etnik təmizləmə siyasətinin qurbanı olan insanlardan biridir. Nadir, öz kəndlərindən Zəminə xanımla ailə qurub. Zəminə xanım ali təhsilli müəllimədir. Nadirin bir oğlu və bir qızı var. Oğlu Fərid və qızı Nailə hər ikisi İqtisad Universitetini bitirib. Nadir ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

**Sadə** Möhlət oğlu, Qızılcıq kəndində anadan olub, Bakı şəhərində İnşaat Mühəndislər İnstitutunu bitirmiş, mühəndis diplomu almışdı. Sadə doğulduğu gündən Sisyan rayon Qızılcıq kəndində yaşamışdı. 1988-cı ildən Ermənistan dövlətinin Azərbaycana təcavüz etdiyi gündən sonra yurd-yuvala-

rından qaçqın düşmüş, hazırda məcburi köçkün kimi Bakı şəhərində məskunlaşıblar. Sadə, ana qohumu Rahilə xanımla evlidir. Onların iki oğlu Söhrab, Cahid və Səbinə adlı bir qızı var.

**Bəxtiyar** Möhlət oğlu, dayısı nəvəsi Nərgiz xanımla ailə qurubdu. Bu cütlüyün bir oğlu Murad, Gülsuma və Aynur adlı qız övladları var. Bəxtiyar da qardaşları kimi yurd-yuvasından qaçqın düşmüş, hal-hazırda Bakı şəhərində məskunlaşıblar. Bəxtiyar öz qızına anasının adını qoyubdu.

Möhlətin qızları Ulduza, kəndlisi Bəxtiyarla, Qənirə kəndlisi Firdovsi ilə, Ziyafət (1966-2019) Sərdarla, Kifayət dayısı oğlu Elşadla ailə qurublar, övladları var və Bakı şəhərində yaşayırlar. Elnurə ailəlidir, Xəyal adlı bir oğlu var.

Möhlət kişi 2007-ci ildə Bakı şəhərində dünyasını dəyişmiş və paytaxt Bakı şəhərində dəfn olunub.

**Əliyev İsgəndər** Səfəralı oğlu (1929-2006), Hacıalılar nəslindən olmaqla 1929-cu ildə indiki İmişli rayonunun Budaqlı tayfasında anadan olmuşdu. O da qardaşı Möhlət kimi ata qayğısı görməmiş, yəni atasını erkən itirmiş, qardaşı Hacalı və Əjdərin himayəsində böyümüşdü. O, Sisyanın Qızılcıq kəndində yaşayan adlı-sanlı bir kişi olan Paşa kişinin nəvəsi Sürayə adlı xa-



nımla ailə qurmuş və bu cütlükdən onların övladları dünyaya gəlmişdi.

Oğlanları: Məmmədqulu, Yaqub, İltifat, Vüqar.

Qızları: Nadilə, Ayna, Gülnaz.

İsgəndər sakit təbiətli, heç kəsin işinə qarışmayan, öz halal zəhməti ilə çörək qazanan adam olub. Onun zəmanəsinə görə oğurluq, igidlik sayılsa da, onun belə işlərlə arası olmazdı. Bir sözlə, malına haram qatmayan mayası halal olan adam idi. İsgəndər həmişə qardaşı Möhlətin yanında çalışmış, halal zəhməti ilə balalarını böyütmüşdü. Dağlıq Qarabağ münaqişəsi başlayandan sonra 1988-ci ildə bu ailə də doğma yurd-yuvalarından qaçqın düşdülər. İsgəndər kişi əvvəl Beyləqanda, sonralar isə Bakı şəhərində məskunlaşdı. O, 2006-cı ildə Bakı şəhərində rəhmətə getmiş, Bakı şəhərində dəfn olunubdur. Onun övladları hazırda Bakı şəhərində yaşayırlar.

İsgəndərin böyük oğlu **Məmmədqulu** (1957-1992), əmisi Hacıalının qız nəvəsi Nəsibə xanımla ailə qurmuş, onların Anar adlı oğlu, Nuranə adlı qızı dünyaya göz açmışdı. Çox təəssüflər olsun ki, Məmmədqulu cavan yaşında dünyasını dəyişdi. Ailəsi Bakıda yaşayır.

**Yaqub** İsgəndər oğlu, bibisi Sayıfsulun qızı Mənzər xanımla evlənib. Onların bir oğlu: Samir, üç qızı: Sayıfsul, Aidə, Zeynəb anadan olublar.

İltifat İsgəndər oğlu, Qızılcıq kəndində anadan olub və doğma yurdundan didərgin düşüb. O, İmişli rayon Boşçallar kənd sakini Fəridə xanımla ailə qurub. Onların oğlu İsmət, qızı Sürəyya anadan doğulub.

**Vüqar** (Vəzir) İsgəndər oğlu, qardaşları kimi yurd-yuvasından qaçqın düşmüş, bir müddət Beyləqanda yaşamış, sonralar Bakı şəhərində məskunlaşmışdı. Vüqar, Beyləqanda ta-

nınmış Seyidəli Mirsəccad oğlunun qızı Sahibə xanımla evlənib ailə qurubdu. Bu cütlükdən İsgəndər adlı oğlu, Əntiqə adlı qızları doğulub. Vüqarın oğlu babasının, qızı isə ana nənəsinin adını yaşadır.

İsgəndərin qızları Nadilə həmkəndlisi Əhmədlə, Ayna həmkəndlisi Pəhlivanla, Gülnarə isə xalası oğlu Xudayarla ailə qurublar.



***Şəkildə soldan Səfəralının həyat yoldaşı Gülnisə, qızı Sayıfsul.***

**Sayıfsul** Səfəralı qızı (1932-1970), Budaqlı tayfasında dünyaya göz açıb. O, Qubadlı rayonu Gödəklər kəndindən Soltan adlı kişi ilə ailə həyatı qurub və Qubadlı rayon mərkəzində yaşamışdılar. Sayıfsul çox cavan, yaşında uşaq üstə rəhmətə getmişdi. Onun üç oğlu, üç qızı anadan doğulub. Oğlanları: Şakir, Cahangir, Şahin. qızları: Nübar, Mənzər, Lətifə.

Sayıfsulun böyük oğlu Şakir Rusiya Federasiyasında yaşayır, ailəlidir.

Cahangir ana qohumu Şahmarın qızı Sara xanımla evlidir, Budaqlılar kəndində yaşayır. Onların iki oğlu var. Oğlanları: Fazil, Amil.

**Şahin** dayısı Hacıalının kiçik qızı İlahə xanımla evlənib ailə qurubdu. Onlar hazırda Beyləqan şəhərində yaşayırlar.

Sayıfsul Qubadlı rayonunda rəhmətə gedib və həmin rayonda dəfn olunubdur. Sayıfsulun böyük qızı Nübar Şahlar kişinin oğlu Bakirin həyat yoldaşı olub. Kiçik qızı Lətifə xanım Hacı Qasımın nəticəsi İlqarın həyat yoldaşıdır. Mənzər dayısı oğlu Yaqub ilə evlənib ailə həyatı qurubdur.

Sayıfsul rəhmətə gedəndən sonra onun uşaqları dayısı İsgəndərin himayəsində böyüyüblər. Ancaq, onlara Sayıfsulun xalası Sürmə nənə analıq qayğısı göstərmişdir. Sürmənin övladı olmadığı üçün ailəsindən ayrılmış və ömrünün sonuna qədər qızı bildiyi Sayıfsulun uşaqlarına baxmışdı. Sürmə nənə 1998-ci ildə Beyləqan rayon Budaqlılar kəndində dünyasın dəyişib, Cərciz Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunubdu.

**Əliyev Abdulla Hacı Alı oğlu**, Hacı Qasımın doğma qardaşıdı, həmişə qardaşları ilə bir yerdə yaşayıbdır. O, Budaqlı elatından Əziz adlı xanımla ailə həyatı qurmuş və onların beş oğlu, üç qızları olmuşdu.

Oğlanları: Qaçay, Xasay, Surxay, Əyyub, Şahlar.

Qızları: Məşədi Xatın, Ruqiyyə, Gülsüm.

Abdulla təbiətcə sakit insan olmaqla səmimi və qayğıkeş, qohumcanlı adam olubdu. Elat camaatı həmişə onun hörmətini gətiriblər. Dinə bağlı və halallığı sevən kişi olubdu. Abdulla dünyasını əlli yaşında dəyişibdi. Onun övladları ata qayğısından tam yararlana bilməyiblər. Ancaq, qardaşı Hacı Qa-

sım, Abdullanın övladlarını öz balasından seçməmişdi, həmişə onlara atalıq qayğısı göstərmişdi. Günlərin birində yaylaq vaxtı Hacı Qasım bir neçə nəfərlə toydan gəlirmişlər, atlılar obaya yaxınlaşanda uşaqlar Atam gəldi, deyib qaçırlar atlıların qabağına. Bu zaman Hacı Qasımın oğlu Qulam və qardaşı oğlu Xasay da uşaqlarla birlikdə onların qabağına qaçıblar. Hacı Qasım atdan düşüb xəncərini belindən açıb, bağlayır qardaşı oğlu Xasayın belinə, üzündən öpüb mindirir atın belinə və oğlu Qulamın əlindən tutub at yedəyində gəlir alaçığının qabağına. Bunu görən xanımlardan biri soruşur:

- Hacı, nə üçün tək oğlun Qulam qabağına qaçdı, sən Xasayı mindirdin ata, onun əlindən tutub gətirdin?

Hacı Qasım fikirləşmədən cavab verdi:

- Mənim oğlum tək olsa belə, atasının yanındadı, mən heç zaman özümə bağışlaya bilmərəm ki, qardaşımın balasının ürəyinə xal düşə, o atasızlığını hiss edə. Nə qədər həyatda varamsa, həmişə belə olacaq. Yoxsa qardaşımın ruhu məni bağışlamaz.

Doğrudan da Hacı Qasım öldüyü günə qədər qardaşı Abdullanın övladlarına qayğı göstərmişdi.

Abdullanın qızları Ruqiyyə və Məşədi Xatın Budaqlı tayfasında öz əmisi oğlanları ilə ailə həyatı qurmuşlar, nəvə, nəticələri hazırda yaşayırlar. Gülsüm isə Tanrıqulular tayfasından İsmayılla evlənmiş, bir oğlu və bir qızı olmuşdu. Qızı Şamama cavan rəhmətə getmiş, oğlu Hüseyn (1939-2019), ana qohumu Qamboyun qızı Fatma xanımla, (1939-2017) ailəli olmuş və onların övladları olmamışdır.

Hüseyn uşaq vaxtlarında atasın itirmiş, uşaqlıq və gənclik dövrünü Budaqlı tayfasının içərisində dayılarının yanında yaşamışdı. Hüseyn övladı olmadığı üçün dayısı oğlu Şahma-

rın qızı Xatirəni, qaynı Nüsrətin oğlu Famili uşaqlıqdan götürüb saxlamış, böyüdükdən sonra gənclərə toy etmişdi. Bu cütlük övladları ilə birlikdə onun ocağının işığını yandırır.

**Əliyev Əyyub Abdulla** oğlu, Budaqlı elatında sayılıb, seçilən gənc olmaqla həm də çox yaraşıqlı oğlan olubdur. Budaqlı kolxozu yaranandan sonra qoyun fermasının müdiri vəzifəsində çalışıb. O, əmisi Alıhüseynin qızı Anaxanımla evlənib, ailə həyatı qurub. Onların bir qızı olubdu. Bu uşaq körpə yaşlarında dünyasını dəyişibdi. Əyyubun həyatda yadigarı qalmayıbdı. Çünki, Əyyub çox erkən, cavan yaşında dünyasını dəyişibdir.



*Abdullanın oğlanları soldan Qaçay, Əyyub*

**Əliyev Qaçay Abdulla oğlu**, ailənin böyük oğludur və Budaqlı elatında dünyaya göz açıb, bu tayfada böyüyüb boya çatıbdır. Qaçay, əmisi Baxışın qızı Güldəstə (1908-1985) xanımla evlənib ailə qurubdur. Ömrünün sonuna qədər öz tay-

fasının içində yaşayıbdır. Qaçay heyvandarlıqla məşğul olmaqla öz ailəsini lazımi səviyyədə dolandıra bilibdi. Qaçay kişi, budaqlı elatında təxminən 1946-47-ci illərdə rəhmətə gedib, Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunubdur. Onun üç oğlu, dörd qızı anadan doğulub.

Oğlanları: Əsədulla, Fətulla, Rəfayıl.

Qızları: Zərif, Telli, Məhliqa, Ballı.

Qaçayın qızları Məhliqa əmisi Alıhüseynin oğlu Şuriyənin, Ballı isə Hacalının oğlu Eldarın həyat yoldaşıdır.

Günlərin birində Fərhadla Qaçay oturub çay içirdilər. Hər ikisinin oğlu Xudadat və Əsədulla da yanlarında idi. Əsədulla, Xuduşdan 3-4 yaş böyük idi. Qaçay kişi uşaqlara dedi:

- Oğul bəlkə bir güləşəsiniz. Əsədula tez durdu qolunu çirmədi girdi meydana dedi:- Xuduş gəl güləşək. Uşaqlar güləşdilər, girdilər bir-birinə o bunu, bu onu aşırdı axırda Əsədulla Xuduşu yıxdı. Bu zaman Qaçay kişi bərkdən gülərək dedi:

- Fərhad gördün mənim oğlum sənin oğlunu yıxdı. Fərhad, asta-asta gülərək dedi:- Yox, ay Qaçay düz demədin, mənim bacım oğlu, sənin bacın oğlunu yıxdı. Axı oğul dayısına oxşar.

- Hə, Fərhad düz dedin, mən heç burasını fikirləşmədim.

**Abdullayev Əsədulla Qaçay** oğlu, (1932-2013), 1976-cı ilə qədər İmişli rayon Əliqulular kəndində yaşamış və maldarlıqla məşğul olmuşdur. 1976-cı ildən sonra indiki Budaqlılar yaşayan kəndə köçmüş və əkinçiliklə məşğul olmuşdu. O, zəhmətsevər insan olmaqla yanaşı həm də qohumlar arasında hörməti olan səmimiyyəti və mehribanlığı ilə seçilən adam idi. Əsədullah Cəbrayıl rayon Papı kəndindən Sitarə

adlı xanımla evlənmiş, onun iki oğlu, iki qızı anadan olmuşdur



*Əsədulla, həyat yoldaşı Sitarə*

Oğlanları: Qaçay, Qoşqar (İslam), qızları: Ofelya, İradə.
Əsədulla 2013- ci ildə yaşadığı Budaqlılar kəndində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdu.

Əsədullanın böyük oğlu Qaçay İmişli rayonunda anadan olub və yaxın qohumu Nailə xanımla ailə qurubdu. Onun İlkin, Sabir və Cavid adlı üç oğlu var. Qaçayın ikinci oğlu yaşadığı kənddə Əlyarın qızı Ayşən xanımla evlidir. Bu cütlüyün Xəzər və Bahar adlı övladları var, doğulduğu kənddə yaşayırlar. Qaçay hazırda yaşadığı kənddə bələdiyə sədridi.

Qoşqar (İslam) Əsədullanın ikinci oğludu. Qoşqar bibisi Tellinin kiçik qızı Roza xanımla evlidir. Bu cütlükdən onların iki oğlu Habil, Qabil və iki qızı Zümrüd və Sitarə anadan doğulub.

Qoşqarın qızları Sitarə nənəsinin adını daşıyır və İmişli rayon Sarıxanlı kənd sakini Zeynalla evlidir. İkinci qızı Zümrüd isə Beyləqan rayon İmamverdilər kəndinə gəlin köçüb.

Ofelya Əsədullanın böyük qızıdır və bibisi Tellinin böyük oğlu Vəzirin həyat yoldaşıdır. Onun bir oğlu Ramil, üç qızı Cəmilə, Pərvanə, Fərqanə anadan doğulub. Ofelya xanımın həyat yoldaşı Vəzir, dünyasın çox erkən dəyişib, özü isə Budaqlılar yaşayan kənddə yaşayır.

İradə Əsədulla qızı, İmişli rayon Əliqulular kəndində anadan doğulub. Onu ana nənəsi Sehrangül, körpəlikdən övladlığa götürərək, Cəbrayıl rayon Papı kəndində öz himayəsində böyütmüşdü. İradə xanım həmin kənddə ailə qurmuş, onun iki oğlu Asif, Vasif dünyaya göz açmışdı. İradə xanım övladları ilə bərabər Budaqlılar kəndində yaşayır. Bu ailə erməni münaqişəsi zamanı qaçqın düşmüş və hazırda Budaqlılar yaşayan kənddə məcburi köçkün kimi məskunlaşıbdı.



***Fətulla müəllim, həyat yoldaşı Reyhan***

**Abdullayev Fətulla Qaçay** oğlu, 1941-ci ildə Budaqlı tayfasında dünyaya göz açmış, orta məktəbi bitirdikdən sonra 1964-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə qəbul olub. 1968-ci ildə həmin İnstitutu bitirdikdən sonra İmişli rayon Əliqulular kəndində riyaziyyat müəllimi vəzifəsində işləmişdi. Fətulla müəllim 1976-cı ildən sonra Beyləqan rayon Budaqlılar yaşadığı kəndə köçmüş və həmin kənddə bir müddət məktəbin tədris üzrə direktor müavini, 1984-cü ildən məktəb direktoru vəzifəsində çalışmışdı. Fətulla müəllim Yevlax şəhərində yaşayan xalası Fizzə xanımın kiçik qızı Reyhan xanımla ailə qurub. Bu cütlükdən onların üç oğlu, üç qızları olubdu.

Oğlanları: Çingiz, Gündüz, Malik.

Qızları: Nəzakət, Məlahət, Mehriban.

Fətulla müəllimin böyük oğlu Çingiz Cəbrayıl rayon Papı kəndindən Əlifin qızı Gülnaz xanımla ailə qurub, onların Tural, Teymur və Ceyhun adlı üç oğlu anadan doğulub.

Gündüz Fətulla oğlu, yaşadığı kənddə anadan olub, Beyləqan rayon Allahyarlı kəndindən Fazilin qızı Əzizə xanımla ailə həyatı qurubdu. Onların Tehran, Səxavət adlı iki oğlu dünyaya gəlib. Çingiz və Gündüz hər ikisi Budaqlılar kəndində yaşayırlar.

Malik Fətulla oğlu, Yevlax rayonunda yaşayan xalası Həmayılın nəvəsi Könül xanımla ailə qurub, Xəqani və Ülvi adlı iki övladları var. Malik Yevlax şəhərində yaşayır. Qızları Məlahət Yardımlı rayonundan Taleh adlı oğlanla, Nəzakət xanım yaşadıqları kənddə əsli Füzuli rayon Veysəlli kəndindən olan Barat kişinin oğlu İbişlə, Mehriban xanım isə xalası Sitarənin oğlu Ərşadla evlənib ailə qurublar.



*Soldan Hacıalılar tirəsindən Pəri, Səltənət, Məhliqa, Zibəndə, Cavahir, Ballı.*

**Rəfayıl** Qaçay oğlu, 1943-cü-ildə Budaqlı elatında anadan olub. O, böyüdükdən sonra əsasən heyvandarlıqla məşğul olubdur. Rəfayıl 1972-ci ilə qədər İmişli rayon Əliqulular kəndində maldarlıqla məşğul olub. 1972-ci ildən sonra Budaqlılar yaşadığı kəndə köçmüş və hal- hazırda da bu kənddə yaşayır. O, əmisi Surxayın qızı Almara xanımla ailə qurub, dörd oğlu, iki qızı anadan olubdu.

Oğlanları: İsrayıl, Xaliq, Qurban, Kamal.

Qızları: Tahirə, Məfkurə.

Rəfayıl və övladlarının çoxu Beyləqan rayon Sarı-Su (Budaqlılar) kəndində yaşayırlar.

**İsrayıl**, Rəfayılın böyük oğludu. O, yaxın qohumu Nüsrətin qızı Familə xanımla Ailə həyatı qurub, Beyləqan şəhərində yaşayır. Bu cütlüyün övladları olmayıb, ancaq qardaşı



*Sağdan: Fətulla müəllim, Rəfayıl, Etiram, Etiramın oğlu Nicat, yoldaşı Zəminə, Rüfət, Tural.*

Qurbanın qızı Nurayı övladlığa götürüb, doğma balası kimi himayəsində böyüdür. Budaqlı elatının ən yüksək keyfiyyətlərindən biri də övlad üçün ailənin dağılmasına yol verilməyib. Bu tayfada boşanmaya pis baxılır.

**Xaliq** Rəfayıl oğlu, ailənin ikinci övladıdır, Cəbrayıl rayon sakini Səkinə xanımla ailə qurub. Bu cütlükdən Elşən adlı oğlu, Ayşən və Gülşən adlı iki qızı doğulub. Xaliqin oğlu Elşən əmisi Qurbanın qızı Sahilə xanımla evlənibdi.

**Qurban** Yardımlı rayon sakini Şəmsiyyə xanımla ailə qurub, onların övladları Rövşən, Təbriz və Sahilə anadan doğulublar. Bu ailə Budaqlılar kəndində yaşayırlar.

**Kamal,** İmişli rayon sakini Zərnişan xanımla evlənib ailə qurubdu. Onun iki oğlu Ramal, Rəfayıl və iki qızı Fəridə,

Nuray dünyaya gəliblər. Kamalın kiçik qızını əmisi İsrayıl övladlığa götürüb.

Rəfayılın qızları Tahirə bibisi oğlu Akiflə ( Akif cavan rəhmətə gedib), Məfkurə isə Yardımlı rayon sakini Dilavər adlı oğlanla ailə qurubdur.



*Sağdan: Güldəsdə, Şuriya, Məhliqa və ayaqüstə Zibəndə*

**Zərif** Qaçay qızı (1922-2006), Budaqlı elatında doğulub boya-başa çatıbdı. O, Ermənistanın Sisyan rayon Qızılcıq kəndindən Budaqlı tayfasına müəllim kimi işləməyə gəlmiş Baba (1910-1988) müəllimlə ailə qurubdur. Zərif xanım çox uşaqlı ana olubdur. O, Qəhrəman ana medalına layiq görülmüş və dövlət tərəfindən ona növbədən kənar "Jiquli" avtomobili verilmişdi. Zərif xanım ömrünün sonuna kimi İmişli rayon Əliqulular kəndində yaşamışdı. Zərif xanımın dörd oğlu doqquz qızı anadan olubdu.

Oğlanları: Həsən Hüsən, Əli, Natiq.

Qızları: İntizar, Gülayə, Raya, Şailə, Rəna, Tamam, Rahilə, Yeganə, Mahirə.

Baba müəllim 1988-ci ildə İmişli rayon Əliqulular kəndində dünyasını dəyişmiş və "Ənbərə" qəbirstanlığında dəfn olunmuşdu. Zərif xanım isə Əliqulular kəndində dünyasını dəyişmiş və Budaqlılar yaşayan kənd qəbirstanlığında doğmalarının yanında dəfn olunmuşdur.

Zərifin qızları:- İntizar, ana qohumu Nüsrətlə ailə qurub, Gülayə, ana qohumu Xanhüseynlə evlənib, İmişli rayon Əliqulular kəndində yaşayır. Raya, Füzuli rayon Qaraxanbəyli kəndindən Ədalətlə evlənib, Beyləqan rayon Qəhrəmanlı qəsəbəsində yaşayır. Şailə, Füzuli rayon Qaraxanbəyli kənd sakini Valehlə evlənib, Beyləqan şəhərində yaşayır. Rəna, Füzuli rayon Qaraxanbəyli kənd sakini Əhədlə evlənmiş, 1992 ci il məcburi köçkünlük dövründən sonra bir müddət Beyləqanda, hazırda isə Bakı şəhərində məskunlaşıblar. Tamam, Ermənistanın Sisyan rayon Qızılcıq kəndindən ata qohumu İsa ilə ailə qurmuş və Özbəkistanda yaşayırlar. Rahilə, Yevlax rayon sakini, ana qohumu Raqif müəllimlə evlənmiş və Yevlax şəhərində yaşayırlar. Raqif müəllim uzun müddət Yevlax şəhər Təhsil Şöbəsinin müdiri vəzifəsində çalışıb. Yeganə, ata qohumu Qızılcıq kəndindən Raufla ailə qurub Bakıda yaşayır. Mahirə, yaxın qohumu Mingəçevir şəhər sakini Səyyafla ailə həyatı qurub, Bakı şəhərində yaşayır. Yuxarıda adları çəkilən qızların hər birinin oğul-qız və nəvələri var.

**Həsən** (1940-1992) Baba oğlu, Budaqlı elatında anadan olubdu. O, hərbi xidmətdən sonra ana qohumu Muxtarın qızı Şəndə (1941-1992) xanımla ailə qurub və İmişli rayon Bəhrəmtəpə qəsəbəsində yaşayıblar. Həsən 1970- ci illərdə Beyləqan (Jdanov) rayonuna köçmüş və 1992-ci il ömrünün sonuna qədər Beyləqan şəhərində yaşamışdı. Həsən tikinti trestin-

də qaynaqçı, Şəndə isə uşaq baxçasının müdiri vəzifəsində çalışmışdılar. Həsənin beş oğlu, üç qızı anadan doğulub.

Oğlanları: Nizami, Sabir, Adil, Eynulla, Aqil.

Qızları: Zəminə, Tahirə, Afət.

Həsən və həyat yoldaşı Şəndə, Beyləqanda dünyasını dəyişmiş və hər ikisi Peyğəmbər ziyarətgahı qəbirstanlığında yanaşı dəfn olunmuşdur. Onların böyük oğlu Nizami (1963-2013) ailə qurmamış, Beyləqan şəhərində rəhmətə gedib və valdeyinlərinin yanında dəfn olunubdur.

Sabir Həsən oğlu, bibisi Gülayanın qızı Aybənizlə ailə qurub, Onların Eltun, Şəndə və Bahar adlı üç övladları anadan olub və Beyləqan şəhərində yaşayır. Sabir, tikinti işlərini mükəmməl bacaran sənətkardı.

Hüsən Baba oğlu, Zərifin ikinci oğludur. O, xalası Məhliqanın qızı Xanımla evlənib. Onların övladları və nəvələri var, onlar hazırda ata ocağında, Əliqulular kəndində ailəsi ilə birlikdə yaşayırlar.

Əli, Yevlaxda yaşayan yaxın qohumu Aybəniz xanımla evlidir, Zamiq və Namiq adlı oğlanları var və Bakı şəhərində yaşayır.

Natiq yaşadığı Əliqulular kəndində Əliabbasın nəvəsi Rəbiyyə xanımla evlənib, oğlu Elşad, qızı Zərif dünyaya gəlib. Onlar hazırda Bakı şəhərində yaşayırlar. Natiqin oğlu Elşad qan qohumu Mahirin qızı Nərminlə evlidir.

**Telli** Qaçay qızı ( 1926-2000)**,** 1926-cı ildə Budaqlı elatında anadan olub. O, Allahyarlı tayfasından Ağamalıyev Əhmədlə (1924-2007) evlənib ailə qurub. Tellinin on bir övladı dünyaya gəlib.

Oğlanları: Vəzir (1952-1998), Vəkil, Akif (1967-1992), Mübariz, Ramiz.

Qızları: Pürzə (1952-2004),Ulduza (Lətifə), Alagöz, Bağdagül, Bəsdi, Bənövşə.

Telli uzun müddət ailəsi ilə birlikdə Biləsuvar rayon Səmədabad qəsəbəsində yaşamış və heyvandarlıqla məşğul olmuşdu. 1985-ci ildən etibarən Budaqlı kəndinə köçmüş və öz tayfasının içərisində yaşamışdı. Telli, 2000-ci ildə və onun həyat yoldaşı Əhməd kişi isə 2007-ci ildə Budaqlı kəndində dünyalarını dəyişmiş, Peyğəmbər ziyarətgahı qəbirstanlığında övladları Vəzir və Akifin qəbirləri yanında dəfn olunublar.

**Vəzir (1952-1998)**, Tellinin böyük oğludur, bacısı Pürzə xanımla əkiz doğulublar. O, dayısı Əsədullanın böyük qızı Ofelya xanımla evlənibdi. Onların bir oğlu: Ramil, üç qızı: Cəmilə, Fərqanə, Pərvanə anadan doğulubdu. Vəzir istər Allahyarlı, istərsə də Budaqlı tayfalarında sayılan, seçilən oğlanlardan biriydi. Çox təəssüflər olsun ki, 46 yaşında çox erkən dünyasını dəyişdi. Vəzirin oğlu Ramil, Əminə adlı xanımla ailə qurub, Sevinc adlı bir qızı var. Ailəsi ilə birlikdə Budaqlı kəndində yaşayır. Vəzirin qızları Cəmilə bibisi oğlu Bəxtiyarla, Fərqanə bibisi Alagözün oğlu Daşqınla, Pərvanə İmişli rayon sakini Zakir adlı oğlanla evlidirlər.

Vəkil, ata qohumu Ağgül xanımla evlənib. Onların Rahil adlı oğlu, Esmira, Gülmira adlı iki qızı var. Vəkil Budaqlı kəndində yaşayır. Vəkilin övladları hamısı evlidir və oğlu Rahil qardaşı Akifin qızı Zahidə xanımın həyat yoldaşıdır.

Akif (1967-1992), ailənin üçüncü oğludur. O dayısı Rəfayılın qızı Tahirə xanımla ailə qurdu Vahidə və Zahidə adlı iki qızı dünyaya göz açdı. Akif çox gənc yaşında dünyadan köçdü.

Mübariz, yaxın qohumu Mehparə xanımla ailə qurub, onların iki oğlu Niyaməddin, Hikmət və bir qızı Aytəkin anadan olublar. Mubariz ailəsi ilə birlikdə Budaqlı kəndində yaşayır.

Ramiz (1975-2020), İmişli rayon sakini Tünzalə xanımla evlənib, Aytac adlı qızı, Rəvan adlı bir oğlu dünyaya gəlib. Ramiz də qardaşları kimi Budaqlı kəndində yaşayırdı. Ramiz 2020-ci ilin dekabr ayında ürək tutmasından dünyasını dəyişib. O, Cərciz Peyğəmbər qəbirstanlığında valideynlərinin yanında dəfn olunub.

Tellinin qızları Pürzə, ata qohumu Dayandurla, Ulduza (Lətifə) ana qohumu Şirinlə, Alagöz Əli ilə, Bağdagül Məzahirlə, Bəsdi Bakirlə (Sahib), Bənövşə Bakirlə ailə həyatı qurub və Beyləqan rayonunda və kəndlərində yaşayırlar...

**Əliyev Xasay Abdulla oğlu**,(1900-1986) Budaqlı tayfasında anadan olubdu. O, uşaqlıqdan ibadətlə məşğul olan, namaz qılan, oruc tutan dindar olub. Xasay kişi el içində Molla Xasay kimi titul alıb və el-obada düşən əza məclislərinin mollası olubdu. Molla Xasay Budaqlı kolxozu dağılandan sonra 1970-ci illərə qədər İmişli rayon Əliqulular kəndində yaşamış və bundan sonra ailəsi ilə birlikdə dədə-baba torpaqları olan Tək saqqızın yanında, indiki Sarı-su adlanan Budaqlılar yaşayan kəndə köçmüşdü. Molla Xasay, Eyvazalılar tayfasında tanınmış ailədən olan Məleykə (1914-1969) xanımla ailə qurub. Məleykə xanımın toyunda qız evi qırx ədəd qızıl onluq (o vaxtlar varlı adamlar qız köçürəndə ağır başlıq istəyirdilər) başlıq istəmişdilər.



Atadan yetim qalan Xasayın ailəsi bu başlığı verməkdə çətinlik çəkmişdir. Buna görə də toy məsələsi gecikirdi. Toyun gecikməsini görən Hacı Qasım bu məsələ ilə maraqlanmış, ona bildirmişlər ki, qız evi qırx ədəd qızıl onluq başlıq istəyir. Həmin an Fərhada göstəriş vermişdir ki, qırx ədəd onluq qızılı qız evinə göndərsinlər. Bu başlıq ödənəndən sonra toy məclisi baş tutmuşdu. Məleykə xanım Budaqlı elatına gəlin gəlmiş və özüylə nəzərə çarpacaq səviyyədə qiymətli cehiz də gətirmişdi. Xasay kişinin həyat yoldaşı Məleykə xanım 1969-cu ildə, özü isə 1986-cı ildə dünyasını dəyişiblər. Onlar "Ənbərə" qəbirstanlığında dəfn olunublar. Bu cütlüyün altı övladı dünyaya gəlib ki, bunların hamısı oğlan olubdur.

Oğlanları: Abdulla, Şöhlət, Yusif, Qüdrət, Tanrıverdi, Valeh.

**Abdullayev Abdulla Xasay** oğlu, babası Abdullanın adını daşıyır. Abdulla, 1931-ci ildə İmişli rayonu Budaqlı kəndində anadan olubdu. O, orta ixtisaslı mühasibdi. Abdulla 1970-ci ilə qədər İmişli rayon Əliqulular kəndində yaşamışdı. Yaşadığı müddətdə kolxozun mühasibi vəzifəsində işləmişdi. Abdulla hazırda yaşadığı kəndə köçüb gəldikdən sonra da öz peşəsini davam etdirmişdi. Kəndin mühasibi vəzifəsində çalışmışdı. Abdulla, əmisi Şahların qızı Ağgül (1941-2006) xanımla ailə həyatı qurmuş, dörd oğlu, bir qızı olmuşdu.

Oğlanları: Yasin, Əlikram (qardaşı Şöhlətə oğulluğa verib) Niyaməddin, Maqsud, qızı Tərifə.

**Yasin** (1968-2001), Abdullanın böyük oğludur. Yasini uşaqlıqdan babası Şahlar öz himayəsində böyütmüşdü. O, ali təhsilli mütəxəssis olmaqla tayfa içərisində, cavanlar arasında xüsusi yeri olan bir gənc olub. Onun xatirəsi bütün Budaqlıların qəlbində daim və əbədi yaşayır. Sovetlər dövrü dağıldıqdan sonra Budaqlı kəndi ayrılıb sovxoz oldu. Yasin islahat

dövrü başa çatan günə qədər həmin sovxozun direktor müavini vəzifəsində çalışmışdır. Bu islahatdan sonra seçicilər tərəfindən yaranan yeni Bələdiyyə qurumunun üzvü seçilmişdi. Yasin dünyasını dəyişdiyi günə qədər bu işdə çalışıb və kənd əhalisinin etimadını doğrultmuşdu. O, həm savadlı, həm də şəxsiyyət kimi gözəl ziyalı idi. Yasin 2001-ci ildə avtoqəzada faciəli sürətdə rəhmətə getdi.

Yasin əmisi Yusifin qızı Mətanət xanımla ailə qurmuş, onların bir oğlu Dünyamin, bir qızı Fəridə dünyaya gəlibdi. Yasinin ailəsi və övladları Budaqlı kəndində yaşayırlar. Yasinin qızı dayısı Vəkilin gəlinidir.

Abdulla, ikinci oğlu **Əlikramı** qardaşı Şöhlətə oğulluğa vermişdi. Əlikram da öz növbəsində əmisi Şöhlətə yaxşı oğul oldu və qoymadı ki, onun ocağının işığı sönsün. Əlikramı hamı Şöhlətin doğma oğlu kimi tanıyır. Əlikram Budaqlıların ilk ziyalılarından olan İnqilab müəllimin qızı Ramilə xanımla ailə qurubdu. Onların iki oğlu Xasay, Cavid və Aygün adlı qızı var.

Abdullanın oğlu **Niyaməddin**, dayısı Vəkilin kiçik qızı Mirvari xanımla evlidir. Bu cütlüyün Uğur və Cəsur adlı iki oğul balası var. Onlar ata ocağında, Abdulla kişi ilə birlikdə yaşayırlar.

**Maqsud** Abdulla oğlu, İmişli rayon Bəhrəmtəpə qəsəbəsindən olan Arzu xanımla ailəlidir. Onların Aysel adlı qızı, Elməddin adlı oğlu var. Hazırda Budaqlı kəndində yaşayırlar.

**Abdullayev Şöhlət** Xasay oğlu (1933-2013), orta ixtisas təhsili almış mütəxəssis idi. O, əmisi oğlu Qamboyun qızı Hafizə (1939-2007) xanımla evlənmişdi. Hafizə xanım kiçik tibb işçisi olubdu. Şöhlət və Hafizənin övladları olmayıbdı.



*Şöhlət, həyat yoldaşı Hafizə*

**An**caq, onlar ailəsini dağıtmamış və ömürlərinin sonuna qədər bir yerdə yaşamışdılar. Şöhlət ailə qurduqdan sonra İmişli rayonu "Bəhrəmtəpə" qəsəbəsində yaşamışdı. Şöhlət çınqıl zavodunda mexannik, Hafizə isə qəsəbə xəstəxanasında tibb bacısı kimi fəaliyyət göstərmişdi. Şöhlət Qardaşı Abdullanın oğlu Əlikramı özünə oğulluğa götürmüş, onu yaxın qohumu İnqilab müəllimin qızı Ramilə xanımla evləndirmişdi. Əlikramın üç övladı dünyaya gəlibdi. Oğulları Xasay, Cavid və bir qızı: Aygün. Şöhlət böyük nəvəsinə atası Xasayın adını qoyubdu. Əlikramın oğlu Xasay, qızı Aygün ailəlidirlər. Onlar Bəhrəmtəpə qəsəbəsində yaşayır. Şöhlətin "Bəhrəmtəpə" qəsəbəsində yaşamağı, qardaşı Qüdrəti, və Yusifi də bu qəsəbəyə gətirmişdi. Hafizə 2007-ci ildə, Şöhlət 2013-cü ildə yaşadıqları Bəhrəmtəpə qəsəbəsində dünyalarını dəyişmişdi. Onlar hər ikisi Budaqlı kənd qəbirstanlığında doğmalarının qəbri yanında dəfn olunublar.

Abdullanın qızı Tərifə xanım, ata qohumu Adilin həyat yoldaşı olub və bir oğlu var.

**Abdullayev Yusif** Xasay oğlu, İmişli rayon Budaqlı tayfasında anadan olubdu. O, sürücülük məktəbini oxuduqdan sonra qardaşı Şöhlətin yanına getmiş və tikinti idarələrinin birində sürücü işləmişdi. O, əslən Əlipənahlı tayfasından olmaqla, "Bəhrəmtəpə" qəsəbəsində yaşayan Möhübbət kişinin qızı Şəkura xanımla evlənib ailə qurmuşdu. Yusif 1971-ci ildən sonra atası və qardaşları yaşayan Budaqlılar yaşayan kəndə köçərək orada sürücü işləmişdi. Yusifin iki oğlu, iki qızı olub.

Oğlanları: Mehman (1976-2001), Ənvər.

Qızları: Mətanət, İlhamə.



*Şəkildə soldan Mehman, Yasin*

**Mehman** Yusif oğlu, tayfada sayılan gənclərdən olmaqla ali təhsil almış ziyalı olubdu. O, el-obada yüksək hörmətə malik olduğu üçün kəndin ilk bələdiyə sədri seçilmişdi. Çox

təəssüflər olsun ki, o da əmisi oğlu Yasinlə eyni vaxtda 2001-ci ildə avtoqəzada faciəli surətdə həlak oldu. Bu iki gəncin əziz xatirəsi bu gün də qohumlarının və yaxınlarının qəlbində yaşayır. Mehman ailə qurmadığı üçün övladı qalmayıb.

**Ənvər** Yusifin oğlu, ali təhsilli müəllimdi, hazırda Sarı-Su (Budaqlı) kənd tam orta məktəbin direktoru vəzifəsində çalışır. Ənvər müəllim öz tələbə yoldaşı Beyləqan rayon Bolsulu kəndində yaşayan Cəfərin qızı Bənövşə xanımla ailə qurubdu. Ənvər müəllimin Bir oğlu Mehman, bir qızı Banuçiçək dünyaya göz açıbdı. Ənvər müəllimin oğlu Mehman, həyatdan dan nakam getmiş əmisinin adını yaşadır.

Yusifin böyük qızı Mətanət rəhmətlik Yasinin, kiçik qızı İlhamə isə Kərbəlayı Şirinli Nəsib kişinin oğlu Nəcəfqulunun həyat yoldaşıdır. Yusif hazırda Budaqlı kəndində yaşayır.

**Abdullayev Qüdrət** Xasay oğlu, İmişli rayonu Əliqulular kəndində anadan olub. O, Gəncə şəhərində Kənd Təsərrüfatı İnstitutunun mexannik-mühəndis fakültəsini bitiribdi. Qüdrət, Ali təhsil aldıqdan sonra İmişli rayon "Bəhrəmtəpə" qəsəbəsində yaşamış və həmin qəsəbədə Texniki Peşə məktəbində müəllim və uzun müddət direktor müavini vəzifəsində çalışmışdı. O, əmisi Şahların kiçik qızı Əzizə xanımla evlənib ailə qurubdur. Qüdrət Beyləqan rayon 133 saylı Texniki Peşə məktəbində direktor, bu vəzifədən Budaqlılar yaşayan kəndə sovxoz direktoru vəzifəsinə irəli çəkilmişdi. Qüdrətin iki oğlu, iki qızı anadan olubdur.

Oğlanları Samir, Seymur. Qızları: Sahilə, Gülnaz.

Qüdrət hazırda İmişli rayon "Bəhrəmtəpə" qəsəbəsində yaşayır.

**Tanrıverdi** Xasay oğlu, İmişli rayon Əliqulular kəndində anadan olubdu. O, öz xalası qızı Roza xanımla ailə qurmuş

və Budaqlılar kəndində yaşayır. Bu cütlükdən dörd qız dünyaya gəlibdir.

Qızları: Zərifə, Xəyalə, Zülfiyyə, Xanım.

Tanrıverdinin qızları Xəyalə, Zülfiyyə və Xanım ailəlidirlər, övladları var. Zərifə hələ ki, ailə həyatı qurmayıb.

**Valeh**, Xasay kişinin kiçik oğludu, İmişli rayon Əliqulular kəndində anadan olub. Anası rəhmətə getdikdən sonra bir müddət qardaşı Şöhlətin, himayəsində böyüdü. Hazırda Rusiya vətəndaşıdı. O, ailəlidir, Dünya, Məleykə, Çinarə və Nuranə adlı dörd qız övladları var...

**Əliyev Surxay Abdulla oğlu** (1909-1977), 1909-cü ildə Budaqlı elatında anadan olubdur. O, qardaşları ilə birlikdə yaşamışdı. Surxay, Tanrıqullar tayfasından Həmzə kişinin qızı



*Surxay oğlu  Şahmar, həyat yoldaşı Tamilə*

Zəriş (1915-1967) xanımla evlənib ailə qurubdur. Surxay 1941-ci ildə II Dünya Müharibəsinə gedib. Müharibəyə gedən vaxtı onun bir oğlu, iki qızı var idi. O, alman işğalçılarına

qarşı vuruşmuşdu. Müharibədə bir neçə dəfə yaralanmasına baxmayaraq, döyüş yolu Berlinə qədər gedib çıxmışdı. SSRİ-nin Alman faşizm üzərində qələbəsindən sonra o, doğma Vətəni Azərbaycana dönmüş, öz obasında ailəsi ilə birlikdə ömür yolunu davam etdirmişdi.

Surxay kişi müharibədən qayıtdıqdan sonra yenidən bir oğlu və bir qızı anadan doğulubdur.

Oğlanları: Şahmar, Səhrəd.

Qızları: Səltənət, Sənəm, Almara, Təzəgül.

Surxayın kiçik oğlu Səhrəd (1944-1967) gənc yaşlarında İmişli rayon Əliqulular kəndində rəhmətə gedib. O, ailə qurmadığı üçün övladı olmayıb. Səhrəd, kəndin "Ənbərə" qəbirstanlığında dəfn olunub.

Surxay 1977-cü ildə İmişli rayon Əliqulular kəndində rəhmətə gedib, həmin kəndin "Ənbərə" qəbirstanlığında (Budaqlıların 1986-cı ilə qədər Əliqulular kəndində dünyasını dəyişənləri bu qəbirstanlıqda dəfn olunublar) doğmalarının yanında dəfn olunubdur.

Surxayın qızları: Səltənət, (1934-2012), əmisi oğlu Nəsib kişi ilə evli olub, Almara, əmisi oğlu Rəfayılla evlidir, Təzəgül, Kərbəlayı Şirinli Nəsibin oğlu Həsənqulu (Həsənqulu rəhmətə gedib) ilə, Sənəm Tanırıqullar tayfasından Garayla evli olub. Sənəm qızı Gülzarı dünyaya gətirərkən gənc yaşında dünyasın dəyişib.

Surxay kişi, övladları ilə birlikdə Əliqulular kəndində maldarlıqla məşğul olubdu. Surxay kişidən sonra oğlu Şahmar uzun müddət kəndin mal-qara fermasının briqadiri vəzifəsində işləyibdir. Surxay kişi rəhmətə getdikdən sonra 1985-ci ildə onun ailəsi Beyləqana köçüb, Budaqlılar kəndində yaşayırlar.

**Şahmar** Surxay kişinin böyük oğludur. O, əmisi oğlu Qamboyun qızı Tamilə xanımla evlənmiş, onların iki oğlu dörd qızı olmuşdu.

Oğlanları: Mübariz, Hafiz

Qızları: Sara, Xatirə, Nazimə, Nəzakət, Elnarə.

Şahmarın kiçik oğlu Hafiz (1974-1982), uşaq yaşlarında dünyasını dəyişdi. O, "Ənbərə" qəbirstanlığında əzizlərinin yanında dəfn olunub.

Şahmarın böyük oğlu Mübariz (1966-2019) bibisi qızı Aftabla ailəlidir. O, uzun müddət kənd bələdiyyə nümayəndəsi işləyib.

Oğulları: Faiq, Nail, Arzuman, qızları: Zəriş.

Şahmar və ailəsi Budaqlılar kəndində yaşayırlar. Şahmarın nəvəsi Faiq, Qüdrətin qızı Gülnazla, Nail, Ağdam rayon Eloğlu kəndindən Jalə xanımla və Arzuman, bibisi Xatirənin qızı Şamama xanımla ailə qurublar. Mübarizin yeganə qızı Zəriş isə bibisi Saranın oğlu ilə evlidir. Şahmarın övladları və nəvələri Beyləqan rayon Budaqlılar kəndində yaşayırlar. Şahmarın oğlu Mübariz 2019-cu ildə dünyasın dəyişdi və Budaqlı qəbirstanlığında dəfn olunub.

**Əliyev Şahlar Abdulla oğlu,** (1915-2009) Abdullanın kiçik oğludur. O, Budaqlı elatında sayılan ağsaqqal olubdur. Şahlar gəncliyindən qoçaq və bacarığı ilə həmyaşıdları arasında həmişə seçilirdi. O, təhsil almışdı, orta təhsilli zootexnik idi. Şahlar ömrünün çox hissəsini heyvandarlıqla məşğul olmuşdur. Budaqlı kolxozunda uzun müddət ferma müdiri və kolxoz sədri vəzifələrində çalışmışdır. O, bir müddət baba torpaqlarında DQMV-in Hadrut rayonu Tağ kəndində qoyun fermasının müdiri işləmişdi. O, Sisyanın Qızılcıq kəndindən tanınmış ağsaqqal Bayram kişinin qızı Suduş (1927-1995) xa-

nımla ailə həyatı qurmuşdu. Şahlar 1968-ci ildən Beyləqan rayonunun Sarı-su kəndinə köçdü və orada məskunlaşdı. Adı çəkilən həmin "Sarı-su" adlanan yaşayış məskəni vaxtilə Hacı Qasımın qışlaq yataq yeri olmuşdu. Şahlar bu kəndə dönməsi ilə Budaqlıları öz ətrafında yenidən birləşdirə bildi. Sovet dövründə bu yaşayış məskəni Rusiyanın Sibir bölgələrindən sürgün olunmuş Malağanlar üçün salınmışdır. 1960-cı ildən sonra burada türklər məskunlaşdılar. 1968-ci ildə Şahlar kişi, ata-baba torpağında məskunlaşdıqdan sonra, İmişli rayonu Əliqululular kəndində yaşayan Budaqlıların çox hissəsini köçürdüb öz ətrafında birləşdirə bildi. Həmin ildən öldüyü günə qədər Şahlar kişi öz tayfasının layiqli və sayılan ağsaqqalı olmuşdur. Şahlar kişi həm elmli, həm də helimli kişi olmuşdu. O, dünyada görüb-götürmüş adamıydı.

Günlərin birində yaylaq vaxtı çobanlar söhbət edirlər ki, bir ala qarğa dadanıb çantamıza, çantanı yerə qoymağa bizi peşman edir. Ala qarğa həməyir olub, elə ki, çoban çörək bağlamasını gözündən kənar yerə qoydu, bir də görür çörək getdi. Şahlar bu məsələdən halı olanda deyir:

- Siz narahat olmayın:- mən onun dərsini verəcəm.

Çobanlar fikirləşir ki, ala qarğa çox bic olur, Şahlar bunun dərsini necə verə bilər. Soruşurlar:

- Ay qağa sən bu ala qarğaya neyliyə biləcəksən. O da cavab verir ki:

- Edəndə görəcəksiniz.

Şahlar kişi, pencəyini çıxarır ona xırda bir çubuğu dirək verib çörək çantasını da qoyur altına. Çubuğa sap bağlayıb girir bir yekə daşın arxasına. Ala qarğa qonub çörəyi götürəndə sapı çəkir, qarğa qalır pencəyin altında. Beləliklə, o ala qarğa-

nı tutub qanadlarını saxlayıb, qalan tüklərini diri-diri yolub boşlayır havaya.



*Şahlar, həyat yoldaşı Suduş.*

Ala qarğa qalxır səmaya qışqıra-qışqıra özün ora-bura vurur. Bu hadisəni hətta kənarda görənlər deyirlər ki, bu Şahların işidi. Çünki, hər adam ala qarğanı tuta bilməzdi.

Yazın orta ayı idi, elatın qoyun sürüləri qalxmışdı yaylağa. Təbiətin gözəlliyi insanları özünə heyran edir, yamaclar yaşıl məxmər kimi ota bürünüb, dağların hündürlüyündən əriyən qar suları çaylara tökülür və çaylarda axan sular daşlara çırpılıb özünə məxsus səs çıxara-çıxara axması insanı özünə məftun edirdi. Köç boyu aclıqdan əziyyət çəkmiş qoyun sürüsü yamaca yayılıb həvəslə otlayırdı. Mal-qara və qoyun sərbəst formada otlayır və artıq çobanlara əziyyət də vermirdi. Havaların yaxşı olması, Şahların qəlbində bir ovqat yaratdı və Qızılcıq kəndinə getmək istədi. Çünki, bu kənddə Şahların qayınatası yaşayırdı. Bu kəndə at belində getmək bir-iki

saatlıq yol idi. Şahların bacısı qızının həyat yoldaşı Tanrıverdi ilə çox isti münasibəti varıydı. Bir az yaş fərqləri olmasına baxmayaraq həmişə yoldaşlıq edirdilər. Onlar qonaqlığa, bazarlığa bir yerdə gedərdilər. Dostluq, yoldaşlıq bir tərəfə, həm də Tanrıverdi, Şahların bacısı qızının həyat yoldaşıydı. Onların alaçıqları da bir-birinə yaxın olardı. Münəvvərin də ən çox istədiyi dayısı elə Şahlar idi. Şahlar alaçığın qabağından axan çayda atını suvaran Tanrıverdiyə dedi:

- Ay yeznə, nə iş görürsən, bəlkə atımızı sürək Qızılcıq kəndinə, xeyli vaxtdı qohumlardan da xəbərim yoxdu. Atını suluyub, yedəyində geri qayıdan Tanrıverdi dedi:

- Şahlar, kəndə əli boş getməyək, sən hazırlaş, mən də bir quzu kəsim gedək.

- Əlbəttə pis olmaz, mən özüm quzu kəsmək istəyirdim, bir də ki, mənim qohumlarım sənin xətirini heç məndən əskik istəmirlər.

Doğrudan, Qızılcıq kəndindən Budaqlı elatında bir neçə gəlin varıydı. Onlar hamısı tayfada yaxşı hörmət qazanmışdılar. Ağsaqqal, ağbirçək yerini bilən gəlinlər idi. Elə kəndin adamları da çox qonaqpərvər, mehriban insanlarıydı. Şahların qayınatası Bayram kişi, kənddə sayılan ağsaqqal, qaynanası Mələk xanım qohumcanlı, mehriban, gülərüz bir xanım idi...

Şahlar və Tanrıverdi xurcunlarını pay-puşla doldurub atı minib düşdülər yola. Onlar kəndə çatdılar, atlarını sürdülər Bayram kişinin qapısına. Qonaqları yüksək səviyyədə qarşıladılar, atların yəhərin alıb, otlağa bağladılar. Bu kənddən qız alanlar yalnız yaylaq vaxtı görüşə bilirdilər. Çünki, sentyabrdə el geri, qışlağa qayıdır və mayın axırı yaylağa qalxardı. Süfrə açıldı yedilər, içdilər bir gecə qalıb dincəldilər.

Bu günə qədər qızılcıq camaatının dilində bir deyim xatirələrə dönüb qalıbdır. Kənddə hər hansı bir mübahisəli məsələ olanda deyərdilər, qoy Hacı Qasım yaylağa gəlsin səni onun mühakiməsinə verəcəm. Çünki Hacı Qasım bu mahalda böyük nüfuza malaik olan ağsaqqal idi. Şahlar da Hacı Qasımın qardaşı oğlu olmaqla həm də əmisinin davamçısıydı. Eləki səhər oldu Şahlar dedi:

- Yolçu yolda gərək biz getməliyik.

Bayram kişinin evindən də bunlara yaxşı pay hazırlandı. Xurcunlar dolu atın tərkinə bağlandı və vidalaşanda Şahların qayınanası Mələk xanım dedi:

- Şahlar, xurcunda olan payları qardaş kimi yarı bölərsiniz.

- Baş üstə Mələk xanım, onsuz da həmişə belə olub, indi də elə olacaq.

Şahlarla, Tanrıverdi xeyli yol gəlmişdilər ki, obaya az qalırdı, Şahlar dedi:

- Tanrıverdi, atdan düş, mən qaynanama söz verdim burda nə varsa qardaş malı kimi yarı bölək.

- Şahlar, dağı aşırıq obadı, gedək evdə bölək.

- Yox qardaş evdə arvaddı olar ki, birin əskik qoyar, mən şüğlüzmə olaram. Burda böləcəyik. Xurcunları qoydular yerə, meyvədən tutmuş şirniyyata qədər hamısını tən böldülər. Ortada qaldı bir banka bəhməz. Bəhməzi bölməyə qab yoxdu. Tanrıverdi dedi:

- Şahlar, bəhməzi evdə bölərik.

- Elə şey yoxdu, burda böləcəyik, istəyirsən yarısını iç, istəyirsən cibinə tök, məsləhət sənindir, istəyirsən çölə tök.

- Şahlar, evə gedəndə bir stəkan verərsən.

- Qardaş, bölgü burda aparılmalıdır.

- Şahlar mən sənin helminə bələdəm, bəhməz sənin halal xoşun olsun.

- Bax bu başqa məsələ, halallığın özün verdin.

Bu əhvalat onların arasında bir maraqlı əhvalat kimi həmişə canlanırdı. Tanrıverdi həmişə cavanlara deyərdi, "gedib İnstitutda beş il təhsil almaqdansa, Şahlardan altı ay dərs alsanız bəsinizdi".

Elat camaatının köçü yaylağa qalxırdı. El köçü, qoyun sürüləri Ermənistanın Gorus rayonundan adlayıb Sisyana doğru irəliləyirdi. Kolxozun sədri Səttar (Səttar, Şahlar kişinin bacısının yeznəsidi), ferma müdiri Şahlar və baş baytar həkimi Balakişi köçdən xeyli qabaqda gedirdilər. Gorus ilə Sisyanın arasında üçtəpə deyilən yer var ki, doğrudan da orada üç böyük təpə varıydı. Bu təpənin yaxınlığında yolun üstündə böyük bir daş varıydı. Bu daşın ortasında yumru çıxıntısı varıydı ki, buna göbək daşı deyirdilər. Bəzən bu daşın yanından keçən adamlar göbəyini daşa sürtürdülər. Şahlar, Səttar və Balakişi bu göbək daşına çatanda Şahlar atını saxladı, Səttara göz vurdu ki, atdan düşün. Balakişi bu yollara bələd deyildi. Şahlar dedi:

- Bilirsiniz, bu daş müqəddəsdir, burdan keçən göbək daşını ziyarət edib nəzir qoymasa, bunun düşər-düşməzi olar.

Şahlar birinci özü daşa göbəyini sürtüb bir 25-lik nəzir qoydu balaca daşın altına. Sonra Səttar ziyarət edib o da 25-lik qoydu. Naəlac qalan Balakişi də göbəyini sürtüb 25-lik qoydu pulların üstünə. Hər üçü atlanıb düşdülər yola. Bir xeyli getmişdilər Şahlar dedi:

- Siz yavaş-yavaş gedin mən çobanlara tapşırıq verib, özümü sizə çatdıracam.

Şahlar atını sürdü göbək daşının yanına pulları götürüb geri qayıtdı. Sisyan rayonuna çatmamış yolun üstündə bir yeməkxana varıydı. Şahlar yoldaşlarına müraciət etdi:

- Bəlkə burda çörək yeyək, nə deyirsiniz? Səttar tez razılaşdı:

- Onsuz da nahar da keçir, nahar etsək yaxşı olar.

Onlar əyləşdilər yemək sifariş etdilər, xörək gəldi yedilər, çay içdilər və Şahlar xidmətçini çağırıb bir 25-lik uzatdı:

- Oğul, yeməyinin pulun çıx.

Xidmətçi pulun xırdasını qaytardı və onlar atı minib düşdülər yola. Göbək daşından tutmuş yeməkxanadan qalxana qədər baytar həkimi Balakişi çaş-baş qalmışdı. Ofisianta verilən 25-lik də ona çox tanış gəlirdi. Bir az getmişdilər Balakişi dilləndi:

- Şahlar, mən bu göbək daşından baş aça bilmədim, amma xidmətçiyə verdiyin 25-lik də mənimkinə oxşadı. Şahlar atının başını çəkib dedi:

- Balakişi, sən nə danışırsan, səndən heç gözləməzdim, daşın altına qoyulan nəziri götürmək günahdı. Çox təəssüf edirəm, sən savadsız adam olsan bu sözü səndən gözləmək olardı, ancaq sən ali təhsilli baytar həkimisən axı. Biz də pul qoyduq, sən də qoydun, pul mənim cibimə necə gəlib girdi.

Balakişi utancaq halda dedi:

- Şahlar, sən Allah məni bağışla, nə bilim 25-lik mənim puluma oxşadı, elə belə dedim. Şahlar, Səttarın da pulunu qaytardı özünə. Balakişi xəsis olduğu üçün bu planı ona qarşı qurmuşdular.

Şahların ömür yollarında maraqlı əhvalatlar çox olmuşdu. Heç kəs deyə bilməzdi ki, mən Şahlardan çox bilirəm və yaxud mən Şahları aldada bilmişəm. Bu mümkün olan iş deyil-

di. Şahlar həm də yaxşı yeyən adamıydı. O, bir əmliyi təkcə yeyərdi. Günlərin birində Şahlar ferma müdiri olan vaxtlar rayonun birinci katibi onun qonağı olur. Şahlar öz evində yaxşı yemək hazırladır, süfrə açdırır və qonaqlar gəlib əyləşirlər süfrə başında. Şahların həyat yoldaşı Suduş bibinin yeməyini hər adam bişirə bilməzdi. Onun bişirdiyi yeməkdən doymaq da olmazdı. Birinci katib sürücüsünə dedi:

- Maşında içki var onu gətir. Maşından bir şüşə rus arağı gətirdilər vəstəkanlara süzdülər qaldırıb vurdular. Şahlar içki içən adam deyildi, ona görə də stəkanı götürmədi. Katib dedi:

- Şahlar, niyə vurmursan?

- Yoldaş katib, mən heç vaxt içki içməmişəm.

- Şahlar, bu yaxşı şeydi, yüz qram vursan bir quzunu yeyə bilərsən.

- Yoldaş katib, mən içkisiz də bir quzunu yeyə bilərəm. Katib nə qədər üz vurdusa mümkün olmadı. Şahlar dedi:

- Yoldaş katib biz həyatda ən acı soğanı görmüşük, ancaq mən görürəm ki, araq içənlər, arağı içəndən sonra ağızlarına soğan qoyurlar. Deməli soğan araqdan şirindi. Məni bağışla elə ona görə də araq içmirəm və içməyəcəm də.

Şahlar qorxmaz adam olub. Elat camaatı dağda olan vaxtı Şahlar atdan yıxılıb qolu sınır. Yaylaqda bir nəfər onun qolunu gipsə salıb sarıyır. Sınıqçı adam peşəkar olmadığından qol əyri bitib. Bir aydan sonra el arana qayıdır və Şahlar kişi sınıqçı yanına gedib qolunu göstərir. Ona bildirirlər ki, qolun düzgün sarınmadığından əyri bitib. Şahlar deyir:

- Usta bəs bunun əlacı nədir? Sınıqçı da öz növbəsində bildirir ki, qol sındırılıb yenidən gipsə salınmalıdır. Şahlar deyir:

- Usta sındır yenidən sarı. Sınıqçı isə tərəddüd edir ki, qardaş bunu mən edə bilmərəm. Şahlar isə:

- Niyə edə bilməzsən?

- Qardaş bu həm ağır, həm də ağrılı işdi.

Şahlar tərəddüd etmədən:- Bunu mən edərəm, deyib iki ədəd döşəkcə qatlayıb sınığın arxa və qabaq hissəsinə qoyub bir zərbə ilə öz qolunu sındırır.

Sınıqçı Şahların bu qorxmazlığına heyran qalır və onun qolunu yenidən gipsə salıb sarımış və demişdi:

- Mən sənin kimi ürəkli adam görməmişəm, sən özün öz qolunu necə sındıra bildin?

Şahlar kişinin nə elminə, nə də helminə söz ola bilməzdi. O, həm ürəkli, həm də qorxmaz kişi olub. Şahlar kişi demək olar ki, Hacı Qasımın yolunun davamçısı olubdur. Hər hansı bir çətinlik olanda deyərdilər Şahlar çox tədbirli adamdı, ondan məsləhət almaq lazımdır. Şahlar həyatı görə-görə gəlmişdi. O, həmişə deyərdi:

- "Adam var sözünün ağasıdır, adam da var varlının tulasıdır".

Əmisi Hacı Qasım kimi o  da deyirdi:

- "Yalan danışan və yaltaq adamla münasibət qurmayın".

Şahlar hələ gənc yaşlarından ağsaqqallıq titulunu qazanmışdı. Onun sözü həmişə keçərliydi. Bütün elat tayfalarında, istər aran, istərsə də dağda onun dostları, tanışları çoxuydu. Şahlar həm də süfrəsi açıq, evi həmişə qonaqlı olan kişiydi. Onun həyat yoldaşı Suduş, Budaqlı tayfasında çox hörmət qazanmışdı. Suduş, ürəyi geniş, hamıya əl tutan, bir tikə çörəyini belə heç kəsdən əsirgəməzdi. Bu səxavət, qabiliyyət ona ata ocağından gəlmişdi. Böyük, kiçik yerini bilən xanım idi. O, bu gün də bütün qohumların qəlbində yaşayır və hə-

mişə anılır. Suduş, 1995-ci ildə Budaqlı kəndində dünyasını dəyişib, Beyləqan şəhər Peyğəmbər ziyarətgahı qəbirstanlığında doğmalarının qəbri yanında dəfn olunubdu.



***Şahlar solunda qardaşı oğlu Qüdrət, sağda oğlu Qənimət***

Günlərin birində Hacının qardaşı oğlu Şahlar, uşaq vaxtı, təxminən 12-13 yaşı olan vaxtları idi, Hacı Qasımın Qızıl Qayada olan bağından çubuq qırırmış. Hacı Qasım balta səsini eşidib bağa girir ki, görsün kimdi ağacları kəsən. Bu zaman görür ağacın başında bir uşaq var. Ay bala nə iş görürsən, ağacı niyə kəsirsən? deməklə Şahlar ağacdan yıxılır yerə qılçı qırılır. Hacı çox peşiman olur bu işə. Hacı Qasım qardaşı uşaq-

larını çox istəyərdi. Şahların qılçını gipsə saldırıb sarıyırlar, sınıq sağalmır ki, sağalmır. Günü gündən vəziyyəti ağırlaşır. Vəziyyəti belə görən Hacı Qasım, Salman kişini göndərir Füzuli rayon Qoçəhmədli kəndinə. O kənddə məşhur bir sınıqçı varıydı Nəriman kişi. Nəriman kişi çox vaxt uzaq olan yerlərə getməzdi. Ətraf kəndlərdə belə hadisələr baş verəndə xəstəni onun yanına gətirərdilər. Ancaq Hacı Qasımın adını eşidəndə bir az fikrə gedib deyir:

Hacı çox peşiman olur bu işə. Hacı Qasım qardaşı uşaqlarını çox istəyərdi. Şahların qılçını gipsə saldırıb sarıyırlar, sınıq sağalmır ki, sağalmır. Günü gündən vəziyyəti ağırlaşır. Vəziyyəti belə görən Hacı Qasım, Salman kişini göndərir Füzuli rayon Qoçəhmədli kəndinə. O kənddə məşhur bir sınıqçı varıydı Nəriman kişi. Nəriman kişi çox vaxt uzaq olan yerlərə getməzdi. Ətraf kəndlərdə belə hadisələr baş verəndə xəstəni onun yanına gətirərdilər. Ancaq Hacı Qasımın adını eşidəndə bir az fikrə gedib deyir:

- Mən bu çağırışa getməsəm olmaz, Hacı mahalda tanınmış hörmətli adamdı.

Sınıqçı Nəriman, Salman kişiylə birlikdə Qızıl Qayaya gəlir, Şahların sarğısını açıb yoxlayır görür ki, sınmış sümüyün arasında ət qaldığından sümük bitişmir və sümükdə qaralma başlayıb. Yaranı yuyub təmizləyən Nəriman kişi sınan qılçı yenidən gipsə salıb bağlayır. Neçə gün ağrılara dözməyən Şahlar iki gün yatır, yuxudan ayılmır. Yuxudan ayılanda özünü yaxşı hiss etdiyini deyir. Sınıqçı Nəriman deyib:

- Bala get yavaş-yavaş gəz özünü gözlə, bir aydan sonra gəlib sarğını özüm açacam. Əgər Hacı Qasımın adı olmasaydı mən Qoçəhmədlidən Qızıl Qayaya gəlməzdim. Sınıqçı Nəriman, üzünü Hacı Qasıma tutub deyir: Hacı, üç gün də ge-

cikdirsən ağır fəsadlar baş verə bilərdi. Ətin bir hissəsi sümüyün arasında qalıbmış. Kim sarıyıbsa səhvə yol verib. Şükür ki, yaxşı qurtardı.

Sınıqçı Nəriman üç gün xəstənin yanında qaldıqdan sonra getmək qərarına gəlir.

- Hacı, bir aydan sonra özüm gələcəm, inşallah yaxşı olar. Doğrudan da bir aydan sonra sınıqçı Nəriman gəlir baxır hər şey öz qaydasındadır. O, sarğını açıb deyir:

- Qardaşoğlu çox yaxşıdı, bir də icazəsiz Hacının ağaclarını doğrama. Hacı, Allah qardaşoğluna şəfa versin, o olmasaydı səninlə tanış olmazdım. Adınızı eşitmişdim, üzünüzü görmək çoxdan ki, arzum idi. Hacı Qasım onun əlini sıxaraq demişdi:

- Nəriman, mənə çox böyük yaxşılıq etdin. Şahlara bir şey olsa mən heç vaxt özümü bağışlaya bilməzdim. Odur ki, sən mənim əziz qonağım və dostum oldun, qapım sənin üzünə həmişə açıqdır, nə vaxt istəsən buyura bilərsən.

Hacı Qasım, sınıqçı Nərimana bir at bağışlamış və atın yükü qədər də ona pay qoydurmuşdu.

Şahlar kişi həmişə arandan dağa, dağdan arana gedən adam olub. O, bir il aranda qalıbmış, axşamlar məntəqədə pambıq qəbul edirmiş. O zamanlar asma çəki tərəzilərindən istifadə olunurdu. Şahların bacısı qızının yeznəsi Qara, Şahlara deyir Şahlar əmi, pambığı çəkəndə qapanın daşını qabağa artıq vur Geri qaytaranda, geriyə çəkib tərəzini bağla. Şahlar kişi deyir:

- Ay yeznə, nəyə görə belə etməliyəm? Qara da öz növbəsində ona bildirir ki, belə etsən hər dəfə 1kq tərəzidə qazanacaqsan. Şahlar kişi deyir:

- Ay yeznə, sən o qədər bilən yerdə, gör mən nə qədər bilirəm. Şahlar kişi qapanın asılqanın altından balaca maqnit qırığını göstərib deyir:

- Bu balaca maqnit hər çəkidə mənə 3 kq pambıq verir.

Şahlar kişidən qalan xatirələri saymaqla qurtarmaq olmaz. Şahlar kişi 2009-cu ildə Budaqlı kəndində dünyasını dəyişmiş və həmin kəndin qəbirstanlığında dəfn olunmuşdur. Onun dörd oğlu, iki qızı olmuşdu.

Oğlanları: Zakir, Bakir, Qənimət, Vəkil,qızları: Ağgül, Əzizə**.**

**Zakir**, Şahların böyük oğludu (1945-2017), Sisyan rayon Qızılcıq kəndində yaşamışdı. Babası Bayram kişinin oğul övladı olmadığı üçün nəvəsi Zakiri körpəlikdən övladlığa götürmüş və onu öz himayəsində böyütmüşdür. Zakir orta məktəbi "Qızılcıq" kəndində bitirdikdən sonra, həmin rayonda avtomobil məktəbində oxuyub sürücülük ixtisasını yiyələnmişdir. Zakir, 1988-ci il Qarabağ münaqişəsi başlayana qədər həmin kənddə yaşamış və sürücü vəzifəsində işləmişdi. Zakiri babası Bayram kişi böyüdüb evləndirmiş, Qızılcıq kəndində ona böyük toy məclisi qurmuşdu. O, yaşadığı kənddən Əşrəf kişinin qızı Zafta xanımla evlənib ailə qurmuşdu. Zakirin üç oğlu, iki qızı dünyaya gəlibdir.

Oğlanları: Namiq, Vəzir, Seymur, Qızları: Sevda, Reyhan.

Namiq Zakir oğlu, xalası qızı Leyla xanımla ailəlidir. Onların Elnur, Nazim və Zakir adlı üç oğlu var. Yuxarıda göründüyü kimi, Namiq də öz oğluna atasının adını qoyubdu.

Vəzir Zakir oğlu, öz kəndçiləri Aynurə xanımla evlənib, Pəri adlı bir qızı, Kənan, Xəqan adlı iki oğlanları anadan doğulubdu.

Seymur Zakir oğlu, xalası qızı Mahirə xanımla evlənib, Səid, Fərid adlı oğlanları dünyaya gəlib.



*Şəkildə soldan Yasin, Zakir, Vəkil, Zakirin həyat yoldaşı Zafta, Əzizə.*

Zakirin böyük qızı Sevda xanım, Möhlətin böyük oğlu Rafiq müəllimin həyat yoldaşıdır. Zakirin ikinci qızı Reyhan xanım isə həmkəndlisi Çərkəzlə ailə qurubdu. Zakirin bütün övladları Bakı şəhərində yaşayırlar.

1988-ci ildə Ermənistan Respublikasının Azərbaycan torpaqlarının işğalı və etnik təmizləmə siyasətinin qurbanlarından biri də Zakir olmuşdu. O, qaçqın kimi paytaxt Bakıda məskunlaşdı və 2017-ci ildə Bakıda rəhmətə getdi. Zakir Bakı şəhər qəbirstanlığında dəfn olunubdu.

**Bakir** Şahlar oğlu (1949-2012), Budaqlı tayfasında anadan doğulub. Orta məktəbi bitirdikdən sonra orta ixtisas təhsili alıb. Bakir, Səfəralının qız nəvəsi Sayıfsulun qızı Nübar (1952-2005) xanımla ailə həyatı qurub, İmişli rayon Bəhrəmtəpə qəsəbəsində əmək fəaliyyətinə başlayıb. Bakirin bir oğlu, üç qızı var.

Oğlu: Elşad, qızları: Gülü, Arzu, Könül.

Bakir Kənd Təsərrüfatı Texnikumunun mexanika fakültəsini bitirmiş və texnik-mexannik ixtisasına yiyələnmişdir. O, ailə qurduqdan sonra İmişli rayon Bəhrəmtəpə qəsəbəsində yaşamışdı. Yaşadığı qəsəbədə yerləşən Texniki Peşə Məktəbində müəllim kimi fəaliyyətə başlamış və ömrünün sonuna qədər həmin məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bakir müəllim, insan kimi səmimi, təbiətcə sakit, mehriban, qohumcanlı və qohumlar arasında böyük hörmət və rəğbətə malik olan insanıydı. Onun həyat yoldaşı Nübar xanım da özünə bənzər xasiyyətdə olmaqla tayfada özünə hörmət qazanmış sevilən xanımlardan biri idi.




***Şahların oğlu Qənimət və nəvə, nəticələri.***

Bakir, dünyalar qədər sevdiyi həyat yoldaşı Nübar xanımı amansız ölümün pəncəsindən xilas edə bilmədi. Nübar xanım övlad toyu görmədən 2005-ci ildə xərçəng xəstəliyindən

dünyasını dəyişdi. O, Budaqlı kənd qəbirstanlığında əzizlərinin yanında dəfn olunub.

Bakir müəllim, həyat yoldaşının ayrılığına dözə bilmədi. O, 2012-ci ildə yaşadığı Bəhrəmtəpə qəsəbəsində qəflətən ürək tutmasından dünyasını dəyişdi və Budaqlı kənd qəbirstanlığında həyat yoldaşı Nübar xanımın məzarı yanında dəfn olunubdu.

Bakirin oğlu Elşad, yaxın qohumu olan Aynurə xanımla evlidir. Onların Asim adlı oğlu, Gülsüm adlı qızı var. Elşad ata ocağında, Bəhrəmtəpə qəsəbəsində yaşayır.

Bakirin qızları: Gülü, ana qohumlarından Azər adlı oğlanla ailəlidir. Onların bir oğlu, bir qızı dünyaya gəlib. Arzu qan qohumu Nəsibin oğlu Elçinin həyat yoldaşıdır, iki övladı var. Könül, ailəlidir, bir oğlu, bir qızı var. Qızlardan Gülü və Könül Bakıda yaşayırlar.

**Qənimət**, Şahlar kişinin üçüncü oğludur. O, atası Şahlarla bir ailədə yaşadı. Ata ocağında qalan da elə Qənimət oldu. Gənc yaşlarında heyvandarlıqla məşğul olan Qənimət, oturaq həyata keçəndən sonra mexanizator kursunu bitirdi və 4 saylı pambıqçılıq sovxozunda qabaqcıl pambıq briqadiri işlədi. Qənimət yaxın qohumu, atasının əmisi oğlu Nəsib kişinin böyük qızı Elmira xanımla evlənib ailə qurdu. Onların dörd oğlu, bir qızı dünyaya gəldi.

Oğlanları: Vidadi, Vahid, Ramil, Rəşid, qızı: Afət.

Qənimət yaxşı ailə başçısıdır, atası və böyük qardaşları rəhmətə gedəndən sonra yandırdığı ata ocağının bütün ağırlıqları onun çiyninə düşür. Onun övladlarının hamısı evlidir, yaşadığı kənddə yaşayırlar. Vidadi, atasının əmisi qızı Təzəgülün böyük qızı Samirə xanımla ailə qurub. Bu cütlüyün iki övladı dünyaya gəlib.

Oğlu Eltun, qızı Südabə.

Südabə Vidadi qızı, Familin oğlu Loğmanın həyat yoldaşıdır. Vahid Avşar tayfasından Günel xanımla ailəlidir, üç övladı var. Oğlu: Nurlan, Sənan, qızı: Aytac.

Ramil əmisi Vəkilin böyük qızı Gülabatın xanımla ailə qurub. Onların iki oğlu: Şahlar, Fuad, bir qızı: Elmira dünyaya gəlibdir ki, oğlu Şahlar babasının adını yaşadır.

Rəşid isə Xocavənd rayon sakini Nərmin xanımla evlidir. Bu cütlükdən bir qızı, bir oğlu doğulub. Oğlu Ümid, qızı Ləman. Qənimətin övladları və nəvələri özü yaşadığı kənddə yaşayırlar.

Qənimətin yeganə qızı Afət xanım, Nəsib kişinin nəvəsi İlqarın həyat yoldaşıdır.

**Vəkil**, Şahların kiçik oğludur. Vəkil 1956-cı ildə İmişli rayon Əliqulular kəndində anadan olubdu. Uşaqlıq dövrünü Dağlıq Qarabağda keçirib. Atası Şahlar, Hadrut rayon Tağ kəndində ferma müdiri vəzifəsində işləyirdi. Şahlar kişi uzun müddət Dağlıq Qarabağda yaşamışdır. Çünki o yerlər onun ata-baba yurdu olmaqla vaxtı ilə əmisi Hacı Qasımın torpağı olmuşdur.

Vəkil əkinçilik və heyvandarlığı yüksək səviyyədə bacaran insandır. O, Şuşa Kənd Təsərrüfatı Texnikumunun baytarlıq fakültəsini bitirib və orta ixtisaslı baytar həkimidir. Bundan başqa o, texnikanı mükəmməl bilən sənətkardır. Vəkil şəxsi təsərrüfatı ilə məşğul olan fermerdi. Vəkil yaşadığı kənddən Tanrıqullar tayfasından olan Molla Qaranın qızı Ülkər xanımla evlidir. Onların bir oğlu, üç qızları var.

Oğlu: Pərviz, qızları: Gülabatın, Leyla, Mirvari.

Pərviz ailənin tək oğludur. O, bibisi Ağgülün böyük oğlu Yasinin qızı Fəridə xanımla ailə qurubdu. Onların Ağgül və Nuray adlı iki qızları var.

Vəkilin böyük qızı Gülabatın əmisi Qənimətin oğlu Ramilin həyat yoldaşıdır. Onların iki oğlu bir qızları var. İkinci qızı Leyla Xocavənd rayon Tuğ kəndindən Ərsalanın oğlu Əsədlə evlidir, Fidan, Nərmin adlı iki qızı, Abdulla adlı isə bir oğlu var. üçüncü qızı Mirvari bibisi Ağgülün oğlu Niyaməddinin həyat yoldaşıdır.

**Əliyev Baxış Hacı Alı oğlu**:- Həmişə qardaşları ilə birlikdə yaşamış və heyvandarlıqla məşğul olmuşdu. Baxış kişi alicənab adam olubdur. O, böyük-kiçik yerini bilən, ağsaqqallarına hörmət gətirən insan idi. Buna görə də həmişə qardaşı Hacı Qasım onunla müəyyən məsləhətlər edərdi. Hacı Qasım onun xətrini çox istədiyi üçün məhz, onun böyük oğlu Fərhadı özünə oğulluq götürmüşdür. Baxış öz tayfasından Telli xanımla evlənmiş, onların yeddi övladı dünyaya gəlmişdi. Fərhad doğulduğu gündən Hacı Qasım oğulluğa götürmüşdü. Baxışın övladları:

Oğlanları: Fərhad (körpəlikdən Hacı Qasım övladlığa götürüb), Muxtar, Şahpələng.

Qızları: Fizzə, Güldəstə, Suqra, Gülabatın**.**

Baxışın qızları, Məşədi Gülabatın Firidunla evlənmiş, onların övladları olmamışdır. Fizzə xanım təhlə camaatında Əliqulu kişiylə evlənmiş övladları ilə birlikdə Yevlax şəhərində yaşamışdı. Güldəstə əmisi oğlu Qaçayla, Suqra qohumu Xanəhmədlə evlənib Dünyamalılar kəndində yaşamışlar.

**Muxtar** Baxış oğlu (1906-1953), Hacı Qasımın qardaşı Baxışın oğludur. O, Budaqlı tayfasında anadan olub və həmişə Budaqlı elatında yaşamışdır. Muxtara tayfada Qara Muxtar

deyərdilər. Muxtar kişi qoçaq adam olub. El şənliklərində at çapmaqda, atı çapa-çapa müxtəlif hərəkətlər etməklə çox məşhur idi. Onun sərrast atıcılıq qabiliyyəti və çevikliyi olubdu. Muxtar yaxın qohumu Bəyim xanımla ailə qurub, onların bir oğlu, üç qızı olubdur.

Oğlu: İldırım, qızları: Pərizad, Şəndə, Adilə.



Muxtar 1953-cü ildə cavan yaşında dünyasını dəyişib və "Xalac" qəbrstanlığında dəfn olunubdu.

**Əliyev İldırım Muxtar oğlu** (1938-2020), 15 yaşında olarkən atasını itirib. Atasının ölümündən sonra ailənin bütün çətinlikləri onun üzərinə düşüb. İldırım nə qədər çətin olsa da oxuyub ali təhsil alıbdı. O, Budaqlının ilk ziyalısı olan siyahıda özünə yer tutur. İldırım Əliyev Azərbaycan Neft Akademiyasını bitirib, Budaqlı elatının ilk ali təhsilli ziyalılarındandı. O, mühəndis olmaqla, bir çox idarə və müəssisələrin rəisi vəzifələrində çalışıb, rəhbər işçi kimi həmişə sayılan vəzifəli şəxslərdən biri olub. İldırım Hacı İsmayılın nəvəsi, öz xalası qızı Gülxarə xanımla evlənib ailə qurublar. Əvvəllər İmişli rayon Bəhrəmtəpə qəsəbəsində, 1970-ci ildən etibarən isə Beyləqan şəhərində yaşayır. Onun üç oğlu və üç qızı var.

Oğlanları: Seyfulla, Habil, İlham, qızları: Arifə, Arzu, Könül.

İldırımın oğlanlarının hər üçü hələki subaydı, ailə qurmayıblar. Qızları Arifə və Arzu ailəlidir. Kiçik qızı Könül də hələki,

subaydılar. İldırım Əliyev, sentyabr 2020-ci ildə Beyləqan şəhərində dünyasını dəyişib və Cərciz Peyğəmbər qəbirstanlığında anasının yanında dəfn olunub.

**Əliyev Şahpələng** Baxış oğlu (1888-1968), zəmanəsinin vuran-tutan ən qoçaq, cavanlarından biri olubdur. Yaxşı atıcılıq qabiliyyəti olub. O, həmişə çiynində qızıl quş gəzdirərmiş. Şahpələng kişidə bədahətən söz demə qabiliyyəti olubdur. Yaşlı insanların dediklərinə görə həmişə toy məclislərində saz aşıqları ilə deyişmələri olubdur. Deyişmələrdə oxuduğu sözlər özünə məxsus olubdur. Şahpələng Budaqlı elatından Güllü xanımla evlənmiş, onların bir oğlu: İdris (1921-1983) və iki qızı: Mehparə (1932-2006) və Səkinə (1936-2011) anadan olubdur. Güllü üç uşaqdan sonra cavan rəhmətə gedibdir. Şahpələng kişi ikinci dəfə Mirzalının qızı Əzət xanımla (1915-1983) ailə həyatı qurmuş, bu cütlükdən onun bir oğlu: Xanhüseyn və bir qızı: Bənövşə anadan olmuşdur.

**Mehparə**, Şahpələngin böyük qızıdır. O, Əzətin qardaşı Mirzalı oğlu Abbasla (1924-1993) evlənib ailə qurub. Abbas II Dünya Müharibəsində iştirak edib və bir qolunu itirdikdən sonra müharibədən təxris olunubdur. Onların üç oğlu, dörd qızı olubdur.

Oğlanları: Aslan, Əlövsət, Tərlan.

Qızları: Xalidə, Gülnaz, Nigar. Fatma.

Mehparənin övladları və nəvələri İmişli rayon Əliqulular kəndində yaşayırlar. Şahpələng kişinin oğlanları: İdris, Xanhüseyn, qızı: Mehparə və Bənövşənin törəmələri İmişli rayon Əliqulular və Muradxanlı kəndində yaşayırlar.

**Baxışov Xanhüseyn Şahpələng** oğlu (1932-2017), Şahpələngin ikinci arvadı Əzətdən olan oğludur. Xanhüseyn Budaqlı tayfasında anadan olmuşdur. O, İmişli rayon Əliqulular

kəndində sürücü işləmişdir. Xanhüseyn qan qohumu Zərif qızı Gülayə xanımla evlənmiş, onların beş oğlu, üç qızı anadan olubdur.

Oğlanları: Rəşid, Bayram, Cəfər, Məhəddin, Kamran.

Qızları: Aybəniz, Güldanə, Nazilə.

Xanhüseyn ömrünün sonuna qədər Əliqulular kəndində yaşadı və 2017-ci ildə həmin kənddə dünyasını dəyişib. Yaşadığı kəndin qəbirstanlığında dəfn olunubdu. Onun övladları hazırda Əliqulular kəndində yaşayır.

**Fizzə** Baxış qızı: Bərdənin Xan Təhləsi tayfasından Əliqulu ilə ailə həyatı qurmuş, onun iki oğlu, yeddi qızı olmuşdur. Oğlu Hacağa, Hacalı, qızı Ceyran, Xanım, Hamayıl, Gülarə, Sitarə, Nərgiz, Rüyhan.



***Şəkildə soldan: Rasim, Xanhüseyn, Raquf, İldırım.***

Fizzə xanım, qadın olmağına baxmayaraq, sözünü deyə bilən zəhmli və hökümlü xanım olub. O, at minməkdə, silahdan atəş açmaqda heç də kişilərdən geri qalmırdı. Fizzə, ömrünün sonuna qədər Yevlax şəhərində yaşadı, 1985-ci ildə

rəhmətə gedib və Yevlax şəhər qəbirstanlığında həyat yoldaşı Əliqulunun qəbri yanında dəfn olunubdu.

Fizzənin böyük oğlu Hacıağa, övladları ilə birlikdə Yevlax şəhərində yaşayır. İkinci oğlu Hacalı uzun müddət rayonlararası tikinti bazasının rəisi işləmişdi. O, Muğan, Qarabağ və Aran Qarabağda böyük hörmət və nüfuza malik olan ziyalı olmuşdu. O, eynilə ulu babası Hacı Qasıma həm xasiyyətcə, həm də görünüşcə bənzəyirdi. Hacıalı həddindən artıq səxavətli və mehriban insan idi. Hacıalının bir oğlu və bir qızı toylarının gecəsi rəhmətə gediblər. Bu faciə Hacalının ömrünün bir hissəsini vaxtsız əlindən aldı. Fizzə xanımın qız nəvəsi, Ceyran xanımın oğlu Raqub müəllim, məktəb direktoru və uzun müddət Yevlax rayon Təhsil Şöbəsinin müdiri vəzifəsində çalışmışdı.



***Fizzə Baxış qızı, oğlu Hacalı.***

Digər oğlu Nizami müəllim, Yevlax rayon traktor zavodunun direktoru vəzifəsində işləmişdi.

Hacalı, tikinti idarəsinin rəhbəri işlədiyi sovet dövründə, kabinetində başının üstündə asılmış Şah ismayıl Xətayinin böyük portiretini gördüm. Ondan soruşdum ki, bu portireti görənlər sizə nə deyir? Dedi çox adam heç onu tanımır, soruşan olanda deyirəm ki, babam Hacı Qasımın portiretidir, onu qoyub Leninin portiretini vurmalı deyiləm ki. Hacalının sözündən, söhbətindən doymaq olmazdı.

**Alıhüseyn Hacı Alı** oğlu: Hacı Qasımın qardaşıdı. O, həmişə Hacı Qasımın yanında yaşayıb, dağa-arana bir yerdə gedib gəliblər. Alıhüseynin toyunu da Hacı Qasım özü edib. Hacı, Şuşada yaxın dostu olan Ələsgər bəyin qızı Zibəndə xanımı toy edib qardaşına həyat yoldaşı gətirmişdi. Bu gəlinə el-obada Qalalı qızı deyərdilər. Zibəndə xanım da yaxşı gəlin olub. Düşdüyü elat camaatı içərisində yaxşı hörmət qazanıb. Şəhər mühitindən köçəri həyatına keçmək o qədər də asan olan iş deyildi. Alıhüseyn özü də çox mülayim və mehriban adam olub. O, heç kəsin xətrinə dəyməz, Hacı Qasımın çobanları, qulluqçuları ilə xoş rəftar olardı. Bəy qızı, həyat yoldaşına çox diqqətli idi. Onun geyiminə oturuşuna həmişə diqqət yetirərdi. O, Alıhüseyinə Alı deyərdi:

- Alı, sən həmişə nümunəvi olmalısan. Çünki, həm Hacılar törəməsindənsən, həm də bəy kürəkənisən. Alıhüseyn isə özünü sındırmadan:

- Ay Zibəndə xanım, nə olsun ki, bəy yeznəsiyəm, mənim başqalarından nəyim artıqdı, elə hərə bir kişinin yeznəsidir də.

- Alı, mən o mənada demirəm, qohumların hamısı bizim üçün doğma və əzizdir. Mən özümü də başqalarından seçmək istəmirəm, ancaq bəy məclisinə düşəndə səni onlardan yüksək görmək istəyirəm. Arvadının nə dediyini yaxşı anlayan Alıhüseyn bunları onsuz da yaxşı bilirdi. O, bütün il bo-

yunca qardaşı Hacı Qasımın qonaqlarını qəbul edər, onlara xoş gəldin deyib, gedəndə də yola salardı. Doğrusu onun mayası bəylik süfrəsində yoğrulmuşdu. Bu ailə həqiqətən səmimiyyəti ilə seçilən, sevilən bir ailə oldu. Alıhüseynin bəy qızından iki oğlu və bir qızı oldu.

Oğlu Ələsgər, Şuriyə, qızı Anaxanım.

Alıhüseynin övladları böyüyüb, başa çatdılar. Artıq oğlanları onun köməyinə çatırdılar. Alıhüseynin həyatının xoş



günləri gəlmişdi ki, Alman faşizminin Sovet ölkəsinə qarşı qəflətən hücumu hamı kimi onun da ovqatına xələl gətirdi.

**Əliyev Ələsgər Alıhüseyn oğlu** (1919-1944), əmisi oğlu Fərhadın böyük qızı İmamiri (İmiş) toy edib evinə təzə gəlin gətirmişdi. Ələsgər toyundan bir neçə ay sonra II Dünya Müharibəsinə döyüşə getdi, Sovet ölkəsinin işğaldan azad olunmasında böyük sücayət göstərmişdi. Ələsgər, Almaniyanın paytaxtı Berlinə qədər döyüş yollarından keçmişdi. 1944-cü ilin əvvəllərində qəhrəmancasına şəhid olmuşdu. Ələsgər müharibəyə gedəndən sonra onların bir qız övladları oldu. Çox təəssüflər olsun ki, Ələsgərdən yadigar qalan bu körpə də çox yaşamadı. İmamir isə ondan sonra ailə həyatı qurmadı. İmamir 2012-ci ildə Beyləqan rayon Budaqlı kəndində rəhmətə gedib və kəndin qəbirstanlığında dəfn olunub.

**Əliyev Şuriyə Alıhüseyn oğlu** (1921-1997), ailənin ikinci oğludur. Qardaşı Ələsgər müharibəyə gedəndən sonra bütün ağırlıqlar onun üzərinə düşürdü. Şuriyə qoçaq adam olubdu.

Budaqlı elatında yüz iynə boyu tullana bilən şəxs məhz, Şuriyə olubdu. Onun həm də iti qaçışı və çevikliyi olub. Şuriyyə istənilən xam atı və dəvəni minə bilərmiş. Şuriyə kolxozlar birləşdikdən sonra uzun müddət maldarlıqla məşğul olmuşdu. O, əmisi Qaçayın qızı Məhluqə (1928-2003) xanımla evlənib və övladları dünyaya gəlibdi.



***Şuriyyə, həyat yoldaşı Məhliqa.***

Oğlu: Yahya, qızları Xanım, Zibəndə.

Şuriyə kişi 1997-ci ildə rəhmətə gedib və Cərciz Peyğəmbər ziyarətgahı qəbirstanlığında əzizlərinin yanında dəfn olunubdur. Məhliqa isə 2003-cü ildə yaşadığı Budaqlı kəndində dünyasını dəyişib və Budaqlı kənd qəbirstanlığında dəfn olunubdur.

**Xanım,** İmişli rayonu Əliqulular kəndində, xalası Zərifin ikinci oğlu Hüsənlə ailəlidir və həmin kənddə yaşayır. Onların övladları və nəvələri var. **Zibəndə,** ailə həyatı qurub, lakin övladı yoxdur. Beyləqan rayon Budaqlı kəndində yaşayır.

**Yahya**, Şuriyənin yeganə oğludur və bir ailədə yaşayıblar. Yahya Gəncə şəhərində orta ixtisas təhsili alıb, hazırda Budaqlılar kəndində yaşayır. O, Gəncə şəhərində təhsil aldığı vaxt sevdiyi Sədaqət xanımla evlənib ailə qurubdu. Bu cütlükdən dörd övlad doğulub.

Oğulları: Vahid, Səbuhi, Vüsal, qızı Tünzalə

**Vahid** Yahya oğlu, yaşadığı kənddə anadan olub. O, imişli rayon "Bəhrəmtəpə" qəsəbəsində ata qohumu Gülnazın qızı Yaqut xanımla ailə qurub. Onların Ələsgər, Ayxan adlı iki oğlu, Turanə adlı bir qızı var. Burada göründüyü kimi Yahya nəvəsinə II Dünya müharibəsində həlak olmuş əmisi Ələsgərin adını qoyubdu. Ələsgər Vahid oğlu II Qarabağ müharibəsində, Qarabağın işğaldan azad olunmasında Şuşaya qədər döyüş yolları keçmiş və düşmənə qarşı amansız mübarizə aparmışdı.

**Səbuhi** Yahya oğlu, Beyləqan rayon Dünyamalılar kəndindən Nuriyyə xanımla ailəlidir. Onların Məhliqa, Şəbnəm, Səbinə adlı üç qızları var.

**Vüsal** Yahya oğlu iki dəfə ailə qurub. Birinci həyat yoldaşı Rita xanımdan Zeynəb adlı bir qızı olub və onlar ayrılıblar. İkinci dəfə İmişli rayon sakini Aişən adlı xanımla ailə qurub və Yahya, Hüseyn adlı iki oğlu dünyaya gəlibdi.

Tünzalə Yahya qızı, İmişli rayon "Bəhrəmtəpə" qəsəbəsində Ramiz adlı oğlanla evlidir, Əliabbas adlı bir oğlu və Sara, Xədicə adlı iki qızı var.

**Anaxanım** Alıhüseyn qızı ( 1926-1997) əmisi Abdullanın oğlu Əyyubla evlənmiş, onların bir qızı olmuşdu. Qız uşağı körpə yaşında rəhmətə getmişdi. Onun həyat yoldaşı Əyyuba böhtan atıb həbs etmişdilər. Guya kolxozun heyvanını mənimsəyib. O, həbsdə olarkən rəhmətə gedib. Anaxanım bir

neçə ildən sonra Veysəlli Azad oğlu Abdulla ( 1924-2004) ilə ikinci ailə həyatı qurmuş, Füzuli rayonu yuxarı Veysəlli kəndində yaşamışdılar. Veysəlli kəndi ermənilər tərəfindən işğal edildikdən sonra Horadiz qəsəbəsində yaşamışdılar. Anaxanım ömrünün sonuna qədər həyat yoldaşı Abdulla ilə birlikdə yaşamış, onların övladları dünyaya gəlmişdi.

Oğlanları: Əsəd, Sabir, Kamandar, Əfqan, Şəmsəddin.

Qızları: Təzəgül, Reyhan, Zərifə, Təranə.

Anaxanım, həyat yoldaşı və övladları ilə birlikdə Füzuli rayonunun ermənilər tərəfindən işğal olduğu günə qədər Füzuli rayon Yuxarı Veysəlli kəndində yaşamışdı. Bu ailə Füzuli rayonunda zəngin və ziyalı ailə kimi tanınmışdı.

**Əsəd** Abdulla oğlu, Azərbaycan Politexnik İnstitutunun Avtomobilin İstismarı fakültəsini bitirib. Əmək fəaliyyətinə Füzuli şəhərində başlayıb. Mühəndislikdən başlayaraq idarə müdiri vəzifəsinə qədər ucala bilib. Əsəd müəllim, İmişli rayon Sarıxanlı tayfasından Nazilə xanımla ailə qurub. Onların Azad adlı bir oğlu anadan olub. Azad, ata babasının adını yaşadır. Azad Təranə xanımla ailə qurub, onların Abdulla, Əhəd və Könül adlı üç övladı dünyaya gəlib. Azad və onun həyat yoldaşı ali təhsillidir.

**Sabir** Abdulla oğlu, Həsən Bəy Zərdabi adına (İndiki Gəncə Dövlət Universiteti) İnstitutunun Fizika fakültəsini bitirib. Əvvəl müəllim, sonra məktəb direktoru vəzifəsində çalışıb. Sabir müəllim, Nailə xanımla ailə qurub, onların Gülbəs, İlahə, Aysel və Fəridə adlı qızları dünyaya gəlib. Sabir müəllimin qızlarının hamısı ali təhsil alıb, ailəlidirlər və övladları var.

**Əfqan** Abdulla oğlu (1961-2007), Gəncə K/T-ı İnstitutunun Baytarlıq fakültəsini bitirib, yaşadığı kənddə baş baytar həkimi işləyib. Əfqan, Raziyyə xanımla ailə qurub evlənib, onla-

rın Murtuzəli, Adil, Lalə adlı övladları anadan olubdu. Əfqanın övladlarının hamısı ali təhsillidir. Əfqan 2007-ci ildə 46 yaşında dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında valideyinlərinin yanında dəfn olunub.

**Kamandar** Abdulla oğlu, hərbi xidmətdən sonra polis sıralarına qəbul olmuş, işlədiyi müddətdə Polis Akademiyası bitirmişdi. O, kiçik zabit rütbəsindən tutmuş, müxtəlif vəzifələrdə polis polkovnik rütbəsinə qədər ucalmışdı. Kamandar əvvəl Füzuli rayon polis şöbəsinin rəisi, hazırda isə İmişli rayon dəmir yol üzrə polis şöbəsinin rəisi vəzifəsində çalışır. Kamandar, Məhsəti xanımla ailə qurub və onların Anaxanım, Yunis, Sona adlı övladları dünyaya göz açıblar. Kamandarın övladlarının hamısı ali təhsillidir.

**Şəmsəddin** Abdulla oğlu, Samirə xanımla ailəlidir, onların Sənan, Sadiq, Abdulla adlı üç övladı var. Şəmsəddinin də övladları hamısı ali təhsil alıblar.

Abdullanın qızları: Təzəgül xanım, Vahid adlı oğlanla ailə qurub. Onların Bəyəndik, Həşim, Xədicə, Nəsibə Vasif və Adəm adlı övladları dünyaya gəlib. Reyhan xanım, Əliylə evlidir, Səxavət, Pərvanə, İlhamə və Tərzan adlı dörd övladları var. Zərifə xanım, Əzizağanın həyat yoldaşıdır. Onların Tamerlan, Günay və Aytən adlı övladları var. Təranə xanım, Ələddinlə evlidir, onların Müqabil, Şirvan adlı iki oğlu var.

**Əliyev Şirin Hacı Alı oğlu**, Hacı Qasımın kiçik qardaşıdır. O, Mehdilər tirəsindən Kərbəlayı Mehdinin qızı Aftabla evlənib, ailə qurub. Onlar ömürlərinin sonuna qədər bir yerdə yaşayıblar. Hacı Alının həyat yoldaşı Xatın xanım rəhmətə gedəndən sonra, Şahsevən kəndindən Kərbəlayı Bədirnisə adlı xanımla ikinci dəfə ailə həyatı qurub ki, bu cütlükdən Şi-

rin kişi dünyaya gəlib. Şirin, qardaş-bacıları ilə atadan qardaşdı, anadan ayrıdırlar. Şirin kişi sakit təbiətli insan olub. Süfrəsi açıq, çörək verən və çox zarafatcıl və həmişə danışıb gülən bir kişi olub. O, Hacının qoyun sürülərinə nəzarət edirmiş. Elat arandan yaylağa və yaxud, yaylaqdan arana köç edən zaman o, yalnız köçün daşınması ilə məşğul olurdu. Alaçıqların sökülməsi, yüklərin arabalara, dəvələrə, qatırlara və ulaqlara yüklənməsi, bir sözlə köç karvanının hərəkətə gətirilməsinə bir başa Şirin kişi başçılıq edirdi. Tərəkəmə elatında bu ən vacib işlərdən sayılırdı. Köç zamanı tikilən alaçığa binə evi deyilirdi. Binələr heyvan sürülərindən qabaq yola düşürdü. Növbəti mənzil elə hesablanırdı ki, arxadan gələn sürülər axşama qədər bu məsafəni qət edə bilməliydi. Arxadan sürülər gəlib çatana qədər yeni yurdda binə çadırları (alaçıqlar) qurulurdu, çobanlar üçün qadınlar yemək-içmək hazırlığı görürdü. Onlar samovarları bulaq suyundan doldurub od salıb çay qaynadar, sac asıb yuxa bişirərdilər. Yolun bütün tədarük işlərinə Şirin baxırdı. Elə ki, sürülər binəyə çatdılar, çobanlara süfrə açılar, isti xörək verilərdi. Gecə düşəndə çobanlara istirahət verilərdi və sürülərin gecə növbəsini bəyzadələr çəkərdi. Şirin kişi belə işlərə o qədər alışmışdır ki, gözündən heç nə yayınmazdı. Binələri yerbəyer edəndən sonra deyərdi:

- Ay xanımlar, siz hərəniz öz işinizdə olun mən gedim görüm dükan, bazardan nə tapıram, azuqə alım gətirim, bir də ki, çatışmayan bir şey olsa deyin. Qadınlar da çatışmayan, ehtiyac olan şeylərdən tapşırıb deyərdilər:

- Ay Şirin qağa, gör bizim kişiyə eşməlik (tənbəki) ala bilərsənmi. Şirin qağa, xurma, kişmiş görsən alarsan.

Hərə bir şey tapşırardı. Şirin kişi də köç yoluna yaxın olan kənd və yaxud rayon mağazalarından bunların hamısını alıb gətirərdi. Tərəkəmə həyatı nə qədər ağır olsa da, o qədər də maraqlı idi. Tərəkəmələrin ən kiçik bir adət-ənənəsi böyük bir salnamədir. Şirin kişinin bir-birinin ardınca övladları dünyaya gəldi. Onun dörd oğlu, bir qızı oldu.
Oğlanları: Qamboy, Humay, Nəsib, Usub, qızı: Nərgiz.

Böyük oğlu Qamboy artıq onun köməyinə çatırdı. İki oğul atası olan Şirin kişiyə, Allah əkiz oğul qismət eləmişdi. Şirin kişinin son beşiyi Nərgiz dünyaya gəldi. Ona Allah o qədər gözəllik vermişdi ki, Nərgizi Budaqlı gözəli deyə çağırardılar.



*Nüsrət, həyat yoldaşı İntizar.*

Şirin kişinin böyük oğlu Qamboy cavan vaxtı qəflətən rəhmətə getmişdi. İkinci oğlu Humayı qardaşı Abdullanın qızı Rüqiyyə (1918-1968) xanımla evləndirdi. Humayın övladları dünyaya gəldi.
Oğlu: Nüsrət, qızları: Fatma (Fatı), Tamilə, Hafizə.

Humay, II Dünya Müharibəsinə getmiş və döyüş zamanı müharibədə həlak olmuşdu. Humayın övladlarını qardaşı Nəsib, himayəsində saxlayıb böyütmüşdü. Ruqiyyə 1968-ci ildə rəhmətə gedib və "Ənbərə" qəbrstanlığında dəfn olunubdur. Nəsib kişi onları öz balasından seçməmiş, qardaşı oğlu Nüsrəti (1936-1996) əmisi oğlu Qaçayın qız nəvəsi Zərifin böyük qızı İntizarla evləndirmişdi. Onların dörd oğlu, üç qızları anadan olubdu.

Oğlanları: Nadir, Kamil (Fazil), Famil, Yasəf, qızları: Cəmilə, Familə, Ramilə**.**

Nüsrət, 1986-cı ilə qədər İmişli rayon Əliqulular kəndində yaşadı. O, kəndin sağmal mal-qara fermasının briqadiri kimi çalışdı. Təsərrüfatı mükəmməl bilən adamıydı. Nüsrət zəhmətkeş və halal zəhmətilə yaşayan adam olub. O, 1986-cı ildən sonra Beyləqan şəhərinə köçüb, burda yaşamışdı. Nüsrət 1996-cı ildə Beyləqan şəhərində rəhmətə gedib. O, Peyğəmbər ziyarətgahı qəbirstanlığında doğmalarının yanında dəfn olunubdur.

**Nadir**, Nüsrətin böyük oğludu, orta ixtisas təhsili alıb və Əmək Məsələləri Üzrə Dövlət Komitəsində uzun müddət məsul vəzifədə çalışmışdır. Nadir, atasının yaxın qohumu Tuğ kəndindən Müseyib kişinin qızı Kamilə xanımla ailə qurub, Beyləqan şəhərində yaşayırlar. Onların üç övladı var.

Oğlu: Səxavət, qızları: Ruqiyyə, Vəfa.

Nadirin oğlu Səxavət yaxın qonşuları Arif müəllimin qızı Günay xanımla evlənib, onların Nuray, Ahu adlı iki qız balası var.

Nadir böyük qızına nənəsi, Ruqiyyənin adını qoyubdu. Ruqiyyə elat tayfasından Anar adlı oğlanla ailə qurub, iki övladları dünyaya gəlib. Oğlu Əli, qızı Sara. Ruqiyyənin həyat yol-

daşı Anar cavan yaşında dünyasını dəyişdi. Ruqiyyə və övladları Bakı şəhərində yaşayırlar. Nadirin ikinci qızı Vəfa, Beyləqan şəhər sakini Akiflə ailə qurub, Kənan adlı oğlu, Ləman adlı isə qızı var.

**Kamil** (Fazil) ali təhsillidir Rusiyada yaşayır, o da Müseyib kişinin nəvəsi, Vaqifin qızı Səidə xanım ilə ailəlidir. Onların övladı yoxdur.

**Famil**, ali təhsilli baytar həkimidir. Budaqlılar kəndində yaşayır və bu kəndin bələdiyyə işçisidir. Famili bibisi Fatı (Fatma) övladı olmadığına görə körpəlikdən övladlığa götürüb böyütmüşdür. Famil dayısı Şahmarın qızı Xatirə xanımla evlənibdi. Onların bir oğlu ,bir qızı var.

Oğlu: Loğman, qızı: Şamama.

Loğman qan qohumu Vidadinin qızı Südabə xanımla evlənib, Aydan adlı bir qızları var.

Şamama, dayısı Mübarizin oğlu Arzumanla ailəlidir. İki övladı var.

**Asəf**, Nüsrətin kiçik oğludu, Əmisi Şirinin qızı Gülnarə xanımla evlənib, ailə qurub və Budaqlılar kəndində yaşayırlar. Asəfin iki oğlu: Nüsrət, Fikrət və iki qızı: Rüxsarə, Sevinc anadan doğulub. Rüxsarə ata qohumu Allahverdi kişinin nəvəsi Şəhriyarla ailə qurub.

Nüsrətin böyük qızı Cəmilə əmisi Nəsibin oğlu Ariflə, Familə Yaxın qohumu Rəfayılın oğlu İsrayıl ilə, Ramilə isə əslən Cəbrayıl rayonundan məcburi köçkün olan Ələkbərlə ailəlidirlər.

**Əliyev Nəsib Şirin oğlu** (1926-1985), Budaqlı tayfasında anadan olub və bu tayfanın içərisində böyüyübdü. Budaqlı kolxozu dağıldıqdan sonra Əliqulular kəndində yaşamışdı. O, əmisi oğlu Surxay kişinin böyük qızı Səltənət (1934-2012)

xanımla evlənib, ailə həyatı qurublar. Nəsib kişi çox zəhmətkeş adam olub. O, ən çox maldarlıqla məşğul olubdu. Onun zarafatları, dadlı-duzlu söhbətləri insanın könlünü oxşayardı. O, at minən kişiydi. Həmişə atın belində işə gedər, atın belində də evə qayıdardı. Zəhmətsevər, qohumcanlı olmaqla tayfada hamı tərəfindən sevilən insan olub. Nəsib kişi yeddi övladı ilə birlikdə, qardaşı Humayın da dörd övladını böyüdüb başa çatdırıb. Bu işlərdə ona həyat yoldaşı Səltənət xanım həmişə dəstək olub. Səltənət səmimi, qayğıkeş ana olmaqla heç zaman uşaqlar arasında ayrı-seçkiliyə yol verməmişdi. O, bir növ Məşədi Bəyazın ağbirçəkliyinin davamçısı olmuşdu. Nəsib kişinin altı oğlu, iki qızı anadan olub.

Oğlanları: Şirin, Əvəz, Arif, Marif, Tahir, Elçin;

Qızları: Elmira, Aftab.

Nəsib kişi, 1970-ci illərdə İmişli rayon Əliqulular kəndindən, Beyləqan rayon "Sarısu" qəsəbəsinə ilk köçənlərdən olubdu. O, 1985-ci ildə yaşadığı kənddə dünyasını dəyişmiş və "Ənbərə" qəbirstanlığında doğmalarının yanında dəfn olunubdur.



***Nəsib, həyat yoldaşı Səltənət.***

**Əliyev Şirin Nəsib oğlu,** babası Şirinin adını daşıyır. Bu ad ona atası tərəfindən qoyulubdur. Baba adını yaşadan Şirin (1950-2003), doğrudan da babasının adına layiq nəvə olmuşdu. O, nəinki, qohumlar arasında, ümumiyyətlə el-obada sayılan adamlardan oldu. Yaşadığı kənddə sürücü vəzifəsində çalışdı. Şirin anasının əmisi qızı Telli xanımın böyük qızı Ulduza (Lətifə) xanımla ailə qurdu. Onların iki oğlu, dörd qızı anadan olub.

Oğlanları: Bəxtiyar, İxtiyar., qızları: Lalə, Şəlalə, Çinarə, Günel.

Şirin gənc yaşlarından ağsaqqal kimi tanınırdı. Şirin 2003-cü ildə dünyasını dəyişdi və Peyğəmbər ziyarətgahı qəbirstanlığında əzizlərinin yanında dəfn olunub. Şirin çox erkən, əlli üç yaşında dünyadan köçdü. Şirinin böyük oğlu Bəxtiyar, dayısı Vəzirin böyük qızı Cəmilə xanımla ailəlidir. Onların Tural, Şirin və Lətifə adlı üç övladları dünyaya göz açıb.Yuxarıda göründüyü kimi Bəxtiyar da övladlarına atasının və anasının adını qoyub.

İxtiyar Şirinin ikinci oğludur. O yaşadığı Budaqlı kəndində tanınmış ağsaqqal Seyidəlinin nəvəsi, Mirqayımın qızı Günay xanımla ailə qurubdu. Onların Turxan adlı oğlu, Zeynəb və Səma adlı iki qızları var. İxtiyar doğulduğu kənddə yaşayır.

Şirinin qızları: Lalə Xudaverdinin oğlu Mübarizlə, Şəlalə xalası oğlu Zamanla, Gülnarə əmisi oğlu Asəflə, Günel xalası oğlu Əzimlə ailəlidirlər.

**Əliyev Əvəz** Nəsib oğlu, İmişli rayon Əliqulular kəndində doğulub. 1970-ci ildə valdeyinləri ilə birlikdə Beyləqana köçüb. Əvəz xalası Sənəmin qızı Gülzar xanımla ailə qurubdu. Əvəzin beş oğlu var.

Oğlanları: Nemət, Vüqar, Eldəniz, Rahil, İlkin.

Əvəzin böyük oğlu Nemət, yaxın qohumu Leyla xanımla ailə qurubdu. Onların hələ ki, övladları yoxdu.

Vüqar Əvəz oğlu, ana qohumu Çingizin qızı Səbinə xanımla ailə qurub. Onların Hüseyn adlı bir oğlu var.

Eldəniz Əvəz oğlu, Beyləqan şəhərində doğulub. O, əmisi Arifin qızı Zülfiyə xanımla ailə qurub, Ayxan və Gülbəniz adlı övladları var.

Əvəzin Rahil və İlkin adlı oğlanlarının hər ikisi təzə evlənib. Əvəzin övladlarının hamısı Beyləqan şəhərində yaşayır.

**Əliyev Arif** Nəsib oğlu (1958-1996), İmişli rayon Əliqulular kəndində anadan olub. O da valdeyinləri ilə Beyləqana köçübdü. Arif, əmisi Nüsrətin qızı Cəmilə xanımla ailə qurubdu. Arifin iki oğlu, iki qızı var.

Oğlanları: İlqar, Ruslan, qızları: Aynurə, Zülfiyyə.

Arifin böyük oğlu İlqar, qan qohumu Qənimətin yeganə qızı olan Afət xanımla evlənib. Onların üç övladı var, Taleh, Arif, Elvin. Burada göründüyü kimi İlqar öz oğluna atası Arifin adını qoyubdu. Arifin kiçik oğlu Ruslan hələki, ailə qurmayıb. Arifin qızı Zülfiyyə əmisi Əvəzin oğlu Eldənizin həyat yoldaşıdır. Arif 1996-cı ildə yaşadığı kənddə dünyasını dəyişdi və Peyğəmbər ziyarətgahı qəbirstanlığında doğmalarının yanında dəfn olunubdu. Arif dünyasını dəyişəndən sonra bu ailənin ağır yükü, onun həyat yoldaşı Cəmilə xanımın üzərinə düşdü. Cəmilə xanım kişi qeyrətli olmaqla, zamanın bütün ağırlıqlarına sinə gərə bildi və övladlarını böyütdü. Düzü o yalqız qalmadı qaynənəsi, qayınları Cəmilə xanıma dəstək oldular, ancaq o bir mətin qadın kimi həyatda sarsılmadı. Cəmilə xanım bu gün həm ana kimi, həm də nənə kimi öz qürurunu saxlayan qeyrətli xanımdı.

**Əliyev Marif** Nəsib oğlu (1960-2021), İmişli rayon Əliqulular kəndində anadan olub. Ailəsi ilə birlikdə Beyləqan rayonuna köçüb. Marif, Mehtilər tirəsindən Xudaverdinin qızı Əkula xanımla ailə qurub. Marifin bir oğlu, iki qızı dünyaya göz açıb.

Oğlu: Fariz, qızları Ülviyyə, Lamiyə.

Marifin oğlu Fariz, Murtulu tayfasından Qənbərin qızı Pərvanə xanımla evlidir. Bu cütlüyün Marif və Uğur adlı iki oğlu var. Marifin qızları: Ülviyyə, Beyləqan rayon sakini Elşənlə ailə qurub, onların Aytən və Məhəmməd adlı övladları var. İkinci qızı Lamiyə xanım, Hacı Qasımın nəticəsi Mehmanın oğlu Təbibin həyat yoldaşıdır. Marif ailəsi ilə birlikdə hazırda Beyləqan şəhərində yaşayır, şəxsi təsərrüfatı ilə məşğul olurdu. O, 16.03 2021-ci ildə qəflətən dünyasını dəyişdi və Peyğənbər qəbirstanlığında doğmalarının yanında dəfn olunub.

**Əliyev Tahir** Nəsib oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub. Ailəsi ilə birlikdə Beyləqana köçdükdən sonra orta təhsilini Beyləqan şəhərində başa vurub. Orta məktəbi bitirdikdən sonra İnşaat Mühəndis Texnikumunu bitirib və uzun müddət ixtisası üzrə tikinti idarəsində çalışıbdı. Tahir, sinif yoldaşı Zenfira xanımla evlənib, ailə qurub. Onun həyat yoldaşı ali təhsilli mühəndisdir. Tahirin üç oğlan övladı dünyaya gəlibdi. Anar, Nəsib, Hikmət.

Anar ali təhsilli diş həkimidir. O, ata qohumu Xocavənd rayon Tuğ kənd sakini Azər müəlimin qızı Afət xanımla ailəlidir, Ağaəli və Aydan adlı iki övladları anadan doğulub. Anar hazırda Bakı şəhərində yaşayır və peşəsi üzrə çalışır. Afət, Ağcabədi rayon Pedaqoji Kollecinin Xocavənd şöbəsində İbtidai Metodika fakültəsini bitirib.

Nəsib Tahirin ikinci oğludu, ticarətlə məşğuldu. Nəsib Oğuz rayon sakini Türkay xanımla ailə qurub, Türkay, BDU-nin tarix fakültəsini bitirib. Alina adlı qızı, Tahir adlı oğlu var. Türkay Beyləqan şəhərində tarix müəllimi işləyir.




*Tahirin oğlu Anarın toy məclisindən*

Tahirin kiçik oğlu Hikmət Beyləqanda doğulub, orta məktəbi də yaşadığı yerdə bitirib. Hikmət, Bakı Biznes Universitetinin Biznes və menecment fakültəsini bitirib və marketinq ixtisasını yiyələnib. Hikmət əmisi Elçinin qızı Səltənət xanımla nişanlıdır.

**Elçin** Nəsibin kiçik oğludur. O, yaxın qohumu Bakir müəllimin qızı Arzu xanımla ailə qurubdu. Onların Nihad adlı oğlu, Səltənət adlı qızı anadan doğulub. Elçin ata yurdunda yaşayır. Onun qızı Səltənət nənəsinin adını yaşadır. Səltənət əmisi Tahirin oğlu Hikmətlə nişanlıdır.

**Usub** Şirin oğlu (1926-1993), Nəsib kişinin ekiz qardaşıdır. O, sakit təbiətli insan olmaqla halal zəhmətlə yaşayan kişi olub. Qardaşı ilə birlikdə yaşamış və naxır otarardı. Usub, Avşar Müslümün bacısı Məhliqa xanımla evlənmiş, onların Lətif adlı bir oğlu olmuşdu.

**Lətif** Usub oğlu Avşar tayfasından Mahirə xanımla evlənib, onların üç oğlu olubdu. Oğlanları: Niyazi, Elçin və Qadir. Lətifin həyat yoldaşı dünyasını dəyişib, oğlu Qadir avtoqəzada rəhmətə gedib.

Usub birinci həyat yoldaşından ayrılmış və ikinci dəfə Nisə adlı xanımla evlənmişdi. Onun ikinci evlilikdən bir oğlu, iki qızı olmuşdu.

Oğlu: Yavər, qızları: Fatma, Sevil.

Usub kişi 1993-ci ildə Budaqlılar kəndində dünyasını dəyişib və "Ənbərə" qəbirstanlığında doğmalarının yanında dəfn olunubdur.

**Yavər** Usub oğlu, Budaqlı tayfasının içində yaşayır. O, yaşadığı kənd sakini Yadigar kişinin qızı Səbinə xanımla evlidir.Yavərin bir oğlu, iki qızı var. Oğlu Samir, qızları Nərgiz, Vüsalə. Yavərin oğlu Səbiqə adlı xanımla evlənib, Zəhra adlı qızı var. Yavərin qızı Nərgiz xalası oğlu ilə ailəlidir.

**Nərgiz** Şirin qızı (1928-1971), Avşar Müslümlə ailə qurmuş onların Sona adlı bir qızları dünyaya gəlmişdi. Sona hazırda ailəlidir Beyləqan şəhərində yaşayır. Ailə münaqişəsi zəminində Müslüm kişi Nərgizi, Usub isə Məhliqanı boşamışdılar.

Nərgiz, ikinci dəfə Talıbxanlı tirəsindən Bahadur kişiylə ailə həyatı qurmuşdu. Onların Habil, Adil adlı iki oğlu dünyaya gəlmişdi. Habil Bakıda, Adil isə Rusiya Federasiyasında yaşayır. Nərgizin birinci həyat yoldaşından olan qızı Sona,

Bahadurun birinci arvadından olan oğlu Allahverdi ilə ailəlidir, övladları var.

**Kərbəlayı Rüstəm Hacı Astan** oğlu: Hacı Alının qardaşı, yəni Hacı Qasımın ən kiçik əmisidir. Rüstəm hündür bədən, enlikürək və qolu güclü adam olubdur. O, anadan olanda qeyri-adi doğulduğu üçün, çəkidə çox ağır və bədəncə böyük olduğuna görə ona Rüstəm ( pəhləvan Rüstəm Zalın) adı qoymuşdular. Rüstəm də böyüdükcə elə pəhləvan gövdəli böyüyürdü. O, atasının sağlığında Kərbəlayı ziyarətində olub və Kərbəlayı titulunu qazanıbdır. Kərbəlayı Rüstəmin birinci ailəsi Şahsevən kəndindən Tutu adlı xanım olubdur ki, Kərbəlayının ondan övladı olmayıbdı. Onlar iyirmi ildən çox bir yerdə ailə olaraq yaşamışdılar. Kərbəlayı Rüstəmin həyat yoldaşı Tutu, qırx yaşında dünyasını dəyişib. Bundan bir neçə ay sonra Kərbəlayı Rüstəmin qardaşı Hacı Alı da rəhmətə gedibdi. Hacı Alının ili çıxandan sonra, El ağsaqqallarının məsləhəti ilə Hacı Alının dul qalmış cavan arvadı, Şirinin anası Kərbəlayı Bədirnisə xanımı, qaynı Kərbəlayı Rüstəmə veriblər. Bu o məqsədlə edilib ki, Kərbəlayı Rüstəmin övladı olmadığı üçün, Şirini öz övladı kimi böyüdə bilsin. Belə də olmuşdu, Kərbəlayı Rüstəm, Kərbəlayı Bədirnisə xanımı almış, onun oğlu Şirinə atalıq qayğısı göstərmişdi. Amma sonralardan Kərbəlayı Rüstəmin Bədirnisə xanımdan bir oğlu və iki qızı olmuşdur.

Oğlu: Ağalar, qızları: Tutu, Gülnisə.

Kərbəlayı Rüstəm, qardaşları ilə birlikdə heyvandarlıqla məşğul olması ilə bərabər, həm də ticarətlə məşğul idi. Əslində o, əsl tacir idi. Dəvə karvanı ilə ildə bir neçə dəfə alver məqsədilə İrana, Türkiyəyə və Rusiya şəhərlərinə mal gətir-

məyə gedərdi. Onun gətirdiyi satış malları bir növ tərəkəmə camaatının ehtiyacını ödəyirdi.

Kərbəlayı Rüstəm, övladlarını on-on beş yaşlarına qədər böyüdə bilibdir. Kərbəlayı Rüstəm də günlərin birində dünyasını dəyişib. Ondan sonra ailə, Hacı Qasımın himayəsində böyüyüb. Hacı Qasım üçüncü dəfə Həcc ziyarətinə gedəndə Rüstəmin oğlu Ağaları da özü ilə ziyarətə aparmışdı. Hacı titulu alan Ağalar, həmişə Hacı Qasımın yanında olmuşdu. O, əmisi oğlu Hacı Qasıma qağa deyə müraciət edirdi.

## HACI AĞALAR

**Hacı Ağalar** Rüstəm oğlu, Hacıalılar tirəsindəndir və atasına bənzər bir kişi olubdur. Hacı Ağaların öz mindiyi atından başqa hər at onu götürə bilməzdi. O, həm ağır çəkili, həm də iri gövdəli insan olubdur. Hacı Ağalar bir növ atasının yolunu davam etdirib. O da atası kimi tacirliklə məşğul olubdur. Hacı Ağalar söz götürən adam olmayıb və qan davası düşəndə, onu cavabsız qoymayıb. O, gənclik dövründə Hacı Qasımın himayəsində olmağına baxmayaraq, həmişə öz sözünü deməkdən çəkinməyib. Onu bu dəliqanlılığına görə həmişə Hacı Qasım öz nəzarətində saxlayırdı.

Hacı Ağaların böyük toyunu da Hacı Qasım etmişdi. Ona, el adəti ilə toy edib gəlin gətirmişdi. Hacı Ağalar Məstan adlı xanımla ailə həyatı qurdu. Onun övladları dünyaya göz açdılar. Hacının iki oğlu, bir qzı anadan doğuldular.

Oğlanları: Cəlal, Çərkəz, qızı: İnahad.

Onun qızı İnahad Boşçallar tayfasına ərə getmiş və nəvə, nəticələri hazırda İmişli rayonu Boşçallar kəndində yaşayırlar.

Hacı Ağaların böyük oğlu Cəlal, gənc yaşlarında bir münaqişənin qurbanı olmuşdu. Cəlal gənclər içərisində qoçaqlığına, cəsarətinə və qorxmazlığına görə atasına çəkmişdi. O, digər müsbət xarakterinə görə tay-tuşlarından seçilən cavan olmuşdu. Cəlal babasının aynalısını həmişə atının yəhərindən asardı. Yaz təzə girmişdi ki, atası onu Təhməz kişinin qızı Güllər xanıma nişanladı. Ağsaqqallar qərara gəlmişdilər ki, el dağa qalxanda, yaylaqda bu gənclərin toy şənliyi qurulsun. O, zamanlar elat camaatının köçü Laçın rayon Minkənd və Qarakeçdi kəndlərindən keçirdi. Burada kənd camaatı qrup halında köç gedən sürülərə hücum çəkib soyğunçuluq edirdilər. Bu zaman igid və qoçaq oğlanlar silahlı halda köçün rahat adlamasına nəzarət edirdilər. Qoyun sürüləri kənddən keçən zaman yenə kürdlər sürüyə hücum çəkiblər. Bu zaman Cəlal və onun yaxın qohumu və dostu olan Böyükkişi ilə birlikdə quldurlara qarşı müqavimət göstəriblər. Bu çomaq davası silahla əvəz olunub və qarşı tərəfdən atəş açaraq Böyükkişini ağır yaralayıblar. Böyükkişi yaralı halda olmasına baxmayaraq, atəş açan şəxsi öldürüb. Atışma başlayıb, Cəlal da bir nəfəri silahdan atəş açmaqla öldürüb. Bu atışmada Cəlalı da qətlə yetiriblər. Cəlalın qisasını Hacı Ağalar, birə-on alıb. Bu qan davasının uzun çəkəcəyini görən kürdlər barışıq yolun seçmişlər. Tərəflər Soltan bəylə, Hacı Qasımın ağsaqqallığı ilə bu qan davasına son qoymuşdular. Onu da demək lazımdır ki, Budaqlı elatına, Kürd tayfasından olan çox qızlar, gəlin gəlmişdi. Yaranan qohumluqlar düşmənçiliyi aradan götürmüş və hər iki tayfalar bir-birilə sıx münasibətdə olmuşdular. Cəlal dünyasını dəyişəndən bir neçə il sonra onun nişanlısı Gülləri özündən yaşca kiçik olan qaynı Çərkəzə ərə vermişdilər.

Hacı Ağaların oğlunun cavan ölümü onu sarsıtdı, belini bükdü. Bu ağır dərdi içərisində çox yaşada bilmədi. O, Çərkəzin toyundan bir il sonra Budaqlının qışlağı olan "Şirin qum" yatağında rəhmətə getdi. Hacı Ağalar Beyləqan rayon Cərciz Peyğəmbər qəbirstanlığında, türbənin yaxınlığında dəfn olunub. Onun dəfn mərasimini Hacı Qasım keçiribdir. Hacı Ağaların adını nəvəsi, Çərkəzin oğlu Ağalar daşıdı və özündən sonra onun nəvələri, nəticələri Ağalar soyadını daşımaqdadırlar.

Hacı Ağaların ikinci oğlu Çərkəz, ailə qurduqdan sonra əmisi oğlanları ilə bir yaşadılar. O, babası Kərbəlayı Rüstəmin soyadını daşımışdır. Şura hökuməti gələndən sonra yaranan kolxozun üzvi olmuş və dədə-baba peşələri olan heyvandarlıqla məşğul olmağa başlamışdır. Çərkəz bir müddət qoyun briqadiri işlədi və 1960-cı illərdən sonra oturaq həyata keçərək bir dəfəlik kənd həyatı yaşadı. O, əkinçiliklə məşğul olmuşdur. Onun yeganə bir oğlu dünyaya gəlmişdir ki, onun adını da Ağalar qoymuşdu. Ağalar, (1928-2016) İmişli rayon Əliqulular kəndində yaşamış və uzun müddət kolxozda sürücü işləmişdir. O, ana qohumu, dayısı Aslanın qızı Roza xanımla ailə həyatı qurmuşdur. Onların övladları dünyaya gəlmişdilər. Çərkəzdən sonra gələn nəslin törəmələri Hacı Ağaların soyadını daşıdılar. Onun dörd oğlu, beş qızı doğulub.

Oğlanları: Famil, Yusif, Cəlal, Elçin, qızları: Ziyafət, Qəmizə, Rəmizə, Məlahət, İnahad.

Ağaların böyük oğlu Famil uşaq vaxtı dünyasını dəyişmişdi. Ağalar, 1985-ci ilə qədər İmişli rayon Əliqulular kəndində yaşadı. Ağalar, 1985-ci ildə İmişli rayon Əliqulular kəndindən, Beyləqan rayonuna köçdü. O, Mil qəsəbəsində məskunlaşdı. Ağalar cavan rəhmətə getmiş əmisi Cəlalın adı-

nı oğluna, bibisi İnahadın adını isə kiçik qızına qoydu. O, 2016-cı ildə rəhmətə gedib və Cərciz Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunubdur. Ağaların böyük qızı Ziyafət, (1954-2016) yaxın qohumu Cəbrayıl kişinin oğlu Təhməzin həyat yoldaşı olub və Budaqlılar yaşayan kənddə rəhmətə gedib, həmin kəndin qəbirstanlığında dəfn olunubdur. Qalan övladları hamısı ailəlidir, İmişli, Beyləqan, Bakı və Sumqayıt şəhərlərində yaşayırlar...

## HACI İSMAYIL

Hacı İsmayıl (1820-1895) Budaqlı tayfasında Hacılar nəslindən olan Hacı Astanın ailəsində dünyaya göz açmışdı. O, Hacı Qasımın doğma əmisi olmaqla öz elatında yaşamış, Təklə tərəkəmələrində yüksək səviyyədə sayılan və tanınan mülkədar bir Hacı olub. Hacı İsmayıl ata-babalarının qoyduğu yolu davam etdirmiş, yaşadığı dövrdə nümunəvi olmaqla, gələcək nəsil üçün dəyərli iz qoyub getmişdi. Onun kifayət qədər atadan qalma qoyun sürüsü, mal-qara, dəvəsi və ilxısı var idi. Yaşadığı dövrdə mal-dövlətinin sayını xeyli artırmışdı. Hacı İsmayıl humanist adam olmaqla nökər, naiblə xoş rəftar edərdi.

Hacı İsmayıl öz tayfasından Pərizad adlı xanımla ailə qurmuş və onların üç oğlu, iki qızı olubdu.

Oğlanları: Heydər, Abduləzim, Zeyni, qızları: Ballı, Zinyət.

Hacı İsmayıl özündən sonra varis kimi böyük oğlu **Heydəri** görürdü. Heydərin faciəli ölümü Hacı İsmayılın belini bükmüş, özündən sonra yerində dayana bilən adam kimi yalnız Hacı Qasımı görürdü. Hacı Qasım üç dəfə getdiyi Həcc ziyarətinin birinə hələ gənc yaşlarında olarkən əmisi Hacı İsma-

yılla getmişdi. Budaqlı tayfası öz inkişaf mərhələsini yalnız Hacı Qasımda görürdü. Hacı İsmayıl bu yolu seçməkdə yanılmamışdır. Gənc oğlanın hərəkətləri, təmkinlə danışmağı, böyük-kiçik yeri gətirməyi onun nəzərindən qaçmırdı. Oğlunun ölümündən sonra başqa oğlanları olmasına baxmayaraq, həmişə Hacı Qasıma üstünlük verirdi.

Hacı İsmayılın böyük oğlu Heydər olub. Heydər çox qoçaq və igid oğlan olub. O, hündür bədənli, tay-tuşlarından tamamilə seçilən, vuran-tutan cavanlar sırasında seçilən oğlan olub. Heydər cavan vaxtı faciəli sürətdə xaincəsinə qətlə yetirilib.

Budaqlı elatı on iki elat tərəkəmələri ilə həmişə qonşu olub, köç yollarını bir gediblər, xeyir-şərləri bir olub, ağır günlərdə bir birinə dəstək veriblər. Hacı İsmayılın bəylik nəslindən olan qonşularında bir qız var idi ki, o Heydərə vurulmuşdu. El-obada müxtəlif sözlər də gəzirdi. Xanımlar arası olan bu söhbətlər Hacıya çatanda Hacı həyat yoldaşı Pərizad xanıma demişdi:

- Ay arvad, qulağıma müəyyən sözlər çatır, onlarla bizim qohumluğumuz baş tutmaz.

Hacının həyat yoldaşı bu işə meyilli olduğundan Hacıya deyib:

- Ay kişi, bəy nəslindən olan uşaqdı, izin ver bunlarla qohum olaq, Heydər də maşallah böyük oğlandı.

- Ay arvad, düzdü bəy nəslindəndi, amma zatı qırıqdı, bunlarda düşüklük və əskiklik var. Mən bunu bilə-bilə izin verə bilmərəm. Bu haqda bir də mənim yanımda danışma.

Hacı İsmayıl, elə həmin ilin yazında bir dəstə zəvvarla müqəddəs Məkkə şəhərinə Həcc ziyarətinə səfərə çıxmışdı. O, zamanlar zəvvarlar at və karvanla yol getdikləri üçün bu sə-

fər altı aydan çox çəkirdi. Hacı Həcc ziyarətinə getdikdən sonra, qadınların qurmaları ilə bəyin qızını Heydərə qaçırdırlar və tez-tələsik toy da edirlər.

Ziyarətdən qayıdan Hacı İsmayıl, alaçığına çatanda evindən uşaq səsinin gəldiyini eşidir. Hacı təəcüblənir, həyat yoldaşı Pərizad xanımdan soruşur:

-Ay Pərizad, qulağıma uşaq səsi gəldi, ağlayan uşaq kimdi? Pərizad xanım Hacıya xoş gəldin eləyib deyir:

- Ay kişi, Allah ziyarətini qəbul eləsin, içəri keç biləcəksən.

- Ay arvad, məgər çöldə bilsəm olmaz?

Hacılar ziyarətdən qayıdanda gəldiyi yol boyu şəhərləri keçdikcə Məkkənin, Mədinənin, Tehranın, Təbrizin, Xorasanın dükan, bazarlarından bazarlıq edərdilər, ailə-uşağa, qohum-əqrəbaya bir sözlə yaxınlarına qiymətli hədiyyələr alıb gətirərdilər. Hacıları ziyarətə gələn qonaqlara, dostlara mütləq bir hədiyə bağışlanardı. Hacı da o nöqteyi-nəzərdən soruşurdu ki, uşağın kimliyini bilib ona hədiyyə versin.

- Ay kişi, keç içəri öz nəvəndir, Heydərin oğludu.

Hacı məəttəl halda donub yerində qaldı, əsəbindən rəngi qaraldı, bir anlıq gözünə qaranlıq çökdü, nə edəcəyini bilmədi və nəhayət, özünü ələ alıb:

- Pərizad, bu nə zarafatdı mənimlə edirsən?

- Ay kişi, zarafat etmirəm, doğru sözümdü, səndən sonra Heydər, bəyin qızını qaçırdı toy elədik, bu ağlayan uşaq da onundu, adı da Muxtardı.

- Arvad, məni ələ salırsan?

- Ay kişi, yox, and olsun getdiyin Həccə düz deyirəm.

- Ay arvad, mən getdiyim altı aydan bir az çoxdu, yaxşı bu müddətə uşaq necə doğula bilər?

- Ay kişi, nə bilim Vallah, onu bilmirəm, Allahın məsləhəti yəqin ki, beləymiş.

- Arvad, bu Allahın məsləhəti deyil, siz arvadların fitnəfelidi.

- Ay kişi, sən Allah qan-qaraçılıq salma, daha olan olub, keçən keçib.

- Arvad aç qulağını eşit, olan olub, amma keçən keçməyib, bu xanım mənim evimdə gəlin ola bilməz.

- Ay kişi, bir səbrin olsun, qoy görək.

- Kəs səsini, bir də səni eşitmək istəmirəm, uşağı verin qucağına qaytarın atasının xarabasına.

Hacı İsmayıl nə etdiyini yaxşı bilirdi. Onu da bilirdi ki, üzünə deməsələr də arxada qeybət edənlər çox olacaq. O, kimin ağzını yuma bilərdi. El ağsaqqalı kimi bu hadisəni qüruruna sığışdıra bilməzdi. İstər-istəməz hər yetən deyəcək Hacının gəlninin altı ayda uşağı olub. Bunu qəbul etmək çətin məsələ idi. Hacı düz fikirləşirdi, elin ağzını bağlamaq mümkün deyil. Onu da bilirdi ki, burda zinalıq var, oğlu Heydəri başdan çıxarıblar. Bu işlər Hacıya çox ağır gəlmişdi, onun qaranlıq tərəfini çözüb tapa bilmirdi. Əxlaq, namus Hacı İsmayıl üçün çox önəmli idi. Onun illər boyu arzuladığı ümidlər ürəyində sönmüşdü. Heydərə el adətilə elçi getmək, nişan qoymaq, ona böyük toy mağarı qurub, adlı-sanlı bəyləri toya dəvət etmək, bir sözlə, böyük arzuları ürəyində qalmışdı. Heydər onun böyük oğlu olmaqla, həm də onu gələcək nəslinin davamçısı kimi görürdü. Elə buna görə də Hacı qəti qərarını vermiş, gəlin atası evinə qaytarılmışdı. Bunu özlərinə təhqir hesab edən əks tərəf, bəy adamları qərara gəlmişdilər ki, imkan yaranan kimi məkrli niyyətlərini həyata keçirsinlər. Bu məqsədlə onlar bir neçə nəfərdən ibarət qrup yaratmış,

pusqu quraraq Heydəri qətlə yetirmişdilər. Çünki, Heydəri bir-iki nəfər öldürə bilməzdi, onun qolunu qatlaya bilən cavan yoxuydu. Təbii ki, bu qanın qisası qarşı tərəfdən alınmış və iki tayfa qan düşməninə çevrilmişdi. Bu düşmənçilik sonralardan Hacı Qasımın ağsaqqallığı ilə aradan götürülmüşdü. Tayfalar bir-birinə qız verib, düşmənçiliyi aradan götürmüşdülər. Heydərin həyatda bir oğlu qaldı, Muxtar. Demək olar ki, o iki tayfa arasında böyüdü, gah bəylikdə, gah da Hacıalılarda. Elə buna görə də uğurlu addım ata bilmədi, Muxtar. Muxtar atasının yerini doldura bilmədi. Hacı İsmayılın həyat yoldaşı həmişə deyərdi:

- Hacı İsmayıl uzaq görən adam idi, o deyərdi bu nəsildən fərli oğul çıxmaz.

- Onun dediyi sözlər həyatda öz yerini alırdı.

Heydərin faciəli ölümü Hacı İsmayılın qəddini əydi, onun belini bükdü. O, bir müddət özünə gələ bilmədi. Toy məclislərinə getmədi, bayram günlərində üzü gülmədi, bir ildə sanki on il qocaldı. O, həmişə deyirdi Heydərdən sonra mən yaşamaq istəmirəm, amma Heydərin qisasını almamış ölməyəcəm. Heydərin qisası alınandan sonra o uzun ömür yaşadı. Hacı İsmayılın nəvəsi, Abduləzim oğlu Məhəmmədin övladı İsmayıl (1959-1977) öz babasının adını yaşatdı. Təəssüf ki, Məhəmmədin oğlu İsmayıl 1977-ci ildə gənc yaşında qəflətən dünyasını dəyişdi.

Hacı İsmayıl öz düşüncəsi ilə başqalarından fərqləndiyinə görə, ata ocağında, öz elatında sayılan ağsaqqal olmaqla yanaşı, həm də Budaqlı elatında sözü keçən ağsaqqal olub. Atasından sonra bacı, qardaşları ilə bərabər, nökər-naiblərə yaxşı baxmış, yanında işləyən insanlara yaxşı münasibət bəsləmiş, əli açıq və səxavətli olmuşdur. O heç kəsin haqqını kəsmə-

miş, ehtiyac içində olanları həmişə diqqətində saxlamışdır. Hacı İsmayıl ibadət əhli olmaqla səxavətli insan olub. Elin xeyir-şərini yola verən adam olub. O öz doğmalarından başqa öz hesabına neçə-neçə insanları Məşədə, Kərbəla ziyarətinə göndərmişdir. Buna görə də Hacı İsmayıl Budaqlı elatında hamının sevdiyi insan idi. O oxuyub, dini təhsil almış, dinə bağlı, ibadətlə məşğul olan, namaz qılıb, oruc tutan insan olmuşdu...

**Əliyev Abduləzim,** Hacı İsmayılın ikinci oğludu. O, Budaqlı elatında dünyaya göz açıb, atasının himayəsində böyüyübdü. Abduləzim kürd qızı Cahan xanımla ailə həyatı qurub, onların üç oğlu bir qızı olubdu.

Oğlanları: İsa, Məhəmməd, Rəhim, qızı: Mənzər.

Budaqlı kəndi dağılandan sonra Abuləzim də Dağlıq Qarabağda məskunlaşmışdı. Onlar Hadrut rayon Tağ və Salakətin kəndlərində məskunlaşmışdılar. O yerlər demək olar ki, Abduləzimin babadan qalma yerləri olubdur.

**İsa** Abduləzimin böyük oğludur. O, bibisi Ziniyətin qızı Nübar xanımla ailə qurmuşdu, çox az yaşadı. İsanın kiçik qardaşı Rəhimin Ağcabədi rayonunda faciəli surətdə qətlə yetirilməsi ona çox ağır təsir etmişdi. Elə həmin il el yaylağa qalxan vaxtı, Rəhimi qətlə yetirən adamın ailə üzvünün bir neçəsinə atəş açaraq yaşadıqları alaçıqda öldürmüş, özü isə evinə çatan kimi ürəyi dayanmışdı. Az evlilik ömründə onun övladı olmamışdır.

**İsmayılov Məhəmməd Əbdüləzim** oğlu (1891-1991), Budaqlı elatında anadan olub və yüz il ömür yaşayıb. Məhəmməd demək olar ki, Hacı İsmayıl nəslinin davamçısıdır. Məhəmməd, bibisi Ballının qızı Minə (1914-1999) xanımla ailə qurubdu. Bu cütlüyün altı oğlu, üç qızı olubdur.

Oğlanları: Qərib, İxtiyar, Tapdıq, Arif, Astan, Soltan, qızları: Gülxarə, Nigar, Gülnaz.

Məhəmməd uzun müddət DQMV-də yaşayıbdır. Onun övladlarının hamısı Dağlıq Qarabağda anadan doğulublar. Məhəmməd yüz yaşında Beyləqan rayonunda rəhmətə gedib və Cərciz Peyğəmbər qəbirstanlığında həyat yoldaşının qəbri yanında dəfn olunubdur. Onun həyat yoldaşı Minə, 1999-cu ildə dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdur.

**Qərib (1946-2012)**, Məhəmmədin böyük oğludur. Yaxın qohumu Əkbərin qızı Abuzərlə evlənib, onların altı övladı dünyaya gəlibdir.

Oğlanları: Zöhrab, Rafiq, Rizvan, qızları: Mahirə, Namizəd, Ramilə.

Qəribin övladları Bakı şəhərində yaşayırlar. Qərib 2012-ci ildə Bakı şəhərində dünyasını dəyişib və Bakıda dəfn olunubdur.

**İxtiyar** İsmayılov, orta məktəbi DQMV-nin Hadrut rayonu Tuğ kəndində əla qiymətlərlə bitirib və Bakı Dövlət Universitetini qırmızı diplomla başa vurubdu. İlk əmək fəaliyyətinə Dağlıq Qarabağda Stepanakert Pedaqoji İnstitutunda müəllim kimi fəaliyyətə başlamışdır. İxtiyar, Şuşa şəhərindən Almaz xanımla ailə qurub və onların iki oğlu var.

Oğlanları: Vasif, Kamil.

İxtiyar müəllim Xankəndinin işğalından sonra Bakıya köçmüş, əvvəl BDU-də Fizika-riyaziyyat kafedrasında müəllim, sonra İnşaat Mühəndislər Universitetində baş müəllim işləmişdir. Hazırda Bakı şəhərində yaşayır.

**Tapdıq**, Hadrut rayon Salakətin kəndində anadan doğulub və atasının yanında heyvandarlıqla məşğul olubdur. O,

Murtulu tayfasından Gülsüm xanımla evlənibdir. Onların iki oğlu, iki qızı olubdur.

Oğlanları: Ramil, Elçin, qızları: Gülnarə, Minə.

Tapdıq öz qızına anasının adını qoymuşdu, Minə. O, hazırda Beyləqan rayon Allahyarlı kəndində yaşayır və heyvandarlıqla məşğuldur.

**Arif,** Azərbaycan İnşaat Mühəndislər İnsititutunu qurtarıb, ixtisasca mühəndisdir. Arif Budaqlı Umudun qızı Nürabə xanımla ailəlidir. Onların iki oğlu, bir qızı var.

Oğlanları: Hafiz, Orxan, qızı: Aysel.

Arifin ailəsi Beyləqan şəhərində yaşayır və Azərişıq Açıq Səhmdar cəmiyyəti idarəsində mütəxəssis kimi çalışır.

**Astan,** Mehdilər tirəsindən Dərgah kişinin qızı Yeganə xanımla evlidir. Astanın iki oğlu var.

Oğlanları: Şamil, Elməddin.

Astan qardaşı Tapdıqla qonşudur, Allahyarlı kəndində yaşayırlar.

**Soltan**, Məhəmmədin kiçik oğludur. O, ailə qurmayıb, subaydır və qardaşı Tapdığın yanında yaşayır. Soltan orta məktəbi bitirdikdən sonra BDU-nin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdu. O. Birinci kursu əla qiymətlərlə başa vursa da, xəstəliyə tutulmuş, sağlamlığı onun Univesitetdən kənarlaşmasına səbəb olmuşdur.

**Gülnaz**, Azərbaycan Mühəndislər İnstitutunu qurtarıb, mühəndisdir. Ailə qurmayıb və Bakı şəhərində yaşayır.

**Gülxara** Beyləqan şəhərində yaşayır, xalası oğlu İldırımın həyat yoldaşıdır. İldırım, Hacı Qasımın qardaşı Baxışın nəvəsidir.

**Zeyni, Hacı İsmayıl oğlu**, Budaqlı elatında anadan olubdur. Qardaş və bacıları ilə bir yerdə yaşayıbdır. Zeyni ailə qurub onun iki qızı olubdur.

Qızları: Güllər, Züleyxa.

Zeyninin böyük qızı Güllər Təhməzli tirəsindən Təhməzin böyük oğlu Astana ərə gedibdir. Onların da iki qızı olubdur.

Qızları: Firuzə, Roza.

Astan II Dünya Müharibəsinə gedib və döyüşlərin birində həlak olubdu. Gülləri sonradan Astanın qardaşı Nərçə alıb, onların Əlyar adlı bir oğlu olubdur. Əlyar hazırda İmişli rayon Muğanlı kəndində yaşayır. O, xalası Pürzənin qızı Sara xanımla evlidir, oğlanları var.

Roza (1934-2019), Hacı Ağaların nəvəsi Ağaların həyat yoldaşıdır. O, Beyləqan rayon Mil qəsəbəsində yaşayırdı.

Zeynin qızı Güllərin, ikinci qızı Pürzə, İmişli rayon Vətağa qəsəbəsində Məmmədxanla evli olub, onların övladları var, Muğanlı kəndində yaşayırlar.

Züleyxa, Zeyninin kiçik qızıdır. O, Budaqlı elatında anadan olub və Araytılı Bahadurla ailə qurubdur. Bu cütlükdən onların iki oğlu olubdur.

Oğlanları : Ayaz, Əlyar.

Araytılı Bahadur rəhmətə gedəndən sonra Züleyxa, Beyləqan rayon Dünyamalılar kənd Qocalar tirəsindən Süleyman kişiylə ikinci dəfə ailə həyatı qurubdur. Onun Məmmədxan adlı bir oğlu olubdur. Süleyman kişi rəhmətə gedəndən sonra Züleyxa, ömrünün sonuna qədər oğlu Məmmədxanın yanında yaşayıbdı. Məmmədxanın dörd oğlu, iki qızı olubdur.

Oğlanları: Faxrəddin, Ələddin, Bahəddin, Kəmaləddin.
Kəmaləddin (1980-1999) rəhmətə gedib.

Qızları: Yeganə, Pərvanə.

Züleyxa Beyləqanın "Xaçın" qəsəbəsində dünyasını dəyişib və Cərciz Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunubdur. Züleyxanın nəvələri də hazırda Xaçın qəsəbəsində yaşayırlar...

## KƏRBƏLAYİ MEHDİLƏR TİRƏSİ

Budaqlı elatının Mehdilər tirəsi əcdadı, kökü Budaqlı tayfası olmaqla yaxın qol XVIII-XIX əsrdə yaşamış Kərbəlayı Mehdinin adıyla bağlıdır. Kərbəlayı Mehdinin babası Vəli kişi olubdur ki, Vəlinin atasının adı da elə Mehdi olubdur. Mehdilər tirəsinin əzəli kökü elə bu nəsildən başlayır, Mehdi kişidən. Tirənin yaranması da o zamandan başlayır. Mehdi kişidən sonra nəslin davamçısı Vəli kişi olubdur. Onun da bir neçə oğul-qızı olmasına baxmayaraq, onlardan yaddaşda qalan oğlu Nəriman və Rəcəb olmuşdu. Rəcəb kişi öz dövrünə görə qoçaq kişi olub. Öz tirəsinə hörmət gətirən, tayfalar arasında tanınmış kişi olmaqla, bir az da dalaşqan kişi olub. Elat tayfalarında çomaq davasında onun ağacının qabağını ala bilən kişi olmayıb. Deyərdilər Rəcəb on nəfərə can verməzdi. O dövrdə də belə kişilər diqqət çəkirdi. Bir dəfə yaylaqda otlaq yeri üstə başqa tayfadan olan tərəkəmələrlə davası düşüb. Bu davada Rəcəb kişi, yeddi-səkkiz kişinin başını yarmışdı. Özündən sonrakı yetişən nəslində Rəcəbə çəkmiş ağac vuran kişilər çox olmuşdu. Mehdilər tirəsində iki Süleyman olubdur. Nəriman oğlu Süleyman və Rəcəb oğlu Süleyman. Bu Süleymanlar əslində əmioğludurlar, ancaq başqa-başqa yerdə yaşadıqları üçün adları eynidir. Həm Rəcəbin, həm də Nərimanın övladlarından Süleymanın nəsli yaşamaqdadır. Rəcəbin oğlu Süleymanın iki oğlu, iki qızı anadan doğulmuşdur.

Süleymanın özlərindən sonra gələn nəsillərində adlarını daşıyan və yaşadan insanlar bu gün də var, yaşayırlar. Rəcəb oğlu Süleymanın nəvələri, bugünkü nəsli, Süleyman soyadını daşıyırlar. Nəriman oğlu Süleymanın törəmələri Kərbəlayı Mehdidən sonra Mehdi soyadını daşıyırlar. Rəcəbin nəvəsi Qəhrəmanın nəvə-nəticələri, hazırda Beyləqan şəhərində yaşayırlar. Mehdini atası sağlığında Kərbəlayı ziyarətinə göndərmişdi. Kərbəlayı Mehdi yaxın qohumu Sehran xanımla evlənib, ailə qurmuş və Budaqlı tayfasında yaşayıblar. Kərbəlayı Mehdi, tayfasında özünə hörmət qazanan adam olduğu üçün, tirə başçısı kimi tanınmışdı. Onun oğlanları Salman və Süleyman da tay-tuşları arasında seçilən cavanlardan olmuşdu. Oğlu Salman mahir atıcı olmaqla həm də tanınmış ovçu olub. Onun igidliyini, sərrast atıcılığını bilən qaçaq Qardaşxan, Salmanı öz qaçaq dəstəsinə apara bilmişdi. Salman kişi gəncliyinin bir hissəsini qaçaq Qardaşxanın dəstəsində keçirmişdi. Sonralar onu Hacı Qasım üzə çıxartmış və tutulmağa qoymamışdır. Salmanın qoçaqlığına görə Hacı Qasım da onun xətirini çox istəyirmiş.

**KƏRBƏLAYI** ***Mehdi Süleyman*** oğlu:- Budaqlı tayfasında öz sözünü deyə bilən kişi olub. Ağsaqqallar arasında xüsusi hörmət sahibi olub. Kərbəlayı Mehdi kişi, həmişə at belində olanda da üstündə beşatılan gəzdirib. O, həm də sərrast atıcı olub. Deyərdilər ki, Kərbəlayı Mehdinin tüfəngindən quş da yayına bilməz. O, mükəmməl ayı ovçusu olmuşdu. Onun heç nədən qətiyyən qorxusu olmazmış. Kərbəlayı Mehdi dəfələrlə vəhşi heyvanlarla rastlaşmış və hər dəfə də qalib ayrılmışdı. Kəlbəlayı Mehdinin iki arvadı olubdu. O, Sehran xanımla ailə həyatı qurmuş, bu xanımdan yeddi qızı dünyaya gəlmişdir.

Qızları: Aftab, Savad, Sayad, Afsayad, Tükaz, Əntiqə,Tamam.

Kərbəlayı Mehdinin oğlanları yeddi qızdan sonra olmuşdur. İkinci həyat yoldaşından bir qızı və iki oğlu anadan olmuşdu.

Oğlanları: Süleyman, Salman., qızı: Pəri.

Kərbəlayı Mehdinin ikinci həyat yoldaşı Güllərdir. Güllər, Təhməzli tirəsindən Təhməzin qızı, Kərbəlayı İbrahimin bacısıdır. Bunların hər birinin törəməsi nəvə, nəticələri yaşayır və onların adlarını yaşadırlar. O zamanlar qoçaq qızlar erkən 14-15 yaşda ərə gedirdilər. Kərbəlayı Mehdinin qızları da evdar və qoçaq olduqları üçün vaxtından tez ailə qurublar. Söz düşəndə deyirdilər:- Kərbəlayı Mehdinin qızlarının qoçaqlığı, şücaəti çox oğlanlarda yoxdu. Doğrudan da onlar iş görəndə, köçüb-düşəndə, bir sözlə bütün işlərdə ərlərindən geri qalmazdılar. Kərbəlayı Mehdinin qızları Budaqlı tayfasının bütün tirələrində gəlin idilər. Bu qızlar bir dəfə də olsun belə qaynata, qaynana üzünə ağ olmadılar, böyüklər yanında üzlərinə yaşmaq çəkdilər. Ağsaqqal olan yerdə danışmazdılar, böyüklər yanında qucaqlarına uşaq alıb üzündən öpməzdilər. Bu kimi hallar onlara, onların valideynlərinə üz ağlığı gətirərdi. Kərbəlayı Mehdinin istər oğul, istərsə də qız nəvələri, bu gün də nəslinin layiqli davamçılarıdı.

Kərbəlayı Mehdinin qızları Savad, Hacı Hüseynin oğlu Qaraşla, Sayad Buludlu tirəsindən Salmanla, Aftab Hacı Qasımın qardaşı Şirinlə, Afsayad Nağıyla, Tükaz bibisi oğlu Ağadədəylə, Əntiqə, Kərbəlayı Şirinli tirəsindən Rzayla, Pəri tatallar Salmanla ailə həyatı qurublar. Kərbəlayı Mehdinin bir qızı Tamam isə ailə həyatı qurmayıb.

**Mehdiyev Süleyman Mehdi oğlu,** Mehdinin böyük oğludur. Onun birinci həyat yoldaşı Nisə xanımdan beş oğlu dünyaya gəlibdir.
Oğlanlari: Feyzulla, Seyfulla, Nəriman, Əsəd, Məmmədalı.

Çox təəssüflər olsun ki, onun Məmmədalıdan başqa olan oğlanları yetkinlik yaşına çatanda dünyalarını dəyişmişlər. Bu dərd Süleymanın qəddini əymişdir. O, həyatda özünə güc tapıb, ikinci dəfə öz yaxın qohumu Nuru kişinin qızı Nabat ilə ailə qurmuş, bir oğlu və iki qızı olmuşdu.

Oğlu: Mehdi, qızları: Pakizə, Sənəm
Süleyman kişini övlad dərdi həyatdan tez apardı. Onun balaları atalı günlərini doyunca yaşaya bilmədilər. Süleymanın qızı **Sənəm** uşaq vaxtı arabadan yıxılıb dünyasını dəyişibdi. Pakizənin nəvəsi Sənəm onun adını yaşadır.

**Mehdiyev Məmmədalı** Süleyman oğlu, (1894-1948) atası kimi zəhmətkeş adam olub. O, heyvandarlıqla məşğul olub və hələ kiçik yaşlarından atasının köməyinə çata bilirdi. O, sakit təbiətli və az danışan kişi olub. Atası öləndən sonra bütün ağırlıqları Məmmədalı öz çiyninə aldı. Məmmədalı kişi, Budaqlı kolxozu yarananda at fermasına birqadir seçildi və ölənə qədər də bu vəzifədə çalışmışdı. O, kolxoz quruluşundan əvvəllər də Hacı Qasımın at ilxısına baxırdı. Demək olar ki, o həm at tanıyan, həm də yaxşı at minən kişi olub. Məmmədalı xalası qızı Tavadla ailə həyatı qurub evləniblər. Onların dörd oğlu, bir qızı anadan olubdu.

Oğlanları: Mahmud, Saday, Yunis, İngilis, qızı Nisə.

**Nisə** yeni ailə qurmuşdu, ilk övladını dünyaya gətirərkən dünyasını dəyişibdi.

**Süleymanov Mahmud Məmmədalı oğlu,** (1922-1946) ailə qurmamış ömrünün iyirmi dörd yaşında "Çaldağ" yaylağın-

da xəstələnib və beş gündən sonra rəhmətə gedib. Mahmud "Çaldağ" yaylağında olan el qəbirstanlığında dəfn olunub. Mahmud yazıb, oxumağı bacarırdı və kolxozda hesabdar işləyirdi. O, həm yaraşıqlı, həm də çox igid oğlan olub. Həmin vaxtlar onu hərbi xidmətə çağırmışdılar. Vaxtsız ölüm onu həyatdan çox tez apardı. 1946 cı ildə Budaqlı camaatı iki sayılıb-seçilən cavanlarını itirdi ki, bunlardan biri Mahmud və digəri isə Əyyub oldu.



*Şəkildə Məmmədalı oğlu Saday, qardaşı oğlu Rasət, anası Tavad*

**Süleymanov Saday** Məmmədalı oğlu, (1938-2012), Budaqlı kolxozu birləşəndən sonra, ömrünün çox hissəsini Dağlıq Qarabağ Muxtar Vilayəti, Xocavənd rayon Tuğ kəndində

yaşamışdı. Saday, Tuğ kəndindən çıxana qədər, ailəlikcə kəndin mal-qara fermasında çalışıblar. Saday kişi, xalası Afayatın qızı Sürəyya (1941-2003) xanımla evlənib, ailə qurmuşdu. Demək olar ki, onlar ailəlikcə zəhmətkeş ailə olublar. Sadayın bir oğlu, yeddi qızı anadan olub. Oğlu Emin ailənin son beşiyidir.

Oğlu: Emin. Qızları: Nisə, Hürzad, Amaliya, Sehraya, Nəzifə, İradə, Qızbəs.

Ermənilərin Qarabağ işğalından sonra Saday kişi, məcburi köçkün kimi Beyləqan rayonunda məskunlaşdı. Saday kişi 2012-ci ildə Beyləqan şəhərində rəhmətə gedib, Cərciz Peyğəmbər ziyarətgahı qəbirstanlığında həyat yoldaşı Sürəyyanın yanında dəfn olunub. Onun həyat yoldaşı Sürəyya, Qaçqınlıq dövründə, 2003-cü ildə Beyləqan rayonunda dünyasını dəyişmiş, Peyğəmbər ziyarətgahı qəbirstanlığında qardaşı İldırımın yanında dəfn olunubdur.

**Emin** Saday oğlu, Maliyyə-Kredit texnikumunu bitirib, iqtisadçıdır. Emin birinci Qarabağ müharibəsinin iştirakçısı olmaqla, Vətən uğrunda gedən ağır döyüşlərdə iştirak edib və bir neçə dəfə yaralanıb. O, Qarabağ qazisidir. Emin, Hərbidən tərxis olunduqdan sonra müxtəlif vəzifələrdə, Xocavənd rayon Statistika idarəsində mütəxəssis və Bank olmayan kredit təşkilatında uzun müddət kredit mütəxəssisi kimi fəaliyyət göstərmişdi.

Emin öz dayısı Surxayın qızı Kifayət xanımla ailə qurub, onların Nicat adlı oğlu, Aytac adlı qızı anadan doğulubdu. Nicat və Aytac hər ikisi ayrı-ayrı Universitetlərdə təhsil alırlar. Emin hazırda yeni salınmış Xocavənd qəsəbəsində yaşayır.

Sadayın qızları İradə və Qızbəs Azərbaycan Dillər Universitetini bitirmiş hazırda ixtisasları üzrə ingilis dili müəllimməsi işləyirlər. Sadayın qızları Nisə, yaxın qohumu Hidayətin oğlu İnqi-

labla evlidir, onların Xəqani və Nurlan adlı iki oğlu var. Nurlan II Qarabağ müharibəsində qəhrəmancasına şəhid olub.

Hürzad ata qohumu İnşallahın oğlu Mübarizlə ailə qurub, oğlu Kənan, qızı Elnarə anadan olubdu. Amalya yaxın qohumu Camalın oğlu Telmanla evlənib ailə qurub, oğlu Orxan, qızı Günay dünyaya gəlibdi. Nəzifə əmisi Yunusun oğlu Nazirlə ailə həyatı qurub. Onların Zeynəb, Ləman adlı qızları və Rüfət adlı oğlu dünyaya göz açıbdı. İradə dayısı Surxayın oğlu Akif müəllimlə ailə həyatı qurub və bu cütlükdən Akim, Surxay adlı iki oğlu anadan doğulub. Akim və Surxay hər ikisi ali təhsil alıblar. İradə İmişli rayon Əliqulular kəndində yaşayır. Qızbəs Əliqulular tirəsindən, Tuğ kəndində yaşamış Ərsalanın oğlu Əbülfətlə ailə qurublar. Onların oğlu Sənan, qızı Nəzrin anadan doğulub. Sehraya Beyləqan rayon sakini Etibarla evlidir, övladları yoxdur.

**Yunis** Məmmədalı oğlu, (1937-1997) təbiətcə öz atasına bənzər kişi olubdur. Sakit, heç kəslə işi olmayan və kimsəyə ziyanı dəyən kişi olmayıbdı. O, 1970-ci illərə qədər Dağlıq Qarabağda Tuğ kəndində yaşamış və heyvandarlıqla məşğul olmuşdu. 1970-ci ildən sonra Beyləqana köçmüş və qalan ömrünü Beyləqan şəhərində yaşamışdı. Onun birinci həyat yoldaşı Minayədən ( 1937-1967) üç oğlu, üç qızı doğulub.

Oğlanları: Rasət, Fazil, Nazir.

Qızları: Gülayə, Xalidə, Fəridə.

**Rasət** (1956-2010), Tuğ kəndində əmisi Sadayın himayəsində böyüyübdü. Anası Minayə dünyasını dəyişəndən sonra ona bibisi Sürəyya analıq etmişdi. Rasət İmişli rayonu məzrəli kəndindən Almaz xanımla ailə qurmuş, onların Elşən adlı oğlu, Aytən adlı qızları dünyaya gəlmişdi. Rasət, qaçqınlıq dövründə rəhmətə getmiş və Beyləqanda Cərciz Peyğəmbər qəbirstanlı-

ğında doğmalarının yanında dəfn olunmuşdu. Rasətin ailəsi və uşaqları İmişli şəhərində yaşayırlar.

**Fazil** Yunus oğlu, Tuğ kəndində anadan olubdu. O, atası ilə birlikdə Beyləqana köçmüş, bir ailədə yaşamışdılar. Fazil Beyləqanın Tatallar kəndindən Namətin qızı Roza xanımla ailə qurub, ancaq övladları olmayıbdı. Hal-hazırda Rusiya Federasiyasında yaşayırlar.

**Nazir** Yunus oğlu, birinci Qarabağ müharibəsində döyüşçü olubdur. O, döyüşlərin birində ağır yaralanıb. Nazir əmisi Sadayın qızı Nəzifə xanımla ailə həyatı qurub, onların iki qızı Zeynəb, Ləman, və bir oğlu Rüfət dünyaya gəlib. Nazir, I Qarabağ müharibəsi veteranıdır və Beyləqan şəhərində yaşayır.

Gülayə (1958-2013), ailə qurduqdan sonra Rusiya Federasiyasında yaşamış və orada dünyasını dəyişmişdi. Gülayə Cərciz Peyğəmbər qəbirstanlığında atasının yanında dəfn olunmuşdur.

Minayə rəhmətə gedəndən sonra Yunis kişi, ikinci dəfə Zeynəblə (1939-2010) ailə həyatı qurmuş onların bir oğlu Arzuman və bir qızı Nuridə anadan doğulmuşdur.

Arzuman, Beyləqan şəhərində anadan olub və atası ilə bir ailədə yaşayıb. O, Həşim kişinin qızı Minayə xanımla ailə həyatı qurub, onların bir qızı: Aysel, iki oğlu: Anar və Yunis dünyaya gəliblər. Qızı Aysel və oğlu Anar ailə qurublar, evlidirlər.

Nuridə Yunis qızı, Tatallar tayfasından Rəhimin oğlu Asiflə evlənib ailə qurub. Onların Tacəddin, Pərviz və Təbriz adlı üç oğlu var. Bu ailə Beyləqan şəhərində yaşayır.

Yunis kişi 1997-ci ildə dünyasını dəyişmiş, Cərciz Peyğəmbər qəbirstanlığında qardaşı İngilisin qəbri yanında dəfn olunmuşdu. Yunisin ikinci həyat yoldaşı Zeynəb, Beyləqan

şəhərində rəhmətə getmiş və həyat yoldaşının qəbri yanında dəfn olunmuşdur.

**İngilis** Məmmədalı oğlu, (1940-1993) Budaqlı elatında dünyaya göz açıb. Gənc yaşlarından Dağlıq Qarabağda, Hadrut (Hadrutun əzəli adı Dizaq olub) rayonunun Tuğ kəndində yaşayıb. Əmək fəaliyyətinə də bu kənddə, sürücü kimi işə başlayıb. İngilis, Məmmədalının kiçik oğludur. Atası rəhmətə gedəndən sonra qardaşı Sadayla bir ailədə yaşamışdı. İngilisi hamı halal bir insan kimi tanıyırdı və özü də düzlüyü sevən adam olub. O, bu düzlüyünə görə Sovet dövründə rəhbər işçilərin diqqətini özünə cəlb edirdi. İngilisi kommunist partiyasının üzvü seçdilər. O, vaxtlar hər adamı kommunist partiyasının üzvü seçmirdilər. İngilis zəhmətkeş insan idi. O, halal zəhmətiylə balalarını böyüdə bildi. Onun dünya malında nəfsi olmazdı. İngilis, xalası Güldəstənin nəvəsi Zenfira (1949-2019) xanımla evlənib ailə həyatı qurmuşdu. Tuğ kəndində halal zəhməti hesabına özünə ev tikmişdi. O, heç kəsdən minnət götürən deyildi. Onun bir oğlu üç qızı var. Oğlu:- Azər, qızları: -Tavad, Aybəniz, Şəmsiyyə.

İngilis, yaşadığı Tuğ kəndində, Dağlıq Qarabağ münaqişəsi başlayan gündən etibarən, kənddə yaradılmış könüllü, Özünü Müdafiə dəstələrinə qoşulmuş, kənd əhalisi ilə birlikdə dinc əhalinin asayişini qorumuşdu. İngilis, Tuğ kəndinin işğalından sonra 1992-cü ildən etibarən Beyləqan şəhərində məcburi köçkün kimi məskunlaşıb yaşamağa başlamış və yeni Tuğ kəndində öz sürücülük peşəsində çalışmışdır.

1993-cü ildə bir çox Qarabağlılar kimi onu da zamanın qəhri çökdürdü. İngilis, 1993-cü il bahar fəslində Beyləqan şəhərində dünyasını dəyişdi. O, Cərciz Peyğəmbər ziyarətga-

hı qəbirstanlığında xalası oğlu, həm də qaynatası Tanrıverdinin qəbri yanında dəfn olunubdu.



*İngilis, həyat yoldaşı Zenfira*

İngilis, böyük qızı Tavada anasının adını qoymuşdu. Tavad, atasının xalası qızı Güllünün böyük oğlu Vahid müəllimlə ailə qurub, İmişli rayon Muradxanlı kəndində yaşayır. Onların İlkin və Türkan adlı övladları həyata göz açıbdı. Türkan İmişli şəhər sakini Elşadla ailəlidir, Tuncay və Nəzrin adlı iki övladları var. Bu ailə İmişli şəhərində yaşayır. İlkin isə dayısı Azərin qızı Aytəkin xanımla ailə qurub Uğur və Mətin adlı iki oğlu var. İlkin, gizir rütbəsində Füzuli rayon hərbi prokurorluğunda çalışır. Bu ailə Beyləqan şəhərində yaşayır.



*İngilisin ailə üzvləri və doğmaları*



*Azər Süleymanov*

**Süleymanov Azər, İngilis** oğlu, 12 avqust 1969-cu ildə Xocavənd royon Tuğ kəndində anadan olub, 1976-cı ildə Xocavənd royon Tuğ kənd orta məktəbinin 1-ci sinfinə getmiş, 1986-cı ildə həmin məktəbi "əla" qiymətlərlə başa vurub.

Həmin ili Azərbaycan İnşaat Mühəndislər İnstitutunun avtomobil yollarının və təyyarə limanlarının tikilməsi fakültəsinin qiyabı şöbəsinə qəbul olub. 1987-1989-cu illərdə keçmiş Sovet ordusunun sərhəd qoşununda həqiqi hərbi xidmətdə olmuş, 1989-1991-ci illərdəTuğ kənd özünü müdafiyə dəsdəsində erməni quldurlarına qarşı döyüşlərdə iştirak edib. 01.08.1991-ci ildən 01.05.1997-ci ilə kimi Xocavənd rayon Yol Tikinti İdarəsində iş icraçısı vəzifəsində çalışıb. 01.05.1997-ci ildən 01.05.2000-ci llədək Xocavənd rayon İcra Hakimiyyəti Başçısı aparatında kadrlar üzrə müfəttiş, 05.12.2000-ci ildən 22.01.2008-ci ilədək Xocavənd rayon Statiska idarəsinin rəis müavini işləyib. Onun yüksək intelektuallıq səviyyəsini görən rəhbərlik, onu həmişə diqqətdə saxlamışdı. Azər müəllim, 24.01.2008-ci ildən hazırkı dövrə qədər Xocavənd rayon İcra Hakimiyyəti Başçısının sosial-iqtisadi məsələlər üzrə müavini vəzifəsində çalışır. 2006-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olub, 2008-ci ildə "Maliyyə və Kredit" ixtisası üzrə tam kursunu bitirib iqtisadçı ixtisasını yiyələnmişdi. İşlədiyi bütün sahələrdə savadlı və bacarıqlı mütəxəssis kimi hörmət qazanmışdır. O, Budaqlı tayfasının yüksək vəzifəli ziyalılarından sayılır. Azər, ata qohumu Tofiq kişinin qızı Yaqut xanımla ailə qurmuş, onların iki qızı, bir oğlu anadan doğulmuşdur.

Oğlu: Adəm, qızları: Aytəkin, Afət.

Adəm Azər oğlu, Gəncə Texnologiya Universitetinin İqtisadiyyat fakültəsini bitirdikdən sonra hərbi xidmətini də başa

vurmuşdu. Hal-hazırda Beyləqan Mərkəzi rayon xəstəxanasında kordinasiya üzrə bölmə müdiri vəzifəsində çalışır. Azərin qızı Aytəkin, bibisi Tavadın oğlu İlkinlə ailəlidir. İkinci qızı Afət, qan qohumu Tahirin oğlu Anarın həyat yoldaşıdı. İngilisin ikinci qızı Aybəniz, Azərlə əkiz doğulubdu. Aybəniz, yaxın qohumu, şair publisist Rövşən Budağın həyat yoldaşıdı. Bu ailə Beyləqan şəhərində yaşayır və haqqında aşağıda məlumat veriləcək.

Şəmsiyə Xocavənd rayon Qaradağlı kənd sakini Ələmdarla ailə həyatı qurub, Xocavənd qəsəbəsində yaşayır. Şəmsiyyənin övladı olmadığı üçün, qardaşı Azərin nəvəsi Aytəkinin kiçik oğlu Elmidarı övladığa götürüb saxlayır.

**Mehdiyev Mehdi** Süleyman oğlu, (1896-1986) Budaqlı tayfasında dünyaya göz açıb. Mehdi kişi, Kərbəlayı Mehdinin nəvəsi olmaqla həm də babasının adını yaşadıb. Demək olar ki, həmişə tayfanın içərisində yaşamışdı. O, Budaqlı tayfasında Kərbəlayı Şirinli Zülfüqarın qızı Şəfiqə xanımla ailə qurubdu. Mehdi 1976-cü ilə qədər İmişli rayonu Əliqulular kəndində yaşamış, 1976-cü ildən etibarən, Beyləqan şəhərinə köçüb, burada yaşamışdı. Mehdi kişi boydan gödək olmasına baxmayaraq çox qoçaq kişiydi. Bəzən onun gördüyü işi bir neçə adam görə bilməzdi. Mehdi kişi oxuyub təhsil almasa da dünya görmüş kişiydi. Onun söz boğçaları dolu idi. Toy məclislərində el aşıqlarından öyrəndiyi, dinləyib eşitdiyi dastan və nağıllar yaddaşında həkk olunub qalmışdı. O, dastan və nağılları kəlmə-kəlmə dəqiq danışardı. Biz kənddə olan zaman məhlənin uşaqları, oğlanlı, qızlı axşam bir az çörək yeyib qaçardıq Mehdi kişi gilə. Həyat yoldaşı Şəfiqə xala yerə saldığı döşəkçələrin üstündə bardaş qurub Mehdi kişinin söylədiyi nağıllara şirin-şirin qulaq asardıq. Mehdi kişi isə

Hə balalarım, dünən axşam harada qalmışdıq? Biz hamımız bir ağızdan nağılın yarımçıq qalan hissəsini deyərdik. O, danışmaqdan yorulmazdı, arada başa düşmədiyimiz yerləri təkrar danışardı. Mehdi kişi nağılı və yaxud dastanı o yerdə saxlayırdı ki, hamımız bir ağızdan deyərdik:



*Mehdi kişi. Həyat yoldaşı Şəfiqə*

- Mehdi əmi danış, yarımçıq saxlama.

O, isə gülə-gülə deyərdi:

- Ay bala, sizi intizarda saxlamasam sabah axşam vaxtında gəlməyəcəksiniz.

Doğrudan bu kişinin yaddaşına heyran qalardıq. O, çox səmimi və mehriban adam idi. Heç kəsin xətrinə dəyən deyildi. Amma bir az tez küsəyən kişiydi. Ona görə onun bir sözünü iki edən olmazdı. Mehdi həm babasının adını, həm də

soyadını daşıyırdı. Onun bugünki nəsli Mehdi soyadını daşıyır.

Mehdi kişi boydan balaca olmağına baxmayaraq özünə görə çox qoçaq kişi olub. Bir sözlə çəkisindən artıq yük götürən kişi olubdu. Salman kişi, birinci həyat yoldaşı Şirin dünyasını dəyişəndən sonra, ikinci dəfə Sisyan rayon "Qızılcıq" kəndindən Gülarə xanımla ailə qurdu. Ancaq Gülarənin birinci həyat yoldaşından Səməryə adlı bir qızı var idi. Salman kişi, həyat yoldaşı Gülarənin istəyi ilə Səməryəni də ailəsinə gətirmək istədi. Lakin Səməryənin dayıları bu işə qəti etirazlarını bildirdilər. Onlar qızı öz himayələrində saxlayacaqlarını və Səməryəni anasına verməyəcəklərini dedilər. Budaqlı elatına gəlin gələn Gülarə xanım isə öz doğma qızından ayrı qala bilmirdi. Salman kişi isə tədbirlər tökür, hansı yolla olursa olsun qızı gətirəcəyinə söz vermişdi. Bir gün Mehdi kişi əmisi Salmana dedi:

- Əmi mənə izin versən Səməryəni gedib gətirərəm.

Salman kişi Mehdiyə baxıb əlini, əlinə vurub bərkdən güldü və dedi:

- Ayə qardaş oğlu, mənim görə bilmədiyim işi sən bu cılız bədəninlə necə görə bilərsən?

- Əmi, məsələ bədənin böyüklüyündən, kiçikliyindən getmir, bir az ağıl işlədib mən o qızı obamıza gətirə bilərəm, ancaq bir şərtlə

- Qardaşoğlu o nə şərtdir elə?

- Əmi mən bilmək istəyirəm ki, təki Səməryənin gəlməyə könlü olsun. Mən də bilirəm bu iş zor gücünə həll olunan iş deyil.

- Qardaşoğlu onda planın nədir?

- Əmi, bilirsən ki, məndən heç kəs şübhələnən deyil. Mən "Qızılcıq" kəndinə gedib SəmərYə ilə görüşəcəm və ona bildirəcəm ki, onu aparmağa gəlmişəm. O da səhəngin götürüb gedər bulağa su gətirməyə. Burdan beləsi mənim işimdi. Salman kişi gördü Mehdi ağıllı söz danışır, onun kəndə nə məqsədlə getdiyini heç başa düşən də olmayacaq. Həm də Mehdinin bu işi görəcəyinə inanan da olmaz. Ona görə də Salman kişi bir az fikirləşib Mehdiyə dedi:

- Qardaşoğlu, mənim atımı minib gedirsən kəndə. SəmərYə ilə görüşüb anasının sözünü ona deyirsən. Qız razılaşıb bulağa getsə, ətrafı nəzərdən keçirib qızı çəkirsən atın tərkinə yüyəni boşlayırsan. Arxanca düşən olsa belə qorxma at səni obaya çatdıracaq.

Bu söhbətdən bir neçə gün sonra, Mehdi, əmisi Salmanın atını minib getdi Qızılcıq kəndinə. Mehdini qarşıladılar, qabağına süfrə salıb, çörək qoydular. Mehdi çay, çörək yeyəndən sonra xəlvətlikdə gəlmə səbəbini SəmərYə xanıma bildirdi. SəmərYə dayılarının yanında nə qədər yaxşı böyüsə də, anasından ayrı qala bilmirdi. Odur ki, o Mehdiylə razılaşdı və bir az keçmiş səhəngini götürüb getdi bulaq başına. Evdə kişilərin olmaması Mehdinin ovqatına yağ kimi yayılırdı. SəmərYə bulağa çatıb səhəngini dolduran zaman, Mehdi atı minib qızı ley kimi götürdü və atın başını boşladı. Kəndə hay düşüb işdən halı olana qədər Mehdi dərələri, təpələri arxada qoymuşdu. SəmərYənin arxasınca dayıları gəlsə də onu Salman kişi vermədi. Öz qızım kimi böyüdəcəm dedi. Həmin gündən Salman kişi Mehdinin adını balaca Koroğlu qoymuşdu. Çox zaman zarafatla deyərdi:

- Ay qardaşoğlu sən bizim görə bilmədiyimiz igidliyi göstərmisən. Görərsən əmin sənin toyunda nələr edəcək.

Mehdi kişi həm də baməzə kişi olub. O, bir gün kolxoz idarəsinə gedən vaxtı Sətdar kişinin evinin dalında keçirmiş ki, Sətdarın qızı Validə xanımla qarşılaşır. Validə xanım Mehdi kişinin hal-əhvalını soruşur:

- Ay Mehdi dayı necəsən, vəziyyətin yaxşıdırmı?

Budaqlı tayfasında Mehdi kişinin xətrini hamı çox istiyirdi. O deyir:

- Validə, bu gecə az qala ölmüşdüm.
- Allah eləməsin ay Mehdi dayı, nə olmuşdu.
- Validə axşam qızdırmam 100-ü keçmişdi.

Validə ixtisasca kiçik tibbi işçisi olduğu üçün təəcüblə soruşur:

- Mehdi dayı nə danışırsan, istiliyin 40-ı keçsəydi əgər bu səni öldürə bilərdi.

Mehdi kişi gülərək deyir:

- Ay bala məndə elə bilirəm ki, hələ az demişəm.

Salman kişi Mehdinin xətrini çox istəyirdi, elə Mehdi də əmisinin yolunu həmişə gətirmişdi. Mehdinin dörd oğlu, altı qızı olub.

Oğlanları: Təvəkgül, Feyzulla, Zöhrab, Nəriman.

Qızları: Ülkər, Qəndil, Ətirə, Nabat, Rəna, Nəsibə.

Mehdi kişinin oğlanları Feyzulla və Nəriman, gənc yaşlarında rəhmətə getmiş əmilərinin adını daşıyırlar. Mehdi kişi doxsan il yaşadı. Onu indiki nəslin nümayəndələri görmüşdü. Mehdi kişinin toy məclislərində özünə məxsus oynaması, hamının diqqətini özünə cəlb edirdi. O, oyun havasını sifariş verməzdi. Muğan, Mil və Qarabağ zonasından olan musiqiçilər, onun oynadığı havanı yaxşı bilirdilər. "Kəsmə Tamara". Bu havanı Mehdi kişi cavan yaşlarında necə oynamışdırsa, qoca yaşında olanda da o cürə oynayardı. Oyun meydanına

girəndə ayaqqabısını soyunar, aram-aram rəqsi öz qaydasında oynayar, getdikcə rəqsin tonunu sürətləndirərdi. Bu zaman toy mağarında olan məclis iştirakçıları hamı bir nəfər kimi əl çalıb alqışlayardılar. Mehdi kişi zəhmətkeş insan idi. Oğlu Təvəkgülün vaxtsız ölümü onun qəddini əyməsəydi o, bəlkə də daha çox uzun ömür sürəcəydi. Mehdi kişi 90-il ömür yaşadı və 1986-cı ildə Beyləqan şəhərində dünyasını dəyişdi. O, Cərciz Peyğəmbər ziyarətgahında dəfn olunubdu.



**Mehdiyev Təvəkgül** Mehdi oğlu (1952-1976), Mehdi kişinin böyük oğludu. O, tam orta məktəb təhsilini bibisi Pakizə nənənin yanında, Xocavənd rayon Tuğ kəndində almışdı. Təvəkgül, Bakı şəhərində Texnologiya Texnikomunda gündüzlər təhsil alıb, gecələr işləyirdi. Mehdi kişi bacısı Pakizənin nəvəsi, İnşallahın qızı Sənəm xanımı  toy edib evinə gəlin gətirdi. Çox keçmədi Təvəkgül Bakı şəhərində iş yerində faciəli şəkildə rəhmətə getdi. Təvəkgülün evlilik müddəti az olduğu üçün onun övladı qalmasa da onun səmimi, mehriban xatirələri Budaqlı camaatının qəlbində uzun illərdi yaşamaqdadır.

Feyzulla Mehdi oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub.  Beyləqan şəhərinə köçdükdən sonra qonşuları Südabə xanımla ailə qurub. Bu cütlükdən qızları: Xatirə, Şəfiqə, oğlu: Elnur dünyaya gəlibdi. Övladları ailəlidir və Beyləqan şəhərində yaşayırlar.

Zöhrab, Murtulu tirəsindən Musanın qızı Gülnarla evlidir. Elgün və Aytac adlı övladları var.

Nəriman Günel xanımla ailə həyatı qurub və Aysu adlı qızı var.

Mehdi kişinin qızları:- Ülkər Beyləqan rayon Çəmənli kəndində Əkbərlə, Qəndab (Qəndil) Ağcabədi rayon Qaradolaq kəndində Astanla, Rəna, qonşuları olmuş Şəmsəddinin oğlu Rasimlə, Təranə xanım Abuzərlə, Nəsibə xanım Nurəddinlə və Nabat, Budaqlı Məhəmmədin oğlu Əlişlə evlənib həyat qurublar.

**Pakizə** Süleyman qızı**,** (1898-1989) Paşa kişi ilə evlənmişdi. Pakizə, Paşanın ikinci  həyat yoldaşıdır. Paşa, yaş fərqinə görə Pakizədən xeyli yaşlı olubdur. Paşanın atası Cabbar kişi Tanrıqullar tayfasından Qurban kişinin oğludur. Qurban kişi özünə görə xeyli imkanlı kişi olubdu. Qurban kişinin yeganə bir oğlu olduğu üçün özündən sonra əmlakı oğlu Cabbara qalıbdı. Cabbarın arvadı Sara xanım kürd qızıdır. Cabbar kişi dünyasını erkən dəyişibdi. Paşa dayılarının yanında böyüyüb və atadan qalan mülkünü qoruyub saxlaya bilibdir. O, həmişə Mehdilər tirəsinin içində yaşadığına görə onu Mehdilər kimi tanıyıblar. Paşa kişinin anası Sara Laçın rayonunun Minkənd kəndindən olub. Budaqlı tayfasında kürd qızı kimi çağrılırdı. Paşanın anası Sara, Hacı İsmayılın ikinci arvadıdır. Cabbar kişi öləndən sonra onu Hacı İsmayıl almışdı. Hacı İsmayılın Saradan uşaqları olmayıbdı. Paşa əvvəllər Budaqlı tayfası ilə birlikdə, Sovet hakimiyyəti dövründə Dağlıq Qarabağda, Tuğ kəndində yaşamışlar. Onların üç övladı olub.

Oğlu: İnşallah, qızları Firuzə, Qəmizə.

İnşallah Paşa oğlu (1932-1982), Şuşa şəhər K/T-ı Texnikumunu bitirmiş, yaşadığı Tuğ kəndində uzun müddət mal fermasının müdiri vəzifəsində işləmişdi. O, yaxın qohumu Xanların qızı Şərəf xanımla ailə həyatı qurdu və onların Sənəm adlı bir qızları dünyaya gəldi. Sənəm yetkinlik yaşına çatanda Mehdi kişinin oğlu Təvəkgüllə evlənmişdi. Bu evlilikdən bir müddət keçməmiş Təvəkgül faciəli surətdə dünyasını dəyişmiş, Sənəm isə ata evinə qayıdıb. İnşallah ikinci dəfə ailə həyatı qurub. Həyat yoldaşlarının hər ikisini bir ailədə saxlamışdı.



***Pakizə və oğlu İnşallah***

O, Talıbxanlı tirəsindən Həsən kişinin qızı Nadya xanımla evlənmiş, bu cütlükdən iki oğlu, iki qızı anadan doğulub.

Oğlanları: Mübariz, Oqtay, qızları: Təzəgül (Ağgül), İlhamə.

Qızlardan Təzəgül yaxın qohumu Barat kişinin oğlu Əkrəmlə evlənib və onların Nahidə adlı bir qızları var. Kiçik qızı İlhamə Tuğ kəndində yaşayan Talıbxanlı tirəsindən Şakirlə evlidir, övladları var.

İnşallah, 1982-ci ildə Tuğ kəndində qəflətən rəhmətə getmiş və həmin kəndin qəbirstanlığında doğmalarının yanında dəfn olunmuşdur.

**Qurbanov Oktay** İnşallah oğlu, 1965-ci ildə Xocavənd rayon Tuğ kəndində anadan olub. O, 1983-cü ildə Tuğ kənd orta məktəbini bitirmiş və həmən ili Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kimya-biologiya fakültəsinə daxil olmuşdu. Oktay 1990-cı ildə institutu bitirmiş, müəllimlik diplomu almışdı. Təhsil müddətində iki il hərbi xidmətdə olmuşdu. Oktayın əmək fəaliyyəti Dağlıq Qarabağda başlayan münaqişə dövrünə düşdüyü üçün o, Vətənin müdafiəsini pedaqoji fəaliyyətdən üstün tutdu, işğalçılara qarşı özünümüdafiə dəstəsinə qoşuldu. Oktayın vətənpərvərliyini, qoçaq və qorxmazlığını görən Tuğ kəndində yeni yaranmış polis şöbəsi onu Polis zabiti kimi işə qəbul etdi. Oktay həm qarabağlı kimi, həm də bir polis zabiti kimi silahsız, əli yalın xalqın asayişini qoruya bildi. Dəfələrlə düşmənlə ağır döyüşlərə girmiş və düşmənin müqavimətini sındıra bilmişdi. Oktay 1993-cü ilin avqust ayında erməni işğalçılarına qarşı döyüşdə ağır yaralanmış və hərbi hospitalda müalicə olunub sağalmışdı. O, sağaldıqdan sonra da yoldaşları ilə birlikdə həmişə cəbhənin ön sıralarında döyüşmüşdü. Oktay doğma kəndinin işğalından sonra DİN-nin Füzuli rayon şöbəsində öz işini davam etdirmiş və düşmənə qarşı döyüşlərdə həmişə fəal olmuşdu. Oktayın peşəsinə vurğunluğu, onun xalq arasında olan hörməti, rəhbərliyin diqqətini özünə cəlb

etmiş, o hüquqi təhsilini artırmaq üçün Füzuli rayon polis şöbəsindən təyinatla Azərbaycan Polis Akademiyasına oxumağa göndərilmişdi. Oktay Qurbanov Azərbaycan Polis Akademiyasını bitirdikdən sonra müxtəlif rayonlarda sahə rəisi, bölmə rəisi, və rəis müavini vəzifəsinə qədər yüksəlmişdi. Oktay hal-hazırda polkovnik-leytenant rütbəsində Beyləqan rayon Polis şöbəsində rəis müavini vəzifəsində çalışır. Oktay Talıbxanlı tayfasından ana qohumlarından olan tanınmış ziyalı və ağsaqqal, Aydın Cəfərovun qızı Tahirə xanımla ailə həyatı qurubdu. Onun həyat yoldaşı Tahirə xanım da ali təhsilli pedaqoqdur. O, Nəsrəddin Tusi adına Dövlət Pedaqoji İnstitutunun ibtidai metodika fakültəsini bitiribdi. Bu cütlükdən onların iki oğlu dünyaya gəlibdi.

Oğlanları: Cavid, Mətin.

Cavid Azərbaycan Turizm və Menecment Universitetinin axırıncı kursunda təhsil alır. Mətin isə orta məktəb şagirdidir.

Mübariz, Tuğ kəndində anadan olub və bu kənddə böyüyüb. O, yaxın qohumu Sadayın qızı Hürzad xanımla evlidir, onların Kənan və Elnarə adlı iki övladı var.

**Firuzə** Paşa qızı, Budaqlı Müseyib kişinin həyat yoldaşıdır. Onun övladları haqqında Təhməzli tirəsində ətraflı məlumat veriləcək.

**Qəmizə** Paşa qızı, ailənin kiçik qızıdır. Qəmizə Tuğ kəndində Sərdarla ailə həyatı qurub. Onların dörd oğlu, iki qızları olub.

Oğlanları: Ramiz, Nəsimi, Seyfəddin, Ələddin (Bayram), qızları: Anaş, Ramilə.

Sərdar (1930-2004) kişi Tuğ kəndində yaşadığı müddətdə maldarlıqla məşğul olub. O, cəsarətli, həm də elinin, obasının

qeyrətini çəkən kişi olub. Sərdar, doğma Tuğ kəndi işğal olduqdan sonra Beyləqan şəhərində məskunlaşdı. Çoxları kimi o da doğma Tuğ kəndinin erməni işğalçılarının tapdağı altında qalması itkisinə dözə bilmədi. Sərdar kişi 2004-cü ildə Beyləqan şəhərində rəhmətə gedib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdu.

**Ramiz** Sərdar oğlu, 1957-ci ildə Xocavənd rayon Tuğ kəndində anadan olub. O Tuğ kənd orta məktəbini bitirdikdən sonra Sumqayıt Politexnik Teknikumunun Sənaye və Mülkü Tikinti fakültəsini bitirib, tikinti mühəndisi kimi əmək fəaliyyətinə başlayıb. Ramiz bir müddət yol idarəsində iş icraçısı, mühəndis, baş mühəndis, idarə müdiri vəzifələrində çalışıb. Qarabağın işğalından sonra İcra Hakiminin Tuğ kəndində icra nümayəndəsinin müavini vəzifəsində uzun müddət çalışıb. Ramiz müəllim həm ziyalı kimi, həm də idarəçiliyi bacaran mütəxəssis kimi el içində özünə hörmət qazanmış insanlardandır.

Ramiz Sərdar oğlu, yaxın qohumu Barat kişinin qızı Rəfiqə xanımla evlənib ailə qurubdu. Onların iki oğlu var.

Oğlu: Fariz, Fuad.

**Fariz** Ramiz oğlu, bir müddət Xocavənd rayon ƏƏSM mərkəzində dövlət qulluğunda çalışdı. Üzərinə düşən işin öhdəsindən gələn bir mütəxəssis kimi tanındı. Fariz, Ağdam rayon sakini Nuranə xanımla ailə qurub, onun Zəhra və Banu adlı iki gül qız balası var. Fariz hazırda Bakı şəhərində yaşayır və bizneslə məşğuldu.

**Fuad** Ramiz oğlu, uşaqlıqdan musiqi ilə məşğul olan, bir neçə musiqi alətində ifa etməyi bacaran sənətkardı. O, televizor ekranlarında tez-tez görünən ifaçılardandı. Fuad, Yaxın qohumu Fazilin övladlığa götürüb saxladığı qızı Günay xa-

nımla ailəlidir. Bu cütlüyün Azalya və Melisa adlı iki övladı var. Fuad Bakı şəhərində yaşayır.

**Nəsimi** Sərdar oğlu, 1962-ci ildə Tuğ kəndində anadan olub. Orta məktəbi bitirib, hərbi xidmətini sovet ordusu sıralarında başa vurub, ailəsinə qayıdıb. Nəsimi 1984-cü ildə 22 yaşında qəflətən çox gənc yaşında dünyasını dəyişib. Onun cənazəsi Tuğ kənd qəbirstanlığında dəfn olunub.

**Seyfəddin** Sərdar oğlu, ailənin üçüncü oğludu. O, Tuğ kəndində doğulub boya, başa çatıb. Seyfəddin, Dağlıq Qarabağ münaqişəsi başlandığı gündən könüllü olaraq Özünü Müdafiə Batalyonunda erməni birləşmələrinə qarşı amansız olub. Tuğ kəndi rayon statusu aldıqdan sanra, keçmiş Tuğ rayon polis şobəsində polis nəfəri kimi əmək fəaliyyətinə başlayıb. Seyfəddin polis işlədiyi dövrlərdə dəfələrlə ağır döyüşlərin iştirakçısı olub. O, kəndin işğalından sonra da bir müddət polis sıralarında döyüş bölgələrində olurdu. Seyfəddin, yaxın qohumu Familə xanımla evlənib, ailə qurubdu. Onların Fərid və Səbuhi adlı iki oğlanları dünyaya gəlib. Fərid, İqtisad Universitetini bitirib, iqtisadçıdır. Səbuhi, ADA-nın ingilis dili fakültəsini bitirib. Seyfəddin hazırda Bakı şəhərində yaşayır.

**Ələddin** (Bayram) Sərdar oğlu, sürücü peşəsində çalışır. O, ailənin son beşiyidir. Ələddin, Veysəlli kənd sakini Rüxsarə xanımla ailə qurubdu. Onların Sənan və Cavidan adlı iki oğlu dünyaya gəlib. Sənan, Azərbaycan İqtisad Universitetinin maliyyə- kredit fakültəsini bitirib, ali təhsilli iqtisadçıdır. Ələddin Xocavənd rayon qəsəbəsində yaşayır.

Sərdarın böyük qızı Anaş, xalası oğlu Zakirin həyat yoldaşıdı, iki övladı var. Sərdarın ikinci qızı Ramilə xanım, həm-

kəndlisi Nazimlə ailəlidir, onların Aişən, Nahid adlı iki övladları var.

**Mehdiyev Salman Mehdi oğlu** (1880-1951), Kərbəlayı Mehdinin oğludur. O, Budaqlı elatında dünyaya göz açıb və bu mahalda yaşayıbdır. Salman, ilk olaraq Bünyadlı tayfasından Şirin adlı qadınla ailə qurmuşdu. Bu cütlükdən onun Gözəl (1913-1986) adlı qızı olub. Şirin ikinci uşağı dünyaya gətirən zaman uşaqla birlikdə dünyasını dəyişmişdi. Salman kişi ikinci dəfə Sisyan rayonunun Qızılcıq kəndində Həsənqulunun qızı Gülarə (1898-1981) ilə evlənib, bu cütlükdən isə üç oğlu, iki qızı olub.



Oğlanları: Mətləb, Fərman (Fərmayıl), İnqilab, qızları: Sitarə, Səmayə.

Salman kişi qaçaq dəstəsində olub. O, uzun müddət qaçaq Qardaşxanın dəstəsində qaçaqlıq edib. Buna görə də o gec evlənmişdi. Salman kişi məşhur ovçu olmuşdu. O, ovçular birliyinin üzvü olmuş, birliyin üzvü olmaqla patronu, qırmanı, barıtı da dövlətdən alırmış. Ömrünün sonuna qədər də bu işlə məşğul olmuşdu. O, ova gedən zaman 10-15 ceyran balasını tutub evə gətirmiş, onları əhilləşdirmişdi. Əl ceyranları qapıda sürü kimi yatışarmış. Salman kişi ikinci dəfə evlənəndə həyat yoldaşının yanında bir qızı gəlmişdi ki, onun adı Sə-

məriyyə idi. Salman kişi bu qızı əmisi Qəhrəmanın oğlu Əbilə ərə vermişdi.

Təxminən 1935-ci ildə rəhbərlikdən Hacı Qasıma bildiriblər ki, M.C.Bağırov yoldaş deyib ki, Hacıya çatdırın mənə iki ədəd ceyran vurdurub göndərsin. Amma ceyranlar bir yaşından aşağı olsun. Hacı Qasım qohumu Salman kişiyə tapşırıq verir ki, iki ceyran vurub gətirsin. Ceyranın yaşına fikir versin ki, bir yaşdan aşağı olsun. 2018-ci ildə doxsan yaşında rəhmətə getmiş Salman kişinin oğlu Fərmayıl, söhbət edirdi ki, atam məni də özü ilə götürdü, ceyran vurmağa getdik. Onlar "Şirin Qum" tərəfə ova çıxıblar. Salman kişi bərədə yatıb gözləyir, Fərmayıl isə kənardan ceyranları atası olan pusquya sarı qovmağa başlayır. Salman kişiyə çatan təklənmiş bir ceyran dayanıb Salman kişiyə baxır. Salman kişi ceyranı nişana alıb atmaq istəyəndə dayanıb atmır. Yenidən kişi birdə nişan alıb, yenə ata bilmir. Ceyran yavaş-yavaş bir yekə yulğun kolunun altına gəlir. Fərmayıl çatır atasına deyir:

- Ata, bir elə əziyyət çəkmişəm, ceyranı üstünə gətirmişəm niyə vurmadın?

Salman kişi cibindən dəsmalın çıxardıb alnını, gözlərini silib dedi:

- Oğul, nişan aldım atmaq istəyəndə ceyran qadın oldu, atəş aça bilmədim, ikinci dəfə yenə nişan aldım, yenə ceyran qadına döndü. Mən bu işə məəttəl qalmışam, özümə gələ bilmirəm. Ömrüm boyu ovçuluq etmişəm, belə işlərə rast gəlməmişəm. Tüfəngini götürüb bərədən çıxıb deyir:

- Oğul, ceyran getdi o tək yulğunun dibinə, gedək ora baxaq.

Onlar gəlib yulğuna çatanda görürlər ceyranın təzə doğulmuş iki balası var. Salman kişi deyir:

- Oğul, indi başa düşdüm ki, ceyran təzə bala doğduğuna görə o mənim gözümə mələk donunda görünmüşdü, yaxşı ki atəş açmadım, bunu heç zaman özümə bağışlaya bilməzdim.

Salman kişi əlini göyə açıb salavat verib:

- İlahi, qurban olum sənin dərgahına, ömrümün ahıl çağında günaha batacaqdım. Tanrı, ceyranı mənim gözümə mələk donunda göstərdi.

Onlar ceyranın balalarına da toxunmadan uzaqlaşırlar. Axşam iki ceyran vurub gətirib Hacı Qasıma verdilər. Hacı Qasım isə həmin ceyranları M.C.Bağırova göndərmişdi.

**Gözəl Salman qızı** (1913-1986), Salman kişinin birinci həyat yoldaşı olmuş Şirin xanımdan doğulub. Gözəl böyüdükdən sonra Budaqlı tayfasında yaşayan, əslən Cənubi Azərbaycandan gəlmiş Xasay kişiylə ailə qurublar və ömürlərinin sonuna qədər Budaqlı tayfasında yasamışdılar. Bu cütlükdən onların üç oğlu, bir qızı olubdu.

Oğlanları: Sabir, Qara, Zahid, qızı: Osandıq.

**Sabir Xasay oğlu**, Budaqlı elatında anadan olub. Böyüdükdən sonra Beyləqan rayonuna köçüb və sürücü peşəsində çalışıbdı. Sabir xalası Sitarənin böyük qızı Zəriş xanımla ailə qurub, onların üç oğlu, iki qızı anadan olub. Oğlanları: Müşfiq, Elçin, Xasay və qızları: Xatirə, Nahidə. Sabir ailəsi ilə birlikdə Bakı şəhəri, Kürdəxanı qəsəbəsində yaşayır. Sabir göründüyü kimi kiçik oğluna atası Xasayın adını qoyub.

**Nəsirov Qara Xasay oğlu**, Dilağarda qızı Pəri xanımla evlənib, onların Mübariz, Elşən, Eldəniz, Elnur adlı dörd oğlu və Vəfa adlı bir qızı anadan olubdu. Qaranın böyük oğlu Mübariz, əmisi Sabirin qızı Xatirə ilə evlənib ailə qurubdu. Onların Pərviz adlı bir oğlu olubdu. Ancaq Mübariz ailəsindən

ayrılıb və Beyləqan rayon Xalac kəndindən bir xanımla yenidən ailə qurub, Rusiya Federasiyasında yaşayır.

**Eldəniz** Qara oğlu, Beyləqan şəhərində doğulub, 1-saylı tam orta məktəbi bitiribdi. Eldəniz, Beyləqan rayon "Təzəkənd" kənd sakini Məlahət xanımla ailə həyatı qurub. Onların dörd övladı olub: oğlu Qara, qızları Gülbəniz, Aybəniz, Aytən. Eldənizin yoldaşı Məlahət xanım 2009-cu ildə dünyasını dəyişibdi. Eldəniz ikinci dəfə Beyləqan rayon "Qaradağlı" kənd sakini Yasəmən xanımla ailə qurub, ancaq bu xanımdan övladı olmayıb. Anasız qalan körpələrin böyüməsində Yasəmən xanımın böyük xidmətləri olmuşdu.

**Nəsirov Qara Eldəniz** oğlu,1999-cu ildə Beyləqan şəhərində anadan olub, əmisinin adını daşıyan Elşən Nəsirov adına tam orta məktəbi bitirib. Azərbaycan ordusunda həqiqi hərbi xidmət borcunu yerinə yetirib. Qara, II Qarabağ müharibəsi başladıqda könüllü olaraq döyüşə qatıldı və ağır döyüş yolları keçdi. Qara, Füzuli, Cəbrayıl Xocavənd döyüşlərində qəhrəman əsgər kimi vuruşdu və Daşaltı uğrunda gedən 07.11.2020-ci ildə döyüşdə qəhrəmancasına şəhid oldu. İgid şəhidimiz 09.11.2020-ci ildə Peyğəmbər ziyarətgahı, Şəhidlər Xiyabanında dəfn olunub.

Eldənizin qızları Gülbəniz, Vüsal adlı oğlanla ailə qurub, Bakıda yaşayır. Aybəniz, Beyləqan rayon "Çəmənli" kənd sakini Ülvü adlı oğlanla ailəlidir, iki qızı, bir oğlu var. Aytən, Beyləqan şəhər sakini Rahil ilə evlidi, bir oğlu var.

**Elnur** Qara oğlu, Beyləqan rayon "Çəmənli" kənd sakini Ağca xanımla ailə qurub. Onların Elşən adlı oğlu, Aysu adlı qızı dünyaya gəlib. Elnur oğluna şəhid qardaşı Elşənin adını qoyubdu. Uşaqlar azyaşlıdı, Beyləqan şəhərində yaşayırlar.

**Elşən Qara oğlu**, 18 aprel 1968-ci ildə Beyləqan şəhərində anadan olmuş, Beyləqan şəhər I saylı tam orta məktəbi bitirmiş, sovet ordusu sıralarında hərbi xidmət etmişdi. Dağlıq Qarabağ münaqişəsi başlayan vaxt könüllü olaraq hərbi xidmətə getmişdi. Elşən Yuxarı Veysəlli, Qacar, Divanallar kəndlərinin müdafiəsində iştirak etmiş və Füzuli rayon Qacar kəndi uğrunda gedən döyüş zamanı 18.04.1993-cü ildə şəhid olmuşdu. Elşən Cərcis Peyğəmbər qəbirstanlığında dəfn olunmuşdu. Elşən Nanə adlı xanımla ailə qurub, Pəri adlı qızı yadigar qalıb. Hazırda Beyləqan rayon 5 nömrəli tam orta məktəb şəhid Elşən Nəsirovun adını daşıyır.

**Zahid Xasay** oğlu, Budaqlı tayfasında anadan olub. Zahid, Azərbaycan Pedaqoji İnstitutunu bitirib və Budaqlının ilk ziyalılarından biridir. Zahid müəllim uzun müddət Beyləqan şəhər 1 saylı tam orta məktəbində müəllim, son illərdə isə təhsil şöbəsində azyaşlılar üzrə metodist vəzifəsində çalışmışdı. Zahid müəllim, xalası Səmayənin qızı Təzəgül (1952-1997) xanımla evlənib ailə qurub, Beyləqan şəhərində yaşayıbar. Onların dörd oğlu: Cahid, Məhəmməd, Nahid, Rəşad və ekiz iki qızları: Afət, Gözəl anadan olub.

Zahid müəllimin yoldaşı Təzəgül xanım 1997-ci ildə rəhmətə getmiş, Peyğəmbər ziyarətgahı qəbirstanlığında doğmalarının yanında dəfn olunmuşdu.

Cahid 1975-ci ildə Beyləqan şəhərində anadan olub və uşaq vaxtı 8 yaşında qəflətən dünyasını dəyişib. Cərcis Peyğəmbər qəbirstanlığında dəfn olunub.

Zahid müəllim ikinci dəfə Beyləqanın Qaralılar kəndindən Nəzakət xanımla evlənmiş, onların İbrahim adlı bir oğlu var.

Məhəmməd Zahid oğlu, Beyləqan rayon Qaralılar kəndindən Dilarə xanımla evlənib, üç övladı dünyaya gəlib. Qızları:

Təzəgül, Könül, oğlu: Cahid. Məhəmməd böyük qızına anası Təzəgülün, oğluna isə rəhmətə getmiş qardaşı Cahidin adını qoyubdu.

Zahid müəllimin oğlu Rəşad evlidir, Rusiya Federasiyasında yaşayır. Digər qızları: Gözəl əmisi oğlu Pərvizlə, Afət isə dayısı İsrayılın oğlu ilə ailəlidir.

**Osandıq** Xasay qızı, Beyləqan rayon Bolsulu kəndində Taryel adlı kişiylə ailə qurub, onların iki qızı, iki oğlu var. Qızları: Günel, Günay oğlanları: Cavid, Aqil. Onlar Bolsulu kəndində yaşayırlar. Onun həyat yoldaşı Taryel dünyasını dəyişib.

**Mətləb Salman oğlu**, (1924-2005) Budaqlı tayfasında dünyaya göz açıbdı. O, Budaqlı kolxozu dağılandan sonra yeni yaranmış İmişli rayonu Əliqulular kəndində yaşamışdır. Mətləb, mexanizator kursu keçmiş və uzun müddət yaşadığı kənddə mexannik vəzifəsini icra etmişdi. Mətləb də başqa həmkəndliləri kimi 1960-cı ildən sonra kənd həyatına qayıtdı.



***Ortada Mətləb, sağda həyat yoldaşı Şəkura, solda qohumu Bilul.***

1951-ci ildə kolxozlar birləşəndən sonra köçəri tayfaların bir hissəsi ev tikib, kənddə məskunlaşdılar. Mətləbin atası Salman kişi öz sağlığında onu Zalın nəvəsi, Ədilin qızı Şamayılla evləndirmişdi. Onların iki qızları anadan olub.
Qızları: Gülizar, Simuzər.

Gülizar ana qohumu olan Balaqardaşla ailə həyatı qurub və nəvə, nəticələri Beyləqan rayonu Dünyamalılar kəndində yaşayırlar.

Simuzər (1952-2019), Beyləqan şəhərində Maşallah adlı kişiylə ailə həyatı qurubdu. Onların dörd oğlu Xəqani, Fizuli, Nizami və Sinasib anadan doğulublar. Simuzər övladları ilə birlikdə Beyləqan şəhərində yaşayırlar. Simuzər 2019-cu ildə Beyləqan şəhərində rəhmətə gedib və Cərcis Peyğəmbər qəbirstanlığında həyat yoldaşının yanında dəfn olunub. Gülizar, ana qohumu Balaqardaşın həyat yoldaşıdı.

Mətləbin həyat yoldaşı Şamayıl çox erkən həyatdan köçmüşdür. Mətləb ikinci dəfə Tatalılar tayfasından Cəlilin qızı Şəkura xanımla ailə həyatı qurmuşdu. Onun ikinci həyat yoldaşı Şəkuradan üç oğlu, iki qızı olubdur.
Oğlanları Firdovsi, Vidadi, Namiq, qızları: Arzu, Rahilə.

Mətləb, 1975-ci ildə Beyləqan şəhərinə köçmüşdür. O, tikinti idarəsində anbardar və xəzinədar vəzifələrində işləmişdi. Mətləb 2005-ci ildə Beyləqan şəhərində rəhmətə getmiş və Cərcis Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunmuşdur. Mətləbin böyük oğlu Firdovsi (1961-2015) Beyləqan şəhərində tikinti Trestində uzun müddət sürücü işləmişdir.

Firdovsi Mətləb oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub. Orta məktəbi Beyləqan şəhərində bitirib. Firdovsi, öz əmisi İnqilab müəllimin böyük qızı Esmira xanımla ailə qurmuş, onların iki oğlu Cəlil və Mətləb anadan olubdur.

Mətləbin adını nəvəsi Mətləb yaşadır. Onlar Bakı şəhərində yaşayırlar. Firdovsi 2015-ci ildə Beyləqan şəhərində dünyasını dəyişib və atasının yanında dəfn olunubdur.

Vidadi Mətləb oğlu, Füzuli rayon Əhmədbəyli kəndindən Xuraman adlı xanımla ailə qurub, Beyləqan şəhərində yaşayır. Onların Şəkurə və Gülşən adlı iki qızları var.

Namiq Mətləb oğlu, Beyləqan rayon Tatalılar kəndindən ana qohumu Sahibə adlı xanımla ailəlidir. Bu cütlüyün Ayşən və Aydan adlı iki qızı var. Namiq ailəsi ilə birlikdə Rusiya Federasiyasında yaşayır.



*Fərmayıl, həyat yoldaşı Rəfiqə*

**Fərmayıl** Salman oğlu (1930-2018), Budaqlı elatında doğulub və Budaqlı tayfasında yaşamışdı. O, kolxoz yaranandan kolxozçu, arabaçı sonralar isə mexanizator işləmişdi. Fərmayıl ata qohumu Məhəmməd kişinin qızı Rəfiqə xanımla ailə qurmuşdu. O, yaxşı mexanizator olmaqla yanaşı, onda həm

də yaxşı ovçuluq məharəti var idi. Çünki, Fərmayıla bu peşə atası Salman kişidən keçmişdi. Fərmayıl atası ilə həmişə ova getmiş, ov ovlamışdı. Fərmayıl 1982-ci ilə qədər İmişli rayonu Əliqulular kəndində yaşamış və həmin ildən sonra Beyləqan rayon Yeni Mil qəsəbəsinə köçmüşdür. Fərmayılın həyat yoldaşı Rəfiqə xanım 2011-ci ildə rəhmətə getmiş, Cərcis Peyğəmbər qəbirstanlığında dəfn olunub.

Oğlanları: Rasim, Ramiz, Salman, Əlif, Tahir, Mahir, qızı Şükufə.

**Mehdiyev Rasim** Fərmayıl oğlu, 1956-cı ildə İmişli rayon Əliqulular kəndində anadan olub. O, ali təhsilli iqtisadçı olmaqla Mil qəsəbəsində Bələdiyyə sədri işləyir. O, sovet dövründən başlayaraq uzun müddət iaşə birliyində yeməkxana müdiri vəzifəsində çalışıbdır. Rasim idarəçiliyi və təşkilatçılığı bacaran bir ziyalı olmaqla, həm də xeyriyyəçi bir insandır. O, dəfələrlə orduya yardım etmiş, əsgər yataqxanalarının tikilməsində köməklik etmişdi. Yaşadığı Yeni Mil qəsəbəsinə su çəkdirib və yol saldırmışdı. O, bu gün də öz xeyriyyəçi əməllərini davam etdirir. Rasim həmişə el-obanın xeyir-şərində yaxından iştirak etməklə öz köməyini əsirgəməyib. O, Beyləqan şəhərində yaşayan, Kəbirli tayfasından olan Mənsurə (1960-2020) xanımla, ailə həyatı qurubdur. Onun həyat yoldaşı Mənsurə xanım da ali təhsilli mühəndis idi. Onların üç qızları dünyaya gəlibdir.



Qızları: Nərminə, Gülarə, Fərqanə.

Qızların hər üçü ali təhsillidir, pedaqoji təhsil alıblar, ailəlidirlər və övladları var. Nərminə Ağcabədi rayon Muğanlı kənd sakini Novruzun oğlu Pərvizlə evlidir, Əli adlı oğlu var. Gülarə Kürdəmir rayon sakini atasının yaxın dostu Şirastan müəllimin oğlu Pərvizlə ailə qurub, onların üç oğlu: Sadiq, Sahil, Nurlan anadan olub və bakı şəhərində yaşayırlar

Gülarənin həyat yoldaşı Pərviz, 2020-ci ildə Bakı şəhərində qəflətən dünyasını dəyişmişdi. Kiçik qızı Fərqanə əmisi Əlifin oğlu Xəyalla evlidir və Dəniz adlı qızları var. O, ata ocağında, atasının yanında yaşayır. Rasimin həyat yoldaşı Mənsurə xanım, 22 dekabr 2020-ci ildə qəflətən dünyasını dəyişmiş və Peyğəmbər qəbirstanlığında əzizlərinin yanında dəfn olunub.

**Mehdiyev Ramiz Fərmayıl oğlu** (1957-1993), 1957-ci ildə İmişli rayon Əliqulular kəndində anadan olub və Əliqulular kənd orta məktəbini bitirib. Sovet ordu sıralarında xidmətini başa vurubdu. O, Birinci Qarabağ Müharibəsi başlandığı ilk gündən könüllü olaraq döyüşlərdə iştirak etmişdir. Ramiz iki dəfə düşmən mühasirəsinə düşməsinə baxmayaraq, döyüş yoldaşları ilə mühasirəni yarıb çıxa bilmişdilər. Ramiz ata qohumu olan Sisyan rayon Qızılcıq kəndindən Kərəmin qızı Nazilə xanım ilə ailə həyatı qurmuş və onların dörd övladları dünyaya göz açmışdı.

Oğlanları: Teymur, Seymur, qızları: Nataşa, Gülnar.
Ramiz, dörd uşağı olmasına baxmayaraq, həmişə döyüşə qatılmış və ön cəbhədə vuruşmuşdu. O zaman dörd uşaqlı döyüşçüləri ordudan tərxis edirdilər. Ancaq, o deyirdi:- Atamın altı oğlu var, bunlardan biri Vətən yolunda getməli deyil? O, yolundan dönmədi Vətən yolunda, torpaq uğrunda öz canını

1993-cü ildə fəda etdi, şəhid oldu. Onun nəvəsi Ramiz, şəhid babasının adını daşıyır. Övladlarının dördü də ailəlidir, Bakı şəhərində yaşayır.

**Teymur** Ramiz oğlu, atasının yaxın dostu Şakirin qızı Gülü xanımla evlidir. Onların Ramiz və Aysu adlı övladları var. Teymur Bakı şəhərində yaşayır. Teymurun oğlu Ramiz 27 sentyabr 2020-ci il tarixdə Qarabağ və ətraf rayonların işğaldan azad olunması uğrunda gedən döyüşlərdə düşmənə qarşı döyüşmüşdü.

Seymur Ramiz oğlu, xalası qızı Nəzakət xanımla ailə qurub üç övladı doğulub. Oğlu: Ramal, Sultan, qızı: Ramilə. Seymur ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

Ramizin qızları Nataşa və Günel ailəlidir, övladları var və Bakı şəhərində yaşayırlar.

**Salman Fərmayıl oğlu**, babası Salmanın adını daşıyır, İmişli rayon Əliqululular kəndində anadan olub. O, Mil qəsəbəsində yaşayır. Salman yaşadığı Mil qəsəbəsindən Suqra xanımla ailə qurub. Onun iki oğlu, bir qızı var. Oğlanları Zahir və Elnur müddətdən artıq hərbiçidirlər. Zahir, ata qohumu Əlinin qızı Aygün xanımla, Elnur isə bibisi Şükufə xanımın qızı Günay xanımla ailə qurub, övladları var. Zahir və Elnur hər ikisi ön cəbhədə xidmət edirlər. Hər iki qardaş Zahir və Elnur 27 sentyabr 2020-ci il tarixdə başlanmış Qarabağ və ətraf rayonların işğaldan azad olunması uğrunda gedən döyüşlərin ön cəbhəsində düşmənə qarşı vuruşublar.

Salmanın qızı Toma ailəlidir və övladları var.

**Əlif Fərmayıl oğlu,** İmişli rayon Əliqululular kəndində anadan olub və orta təhsilini həmin kənddə alıb. Əlif valideynləri ilə birlikdə köçüb, Beyləqan rayon Mil qəsəbəsində məskunlaşıbdı. Əlif ata qohumu Flora xanımla ailə qurub və on-

ların iki oğlu: Səbuhi, Xəyal və bir qızı: Xəyalə anadan doğulubdu. Böyük oğlu Səbuhi qan qohumu İlhamə xanımla evlənib ailə qurublar və Hüseyn adlı oğlu, Zeynəb adlı bir qızları var. Bakı şəhərində yaşayırlar. İkinci oğlu Xəyal isə əmisi qızı Fərqanə xanımla ailəlidir, Dəniz adlı bir qızları var. Əmisi Rasimlə bir ailədə yaşayırlar.

**Tahir Fərmayıl oğlu**, qardaşı Mahirlə İmişli rayon Əliqululular kəndində əkiz doğulublar. Onlar da ailə üzvləri ilə birlikdə Beyləqan rayon Mil qəsəbəsinə köçüblər. Tahir, yaxın qohumu Fazilin qızı Günay xanımla evlənib ailə qurubdu. Onların Fərmayıl adlı oğlu və Ayşən adlı qızları dünyaya gəlibdi. Tahir və Mahir əkiz qardaşların toyları da eyni gündə olubdu. Əkiz qardaşlar, həm də oxşar əkizlərdi. Onlar orta məktəbdə oxuyan vaxtı biri yaxşı oxuyardı, ikincisi isə bir az zəif olub. Əkizlər bir-birini yaxşı başa düşürdülər. Eyni partada qoşa oturan əkizlərdən Mahir dərs danışmağa çıxanda, qayıdan zaman əks tərəfdən gəlib otururmuş. Müəllim Tahiri çağıranda yenə Mahir gedirmiş. Məktəbin direktoru Mütəllim müəllim ekizləri tərifləyir ki, hər ikisi çox fəaldı, yaxşı oxuyurlar, çalışqan şagirdlərdi. Bu zaman uşaqların biri deyir ki,




**Salman və Tahir şəhid qardaşları Ramizin qəbri üstündə.**




*Əkiz qardaşlar Tahir, Mahir*

- Müəllim, Tahir yaxşı oxumur, həmişə Tahirin də yerinə Mahir çıxıb dərs danışır.

Mütəllim müəllim növbəti dərs vaxtı Mahiri çağırır dərs danışmağa. Mahir də dərsi yaxşı danışır. Deyir:

- Mahir, sən qabaqda dur , Tahir gəlsin dərs danışsın.

Tahir dərsi danışa bilmir, uşaqların sirrinin üstü açılır. Tahir, birinci Qarabağ döyüşlərində döyüşüb və Qarabağ qazisidir.

**Mahir Fərmayıl oğlu**, orta məktəbi Beyləqan rayon Mil qəsəbəsində bitiribdi. Füzuli rayon Dilağarda kəndində yaşayan Vaqifin qızı İlhamə xanımla evlənib, onların Azər adlı bir oğlu və Rəfiqə adlı bir qızı anadan olubdu. Mahirin oğlu Azər gənc idmançıydı, çox heyif ki, on beş yaşında çox erkən dünyasını dəyişdi. Azər Peyğəmbər ziyarətgahı qəbirstanlığında nənəsinin yanında dəfn olunub. Mahir qızına anasının

adını qoyubdu. Mahirin həyat yoldaşı İlhamə xanım ali təhsilli müəllimədir, orta məktəbdə dərs deyir. Mahir könüllü olaraq birinci Qarabağ müharibəsinə getmiş və ağır döyüş yolları keçmişdi. Ramiz, Tahir və Mahir üç qardaş bir batalyonda döyüşürdülər. Böyük qardaşları Ramiz döyüş vaxtı yanlarında şəhid olmuşdu. Fərmayılın yeganə qızı Şükufə xanım ana qohumu Qulu ilə ailəlidir.



*İnqilab, həyat yoldaşı Raya*

**İnqilab Salman oğlu**, ailənin kiçik oğludu. O, 1940-cı ildə İmişli rayonu Budaqlı kəndində anadan olub. İnqilab Budaqlı elatının ilk ziyalılarından biridir. O, Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib və sayılan ziyalılardan olubdu. Əliqulular kəndində yaşamış və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. İnqilab müəllim el-obada sayılıb seçilən və yüksək

hörmətə malik olan bir insandır. O, Əliqulular kənd orta məktəbində müəllim, tədris hissə müdiri və həmin kəndin sovet sədri vəzifələrində çalışıb. İnqilab müəllim həm də şair-publisistdir. Onun İnqilab Miskin təxəllüsü altında iki şeirlər kitabı “Ömür Yolu” və “Sənsiz Günlərim” adlı kitabları nəşr olunmuşdur.

İnqilab müəllim, 1985–ci ildən sonra Beyləqan rayon “Yeni Mil” qəsəbəsinə köçüb qardaşı Fərmayıl ilə qonşu yaşayır. O, Beyləqana köçdükdən sonra çörək zavodunun direktoru, Təhsil nazirliyinin balansında olan avtomobil bazasının direktoru, Texniki Peşə məktəbində müəllim və digər vəzifələrdə çalışmışdı. İnqilab müəllim, DQMV-nin Tuğ kəndindən Barat kişinin qızı Raya xanımla ailə həyatı qurmuş və onların iki oğlu, iki qızı dünyaya gəlmişdi.

Oğlanları: Vüqar, Anar, qızları: Esmira, Ramilə.

Vüqar hərbi xidmətini başa vurduqdan sonra Bakı şəhərinə köçüb, DİN-nin Mütəşəkkil Cinayətkarlara Qarşı Mübarizə İdarəsində polis nəfəri kimi fəaliyyətə başlamışdı. O, bacarıq və qabiliyyətinə görə dəfələrlə rəhbərlik tərəfindən Fəxri-Fərmana layiq görülübdü. Vüqar Sisyan rayon Qızılcıq kəndindən ata qohumu Qabilin qızı Roza xanımla ailə həyatı qurub, Nicat və Könül adlı övladları dünyaya gəlib. Könül ailə qurub, Bakı şəhərində yaşayır. Oğlu Nicat, Ukraynada Xarkov Fövqəladə Hallar Akademiyasında qiyabi təhsil almaqla yanaşı, Bakı Fövqəladə Hallar Nazirliyində çalışır.

Anar, İnqilab müəllimin kiçik oğludu və bir ailədə yaşayırlar. Anar xalası qızı Fərqanə xanımla evlənib, bir oğlu Nihad, qızı Raya anadan doğulub. Uşaqlar məktəblidi.

İnqilab müəllimin qızları Esmira, əmisi oğlu Firdovsinin, ikinci qızı Ramilə yaxın qohumu Əlikramın həyat yoldaşıdı və övladları var.

**Sitarə** Salman qızı: (1926-1973) Tərəkəmə elatında qonşu Talıbxanlı tayfasından Qurban (1922-1986) kişi ilə evlənib, ailə qurmuşdu. Onlar uzun müddət Beyləqan rayonu Qəhrəmanlı qəsəbəsində yaşamışdılar. Sitarə və həyat yoldaşı Qurban yaşadıqları kənddə rəhmətə gediblər, həmin kəndin qəbirstanlığında dəfn olunublar. Sitarənin dörd oğlu, dörd qızı olubdur.

Oğlanları: Cavanşir, İsmayıl, Mürşüd, İlham, qızları: Zəriş, Zərnişan, Raya, Narınc.

Sitarənin övladları Bakı şəhər Kürdəxanı qəsəbəsində yaşayırlar.

**Səmayə** Salman qızı: (1934-2013) Bacısının həyat yoldaşı Qurban kişinin qardaşı Niyazla (1924-2009) evlənmişdi. İki qardaş, iki bacı ilə ailə qurmuşdular. Onların dörd oğlu, üç qızı olmuşdu.

Oğlanları: Qardaşxan, Vaqif (rəhmətə gedib), İsrail, Rəfael.

Qızları: Təzəgül(rəhmətə gedib), Mülayim, İradə.

**Sayad**, Kərbəlayı Mehdinin qızı və Salman kişinin bacısıdır. Sayad Buludlu tayfasından Salman adlı bir kişiylə ailə həyatı qurmuş və Budaqlı tayfasının içində yaşamışdılar. Hətta Salman kişini hamı Mehdilər kimi tanıyırdı. Bu cütlüyün iki oğlu və iki qızı olub.

Oğlu: Hüseynalı, Süleyman, qızı: Zeynəb, Güllər.

Salmanın oğlu Süleyman ailə qurmamışdı. O, II Dünya Müharibəsinə getmiş və döyüş zamanı şəhid olmuşdu. Salman kişi rəhmətə gedəndən sonra, Hüseynalı kişi dayısı Salmanın

obasında yaşamışdı. Zeynəb, Məhərrəm adlı kişi ilə ailə qurub, övladları dünyaya gəlib və Muradxanlı kəndində yaşayıblar.

**Hüseynalı**, Salman kişinin bacısı Sayadın oğludur. Sayad, Kəlbəlayı Mehdinin səkkiz qızından dördüncü qızıdır. O, Buludlu tayfasından Salman adlı kişiylə ailə həyatı qurubdu. Salman gödək və yoğun olduğu üçün ona küp Salman deyərmişlər.



*Hüseynalı, oğlu Əsgər.*

Küp Salman Budaqlı tayfasında yaşayıb və Hacı Qasımın çobanı olubdu. Adamların çoxu Salmanı Budaqlı kimi tanıyıblar. Çünki, həmişə bu tayfanın içində yaşayıb. Küp Salmanın Sayaddan, oğlu Süleyman, Hüseynalı, iki qızı Zeynəb və Güllər anadan olubdu. Hüseynalı çox zəhimli adam olduğuna görə həmişə onun yolunu gətiriblər. Sözü üzə deyən kişi olub. O, ömrünün sonuna qədər babalarının yolunu davam etdirib, heyvandarlıqla məşğul olmuşdu.

Hüseynalı öz elatından Sehran xanımla ailə qurub, onların bir qızı olub. Hüseynalı kişi qızına anası Sayadın adını qo-

yub. Sehran uşaq dünyaya gətirən zaman rəhmətə gedib. Hüseynalı, ikinci dəfə atası tərəfdən Buludlu tayfasından Pərizad xanımla ailə qurub evlənib. Onun Pərizaddan qızı Bilul, oğlu Əsgər dünyaya gəlib. Bilul, Mehtilər Şavahətin oğlu Dərgahın həyat yoldaşı idi. Şavahət kişiylə Hüseynalı kişi doğma xala oğludurlar.

**Əsgər Hüseynalı oğlu** (1941-2011) Budaqlı tayfasında anadan doğulub. Əsgər həm tək oğul olduğu üçün, həm də öz xətir-hörmətinə görə Budaqlı tayfasında sevilən adam olub. Əsgər, Hacılı tayfasından Zülfiqarın qızı Gülarə (1941-2010) xanımla ailə qurublar. Onların altı övladı olub.

Oğlanları: Süleyman, Hüseynalı, Cəlal, qızları: Sevil, Almara, Pərizad.

**Süleyman**, İmişli rayon Muradxanlı kəndində anadan olub və əmisi Süleymanın adını yaşadır. O, Gəncə Texnologiya İnstitutunu bitirib, ixtisasca mühəndis-texnoloqdu. Süleyman Beyləqan şəhərində mühüm vəzifələrdə çalışıb. O, rayonun Bahar qəsəbəsində Şirastanın qızı Təranə xanımla ailə qurub. Onların oğlu Coşqun, qızı Günel dünyaya gəlib. Coşqun və Günel hər ikisi ali təhsillidir. Süleyman hazırda Rusiya Federasiyasında yaşayır.

**Hüseynalı** Əsgər oğlu, İmişli rayon Muradxanlı kəndində anadan doğulub, babasının adını daşıyır. Hüseynalı yaxın qohumu Ceyran xanımla ailəlidir. Onun biri əkiz olmaqla dörd övladı dünyaya göz açıb. Oğlu: Murad, qızları: Çinarə, Mədinə, Gülarə. Qızlardan Çinarə, Muradın ekiz tayıdır. Hüseynalı Beyləqan şəhərində yaşayır.

**Cəlal** Əsgər oğlu, İmişli rayon Muradxanlı kəndində anadan olub, hazırda Beyləqan şəhərində yaşayır. Onun öz şəxsi təsərrüfatı var, heyvandarlıqla məşğul olur. Cəlal yaxın qo-

humu Mirzəlinin qızı Elnarə xanımla ailəlidir. Elnarənin anası Nümunə, Kərbəlayı Şirinli Nəsibin qızıdı. Cəlalın Elçin, Saleh adlı oğlu və Mələk adlı bir qızı var.

Əsgərin qızları: Sevil Muradxanlı kəndində Ələddin həkimin həyat yoldaşıdır. Ələddin həkimin anası Səltənət xanım Budaqlının ilk kolxoz sədri Musa kişinin qızıdır. Bu cütlüyün üç oğlu, bir qızı var. Oğlanları: Bəxtiyar, Şəhriyar, Etibar qızı Aytac xanım. Sevilin oğlanlarının üçü də ali təhsillidir. Bu ailə Muradxanlı kəndində yaşayır. Almara, xalası oğlu Şəmsəddinlə ailəlidir, Günay, Sevda adlı qızları, Qarahüseyn, Elnur adlı iki oğlu var. Beyləqan şəhərində yaşayırlar. Pərizad, nənəsinin adını daşıyır, Cəbrayıl rayon sakini Nazirlə evlidir, onların Yunis, Lalə adlı iki övladları var.

Əsgər 2011-ci ildə, onun həyat yoldaşı Gülarə xanım 2010-cu ildə Beyləqan şəhərində dünyalarını dəyişib, Peyğəmbər ziyarətgahı qəbirstanlığında yanaşı dəfn olunublar.

**Tükaz**, Kərbəlayı Mehdinin qızı, Salman kişinin səkkiz bacısından beşincisidir. O, Mehdilər tirəsindən ata qohumu bibisi oğlu Ağadədə ilə ailə qurubdur. Ağadədənin atasının adı Yahya, anasının adı isə Hürzaddır. Yahyanın babasının adı da Ağadədə olubdu. Deyilənə görə Ağadədə naməlum səbəbdən itkin düşübdü. Şuşa şəhərində Ağadədəli məhləsi məhz bəy oğlu Ağadədənin adını daşıyır, O, Şuşalı Mehdiqulu xanın nəslindəndir. Yahyanın həyat yoldaşı Hürzad isə Mehdilər qızıdır, Kərbəlayı Mehdinin bacısıdır. Onların bir neçə övladları olub və uşaq yaşlarında dünyaların dəyişibdir. Yahyanın, qızı olanda onun adını Dursun qoyublar ki, bəlkə uşaq yaşaya. Dursundan sonra Ağadədə dünyaya gəlibdi. Yahyanın iki övladı qalıbdı:

**oğlu: Ağadədə,**

**qızı: Dursun.**

Ağadədə, Tükaz xanımla ailə qurub onların bir oğlu üç qızı olubdu.

**Ağadədə Yahya oğlu,** (1865-1906), qoçaq və igid adam olub. O, həmişə Hacı Qasımın yanında olub və onun heyvanlarına baxıb. Ağadədə həm də yaxşı atıcı olubdu. Ağadədə, Tükaz xanımla ailə qurub onların bir oğlu üç qızı olubdu.

Oğlu : Rəsul.

Qızları: Güldəstə, Tavad, Afayat**.**

Ağadədə, bacısı oğlu Məhəmmədi də uşaqlıqdan öz himayəsində saxlamış və bacısı Dursunu birinci həyat yoldaşı Tanrıverdi dünyasını dəyişdikdən sonra, ikinci dəfə Bünyadlı tayfasında Məmiş adlı bir kişiyə ərə vermişdi. Bir müddət keçdikdən sonra Ağadədə İrandan keçmiş quldurlar tərəfindən 1906-cı ildə el dağa gedən zaman qətlə yetirilmişdi. Məhəmmədin böyüməsində dayısı Ağadədənin, bibisi Tükazın və nənəsi Hürzadın böyük zəhməti olmuşdu. Ağadədə rəhmətə gedəndən sonra ailənin dolanışıq tərzi Məhəmmədin üzərinə düşmüşdür. Dayısı uşaqlarının böyüməsində Məhəmmədin böyük rolu olmuşdu. Dayısının böyük qızı Güldəstə (1898-1971) ilə evlənmiş, dayısının evində onun nəslinin davamçısı olmuşdu. Məhəmməd kişi, dayısı qızı Tavadı öz xalası oğlu Məmmədalıya ərə vermişdi ki, bu yuxarıda öz əksini tapmışdır.

Dayısının kiçik qızı Afayəti isə anadan bir qardaşı olan Həsrətə ərə vermişdi.

**Rəsul** Ağadədə oğlu (1900-1983), Mehdilər tirəsindən Salman kişinin bacısı oğludur. O, ailənin sonbeşiyidir. Atası öləndən sonra bibisi oğlu Məhəmmədin himayəsində böyü-

müşdu. Rəsul, Veysəlli Kazım bəyin qızı Durna xanımla ailə qurmuş onların beş oğlu, üç qızları anadan olmuşdu.



*Rəsul, həyat yoldaşı Dürrə*

Oğlanları: İmamverdi, Allahverdi, Ağaverdi, Kazım, Arif.

Qızları: Təzəgül, Ağgül, Validə, Gülzar.

Rəsul, digər qohumları kimi Budaqlı kolxozu dağılandan sonra, o da Dağlıq Qarabağa köçmüş Xocavənd rayon Keşkənd kəndində yaşamışdı. O, ailəsi ilə birlikdə üzümçülüklə məşğul olurdu. Onların məskunlaşdığı erməni kəndi Füzuli rayon Veysəlli kəndinə yaxınıydı. Rəsul kişi 1981-ci ildə rəhmətə getmiş və Aşağı Veysəlli kənd qəbirstanlığında oğlu İmamverdinin qəbri yanında dəfn olunmuşdur.

Rəsul, digər həmkəndliləri kimi II Dünya Müharibəsində iştirak edib. O, 1944-cü ildə ağır yaralandıqdan sonra hərbi xidmətdən tərxis olunmuş və arxa cəbhədə çalışmışdı.

Rəsul kişinin böyük qızı Təzəgül, öz bacısının kiçik oğlu Tofiqlə, ikinci qızı Ağgül isə bacısı oğlu Tanrıverdinin böyük oğlu Vaqiflə ailəlidirlər. Onlar Beyləqan şəhərində yaşayırlar. Rəsulun digər qızı Validə Veysəlli kəndindən Vaqiflə ailəlidir, onların Zaur, Kamil, Habil və Sahib adlı övladları var.



Rəsulun kiçik qızı Gülzar cavan yaşında dünyasını dəyişib və atasının yanında Veysəlli qəbirstanlığında dəfn olunub.

**Babayev İmamverdi Rəsul oğlu (1941-1989)**, 1941-ci ildə Budaqlı elatında anadan olubdur. Əmək fəaliyyətinə Xocavənd rayonunda başlayıb. İmamverdi, qohumlar içərisində sayılan, seçilən oğlan olub. Qonaqpərvər, süfrəsi açıq və gülərüz adamıydı. İmamverdi, üzümçülüklə məşğul olubdu. Əvvəllər mexanizator, sonralar isə sahə briqadiri kimi fəaliyyət göstərib. O, Aşağı Veysəlli kəndindən Qaçay kişinin qızı Meysənəmlə ailə həyatı qurub. Onların iki oğlu, yeddi qızı anadan olubdu.
Oğlanları: Qulu, Eldar, qızları: Xalidə, Nuridə, Nəzakət, Qızbəs (Qızılgül), Nazimə, Nazilə, Bəsti.

İmamverdi 1989-cu ildə 48 yaşında elektrik cərəyanı vurması nəticəsində dünyasını dəyişib və Füzuli rayon Aşağı Veysəlli kənd qəbirstanlığında dəfn olunub.

İmamverdinin böyük oğlu Qulu, babası Rəsul kişinin bacısı qızı Rəfiqənin qızı Şükufə xanımla evlənib, Ruslan adlı oğlu, Günay, Aysel adlı qızları doğulub. Qulu, oğlu Ruslanla

Bakı şəhərində yaşayır. Ruslan Şəki şəhər sakini Sara xanımla ailə qurub, Fatimə və Aylin adlı iki qızı dünyaya gəlib. Ruslan ali təhsilli iqtisadçı olmaqla, həm də ehtiyatda olan zabitdir. Ruslan hazırda 27 sentyabr 2020-ci ildə Qarabağ və ətraf rayonların işğaldan azad olunması uğrunda gedən döyüşlərdə top komandiri kimi döyüşüb. Qulunun qızı Günay dayısı oğlu Elnurla evlidir.

İmamverdinin ikinci oğlu Eldar, Aşağı Veysəlli kəndinin işğalı zamanı ermənilər tərəfindən əsir götürülmüş beş ay ermənilər tərəfindən işgəncələrə məruz qalmışdı. Eldar girovluqdan azad olunduqdan sonra ata qohumu Yaqut xanımla evlənib. Onların İsmayıl adlı oğlu, Zəhra adlı qızı var. Zəhra xalası oğlu ilə evlidir.

İmamverdinin qızı Xalidə Aşağı Veysəlli kəndində Süleymanla, Nuridə Veysəlli kənd sakini Həmidlə, Qızbəs Veysəlli kənd sakini Nurəddinlə, Nəzakət atasının bibisi oğlu Tanrıverdinin kiçik oğlu Şahinlə, Nazimə dayısı oğlu Qaçayla, Nazilə Beyləqan rayon sakini Hüseynlə evlidir, Beyləqan şəhərində yaşayırlar. İmamverdinin qızı Bəsti ailə qurmayıb, qardaşının yanında yaşayır. İmamverdinin həyat yoldaşı Meysənəm 2016-cı ildə Beyləqanda rəhmətə gedib və Cərcis Peyğəmbər qəbirstanlığında şəhid qardaşı Aydın müəllimin qəbri yanında dəfn olunubdur.

**Allahverdi (1943-2016)**, 1943-cü ildə Budaqlı elatında anadan olub. O da atası və qardaşları ilə birlikdə Dağlıq Qarabağa köçmüş Keşkənddə məskunlaşmışdı. Allahverdi Aşağı Veysəlli kəndində Baloğlan kişinin qızı Gülbaharla evlənmişdi. Evlilikdən bir neçə il sonra Allahverdi, Veysəlli kəndinə köçmüş və kənd ermənilər tərəfindən işğal olunan vaxta qə-

dər həmin kənddə yaşamışdı. Allahverdinin  üç oğlu, bir qızı anadan doğulubdu.

Oğlanları: Ramiz, Nəsib, Niyaz.

Qızı: Svet.

Allahverdinin oğlanları və qızı ailəlidi, Beyləqanda, Füzulidə və Sumqayıtda məcburi köçkün kimi məskunlaşıblar. Allahverdinin iki oğlu Nəsib və Niyaz Dağlıq Qarabağ münaqişəsi başlayan vaxtdan Füzuli rayon Özünü Müdafiə könüllülər batalyonunda döyüşüblər.

Ramiz Allahverdi oğlu, Füzuli rayon Veysəlli kəndində doğulub, Füzulinin Zovcuq qəsəbəsində məcburi köçkün kimi məskunlaşıb. Ramiz Füzuli rayon sakini Rəsmiyyə xanımla ailəlidir. Onların Məhəmməd adlı oğlu, Ülviyyə adlı bir qızı var.

**Nəsib** Allahverdi oğlu**,** Füzuli rayon Aşağı Veysəlli kəndində anadan olub. O, I Qarabağ müharibəsində Füzuli rayon Özünü Müdafiə Batalyonunda könüllü vuruşan döyüşçülərdəndi. Nəsib, Qarabağ qazisidir, II qrup Qarabağ əlilidir. O, yaşadağı kənd sakini xalası qızı Yeganə xanımla ailəlidir. Onun bir oğlu və bir qızı var.

Oğlu: Orxan, qızı: Gülsüm.

Orxan Nəsib oğlu, Tibb Universitetini bitirib və hazırda ön cəbhədə yerləşən hərbi hospitalda həkim-cərrahdır. Orxan II Qarabağ müharibəsində döyüşlər zamanı şücaət göstərmiş, onlarla yaralıları ölümdən xilas etmişdi. Nəsibin qızı Gülsüm isə əmisi Niyazın oğlu Rəsulla ailə qurub, Sumqayıt şəhərində yaşayır.

Allahverdi 2016-cı ildə Beyləqan şəhərində dünyasını dəyişib. O, Cərcis Peyğəmbər qəbirstanlığında dəfn olunubdur. Allahverdinin həyat yoldaşı Gülbahar da 2017-ci ildə Beylə-

qan şəhərində rəhmətə getmiş və Cərcis Peyğəmbər qəbirstanlığında qardaşının yanında dəfn olunmuşdur.

Niyaz Allahverdi oğlu, qardaşı kimi Qarabağ qazisidir. O, könüllü Özünü Müdafiə Batalyonunda qardaşı Nəsiblə birlikdə döyüş yolları keçib. Niyaz, əmisi Ağaverdinin qızı Sevinc xanımla evlənib, Rəsul, Raul adlı iki oğlu və Xatirə, Gülbahar adlı iki qızı anadan olub. Niyaz məcburi köçkün kimi Beyləqan şəhərində məskunlaşıbdı.

**Ağaverdi Rəsul oğlu,** 1948-ci ildə Budaqlı elatında anadan olub. Beyləqan şəhərində yaşayan xalası qızı Əntiqə ilə evləndikdən sonra Beyləqan şəhərində məskunlaşıb. Ağaverdi tikinti trestində bənna kimi fəaliyyət göstəribdi. Onun bir oğlu dörd qızı anadan olubdu.

Oğlu : Tapdıq, qızları: Rüxsarə, Reyhan, Şahnaz, Sevinc.

Ağaverdinin həyat yoldaşı Əntiqə 2008-ci ildə Beyləqanda rəhmətə gedib, Cərcis Peyğəmbər qəbirstanlığında atası İsanın qəbri yanında dəfn olunubdur. Oğlu Tapdıq, xalası qızı Mətanət xanımla evlənib, Xəyal adlı oğlu, Günay adlı bir qızı var. Tapdıq atası ilə bir ailədə yaşayır. Ağaverdi 2020-ci ilin avqust ayında Beyləqan şəhərində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında doğmalarının yanında dəfn olunub.

**Kazım**, atası və qardaşları ilə birlikdə yaşayıbdı. Kazım ana babasının adını daşıyır. O da Aşağı Veysəlli kəndindən Zəminə ilə evlənmiş və bir oğlu, bir qızı olubdu.

Oğlu : Elmir, qızı : Elnurə.

Hazırda Füzuli rayon Qayıdış qəsəbəsində yaşayırlar. Övladları ailəlidir və nəvələri var. Elmir hazırda hərbiçidir. Elmir II Qarabağ müharibəsi iştirakçısi olmaqla Şuşaya qədər döyüş yolu keçmişdi.

**Arif,** Rəsul kişinin kiçik oğludur. O, 1952-ci ildə Xocavənd rayonunun Keşkəndində anadan olub. Hərbi xidmətdən sonra Füzuli rayon Tikinti Təşkilatında sürücü kimi işə başlamışdı. Arif, bibisi oğlu Tanrıverdinin kiçik qızı Şəkurə xanımla evlənib ailə qurubdur. Onun iki oğlu, iki qızı dünyaya gəlibdir.



***Yuxarıdan Rəsul kişinin oğlu Arif, qardaşı oğlu Ramiz, bacısı nəvəsi Şahin, oğlu Allahverdi, aşağıdan qızı Ağgül, gəlini Şəkura, nəvələri Nəzakət, Niyaz.***

Oğlanları: Sabir, Kənan, qızları: Aygün, Günel.

Arif, Füzuli rayonunun işğalından sonra Beyləqan şəhərində məcburi köçkün kimi məskunlaşıb. Arifin böyük oğlu Sabir, Beyləqan şəhərində məskunlaşıb, xalası Kübranın kiçik qızı Vəsilə xanımla evlidir və onların iki oğlu: Cabir, Ceyhun dünyaya göz açıb. Arifin böyük qızı Aygün xanım, bibisi Təzəgülün oğlu İftixarla ailəlidir. Kiçik qızı Günel xanım isə, dayısı Raquf Budaqlının gəlinidir.

Kənan Arif oğlu, hərbiçidir, Borçalı mahalından Səbinə xanımla ailə qurub Cavid və Arif adlı iki oğlu, Dəniz adlı qızı var. Kənanın oğlu Arif babasının adını daşıyır. Kənan, hazırda 27 sentyabr 2020-ci il tarixində Qarabağın azadlığı uğrunda gedən döyüşlərin ön cərgəsində vuruşubdu.

**Qəhrəman** Süleyman oğlu: Kərbəlayı Mehdinin əmisi oğlu olmaqla, Rəcəb kişinin nəvəsidir. Qəhrəman öz yaxın qohumu, əmisi Kərbəlayı Mehdinin qızı Savad xanımla ailə həyatı qurmuşdu. Savadın birinci həyat yoldaşı Qaraş dünyasını dəyişmiş, onun Musa adlı bir oğlu qalmışdı. Qəhrəman, Savadın ikinci əridir. Onların bir oğlu olub.

Oğlu: Şəvahət.

Savad rəhmətə gedəndən sonra Qəhrəman, Samovar adlı qadınla ikinci dəfə evlənmiş, onun ikinci arvaddan iki oğlu, bir qızı olub.

Oğlanları: Əbil, Zəkaray, qızı : Qənəhət.

Qəhrəman kişinin nəsli bu gün də Beyləqan şəhərində yaşayır. Qəhrəman kişinin nəvələri Beyləqan rayonu "Dostluq" sovxozunun əsas bünövrəsini qoyanlardan biri olmuşdu. Qəhrəmanın həm özündən əvvəl ki, həm də özündən sonrakı nəsli Süleyman soyadını daşıyırlar...

**Süleymanov Şəvahət Qəhrəman oğlu,** (1906-1976) Budaqlı tayfasında anadan olub, o Salman kişinin bacısı oğludur. Öz el-obasının içərisində yaşayan Şəvahət halal zəhməti ilə dolanan adam olub. Tərəkəmə camaatında oğurluq igidlik sayılsa da o, haramlığı sevməzdi. Zəhməti hər şeydən üstün bilərdi. Şəvahət gənc yaşlarından Hacı Qasımın yanında çalışmış, onun sağmal qoyun sürülərinin birinə baxırdı. Hacı Qasım da, Şəvahət kişinin elə halallığına görə xətrini çox istəyirdi.

O, dinə, etiqada bağlı imanlı kişi olub. Şəvahət, Avşar tayfasından tanınmış bir ailənin qızı Tamam xanımla evlənib ailə həyatı qurmuşdu. Tamam (1912-2002) xanım başqa tayfadan





*Şavahət kişi, həyat yoldaşı Tamam.*

gəlin gəlməsinə baxmayaraq, Budaqlı camaatı içərisində özünə yüksək səviyyədə hörmət qazanmış xanım olubdu. Tamam təbabəti yüksək səviyyədə bilən bir xanım olmuşdu. Hətta, elə xəstəliklər olub ki, (dəmrov, gecə qabarı) insan bədəninə düşəndə Tamam nənə nə isə dodağının altında oxuyar və yaraya üç dəfə tüpürərdi. Həmin yara növbəti gecə sağalıb yox olardı. Tamam nənə həm də hökmlü xanım idi. Onu gəlinlər bir baxışıdan başa düşürdülər. Bir sözlə Tamam nənə Budaqlı elatına kənar tayfalardan gələn üç-dörd gəlindən biriydi ki, tayfada böyük hörmət qazanmışdı. O, ömrünün sonuna qədər bir insanın xətrinə dəymədi. Ağsaqqalla-

rın, ağbirçəklərin yolunu saxlamışdı. Kişilər, qadınlar ona ana deyə müraciət edirdilər. Şavahət kişi, II Dünya Müharibəsi illərində 8 ay alman faşistlərinə qarşı döyüşərək ağır yaralanmış və ordudan tərxis olunmuşdu. Sağaldıqdan sonra



***Aşağıdan solda Əbil, Telman, Şavahət, yuxarıdan Elman, Fənarə, Əkbər, Bulul.***

arxa cəbhədə çalışmışdı. Şavahət bir neçə il Xankəndi rayon "Siznik" kəndində ailəsi ilə birlikdə yaşayıblar. Onların dörd oğlu dünyaya gəlib.

Oğlanları: Əhliman, Qəhrəman, Sehraman, Dərgah.
Sehraman Şavahət oğlu (1932-1946), Budaqlı tayfasında anadan doğulubdu. Sehraman həm ağıllı, həm də çox savadlı gənc olmuşdu. Hətta ona təklif olunub ki, orta təhsilini Moskva şəhərində alsın. Lakin amansız ölüm onun arzularını ürəyində qoymuşdu. Sehraman 14 yaşında ömrünün çiçəklənən dövründə Xankəndinin Siznik kəndində qəflətən dünya-

sını dəyişmiş və həmin kəndin müsəlman qəbirstanlığında dəfn olunmuşdu

Şəvahət kişi 1946–cı ildən etibarən Beyləqan şəhərində yaşamışdı. Ondan əvvəlki dövrlərdə Budaqlı tayfasında dədə-baba yurdlarında yaşamışdılar. Şəvahət kişi 1976-cı ildə Beyləqan şəhərində rəhmətə getmiş və Peyğəmbər ziyarətgah qəbirstanlığında dəfn olunmuşdu. Onun həyat yoldaşı Tamam nənə 2002-ci ildə rəhmətə gedib Peyğəmbər qəbirstanlığında, həyat yoldaşının yanında dəfn olunubdur.

**Əhliman** (1931-1974), Şəvahət kişinin ailəsində Budaqlı elatında anadan olubdur. Həmin vaxt Şəvahət kişinin qardaşı Musa kişi Budaqlı kolxozunun sədri vəzifəsində işləyirdi. Bütün Budaqlılar Musa kişinin ətrafında bərqərar olmuşdu. Əhliman həm atası kimi yaxşı heyvandar olmuş, həm də anasından gələn səmimilik və mehribanlıq onun qanına hopmuşdu. Əhliman gənc yaşlarında ağsaqqal kimi tanına bildi. Onun süfrəsi, qapısı bütün yaxşı insanların üzünə açıq idi. Əhliman əmisi Əbilin qızı Fənarə (1938-2020) xanımla ailə həyatı qurdu. Fənarə özü də kişi qeyrətli qadın idi. O, ərinə tək həyat yoldaşı yox, həm də ona arxa, kömək idi. Əhliman, dərin düşüncəli, Tanrıya bağlı adamıydı. O, artıq danışıb, gülən, şit danışan adam deyildi. Əhliman orta məktəbə belə getməyib, ancaq bununla yanaşı o yazıb, oxumağı öyrənmişdi. Hətta onun təbi gələndə bədahətən şeir deyir, balaban musiqi alətində el havalarının çoxunu ifa edə bilirdi.

Əhlimanın bir neçə əlyazması övladları tərəfindən qorunub saxlanmışdı. Əhlimanın üç oğlu, altı qızı olubdu.
Oğlanları: Yaşar, Pənah, Eldəniz, qızları: Naridə, Səyyarə, İradə, Nəzakət, Ağgül, Ceyran.

Əhliman, Budaqlı kolxozu dağılandan sonra qardaşları ilə birlikdə Beyləqan rayonuna köçmüş və "Dostluq Qoyunçuluq" sovxozunda qabaqcıl qoyun briqadiri işləmişdi. İşlədiyi dövrdə yüksək mükafat və medallarla təltif olunmuşdu. O, sovxozda işlədiyi dövrdə Beyləqan şəhər deputatlığına



***Soldan Şahların oğlu Bakir, Əhliman, Telman.***

mandat almış, deputat kimi bir çox ictimai tədbirlərin iştirakçısı olmuş və Sosialist Əməyi Qəhrəmanlığına namizəd olmuşdu. Lakin amansız xəstəlik onun amallarına mane olmuşdu. Əhliman, Allahına bağlı olduğu üçün, Tanrı çox erkən 1974-cü ildə qırx üç yaşında, onu öz dərgahına apardı.

Əhliman Peyğəmbər ziyarətgahı qəbirstanlığında atası Şəvahətin qəbri yanında dəfn olunubdur.

**Yaşar Əhliman oğlu (1958-2021)**, Beyləqan şəhərində doğulub. Atasını vaxtsız itirən Yaşar, ailə vəziyyəti ilə əlaqədar böyüklərin məsləhəti ilə 16 yaşında yaxın qohumu Məhəmmədin qızı Minarə xanımla evləndirmişdi. Yaşarın iki oğlu Vüsal və Şəvahət anadan oldu. Yaşarın böyük oğlu Vüsal, Bakı şəhərində Kəmalə adlı xanımla ailə qurub, onların Kənan, Nəzrin, Minarə adlı övladları var və Bakı şəhərində yaşayır.

Yaşarın ikinci oğlu Şəvahət babasının adını yaşadır. Şəvahət Bakı şəhərində Yazgül xanımla ailə qurub. Onların Gülay adlı bir qızı var, Bakı şəhərində yaşayır.

Yaşarın birinci həyat yoldaşı Minarə xanım cavan yaşlarında dünyasını dəyişdi və Peyğəmbər qəbirstanlığında dəfn olunub. Yaşar ikinci dəfə Beyləqan rayon sakini Nəzakət xanımla evlənib, oğlu Tural dünyaya gəlib.

Tural Yaşar oğlu (1991-2015), Beyləqan şəhərində doğulub, orta məktəbi bitirdikdən sonra Təfəkkür Universitetində ali təhsil almış, iqtisadçı kimi əmək fəaliyyətinə başlamışdı. Tural Vətənin bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olub. O, döyüş bölgəsinə könüllü olaraq zabit kimi atılmışdı. Tural Əhlimanlı, babasını soyadı kimi yaşadırdı. Tural Əhlimanlı, öz adını Azərbaycan salnaməsinə bir qəhrəman kimi yazdıra bildi. Bu gün həyatda olmasa da ruhu qəlbimizdə yaşamaqdadır.

**Pənah** Əhliman oğlu, Beyləqan şəhərində doğulub. O, Maliyyə-kredit Texnikumunu bitirib, uzun müddətdir ki, Beyləqan rayon maliyyə idarəsində mütəxəssis kimi çalışır. Pənah, Ermənistan Respublikası Sisyan rayon Qızılcıq kən-

dində ana qohumu olan Gülçöhrə xanımla ailə qurub. Bu cütlükdən oğlu Əhliman, qızı Məlahət doğulub. Əhliman babasının adını daşıyır. Əhliman Pənah oğlu Eyvazalılar kənd sakini Sürəyya xanımla ailə qurub, onların Tural və Mələk adlı övladları anadan olub. Əhliman atası ilə bir ailədə Beyləqan şəhərində yaşayırlar.

**Eldəniz**, Əhlimanın kiçik oğludur, Beyləqan şəhərində doğulub. Eldəniz, Eyvazalılar kənd sakini Xatirə xanımla ailə qurub. Onların üç övladı, oğlu Sahil, qızları Yasəmən və Lamiyyə anadan doğulublar.

Əhlimanın qızları: Naridə xalası oğlu Qardaşxanla, İradə əmisi oğlu Nüşrəvanla, Nəzakət ata qohumu Tofiqlə, Səyyarə Eyvazallar kənd sakini Bəxtiyarla, Ağgül Təzəkənd kəndindən Nadirlə, Ceyran ata qohumu Hüseynalı ilə ailəlidirlər. Hər birinin övladları, nəvələri var.

Əhlimanın övladlarının əlində qalan əlyazmasından bir neçəsini təqdim edirəm.



***Əhliman, həyat yoldaşı Fənarə.***

## ALLAH

Uşaqlarım körpə, yoldaşım cavan,
Dərd gəlib üstümə görürsən, Allah!
Köçürəm dünyadan gedirəm nakam.
Vədəsiz günümü sayırsan, Allah!

Tanrımı çağırdım imdad istədim,
Ömür istəmədim, möhlət istədim.
Balamın toyunu görmək istədim,
Vədəsiz qapımı döyürsən, Allah!

Balalarım haray çəkib, qan ağlar,
Anam saçın yolar, yasımı saxlar.
Yarım nalə çəkər, qara şal bağlar,
Cismimi məzara qoyursan, Allah!

Köçərəm yurdumda el-obam qalar,
Əhliman, qohumlar yadına salar.
Bir də görməyəcək üzünü dağlar,
Ömrüm tükənibdir duyursan, Allah!

## ÖLÜM

Qələmi götürüb dərddən yazıram,
Başımın üstündə durmusan ölüm!
Verdiyin ağrıya zorla dözürəm,
Dayanıb qapımda qalmısan ölüm!

Almısan üstümü cavan yaşımda,
Kəsirsən yolumu durub qarşımda.
Huşum da qalmayır artıq başımda,
Tor qurub kəməndə salmısan ölüm!

Vədəsi gələndə yəqin köçəcəm,
Əcəl şərbətini mən də içəcəm.
Dünyamı dəyişib haqqa köçəcəm,
Ruhumu əlimdən almısan, ölüm!

## ƏLİMİ DÜNYADAN ÜZÜB GEDİRƏM

Ağrılar azalmır gəzir canımda,
Bəlkə köməyimə gələsən, həkim!
İçməyə suyum da yoxdu yanımda,
Dərdimin çarəsin deyəsən, həkim!

Xəstəyəm, doyunca yata bilmirəm,
Ağrılar günbəgün çökür canıma.
Dərmanlar acıdır, ata bilmirəm,
Dərdlərim zəhər tək hopur qanıma.

Əziz ana, çox da çəkmə dərdimi,
Tapılmır dərdimin niyə dərmanı?!
Haqdan gələn səda, bəlkə sirdimi,
Tanrıdan almışam ölüm fərmanı.

Amansız xəstəlik məni haqladı,
Arzuma, kamıma çata bilmədim.
Ömür, günüm təməlindən laxladı,
Ağrıdan gecələr yata bilmədim.

Xəstə Əhlimanam haqdan gileyli,
Vəfasız həyatdan bezib gedirəm.
Qəlbimdə istəyim, muradım xeyli,
Əlimi dünyadan üzüb gedirəm.

**Qəhrəman**, (1933-1990) Şavahətin üçüncü oğlu olmaqla ona öz atasının adını qoyubdur.



*Şavahətin oğlanları: soldan Dərgah, Qəhrəman.*

Qəhrəman da Budaqlı elatında anadan olub və kolxoz dağılandan sonra Beyləqanda məskunlaşıb. Qəhrəman əvvəllər heyvandarlıqla məşğul olmuş, qardaşı Əhlimanın yanında çoban işləmiş və sonralar mexanizatorluq kursunu bitirib, "Dostluq" sovxozunda mexanizator işləmişdir. Qəhrəman, əslən Cəbrayıl rayonundan olan, ancaq Beyləqan rayon "Dostluq" sovxozunda, qonşu olduqları Əhməd kişinin qızı Tutu xanımla ailə həyatı qurmuşdu. Onlar Beyləqan şəhərində məskunlaşmış, oturaq həyata keçmişdir. Qəhrəmanın dörd oğlu, bir qızı anadan olubdur.

Oğlanları: Nüşirəvan, Rövşən, Azər, Zaur, qızı: Mahirə.

Nüşirəvan, Gəncə İnşaat Texnikumunu bitirib və uzun müddət ixtisası üzrə işləyib. O, əmisi Əhlimanın qızı İradə xanımla evlənmiş, onların Elgün, Nicat adlı iki oğlu və Gül-

nar adlı bir qızları var. Allahyarlı kəndində yaşayırlar. Elgün Nüşirəvan oğlu, Eyvazallar kənd sakini Alyanaq adlı xanımla ailə qurub, Rəsul, Ayan adlı övladları dünyaya gəlib. Nicat Nüşirəvan oğlu, Ata qohumu Ayşən xanımla ailə qurub, Rəvan, Qəhrəman adlı oğlanları, Rüqayyə adlı bir qızı anadan olub. Qəhrəman iki ulu babasının adını yaşadır. Nüşirəvanın qızı Gülnar xanım xalası Naridənin oğlu Eminlə ailəlidir, Bakıda yaşayır.

Qəhrəmanın ikinci oğlu **Rövşən** Budaq, şair-publisist, beş şeirlər kitabının müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Yazıçılar Birliyinin Beyləqan bölməsinin Mətbuat katibi, "Novator" qəzetinin redaktoru və Prezident təqaüdçüsüdür. Rövşən ata qohumu İngilisin qızı Aybəniz xanımla ailə həyatı qurmuş, onların bir oğlu, üç qızı anadan olubdu.

Oğlu: Elşən, qızları: Gülşən, Süsən, Könül.

Elşən, Gəncə Dövlət Universitetinin axırıncı kurs tələbəsidir. Rövşənin qızları hər üçü ailəlidir, Beyləqan şəhərində yaşayırlar. Rövşənin böyük qızı Gülşən, yaxın qohumu Nadirin oğlu Tahirin, ikinci qızı Süsən Məmmədin oğlu Sənanın, kiçik qızı Könül, Xocavənd rayon Axullu kənd sakini Müşfiqin oğlu Fəridin həyat yoldaşıdır. Qəhrəmanın qızı Mahirə əmisi Dərgahın oğlu İlqarın həyat yoldaşıdır.

**Azər** Qəhrəman oğlu, xalası qızı Almaz xanımla ailə qurub, onların Xəzər, Araz və Aynur adlı üç övladı anadan olub, Beyləqan şəhərində yaşayırlar. Xəzər, Gəncə Texnologiya Universitetini bitirib. O, Beyləqan şəhərində tanınmış ailədən olan Sona xanımla ailə qurubdu. Araz, Füzuli rayon sakini Xanımla ailə qurubdu, onların Banuçiçək adlı bir qızı var.

Azərin qızı Aynur, Qubadlı rayon sakini Fəridin həyat yoldaşıdırvə Aylin adlı bir qızı var.

Zaur Qəhrəman oğlu, Mehdi kişinin nəvəsi, Feyzullanın qızı Şəfiqə xanımla ailəlidir. Onların Ayxan, İbrahim və Tutu adlı övladları anadan doğulub. Uşaqlar azyaşlıdı və Beyləqan şəhərində yaşayırlar.

Qəhrəman 1990-cı ildə Beyləqan şəhərində dünyasını dəyişmiş, Cərcis Peyğəmbər ziyarətgahı qəbirstanlığında atasının qəbri yanında dəfn olunub.

**Dərgah**, (1937-2017) Şəvahət kişinin dördüncü oğludu. O, qardaşların kiçiyi olmaqla İmişli rayon Budaqlı elatında anadan olubdur. Dərgah, qardaşı Əhlimanın yanında çoban işləyib və qardaşı dünyasını dəyişəndən sonra qoyunçuluq sovxozunda qoyun briqadiri vəzifəsində çalışıbdı. Dərgah yaxın qohumu Bilul xanımla evlənib ailə qurubdu. Dərgahın dörd oğlu, beş qızı anadan olub.

Oğlanları: İlqar, Vüqar, Qoşqar, Ceyhun, qızları: Aidə, Yeganə, Afət, Sevinc, Tamam.

Dərgahın böyük oğlu İlqar, əmisi Qəhrəmanın qızı Mahirə xanımla ailə qurub və Beyləqan şəhərində yaşayırlar. İlqarın Yusif, Cavid və Zeynəb adlı üç övladı anadan olubdu. İlqar ali təhsilli iqtisadçıdır, Beyləqan maliyyə şöbəsində xəzinədarlığın rəisi vəzifəsində çalışır. İlqarın oğlu Cavid, Gəncə Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirib.

Dərgahın ikinci oğlu Vüqar nənə qohumlarından, Avşar tayfasından Pəri xanımla ailə qurub, onların Nurlan və Rüfət adlı iki oğul balası var. Ailə Allahyarlı kəndində yaşayır. Vüqar I Qarabağ müharibəsi qazisidir.

Qoşqar Dərgah oğlu, əslən Aşıqlı kəndindən Sevinc xanımla evlənib, onların Bilul, Əsma və Banu adlı üç qızı anadan olub.

Ceyhun Dərgah oğlu, Ata qohumu, Vidadinin qızı Şəkurə xanımla ailəlidir. Onların Dərgah, Ruslan və Rüqayyə adlı üç övladları dünyaya gəlib, Beyləqan şəhərində yaşayır.

Dərgahın qızları Aidə, yaxın qohumu Eldarın həyat yoldaşıdı, Emin, Günel adlı iki övladı anadan olub.. Günel, ailə qurduqdan sonra dünyaya övlad gətirən zaman dünyasını dəyişib, öz adını daşıyan balaca Günel yadigar qalıb. Yeganə, Aslan adlı qohumu ilə evlidi, Elməddin, Şamil adlı övladları var. Afət, Cəlalın həyat yoldaşıdı, Rahil, Səbinə, Səkinə adlı övladları var. Sevinc, Atakişinin oğlu Rəhimin həyat yoldaşıdı, Suliddin, Taleh, Aişən adlı qızları var. Tamam, ailənin kiçik qızıdır, nənəsi Tamamın adını daşıyır. Tamam Rüstəmlə ailə qurub, hələ ki, övladları yoxdur.

**Süleymanov Əbil Qəhrəman oğlu**, (1910-1984) Qəhrəman kişinin ikinci həyat yoldaşı Samovardan olan oğludu. Əbil kişi zəmanəsinin ən qoçaq kişilərindən biri olubdur. Əbil kişi babası Rəcəbə çəkib. Onun vurduğu ağac zərbəsinin qabağını alan olmayıb. Boyca gödək, ancaq çox çevik adam olubdu. Əbil həmişə köçəri həyat sürməklə, heyvandarlıqla məşğul olmuşdu. Əbil, Mehdilər tirəsində yaxın qohumu Salman kişinin qızı Səməryə (1915-1950), (Səməryə, Salman kişinin ikinci həyat yoldaşı Gülarənin birinci ərindən olan qızlığı) ilə ailə həyatı qurubdu. Səməryə Qızılcıq kəndindəndir və kürd qızıdır. Onun iki oğlu, bir qızı olubdu.

Oğlanları: Telman, Elman, qızı: Fənarə.

Səməryə 1950-ci ilin payızında otuz beş yaşında dünyasını dəyişib, Dünyamallar kəndi "Soltanbud" qəbirstanlığında dəfn olunubdu. Səməryə rəhmətə gedəndə kiçik oğlu Elmanın iki yaşı var idi.



*Əbil kişi*

Əbil kişi ikinci dəfə Münəvvərlə (Münəvvər də kürd qızı olubdur) ailə həyatı qurubdu. Münəvvərin birinci həyat yoldaşı Kərbəlayı Şirinli tirəsindən Zülfiqar oğlu Əliş olubdur. Əliş II Dünya Müharibəsinə gedib və döyüşdə həlak olubdur. Onun dul qalmış arvadıyla Əbil kişi evlənibdi. Əbilin ikinci arvadı Münəvvərdən üç oğlu, bir qızı doğulub.

**Oğlanları**: İltizam, Əli, Əkbər, qızı Tamara.

Əbil kişi "Dostluq Qoyunçuluq" sovxozunda çalışmış və həmişə erkək qoyun sürüsünə briqadir olmuşdu. Əbil kişi 1984-cü ildə Beyləqan şəhərində rəhmətə gedib, Cərcis Peyğəmbər qəbirstanlığında qardaşlarının yanında dəfn olunubdur. Əbil kişi özündən sonra olduqca böyük xoş xatirələr qoyubdu.

Tərəkəmə həyatında əvvəllər heyvan oğurluğu qoçaqlıq sayılırdı. Bəzən ehtiyac olub, olmadan insanlar bu yola gedirdilər. Əbil kişi də zamanının ən məşhur oğrularından olub. Amma deyərdi:

- Mən oğru olsam da mərd oğru olmuşam, kasıb adamın bir quzusun belə aparmamışam.

Əbil kişi, başına gələn əhvalatlardan bir neçəsini şəxsən mənim özümə danışmışdı. Günlərin birində elin yaylaqda olan vaxtı olub, obanın kişiləri deyiblər gedək oğurluğa. Gecədən bir az keçmiş beş nəfər atlanıb xeyli aralıda olan bir fermaya qoyun oğurluğuna gediblər. O zamanlar hər adam-

da silah olmazdı. Ancaq Əbil kişinin on atılan naqanı varıydı. Fermaya yaxınlaşırlar, Əbil kişi deyir:

- Siz,bu daşın arxasında oturub gözləyin, mən giriş-çıxışı yoxlayım görək hardan girə bilərik. Mən nişan verməsəm tərpənməyin.

Əbil kişi bir alaçığa yaxınlaşıb görür boşdu, ikinci-üçüncü də belə. Görür ki, dördüncü alaçıqdan zəif işıq gəlir. Girir alaçığın çadırıyla çətənin arasına. Baxır görür burda da kişi yoxdu, ancaq fermanın bütün qadınları burdadır. Əbil kişi bilir ki, obada kişi yoxdursa deməli onlar da oğurluğa gedibdir. Həmin alaçıqda bir qadının uşağı olub, xanımlar da onun əhatəsində, zaha qadın üçün quymaq çalırlar. Əbil kişi də bunların hamısını seyr edir. Eləki quymaq hazır oldu qadınlar deyirlər çıxıb havamızı dəyişək gəlib quymaq yeyək. Qadınlar hamısı çölə çıxır, Əbil kişi çətəndən sıçrayıb girir içəri. Tavakqabından yuxaları yayıb quymağı tökür üzərinə və qazana bir az səhəngdən su töküb qoyur maşınkanın üstünə. Özü də keçib əvvəlki, yerində gözləyir. Xanımlar içəri keçib süfrə salıb quymaq çəkmək istəyəndə görürlər quymaq su olub. Hamı "bismillah" deyir. Xanımlardan biri deyir ki,

- Burda cin var, bu şeytan əməlidir, quymağı hal çəkib. Əbil kişi isti quymağı gətirdi, yoldaşları yedi. Əbil dedi:

- Uşaqlar obada kişi yoxdu, buna görə hərəniz bir erkək seçin. Əbilin yoldaşları razı olmurlar ki, boş yataqdı gəlmişik bölüb aparaq deyirlər. Əbil kişi ciddi şəkildə bildirir ki,

- Bu obada kişi yoxdu, belə olan halda heyvan bölmək kişilikdən deyil. Bir də sizə deyirəm bir erkəkdən artıq götürəni özüm güllələyəcəm.

Belə də olur, hərə bir heyvan seçir qayıdırlar geri. Yol boyu Əbil quymaq əhvalatını danışır, yoldaşları gülüşürmüş. Bir

də görürlər qabaqdan səs gəlir. Əbil kişi deyir, çınqıllığa girib gizlənin görüm bunlar kimdir. Qabaqda bir atlı, qucağında beşatılan arxasınca qoyun sürüsü gəlir. Əbil pusqudan qəfil çıxıb atlını tərki-silah edib deyir:

- Ə, kimsiniz?

Atlı cavab verir ki,

- Qardaş, biz də oğruyuq, oğrudan oğruya halaldı, bölün yarısı sizin olsun.

- Ə, köpək oğlu belə oğurluq olar bir sürü aparırsınız?

Əbil kişi silahın darağını çıxarıb, silahı qaytarır sahibinə və deyir:

- Geriyə baxsanız sizi güllələyəcəm. Beləliklə sürünü qatıb qabaqlarına gəlirlər obaya, baxırlar ki, sürü bunların öz heyvanlarıdı.

Əbil kişi deyir- bunlar namərd oğrudu, gətirdiyinizi kəsin, onsuz da bunların üzü olmayacaq sorağa gəlməyə. Onlar da bilir ki, qarşılarına çıxan oğrular, bunlar oğurluğa getdikləri obanın adamlarıdı, heyvanı da onlar aparıb. Çünki, bu obanın qoyun sürüsü öz yerindədir. Əbil kişi deyirdi ki, bu halal oğurluqdu.

Əbil kişi həmişə erkək briqadiri işləyib. Onun saxladığı erkəklər 50-60 kq ət verərdi. Əbil kişinin ferması dağın qoynunda çınqıllığa söykənirdi. Heyvanın yataq yerinin bir hissəsini çınqıl tuturdu, digər tərəflərini isə iri daşlardan qalaq hörürdülər. Hörgülərin arasına torpaqdan çim kəsib hörürdülər ki, qalaq uçmasın. Bu qəhəlin bir girişi olurdu ki, heyvanlar burdan girib, çıxardı. Heyvanlar hər səhər qəhəldən çıxanda sayılardı. Əbil kişi heyvanı sayır görür iki gündən bir, bir heyvan yoxa çıxır. O, fikirləşirki ya çoban satır, ya da gecə oğru gəlir. Əbil kişi qərara gəlir ki, gecə özü keşik çək-

sin. Gecənin bir vaxtı görür çınqıllıq tərəfdən oğru gəlir. Özünə bir yaxşı yer seçir, əlində çomaq daşın dalında gizlənir. Gecənin qaranlığında baxır ki, gələn oğru bir heyvan aldı qucağına geri qayıdır. Əbil kişi var gücü ilə çomağı oğrunun başı qarışıq belinə vurur. Sən demə bu adam yox ayı olub. Ayı necə qışqırıbsa Əbil kişinin ürəyi gedib. Deyir, ayılanda gördüm ki, erkək on metr kənara düşüb partlayıb. Amma o gündən sonra ayı da oğurluğa gəlmədi.

Əbil kişi baməzə adamıydı, həmişə də başına müxtəlif hadisələr gəlirdi. O, Budaqlıda çox igid adamıydı, həm də heç nədən qorxmazdı. Bir gün də görür qaranlıq gecədə heyvanın içində oğru var, qoyun seçir. Arxadan gəlib oğrunu tutub gətirir alaçığa sarı. Oğru görür əlindən çıxa bilmir, deyir:

- Əbil əmi, mənəm.

- Əyə, köpəkoğlu bildim ey sənsən, sürünün içində nə gəzirsən?

Əbil kişi tanıyıb görür ki, kirvəsinin oğludu. Deyir- keç içəri.

- Əbil əmi, oğurluğa gəldiyimi bacı bilməsin, bilsə utanacam.

- Ayə, səndə utanan üz olsa burda nə gəzirdin.

Əbil deyir keç içəri oğurluqda tutduğumu demiyəcəm. İçəri keçirlər Əbil oğluna deyir:

- Telman, cəld ol bir əmlik kəs, kirvə uzaqdan gəlib acdı, yesin.

- Əbil əmi sən Allah lazım deyil, ac deyiləm. Əbil də deyir ki:

- Kirvə əmliyi yeməsən səni buraxan deyiləm.

Gecə yarı əmlik bozartmasını yeyirlər, Əbil kişi də kirvəni buraxır, çıxıb gedəndə deyir:

- Əbil əmi, əmliyi yeməyə yedim, ancaq vicdan əzabı çəkə-çəkə yedim.

- Ay kirvə, heç olmasa olan şeydən danış, səndə vicdan yoxdu.

Əbil kişi həyatı boyu bir-birindən maraqlı olan əhvalatlarla çox qarşılaşmışdı. O, sözünü üzə deyən, kiminsə arxasınca danışan kişi olmayıb. Elat camaatında onu tanımayan adam yoxdur.

Əbil kişinin yaylaq yeri "Qaraarxac" yaylağında Əyri Qarın altında olardı. Qoyun sürüləri yaylağa çıxsa da, hələ yuxarı əsas yurda qalxa bilmirdilər. Çünki, yaylağın yurd yerlərində qar tam ərimədiyi üçün Əbil kişi binə qurub, erkək sürüsünü aşağı yataq yerində saxlayırdı. Əbilin və çobanların evi isə artıq yurdlarında tikilmişdi. Çobanlar gündüz heyvanı otarıb, axşam arxaca yığdıqdan sonra gedirlər evlərinə. Əbil kişi isə briqadir olduğu üçün sürünün gecə növbəsini özü çəkirdi. Qoyunun arxacı elə yerdəydi ki, bura iki yerdən giriş varıydı. Arxacın bir tərəfində binə alaçığı qurulub, ön tərəfi sərt qayalıqdı. Yuxarı hissədən keçmək üçün böyük bir qayanın altından keçməlisən ki, bura çobanların nəzarətində olurdu. Fermanın aşağı hissəsinə isə çoban itləri bağlanmışdı. Gecədən xeyli keçmiş Əbil kişi itlərin hürməsinə ayıldı, başını çıxarıb sürüyə nəzər yetirdi. Gördü erkək sürüsünün içərisində iki nəfər qoyun seçir. Əbil kişi qoşa lülə tüfənginə iki patron qoyub hazır vəziyyətə gətirib verdi həyat yoldaşına. Tapşırıq verdiki onlar alaçığa yaxınlaşsa atəş açarsan, yaxın gəlməsələr silah əlində gözlə. Əbil kişi, alaçıqdan sakit çıxıb, xəlvəti cığırla fermanın girişində olan iri qayanın altına girdi. O, naqan silahını hazır vəziyyətə gətirib gözləmə mövqeyi tutdu. Oğruların biri boydan gödək yoğun, digəri isə arıq

uzun adamıydı. Gödək olan adam hər gələndə iki erkək, uzun isə bir erkək gətirir. Gətirdikləri erkəklərin qayanın yuxarısında ayaqlarını bağlayıb, yenə geri qayıdırlar. Oğrular on erkəyin ayağın bağladıqdan sonra hərəsi bir siqaret çəkdi, uzun oğru gödək oğruya dedi:

- Keçəl, bu obada məncə kişi yoxdu, gətirdiyimiz bəsdi, heyvanların ayağını açıb gedək. O zamanlar oğrular bir-birinin adını heç vaxt çəkməzdi, qurama adlardan istifadə edərdilər. Gödək oğru dedi:

- Kosa, sən dəlisən, sabah Naxçıvan bazarına on erkəklə gedəcəm?

- Keçəl, yiyəsiz sürüdən çox heyvan aparmaq namərdlikdi, mən daha getmirəm.

- Kosa, özün bilərsən, sən yalnız on erkəyə şəriksən, qalanı mənlikdi.

Gödək oğru işini davam elədi, uzun isə oturub siqaret çəkir, hər gələndə ona yalvarır ki, bəsdi, getmə. Kosa beləliklə heyvanın sayını çatdırdı iyirmi beş erkəyə. Bir siqaret yandırdı, bir qüllab sinəsinə çəkib yan üstə yerə dirsəkləndi və dedi:

- Ay Kosa, bax indi bəsdi, Naxçıvan bazarına rahat gedə bilərəm.

- Keçəl, adam namərd olmaz, düz eləmədin.

- Ayə Kosa, nə namərd-namərd salmısan çənənə, sürüsünü yiyəsiz qoyan çobanın anasını belə ağladarlar. İşin əvvəlindən qayanın altında gizlənən Əbil bunların söhbətlərinə qulaq asırdı, onların arası beş metr olardı. Bu sözü eşidən Əbil kişi qayanın altından çıxmaqla silahı dirədi Keçəlin başına:

- Ayə, köpək oğlu, sürünün yiyəsi ölüb ki, sən heyvan aparasan. Yerə dirsəklənmiş gödək oğruya iki güllə sıxdı. Uzun oğruya dedi:

- Ayə qurumsaq, oğru olsan da mərdliyin var, dur rədd ol, səni öldürməyəcəm. Uzunun qılçı tutulmuşdu yerindən qalxa bilmirdi ki, gedə bilsin. Əbil kişi üstünə qışqırandan sonra bir az sürünüb durub qaçdı.

Bir gün öncə sovxozun direktoru yaylağa gəlmiş, "Kantor" deyilən obada qalırdı. Səhərə qədər meyidə keşik çəkən Əbil kişi, səhər-səhər çobanlar gələndən sonra, sovxoz direktorunun yanına gedib, gecə olan əhvalatı danışmış və adam öldürdüyünü bildirmişdi. Sovxozun direktoru, ayaqları bağlı iyirmi beş erkəyi ona mükafat vermiş, meyidi ölü yiyələrinə qaytarmışdı. Belə hadisələr baş verəndə oğru başçılarının öz qanunları varıydı, ölüm hadisəsi olsa belə bağlı qalardı.

**Telman** Əbil oğlu, (1941-2013) Əbil kişinin böyük oğludu. Telman igidlikdə və qoçaqlıqda heç də atasından geri qalmayıb. Ömrünün çox hissəsini qoyunçuluqla məşğul olub və atasıyla birgə çalışıbdır. Son illərdə o qoyunçuluqdan aralandı, tikinti trestində sürücü işləməyə başladı...

Telman Təhməzli tirəsindən Afsayadla (1944-1989) ailə həyatı qurubdu. Telmanın bir oğlu, yeddi qızı dünyaya gəlibdi. Oğlu: Əbil, qızları: Qaratel, Sevda, Aybəniz, Təranə, Aynurə, Cəmilə, Elnurə.

Telmanın həyat yoldaşı Afsayad Budaqlı tayfasında özünə hörmət qazanmış xanımlardan olubdu. Afsayad 1989-cu ildə ağır xəstəlikdən Beyləqan şəhərində dünyasını dəyişdi. O, Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunub. Telman sonradan Çiçək adlı xanımla ailə qurdu, onların Aişən adlı bir qızı dünyaya gəldi.

Telman 2013-cü ildə Beyləqan şəhərində dünyasını dəyişib və Peyğəmbər ziyarətgahı qəbirstanlığında atasının yanında dəfn olunubdu.

Əbil Telmanın yeganə oğludur ki, babası Əbilin adını daşıyır. Əbil Beyləqan rayonunda anadan olub boya başa çatıb. O, Bakı şəhər sakini –Kəmalə xanımla evlənib, Afsayad adlı bir qızı var. Əbil öz qızına anasının adını qoyub. Əbil hazırda Bakı şəhərində yaşayır.

Telmanın qızları: Qaratel, ana qohumu Ələmşahla ailəlidir, onların Məhəmməd və Elməddin adlı iki oğlu var. Sevda, yaxın qohumu Hacı İlhamla evlidir, Fərid və Fərhad adlı iki oğlu var. Aybəniz yaxın qohumu Avşar kənd sakini Nazimlə ailə qurub, iki oğlu var. Təranə, Kürdmahmudlu kənd sakini Bağbanla ailə qurub, övladları yoxdur. Aynurə, birinci Şahsevən kənd sakini Rövşənlə ailəlidir, bir oğlu, bir qızı var. Elnurə, Çəmənli kənd sakini Qarabağ qazisi Müvəkkillə ailəlidir, bir qız anasıdır. Cəmilə, Yasin adlı oğlanla ailə qurub, iki qız, bir oğul anasıdır. Telmanın ikinci ailəsi Çiçəkdən olan qızı Aişən, bibisi oğlu Elvinlə ailə qurub, bir qızı var.

**Elman Əbil** oğlu, 1948-ci ildə, Əbil kişinin birinci həyat yoldaşı Səməriyə xanımdan doğulmuş ikinci oğludu. Elman, ata üstə köklənmiş, çox dəliqanlı cavan olubdu. O, həm də gəncliyində gözəl idmançı olub. Sərbəst güləş üzrə Respublika yarışlarının iştirakçısı olubdu. Elman Şuşa Kənd Təsərrüfatı Texnikomunun baytarlıq fakültəsini bitirmiş, baytar həkimidir. Elman uzun müddət "Dostluq Qoyunçuluq" sovxozunda baytar həkimi və ferma müdiri vəzifələrində çalışmışdır. Onun adı həmişə qabaqcıl təsərrüfat işçisi kimi çəkilmişdir. Elman, 1970-1972-ci illərdə Ukrayna Respublikasında hərbi xidmətdə olubdu. Hərbi xidmətdə olduğu müddətdə Liyuda adlı Ukraynalı qızla evlənibdi. Onların Natiq adlı bir oğlu olub. Elman, Liyudanı özü ilə Beyləqan şəhərinə gətirib, ancaq çox keçməyib ki, onlar ayrılıblar, Liyuda vətəni Ukray-

na Respublikasına qayıdıbdı. Natiq bir il atasının yanında qalıb. Bir yaşından sonra uşağı anasına veriblər. Natiq böyüyüb ağlı kəsəndən sonra 17 yaşında atasının yanına qayıtmış və Beyləqan şəhərindən hərbi xidmətə getmişdi. Hərbi xidməti-ni başa vurduqdan sonra yenidən Beyləqan şəhərinə qayıdıb və əmisi Məhəmmədin qızı Nazilə xanımla ailə qurub. Onların Namiq adlı bir oğlu var. Natiq bir müddət sonra yenidən ailəsini Beyləqanda qoyaraq anasının yanına dönüb. O, hazırda Ukraynada yaşayır.

Elman, ikinci dəfə yaxın qonşuları, heyvandarlıqla məşğul olan, əslən Kəbirli tayfasından Cavanşirin qızı Minə (1958-2009) xanımla ailə qurub. Onların beş övladı dünyaya gəlibdi.

Oğlanları: Anar, Sabit, Samir, qızları: Pərvanə, Səməriyyə.

Elmanın ikinci həyat yoldaşı Minə xanım, 2009-cu ildə Beyləqan şəhərində rəhmətə gedib və Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunub. Elman, üçüncü dəfə Beyləqan rayon Bolsulu kənd sakini Elza xanımla ailəlidir və hazırda öz şəxsi təsərrüfatı ilə məşğul olan fermerdi.

Anar, Elmanın böyük oğludur. Beyləqan şəhərində doğulub, ali təhsillidir. Anar, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Beyləqan bölməsinin sədridi. O, Günəşli qəsəbə sakini Mətanət xanımla evlənib ailə qurubdu. Bu cütlüyün Elman, Təhminə, Nuray adlı övladları anadan doğulublar. Uşaqlar məktəblidirlər.

Sabit, Elmanın ikinci oğludu. O, Ağcabədi rayon sakini Xatirə xanımla ailəlidir. Onların Minə adlı qızı, Cavid adlı oğlu var. Sabit, Beyləqan rayon Fövqəladə Hallar Nazirliyi, Beyləqan Yanğın Söndürmə idarəsinin əməkdaşıdır. O da öz qızına anası Minənin adını qoyubdu.

Samir Elman oğlu, Beyləqan şəhərində tanınmış avtomobil təmir ustasıdır. Samir, Rəhimə xanımla ailə qurub, onların Tunar və Elnar adlı iki oğlu var. Uşaqlar azyaşlıdı.

**İltizam Əbil** oğlu, Əbil kişinin ikinci həyat yoldaşı Münəvvər xanımdan doğulan böyük oğludur. O, Beyləqan rayonunda anadan olub, çox erkən 16-yaşında Eyzangül xanımla ailə həyatı qurubdu. Onların altı övladları dünyaya göz açıb. Oğlanları: Rizvan, Ramil, Şahin, qızları : İntizar, Münəvvər, Tünzalə.

İltizam əmək fəaliyyətinə elə evləndiyi gündən başlamış, əvvəl atasının yanında heyvandarlıqla, sonralar isə tikinti trestində mexanizator və mexannik vəzifəsində çalışmışdı. İltizam gənclik dövründə tay-tuşları arasında sayılıb-seçilən cavan olubdu.

Rizvan İltizamın böyük oğludu. O, Beyləqan şəhərində anadan olub. Rizvan, Gülnarə xanımla evlənib, onun İltizam, Ülfət adlı iki oğlu, İlahə adlı bir qızı var. Rizvan Beyləqan şəhərində yaşayır və xırda sahibkarlıqla məşğul olur. Rizvan ticarətçidi.

Ramil İltizam oğlu, bibisi nəvəsi Ülviyyə xanımla evlidir, Eyzangül, Məhəmməd adlı övladları var.

Şahin, İltizamın kiçik oğludu. O, Birinci Şahsevən kənd sakini Gülnar xanımla ailə qurub. Onların Ziyafət, Ülvi adlı övladları anadan doğulub. Uşaqlar azyaşlıdı.

İltizamın qızları: İntizar, Günəşli qəsəbə sakini Alim bəylə evlidi. Onların dörd oğlu var. Münəvvər, Əli adlı oğlanla ailə qurub, üç qızı, bir oğlu var. Tünzalə, Yeni Mil qəsəbəsindən Eldənizlə evlidir, üç oğlu var.

**Əli Əbil** oğlu, Beyləqanda anadan olub. Hərbi xidmətdən sonra Su Meliorasiya Trestində mexanizator işləyib. Əli, Xu-

daverdinin böyük qızı Sahibə xanımla ailəlidir. Bu cütlüyün dörd övladı dünyaya gəlib.

Oğlu: Təbriz, qızları: Arzu, Aygün, Sahilə.
Təbriz, Əlinin yeganə bir oğludu. O, Beyləqan şəhərində doğulub, böyüyüb və hazırda Sərhəd Qoşunlarında müddətdən artıq hərbiçi kimi xidmət edir.Təbriz atasının əmisi oğlu Mahirin qızı Susanə xanımla ailə qurub, Yusif adlı bir oğlu var.

Əlinin qızları: Arzu Talıbxanlı tayfasından Teymurla ailəlidir, Tuncay və Hüseyn adlı iki oğlu var. İkinci qızı Salmanın oğlu Zahirin, kiçik qızı Sahilə, dayısı Elşadın oğlu Müşfiqin həyat yoldaşıdır.

**Əkbər** Əbil oğlu, yaxın qohumu Atakişinin qızı Yetər xanımla ailə qurub. Əkbərin Vüsal adlı oğlu, Vüsalə və Lalə adlı iki qızı var. Vüsal əmisi nəvəsi Gülşən xanımla evlənib, Əkbər adlı bir oğlu dünyaya gəlib.

Əkbərin qızları: Vüsalə, Eldarla evlidir, iki qız anasıdır. Lalə əmisi oğlu Ələsgərin həyat yoldaşıdı . Onların bir oğlu, bir qızı var.

Əbil kişinin birinci həyat yoldaşından olan Fənarə xanım əmisi oğlu Əhlimanla ailə qurub. İkinci həyat yoldaşından olan Tamara xanım, Murtulu tayfasından Ağahəsən kişinin oğlu Soltanla ailə qurub, övladları var və Beyləqan şəhərində yaşayırlar.



**Zəkaray** Qəhrəman oğlu (1912-2006), 1912-ci ildə Budaqlı elatında dünyaya göz açıb. O, həmişə qardaşları ilə birlikdə yaşayıb. Ata-babasının yolunu getməklə demək olar ki, ömrü boyu

qoyunçuluqla məşğul olubdur. Zəkaray, Əbillə doğma, Şəvahətla atadan bir, anadan ayrı qardaşdırlar. Ümumiyyətlə, bu qardaşlar həmişə böyük qardaşları Şəvahətin yanında olublar. Zəkaray kişi, 1941-ci ildə II Dünya Müharibəsi başlandığı ilk gündən cəbhəyə getmişdi. O, Ukraynadan, Leninqraddan tutmuş Berlinə qədər 255 saylı hərbi hissədə döyüş yolları keçmişdir. Zəkaray kişi bir neçə dəfə döyüşlərdə yaralanmış, sağaldıqdan sonra yenə də döyüş bölgəsinə qayıtmışdı. Zəkaray kişi axırıncı dəfə 1945-ci ilin aprel ayında ayağından ağır yaralanmış və hospitalda müalicə olunub xidmət etdiyi hərbi hissəyə qayıtmışdı. 1945-ci ilin mayın 9-da SSRİ-nin Almaniya üzərində qələbəsindən sonra Zəkaray kişinin, xidmət etdiyi polk uzaq şərqə Yapon sərhəddinə köçürülmüşdü. Orda bir müddət xidmət etdikdən sonra 1945-ci ilin sentyabr ayında hərbidən tərxis olunub doğma yurdu Azərbaycana qayıtmışdı. Zəkaray kişi müharibə veteranlığı ilə bərabər həm də əmək veteranı olub. O, müharibədə bir neçə dəfə igidliyə görə orden və medallarla təltif olunub və çox sayda döş nişanları alıbdır. Zəkaray kişi SSRİ-nin Almaniya üzərində qələbəsinin 20, 30, 40, 50, 60, 70-illiyi münasibəti ilə keçirilən qələbə bayramlarında medallarla təltif olunubdu. Bundan əlavə Zəkaray kişi 1955,1957 və 1958-ci illərdə Moskva şəhərində keçirilən Kənd Təsərrüfatı sərgisinin iştirakçısı olub və hər dəfə də medallarla keri qayıdıb. 1975-ci ildə Zəkaray kişiyə əmək veteranı kitabçası və döş nişanı təqdim olunub. Zəkaray kişi həyatın ağır sınaqlarından keçməsinə baxmayaraq, uzun ömür 94 il yaşaya bilmişdi. O, uzun müddət Beyləqan rayon "Qoyunçuluq sovxoz"unda baş çoban vəzifəsində çalışmışdı və həmişə öz işinin öhdəsindən layiqincə gələ bilmişdi. Zəkaray kişi, Əlinəzərli kəndindən Güldəstə (1927-

2001) xanımla ailə qurub və onların səkkiz övladı anadan olubdur.

Oğlanları: Ədalət, Rasim (1957-2011), Eldar, Vaqif, Oruc (1965-2019), Mahir, Qızları: Zəhra, Marusa.

Zəkaray kişi 2006-cı ildə Beyləqan şəhərində dünyasını dəyişib. O, Peyğəmbər qəbirstanlığında həyat yoldaşının yanında dəfn olunubdu. Zəkaray kişinin həyat yoldaşı Güldəstə xanım 2001-ci ildə rəhmətə gedib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdur.

**Ədalət** Zəkaray oğlu, 1955-ci ildə Beyləqan şəhərində anadan olub. O 1 saylı tam orta məktəbi bitirdikdən sonra H.B.Zərdabi adına (indiki Gəncə Dövlət Universiteti) Kirovabad Pedaqoji İnstitutunun tarix fakültəsində ali təhsil alıbdı. O ömrünün 40 ilini pedaqoji fəaliyyətlə məşğul olubdu. Ədalət müəllim uzun müddət Beyləqan şəhər 5 saylı orta məktəbində tarix fənnini tədris edib. Hazırda təqaüdçüdür. Onun şagirdlərinin əksəriyyəti bu gün ali təhsilli mütəxəssislərdi. Ədalət müəllim Xatirə xanımla ailə qurub, onların iki oğlu Zaur və Fuad dünyaya gəliblər.

Zaur, B.Xmelnski adına Serkat Milli Universitetini vergi üzrə mütəxəssis fakültəsini bitirib. O, ata qohumu Pənahın qızı Məlahət xanımla ailə qurub, onların Fərid və Ədalət adlı iki oğlu var. Nəvə Ədalət babasının adını daşıyır. Mətanət xanım, Şamaxı Humanitar Kollecinin sinif müəlliməsi fakültəsini bitiribdi.

Fuad Ədalət oğlu, Azərbaycan İqtisad Universitetinin mühasibat-uçot və AUDT fakültəsini bitiribdi. Fuad hələ ki, subaydı.

Ədalət müəllim, atası haqqında olan xatirələrini, onun keçdiyi keşməkeşli həyat yollarından həmişə ürək dolusu danı-

şır. Ən çox atası Zəkaray kişi müharibə illərində, döyüş bölgəsində, səngərlərdə başına gələn əhvalatları övladlarına bir xatirə kimi danışardı. Ədalət müəllimin dediklərindən:

- Atam mənə başına gəlmiş çox hadisələrdən danışıbdı. O, deyərdi bala mən çətin, ağrılı günləri çox yaşamışam. Dəfələrlə ölümlə üz-üzə gəlmişəm. Həmişə də məni Allah qoruyub saxlayıb. Atam deyirdi:- biz Leninqrad yaxınlığında döyüşürdük. Həmin qəsəbə nemeslərdən azad olunmuşdu. Biz 12 nəfər döyüşçü tapşırığa əsasən, bir bazaya keşik çəkirdik. Həmin baza qismən arxada olduğu üçün növbəliklə bir nəfərimiz keşik çəkir, qalanımız dincəlirdik. Gözlənilmədən almanlar həmin bazanı minamyotla vurdular. Mən ayılanda bir müddət özümə gələ bilmədim və bir təhər sürünüb qapıya çıxa bildim. Əlimdə avtomat silahım varıydı, ancaq huşum özümdə deyildi. Elə bil ki, hissiyatımı itirmişdim. Mən binanın çölündə divara söykənib oturmuşdum və silahım da əlimdəydi. Kənardan səliqəli sovet geyimində üç nəfərin gəldiyini gördüm. Onlar mənə çatanda mən bir anlıq huşumu itirdim. Mən özümə gələndə içəridə qışqırıq səsləri eşidirdim, ancaq anlaya bilmirdim. Bir də gözümü açanda gördüm silahımın sandıqçası üstündə yoxdu. Həmin üç nəfər içəridən çıxıb getdi və mən bir təhər içəriyə girə bildim. Binanın içində bir rus qadını var idi ona yaxınlaşıb soruşdum ki, onlar kimiydi? Qadın mənə dedi onlar alman kəşfiyyatçılarıdır. Onlar burda 12 kq qızıl qoymuşdular, onu aparmağa gəlmişdilər. Mən o qızılları gizləmişdim, yerini demədim. Onlar da məni döyüb getdilər. Həmin rus qadını mənə dedi ki, sənin silahının sandıqçası ordadır götür. Mən xanıma dedim:

- Onlar bizi öldürə bilərdi, nə yaxşı öldürmədi. Rus qadını isə cavabında:

- Onlar kəşfiyyatçılarıydı, iz qoymaq istəmədilər.
Rus qadını mənim gözümün qabağında həmin qızılları apardı Müdafiə Fonduna təhvil verdi. Mənim yoldaşlarımın çoxu həlak olmuşdu, ancaq məni yenə Allah saxlamışdı.

Zəkaray kişi söyləyirdi ki, Ukrayna cəbhəsində ağır döyüşlər gedirdi. Hər gün ətrafımda onlarla insanlar həlak olurdu. Döyüşdə ölənləri, yaralı əsgərləri daşımaq üçün Odessadan gəlmiş gənc qızlardan ibarət tibb işçiləri gətirmişdilər. Bu qızlar özlərini odun-alovun içinə ataraq yaralılara yaxından kömək edirdilər. Günlərin birində şiddətli döyüş gedirdi, hər tərəfimizdə mərmi partlayır, qışqırıq səsləri, müharibənin ölüm qoxusu ətrafı bürümüşdü. Səngərdən başını qaldırıb yaralanmış əsgərlərə kömək etmək də mümkün deyildi. Mən də səngərdə uzanıb imkan düşdükcə atəş açırdım. Elə bu zaman düşmənin bir mərmisi qarşımda partladı və göydən qucağıma bir yekə şey düşdü. Mən əvvəlcə elə bildim ki, top mərmisidi, gözümü bərk-bərk yummuşam ki, indi patlayacaq. Ancaq partlamadı. Gözümü açdım ki, qucağımdakı tibbi işçilərindən bir qızdı. Mən cəld qızı qucaqlayıb özümü ona sipər etdim ki, yaralanmasın. Həmin qız özünə gəldi və ən əziz adamı kimi məni qucaqladı dedi:

- Qafqazlı oğlan sən mənim xilaskarımsan, adım Marusadı. Sən məni ölümdən qurtardın. Mən sənə bir can borcluyam.

Çox keçmədi döyüş də səngidi, onlar tanış oldular, Zəkaray adını qısa formada təqdim etdi:

- Zakar deyib əl verdi tanışlığımıza çox şadam, amma Marusa xanım, məni həmişə Allahım qoruyur. Çox ağır döyüşlərdə iştirak etsəm də salamat qalmışam. Sən mənim qucağıma düşəndə elə bildim ki, mərmidi, gözümü açanda səni gör-

düm və öz bədənimlə səni qorudum. Marusa, indi başa düşürəm ki, bəlkə səni elə Allahım mənə qismət payı göndərib. Marusa onu yenidən qucaqladı, Zəkarayın bu sözünə gülüşdülər, Marusa dedi:

- Zakar icazə versən mən də sənin Allahına sığınaram. Mən Azərbaycanlılar haqqında çox eşitmişdim. Həzi Aslanov, Qafur Məmmədov, Hüseyinbala Əliyev haqqında məlumatlarım var. Bu gün gözümlə gördüm ki, siz qorxmaz millətsiniz.

- Marusa bizim xalq qoçaqlığı qədər də səmimi və mehribandı, dostluğa sədaqətli millətik. Cavan tibb işçisi Marusa vurulmuşdu əməlli başlı bu Azəri oğluna. Demək olar ki, vaxtı olan kimi qaçar Zəkarayın yanına sanki, ondan bir təsəlli alardı, ona güvənirdi. Marusa bütün varlığı ilə vurulmuşdu Zəkaraya. Elə Zəkaray da bu dəcəl qızdan ayrı dura bilmirdi. Amma özü də bilmirdi ki, bu bir sevgidirmi, yoxsa əyləncə. Amma doğrudan məhəbbət hissi oyanmışdı onların arasında. Hətta onlar söz vermişdi ki, onları ölüm ayıra bilər. Əgər işdi hansı həlak olsa, ailə quranda övladına bir-birinin adını versin. Marusa öz yaşayış ünvanını verib demişdi heç kimim yoxdu, bir anam var, bir də sənsən, əgər ölsəm anama ölüm xəbərimi çatdırarsan. Zəkarayı özü dediyi kimi Allahı qorudu, ancaq Marusa onun qucağında dünyasını dəyişdi. Zəkaray bir Azərbaycan kişisi kimi sözünün üstündə durdu, qızı olanda adını Marusa qoydu. Zəkaray kişi deyirdi:- Marusanın son arzusunu yerinə yetirə bilmədim. Çünki, bizi müharibə bitdikdən sonra Uzaq Şərqə apardılar. Oradan isə bir başa yük qatarına yığıb Azərbaycana göndərdilər. Mən onun ölüm xəbərini anasına çatdıra bilmədim.

**Rasim** Zəkaray oğlu (1957-2011), Beyləqan şəhərində anadan olub. O, Azərbaycan İnşaat Mühəndislər İnstitutunu (indiki İnşaat Mühəndislər Universiteti) bitirib, Bakı şəhərində əmək fəaliyyətinə başlayıb. Rasim Bakı şəhər sakini Yeganə xanımla ailə qurub, onların dörd qızı anadan olub. Uşaqların hamısı Bakı şəhərində doğulublar.

Qızları: Arzu, Könül, Aygün, Elnurə.

Arzu Rasim qızı, ADPU-nin coğrafiya fakültəsini bitirdikdən sonra ixtisası üzrə iki il magistratura təhsili alıb. Arzu xanım hal-hazırda ixtisası üzrə Bakı şəhərində işləyir. O, Elməddin adlı oğlanla ailə qurub bir oğlu və bir qızı var.

Könül xanım, Sumqayıt Dövlət Universitetinin psixologiya fakültəsini bitirib, psixoloqdu. O, əslən Naxçıvan şəhərindən olan Orxanla ailəlidir. Onların bir oğlu, bir qızı dünyaya gəlib.

Aygün xanım, ADPU-nin məktəbə qədər fakültəsini bitirib, ixtisası üzrə bağça müəllimməsi vəzifəsində çalışır. Aygün xanım, Lənkəran şəhər sakini Ruslanla ailə qurub, onların bir oğlu var.

Elnarə xanım, Azərbaycan Memarlıq İnşaat Mühəndislər Universitetini bitirib. Elnarə xanım Elman adlı oğlanla ailəlidir, onların bir oğlu dünyaya gəlib.

Rasim 2011-ci ildə Bakı şəhərində rəhmətə gedib və Bakı şəhərində dəfn olunubdur.

**Eldar** Zəkaray oğlu, Beyləqan şəhərində doğulubdu. O, ata qohumu Dərgahın qızı Aidə xanımla ailə qurub. Bu cütlüyün Emin və Günel adlı övladları dünyaya göz açıb. Eldarın qızı Günel xanım, Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialında ibtidai-metodika fakültəsini bitirmişdi. O, xeyli müddət Budaqlılar yaşayan Sarısu kənd tam orta məktəbində təd-

ris hissə müdiri vəzifəsində işləmişdi. Günel xanım, Budaqlılar kəndində Sevindiklə ailə qurmuş və bir övladı olmuşdu. Təəssüflər olsun ki, qız övladını dünyaya gətirərkən Günel xanım dünyasını dəyişib. Günel xanımdan yadigar qalan qız uşağı Günelin adını daşıyır. Balaca Günel həyatdan vaxtsız köçən anasının adını yaşadır. Günel xanım Peyğəmbər qəbirstanlığında əzizlərinin qəbri yanında dəfn olunub. Eldarın oğlu Emin, Serkar Texnologiya Universitetinin Maliyyə-uçot fakültəsində təhsil alır.

**Vaqif** Zəkaray oğlu, Beyləqan rayon Dünyamalılar kənd sakini Məharət xanımla evlənib. Onların Pərviz, Fariz adlı iki oğlu var. Pərviz, Lənkəran Dövlət Universitetinin maliyyə-kredit fakültəsini bitirib.

**Oruc** Zəkaray oğlu (1965-2019), Vəzifə (1967-2018) xanımla ailə qurub.Bu cütlüyün Niyaməddin və Jalə adlı övladları var. Jalə Xocavənd rayon sakini Firavanla ailə qurub. İki oğlu var. Niyaməddin subaydı. Orucun həyat yoldaşı Vəzifə xanım 2018-ci ildə, Oruc özü isə 2019-cu ildə dünyasını dəyişib, Peyğəmbər qəbirstanlığında dəfn olunublar.

**Mahir** Zəkaray oğlu, Şahsevən kənd sakini Zəminə xanımla ailəlidir. Onların Təbriz adlı oğlu və Süsana adlı bir qızı var. Mahirin qızı Süsana ata qohumu Əlinin oğlu Təbrizin həyat yoldaşıdır. Bu cütlüyün bir oğlu var. Mahir Beyləqan rayon Yeni Mil qəsəbəsində yaşayır.

Zəkarayın qızı Zəhra ailə həyatı qurmayıb. Qardaşı Mahirlə bir ailədə yaşayır, Zəkərayın ikinci qızı Marusa, qonşuları əslən Ağdamlı Əmirlə ailə həyatı qurub və onların dörd oğlu, bir qızı anadan doğulubdu. Bu ailə Beyləqan şəhərində yaşayır...

# KƏRBƏLAYI ŞİRİNLİ TİRƏSİ

Kərbəlayı Şirinli tirəsi, Budaqlı tayfasının bir qoludur. Başqa tirələr kimi bu tirə də əzəli və kökü bir nəsilə bağlanan camaatdır. Əslində bu tirələr XVII-XVIII əsrlərdə yaşamış Qulu kişinin törəmələridir. Qulu Hacı Hüseynin atasıdır. Bu günə qədər Kərbəlayı Şirinli tirəsi babaları Qulunun soyadını daşıyırlar. Tirə halında olmaqla onlar Budaqlı elatı kimi eyni məkanda yaşamış insanlardı. Bu tayfada gənclər ailə həyatı quranda tirə sözü hallanmayıb. Buna görə də Budaqlıda olan beş tirənin hamısı bir-birinə qan qohumudur. Budaqlı tayfasının tirələrindən asılı olmayaraq, hər bir insan, övladı olanda çalışmışdır ki, öz ata-babasının adını yaşatsınlar. Adlara fikir verəndə bir nəsildə neçə adamın adı təkrar olunduğu görünür. Sanki, bu hal bütün elat camaatında belə dəbdə olub. Uşaq anadan doğulanda ona yeni ad seçimi olunmayıb. Doğulan körpə uşağa ya babasının-nənəsinin, ya da əmisinin-dayısının və yaxud, bibisinin-xalasının adını qoyurdular.

Kərbəlayı Şirindən əvvəl bu tirənin ağsaqqalı Hacı Hüseyn olub. Hacı Hüseyn dövrünün sayılan adamlarından olmuşdu. Ömrünün sonuna qədər elat tayfasının içində yaşamış və elinə-obasına bağlı bir kişi olmuşdur. Hacı Hüseynin beş oğlu olub.

Oğlanları: Kərbəlayı Şirin, Kərbəlayı Həsənqulu, Nəcəfqulu, Zal, Qaraş.

Hacı Hüseynin özündən əvvəl və yaxud özündən sonra olan nəslin davamçıları, babaları Qulunun soyadını daşımış və hazırki zamanda da bu soyadı daşıyırlar. Bunlardan yalnız Zalın nəvə, nəticələri onun, yəni babaları Zalın soyadın daşıyırlar. Beyləqan şəhərində kompakt yaşayırlar. Qalanları Kərbəla-

yı Həsənqulunun, Kərbəlayı Şirinin və Qaraşın davamçıları Quluyev soyadını daşımaqla babalarının adını yaşadırlar.

Hacı Hüseyn öz sağlığında oğlu Şirin və Həsənqulunu Kərbəla ziyarətinə göndərmişdir ki, özündən sonra böyük oğlu Şirin onun yolunu davam etdirmişdi. Bu tirənin müasir nümayəndələrinin çoxu hazırda Beyləqan şəhərində yaşayırlar. Kərbəlayı Şirinin iki oğlu və bir qızı olubdur.

Oğlanları: Növzər, Rza, qızı : Ballı.

**Növzər** Kərbəlayı Şirin oğlu, Budaqlı elatında anadan olub, hamı kimi o da köçəri həyat sürüb, heyvandarlıqla məşğul olubdur. Növzər, Mənsuma adlı xanımla ailə qurub, onların iki oğlu dünyaya gəlibdi.

Oğlanları: Seyfəli, Şirin.

Burada göründüyü kimi Şirin yenə öz babasının adını daşıyıb. **Seyfəli**, əmisi oğlu Musanın qızı Savad ((1918-2000) xanımla ailə həyatı qurub və onların 1941-ci ildə **İltifat** adlı bir oğlu olubdur. 1941-ci ildə Seyfəli II Dünya Müharibəsinə gedib və döyüşdə şəhid olub. Seyfəli müharibəyə gedən vaxt İltifat ana bətnində olub. İltifat öz doğma atasının üzünü görməyibdi. Müharibədən çox sonra İltifatın anası Savad xanım Hacılı tayfasından bəy nəslindən olan Salah bəylə ailə qurubdu. Salah bəydən Savadın başqa övladı olmayıb. Onlar birlikdə İltifatı böyüdüblər.

Salah kişi İmişli rayon Əliqulular kəndində dünyasını dəyişib, "Ənbərə" qəbirstanlığında dəfn olunub. Savad xanım, 2000-ci ildə İmişli rayonunda rəhmətə gedib, Beyləqanda Peyğəmbər ziyarətgahı qəbirstanlığında doğmalarının yanında dəfn olunub.

İltifat, atalığı Salah bəyin qardaşı Həbib bəyin qızı Ağca xanımla evlənib ailə qurubdu. Onların dörd oğlu, dörd qızı olubdur.

**Oğlanları**: Əli, Valeh, Taleh, Rövşən, qızları: Lətifə, Xatirə, Vahidə (Vəsilə), Rübadə.

İltifat, Kənd Təsərrüfatı İnstitutunu bitirmiş və Budaqlının ilk ziyalılarından olmaqla uzun müddət məsul vəzifələrdə çalışmışdır. Quluyev İltifat Seyfəli oğlu, İmişli rayonu Əliqulular kəndində baş Zootexnik, İmişli rayonu Komsomol Komitəsinin əvvəl katibi, sonra birinci katibi, Muğanlı kolxozunun sədri, Əliqulular kolxozunun sədri vəzifələrində çalışmışdır. İltifat, uzun müddət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İmişli bölməsində müxtəlif vəzifələrdə işləmişdir. İltifat İmişli şəhərində yaşamış, 2015-ci ildə rəhmətə gedib.

O, Beyləqan rayon Cərcis Peyğəmbər qəbirstanlığında anası Savadın qəbrinin yanında dəfn olunmuşdur. İltifatın həyat yoldaşı Ağca xanım yanvar 2021-ci ildə İmişli şəhərində dünyasını dəyişmiş və Cərcis Peyğəmbər qəbirstanlığında həyat yoldaşının qəbri yanında dəfn olunub.



*Şəkildə Soldan Aydın, İltifat, Həşim*

**Əli İltifat** oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub. O, orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutuna qəbul olmuş və mühəndis diplomu almışdır. Əli, əmək fəaliyyətinə İmişli rayonunda başlamış və müxtəlif yüksək vəzifələrdə çalışmışdı. Əli, Aybəniz adlı xanımla ailə qurub, onların Saleh adlı oğlu, Türkan adlı qızları anadan doğulub. Saleh və Türkan hər ikisi Azərbaycan İqtisad Universitetinin maliyyə-kredit fakültəsini bitiriblər. Əlinin oğlu Saleh, bibisi Xatirənin qızı Anarə xanımla evlidi. Onların Aybəniz adlı bir qızı var. Əlinin həyat yoldaşı Aybəniz xanım, cavan yaşında dünyasını dəyişdi. O, ikinci dəfə Günel xanımla evlənib, ancaq bu cütlükdən övlad doğulmayıb. Əli hazırda siyasi fəaliyyətlə məşğuldu və AXCP, İmişli rayon bölməsinin sədridi.

**Valeh** İltifat oğlu, İmişli rayon Əliqulular kəndində doğulub, orta məktəbi bitirdikdən sonra İqtisad Universitetinə qəbul olmuş və iqtisadiyyat fakültəsini bitirmişdi. Valeh öz ixtisası üzrə müxtəlif vəzifələrdə çalışmış, hazırda bizneslə məşğuldu. Valeh, Tovuz rayon sakini Samirə xanımla evlənib, Ayxan adlı bir oğlu, Səma, Aytac adlı iki qızı var. Səma, Türkiyənin İzmir şəhərində Tibb Universitetində təhsil alır. Valeh ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

**Taleh** İltifat oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub, orta məktəbi bitirdikdən sonra Azərbaycan Texnologiya İnstitutuna qəbul olub. Texnoloq kimi əmək fəaliyyətinə başlayıb, hazırda bizneslə məşğuldur. Taleh, Ağdaş rayon sakini Rəqsanə xanımla ailə qurub, onların iki oğlu Fərhad və İltifat doğulub. Fərhad Ukraynada İqtisad Universitetində təhsil alıb. Taleh ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

**Rövşən** İltifat oğlu, İmişli şəhərində doğulub. O, Politexnik Texnikumunda təhsil alıb, orta təhsilli mühəndisdir. Rövşən İmişli rayon sakini Gülbəniz xanımla ailə qurub. Onların üç övladı dünyaya gəlibdi. Oğlu: Fərid, qızları: Nərmin, Rumiyyə. Nərmin və Rumiyyə bacılarının hər ikisi Azərbaycan Dillər Universitetində təhsil alır. Rövşən ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

İltifatın böyük qızı Lətifə, Talıbxanlı tayfasında Mikayılın oğlu Rəhim müəllimlə evlidir. Rəhim müəllim, riyaziyyat üzrə elmlər doktorudu, bir neçə Universitetdə dərs deyir və Bakı şəhərində yaşayır. İltifatın digər qızları Xatirə (Nazilə) Yusiflə, Rübadə İmamqulu ilə, Vahidə (Vəsilə) Bəybala ilə ailəlidirlər və hər birinin övladları var.

**Şirin**,(1916-1975) Növzərin ikinci oğludu. Şirin də həmişə öz tayfasının içində yaşamışdı. O da digər qohumları kimi qoyunçuluqla məşğul olmuşdu. Şirin əmisi oğlu Zülfiqarın qızı Səmərlə (1933-2005) evlənib, ailə həyatı qurmuşdu. O, qızlarının birinə anası Mənsumanın adını qoymuşdu. Şirin, Budaqlı kolxozu birləşəndən sonra 1951-ci ildən etibarən İmişli rayon Əliqulular kəndində yaşamışdı. O, zəhmətkeş insan olmaqla öz halal zəhməti ilə dolanan kişilərdən olub. Şirin kişi kolxozlar birləşəndən sonra köçəri həyat tərzindən aralanmış və oturaq həyat tərzinə keçməklə əkinçiliklə məşğul olmuşdur. Şirin kişi 1975-ci ildə indiki Budaqlılar yaşayan kəndə göçüb gəlmiş və həmin kənddə rəhmətə getmişdi. O, "Ənbərə" qəbirstanlığında dəfn olunub. Şirin kişinin həyat yoldaşı Səmər xanım 2005-ci ildə Beyləqan şəhərində dünyasını dəyişib, Peyğəmbər qəbirstanlığında dəfn olunubdu. Onun beş oğlu, dörd qızı olubdur.

Oğlanları: Vaqif, Raqif, Eynulla, Xeyrulla, Şahin.

Qızları: Minarə, Firəngiz, Mənsuma, Aidə.

Şirin kişinin övladları Budaqlılar kəndində və Beyləqan şəhərində yaşayırlar. Şirin kişinin böyük oğlu Vaqifin (1950-2015), üç dəfə ailə qurmasına baxmayaraq övladı olmamışdı. Vaqif 2015-ci ildə Budaqlılar kəndində dünyasını dəyişmiş, Peyğəmbər qəbirstanlığında anasının yanında dəfn olunub.

Raqif, Şirin kişinin ikinci oğludu. O, İmişli rayon Əliqululular kəndində anadan olub. Ailəsi ilə birlikdə Beyləqan şəhərinə köçüb. Raqif Dağlıq Qarabağın Tuğ kənd sakini, ana qohumu Almaz (1961-1993) xanımla evlənibdi. Bu cütlüyün Seymur adlı oğlu, Günel və Günay adlı iki qızı var. Seymur Raqif oğlu, Beyləqan rayon Əmirzeyidli kənd sakini Xatın xanımla ailəlidir, onların Emin adlı bir oğlu anadan doğulub. Raqifin qızları: Günel, Xocavənd sakini Qabil adlı oğlanla ailə qurub, iki oğul, bir qız anasıdır, Günay, Eyvazalılar kənd sakini Nemətlə evlidir, bir qız, bir oğul anasıdır. Raqifin həyat yoldaşı Almaz, 1993-cü ildə Beyləqan şəhərində dünyasını dəyişib, Peyğəmbər qəbirstanlığında dəfn olunub. Raqif ikinci dəfə Xocavənd rayon sakini Fiqurə adlı xanımla evlənib, Beyləqan şəhərində yaşayır. Bu xanımdan övladı yoxdu.

Eynulla Şirin oğlu, iki dəfə ailə qurub, lakin övladları olmayıb.

Xeyrulla Şirin oğlu, Budaqlılar kəndində yaşayır. O, yaxın qohumu, həm də yaxın qonşusu olan Şuriyyə kişinin nəvəsi Rəsmiyyə xanımla ailə qurub. Onların Rahil adlı bir oğlu dünyaya gəlib.

Rahil Xeyrulla oğlu, Hacılı tayfasından Günel xanımla evlənib, Sevinc adlı qızları var.

Şahin Şirin oğlu, ailənin son beşiyidir. O, Əlinəzərli kənd sakini Cahan xanımla ailə qurub, Rabil, Murad adlı iki oğlu və Səmər adlı bir qızı anadan doğulub. Şahin hazırda Budaqlılar kəndində yaşayır. Şirinin qızları: Minarə, İdahatın oğlu Vaqiflə ailəli olub, bir oğlu, dörd qızı var. Şirin kişinin ikinci qızı Firəngiz ailəlidir övladı olmayıb. Mənsuma (1957-2019) ailə həyatı qurmayıb və qardaşı Xeyrullanın yanında yaşamışdı. Mənsuma 2019-cu ildə Budaqlı kəndində dünyasını dəyişib, Peyğəmbər qəbirstanlığında qardaşı Vaqifin yanında dəfn olunub.

**Rza**, Şirin kişinin ikinci oğludu. Rza, Budaqlı elatında Kərbəlayı Mehdinin qızı Əntiqə xanımla ailə həyatı qurub və onların Həmid adlı yeganə bir oğlu olubdur. O, qardaşı Növzərnən bir yerdə yaşamışdı. Rza, oğlu Həmidə toy etdi, Mehdilər tirəsindən Qəhrəmanın qızı Qənəhəti öz evinə gəlin gətirmişdi. Həmidin iki oğlu, bir qızı olub.

Oğulları: Cəlil, Xəlil, qızı: Əntiqə.

Həmid, öz anasının adını qızına qoymuşdur ki, hazırda Əntiqə nənəsinin adını yaşadır. Həmid, 1942- ci ildə II Dünya Müharibəsinə getmiş və 1943-cü ildə döyüş zamanı həlak olmuşdu. Həmidin müharibədən ölüm haqqında məktub gəldikdən sonra onun ailəsi dayılarının yanında böyümüşdü. Onlar da dayıları ilə birlikdə Beyləqan rayonuna köçüb, "Qoyunçuluq" sovxozunda çalışmışdılar.

**Cəlil (1935-2015),** Murtulu tirəsindən Məcidin qızı Bikə ilə ailə qurmuşdu. Onların övladı olmayıb, ayrılıblar. İkinci dəfə Aşıqlıdan Balaca kişinin qızı Raya xanımla evlənib, ailə qurmuş, onların övladları dünyaya gəlmişdi.

Oğlanları: Həmid (1963-2002), Elçin Natiq, Namiq.

Qızları: Nəzminə, Nərminə, Səadət.

Cəlil böyük oğluna atasının adını qoyubdu. Təəssüflər olsun ki, Həmid də babası Həmid kimi az ömür yaşadı. Cəlil, 2015-ci ildə Beyləqan şəhərində rəhmətə gedib, Peyğəmbər qəbirstanlığında oğlunun yanında dəfn olunubdur.

Həmid Cəlil oğlu(1963-2007), Borçalı mahalından Gülçin adlı xanımla ailə qurub, onların iki oğlu Vüsal və Elməddin dünyaya gəlibdi. Həmid, 2007-ci ildə gənc yaşlarında Beyləqan şəhərində rəhmətə gedib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdur. Elməddin Həmid oğlu, BDU-nun Geologiya fakültəsini bitirib, hazırda Beyləqan şəhərində yaşayır. Elməddin Borçalı mahalından dayısı qızı Aytəkin xanımla ailə qurub, onların Gülçin, Məryəm adlı iki qız övladı var. Vüsal Həmid oğlu, Borçalı mahalından dayısı qızı Aytən xanımla evlənibdi. Bu cütlüyün Nurlan, Həmid adlı iki oğlu anadan olubdu. Həmidin nəvəsi, Vüsalın oğlu Həmidin adını yaşadır. Həmidin oğlu Vüsal və Elməddin aldıqları xanımlar bacıdırlar.

Elçin Cəlil oğlu, Əslən Cəbrayıl rayonundan olan Misir kişinin qızı Könül xanımla evlidir. Elçinin Seymur, Rəhim adlı iki oğlu var. Seymur ATU-nin IV kurs tələbəsidir.

Namiq Cəlil oğlu, Əlinəzərli kənd sakini Sinsaf xanımla ailə qurub. Nicat və Cəlil adlı övladları dünyaya gəlib. Nicat tibb işçisidir, hərbidə həkim vəzifəsində xidmət edir, Cəlil, Azərbaycan Neft Akademiyasını bitirib, hazırda ixtisası üzrə magistratura təhsili alır.

Natiq Cəlil oğlu, ana qohumu Ağcabədi rayon Muğanlı kənd sakini Nigar xanımla ailə qurub. Natiqin Elşad, Nihad, Əli adlı üç oğlu anadan olubdu. Ailənin böyük oğlu Elşad Azərbaycan Texniki Universitetinin III kursunda təsil alır. Natiqin Nihad adlı bir oğlu (2004-2009) avtoqəzada beş ya-

şında dünyasını dəyişib. Hazırda yaşayan Nihad rəhmətlik qardaşının adını yaşadır.

Cəlilin qızı Səadət, Baloğlanla ailəlidir, Rəşad və Gülşən adlı övladları var. Nərminə, Ağcəbədi rayon sakini Hafizlə evlidir, Vüsalə, Habil, Tehran adlı övladları var. Nəzminə, ailə həyatı qurmayıb, qardaşı Natiqin himayəsində yaşayır.

**Xəlil (1933-2001),** Rzanın ikinci oğludu. Qardaşı ilə birlikdə Beyləqan rayonunda yaşayıb. Xəlil, Laçın rayonu Qarakeşiş kəndindən kürd qızı Səriyyə ilə evlənib, onların övladları dünyaya gəlibdir.

Oğlanları: Tofiq, Arif, Rafiq, qızları: Almara, Gülxara.

Xəlil, sakit təbiətli, heç kəslə işi olmayan, çox az danışan, və öz halal zəhməti ilə dolanan kişi olub. Onun özünə məxsus həyat tərzi olubdur. Səhər yuxudan qalxar, bir tikə çörək yeyib gedərdi heyvan otarmağa. Ondan söz soruşanda belə az cavab verərdi. Sanki söz deməyə həvəsi olmazdı. Xəlil, yaşlanıb təqaüddə olan vaxtlarda öz şəxsi heyvanlarını səhər aparar otarmağa, axşam gətirərdi qapıya. Xəlil oğlu Tofiqin böyük toyunda otardığı heyvanı ağacın altına yığıb nahar vaxtı gəlir toya. Yeyib içəndən sonra yaxınlaşır nəmər yazana bir 25-lik verib deyir mənim adımı yaz. Nəmər yazan Nazim deyir:

- Ay Xəlil dayı sənin oğlunun toyudu, camaat sənə görə nəmər yazdırır, sən kimə görə yazılırsan? Xəlil də cavabında deyir:

- Nazim, oğlumun toyu olsa da kişinin adı siyahıdan çıxmaz, sən adımı yaz nəmər dəftərinə.

Nazim də bir söz demir adını yazır siyahı dəftərinə. Bu da onun sadəlövlüyündən irəli gəlirdi. Xəlil kişi, Beyləqan şəhə-

rində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdur.

Tofiq Xəlil oğlu, ata qohumu Əhlimanın qızı Nəzakət xanımla evlidir. Onların Ülviyyə, Günay, Nuranə, Şəlalə adlı dörd qızı var. Tofiqin böyük qızı Ülviyyə ata qohumu İltizamın ağlu Ramilin həyat yoldaşıdır. Günay, Dünyamalılar kənd sakini Süleymanla ailəli olub. Süleyman 2019-cu ildə avtomobil qəzasında rəhmətə gedib. Nuranə və Şəlalə hər ikisi ailəlidir, Bakı şəhərində yaşayırlar.

Arif Xəlil oğlu, İmişli rayon Boşçallar kənd sakini Mülkü xanımla ailə qurub. Onların Əhməd adlı oğlu, Leyla adlı bir qızı var. Arif 2019-cu ildə rəhmətə gedib.

Rafiq Xəlil oğlu, İmişli rayon Boşçallar kənd sakini Sevil xanımla evlənib, Marif, Səriyyə adlı övladları Beyləqanda yaşayırlar.

Xəlilin qızı Almara, Boşçallardan Maşallah ilə ailəlidir, bir oğlu, bir qızı var. Gülxara, İmamverdilər kənd sakini Vaqiflə ailə qurub, Şaiq, Faiq, Yeganə adlı övladları var.

Həmidin yeganə qızı Əntiqə, Zalov Musanın həyat yoldaşıdır. Onun Məhəmməd, Fərman, Ofelya, Məleykə, Şövkət, Susanə adlı övladları doğulub, ailəlidirlər və Beyləqan şəhərində yaşayırlar.

**Quliyev Həsənqulu Hacı Hüseyn oğlu**, ailənin ikinci oğludur. O, atasının sağlığında Kərbəla ziyarətində olmuş və Kərbəla titulu qazanmışdı. O, qardaşları ilə bir tayfada yaşamışdır. Onun üç oğlu, iki qızı olmuşdur.

Oğlanları: Zülfiqar, Rəhim, Cəbiş, qızları: Telli, Şahpəri.

Həsənqulu kişinin nəvə-nəticələri hazırda yaşamaqla, babalarının da adlarını yaşadırlar. Əvvəllər İmişli rayonu Budaqlı

kəndində yaşayan nəslin nümayəndələri 1971-ci ildən etibarən Beyləqan şəhəri və Budaqlılar kəndində yaşayırlar.

**Zülfiqar** Həsənqulunun böyük oğludur. Zülfiqarın iki həyat yoldaşı olubdur. Birinci həyat yoldaşı əmisi Növzərin qızı Ballı olubdu. Zülfüqarın, Ballıdan bir qızı, üç oğlu olub.

Oğlanları: Əliş, Usub, Nəsib,qızları : Minayə.

Lakin Usub və Nəsib çox erkən dünyalarını dəyişiblər. Ballı dünyasını dəyişəndən sonra, Zülfiqar Talıbxanlı tayfasından Mehralının qızı Yetərlə evlənib, onların iki qızı, iki oğlu olubdur.

Oğlanları: Nəsib, Atakişi, qızları: Səmər, Şəfiqə.

Bu yuxarıda adları çəkilən insanlar demək olar ki, hamısı Budaqlı tayfasından evlənib ailə qurmuşdular. Quliyeva Minayə əmisi oğlu Musanın həyat yoldaşı olmuşdu. O, uzun ömür sürmüş, yüz on yaşında dünyasını dəyişmişdir. Nəsib Mehdilər tirəsindən Hüseynalının qızı Sayadla evlənmiş, Səmər Növzərin oğlu Şirinlə, Şəfiqə Süleymanın oğlu Mehdi kişi ilə ailə həyatı qurmuşdu və hazırda Beyləqan şəhərində yaşayır.

**Əliş**, Zülfiqarın böyük oğludu. O, kürd qızı Münəvvərlə ailə həyatı qurmuş, onun üç oğlu olmuşdur.

Oğlanları: Qardaşxan, Məhəmməd, Dayandur.

Əliş, 1942-ci ildə II Dünya Müharibəsinə getmiş, düşmənlə döyüş zamanı həlak olmuşdu.

**Qardaşxan** Əliş oğlu (1931-2003), Budaqlı elatında anadan doğulub. Budaqlı kolxozu birləşəndən sonra Beyləqan rayon Dünyamalılar kəndinə köçüb və bu kənddə yaşayıb. Qardaşxan, Zinyət xanımla ailə qurub, dörd oğlu və üç qızı dünyaya gəlib.

Oğlanları: Lütviyar, Əhməd, Nəsimi, İxtiyar.

Qızları: Sarabəyim, Zəhra, Ziyafət.

Qardaşxanın oğlu Lütfiyar ali təhsilli mühəndisdir. O, Aydın kişinin qızı Zərifə xanımla evlənmiş və övladları var. Qardaşxanın övladlarının hamısı Dünyamalılar kəndində yaşayır. Qardaşxan 2003-cü ildə rəhmətə gedib, “Soltanbud” qəbirstanlığında dəfn olunub.

**Məhəmməd** Əliş oğlu (1939-2003), Budaqlı tayfasında anadan olub. O, zəmanəsinin ən qoçaq cavanlarından biri olubdu. Məhəmməd, at çapmaqda, atı çapa-çapa düşüb, minməkdə çox mahir olub. Məhəmməd atı çapa-çapa qarnının altından keçməklə, atın üstündə başı üstə durub çapırmış. Onun bu qoçaqlığına görə ona “Tapança” Məhəmməd deyərdilər. Məhəmməd, Tatallar Sadıq kişinin qızı Mehrəngiz xanımla ailə qurub. Məhəmmədin dörd oğlu, üç qızı anadan doğulub.

Oğlanları: Əliş, Elşad, Səyyad, Ələsgər.

Qızları: Minarə (rəhmətə gedib), Nazilə (Nəzakət) , Fatma.

Məhəmməd, 2003-cü ildə Beyləqan şəhərində rəhmətə gedib. O, Peyğəmbər qəbirstanlığında övladlarının yanında dəfn olunubdu.

Məhəmməd, böyük oğluna atası **Əlişin** adını qoymuşdu. Təəssüflər olsun ki, Əliş də babası kimi az ömür yaşadı. Əliş (1962-1993), Mehdi kişinin qızı Nabat xanımla evlənmişdi. Onların bir oğlu, Vasif yadigar qalıbdı və hazırda hərbiçidi. Əliş 1993-cü ildə Beyləqan şəhərində dünyasını dəyişib Peyğəmbər qəbirstanlığında doğmalarının yanında dəfn olunubdur. Vasif, əmisi oğlu Möhübbətin qızı Günel xanımla ailə qurub. Onların Əliş və Nuray adlı iki övladları dünyaya gəlibdi. Vasif də öz növbəsində oğluna həm atası, həm də ulu babası Əlişin adını veribdi.

**Elşad** Məhəmməd oğlu, Beyləqan rayonunda doğulub, boya başa çatıb. O, hərbiçidir, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti idarəsində gizir rütbəsində çalışır. Elşad, bibisi Tamaranın qızı Tahirə xanımla ailə qurub. Onların Məhəmməd və Arzu adlı övladları dünyaya gəlibdi. Məhəmməd göründüyü kimi, babasının adını daşıyır və Azərbaycan Universitetinin marketika fakültəsinin III kursunda təhsil alır. Elşadın qızı Arzu xanım BDU-nun coğrafiya fakültəsinin III kursunda təhsil alır. Elşadın həyat yoldaşı Tahirə xanım, Bakı Qızlar Seminariyasının ibtidai metodika fakültəsini bitirib və Beyləqan 1 saylı tam orta məktəbində müəllimə işləyir.

**Səyyad** Məhəmməd oğlu, Beyləqan rayon İmamverdilər kənd sakini Tahirə xanımla ailə qurub. Bu cütlüyün Jalə və Mehrəngiz adlı iki övladı anadan doğulub. Qızların hər ikisi ailəlidir. Jalə, ana qohumu Dilqəm adlı oğlanla ailəlidir, onların əkiz doğulmuş bir oğlan və bir qız övladları var. Səyyadın ikinci qızı Mehrəngiz bibisi oğlu Elməddinin həyat yoldaşıdı. Onların hələ ki, övladları yoxdu.

**Ələsgər** Məhəmməd oğlu, ailənin kiçik oğludu, yaxın qohumu Əkbərin qızı Lalə xanımla ailəlidir. Ələsgərin Gülər, Tunar, Tuqay adlı üç azyaşlı övladları var

Məhəmmədin böyük qızı Minarə (1959-1994), yaxın qohumu Əhlimanın böyük oğlu Yaşarın həyat yoldaşı olubdu. Onların Vüsal və Şavahət adlı iki oğlu olubdu. Minarə 1994-cü ildə Beyləqan şəhərində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdur.

Nazilə Məhəmməd qızı, əmisi Elmanın oğlu Natiqlə ailə qurub, Namiq adlı bir oğlu var. Namiq hələ ki, subaydı.

Məhəmmədin kiçik qızı Fatma, Bolsulu kənd sakini Etibar ilə ailə qurub, bir oğlu, iki qızı var.

**Dayandur** Əliş oğlu (1938-2005), qardaşları kimi o da Budaqlı elatında dünyaya göz açıb. Dayandur, birinci dəfə Eyvazalılar kənd sakini Bəyim xanımla ailə qurub, onların Möhübbət və Sevil adlı iki övladı olub. Sevil, Eyvazalılar kəndində ana qohumu Əyyubla evlənib, onların bir oğlu, iki qızları var.

Möhübbət, Dayandurun böyük oğludu. O Eyvazalılar kənd sakini, ana qohumu Qaratel xanımla evlənib. Bu cütlüyün Ülvü, Amid, Günel adlı üç övladı anadan olubdu. Möhübbətin qızı Günel əmisi nəvəsi Vasifin həyat yoldaşıdır.
Ülvi Möhübbət oğlu, ana qohumu Mənsurə xanımla ailə qurub, Nuran və Aysu adlı iki uşaqları var.

Dayandur, ikinci dəfə Zərif adlı xanımla ailə qurub. Bu evlilikdən sonra Bəyim oğlu Möhübbəti və qızı Sevili götürərək Dayandurdan ayrılmışdı. Bəyim arvad 2019-cu ildə Beyləqan şəhərində dünyasını dəyişdi və Peyğəmbər qəbirstanlığında dəfn olunub.

Dayandur ikinci dəfə Zərif adlı xanımla ailə qurub, bu evlilikdən dörd övladı olub.

Oğlu: Eldəniz, Qızları: Leyla, Nuranə, Şəhla.
Eldəniz Dayandur oğlu, Yardımlı rayon sakini Yaqut xanımla evlənib. Onların Taleh, Elgün adlı oğlu, Aytac adlı bir qızı anadan olubdu. Bu ailə Beyləqan rayon "Şərq" qəsəbəsində yaşayır.

Dayandurun qızları: Leyla, İlkin adlı oğlanla ailəlidir, iki oğlu var. Nuranə, Beyləqan rayon II Aşıqlı kənd sakini Hafizin həyat yoldaşıdır, hələ ki, uşaqları yoxdu. Ailənin son be-

şiyi Şəhla, yaşadığı kənd sakini Şahinlə ailə qurub, bir oğlu və bir qızı var.

**Nəsib** Zülfiqar oğlu, (1924-1974) Mehdilər Hüseynalının qızı Sayadla ailə həyatı qurmuş, Budaqlı elatında yaşamışdır. O, Budaqlı kolxozu birləşəndən sonra Əliqulular kəndində 1971-ci ilə qədər yaşamışdır. Budaqlı camaatının çox hissəsi 1971-ci ildən sonra Əliqulular kəndindən köçmüş, bir hissəsi Beyləqan şəhərində, qalanları isə indiki "Sarı-su" Budaqlı kəndinə köçmüşdür. "Sarı-su" deyilən ərazi əvvəllər, Şura hökuməti gələnə kimi, Budaqlı tayfasına mənsub olub. 1970-ci illərdən başlayaraq Budaqlılar kütləvi halda bu yaşayış məntəqəsinə köçdükləri üçün Budaqlılar kəndi adlandı. Nəsibgil də bu kəndə köçən ilk ailələrdən biridir. Nəsibin üç oğlu və dörd qızı olmuşdur.



*Sayad Hüseynalı qızı*

Oğlanları: Həsənqulu (1952-2001), Zülfiqar, Nəcəfqulu.

Qızları: Ayna, Nümunə (1956-2004), Sehran, Sədaqət.

Nəsib kişinin böyük oğlu Həsənqulu babası Həsənqulunun və ikinci oğlu Zülfiqar isə atasının adını daşıyır.

**Həsənqulu** Nəsib oğlu, ailənin böyük oğlu olmaqla 1952-ci ildə İmişli rayon Əliqulular kəndində anadan olub. Hərbi xidmətdən qayıtdıqdan sonra ailəsi ilə birlikdə Beyləqan rayon "Sarı Su" qəsəbəsinə köçmüşdü. O, uzun müddət Beylə-

qan rayon Avtobazasında sürücü işləmişdi. Həsənqulu yaxın qohumu Surxay kişinin kiçik qızı Təzəgül xanımla ailə qurub və rəhmətə getdiyi günə qədər Budaqlılar kəndində yaşayıbdı. Həsənqulunun üç oğlu, bir qızı olub.

Oğlanları: Zaur, Nəsimi, Qafqaz, qızı: Samirə.

Həsənqulu 2001-ci ildə 49 yaşında dünyasını dəyişib. O, Beyləqan rayon Cərcis Peyğəmbər qəbirstanlığında dəfn olunubdu.

Həsənqulunun böyük oğlu Zaur, Budaqlı kəndində məcburi köçkün kimi məskunlaşmış Cəbrayıl rayon sakini Əjdərin qızı Gülnar xanımla ailə qurub, onların Rəşad, Azad adlı iki oğlu və Gülnarə adlı bir qızı dünyaya gəlibdi. Həsənqulunun ikinci oğlu Nəsimi, bibisi Sədaqətin qızı Sevinc xanımla evlənib və Ülvi adlı bir oğlu var. Həsənqulunun üçüncü oğlu Qafqaz (1986-2004), gənc yaşında rəhmətə gedib, atasının qəbri yanında dəfn olunubdu. Həsənqulunun yeganə qızı Samirə xanım, ana qohumu Qənimətin böyük oğlu Vidadinin həyat yoldaşıdır.

**Zülfiqar** Nəsib oğlu, babasının adını yaşadır, Nəsibin ikinci oğludu. Zülfiqar yaşadığı kənddə Teymurov İlyasın qızı Ağca xanımla ailə qurub, həmin kənddə yaşayır. Onların iki oğlu, üç qızı anadan doğulub.

Oğlanları: Xəqani, Nəsib, qızları: Esmira, Şəfəq, Cəmilə.

Xəqani, Zülfiqarın böyük oğludu və ikinci oğlu Nəsib Zülfiqarın atası Nəsibin adını yaşadır. Xəqani, Dağlıq Qarabağın Tuğ kəndindən Aytəkin xanımla evlənib, onların Ağca, Sənan adlı övladları dünyaya gəlibdi. Nəsib yaşadığı kənddən Təhminə xanımla evlənib və Budaqlı kəndində yaşayır. Onların Fatma, Zəhra və Zülfiqar adlı övladları dünyaya göz açıb. Zülfiqarın qızları: Esmira Xocavənd rayon Tuğ kəndindən

Namiqlə, Şəfəq isə Tuğ kənd sakini Fazil ilə evlidirlər, Xocavənd qəsəbəsində yaşayırlar.

Nəcəfqulu Nəsibin kiçik oğludu. O, yaxın qohumu Yusifin qızı İlhamə xanımla ailəlidir. Onların Şəhriyar, Rüfət adlı oğlanları və Sayad adlı bir qızı var.

Nəsibin qızları Ayna, Talıbxanlı tayfasından Əliylə, Nümunə (1956-2004 Muradxanlı kəndində rəhmətə gedib) yaxın qohumu olan İmişli rayon Muradxanlı kəndindən Səmənd oğlu Mirzəli ilə, Sehran yaxın qohumu Zalov Qədirin oğlu Vahidlə, Sədaqət isə Tahirlə ailə qurub, Beyləqan rayon ərazisində yaşayırlar.

**Atakişi,** (1926-2005) Zülfiqar oğlu, İmişli rayonunun Budaqlı elatında anadan olubdu. O, tay-tuşları içərisində igidliyinə və qoçaqlığına görə hamıdan fərqlənən cavan olub. Atakişi at minməkdə, çapmaqda çox mahir olubdu. O, hətta, çapa-çapa atın qarnı altından keçməyi bacarırdı. Onun özünə məxsus çəldliyi, çevikliyi hamını heyran edirdi. Günlərin birində yaylaq vaxtı Budaqlı elatında toy şənliyi varıymış ki, hər tayfadan bu məclisə qonaqlar təklif olunmuşdu. Elat camaatında toy günü gəlin gələn vaxtı, at çapmaq, igidlik göstərmək, təzə gəlinin gərdəyini qaçırmaq dəb halına düşmüşdü. Bu vaxt Atakişi yetkinlik yaşına yeni çatmış gənc oğlan olub. At yarışı keçiriblər, Atakişi gənc olmağına baxmayaraq, bütün çaparların atlarını keçibdi. Həmin məclisdə Veysəlli camaatından Nərçə və Budaqlılarla yeni qohum olan Abdulla, Təhlədən Nadir, Əsəd və başqa mahir at çapanlar da iştirak edirmiş. Atakişinin gənc olması, at çapmaqda hamını keçməsi Nərçənin xoşuna gəlmir və Atakişiyə bir ağac vurur. Aralıq qarışır, dava vəziyyəti yaranır, ancaq Hüseynalı kişi buna imkan vermir, tərəfləri barışdırır. Bununla söhbət qur-

tarmır deyirlər yarış yenidən keçirilsin. Belə də olur. Yarış dağ yuxarı keçirilir və yenə də Atakişi qalib gəlir. Həmin yarışda Abdullanın atı yıxılır, kişinin qılçı sınır. Məclisdə peşmançılıq yaransa da hər şey yaxşı qurtarır. Abdulla deyir ki, Nərçə bu uşağın yaxşı gələcəyi var, atı qaçağan olsa da, özü də qoçaq oğlandı. Mən fəxr edirəm ki, elatımızda belə cavanlar yetişir.

Atakişi, Eyvazalılar tayfasından Nabat (1931-2015) xanımla evlənib, ailə qurmuşdu. Onların iki oğlu, bir qızı anadan olubdu.

Oğlanları: Akif, Rəhim, qızı: Yetər.

Atakişi kiçik oğluna əmisi Rəhimin, qızına isə anası Yetərin adını qoymuşdu. Atakişi ömrünün çox hissəsini İmişli rayonu Əliqulular kəndində yaşadı. O, orta yaşlarında ağır xəstəliyə düçar oldu, 1976-ci ildən yerimə qabiliyyətini itirsə də sağlam adam idi. Onun elat camaatı arasında böyük hörmət qazanması, el-oba tərəfindən unudulmaması onun yetmiş bir il yaşamasına səbəb olmuşdu. Atakişinin dərin yaddaşı, iti hafizəsi, duzlu və baməzə söhbətləri indiki nəslin yaddaşında qalmaqdadır. Atakişinin övladları və nəvələri 1995-ci ildən etibarən Beyləqan rayon Budaqlılar kəndində yaşayırlar. Atakişi, 2005-ci ildə Beyləqanda, Budaqlılar kəndində dünyasını dəyişib və Cərcis Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunubdur. Atakişinin həyat yoldaşı Nabat isə 2015-ci ildə rəhmətə getmiş və həyat yoldaşının yanında dəfn olunmuşdur.

Atakişinin böyük oğlu **Akif**, Əliqulular kəndində doğulub, orta məktəbi həmin kənddə bitirdikdən sonra Gəncə şəhərində İnşaat Texnikumunu bitirmişdi. O, İmişli rayon Əliqulular kəndində uzun müddət mal-qara fermasında müdir vəzifə-

sində işləmişdir. Akif 1995-ci ildə atası ilə birlikdə Beyləqana köçüb və Budaqlılar kəndində yaşayır. O, ata qohumu Hidayətın qızı Dilşad xanımla ailə qurmuş, ancaq onların övladı olmamışdır. Akif ikinci dəfə Ağdam rayon sakini Radə xanımla ailə həyatı qurmuş, onların iki qızı Arzu, Günəş və bir oğlu Zamin dünyaya gəlibdi. Zamin subaydı, atası ilə birlikdə yaşayır. Akifin hər iki qızı Xocavəd rayon Tuğ kəndinə ərə gedib. Arzu, Niyazın oğlu Məzahirlə, Günəş Tuğ kənd tam orta məktəbin direktoru Oktay müəllimin oğlu Xaliqlə evlidir.

**Rəhim** Atakişinin kiçik oğludur. O, yaxın qohumu Dərgah kişinin qızı Sevinc xanımla evlidir. Onların Suliddin, Taleh adlı iki oğlu və Ayşən adlı bir qızı var. Taleh subaydı, Rəhimin oğlu Suliddin Eyvazalılar kəndindən yaxın qohumu ilə ailə qurub, bir qızı, bir oğlu var. Atakişinin qızı Yetər, Əbil kişinin oğlu Əkbərin həyat yoldaşıdır. Əkbər rəhmətə gedib. Yetər bir oğul, iki qız anasıdır.

**Quliyev Cəbiş Zülfiqar oğlu,** ailənin kiçik oğludu. O, evlənib, ailə qurmuş və bir qızları Şəkər anadan olmuşdu. Cəbiş dünyasını tez dəyişmişdi.

**Telli Zülfiqar qızı**, öz qohumu Kərimlə evlənmiş, onların Teymur, İsrafil, İsfəndiyar adlı üş oğlu, Sürəyyə, Təzəgül adlı iki qızları olub. Kərim törəmələrindən İsrafilin övladları Beyləqan rayon "Xalac" kəndində yaşayırlar.

**Rəhim,** Həsənqulunun ikinci oğludur. O, ailəli olub və özündən sonra bir oğlu Kamran qalıbdır. Kamran əmisi və babasının himayəsində yaşayıbdı. Kamran əmisi Cəbişin yeganə bir qızı Şəkər xanımla ailə həyatı qurubdu. Onların bir qızı, bir oğlu olub.

Oğlu: Balaqardaş, qızı: Təzəgül.

Rəhimin yeganə qızı Təzəgül xanım, Musa kişinin oğlu Həşimlə ailə qurub, hazırda Beyləqan şəhərində yaşayır.

Balaqardaş Kamran oğlu, Budaqlı elatında anadan olub. O, Mehdilər tirəsindən Mətləb kişinin qızı Gülüzar xanımla ailə qurubdu. Balaqardaş hazırda Dünyamalılar kəndində yaşayır. Bu cütlüyün səkkiz övladı anadan doğulubdu.

Oğlanları: Elşad, Elxan, Rövşən, Taryel.

Qızları: Rəsmiyyə, Aliyə, Gültəkin, Rahilə.

Kamran orta yaşlarında dünyasın dəyişibdi.

Elşad Balaqardaş oğlu, Xalac kənd sakini Məlahət xanımla ailəlidir. Onların Sevinc və Aysun adlı iki qızları var. Aysun xanım ailə qurub, bir qızı dünyaya gəlib.

Rövşən Balaqardaş oğlu, Biləsuvar rayon vətəndaşı Əsli xanımla ailə qurub, Elgün və Aytən adlı iki övladları var.

Balaqardaşın oğlu Taryel ailə qurmamışdı, 2019-cu ildə avtomobil qəzası nəticəsində dünyasını dəyişmişdi. Elxan hələ ki, subaydı.

Balaqardaşın böyük qızı Rəsmiyyə (1968-2012) xanım, bibisi oğlu Fikrətin həyat yoldaşı olub. Onların iki oğlu var. Rəsmiyyə xanım 2012-ci ildə dünyasını dəyişib, Peyğəmbər qəbirstanlığında dəfn olunub.

Balaqardaşın ikinci qızı Aliyə, xalası oğlu Xəqani ilə ailəlidir, iki oğlu var. Balaqardaşın qızlarından Rahilə ailə qurmayıb, Gültəkin isə I Şahsevən kəndində ailəlidir, iki oğlu var.

Kamran rəhmətə gedəndən sonra Şəkər xanımın Sətdar kişidən ikinci oğlu **Qara** doğulmuşdu. Qara, qardaşı Balaqardaşla bir ailədə Dünyamalılar kəndinə köçübdü. O, Gülgəz xanımla evlənib, ailə qurub evlənmiş, onların altı övladı anadan doğulmuşdu.

Oğlu: Elnur, qızları: Gülnarə, Gülşən, Fərqanə, Minə, Elnarə.

Elnur Qara oğlu, yaşadığı Beyləqan rayon Dünyamalılar kənd sakini Rövşənin qızı Aysel xanımla ailə qurub. Onların Emin, Jalə, Gülgəz adlı övladları dünyaya gəlibdi. Uşaqlar azyaşlıdı.

Qaranın qızları: Gülnarə Bakı şəhərində Nüsrət adlı oğlanla ailəlidir, iki oğlu var. Gülşən, Adil adlı oğlanla ailəlidir, bir qızı, bir oğlu var. Fərqanə, öz həmkəndlisi Raufla ailə qurub, iki oğlu, bir qızı var. Minə, Murtulu tirəsindən Vəlinin oğlu Asiflə ailəlidir, bir oğlu, bir qızı var. Elnurə isə hələ ki, ailə qurmayıbdı.

**Quliyev Qaraş Hacı Hüseyn** oğlu,(1860-1901) Budaqlı elatında yaşamış Mehdilər tirəsindən Kərbəlayı Mehdinin qızı Savad xanımla ailə qurmuşdu. O, ata-babalarının yolunu davam etdirmiş və ömrü boyu heyvandarlıqla məşğul olmuşdu. Qaraş cavan yaşlarında dünyasını dəyişib. Qaraşın özündən sonra yalnız Musa adlı bir oğlu qalıb. Qaraş dünyasını dəyişəndən sonra, Savad öz qohumu Qəhrəmanla ailə qurmuşdu.



**Quliyev Musa Qaraş** oğlu (1878-1941), yazmağı, oxumağı bacaran adam olub. Quluyev Musa Qaraş oğlu, Kərbəlayı Şirinli tirəsindən olmaqla Hacı Hüseynin nəvəsidir. Quliyev Musa 1930-1941-cu illərdə “Budaqlı” kolxozunun sədri işləyib. Qoçaq, mehriban və səmimi insan olduğu üçün el-obada hörmət qazanıb. Musa kişi mülkədar dövründə də Hacı Qasımın

yanında onun mühasibi kimi çalışıb. O zaman bu vəzifəyə hesabdar deyirdilər. Halal və əli düz adam olub. Sovet hökuməti gələndə də o, diqqət mərkəzində olub. 1930-cu ildə kolxoz qurulan zaman, Budaqlının ilk kolxoz sədri məhz elə, Musa kişi olub. O zaman Hacı Qasım elatı başına toplayıb və onlara məsləhət bilib ki, hər biriniz kolxozun üzvü olmaqla Musa kişinin ətrafında sıx birləşin. Gedib kiməsə kölə olmayın. Musa kişi 1941-ci ilin payızı, öldüyü günə qədər Budaqlı kolxozunun sədri vəzifəsində çalışmışdır. Tayfanın dağılmasına, başqa yerlərə köçüb getməsinə imkan verməmişdir.

Musa kişi əmisi Zülfiqarın qızı Minayə ilə ailə qurmuş və onların iki oğlu, dörd qızı anadan olmuşdur.
Oğlanları: Həşim, Aydın, qızları: Savad, Əfruz, Səltənət, Məhluqə.

Musa kişinin adını bu gün nəvəsi Həşimin oğlu Musa yaşadır. 1951-ci ildə beş kolxozu birləşdirib, Əliqulular kəndi yaratdılar. Bu kəndə Əliqulular, Murtulu, Hacılı, Budaqlı və Talıbxanlı tayfaları daxil oldu. Bu kənddə də Musa kişinin oğlu Həşim, həmişə sayılan adam oldu. O, Budaqlı camaatını ətrafında saxlaya bildi. Musa kişinin qızları da yaxın qohumları ilə ailə qurub və nəvə, nəticələri var. Musa kişinin qızı Savad, əvvəlcə yaxın qohumu Seyfəli ilə ailə qurmuş, İltifat adlı oğlu olub. İkinci dəfə Hacılı tirəsindən Salah kişi ilə evli olub. Əfruz Hidayat kişi ilə, Səltənət, Səmədlə, Məhliqa isə qohumu Zalov Qədirlə ailə qurub.

**Həşim** kişi 1929-cu ildə Budaqlı elatında anadan olub və hazırda Beyləqan şəhərində yaşayır. Həşim kişi böyük bir həyat yolu keçib gəlmişdi. İşlədiyi idarə və müəssisələrdə öz əməyinə görə hörmət qazanan kişi olub. O da babası kimi el təsifi çəkən, tayfasının xeyir-şərində həmişə ön cərgədə du-

ranlardan olubdu. Həşim 1975-ci ilə qədər İmişli rayon Əliqulular kəndində yaşayıb və bütün övladları da elə bu kənddə anadan doğulubdu. O, 1975 ildə Beyləqan şəhərinə köçmüş və  müxtəlif peşələrdə çalışmışdı. Həşim kişi yaxın qohumu, əmisi oğlu Kamran kişinin qızı Təzəgül xanımla ailə həyatı qurub və onların beş oğlu, iki qızı var.

Oğlanları: Musa, Əbülfət, Fikrət, İkram, İlham.

Qızları: Qətibə, Minayə.

Həşim kişinin üç oğlu Fikrət, İkram, İlham Birinci Qarabağ Müharibəsində iştirak edib və erməni işğalçılarına qarşı vuruşublar. Həşim kişi hazırda Beyləqan şəhərində yaşayır və 91 yaşı var.

Həşim kişinin üç oğlu Fikrət, İkram, İlham Birinci Qarabağ Müharibəsində iştirak edib və erməni işğalçılarına qarşı vuruşublar. Həşim kişi hazırda Beyləqan şəhərində yaşayır və 91 yaşı var



***Sağdan Musanın qızı Səltənət, oğlu Həşim, qızı Məhliqa.***



*Həşimin həyat yoldaşı Təzəgül, qardaşı Aydın, qaynı Balaqardaş.*

**Musa,** Həşimin böyük oğludur. O, 1957-ci ildə İmişli rayon Əliqulular kəndində anadan olub. Həmin kənddə orta məktəbi bitirib və 1975-ci ildə valideynləri ilə birlikdə Beyləqan şəhərinə köçüb. O, Beyləqan rayon Tikinti idarəsində sürücü vəzifəsində çalışır. Musa əmisi Aydının böyük qızı Təzəxanımla ailə qurub, onların iki oğlu Ramil, Rabil və bir qızı Aygün dünyaya gəlib. Musanın böyük oğlu Ramil Dünyamalılarda yaşayan xalası Zərifənin qızı Billurə xanımla evlənib, onların Kəmalə adlı qızı və Fərid adlı bir oğlu var. Ramil atası Musa ilə bir ailədə yaşayır. Musanın ikinci oğlu Rabil, yaxın qohumu Nazirin qızı Zeynəblə ailə qurub, Musa adlı oğlu, Yağmur adlı qızları var. Musanın qızı Aygün Talıbxanlı tayfasından Rəhimin oğlu Aydının həyat yoldaşıdır.

**Əbülfət** Həşim oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub. Beyləqana köçüb və Murtulu tayfasından Həbib kişinin qızı Zərif xanımla evlənib, ailə qurubdu. Onların bir oğlu, bir qızı anadan doğulub. Oğlu Natiq bibisi oğlu Amilin qızı Çinarə xanımla evlənib və onların Sevinc, Zərif adlı qızları var. Əbülfətin qızı Aynur, bibisi oğlu Vahidin oğlu Elçinin həyat yoldaşıdır.

**İkram** Həşim oğlu, Qarabağ qazisidir, atası ilə bir ailədə yaşayır, İkram yaxın qonşuları, Murtulu tayfasından Hüseynin qızı Vüsalə xanımla evlidir. Onların Kamran, Lalə, Nərgiz adlı övladları var. Lalə, Gəncə Dövlət Universitetinin fizika fakültəsini bitirib. İkramın ikinci qızı Nərgiz xanım, ADPU-nun I kursunda təhsil alır. İkramın oğlu Kamran isə ana babasının adını daşıyır. İkramın həyat yoldaşı Vüsalə xanım, şair təbiətli bir xanımdır. Onun xeyli sayda şeirləri var. Demək olar ki. Vüsalə xanım bir neçə janrda şeir yazmaq qabiliyyətinə malikdir. Kitabın sonunda Vüsalə xanımın şeirləri çap olunacaq.

**Fikrət** Həşim oğlu, Qarabağ qazisidir Beyləqan şəhərində yaşayır. Fikrət, dayısı Balaqardaşın qızı Rəsmiyyə (1968-2012) xanımla evlənib, onların Rahil və Niyazi adlı iki oğlu anadan olub. Fikrətin həyat yoldaşı Rəsmiyyə xanım 2012-ci ildə cavan yaşında dünyasını dəyişib və Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunub. Fikrət, Beyləqan rayon Milabad qəsəbəsindən Fatma adlı bir xanımla ikinci dəfə ailə həyatı qurub və Dilbər adlı bir qızı anadan olub.

**İlham** Həşim oğlu, Beynəlxalq idman ustası, Dünya və Avropa çempionudur. Onun yetişdirmələri üç dəfə Dünya, səkkiz dəfə Avropa, bir dəfə Asiya çempionu olubdur. İlham hazırda yüksək səviyyədə idmançılar yetişdirir. İlham, Beyləqan şəhər sakini Nübar xanımla ailə qurubdu. Onların Nur-

lan adlı oğlu, Leyla, Təzəgül adlı iki qızı var. İlham hazırda məşqçi kimi fəaliyyət göstərir. İlhamın böyük qızı Leyla Azərbaycan Texniki Universitetinin ikinci kurs tələbəsidir və cido üzrə 3 dəfə Respublika çempionudur. İlhamın oğlu Nurlan, cido üzrə beş dəfə Respublika çempionu, bir dəfə Dünya çempionu və bir dəfə Dünya kubokunun çempionudur. İlhamın kiçik qızı Təzəgül Karete idman növü ilə məşğul olur.

Həşim kişinin bütün övladları Beyləqan şəhərində yaşayır. Yuxarıda göründüyü kimi, Həşim kişinin nəvələri həm keçmiş, həm də indiki, yaşlı nəslin adlarını daşıyır. Həşim kişinin qızı Minayə yaxın qohumu Arzumanın, Qətibə isə qardaşı oğlu Hüseynin həyat yoldaşıdır.




*Şəkildə sağdan İlham, qızları Təzəgül, Leyla, oğlu Nurlan*

**Aydın**, Musa kişinin ikinci oğludu (1940-2015), gəncliyindən Beyləqan şəhərində yaşamışdır. O, inşaat mühəndisi ixtisası almış və uzun müddət Beyləqan rayonu Təmir Tikinti idarəsində sahə rəisi işləmişdir.



*Sağdan Hüseyn, Aydın, Həşim.*

Aydın kişi də babasının yolunu getmiş, tabeçiliyində olan işçilərin əksəriyyəti öz tayfasından olmuşdu. Verilən tapşırığı vaxtından əvvəl yerinə yetirərdi. Aydın öz ana qohumu Mənsurə (1943-2001) ilə evlənib, ailə həyatı qurmuşdur. Onun dörd oğlu, üç qızı anadan olubdur.

Oğlanları: Hüseyn (rəhmətə gedib), Nadir, Aqil, Habil.

Qızları: Təzəxanım, Zərifə, Kəmalə.

Aydın kişinin bir oğlu və bir qızı çox gənc yaşlarında dünyalarını dəyişiblər. **Kəmalə**, 1967-ci ildə anadan olmuşdu və 1994-cü ildə dünyasını dəyişmişdi. Kiçik oğlu Habil, 1973-cü ildə Beyləqan şəhərində anadan olub, 1993-cü ildə gənc yaşında dünyadan nakam köçmüşdür. Aydının həyat yoldaşı Mənsurə bala itkisinə tab gətirməyib, dözə bilmədi. Mənsurə 2001-ci ildə, bala yanğısı ilə dünyadan köçdü və Cərcis Peyğəmbər uyuyan qəbirstanlıqda, övladlarının qəbrləri yanında dəfn olundu. Bir yandan övlad itkisi, digər tərəfdən həyat yoldaşının ölümü Aydın kişini sarsıtdı. Allaha, dinə bağlı olan, olduğu məclislərdə hamını şadlandırmağı bacaran, bir

uşağın da qəlbinə dəyməyən Aydın kişi, 2015-ci ildə qəflətən dünyasını dəyişdi. O, həyat yoldaşı və övladlarının yanında dəfn olundu.

**Hüseyn**, (1963-2014) ulu babası Hacı Hüseynin adını daşımışdı. O, əmisi Həşimin qızı Qətibə xanımla evlənib, ailə qurmuşdu. Hüseynin bir oğlu, iki qızı anadan olub.
Oğlu: Elvin, qızları: Savad, Əfsanə.

Hüseynin böyük qızı, babası Aydının bacısı Savadın adını daşıyır. Təəssüflər olsun ki, amansız şəkər xəstəliyi Hüseyni çox cavan yaşlarında dünyadan apardı. Onun övladları Beyləqan şəhərində, qardaşları ilə bir məhlədə yaşayırlar.

Elvin Hüseyn oğlu, ata ocağının işığını yandırır. O, avtomobil ustasıdır və peşəsini sevən, işinin öhdəsindən layiqincə gələn bir sənətkardı. Elvin, bibisi Səltənətin qız nəvəsi Fidan xanımla ailə qurub. Onların Hüseyn və Zəhra adlı övladları dünyaya gəlib. Elvinin oğlu Hüseyn həm ulu babası, həm də ata babasının adını daşıyır.

Hüseynin qızı Savad , əmisi oğlu Mahirin, Əfsanə bibisi oğlu Adilin oğlu Yasinin həyat yoldaşıdır.

**Nadir,** Aydının ikinci oğludur. Qardaşları ilə bərabər Beyləqan şəhərində bir məhəllədə yaşayırlar. O, avtomobillərin təmir ustasıdır və övladları da onun peşəsini davam etdirir. Nadir, Füzuli şəhərindən Təranə xanımla evlənib, ailə qurubdu. Onun iki oğlu dünyaya gəlib.

Oğlanları: Mahir, Tahir.

Nadir, özü sənətkar olmaqla iki oğlu Mahir və Tahir də Beyləqan şəhərində ad çıxarmış avtomobil sənətkarlarıdı. Onlar öz işlərini bilən və xalq arasında zəhmətlərinə görə hörmət qazanmış sənətkarlardır. İstər Mahir, istərsə də Tahir hər ikisi səmimi, özlərinə hörmət qoyan cavanlardı. Mahir,

əmisi Hüseynin qızı Savad xanımla evlidir, Fatma və Təranə adlı iki qızı var. Tahir isə yaxın qohumu, şair- publisist Rövşən Budağın böyük qızı Gülşənlə ailə qurub. Onların Leyla adlı qızı, Habil adlı bir oğlu, anadan olub. Tahir valideynləriylə bir yerdə yaşayırlar..

**Aqil**, ata yurdunun davamçısı, ata ocağını yandıran üçüncü oğludur. Aqil, qohumlar arasında sevilən, özünə hörmət qazanmış adamdı. O, bibisi Məhliqanın qızı Rəmziyyə xanımla evlidir. Onların bir oğlu, bir qızı var.

Oğlu: Zabil, qızı: Mənsurə.

Aqil də öz qızına anası Mənsurənin adını qoyub. Mənsurə öz bibisi Zərifənin oğlu Cavidlə ailə həyatı qurub və onların Lütfiyar adlı oğlu, Zərifə adlı qızı dünyaya gəlib. Mənsurənin yoldaşı Cavid kapitan rütbəli zabit olmaqla Naxçıvan şəhərində hərbi xidmətdədir. Bu cütlüyün övladları da nənə-babasının adlarını daşıyır. Oğlu Zabil isə Gəncə Dövlət Universitetini bitirib, Xocavənd rayon icra aparatında çalışır.

**Səltənət Musa** qızı, Budaqlı tayfasında anadan olubdu, hazırda Bakı şəhərində yaşayır. Səltənət Buludlu tirəsindən Səmədlə (1936-2006) ailə qurub, uzun müddət İmişli rayon Muradxanlı kəndində yaşayıblar. Səmənd kişi ömrü boyu heyvandarlıqla məşğul olub və uzun müddət qoyun briqadiri vəzifəsində çalışmışdı. Onların dörd oğlu, beş qızı anadan olubdu.

Oğlanları: Mirzəli, Ələddin, Nazim, Malik.

Qızları: Səringül, Ofelya, Reyhan, Gülyaz, Maya, Şamama.

Səltənətin həyat yoldaşı Səməd kişi 2006-cı ildə yaşadığı Muradxanlı kəndində rəhmətə gedib və kənd qəbirstanlığında dəfn olunubdu.

**Mirzəli** Səməd oğlu, ana qohumu Nümunə (1955-2004) xanımla ailə həyatı qurub, onların Müşfiq adlı oğlu və Elnarə, Tünzalə, Təbəssüm adlı qızları dünyaya gəlibdi. Nümunə 2004-cü ildə Muradxanlı kəndində rəhmətə gedib və kənd qəbirstanlığında dəfn olunubdu.

**Ələddin** Səməd oğlu, İmişli rayon Muradxanlı kəndində anadan doğulub. O, yaşadığı kənd orta məktəbini bitirdikdən sonra ATİ-na (indiki ATU ) daxil olmuş və İnstitutu bitirdikdən sonra həkim kimi fəaliyyətə başlamışdı. Ələddin doktor hazırda İmişli rayon Mərkəzi Xəstəxanasında ən savadlı həkimlərdən biridi. Ələddin ana qohumu Əsgərin qızı Sevil xanımla ailə qurubdu. Onların Bəxtiyar, Şəhriyar, Etibar adlı oğlu və Aytac adlı bir qızı var. Bu ailə İmişli rayon Muradxanlı kəndində yaşayır. Ələddin həkim həm də şair təbiətli insandı və o xeyli sayda şeirlərin müəllifidir.

Nazim Səməd oğlu, öz kəndlisi Sevil xanımla ailəlidir və Elvira adlı bir qızı var.

Malik Səməd oğlu, öz həmkəndlisi Bəsdi xanımla ailə qurub, Rüfanə, Elvanə adlı qızları və Rauf adlı bir oğlu var.

Səməndin qızları: Səringül, Tahir adlı oğlanla ailəlidir. Onların iki oğlu, bir qızı var. Gülyaz, Çingiz adlı oğlanla evlənib, onların bir oğlu, iki qızı var. Reyhan öz kəndlisi Qalib adlı oğlanla ailə qurub, onların üç qızları var. Maya, Malik adlı oğlanla evlidir. Onların bir oğlu, iki qızları var. Ailənin sonbeşiyi Şamama xanım, Əyanət adlı oğlanla ailə qurub və onların bir qızı, bir oğlu dünyaya göz açıb...

**Quluyev Zal Hacı Hüseyn** oğlu, Kərbəlayı Şirinli tirəsində öz camaatının içində yaşamışdır. O da digər qardaşları kimi yalnız heyvandarlıqla məşğul olmuşdur. Zal, anadan

doğulanda bədəncə böyük və artıq çəkidə olduğu üçün ona bu adı qoyulub. Ancaq Zal, hündür bədən, enlikürək olmasına baxmayaraq, çox mülayim və xoşrəftar adam olub. O, sakit təbiətli, öz halal zəhməti ilə çörək qazanan kişi olubdu. Zalın üç oğlu olubdu.

Oğlanları: Abdulla, Ədil, Səlim.

**Abdulla**, Zalın böyük oğludur. O, Başxanımla ailə həyatı qurubdu. Abdulla çox erkən, cavan yaşlarında rəhmətə gedib və onların övladları olmayıbdı. Abdulla dünyasını dəyişəndən sonra onun dul qalmış cavan həyat yoldaşı Başxanımla, özündən kiçik qardaşı Ədil evlənmişdi.

**Ədil** (1932-), Zalın ikinci oğludu. O, öz tayfasında qardaşları ilə birgə yaşamışdı. El ağsaqqallarının məsləhəti ilə Ədil rəhmətə getmiş qardaşının həyat yoldaşı Başxanımla evlənmişdi. Onların iki oğlu və iki qızı olmuşdu:

Oğlanları: Qədir, Mövsüm, qızları: Hamayıl, Şamayıl.

Ədil heyvandarlıqla məşğul olmuşdu. O, heyvandarlıq təsərrüfatını mükəmməl bilən kişi olub ki, oğlanları da onun peşəsini davam etdiriblər. Zalın qızı Hamayıl yaxın qohumu Rəhimlə ailə qurub, lakin cavan rəhmətə gedibdi. Onların övladları olmayıbdır. İkinci qızı Şamayıl isə Salman kişinin oğlu Mətləblə evlənib, iki uşağı olubdu. Şamayıl da iki uşaqdan sonra cavan yaşda dünyasını dəyişibdir. Şamayılın qızları, nəvə və nəticələri Beyləqan şəhərində və Dünyamalılar kəndində yaşayırlar.

Ədil Beyləqan şəhərində rəhmətə gedib, Peyğəmbər ziyarətgah qəbirstanlığında dəfn olunubdur.

**Qədir** (1927-), atasından sonra Beyləqan rayonunda "Dostluq Qoyunçuluq" sovxozunda işləmiş və qabaqcıl qoyun briqadiri olmuşdu. Qədir Beyləqan rayon "Dostluq Qoyunçu-

luq" sovxozunun təməlini qoyanlardandı. Onlar ömürlərinin sonuna qədər heyvandarlıqla məşğul olmuşdular. Qədir Musa kişinin qızı Məhliqa xanımla evlənmiş, onların beş oğlu, dörd qızı anadan doğulub:

Oğlanları: Etibar, Vahid, Adil, Kamil, Amil.

Qızları: Qənirə, Həqiqət, Arifə, Rəmziyyə.

Qədirin oğul və qızlarının çoxu öz yaxın qan qohumları ilə ailə qurublar, Beyləqan şəhərində yaşayırlar.

Etibar Qədir oğlu, əmisi qızı Elmira xanımla ailə qurub. Onların Fuad adlı bir oğlu, İlhamə, Gülnarə və Aytən adlı üç qızı anadan olub. Etibarın yeganə oğlu olan Fuad, Beyləqan rayon 1 saylı tam orta məkdəbində idman müəllimi işləyir. O, Gülnarə xanımla evlənib və onların bir oğlu, bir qızı dünyaya gəlibdi. Etibarın qızlarının hər üçü ailəlidir.

Qədirin ikinci oğlu Vahid, qan qohumu Nəsibin qızı Sehran xanımla ailə qurub, onların bir oğlu Elçin, iki qızı Nuranə və Aynurə anadan olub. Vahidin oğlu Elçin bibisi nəvəsi Aynur xanımla ailəlidir. Elçinin Vahid adlı oğlu, Gülçin və Sehran adlı iki qızı var.

Adil Qədir oğlu, xalası Səltənətin qızı Ofelya xanımla evlənib ailə qurub, üç övladı dünyaya gəlibdi. Oğlu Yasin, qızları Ülviyyə və Lamiyə. Yasin, qan qohumu Hüseynin qızı Əfsanə xanımla evlidir. Yasin, N-saylı hərbi hissədə hərbi quluqçudur. O, 27 sentyabr 2020-ci il tarixdə Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə ön cəbhədə vuruşan döyüşçülərdəndi.

Kamil Qədir oğlu, Xocavənd rayon Tuğ kənd sakini Reyhan xanımla ailəlidir, Pərviz və Rahib adlı iki oğlu var.

Amil Qədir oğlu, Mahirə xanımla evlənib, oğlu Qədir, qızı Çinarə dünyaya göz açıblar.

Qədirin qızları: Qənirə Novruzla, Həqiqət əmisi Yaqubun oğlu Nurəddinlə, Arifə Vəkillə, Rəmziyyə dayısı Aydının oğlu Aqillə ailə həyatı qurub. Qədirin bütün törəmələri Beyləqan şəhərində yaşayır.

**Mövsüm** (1929-2010), Ədilin ikinci oğludu. Mövsüm sakit təbiətli çox mülayim insan olub. O da qardaşları kimi həmişə heyvandarlıqla məşğul olubdu. Uzun müddət "Dostluq" sovxozunda qoyun briqadiri işləyibdir. Mövsüm Tatalılar Məhərrəmin qızı Adilə xanımla evlənib, ailə qurubdu. Mövsüm halallığı sevən, əməli düz adam kimi tanınıb. O, gözəl ailə başçısı olubdu. Mövsümün dörd oğlu, beş qızı olubdur.

Oğlanları: Fəxrəddin, Sədrəddin, Famil, Tahir (Şəhid olub), qızları: Elmira, Hamayıl, Nailə, Təranə, Cəmilə.
Tahir Mövsümün oğlu, I Qarabağ Müharibəsində döyüşmüş və 1992-ci ildə döyüş zamanı qəhrəmancasına şəhid olmuşdu.

**Fəxrəddin** (1963-2020) ali təhsilli iqtisadçı olub və Beyləqan rayonu Teleqovşağının Kominikasiya birliyinin baş mühasibi idi. Fəxrəddin, Tanrıqullar tirəsindən Səadət xanımla ailə qurub. Onların Günel və Gülnaz adlı iki qızları dünyaya gəlibdi. Fəxrəddinin böyük qızı Günel bibisi oğlu Mənsurla ailə qurub, onların Yusif adlı oğlu, Fatimə adlı bir qızları var. Mənsur gənc yaşlarında 2019-cu ildə rəhmətə gedib. Fəxrəddin 2020-ci ildə Beyləqan şəhərində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında doğmalarının yanında dəfn olunubdu.

**Sədrəddin** Mövsüm oğlu əmisi Yaqubun qızı Aybəniz xanımla ailə qurubdu. Onların Zahir və Aişən adlı iki övladları var. Sədrəddinin qızı Aişən, ata qohumu Amilin oğlu Qədirlə ailə qurub və Ömər adlı bir oğlu var.

**Famil** Mövsüm oğlu, Tatalılar kəndindən ana qohumu Lamiyə xanımla ailəlidir. Onların Elşən, Emin, Fəridə adlı qızları dünyaya göz açıbdı. Familin qızı Fəridə Beyləqan rayon sakini Vəfalı  adlı oğlanla ailə qurubdu. Bu cütlüyün bir oğlu var.

Mövsüm qızlarının birinə cavan dünyasını dəyişmiş bacısı Hamayılın adını qoymuşdu. Möhsüm, 2010-cu ildə Beyləqan şəhərində rəhmətə getmiş, Peyğəmbər ziyarətgahı qəbirstanlığında qardaşının yanında dəfn olunmuşdur. Onun övladları, nəvə-nəticələri hamısı Beyləqan şəhərində yaşayırlar. Mösümün qızları: Elmira əmisi oğlu Etibarın həyat yoldaşıdır, uşaqları var. Hamayıl, xalası oğlu Şakirlə ailə qurub, onların iki oğlu, bir qızı var. Nailə, Ağdam rayon sakini Əlövsətlə ailəlidir, iki oğlu, bir qızı var. Təranə (1965- 2019) Beyləqan rayon sakini İlqarla evli olubdur. Onun iki oğlu, bir qızı var. Təranə 2019-cu ildə rəhmətə gedib, Peyğəmbər qəbirstanlığında dəfn olunubdur. Cəmilə, dayısı oğlu Şakirin həyat yoldaşıdı. Onların iki oğlu və iki qızları var.

**Səlim,** Zalın üçüncü oğludur. Səlim (1934) Budaqlı tayfasında dünyaya göz açıb və Budaqlı kolxozu ləğv olandan sonra Beyləqana köçüblər. Səlim bütün ömür boyu heyvandarlıqla məşğul olubdu. Öz zəhməti hesabına ucalan insan olubdur. Zaldan sonra gələn törəmələri, babaları Zalın soyadını daşıyır. Səlim Başxanımın bacısı Qızxanımla evlənib, ailə qurub. Səlim, qardaşı Ədillə bacanaqdır. Səlimin beş oğlu, bir qızı olubdur.

Oğlanları: Mehdi, Abdulla, Əli, Soltan, Yaqub, qızı: Qənirə.

Səlimin həyat yoldaşı Qızxanım dünyasını dəyişdikdən sonra o, qardaşının dul qalmış arvadı Başxanımla evlənmiş və onların bir oğlu Yaqub dünyaya gəlmişdi. Səlim həm öz öv-

ladlarına, həm də qardaşı Ədilin övladlarına atalıq etmişdi. Səlimin böyük oğlu Mehdi və qızı Qənirə gənc yaşlarında dünyalarını dəyişiblər. Səlimin ikinci oğlu Əli isə II Dünya Müharibəsinə getmiş və 1944-cü ildə döyüş zamanı həlak olmuşdu.

**Abdulla,** iki dəfə ailə həyatı qurub. İlk dəfə Yadigar adlı xanımla evlənib və bu cütlüyün övladı olmayıbdı. Abdulla birinci həyat yoldaşının təkidi ilə ikinci dəfə Əzət adlı xanımla evlənibdir. Onların Vahid adlı bir oğlu olub. Vahid hazırda Bakı şəhərində yaşayır.

**Soltan** (1927-2006), Səlimin üçüncü oğludu. Soltan Ağdamlı qızı Səhər xanımla evlənib, onların doqquz uşağı anadan doğulubdur.

Oğlanları: İltifat, İltizam, Etibar, Müseyib, Azər, Sərdar.

Qızları: Rəfiqə, Elsiyyə, Mahirə.

Soltan əvvəlcə Beyləqan rayon" Dostluq Qoyunçuluq" sovxozunda qoyunçuluq briqadiri, sonralar isə Beyləqan rayon "Şəfəq" qəsəbəsində yaşamış, maldarlıq fermasında çalışmışdı. Onun övladlarının bir hissəsi özü yaşadığı qəsəbədə, bir neçəsi isə Beyləqan şəhərində yaşayır. Soltan Şəfəq qəsəbəsində dünyasını dəyişmiş və Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunmuşdu.

**Yaqub**, Səlimin Başxanımdan olan kiçik oğludur. O, ömrünün sonuna qədər Beyləqan şəhərində qardaşları ilə bir məhlədə yaşamışdı.Yaqub, uzun müddət Beyləqan rayon "Dostluq Qoyunçuluq" sovxozunda qoyun briqadiri vəzifəsində çalışmışdı. Yaqub, Talıbxanlı tayfasından Sənəm xanımla evlənib, ailə qurmuş və onların iki oğlu, dörd qızı olmuşdu.

Oğlanları: Nurəddin, Əli, qızları: Aybəniz, Səyyarə, Pərvanə, Gülbəniz.

Yaqubun böyük oğlu Nurəddin əmisi Qədirin qızı Həqiqət xanımla evlənib, onların İbrahim, Xaliq adlı iki oğlu və Zülfiyyə adlı qızları anadan doğulub. İbrahim Gülnarə adlı xanımla ailə qurdu və təəssüflər olsun ki, gənc yaşlarında dünyasını dəyişdi. Onun Kənan adlı oğlu özündən yadigar qaldı. Kənan babası Nurəddinin himayəsində böyüyür. Nurəddinin ikinci oğlu Xaliq, dayısı Adilin qızı Lamiyə xanımla evlənib və iki övladı var. Oğlu Yaqub, qızı Həqiqət. Nurəddinin qızı Zülfiyyə öz yaxın qohumu İsmayılın oğlu Zamiqlə evlənib üç övladı dünyaya gəlib. Oğlu Murad, qızları Ruhəngiz və Mədinə.

Əli, Yaqub kişinin ikinci oğludu. O, Beyləqan şəhərində doğulub, böyüyüb və əmisi nəvəsi Aynurə xanımla ailə qurubdu. Onların Səlmi və Fərqanə adlı iki qızı var. Səlmi Xocavənd rayon sakini Ruslanla ailəlidir, bir oğlu var. Fərqanə, Murtulu tayfasından Elvin adlı oğlanla ailə qurub və bir qızı dünyaya gəlibdi.

Yaqub kişinin qızları: Aybəniz əmisi oğlu Sədrəddinin həyat yoldaşıdı. Səyyarə xalası oğlu Yavərlə evlidir, bir oğlu, bir qızı var. Pərvanə bibisi qızı Simuzərin oğlu Füzuli ilə ailəlidir, iki oğlu var. Gülbəniz Allahyarlı tayfasından Vahid kişinin oğlu İsrafilin həyat yoldaşıdır. Onların iki oğlu, bir qızı anadan olubdu. Yaqub kişinin demək olar ki, bütün övladları Beyləqan şəhərində yaşayır.

Yaqub kişi Beyləqan şəhərində rəhmətə gedib və Peyğəmbər ziyarətgahı qəbirstanlığında qardaşlarının yanında dəfn olunubdur...

**Quliyev Nəcəfqulu Hacı Hüseyn** oğlu, Budaqlı tayfasında dünyaya göz açıb. O, elat tayfasının içində yaşayıb, ailə qurub. Nəcəfqulunun Kərim adlı bir oğlu olub. Deyilənə görə,

Nəcəfqulu cavan yaşında dünyasın dəyişibdi. Onun oğlu Kərim isə əmilərinin himayəsində böyümüşdür.

**Quliyev Kərim Nəcəfqulu** oğlu, əmilərinin yanında böyüyüb başa çatmış, əmisi qızı Telli xanımla ailə qurmuşdur. Kərimin üç övladı olubdur:

Oğlanları: Teymur, İsrafil, İsfəndiyar.

**Quliyev Teymur** Kərim oğlu, II dünya müharibəsinə getmiş, Alman Faşizminə qarşı döyüşmüşdür. O, təxminən 1943-cü ildə döyüşlərin birində şəhid olmuşdur. Teymur ailə qurmadığı üşün özündən sonra övladları qalmamışdır

**Quliyev İsrafil Kərim** oğlu, Budaqlı elatında anadan olub, ata-babaları kimi heyvandarlıqla məşğul olubdur. İsrafil təxminən 1944-cü ildən sonra öz ailəsi ilə birlikdə Beyləqan rayon Dünyamalılar kəndinə köçmüşdür. İsrafil qohumu Tamaşa xanımla evlənmiş, onların yeddi oğlu, üç qızı olubdur.

Oğlanları: Kərim, Qabil, Əbil, Əli, Vəli, Sabir, Nadir.

Qızları: Xanım, Gülüzə, Pürüzə.

Burada göründüyü kimi İsrafil böyük oğluna atası Kərimin adını qoymuşdur.



**Quliyev Kərim** İsrafil oğlu (1925-2004), Budaqlı elatında doğulubdur. O, bir müddət elat tayfasında heyvandarlıqla məşğul olmuş, sonralar isə bərbər sənətini öyrənmişdir. Kərim kişi bərbərliklə yanaşı, körpə oğlan uşaqlarını müsəlman edərdi. Bu peşəyə el arasında "Dəllək" deyərdilər. Kərim İmişli rayon Muğanlı kənd sakini Zeynəb xanım-

la ailə qurubdur. Kərimin üç oğlu, dörd qızı olub:

Oğlanları: Mirələm, Bayram, Səlim

Qızları Telli, Təzəgül, Aybəniz, Bahar.

Kərim kişi 2004-cü ildə yaşadığı Xalac kəndində dünyasını dəyişmiş və Xalac kənd qəbirstanlığında dəfn olunmuşdur.

**Quliyev Mirələm Kərim** oğlu, Naxçıvan Muxtar Respublikasında Kənd Təsərrüfatı Texnikomunun mexanizasiya fakütəsini bitirib, ixtisasca mexannikdir. Beyləqan rayon Dünyamalılar kənd sakini Töhfə xanımla ailə qurub, onların Cəlal və Vüsal adlı iki oğlu anadan olubdur. Töhfə xanım Bakı Mədəni Maarif Texnikomunun kitabxanaçılıq fakültəsini bitiribdir. O, əmək fəaliyyətinə də elə Xalac kənd orta məktəbinin kitabxanasında başlamış və bu günə qədər də öz sevimli peşəsində çalışır.

**Quliyev Cəlal** Mirələm oğlu, Beyləqan rayon Xalac kəndində anadan olub, həmin kəndin tam orta məktəbində orta təsil alıbdır. Cəlal Azərbaycan Beynəlxalq Universitetinin informatika və riyaziyyat fakültəsini bitirib. Hazırda yaşadığı kənd orta məktəbində ixtisası üzrə müəllim işləyir. O, həmkəndlisi Gülnar xanımla ailə qurub, Zeynəb və Fuad adlı iki övladı var.

**Quliyev Vüsal** Mirələm oğlu, 1986-cı ildə Beyləqan rayon Xalac kəndində anadan olub. O, orta məktəbi bitirdikdən sonra APU-nun filologiya fakültəsini bitirib, hazırda yaşadığı Xalac kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir. Vüsal müəllim həmkəndlisi Atlas xanımla ailə qurub, Murad və Nihad adlı iki oğlu var. Vüsal Murad təxəllüsü ilə bədii yaradıcılıqla məşğul olur, gözəl şeirlərin müəllifidir. Beyləqan rayon Yazıçılar Birliyində "Araz" ədəbi birliyinin üzvü olmaqla gənc yazarlar sırasında

yer alır. Vüsal müəllimin yaxın gələcəkdə çap olunacaq kitabını görəcəyik.

**Quliyev Bayram** Kərim oğlu, yaşadığı Xalac kəndində dünyaya göz açıb. Xalac kənd tam orta məktəbini bitirmiş, sovet dövründə həqiqi hərbi xidmətdə olmuşdur. Bayram uşaqlıqdan atasının yanında onun peşəsinin sirlərini öyrənmiş və hazırki dövrdə də bu peşə ilə məşğul olur. O, Beyləqan rayon Xalac kənd sakini Adilə xanımla evlənib, ailə qurubdur. Tural, Emin adlı iki oğlu, Günel adlı bir qızı var. Ailənin böyük oğlu **Tural** Azərbaycan Tibbi Universitetinin stomatoloq fakültəsini bitirib, diş həkimi işləyir. O, Kürdəmir rayon sakini Ülviyyə xanımla evlənmiş, onların bir oğlu, bir qızı var.

**Quliyev Emil** Bayram oğlu, Xalac kəndində anadan olubdur. O, Tibb kollecini bitirib, hazırda diş texniki işləyir. Emil, Kəmalə adlı xanımla ailə qurub, iki oğlu var, Bakı şəhərində yaşayır.

**Quliyev Səlim Kərim** oğlu, Beyləqan rayon Xalac kəndində anadan olub, Xalac kənddə orta məktəbi bitirdikdən sonra Bakı Mədəni-Maarif texnikomuna daxil olubdur. O, qarmon ixtisasını öyrənmiş, hazırda ixtisası üzrə musiqiçidir. Səlim Qazax rayon sakini Rima xanımla ailəlidir, bir oğlu var.

Kərimin qızları: Telli Beyləqan rayon Xalac kənd sakini Məhərrəmlə ailəlidir, iki oğlu, iki qızı var. Təzəgül, Çəmənli kənd sakini Xankişi ilə ailəlidir, üç oğlu, bir qızı var. Aybəniz (Gülnaz) Gəncə Pedoqoji Texnikomunu bitirib, dayısı oğlu Allahverdi ilə ailəlidir, bir oğlu, iki qızı var. Bahar, Bakı Mədəni-Marif texnikomunu bitirib, Xalac kənd sakini Məmmədqulu ilə ailə qurub, onların bir oğlu, bir qızı var.

**Quliyev Qabil İsrafil oğlu** (1929-2010), Budaqlı tayfasında anadan olub, peşəsi heyvandarlıq olubdur. O, Əntiqə adlı qadınla ailə qurub, onların doqquz uşağı olubdur.
Oğlanları: Arzuman, Etibar, Habil, Hafiz, qızları: Səkinə, Mədinə, Əzizə, Kifayət, Güllü.

Qabil 2010-cu ildə yaşadığı Xalac kəndində rəhmətə gedib, Xalac kənd qəbirstanlığında doğmalarının yanında dəfn olunubdur.

**Quliyev Arzuman** Qabil oğlu, Bakı Dəmir Yol Texnikomunu bitirib, dəmir yolunda çalışır. O, İmişli rayon Sarıxanlı kənd sakini Yaqut xanımla ailə qurub, Elçin, Fərqanə adlı iki övladları var. Gənclərin hər ikisi ailəlidir.

**Quliyev Etibar** Qabil oğlu, Rusiya Fedarasiyasında İqtisad Universitetini bitirib, iqtisadçıdır. Əmisi Nadirin qızı Samirə xanımla ailə qurub, Qabil adlı bir oğlu var. Qabil babasının adını daşıyır.

**Quliyev Habil** Qabil oğlu, Yardımlı rayon sakini Səadət xanımla ailə qurub, hələ ki, övladları yoxdur.

**Quliyev Hafiz** Qabil oğlu, ailənin dördüncü övladıdır, əmisi Sabirin kiçik qızı Günay xanımla ailə qurubdur. Onların Əntiqə, Ləman adlı iki övladları var.

Qabilin qızları: Səkinə Rasif adlı oğlanla ailəlidir, üç oğlu var. Mədinə, Mustafa adlı oğlanla ailə qurub, iki oğlu, bir qızı var. Əzizə, Yadulla adlı oğlanla evlənib ailə qurub, iki qızı, bir oğlu var. Kifayət, Şəmsəddin adlı oğlanla ailə qurub, bir oğlu, bir qızı var. Güllü, Xalac kənd sakini Elçinlə ailəlidir, bir oğlu, bir qızı var.

**Quliyev Əbil İsrafil oğlu** (1938-1999), Budaqlı tayfasında anadan olubdur. O, əmisi qızı Təzəxanımla evlənib, onların Xaliq, Zeynəb adlı iki övladları dünyaya gəlmişdir. Əbil əv-

vəl heyvandarlıqla, sonralar isə kənd həyatı yaşayıb, əkinçiliklə məşğul olubdur. Əbil 1999-cu ildə Beyləqan rayon Xalac kəndində dünyasını dəyişib, Xalac qəbirstanlığında doğmalarının yanında dəfn olunubdur.

**Quliyev Xaliq** Əbil oğlu, Bakı Dəmir Yol texnikomunu bitirib, dəmiryolçudur. O, Eyvazalılar kənd sakini Sevinc xanımla ailə qurub Əbil, İsa, Malik, Namiq adlı oğlanları və Çiçək adlı bir qızı var.

Əbilin qızı Zeynəb xanım Tibb Texnikomunu bitirib, Məhərrəm adlı oğlanla ailəlidir, bir oğlu, iki qızı var.

**Quliyev Əli İsrafil oğlu** (1942-2016), doğma tayfasında dünyaya göz açıb, ancaq 1944-cü ildən etibarən ailəsi ilə birlikdə Beyləqan rayon Dünyamalılar kəndinə köçüblər. Əli, əsasən, əkinçiliklə məşğul olubdur. O, Xədicə (1950-2013) xanımla evlənib ailə qurub, onların beş övladı dünyaya gəlib.
Oğlanları: Bəxtiyar, İxtiyar, Sadiq, qızları: Səadət, Yeganə.
Əli kişi 2016-cı ildə yaşadığı Xalac kəndində rəhmətə gedib, Xalac kənd qəbirstanlığında dəfn olunubdur.

**Quliyev Bəxtiyar** Əli oğlu, Beyləqan rayon Xalac kəndində doğulub, boya-başa çatıb, doğulduğu kənddə yaşayır. Avtomobillərin təmir ustası peşəsində çalışır, el-obasında özünə hörmət qazanmış sənətkardır. Bəxtiyar əmisi Sabirin ikinci qızı Ülviyyə xanımın həyat yoldaşıdır. Bu cütlüyün Rahib və Orxan adlı iki oğlu anadan olub. Rahib ailənin böyük oğludur hələki ailə qurmayıb.

**Quliyev Orxan Bəxtiyar** oğlu, 25.07.1997-ci ildə Beyləqan rayon Aşqallar kəndində anadan olub. 2003-cü ildə Aşqallar kənd tam orta məktəbin 1-ci sinifinə gedib və 2014-cü ildə orta məktəbi bitirib. 2015-ci ildə həqiqi hərbi xidmətə çağırılıb, ilkin mərhələdə Qaradağ rayon "Sənqəçal" qəsəbəsində mi-

naların düzülməsi və zərərsizləşdirilməsi üçün 3 aylıq kursu bitirib. 2016-cı il aprel döyüşlərində Tərtər rayon istiqamətində gedən döyüşlərdə düşmənə qarşı vuruşub. Orxan Quliyev II Qarabağ müharibəsi başladığı andan könüllü olaraq cəbhəyə gedib, döyüşlərə qatılmışdır. Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə vuruşmuş və sücayət göstərmişdir. 14 oktyabr 2020-ci ildə Cəbrayıl rayon "Bullan" dağ yüksəkliyinin alınması uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Orxan Quliyev ölümündən sonra Vətən uğrunda, Cəbrayıl uğrunda gedən döyüşlərə görə və Cəbrayılın alınmasına görə medalları ilə təltif olunub. Şəhid Orxan Quliyev Beyləqan rayon Xalac qəbirstanlığında dəfn olunub.

**Quliyev İxtiyar** Əli oğlu, Beyləqan rayon Xalac kəndində dünyaya gəlib, həmin kənddə yaşayır. İxtiyar yaxın qohumu Gözəl xanımla ailə qurub, Ülvi, Əli adlı iki oğlu var.

Quliyev **Sadiq** Əli oğlu, Günay xanımla ailəlidir, Ayxan, Həqiqət adlı iki övladı var. Əlinin qızları: Səadət, Rəfayıl adlı oğlanla ailəlidir, bir qızı, bir oğlu var. Yeganə xanım Fəyyazın həyat yoldaşıdır, bir oğlu, bir qızı var.

**Quliyev Vəli İsrafil oğlu** (1945-2019), Beyləqan rayon Dünyamalılar kəndində anadan olub. Qardaşları ilə birlikdə 1964-cü ildə Beyləqan rayon Xalac kəndinə köçüblər. Kənd həyatı yaşamaqla əkinçiliklə məşğul olubdur. Vəli Almaz xanımla ailə həyatı qurub, onların iki oğlu, bir qızı olubdu.

Oğlu: Teymur, Lətif, qızı Könül.

Vəli 2019-cu ildə yaşadığı Xalac kəndində rəhmətə gedib, Xalac kənd qəbirstanlığında doğmalarının yanında dəfn olunubdur.

**Quliyev Teymur** Vəli oğlu, II Dünya Müharibəsində həlak olmuş əmisinin adını yaşadır. O, Səma adlı xanımla evlidir, Fərid və Fəridə adlı iki övladı var.

**Quliyev Lətif Vəli** oğlu, ailənin ikinci oğlu olmaqla rəhmətlik dayısının adını yaşadır. Lətif, Ağca xanımla ailə qurub, Vəli, Namiq, Ruslan adlı övladları dünyaya göz açıbdır. Vəlinin qızı Könül xanım xalası oğlu Vüqarın həyat yoldaşıdır, iki oğlu, iki qızı var.

**Quliyev Sabir İsrafil** oğlu, 1946-cı ildə Beyləqan rayon



*Sabir həyat yoldaşı Leylan, qızı Ülviyyə*

Dünyamalılar kəndində anadan doğulubdur. Sabir, mehriban, elcanlı və qonaqpərvər olduğu üçün hamı tərəfindən sevilən ağsaqqaldır. O, zəhmətkeş insan olmaqla yanaşı, həm də gözəl ailə başçısıdır. Sabir Leylan xanımla ailə qurub,

dörd qız övladları dünyaya gəlib. Onun həyat yoldaşı Leylan xanım da sürfəsi açıq, gülərüz insandır.

Övladları: Tamaşa, Ülviyyə, Aynur, Günay.

Sabir böyük qızına anası Tamaşanın adını qoyubdu. Tamaşa qan qohumu Əjdərin oğlu İsrafilin həyat yoldaşıdır, iki oğlu, bir qızı var. Ülviyyə əmisi oğlu Bəxtiyarın həyat yoldaşıdır, Rahib və Orxan adlı iki oğlu olub. Orxan II Qarabağ müharibəsində şəhid olub. Aynur həmkəndlisi Teymur adlı oğlanla ailəlidir, iki qızı, bir oğlu var. Günay əmisi Əbilin oğlu Hafizlə ailəlidir, iki qızı var.



**Quliyev Nadir İsrafil** oğlu, 1953-cü ildə Dünyamalılar kəndində anadan olub, orta ixtisas təhsili alıb mexannikdir. Qardaşları ilə Xalac kəndinə köçüb və kənddə ixtisası üzrə əmək fəaliyyətinə başlayıb. Nadir Nahidə xanımla evlənib, onların İsrafil, Samirə, Ramilə adlı üç övladı olubdur.

Nadir də öz növbəsində böyük oğluna atası İsrafilin adını qoyubdur.

**Quliyev İsrafil Nadir** oğlu, yaşadığı Xalac kəndində orta təhsilini başa vurduqdan sonra Bakı şəhərində Asəf Zeynallı adına musiqi kollecinə daxil olmuş və tar çalğı alətləri üzrə təhsil almışdır. İsrafil Aytən xanımla ailə qurmuş, onların Leyla və Aysun adlı iki övladı var. Nadir öz sevimli peşəsi ilə məşğul olmaqla gözəl tarzəndir, Bakı şəhərində yaşayır.

Nadirin qızı **Ramilə** (1983-2018), ailə qurub, Məhərrəm və Fidan adlı övladları dünyaya gəlibdir. Çox təəssüflər olsun ki, o 2018-ci ildə cavan yaşında dünyasını dəyişib və Xalac kənd qəbirstanlığında dəfn olunubdur.

İsrafilin qızları: **Xanım** (1930-1991) İmişli rayon Muğanlı kənd sakini Rüstəmlə ailə qurub, onların dörd oğlu, beş qızı dünyaya gəlib. Xanım 1991-ci ildə İmişli rayon Cəfərli kəndində rəhmətə gedib və həmin kənd qəbirstanlığında dəfn olunubdu. Övladları İmişli rayon Cəfərli kəndində yaşayırlar.

**Gülüzə** İsrafil qızı, Eldarla ailə qurub, üç oğlu, üç qızı olubdu. Gülüzənin Seyfəddin (1966-1993) adlı oğlu 1993-cü ildə I Qarabağ müharibəsində şəhid olub.

Pürüzə İsrafil qızı, Beyləqan rayon Çəmənli kənd sakini Əhmədlə ailə qurub, iki oğlu, iki qızı anadan doğulubdu.

**Quliyev İsfəndiyar Kərim** oğlu, Budaqlı tayfasında dünyaya göz açıb. Çox mülayım, sakit təbiətli, heç kəslə işi olmayan bir insan kimi, əsasən, heyvandarlıqla məşğul olubdur. İsfəndiyar əslən Cənubu Azərbaycandan olan, lakin Beyləqan rayon Eyvazalılar kəndində yaşıyan Hacı Kərimin yeganə qızı Bəyaz xanımla ailə qurub, onların altı övladı olubdur.

Oğlu: Hacıbaba, Kamil, Əjdər qızı: Sürəyyə, Təzəxanım, Səriyyə.

**Hacıbaba** İsrafil oğlu uşaq vaxtı dünyasını dəyişib. İsfəndiyarın həm doğma obasından, həm də qardaşından ayrılıb Eyvazalılar kəndinə gəlməsi, onun qayınatası Hacı Kərimin ölümü ilə əlaqədardı. Hacı Kərim varlı adam olub. Ömrünün son anlarında kürəkəni İsfəndiyarı çağırıb ki, ömrümə az qalıb, mənim malıma-mülkümə sahib çıxmalısan. İsrafil də Kərim kişinin sözünə əməl edib, köçüb Eyvazalılar kəndinə. İs-

fəndiyar kişi imişli rayon Bəcrəvan kəndi yaxınlığında maldarlıqla məşğul olurdu. O,erkən dünyasını dəyişdi, İmişli rayon Bəcrəvan kənd qəbirstanlığında dəfn olunubdur. İsfəndiyar rəhmətə getdikdən sonra ailəni yükü düşüb böyük oğlu **Kamilin** üstünə. Təəssüflər olsun ki, Ailənin böyük oğlu Kamil 24 yaşında qəflətən rəhmətə gedib və atasının qəbri yanında dəfn olunubdur.



***Əjdər kişi, oğlu İmamət və ailə üzvləri.***

**Quliyev Əjdər İsfəndiyar oğlu**, 1942-ci ildə Budaqlı elatında anadan olub, ancaq atasının üzünü görməyib. O, ailənin ikinci oğludu, dindardı, müxtəlif peşələrdə çalışıb, yaxşı səsi olmaqla yanaşı, həm də yaxşı saz çalmağı var. Gözəl avazı olduğu üçün, yaxşı quran oxuyur. O, Eyvazalılar kəndində yaşayır və həmin kəndin mollasıdır. Əjdər, yaşadığı kənddə Raya adlı xanımla ailə qurub, onların on uşağı olub.

Oğlanları: İsfəndiyar, İsrafil, İmamət, Tehran, Hacıbaba.
Qızları: İnsaf, Nüşabə, İradə, Gülaçar, Minurə.

**Quliyev İsfəndiyar** Əjdər oğlu, babasının adını daşıyır. O, həmkəndlisi Ülviyyə adlı xanımla ailəlidir, Fərmayıl, Fədail adlı iki oğlu, Nigar adlı bir qızı var. Fərmayıl Bakı şəhərində Aynur xanımla ailə qurub, Murad, Miqvar adlı iki oğlu olub, Bakı şəhərində yaşayır. İsfəndiyarın qızı Nigar xanım, Cəlilabad rayon sakini İlkinin həyat yoldaşıdı, iki oğlu var.

**Quliyev İsrafil** Əjdər oğlu, ata qohumu Tamaşa xanımla ailə qurub, onların Kərim və Bəyaz adlı iki övladı varı . İsrafil I Qarabağ müharibəsində fəal iştirak edib, ön cəbhədə döyüş yolları keçib, hazırda Qarabağ qazisidir. İsrafil halal zəhməti ilə məşğul olub ailəsini dolandırır. Peşəsi ustalıqdı, ev tikmək və təmir etməkdir.

**Quliye**v **İmamət** Əjdər oğlu, Beyləqan rayon Eyvazalılar kəndində anadan olub, Eyvazallar kənd tam orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətdə olubdur. I Qarabağ müharibəsində ön cəbhədə döyüşlərdə iştirak edibdir. Döyüş zamanı yüngül yaralanıb, hazırda Qarabağ qazisidir. O, yaşadığı kənd sakini Afiqə xanımla ailəlidir, onların Mehrac, Gülay və Raya adlı üç övladı anadan olubdur. İmamətin şəxsi fermer təsərrüfatı var qoyunçuluqla məşğul olur, O, cins “Qarabağ”, “Qaradolaq” qoyun cinsi yetişdirir. İmamət fitri istedada malik olan bir insandır. Sinəsi sözlə dolu olan, poezya vurğunu İmamətin gözəl saz çalmağı və gözəl səslə oxumasının şahidi oldum. Sazından, sözündən doymadığım Budaqlı balasının qonağı oldum, halal sürfəsində çörəyin kəsdim.

**Quliyev Tehran** Əjdər oğlu, Beyləqan rayon Eyvazalılar kəndində anadan olub, orta məktəbi bitirib, həqiqi hərbi xid-

mətini başa vurubdur. Yaşadığı kənddə həmkəndlisi Asima xanımla ailə qurub, Aydın və Səma adlı iki övladları var.

**Quliyev Hacıbaba** Əjdər oğlu, əsli Talıbxanlı tayfasından olan Yemən xanımla ailəlidir, onların Kamal və Xədicə adlı iki övladları dünyya gəlibdi. Hacıbaba uşaq vaxtı dünyasını dəyişən əmisi Hacıbabanın adını yaşadır.

Əjdərin qızları: İnsaf yaxın qohumu Seyfəddinlə ailə qurub, onların Nuray, Aytəkin, Gültəkin adlı üç övladı olub. Aytəkin və Gültəkin əkiz bacılardı. İnsafın həyat yoldaşı Seyfəddin I Qarabağ müharibəsində şəhid olub.

**Nüşabə** Əydər qızı, yaşadığı Eyvazalılar kənd sakini Pəhlivanla evlidir, Orxan, Zaur və Şəbnəm adlı üç övladı anadan ilub. Nüşabənin övladları Zaurla Şəbnəm də əkiz doğulubdu. Nüşabənin oğlu Orxan dayısı qızı Bəyazla ailə qurub.

**İradə** Yaşadığı kənd sakini Mehmanın həyat yoldaşıdır, onların Səbayıl və Anagül adlı iki övladı var. Mehman cavan yaşlarında dünyasını dəyişibdi.

**Gülaçar** Əjdər qızı həmkəndlisi Şaməddinin həyat yoldaşıdır, onların Tubuxanım, Aysu, Rəvanə, Riyad adlı övladları dünyaya gəlibdi.

Minarə Eyvazalılar kənd sakini Nərimanın həyat yoldaşıdır, bu cütlüyün Minurə, Ruslan, Eşqin, Solmaz adlı övladları düyaya göz açıblar.

Əjdərin bütün övlad, nəvə, nəticələri Beyləqan rayon eyvazalılar kəndində yaşayırlar. ..

## TƏHMƏZLİ TİRƏSİ

Budaqlı tayfasında Təhməzli tirəsi, bu nəslin ulu babası Təhməzin adına bağlıdır. XIX əsrdə tayfanın başında Kərbəlayı İbrahim dayanıb. Onun atasının adı Təhməz olubdur. Təhməz, Budaqlı tayfasında yaşamış, qışlaq və yaylaq mövsümünü bir yerdə keçirmişdilər. Təhməz kişi Hacıalılar obasında olmaqla, onların heyvan sürülərinin birinə baxmışdır. Təhməz kişinin dörd oğlu olub.

Oğlanları: İbrahim, Cəbrayıl, Aslan, Abbas, qızı: Güllər.

Təhməz kişinin sağlığı dövründə oğlu İbrahimi Kərbəlayı ziyarətinə göndərib, o, Kərbəlayı titulunu qazanıb. Təhməz kişi dünyasını tez dəyişibdir. Ondan sonra tirənin ağsaqqallığı, başçılığı Kərbəlayı İbrahimin üzərinə düşmüşdür. Kərbəlayı İbrahim çox qeyrətli kişi olmaqla, həm də təəssüfkeş kişi olubdur. O, söz götürən adam olmayıb və obasına, ətrafındakılara qarşı heç vaxt biganə qalmayıbdır. Tayfanın xeyir-şərində fəal olan kişilərdən olub. Onu da bildirmək lazımdır ki, Təhməzli tirəsinin ulu babalarından tutmuş, müasir nəslinə qədər yaşayanlarda nə qorxaqlıq, nə də yaltaqlıq olmayıb. Mərd və sözü üzə deyən adamlar olublar.

**Kərbəlayı İbrahim,** elat tayfasından Anaş xanımla ailə həyatı qurubdu. Onların iki oğlu, bir qızı dünyaya gəlib..

Oğlanları: Allahverdi, Xanlar, qızı: Gülgəz

Onlar əsasən heyvandarlıqla məşğul olurdular. Kərbəlayı İbrahim oğlu Allahverdiyə Hacı Qasımın bacısı Tellinin qızı Qızxanımı almışdı. Kərbəlayı İbrahim dünyasını dəyişəndən sonra Allahverdi Hacıların taxıl sahələrinə nəzarət edirdi. Belə ki, taxılın biçin zamanı yaylaqdan geri dönər, taxıl tədarükünü başa çatdırıb bir də yaylağa qayıdardı. Allahverdi, Qız-

xanım cütlüyündən iki oğlan dünyaya gəlmişdir. İbiş və Müseyib. Təxminən 1915-cu ildə Allahverdi yenə yaylaqdan geri dönüb taxılı biçdirib, döydürüb quyulara (o vaxt taxılı xüsusi hazırlanmış taxıl quyularında basdırırdılar) doldurub üstün basdırıblar. Bu zaman İrandan keçən bir dəstə quldur məlumat alır ki, Allahverdi taxılı tədarük etdirib hardasa basdırıb. O zaman belə quldurlarla əlbir olan yerli adamlar olurdu ki, onlar üzdə olmasa da arxada satqınçılıq edirdilər. Bunun nəticəsində quldurlar Allahverdidən taxıl quyularının yerini soruşmuşdular. O, israrla demişdi:

- Mən taxılçılıqla məşğul olmuram və taxıl quyularının yerini də bilmirəm.

Quldurlar ona deyiblər:

- Görürəm cavan oğlansan, inadkarlıq etmə, taxılın yerin de səninlə işimiz olmayacaq.

Allahverdi isə bilirdi ki, bu taxıl elat camaatının illik ruzisidir. Taxılı quldurlara verib getmək, camaatı ac qoymaq heç kişilikdən deyil. Onlara demişdir:

- Mən bilmədiyim, görmədiyim işi sizə necə deyə bilərəm? Quldur başçısı ona təkrar olaraq dedi:

- Sənə bir də deyirəm əgər taxılın yerini deməsən bil ki, səni güllələyəcəyəm, fikirləş iki yolun birini seç.

Allahverdi gözü görə-görə taxılı bu quldurlara verməkdənsə ölməyi üstün tutaraq demişdi:

- Mən sizə qəti olaraq deyirəm bilin, taxıldan xəbərim yoxdur, olsa belə camaatın illik ruzisini qaçaq, quldurlara vermərəm.

Bu cavabı eşidən quldurlar Allahverdini yerində güllələmişdilər. Ancaq onlar taxılı tapıb apara bilməmişdi.

Allahverdi "Qızıl Qaya" yaxınlığında el qəbirstanlığında dəfn olunmuşdur. Onun iki körpə balası atasız qaldı. İbiş dörd yaşında, Müseyib isə iki yaşında. Allahverdinin həyat yoldaşı Qızxanım çox gözəl xanım olmaqla, həm də qoçaq qadın idi. O, qaynı Xanlarla ər evində uşaqlarına baxırdı. Xanlar Qızxanımdan çox uşaq idi. Aralarında xeyli yaş fərq varıydı. Ona bacı deyirdi və Qızxanım da öz növbəsində ona qardaş deyərdi. Həm də Qızxanım körpə uşaqlarla bərabər Xanlara da Allahverdinin yadigarı kimi baxırdı.

**Xanlar** İbrahim oğlu, Aşıqlı elatından Tamaşa adlı bir xanımla ailə qurmuşdu. Onların bir qızları da olmuşdu. Xanların qızı körpə vaxtı anasının kürəyindən qaynar süd qazanına düşüb yanaraq ölmüşdü. Bir il keçməmiş Tamaşa özü də dünyasını dəyişdi. Ailəsi və uşağı olan vaxtlar da Xanlar qardaşı Allaverdi ilə bir ailədə yaşayırdı. Xanların həyat yoldaşı Tamaşanın iki bacısı Qızxanım və Başxanım da Kərbəlayı Şirinli tirəsində ərdə olublar. Elat tayfası yaylaqdan geri döndükdən sonra, qışlağa köçəndə Hacı Qasım bacısına demişdir ki, Qızxanımı gətizdirərsən evinə. Xanlar ondan kiçik olsa da düz gəlməz, elin ağzın bir yerə yığmaq olmaz. Qızxanımın qardaşları gəliblər onu aparmağa. Xanlarla, Qızxanım ağlayıb yalvarıblar ki, biz qardaş-bacı bu uşaqları böyüdəcəyik, bizi ayırmayın. Ancaq bu mümkün deyildir. Qızxanım gedəndən sonra Xanlar evin altında tək qalmışdır. O dövrün öz hökmü var idi, dul xanımları tez alırdılar. Qızxanım da bilirdi ki, onu tez ərə verəcəklər. O, istəmirdi iki balası kiminsə əlinin altında böyüsün və yaxud başqasına buyruqçu olsun. Amma çıxış yolu da axtarıb tapa bilmirdi. Bir tərəfdən də onun gözəlliyi başının bəlası idi. Ona elçilər gəldikcə deyirdi: -Allahverdinin ili çıxmayınca heç kəsə getmərəm.

O, anasına yalvardı ki, razı olma məni ərə versinlər. Anası Telli də onu başa salırdı ki ay qızım, gözəl-göyçək xanımsan ərə get, öz həyatını yaşa, mən sənin körpələrinə özüm baxacam. O isə ağlayar və deyərdi:

- Ana, uşaqlarımı heç sənə də etibar etmirəm, balalarımı özüm, yanımda böyütmək istəyirəm. Heç olmasa bir il mənə möhlət verin, söz deməyin.

Beləliklə, Qızxanım yeddi ay idi, ata evində oturmuşdu. Xanlar tez-tez gəlib yalvarırdı verin bacımı aparım evimizə, qardaşımın balalarına özüm baxım. Amma elin qınağı varıydı bu da qəbul olunmurdu.

Artıq ilin yazı girmişdisə də Qızxanımın həyatı qışdan çıxa bilmirdi. Sanki, o buzlaşıb elə qışda qalmışdı. Ata evində olduğu müddətdə ona çox elçilər gəlmişdi, ancaq onu yola gətirə bilmirdilər. Qızxanım onu da bilirdi ki, yaylağa gedən zaman onu ərə verəcəklər. Həm də həyat yoldaşının ildönümü də yaxınlaşırdı. Kimə verəcəklərini də bilirdi. Amma bunları qəbul edə bilmir, gecə-gündüz Allaha yalvarırdı ki, ona kömək olsun. Bütün günləri fikir-xəyal içində dolanan Qızxanım, bir çıxış yolu da axtarıb tapa bilmirdi. Ümidi qalmışdı tək bir Allaha. Yazın ikinci ayı sona çatmaq üzrə idi, demək olar ki, elat tayfalarının dağ köçü başlamışdı. Tərəkəmələr Laçın rayonunu keçib yaylaqlarda çadır qurub məskunlaşmışdılar. Boşçalar tayfası "Çalbayır" da, Budaqlılar isə "Gəlin Qaya" yaylağına köç düşmüşdülər. Tərəkəmələr bu yerlərdə on-on beş gün qalıb sonra Kəlbəcər yaylaqlarına qalxardılar. Bu yerlər ona görə aşağı yaylaq adlanırdı ki, burda qışın yağan qarı tez əriyər və may ayının ikinci yarısında yaşıl ota bürünərdi. Bu yaylaqlarda tərəkəmələr böyük alaçıqlar yox, kiçik binələr tikərdilər. Laçın və Sisyan rayonlarına ya-

xın olduğu üçün, camaat son yaylaq bazarlığını burada edib, doğma yurdlarına ata-baba yaylaqlarına köçərdilər.

Qızxanım köç yolu gəldikcə beynini deşən fikirlərə son qoymaq qərarına gəlmişdi. O, bütün günü düşünüb qərara gəlmişdir ki, bu gecə mütləq obadan getməlidir. Hara gedəcəyini bilirdi, bu yolları köç zamanı gündüzlər at belində dəfələrlə getmişdi, lakin bu yolların gecələr nə qədər qorxulu olduğunu da yaxşı bilirdi. Qızxanımın qərarı qəti idi, ya ölüm, ya da qalım. Gecə obada hamı yatandan sonra itlərə atmaq üçün bir az çörək götürmüş, gecə yarısı kiçik oğlu Müseyibi kürəyinə şəlləmiş, böyük oğlu İbişin əlindən tutaraq fermanın itlərinə çörək ata-ata obadan çıxmışdır. "Çalbayır"dan "Gəlin Qaya"ya getmək uzaq olmaqla yanaşı həm də çox qorxulu idi. Bu yerlərdə ayı, canavarlar çox olurdu.



*Qızxanım arvad*

Tək Allahına sığınıb bu qorxulu yolu gedən Qızxanım ölümünü istəyirdi, ancaq ərə getmək istəmirdi. O, səhərə yaxın öz obalarına çatmış, alaçığın qapısın açıb evə girmişdi. Bu zaman qaynı Xanları başı çalmalı libasını soyunmadan oturaq vəziyyətdə yatdığını görür. Xanlar oyanır, qucaqlaşıb, ağlaşırlar. Xanların da gecə-gündüzü yoxuydu, hər gün uşaqları fikirləşir, bir tərəfdən qardaşının vaxtsız ölümünü qəbul edə bilmir, digər tərəfdən də onun iki körpə balasından ayrı düşməsi onu hər gün məngənə kimi sıxırdı. Xanlar uşaqları qucaqlayıb ağlayıb və deyir: - Bacı, bu

qorxulu yolu necə gəldin, canavarlar gündüz adamın üstünə gəlir gəl ki, gecə ola. Qurban olum, Allaha nə yaxşı sizi salamat gətirib çıxarıb.

Qızxanım isə salamat gəlməyinə özü də inanmırdı

- Qağa, bir Allaha yalvarıb çıxmışam, orada qalmaqdansa, ölümümü üstün bildim. Qaçmasam məni ərə verəcəydilər. Xanlar gözlərinin yaşın silib dedi:

- Bacı, sən Allah bir də qayıdıb getmə, Tanrı mənə ömür versə qoymaram qardaşımın balaları özgə yanında böyüyələr.

Gecənin bir zamanı yuxudan ayılan Telli arvad baxdı ki, nə qızı var, nə də onun oğlanları. Oğlu İmranı oyatdı, dedi:

- Oğul, bacın yoxdu, uşaqların götürüb qaçıb. Yəqin ki, evlərinə gedib, ancaq gedib çıxa bilməz. Gecənin bu vaxtında onları qurd-quş parçaladı, camaat yuxudan oyanmamış onu tapmalısan, ya ölüsünü, ya da dirisini.İmran əsəbi halda silah götürüb binədən çıxmış və atını bir başa Xanların alaçığına sürmüşdür. Artıq səhər açılmışdı ki, qapının atmasını qaldırdıqda bacısının burada sağ-salamat olduğuna gördü. İmran bir tərəfdən onların sağ-salamat gəlib çıxmasına sevinsə də, digər tərəfdən bacısının öz başına hərəkəti ona ağır təsir edirdi. O, atdan düşüb evə girib, bacısının üstünə səsləndi:

- Qızxanım bu nə özbaşınalıqdır sən etmisən, bizim papağımızı niyə yerə vurursan. Uşaqlarını sinəsinə sıxıb, ağlayan Qızxanım:

- Qardaş, qurbanın olum, qaldır silahını öldür məni, ancaq məni geri qaytarma. Məni ərə vermək istəyirlər rəyim olmadan.

- Bacı, məgər mən ölmüşəm, dərdini mənə deyə bilməzdin?

İmran el-obada tanınmış oğlan idi. Sözünün qabağına söz deyən cavan tapılmazdı. Bacısının göz yaşları onun ürəyini yumşaltdı və atını sürdü dayısı Hacı Qasımın qapısına. O, gecə olan əhvalatı Hacıya danışdı:

- Dayı, özümü ələ ala bilmirəm, uşaqlar da ağlaşdılar pis oldum, əlimi qana bulamadım. Məsləhətin nədir?

Hacı Qasım dünyanı görə-görə gəlmişdi. Belə hadisələrin çox şahidi olmuşdu, ən çətin işləri həmişə Hacı Qasım yoluna qoyardı. O, İmranı sakitləşdirdi, səhər-səhər çay süfrəsinə dəvət etdi və dedi:

- İmran, düz eləmisən, bir yana baxanda onu da qınamaq olmaz. Qadınların dul qalmağı qınaq gətirər, ancaq qızı da başa düşmək lazımdır, ailə qurmaq istəmir. Bir tərəfdən də deyirlər, Xanlarla bacı-qardaş kimi uşaqları böyüdəcəm. Bu da bizə baş ucalığı gətirməz. Get narahat olma, özüm işləri qaydasına qoyacam. Get ata-anana de ki, bacımı dayıma verib gəldim.

İmran öz obalarına qayıdıb, Qızxanımın salamat olmasını və baş verənləri ailəyə bildirmişdi. Bundan sonrasını dayım bilər, o, özü məşğul olacaq.

Hacı Qasım bacısı oğlunu yola saldıqdan sonra, Məşədi Bəyaza dedi:

- Bəyaz, mən razı ola bilmərəm ki, Qızxanım özündən çox kiçik olmasına baxmayaraq, qayını Xanlarla bir alaçıqda yaşasınlar. Ancaq onları da başa düşürəm, bu gün adam göndərib onların kəbinlərini kəsdirəcəm. Get onları başa sal ki, bundan sonra ailə kimi yaşasınlar. Bəyaz, bu işi sənə həvalə edirəm.

Məşədi Bəyaz bir böyük tayfaya analıq, nənəlik edirdi. Onun xeyir-duasından bəhrələnənlər çox idi. Onun sözünü

çevirməyə heç kəs cürət etməzdi. Çünki, onun amalı xeyirxah və mərhəmətli olmaq idi. O, öz ağbirçəkliyini yerinə yetirdi, onların nicat yolu ancaq evlənməkləri olmağını başa saldı. Həmin gün bir məclis də qurdurdu, ağsaqqallar, ağbirçəklər xeyir-dualarını verdilər. Bu cütlüyün yeni, uğurlu həyat yolları davam etməyə başladı.

Zaman gəlib keçdikcə ömrün acılı, ağrılı günləri artıq arxada qalmağa başladı. Xanlarla, Qızxanım bir yerdə ömür sürməyə başladılar. Ağır olsa da onlar taleləri ilə barışdı. Qızxanımın, İbiş və Müseyibdən sonra övladları dünya göz açdılar. Onlar əl-ələ verib balalarını böyütdülər. Onun iki oğlu, üç qızı oldu.

Oğlanları: Allahverdi, Camal, qızları: Şərəf, Mərziyə, Həyat.

Böyük oğluna qardaşı Allahverdinin adını qoydu. İkinci oğlunun adını isə Camal qoydu. İbiş və Müseyib II Dünya Müharibəsinə getdilər.

**İbiş** Allahverdi oğlu (1911-1943), ailə həyatı qurmamış 1938-cu ildə hərbi xidmətə getmişdir. O, 1939-cu ildə başlayan İkinci Dünya Müharibəsində iştirak etmişdir. Onun hərbi xidmətinin bitirmə dövrü Böyük Vətən Müharibəsinin başlanması zamanına düşmüş və Almanlara qarşı döyüşmüşdür. İbiş 1943-cü ildə döyüşlərin birində qəhrəmancasına həlak olmuşdu.

**Müseyib** Allahverdi oğlu (1913-2007) Böyük Vətən Müharibəsində ağır yaralandığı üçün hospitalda müalicə olunduqdan sonra 1946-cı ildə hərbidən tərxis olunmuşdur. O, müharibə başlandığı gündən Mazdokdan Berlinə qədər şərəfli döyüş yolları keçmiş və bir neçə dəfə yaralanmasına baxmayaraq, hospitallarda müalicə olunub, yenidən döyüşə qatılmışdır. O, müharibədən əvvəl Budaqlı tayfasının içində, əmisi Xanların

himayəsində yaşamışdır. Müharibədən qayıtdıqdan sonra Hadrut rayonunun Tuğ kəndində yaşamışdır. Ona həm müharibə veteranı kimi,  həm də yüksək insanı keyfiyyətlərə malik olan bir ağsaqqal kimihörmət qoyardılar. Kərbəlayı İbrahimin oğlu Allahverdinin övladları babalarının soyadını daşıyırlar. Xanların övladları isə babaları Təhməzin soyadını daşıyırlar. Müseyib kişi Paşanın qızı Firuzə ( Pürzə) (1928-2019) xanımla ailə qurub. Onların beş oğlu və üç qızı olubdur:

Oğlanları: Kamal, Teymur, Vaqif, Şakir, Zakir.

Qızları: Şamama, Qənirə, Xanım.





*Müseyib, həyat yoldaşı Firuzə*

Müseyib kişi, uzun müddət dayısı Hacı Qasımın torpağı olmuş "Qızıl Qaya" da heyvandarlıqla məşğul olmuşdu. Müseyib kişi ömrünün ahıl çağında, erməni seperatçılarının işğalçılıq siyasətinin qurbanı oldu və məcburi köçkün kimi ailəsi ilə birlikdə Beyləqan şəhərində məskunlaşdı. O, 2007-ci ildə Beyləqan şəhərində dünyasını dəyişdi və Cərcis Peyğəmbər qəbirstanlığında dəfn olunub. Müseyib kişinin həyat yoldaşı Firuzə xanım, 2019-cu ilin yanvar ayında Xocavənd ra-

yon Xocavənd qəsəbəsində rəhmətə gedib, həyat yoldaşının qəbri yanında dəfn olunub.

**Kamal** Müseyib oğlu (1946-2020), Dağlıq Qarabağda Hadrut rayon Tuğ kənd orta məktəbini qurtardıqdan sonra, Azərbaycan Politexnik İnstitutuna qəbul olub və həmin İnstitutu bitirib. Kamal müəllim, mühəndis kimi əmək fəaliyyətinə başlamış, uzun müddət Füzuli rayon tikinti trestində sahə rəisindən tutmuş, mühəndis, baş mühəndis və tikinti idarəsinin rəisi kimi yüksək vəzifələrdə çalışmışdı. Füzuli rayon işğalından sonra Kamal müəllim, Xocavənd rayon Statistika idarəsinin müdiri vəzifəsində işləmişdi.

Kamal müəllim nənə qohumu Hacı Qasımın nəvəsi Bəyaz xanımla ailə qurub. Onların iki oğlu, bir qızı anadan olubdu.

Oğlanları: Fəxri (İbiş), Xəqani, qızı Könül.

Fəxri Kamal oğlu, Tuğ kəndində anadan olub. O, birinci Qarabağ müharibəsində iştirak etmiş və ağır döyüş yolları keçmişdi. Fəxri, yaxın qohumu Nəcibə xanımla ailə qurub, onun Murad və Ziyad adlı iki oğlu var. Murad və Ziyad hələ ki, subaydılar. Ziyad, İqtisad Universitetinin üçüncü kursunda təhsil alır. Bu ailə hazırda Bakı şəhərində yaşayır. Universitetinin üçüncü kursunda təhsil alır. Bu ailə hazırda Bakı şəhərində yaşayır. Xəqani Kamal oğlu, atası ilə bir ailədə yaşayır və bizneslə məşğuldu. Xəqani Beyləqan şəhər sakini Səidə xanımla evlənib. Onların Nihad və Kamal adlı iki oğlu var. Uşaqlar azyaşlıdı.

Könül Kamal qızı, Xocavənd (keçmiş Hadrut) rayon Səlakətin kənd sakini Hamlet müəllimin həyat yoldaşıdı. Onların Gülşən və Sərfinaz adlı iki qızı var. Gülşən, Fəzail adlı oğlanla ailəlidir Fariz, Toğrul adlı iki oğlu var. Sərfinaz, Bakı Slavyan Universitetinin psixologiya fakültəsini bitirib. Kamal

müəllim 2020-ci ilin oktyabr ayında Xocavənd qəsəbəsində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında doğmalarının yanında dəfn olunubdu.

**Teymur** (1948-2016), Müseyib kişinin ailəsində dünyaya göz açıb. O, Bərdə şəhərində Texniki Peşə məktəbində mexanizasiya kursunu bitirib. Texnikanın bütün sirlərini bilən, mühərriklərin yığılmasında mahir bir sənətkar kimi tanınmışdı. Teymur, yaşadığı Xocavənd rayon Tuğ kənd sakini Səlbi xanımla ailə qurmuş, onların iki oğlu, dörd qızı anadan olubdu.




***Kamal, həyat yoldaşı Bəyaz, övladları Fəxri,***
***Könül, Xəqani***

Oğlanları: Asif, Samir, qızları: Lalə, Nəzakət, Arifə, Tünzalə.

Teymur da başqa həmvətənliləri kimi erməni işğalına məruz qalmış və köçkünlük həyatını yaşamışdı. O, əvvəllər Bey-

ləqan şəhərində, sonralar isə Xocavənd qəsəbəsində məskunlaşmışdı. Teymur 2016-cı ildə 68 yaşında yaşadığı qəsəbədə dünyasını dəyişdi. O, Cərcis Peyğəmbər qəbirstanlığında atasının yanında dəfn olunub.

Asif Teymur oğlu, Tuğ kəndində anadan olub. O, Dünyamalılar kənd sakini Ceyran xanımla ailə qurub, onların Ceyhun, Vasif, Teymur adlı üç övladı dünyaya gəlibdi.

Samir Teymur oğlu, öz dayısı Allahverdinin qızı Sahilə xanımla ailəlidir, Səlimə, Yusif adlı iki övladı var. Samir ata yurdunda Xocavənd qəsəbəsində yaşayır.

Teymurun Qızı Arifə xanım, Azərbaycan Tibb Universitetinin müalicə profilaktika fakültəsini bitirib, hazırda Beyləqan şəhər Mərkəzi xəstəxanasında kardioloq həkim kimi çalışır. Arifə xanım ailəlidir, hələ ki, övladı yoxdu.

Nəzakət Teymur qızı, həmkəndlisi, Tuğ kənd sakini Cahangirlə ailə qurub, onların Cavid, Dilbər, Nərgiz adlı üç övladı var. Teymurun qızı Lalə ailə qurub, lakin həyat yoldaşı rəhmətə getdiyindən övladları yoxdu. Tünzalə, Ağcabədi rayonunda ailəlidir, bir oğlu var.

**Vaqif** Müseyib oğlu, ailənin üçüncü övladıdır. O, Tuğ kəndində orta məktəbi bitirdikdən sonra, Gəncə Yüngül Sənaye Texnikomuna qəbul olmuş, iqtisadçı ixtisası üzrə diplom almışdı. Vaqif, Füzuli rayonunda uzun müddət ixtisası üzrə çalışmışdı. Vaqif, tələbə yoldaşı, özüylə eyni kursda təhsil alan Gəncə sakini Kəmalə xanımla ailə qurubdu. Məcburi köçkünlük dövrünə qədər Füzuli şəhərində yaşamışdı. O, əvvəl Dağlıq Qarabağda yaradılan Özünü Müdafiə Batalyonunda, sonralar isə N saylı hərbi hissədə döyüşlərdə iştirak edibdi. Vaqif bir neçə dəfə ağır döyüşlərdə qəlpə yarası alsa da, sa-

ğalıb yenidən döyüşə qatılmışdı. O, Qarabağ qazisidir. Vaqifin iki övladı dünyaya gəlib.

Oğlu: Vüsal, qızı: Səidə.

Vüsal Vaqif oğlu, Mingəçevir Sanmarino Beynəlxalq Akademiyasının Avtomobilin İstismarı fakültəsini bitirib, mühəndis diplomu alıb. O, bir müddət öz ixtisası üzrə dövlət qulluğunda çalışdı. Vüsal hazırda bizneslə məşğul olur. Vüsal, Beyləqan şəhər sakini Aygün xanımla ailə qurub. Onun həyat yoldaşı özünün tələbə yoldaşı olub. Aygün də öz növbəsində Mingəçevir Sanmarino Akademiyasının Filologiya fakültəsini bitirib. Aygün xanım hazırda Beyləqan şəhər tam orta məktəbində ədəbiyyat müəllimi işləyir. Bu cütlüyün Toğrul, Raul və Səbinə adlı üç övladı dünyaya gəlib.Toğrul, Azərbaycan Texniki Universitetinin informatika və texnologiya fakültəsinin ikinci kursunda təhsil alır.

Səidə Vaqif qızı, ata qohumu Fazilin (Kamil) həyat yoldaşıdır və Rusiya Federasiyası Kazan şəhərində yaşayır. Hələki onların övladları yoxdu.

**Şakir** Müseyib oğlu, torpaqlarımızın işğalına qədər Tuğ kəndində yaşayıb. O, sürücü və mexanizator peşələrində çalışıb. Şakir əmisi Camalın qızı Həcər xanımla ailə qurub Onların Xəyal adlı oğlu, Firuzə adlı bir qızları anadan olub. Xəyalı uşaqlıqdan bibisi Reyhan övladlığa götürüb, onu öz himayəsində böyütmüşdü. Reyhan öz bibisi oğlu Mütəllimin həyat yoldaşıdır. Onların övladları olmayıb.

Şakirin qızı Firuzə, Xocavənd rayon Muğanlı kənd sakini Vüqarla ailəlidir.

**Zakir**, Müseyib kişinin kiçik oğludu. Tuğ kəndində anadan olub və məcburi köçkün düşdükdən sonra bir müddət Beyləqan şəhərində məskunlaşdı. Zakir bir müddət Xoca-

vənd rayon İcra Başçısının köməkçisi vəzifəsində çalışmışdı. Zakir, öz xalası Qəmizənin qızı Anaş xanımla ailə qurub. Onların Tural adlı oğlu, Afaq adlı qızı anadan olub. Zakir ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır. Kitab çapı üzrə mətbəədə çalışır. Tural Zakir oğlu, Azərbaycan İdman Akademiyasını bitirib. O, bibisi Xanımın qızı Günel xanımla ailə qurub Tunar adlı qızı, Pınar adlı oğlu var. Tural hazırda özəl şirkətlərin birində çalışır.



***Şəkildə sağdan: Teymur, Xanlar, Ramiz, Kamal, Vaqif, Vahid***

Afaq Zakir qızı Azərbaycan Təfəkkür Universitetinin ingilis dili fakültəsində təhsil alıb. Afaq, Salyan rayon sakini Niyaməddinlə ailə qurubdu. Onların Fatimə və Əmral adlı övladları dünyaya gəlib. Afaq xanım şairədi, bir kitab müəllifidir. Hazırda yaradıcılıqla məşğuldu, növbəti kitabı çapa hazırlanır. Afaqın həyat yoldaşı Niyaməddin DİN-nin Salyan şöbəsində polis zabitidir.



*Şəkildə soldan Kamal, Teymur, Xanlar, Tofiq.*

**Allahverdi Xanlar oğlu** (1929-2009), Qızxanımın Xanlardan olan böyük oğludur. Allahverdi dünyaya gəldi. O, böyüdü yetkinlik yaşına çatdı, atasına kömək oldu və öz el-obasının içində yaşamağa başladı. Allahverdi, ağır təbiətli adam olmaqla, xoşrəftarlı, təəssüfkeş və qohumpərəst adam idi. Süfrəsi açıq, deyib-gülən kişi idi. Allahverdi kişi müharibədən sonra Budaqlı camaatının bir hissəsi ilə Dağlıq Qarabağa, Tuğ kəndinə köçmüşdür. O, ana qohumu Boşçallar kəndindən Nabat (1938-1997) xanımla ailə həyatı qurmuşdur. Onlar Tuğ kəndində əsasən, maldarlıqla məşğul olurdu. Qarabağ-

dan məcburi köçkün düşənə qədər Tuğda maldarlıq təsərrüfatına rəhbərlik edirdi. Kirs dağının yaylağı, Allahverdi kişinin yaylaq otlaq sahəsiydi. Onun Dağlıq Qarabağda, həm rəhbərlər yanında, həm də camaat arasında böyük hörməti varıydı. Allahverdinin dörd oğlu, iki qızı dünyaya gəlmişdi. Oğlanları: Xanlar, İsmayıl, Nadir, Əjdər, qızları Dilşad, Həqiqət.



*Xanlar, həyat uoldaşı Xanım*

**Təhməzov Xanlar Allahverdinin oğlu** (1960-2012), ailənin böyük oğlu olmaqla Öz babası Xanların adını yaşatmışdı. Xanlar Şərabçılığın Texnologiyasıixtisasını almış, Tuğ kəndində müxtəlif vəzifələrdə çalışmışdır. O, nəinki, Qarabağda hətta Mildə, Muğanda hörmət qazanmış, qonaqpərvər adam

idi. Hələ, cavanlığından ağsaqqallıq yükünü çiynində daşımışdır. . Qarabağda onu tanımayan, çörəyini yeməyən adam yoxdu. Xanlar, böyük əmisi Müseyibin qızı Xanımla öz xoşbəxt həyatını qurdu. Ona Tanrı oğul verməsə də dörd kişi qeyrətli qız verdi.

Qızları: Zümrüd, Günel, Nabat, Çinarə.

Qızlar hər birisi yaxın qohumları ilə ailəlidir və övladları var. Xanlar, Tuğ kəndinin şimali-qərbində dağın qoynunda, meşənin ətəyində böyük və yaraşıqlı iki mərtəbəli bir ev tikdirmişdi. Bu ev məşhur “Salman bulağı”-nın yaxınlığında idi.

Salman bulağının başı qonaqsız olmazdı. Yay vaxtı Mildən, Muğandan olan qohum-əqrəba, dostları ona qonaq gələrdilər. Xanlar süfrəsi açıq, geniş ürəkli insan idi. O, ata-babalarına xas olan əlamətlərə uyğun olaraq, bir gündə neçə qonaq gələrdisə, onlara ayrı-ayrı heyvanlar kəsərdi. Bir sözlə, onun çörəyini yeyən insanlar çox olubdur. Xanlar, elə o iki mərtəbəli, on iki otaqlı evi də qonaqlar üçün tikdirmişdi. Ələlxüsus yayda gələn qonaqları turist kimi bir neçə gün qonaq qalırdı. Xanların qəlbinə görə Allah ona var-dövlət də vermişdi. O, Tuğ kəndində direktor müavini, məcburi köçkünlük dövründən sonra isə Tuğ kolxozunda, kolxoz islahata gedənə qədər sədr müavini vəzifəsində çalışmışdır. Xanlar, Tuğ kəndində erməni təcavüzünə qarşı həmişə amansız olmuşdur. O, Tuğ kəndində könüllülərdən ibarət Özünü Müdafiə dəstəsi yaratdı, gecə-gündüz dinc əhalinin asayişini qorudu. Bir dəfə o, Azərbaycanın Milli Qəhrəmanı Pəhlivan Əliyev ilə birlikdə ermənilərin mühasirəsinə düşmüşdü. Xanlar tək başına düşmən tərəfin quldur başçısı olan erməni qızı Anya ilə danışıq aparmışdı, ancaq onlara təslim olmamışdı. O, Anyaya bildirmişdir ki, silahlı quldurlarını çəkməsə Tuğ-

da bir nəfər də olsun salamat erməni qalmayacaq. Məcburiyyət qarşısında qalan ermənilər son anda onları buraxmışdılar. Dəfələrlə ağır döyüşlərdən salamat çıxan Xanlar, doğma torpağının itkisinə dözmədi, qaçqınçılıq həyatı ilə barışa bilmədi və ağır iztirablara ürəyi dözmədi, əlli iki yaşında dünyadan vaxtsız köçdü. Xanlar bir evdən yox, bir eldən getdi. O, el-obanın xeyir-şər məclislərini yola verən adamıydı. Bu gün də onun yeri görünür. Xanlar, Beyləqan rayonunda Cərcis Peyğəmbər ziyarətgahı qəbirstanlığında atası Allahverdinin, anası Nabatın və qardaşı İsmayılın qəbri yanında dəfn olunubdur.

Allahverdinin ikinci oğlu **İsmayıl** (1961-2006), Tuğ kəndində dünyaya göz açmışdır. O, Şuşa Kənd Təsərrüfatı Texnikomunu bitirdi, kənddə ixtisası üzrə işlədi. Məcburi köçkünlük dövründə Bakı şəhərində məskunlaşdı. İsmayıl dayısı Muradxanın qızı Məlahət xanımla ailə qurub, onların bir oğlu Ceyhun və bir qızı Nərmin anadan doğuldular.

Ceyhun İsmayıl oğlu, Gəncə Aqrar Universitetini bitirib. O hazırda DTX orqanında çalışır.

İsmayılın qızı Nərmin, bibisi Həqiqətin böyük oğlu Bəhruzun həyat yoldaşıdır. Onların üç qızı var. İsmayıl Beyləqan rayonunda dünyasını dəyişib və Cərcis Peyğəmbər qəbirstanlığında doğmalarının yanında dəfn olunubdu.

Allahverdinin üçüncü oğlu **Nadir**, bibisi Həyatın qızı Əsmər xanımla ailə qurub. Onların Şəhriyar və İlahə adlı övladları dünyaya göz açıb. Şəhriyar ata qohumu Asəfin qızı Rüxsarə xanımla ailəlidir.

Allahverdinin dördüncü oğlu **Əjdər**, Azərbaycan Daxili İşlər Nazirliyinin, Xocavənd rayon polis idarəsində Polis baş çavuşu işlədi. Qarabağ döyüşlərinin iştirakçısı oldu. Dəfələr-

lə ağır döyüşlərdə şücaət göstərdi. Əjdər Talıbxanlı tayfasından həmkəndlisi Mədinə xanımla ailə qurub, onların Ləman, Lamiyə, Turan adlı övladları var və Bakı şəhərində yaşayır.

Dilşad Allahverdi qızı Talıbxanlı tayfalarından İsrafil (1952-2012) ilə ailə qurub. Dilşadın Elnur, Elgün adlı iki oğlu, Vüsalə, Nuranə adlı iki qızı var. Elnur (1978-2021), dayısı Xanların böyük qızı Zümrüd xanımla ailə qurub. Onların Aqşin və Ayan adlı övladları dünyaya gəlib. O, Xocavənd rayon İcra Hakimiyyətində təlimatçı vəzifəsində işləyib. Elnur 12 mart 2021-ci ildə qəflətən dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında doğmalarının yanında dəfn olunub.

Elgün, İmişli rayon Muradxanlı kənd sakini Bakirin qızı Əfsanə xanımla ailə qurub. Onların Aylin adlı bir qızları var.

Dilşadın böyük qızı Vüsalə xanım ata qohumu İbrahimin oğlu Ramilin həyat yoldaşıdı. Bu cütlüyün Nahid, Elcan adlı iki oğlu var.

Ailənin kiçik qızı Nuranə xanım, xalası Həqiqətin gəlinidir.

Həqiqət Allahverdi qızı, həmkəndlisi Eldar (Vilayət) müəllimin həyat yoldaşıdır. Həqiqətin dörd oğlu: Emil, Bəhruz, Fuad, Pənah anadan doğulub. Emil, Xalası Dilşadın qızı Nuranə xanımla ailəlidir, onların Nuray və Tuncay adlı iki övladları var. Bəhruz, Dayısı İsmayılın qızı Nərminə xanımla evlidi. Onların Uğur, Xədicə və Dəniz adlı üç övladları anadan doğulub. Fuad, Dayısı Xanların qızı Nabat xanımla ailə qurub və onların Fərid, Duyğu adlı iki övladları dünyaya gəlib. Pənah ailənin kiçik oğludu. O, Aysel adlı xanımla ailə qurub, Məleykə adlı bir qızı var. Həqiqət və onun övladları məcburi köçkün kimi Bakı şəhərində məskunlaşıblar. Pənah İncəsənət Universitetini bitirib.

**Camal** Xanlar oğlu(1932-1999), qardaşları ilə birlikdə II Dünya Müharibəsindən sonra Dağlıq Qarabağda, Hadrut rayonunun Tuğ kəndində yaşayırdılar. O, gəncliyindən Tuğ kəndində sürücü işləyirdi. Hündür bədənli, yaraşıqlı siması olan adam idi. Camal, qoçaq və qorxmaz adam olub. O, həm də zarafat sevən, danışıb gülən şən adam olub. Camal, Tuğ kəndində Surxay kişinin qızı Firəngiz xanımla ailə həyatı qurub. Onun beş oğlu, iki qızı anadan doğulubdur.

Oğlanları: Tofiq, Bakir, Şəmil, Telman, Elman, Elxan.

Qızları: Həcər, Reyhan.

Camal, Dağlıq Qarabağ erməni işğalına məruz qaldıqdan sonra məcburi köçkün kimi Beyləqan şəhərində məskunlaşdı. 1999-cu ildə Beyləqan rayonunda dünyasını dəyişib və Cərcis Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunubdu.

Camalın böyük oğlu **Tofiq** (1956-2016), uşaqlıqdan babası Surxayın himayəsində böyüyübdür. Surxay kişinin oğul övladı olmadığına görə nəvəsi Tofiqi körpəlikdən övladlığa götürmüş, özü böyütmüşdür. O, Sumqayıt Politexnik Texnikomunu bitirmiş və Tuğ kəndində mexannik vəzifəsində çalışmışdı. Tofiq, əmisi Müseyibin qızı Qənirə xanımla ailə həyatı qurmuşdu. Qarabağ müharibəsində könüllü Özünü Müdafiə dəstəsində iştirak etmişdi. 1992-ci ildə məcburi köçkün kimi Beyləqan şəhərində məskunlaşmışdı. Onun bir oğlu, iki qızı var.

Oğlu: Xaliq, qızları: Jalə, Şəhla.

**Tofiq**, Xocavənd rayonunda rəhmətə getmiş, Cərcis Peyğəmbər ziyarətgahı qəbirstanlığında atasının qəbri yanında dəfn olunmuşdur.

Xaliq Tofiq oğlu, İlahə adlı xanımla ailə qurub, onların Tofiq adlı bir oğlu var. Xalıq öz oğluna atasının adını qoyubdu.

Tofiqin böyük qızı Jalə xanım, bibisi oğlu Elzaminin həyat yoldaşıdı. Onların Xəyyam və Adil adlı iki övladları anadan olubdu. Tofiqin kiçik qızı Şəhla xanım, yaxın qohumu Şakirin oğlu Ceyhunun həyat yoldaşıdır.

**Bakir** Camal oğlu, Tuğ kəndində anadan olub. Qaçqınlıq dövründə Beyləqan şəhərində məskunlaşıb. Bakir, yaxın qohumu Hətəmin qızı Sevda xanımla evlidir. Onların Rəvan, Röyalə və Şəhanə adlı üç övladları dünyaya gəlib. Bakir hazırda məcburi köçkün kimi Bakı şəhərində məskunlaşıb.

**Şəmil** Camal oğlu, Dünyamalılar kəndindən Budaqlı Qardaşxanın qızı Zəhra xanımla evlənib. Bu cütlüyün Nihad adlı oğlu, Aytən və Firəngiz adlı iki qızı anadan doğulub. Şəmilin ailəsi hazırda Bakı şəhərində məcburi köçkün kimi məskunlaşıbdı.

**Telman** Camal oğlu, Mehdilər Saday kişinin qızı Amaliya xanımla evlidi. Telmanın Orxan və Günay adlı övladları var. Telman ailəsi ilə birlikdə Xocavənd rayonunda yaşayır.

**Elman** Camal oğlu, Talıbxanlı Arzumanın qızı Ziyafət xanımla ailə qurub. Elmanın Camal və Fidan adlı iki uşağı var.

**Elxan** Camal oğlu, Budaqlı Etibarın qızı İlhamə xanımla evlidi, onların Eltac və Aytac adlı uşaqları dünyaya gəlibdi.

Camal kişinin böyük qızı Həcər xanım, əmisi oğlu Şakirin, kiçik qızı Reyhan xanım isə bibisi oğlu Mütəllimin həyat yoldaşıdı.

**Həyat** Xanlar qızı, həmkəndlisi Barat kişiylə evlənib ailə qurub. Bu ailə üzvləri uzun müddət Tuğ kəndində yaşayıblar. Onlar yaşadıqları müddətdə maldarlıqla məşğul olublar. Həyatın Barat kişidən üç oğlu, beş qızı olub.

Oğlanları: Vahid, Əkram, Mütəllim.

Qızları: Raya, Gülayə, Ramizə, Rəfiqə, Əsmər (Rəsmiyyə).

Barat kişi Tuğ kəndində dünyasını dəyişib və Tuğ kənd qəbirstanlığında dəfn olunubdu. Həyat xanımın 93 yaşı var, böyük oğlu Vahid müəllimlə bir ailədə yaşayırlar.

**Vahid** Barat oğlu, Dağlıq Qarabğda, Tuğ kəndində anadan olub. O, Tuğ kənd orta məktəbini bitirdikdən sonra, Gəncə, Həsən Bəy Zərdabi adına İnstitutunun kimya-biologiya fakültəsinə daxil olub. Vahid İnstitutu bitirdikdən sonra bir müddət yaşadığı kənddə müəllim işləyib. Vahid müəllim, sonralar Tuğ kəndində sovet sədri müavini və sovet sədri vəzifəsində çalışıb.

Vahid müəllim dayısı Müseyibin böyük qızı Şamama (1952-2016) xanımla ailə qurubdu. Onların dörd uşaqları var. Uşaqların hamısı Tuğ kəndində doğulubdu.

Oğlu: Zaur, Rahib, qızları: Aynurə, Aytən.

Vahid müəllimin həyat yoldaşı 2016-cı ildə yaşadığı Xocavənd rayon qəsəbəsində dünyasını dəyişib və Cərcis Peyğəmbər qəbirstanlığında dəfn olunubdu. Vahid müəllim hazırda təqaüdçüdür.

Zaur Vahid oğlu, Xuraman adlı xanımla ailəlidir, Vahid adlı bir oğlu var. Burada göründüyü kimi, Zaur da oğluna atasının adını qoyubdu.

Rahib Vahid oğlu, İmişli rayon Boşçallar kənd sakini Günel xanımla evlidi. Rahibin bu evlilikdən övladı olmasa da qaynı oğlu Fəhmini körpəlikdən övladlığa götürüb öz himayəsində böyüdür.

Vahid müəllimin böyük qızı Aynurə xanım, öz bibisi oğlu Sahibin həyat yoldaşıdı. Onların Təhminə və Maya adlı iki qızları var. Vahid müəllimin kiçik qızı Aytən xanım, Beyləqan rayon Eyvazalılar kəndində Səfyar kişinin oğlu Faiqlə ailəlidir və Aydan adlı bir qızları var.

**Əkram** Barat oğlu (1961-2018), Tuğ kəndində doğulub və ana qohumu İnşallahın qızı Təzəgül xanımla ailə qurub. Əkramın Nahidə adlı bir qızı var. Əkram qaçqın kimi Bakı şəhərində məskunlaşıb. Əkram 2018-ci ildə Bakı şəhərində ürək xəstəliyindən dünyasını dəyişib və Beyləqanda Peyğəmbər qəbirstanlığında dəfn olunub. Əkramın qızı Nahidə xanım Azərbaycan İqtisad Universitetinin maliyyə- kredit fakültəsini bitiribdi.

Mütəllim Barat oğlu, dayısı Camalın kiçik qızı Reyhan xanımla ailəlidir. Onların övladları yoxdu. Mütəllim dayısı oğlu, həm də bacanağı olan Şakirin oğlu Xəyalı uşaqlıqdan övladlığa götürüb saxlayıbdı. Xəyal ailə qurub, bir uşağı var və Mütəllimlə bir ailədə yaşayır.

Barat kişinin qızları Raya xanım, Budaqlı tayfasının ilk ziyalısı olan İnqilab müəllimin həyat yoldaşıdı. Onların iki oğlu, iki qızı var. Gülayə xanım Eyvazla evlənib, üç oğlu, dörd qızı var. Rəmizə xanım ata qohumu İbrahimlə ailəlidir, iki oğlu, bir qızı var. Rəfiqə xanım, ana qohumu Ramizin həyat yoldaşıdı, iki oğlu var. Əsmər (Rəsmiyyə) xanım dayısı oğlu Nadirin həyat yoldaşıdır. Bir oğlu, bir qızı var.

**Mərziyə** Xanlar qızı, Kərbalayı İbrahimin qız nəvəsi Abdullayla ailə qurub, üç qızı dünyaya gəlib. Onlar haqqında aşağıda məlumat veriləcək.

Abdulla II Dünya Müharibəsinə gedib və müharibədə həlak olub. Mərziyyə həyat yoldaşı öləndən sonra, bacısının yoldaşı Baratla nigaha giriblər. Mərziyənin Barat kişidən üç uşağı olub.

Qızları: Firayə, Kifayət, Minarə.

Mərziyənin qızları: Firayə Həmkəndlisi Qəhrəmanla, Kifayət, Salakətin kənd sakini Hüseynlə, Minarə isə Həsənlə ailə qurublar, hər birinin övladları və nəvələri var.

**Gülgəz Kərbəlayı İbrahimin** qızı, Buludlu elat tayfasından Məhəmməd ilə ailə qurubdu. Ancaq bu ailə həmişə Budaqlı tayfasının içərisində yaşamışdı. Gülgəzin Məhəmməddən dörd övladı dünyaya gəlibdi.

Oğlu: Abdulla, Hidayət, Surxay, qızı Maya.

Məhəmməd cavan yaşlarında dünyasını dəyişib. O rəhmətə gedəndə böyük oğlunun 10-12 yaşı olubdu. Ailə başçısını itirən Gülgəz xanım, ata və qardaşlarının yanında yaşamaqla övladlarını böyütmüşdü. Gülgəz xanım Məhəmməddən sonra Hacı Qasımla ailə qurmuş onların bir oğlu Məhəmmədəli və bir qızı Səbiqə anadan doğulubdu. Gülgəz xanımın övladlarının böyüməsində Hacı Qasımın böyük atalıq qayğısı olmuşdu.

Abdulla Məhəmməd oğlu, Budaqlı Xanlar kişinin qızı Mərziyə xanımla ailə qurub. Onların Yadigar, Bənövşə və Gülövşə adlı üç qız övladları dünyaya gəlib. Abdullanın qızı Yadigar xanım ailə qurub, ancaq övladı yoxdu. Gülövşə xanım Talıbxanlı Əlişlə evli olub, lakin gənc yaşında dünyasını dəyişibdi. Evlilik müddəti az olduğundan övladları olmayıb. Bənövşə, Tuğ kənd sakini Talıbxanlı tayfasından Əhmədlə ailə qurub, onların iki oğlu, beş qızı dünyaya göz açıb.

Oğlanları:- Səməd, Elçin qızları: -Təranə, Aygün, Mehparə, Ceyhunə, Nəcibə.

**Qaraşov Səməd** Əhməd oğlu, 1960-cı ildə Xocavənd rayon Tuğ kəndində anadan olub, 1977-ci ildə Tuğ kənd tam orta məktəbini bitirib, Azərbaycan İnşaat Mühəndislər İnstituna qəbul olub, İnsititu başa vurduqdan sonra ixtisası üzrə Bakı şəhərində əmək fəaliyyətinə başlayıb. Səməd, hazırda özünün özəl tikinti şirkətində tikinti işləri ilə məşğuldu. El-obada xeyriyyətçiliyi ilə tanınan, özünə hörmət qaznmış ziyalı-

dır, Bakı şəhərində yaşayır. Səməd, öz xalası qızı Sevil xanımla ailə həyatı qurub, Şəbnəm, Şəms, Leyla adlı üç qız övladı anadan doğulub. Səmədin böyük qızı Şəbnəm, öz qan qohumu tanınmış ziyalı ailəsində dünyaya göz açmış Raminlə ailə həyatı qurub, onların Uğur, Sultanzeyd, Nur və Mələk adlı dörd övladları dünyaya göz açıb. Şəms Bakı şəhər sakini Talehin həyat yoldaşıdır, Səid və Merac adlı iki oğlu var. Leyla xalası oğlu Nicatla yeni ailə qurub.

Elçin Əhməd oğlu, Bakı şəhər sakini Əminə xanımla ailə qurub, onların bir oğlu, iki qızı var.

Bənövşənin qızları: Təranə həmkəndlisi Şükürün həyat yoldaşıdır, iki oğlu, bir qızı var. Aygün, həmkəndlisi Vüqarla ailə qurub bir oğlu, üç qızı var. Mehparə əmisi oğlu Dünyaminlə ailəlidir, bir oğlu, iki qızı var. Ceyhunə, həmkəndlisi Azərlə ailə qurub, iki oğlu var. Nəcibə nənə qohumu Fəxrinin həyat yoldaşıdır, iki oğlu var.

Abdulla II Dünya Müharibəsi başlayanda könüllü cəbhəyə getmiş, döyüş zamanı həlak olmuşdu.

Məhəmmədin ikinci oğlu **Hidayət,** Budaqlının kolxoz sədri Musa kişinin qızı Əfruz xanımla ailə qurubdu. Onların doqquz övladı olub.

Oğlanları: Vaqif, Abdulla, Şakir, İnqilab, Zakir, Ramiz, Hafiz, qızları: Sürəyya, Dilşad.

Hidayətin 1963-cü ildə əkiz oğlanları Ramiz və Hafiz anadan olublar. Onlar ailə qurmadan Ramiz 1996-cı ildə, Hafiz isə 2007-ci ildə Rusiya Federasiyasında dünyalarını dəyişiblər.

**Vaqif** Hidayət oğlu (1947-2007), Budaqlı elatında anadan olubdu. Vaqif, bir müddət Dağlıq Qarabağda yaşamış və mexanizator işləmişdi. O, son dövrlər Beyləqan şəhərində məs-

kunlaşmışdı. Vaqif, ana qohumu Şirin kişinin böyük qızı Minarə xanımla ailə qurub. Onların Rövşən adlı bir oğlu, Ramilə, Səbiqə, Səbinə, Könül adlı qızları anadan doğulubdu. Rövşən Qubadlı rayon sakini Göyərçin xanımla evlənib, Miriş adlı bir oğlu var. Vaqifin qızı Ramilə, Füzuli rayon sakini Vəlinin həyat yoldaşıdır bir qızı, üç oğlu var. Səbiqə Şahlar adlı oğlanla evlidir, bir oğlu var. Səbinə, Elman adlı oğlanla evlidir, üç qızı var. Könül, İlqar adlı oğlanla ailə qurub, iki oğlu var. Vaqif 2007-ci ildə Beyləqan şəhərində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdu.

**Abdulla** Hidayət oğlu (1952-2016), Sveta xanımla evlənib, Rüfət və Samirə adlı övladları var. Abdulla uzun müddət Rusiya Federasiyasında yaşamışdı. Hazırda onun ailəsi Rusiya vətəndaşıdır. Abdulla, 2016-cı ildə rəhmətə getmiş və qardaşının yanında dəfn olunmuşdur.

**Şakir** Hidayət oğlu, ali təhsilli iqtisadçıdır, uzun müddət Beyləqan rayon Təhsil şöbəsinin baş mühasibi vəzifəsində çalışıb və Beyləqan şəhərində yaşayır. Şakir, Dağlıq Qarabağ, Hadrut rayon Tuğ kəndindən Ərsalanın qızı Nailə xanımla ailə qurub. Onların Ceyhun, Rəvan, Rəvanə adlı övladları dünyaya gəlib. Şakirin böyük oğlu Ceyhun ata qohumu Tofiqin qızı Şəhla xanımla ailəlidir, İlkin, Şakir adlı iki azyaşlı övladı var. Rəvan, Talıbxanlı tayfasından Məleykə xanımla ailəlidir, hələ ki, övladları yoxdu. Şakirin qızı Rəvanə, Murtulu tayfasından Əhədin həyat yoldaşıdır. Onların İsmayıl və Zeynəb adlı övladları var.

**İnqilab** Hidayət oğlu, ana qohumu Saday kişinin qızı Nisə xanımla evlidir. Onların Xəqani və Nurlan adlı oğlanları anadan olub. Xəqani ana qohumu Minayə xanımla ailə qurub Elena adlı qızı dünyaya gəlib. Nurlan (1992-2020), xalası qızı

Ləman xanımla evlənib, Ayla adında bir qızı var. Nurlan N-saylı hərbi hissədə xidmət edib. O, 27 sentyabr tarixində II Qarabağ müharibəsində Vətəni işğaldan azad etmək üçün ön cəbhədə vuruşmuş və 30 sentyabr 2020-ci il tarixində qəhrəmancasına şəhid olmuşdu. Nurlan Peyğəmbər qəbirstanlığı, Şəhidlər Xiyabanında dəfn olunub. İnqilab Beyləqan şəhərində yaşayır.

**Zakir** Hidayət oğlu, Rusiya vətəndaşıdır, Tatar qızı Natalya xanımla evlidir. Onların Ruslan və Sabrina adlı övladları var.

Gülgəzin üçüncü oğlu **Surxa**y birinci dəfə Göyçək adlı xanımla ailə qurub, onların Tamara və Firəngiz adlı qızları anadan olub. Surxay kişinin həyat yoldaşı Göyçək rəhmətə getdikdən sonra Gülarə xanımla evlənib və Ağgül adlı bir qızları olubdu.

Gülgəzin qızı **Maya**, elat tayfasından Zülfiqar kişiylə ailə qurub və Eyvaz, Arif, Ayna adlı övladları dünyaya gəlibdi. Bu nəslin törəmələri uzun müddət Tuğ kəndində, Qarabağın işğalından sonra isə Beyləqan rayon ərazisində məskunlaşıblar.

**Cəbrayıl** Təhməzin ikinci oğludur. O, qardaşları ilə eyni məkanda yaşamışdı. Budaqlı kolxozu birləşəndən sonra onlar başqa-başqa kəndlərdə özlərinə yurd-yuva seçiblər. Cəbrayılın üç oğlu olub. Oğlanları: **Səməd, Hüseyn, Muxtar.**

Cəbrayılın oğlu Səməd, elat tayfasında qohumları ilə bir obada yaşamışdı. Onun bir oğlu, üç qızı anadan olubdur.

Oğlu: Əli, qızları Mirvari, Sona, Bülqeyis.

**Cəbrayılov Əli Səməd** oğlu, Budaqlı kolxozunda ferma müdiri işləyib. 1944-ci ilin qışı qarlı, şaxtalı keçdiyinə görə xeyli heyvan soyuq və aclıqdan qırılıb. Onu hökumət həbs etmək istəyib. O, Kürdən keçərək Şirvan zonasına adlayıb və uzun müddət gizlin həyat dövrü yaşayıbdı. Çox sonralar üzə çıxıb və yaxın vaxtlarda 2014-cü ildə Göyçay rayonunda rəhmətə gedibdi. Əli ailə qurub, lakin onun övladı olmadığı üçün bacısı oğlu Surxayı övladlığa götürüb saxlamışdı. Surxay hal-hazırda Əlinin ocağının sönməsinə imkan vermədi. Surxay ailə qurub övladları ilə birlikdə Göyçay şəhərində yaşayır. Surxayın oğlu Göyçay rayonunda yüksək vəzifə sahibidir. Cəbrayılın qızlarının hər üçü ailə qurmuşlar, nəvə- nəticələri hazırda yaşayırlar...



**Cəbrayılov Hüseyn,** Cəbrayıl oğlu, ailənin ikinci oğludur ki, Boşçallar kəndində Məşədi Şükürün qızı Minə xanımla evlənib, ailə qurduqdan sonra elə həmin kənddə məskunlaşaraq yaşamışdı. Onun övladları, nəvə-nəticələri, babası Cəbrayılın soyadını daşıyırlar. Hüseyn kənddə əkinçilik təsərrüfatı ilə məşğul olmuşdu. Hüseynin qızı Fizzə (o, Beyləqan rayon Qaral-



lar kəndində yaşayıb) istisna olmaqla, qalanları doğulduqları kənddə yaşamışdı. Onun üç oğlu və beş qızı anadan olub

Oğlanları: Şəmil, Hacıağa, İbad, qızları: Güllürbə, Fizzə, Nərgiz, Firəngiz, Vəzifə.

Hüseynin iki oğlu Şəmil (1934-1995) və Hacıağa Azərbaycan Dövlət Universitetini bitirmişlər və kənddə müəllim işləmişdirlər. Şəmil müəllim uzun müddət, dünyasını dəyişənə qədər Boşçallar kənd orta məktəbinin direktoru vəzifəsində çalışmışdır.



***Hüseynin oğlanları  soldan Şəmil, Hacıağa.***

Boşçallar kəndində İbadulla kişinin qızı Səriyyə xanımla ailə həyatı qurmuş, ömrünün sonuna qədər bu kənddə yaşamışdır.

O, bir ziyalı kimi kənd camaatının böyük rəğbətini qazanmışdı. Şəmil müəllimin doqquz qızı olubdur.

Qızları: Firuzə, İradə, Aybəniz, Məlahət, Təranə, Aytəkin, Gültəkin, Arzu, Hicran.

Şəmil müəllimin iki qızı, Firuzə və Aybəniz Pedaqoji Universiteti bitiriblər, ataları işlədiyi Boşçallar kənd orta məktəbində müəllimə işləyirlər. Ailəlidirlər, övladları var. Şəmil müəllim 1995-ci ildə Boşçallar kəndində dünyasını dəyişmiş və həmin kənd qəbirstanlığında atasının yanında dəfn olunmuşdur...

**Cəbrayılov Hacıağa Hüseyn oğlu** (1936-2006), qardaşı ilə eyni həyətdə, ata yurdlarında ev tikib yaşamışdır. O, Boşçallar kəndindən Teymurun qızı Yeksarə ilə ailə həyatı qurub, onun iki qızı, bir oğlu olub.

Oğlu: Üzeyir.

Qızları: Maral, Rüxsarə.

Hacıağa müəllim oğlu Üzeyiri, qardaşı Şəmilin qızı Məlahət xanımla evləndirib. Onun ailəsi və törəmələri hazırda İmişli rayonu Boşçallar kəndində yaşayırlar.

**Cəbrayılov İbad** Hüseyn oğlu, ailənin üçüncü oğludu. O, atasının əmisi oğlu Nərçənin qızı Əhruza xanımla ailə həyatı qurub. Boşçallar kəndində yaşayır, əkinçilik və heyvandarlıqla məşğul olur. Halal zəhməti ilə ailəsini dolandıran insandı. İbad, həyatdan nakam getmiş əmisi İbadın adını daşıyır. Onun əmisi İbad, gənc yaşlarında bərəylə Kür çayını keçərkən Kürə düşüb ölmüşdü. İbadın iki oğlu və dörd qızı var.

Oğlanları: Şifahi, Hüseyn, Qismət, qızları: Ülkər, Zibər, Dürdanə.

İbad və ailə üzvləri İmişli rayonu Boşçallar kəndində yaşayır.

**Cəbrayılov Muxtar**, **Cəbrayıl** oğlu, ailənin üçüncü oğludu. Ona tərəkəmə elatında aynalı Muxtar da deyirdilər. Çünki, həmişə silahlı gəzərmiş və quldurlara qarşı çox amansız olubmuş. Hətta, İrandan keçən quldur bandaları onun oldu-

ğu məkanı biləndə ora ayaq basmazdılar. Onlar da bilirdi ki, Muxtar çox qansız adamdı və son gülləsinə qədər atışan kişi olub və atdığı güllə boşa getməzdi. Muxtar kiçik komasını bir arabaya yığar, müxtəlif yerlərdə gecələyərdi. O, Budaqlı kolxozu dağılandan sonra Beyləqan rayonu "Şəfəq" qəsəbəsinə köçmüş, əkinçilik və heyvandarlıqla məşğul olmuşdu. Muxtar yaşadığı qəsəbədə Qumru adlı xanımla ailə həyatı qurmuş və onun dörd oğlu, iki qızı dünyaya gəlmişdi. Muxtarın törəmələri, nəvə-nəticələri Kazım soyadını daşıyırlar. Amma Kazımın kimliyi bu nəslin özlərinə də məlum deyil. Onların ata nəslində Kazım adlı adam olmayıb. Muxtarın övladları:
Oğlanları: Barat, Əhəd, Məhəmməd, Bahadur, qızları: Gülnisə, Solmaz.

Muxtarın oğlu Bahadur, gənc yaşlarında rəhmətə gedibdi. Digər oğlu Məhəmməd isə uzun müddət Rusiyada və orta Asiyada yaşayıbdı. O, müxtəlif vaxtlarda üç qadınla evlənib və ayrı-ayrı qadınlardan iki oğlu olubdur. Oğlu Rüstəm və Müslüm Bakı şəhərində yaşayırlar. Məhəmməd ömrünün sonunda Bakı şəhərinə qayıtmış və orada dünyasını dəyişmişdir.

**Barat**, Muxtarın böyük oğludu. O, əmisi Hüseynin qızı Nərgizlə evlənib, ailə həyatı qurub. Bu cütlükdən bir oğlu Hümbət və bir qızı Qumru anadan olubdu. Nədənsə bunların arasında ailə münaqişəsi yarandığından ayrılmışdılar. Bu ayrılıq hətta iki əmi uşaqları arasına soyuqluq münasibəti gətirmişdi. Barat ikinci dəfə Şahsevən kəndindən Telli xanımla evlənmiş, onların bir oğlu Ramil, bir qızı Minurə anadan olmuşdu. Baratın ailəsi və törəməsi Beyləqan şəhər Şəfəq qəsəbəsində yaşayırlar.

**Əhəd** Muxtar oğlu (1935-2002), Füzuli rayon Qərvənd kəndindən Şükür kişinin qızı Xanımla evlənib, ailə həyatı qurubdu. Əhəd, qardaşları ilə eyni qəsəbədə, bir məhlədə yaşayıblar. Əhəd, ata-babalarının yolunu davam etdirib, heyvandarlıqla məşğul olubdu. Əhədin iki oğlu Nizami, Vidadi və Nazilə adlı bir qızı anadan doğulubdu. Əhədin qızı Nazilə ailəlidir, ana qohumlarının biri ilə ailə həyatı qurub və hazırda məcburi köçkün kimi Füzuli rayonunun Zovcuq qəsəbəsində yaşayır. Əhədin oğlu Nizami isə yaşadığı qəsəbədə Nəzakət xanımla evlənib, bir oğlu Emin və bir qızı Aynur anadan olublar. Onlar Şəfəq qəsəbəsində yaşayırlar. Nizaminin oğlu Emin, müddətdən artıq hərbiçidir və hazırda 27 sentyabr 2020-ci il tarixdən Qarabağın işğaldan azad olunması uğrunda gedən döyüşlərin ön cəbhəsində hərbi xidmətini yerinə yetirir.

**Aslan Təhməz oğlu**, Kərbəlayı İbrahimin doğma qardaşıdır. Onlar bir yerdə, bir ailədə böyüyüblər. Ailə qurandan sonra da həmişə qonşu yaşayıblar. Bu törəmələr Aslana qədər Təhməz soyadı daşıyıblar. Aslandan sonra gələnlər isə onun nəvələri, nəticələri Aslan soyadın daşımaqdadırlar. Təhməzli tirəsində üç soyad var: Təhməz, İbrahim və Aslan. Aslan kişi və onun övladları heyvandarlıqla məşğul olurdular. Sovet hakimiyyəti qurulduqdan sonra onlar əkinçiliklə məşğul olmağa başladılar. Aslan, öz tayfasından Tutu xanımla evlənib, ailə qurubdu. Aslanın beş oğlu olub.

Oğlanları: Təhməz, Qənbər, Həmzə, Böyükkişi, İbad.

Elat tayfaları yaylağa köç gedən zaman Laçın rayonunun Minkənd kəndindən keçən vaxtı kürdlərlə münaqişələri olurdu. Kürdlər, tərəkəmə köçü kəndin içindən keçən zaman heyvan oğurlayırdılar. Buna oğurluq yox, bir növ quldurluq

deməak olardı. Tərəkəmələr nə qədər sayıqlıq göstərsələr də bu oğurluqların qarşısını ala bilmirdilər. Hətta, hüquq mühafizə orqanları da bunların əlində aciz qalırdılar. Dəfələrlə belə münaqişələr ölümlə nəticələnmişdi. Budaqlı tayfasının qoyun sürüləri keçən zaman kürdlər sürülərə hücum ediblər, nəticədə kürdlərdən iki nəfər Böyükkişi və Cəlal tərəfindən güllələnibdir. Bu atışma zamanı Budaqlıdan isə Təhməzin oğlu Böyükkişi və Hacı Ağaların oğlu Cəlal öldürülüb. Hacı Ağalar, oğlunun qisasını alıb və əks tərəfdən bir neçə adam öldürüb. Bu qan davasına Hacı Qasım və Soltan bəy tərəfindən son qoyulmuşdur. Aslanın bir oğlu İbad Kür çayını bərə ilə keçən zaman Kür çayına düşüb boğulub ölmüşdü.

Aslanın qalan üç oğlunun törəmələri İmişli və Beyləqan rayon kəndlərində yaşamaqdadırlar.

**Aslanov Təhməz** Aslan oğlu, öz tayfasının içərisində yaşayıbdı. Təhməz babası Təhməzin adını daşıyıb və sonralar bu adı nəvəsi Təhməz yaşatmaqdadır. Təhməzin üç oğlu , beş qızı olubdur.

Oğlanları: Aslan, Cəbrayıl, Nərçə, qızları: Səriyyə, Güllər, Nənəqız, Sitarə.

**Aslan** Təhməz oğlu (1922-1944), Hacı İsmayılın oğlu Zeyninin qızı Güllər xanımla ailə həyatı qurub. Onların iki qızı anadan olubdur.

Qızları: Roza, Pürzə.

Aslan II Dünya Müharibəsinə gedib və döyüşlərdə həlak olub. Onun qızı Roza Hacı Ağaların nəvəsi Ağaların həyat yoldaşı, ikinci qızı Pürzə isə İmişlinin Vətağa kəndində Əliabbas adlı kişiylə ailə həyatı qurub. Bu cütlüyün iki oğlu, beş qızı olubdu. Hazırda nəvə- nəticələri yaşayırlar. Aslan rəhmətə gedəndən sonra onun yoldaşı Gülləri qardaşı Nərçə al-

mış, ondan Əliyar adlı bir oğlu olmuşdur. Hazırda Əliyar İmişli rayon Muğanlı kəndində yaşayır.

**Əlyar** Nərçə oğlu, bibisi Səriyyənin nəvəsi Sara xanımla ailəlidir. Onların Aqil, Dəyanət, Seymur adlı üç oğlu, Kəmalə adlı bir qızları var. Əliyarın böyük oğlu Aqil atasının əmisi oğlu Təhməzin qızı Aynurə xanımla ailə həyatı qurub, övladları yoxdu. Əliyarın ikinci oğlu Dəyanət də ailəlidir hələ ki, uşaqları olmayıb. Seymur ailə qurmayıb subaydı. Əliyarın qızı Kəmalə xanım yaşadığı kənddə ailəlidir, iki oğlu, bir qızı var...



***Cəbrayıl, həyat yoldaşı Humay***

**Aslanov Cəbrayıl** Təhməz oğlu, (1924-1983) Talıbxanlı tayfasından Həmid kişinin qızı Humay (1930-1983) xanımla ailə həyatı qurmuşdur. Cəbrayıl kişi, çox zəhmətkeş insan olub. O, kolxoz yaranan gündən Budaqlı kolxozunda çalışmışdır.

Kolxozlar birləşib Əliqulular kəndi yarananda heyvandarlıqdan ayrılıb, əkinçiliklə məşğul olmağa başladı. Cəbrayıl

Saatlı rayonunda Texniki Peşə məktəbində oxuyub peşə sahibi olmuşdu. Onun əlindən hər iş gəlirdi. Dəmirçilik, dülgərlik, çilingərlik və s. işlərinin peşəkar ustası idi. Kolxozda müxtəlif peşələrdə çalışdı və sənətkar kimi ad çıxartmışdır. Cəbrayıl və ondan sonra gələn nəslin nümayəndələri babaları Aslanın soyadını daşıdılar.

Cəbrayıl 1969-cü ilə qədər İmişli rayonunun Əliqulular kəndindən indiki Budaqlı kəndinə köçüb gələn ilk ailələrdən biri olub. O, 1969-cu ilin yazından etibarən, Beyləqan rayonuna köçüb və ölən gününə qədər Budaqlılar kəndində yaşayıb. Cəbrayılın üç oğlu və dörd qızı olubdur.

Oğlanları: Təhməz, Yaqub, Yavər, qızları: Elmira, Tamara, Qəndab, Reyhan.

Cəbrayılın oğlu Təhməz böyük oğluna Aslanın adını qoydu. Budaqlı elat tayfasında tirələrdən asılı olmayaraq heç kəs istəməyib ki, ulu babalarının adları tarixdə itib batsın. Cəbrayıl kişi yaşadığı kənddə rəhmətə gedib və “Ənbərə” qəbirstanlığında dəfn olunubdur.

**Təhməz,** yaşadığı kənddə əvvəllər sürücü, sonralar mexannik işləmişdir. O da atası kimi zəhmətkeş və işinin öhdəsindən gələn adam olubdur. Təhməz, Hacı Ağaların nəvəsi, Ağaların qızı Ziyafətlə (1954-2016) ailə qurub, Budaqlı kəndində yaşayırlar. Təhməzin iki oğlu, bir qızı var.

Oğlanları: Aslan, Amil, qızı: Aynurə.

Aslan Təhməz oğlu, Ağcabədi rayon Qaradolaq kənd sakini Aygün xanımla evlidir. Onların Təhməz adlı oğlu, Aytən adlı qızı var, atası ilə bir ailədə yaşayır.

Amil Təhməz oğlu, Beyləqan rayon sakini Murtulu Xəlilin qızı Pərvanə xanımla ailə qurub. Onların Aynur, Ziyafət adlı qızı və Ruslan adlı bir oğlu var.

Amil hazırda ailəsi ilə birlikdə Budaqlılar kəndində yaşayır.

Cəbrayıl kişinin ikinci oğlu **Yaqub**, öz tayfasından Gövhərlə evlənib və onların iki oğlu, iki qızı var.

Oğlanları: Süleyman, Babək, qızları: Aygün, Humay.

Yaqub, öz qızına anası Humayın adını qoyubdu. Onlar Budaqlılar yaşayan kənddə yaşayırlar. Yaqubun böyük oğlu Süleyman Ağcabədi rayon Qaradolaq kənd sakini Aygün xanımla ailəlidir. Onların Sənan adlı bir oğlu var. Babək Yaqub oğlu subaydı 27 sentyabr 2020-ci il tarixdə Qarabağın işğaldan azad olunması uğrunda gedən döyüşlərin ön cəbhəsində vuruşmuşdur.

Yaqubun qızları Aygün İmişli rayon Muğanlı kənd sakini Mahmudla ailə qurub bir oğlu var. Humay Ağcabədi rayon Qaradolaq kənd sakini ilə evlidi, bir qızı və iki oğlu var.

**Yavər**, Cəbrayıl kişinin kiçik oğludur. O, kənddə orta məktəbi bitirdikdən sonra Sumqayıt şəhərində orta ixtisas təhsili almış və həyatını bu şəhərə bağlamışdır. Yavər əmisi Nərçənin qızı Kifayət xanımla evlənmiş və onların iki oğlu, bir qızı olmuşdu.

Oğlanları: Vüsal, Cəbrayıl, qızı: Könül.

Yuxarıda göründüyü kimi, Yavər də öz oğluna atası Cəbrayılın adını vermişdi. Bu ailə Sumqayıt şəhərində yaşayır.

Cəbrayılın qızları Elmira, Tamara (1951-2017), Qəndab (1956-1983) və Reyhan ailəli olublar, övladları Budaqlı, Bünyadlı kəndləri və Sumqayıt şəhərində yaşayırlar.

**Nərçə** Təhməz oğlu, (1930-1987) qardaşı Cəbrayılla bir yerdə yaşayıblar. O, Mehdilər tirəsindən Məhəmmədin qızı Tükazla (1930-1998) ailə həyatı qurubdur. O, kolxoz dövründə hesabdar və mühasib işləmiş və 1970-ci ildə Beyləqan rayo-

nuna köçmüşdür. Yaşadığı sovxozda mühasib işləmişdir. Onların altı qızı və iki oğlu olmuşdu.
Oğulları: Arif, Hafiz, qızları: Əhruza, Filyar, Şərqiyyə, Kifayət, Sədaqət, Zəminə.

Nərçə 1987-ci ildə rəhmətə gedib. O, "Ənbərə" qəbirstanlığında qardaşının yanında dəfn olunubdur.

**Arif** Nərçə oğlu, imişli rayon Əliqulular kəndində doğulub. O, əvvələrindi yaşadığı Budaqlılar kəndində mexanizator, sonralar isə avtomobil sürücüsü kimi fəaliyyət göstərmişdi. Arif dayısı Xudaverdinin qızı Nazilə xanımla evlənib, onların üç oğlu olubdu.

Oğlanları: Arzuman, Asiman, Sahil.
Arzuman Arif oğlu, ana qohumu Şahnur xanımla ailə qurub, onların Ziraddin və Aysun adlı iki övladları dünyaya gəlib.



***Şəkildə Nərçə, həyat yoldaşı Tükaz, qızları Filyar, Şərqiyə, Kifayət, Sədaqət, oğlu Arif və nə vələri.***

Sahil Arif oğlu, bibisi Sədaqətin qızı Gülnar xanımla evlənib. Sahilin Fidan və Aysel adlı iki qızı anadan olubdu. Asiman ailə qurmayıb, subaydı.

**Hafiz**, ailədə uşaqların son beşiyidir. Hafizin birinci ailəliyindən bir qızı var. Birinci həyat yoldaşı Yardımlı rayon sakini olub. Onlar ayrılıblar. Hafiz ikinci dəfə Mətanət adlı xanımla ailə qurub, onların Həsən adlı oğlu, Tükaz adlı bir qızı var. Bu ailə Sumqayıt şəhərində yaşayır.

Əhruza Nərçə qızı ata qohumu İbadla evlidir. Bu ailə İmişli rayon Boçşallar kəndində yaşayır. Əhruza haqqında yaşadığı ailənin tərkibində məlumat verilib.

**Filyar** xalası oğlu Qüdrətlə (1953-2015) evlənib, ailə qurublar. Onların iki oğlu, dörd qızları olubdu.
Oğlanları: Məhəmməd, Anar, qızları: Sevinc, Vəfa, Sevil, Afaq.

Qüdrət, Beyləqan şəhərində anadan olub, ailə qurduqdan sonra ömrünün sonuna qədər Budaqlılar yaşayan kənddə yaşadı və 2015-ci ildə həmin kənddə dünyasını dəyişdi. O, Peyğəmbər Ziyarətgahı qəbirstanlığında atası və anasının qəbirləri yanında dəfn olunubdur. Qüdrətin böyük oğlu Məhəmməd Cərcis Peyğəmbər məscidinin axund müavinidir.

Kifayət əmisi oğlu Yavərlə ailə həyatı qurub, övladları var. Şərqiyyə Yardımlı rayonuna ərə gedib, orada yaşayır, Sədaqət Beyləqanın Şərq qəsəbəsində və Zəminə həmin rayonun Çəmənli kəndində yaşayırlar. Onların hər birinin övladları var.

Təhməzin qızları: Sürəyyə Ağcabədi rayon "Qaradolaq" kənd sakini İsa adlı bir kişiylə ailə qurub, onların üç qızı, bir oğlu olubdu. Güllər qohumu Çərkəz kişi ilə ailə qurub. Nənəqız, İmişli rayon Muğanlı kəndindən Hüseynlə ailə qurub, Şahnaz adlı bir qızı olubdu. Hüseyn cavan rəhmətə gedib. Nənəqız bir uşaqla qardaşlarının yanında yaşayıb. Sitarə əmisi oğlu Şirəliylə evlənib, ancaq onların övladı olmayıb. Şi-

rəli II Dünya Müharibəsinə gedib, döyüş zamanı həlak olubdu. Sitarə ikinci dəfə Murtulu tayfasında Qurban kişiylə ailə qurub, ömrünün axırına kimi onunla yaşayıb.

Sitarə 1987-ci ildə rəhmətə gedib, "ənbərə qəbrstanlığında dəfn olunubdu.

**Aslanov Qənbər Aslan** oğlu(1876-1920), Təhməz kişininin nəvəsi Aslanın ikinci oğludur. O da qardaşları və qohumları ilə birlikdə Budaqlı elatında yaşayıblar. Qənbərin özündən sonra gələn törəmələri babaları Aslanın soyadını daşıyırlar. Qənbər, Eyvazalılar tayfasında Kərbəlayı Balaşın qızı Pərizad xanımla ailə həyatı qurubdu. Onun övladlarının məhz, Eyvazalılar camaatı içərisində yaşaması və sonralardan eyni adlı kənddə məskunlaşması babaları Balaş kişi və dayısı Cəlilə görə olubdu. Balaş kişi də elat tayfalarında tanınan və sayılan kişi olubdu. Balaşın oğlu Cəlil isə uzun müddət Eyvazalılar kəndində kolxoz sədri vəzifəsində çalışıbdı. Qənbərin üç oğlu, iki qızı olub.
Oğlanları: Şahpələng, Əliastan, Şirin, qızları: Minarə (Minax), Leyla.

Qənbər qoçaq kişi olmaqla sözünü deyən kişi olubdu. O, İrandan gəlmiş quldurlar tərəfindən qətlə yetirilibdi. Elat camaatı yaylağa köçən zaman Füzuli rayonu ərazisində İranlı quldurlar qoyun sürüsünü talan etmək istəyiblər. Bu zaman onların arasında atışma baş verib. Quldurlar heyvan apara bilməsələr də Qənbər kişini tüfənglə vura biliblər. Quldurlar içərisində Qənbəri tanıyan adam olub. O deyib ki, Qənbər igid adamıydı, onu nahaq vurdun. Qənbəri öldürən adam geri qayıdanda anasına deyib, bir adam öldürdüm, adı Qənbəriydi. Anası onun yaxasından tutub qışqırır:

- Sən bilirsən, kimi öldürmüsən? O, sənin xalan oğludu.

- Ana, sən nə danışırsan, necə ola bilər?

Arvad ağlaya-ağlaya oğlunun qucağında ürəyi dayanır. İranda Qənbərin bir xalası yaşayırmış. Qənbəri də öldürən məhz, öz xalası oğlu olubdur. Qənbər, qətlə yetiriləndə qırx dörd yaşı olubdu. Onun böyük oğlu Şahpələng on dörd yaşında idi. Qalan uşaqlar isə hələ balacaydı. Onlar babaları Kərbəlayı Balaşın və əmilərinin himayəsində böyüdülər.

Budaqlı kolxozu yeni yaradılan zaman təxminən 1931-ci illərdən sonra Qənbərin oğlanları Eyvazalılar kəndinə köçmüş, babası və dayısı Cəmilin tayfasının içərisində yaşayıblar. Onlar Eyvazalılar kəndində böyüyüb boya- başa çatıblar. Qənbərin nəvə, nəticələri hazırda Eyvazalılar kəndində yaşayırlar.

**Şahpələng**, (1906-1984) Qənbərin böyük oğluydu. O, atası öləndən sonra on dörd yaşı olmasına baxmayaraq, ailənin bütün ağırlıqlarını öz çiynində saxlaya bildi. Anası Pərizad xanıma dayaq durdu, özündən kiçik bacı-qardaşlarının böyüməsində böyük zəhməti olmuşdu. Şahpələng yetkinlik yaşında olmasa da evin kişisi kimi özünü saydıra bilirdi. Budaqlı cavanları başqa tayfalardan qız alanda da sayılan kişinin qızını alırdılar və qızlarını verəndə də yaxşı kişinin oğluna verərdilər. Şahpələng də Avşar tayfasından Mehralı kişinin qızı Rəmizə xanımla ailə qurub, evləndilər. O, qardaş-bacılarını, həm də övladlarını böyüdə bildi. Onların yeddi övladları oldu: Dörd oğlan, üç qız.

Oğlanları: Mətləb, Zakir, Böyükkişi, Şirəli, qızları: Nərgiz, Qiymət, Pərizad.

Şahpələng kişi oğlunun birinə II Dünya Müharibəsində həlak olmuş əmisi Şirəlinin, digər oğluna isə gənc yaşlarında kürdlər tərəfindən qətlə yetirilmiş əmisi Böyükkişinin adını

qoymuşdu. Şahpələngin qızı Pərizad isə anasının adını daşıyır. Şahpələng kişinin bütün övladları Beyləqan rayon Eyvazalılar kəndində yaşayırlar. Şahpələng kişi 1984-cü ildə Eyvazalılar kəndində dünyasını dəyişmiş və Peyğəmbər ziyarətgahı qəbirstanlığında dəfn olunmuşdu.

**Mətləb** Şahpələng oğlu, Beyləqan rayon Eyvazalılar kəndində dünyaya göz açıb və bu kənddə böyüyübdür.

Mətləb, bibisi Leylanın nəvəsi Əkula xanımla ailə qurub, onların beş oğlu, iki qızı anadan olubdu.
Oğlanları: İlqar, İman, Aqil, Vüqar, Seymur, qızları: Firəngiz, Ruhəngiz.

**İlqar** Mətləb oğlu, yaxın qohumu olan bibisi qızı Aynur xanımla ailə qurubdu. Bu cütlüyün Neman və Əminə adlı övladları dünyaya gəlibdi. Ailənin böyük övladı Neman Sevda xanımla ailəlidir, Məryəm adlı bir qızı var.

**İman** Mətləb oğlu, xalası qızı Sevinc xanımla evlənib. Onların Namurə adlı bir qızı var. Namurə xanım, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının IV kursunda təhsil alır. İman gənc yaşlarında dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında əzizlərinin yanında dəfn olunubdu.

**Vüqar** Mətləb oğlu, dayısı qızı Yaqut xanımla ailəlidir. Bu cütlüyün Nizam və Nurlanə adlı iki övladı var. Ailədə olan uşaqlar azyaşlıdı.

Şahpələng kişinin nəvəsi, **Aslanov Aqil Mətləb** oğlu, 04.03.1973-cü ildə Beyləqan rayon Eyvazalılar kəndində anadan olub. 1980-cı ildə Eyvazalılar kənd orta məktəbinin I ci sinifinə gedib və 1990-cı ildə orta məktəbi bitiribdi. 1991-ci ildə Beyləqan rayon hərbi komisarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılıb, I Qarabağ Müharibəsində Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. 1993-cü il 5 aprel tarixində

“Şişqaya” uğrunda gedən döyüşlərdə itkin düşüb və şəhid olub.

**Seymu**r Mətləbin kiçik oğludu. O, Ağcabədi rayon Avşar kənd sakini, nənə qohumlarından olan Cəmilə xanımla evlənib. Onların Səid adlı oğlu, Səidə adlı bir qızı var.

Mətləbin qızı Firəngiz, həmkəndlisi Namiqin həyat yoldaşıdı. Firəngizin Emin və Dilbər adlı iki övladı var. Mətləbin ikinci qızı Ruhəngiz xanım, Ağcabədi rayon Avşar kəndində Malik adlı oğlanla ailə qurubdu. Bu cütlüyün İdris və Nərmin adlı iki övladı anadan doğulubdu.

**Zakir** Şahpələng oğlu, əmisi Şirinin qızı Reyhan xanımla ailəlidir. Zakirin iki oğlu, bir qızı var.
Oğlanları: Elməddin, İsak, qızı: Aysel.

Zakirin böyük oğlu Elməddin, yaşadığı Eyvazalılar kənd sakini Mehriban xanımla evləniblər. Bu ailənin hələ ki, övladları yoxdu. Ailənin ikinci oğlu hələ ki, subaydı, ailə qurmayıb. Zakirin qızı Aysel ailəlidir, iki oğlu var.

**Böyükkişi** Şahpələng oğlu, Beyləqan rayon Eyvazalılar kəndində anadan doğulub. Böyükkişi dayısı qızı Mənsurə xanımla evlənib, ailə qurubdu. Onların iki oğlu, bir qızı var.

Oğlanları: Vüsal, Nəciməddin, qızı: Vüsalə.
Böyükkişinin oğlu Vüsal ailə qurub, onların iki oğlu var.

**Şirəli** Şahpələng oğlu, Avşar kənd sakini Zəminə xanımla ailə qurubdu. Şirəlinin bir oğlu, iki qızı anadan doğulub.

Oğlu: Elşad, qızı: Türkan, Elnarə.
Şirəlinin qızları Türkan və Elnarə ailəlidirlər. Nərgiz Şahpələng qızı, həmkəndlisi Lələkişinin həyat yoldaşıdır. Onların beş oğlu, beş qızı var. Şahpələngin ikinci qızı Qiymət xanım, da həmkəndlisi Yolçu adlı kişiylə ailəlidir, onların iki oğlu,

dörd qızları var. Şahpələngin kiçik qızı Pərizad xanım, əmisi Ələstanın oğlu Qənbərin həyat yoldaşıdır...

**Aslanov Əliastan Qənbər oğlu** (1915-1984), Budaqlı elatında, dünyaya göz açıb. Ələstanın atası dünyasını dəyişəndə onun beş yaşı var idi. Həyatın gedişatını anlamadığı bir zamanda o, ata üzünə həsrət qaldı. Babasının və əmisinin himayəsində böyüdü, Əliastan. Zaman-zaman yaşa dolduqca anasına, böyük qardaşı Şahpələngə kömək edirdi. İnsanlar zalım olsa da belə Tanrı həmişə yetimlərin köməyi olur. Əliastan da Allahına sığındı, əzablara qatlaşdı və nəhayət, gənc yaşlarına dolub, özünə ailə qura bildi. Əliastan eynilə öz taleyinə bənzər, atadan yetim qalmış Kərbəlayı Şirinli tirəsindən İsfəndiyarın qızı Sürəyya xanımla ailə həyatı qurdu. Amma Ələstan, atası həyatda olmadığı üçün atasız Sürəyyanın evinə elçi də göndərmədi. Əliastan öz sevgilisini kəhər atın tərkinə çəkərək qaçırmışdı. Əlbəttə o, zamanlar qız qaçırmaq da igidlik sayılırdı, ancaq qız adamları elçiləri geri qaytaranda bu hadisə baş verirdi. O da qardaş və bacıları kimi, müharibədən sonrakı illərdə Eyvazalılar kəndində məskunlaşmış, ömrünün sonuna qədər həmin kənddə yaşamışdı. Ələstan kişi müharibəyə getməyib, çünki, bu ailənin kiçik oğlu Şirin ordu sıralarında döyüşürdü. Amma Əliastan kişi arxa cəbhədə beş- on adamın işini görürdü. Bu kişi məşhur oğ-



ru olmayıb, ancaq aclıq dövründə çox ailələrə köməklik edib. İmkanlı adamların heyvanlarını oğurlayıb gətirsə də onu ehtiyacı olan ailələrə bölüb paylayarmış. Bu cürə oğurluqlar əslində qoçaqlıq, igidlik sayılardı. Ələstan kişinin dörd oğlu, iki qızı olubdu.

Oğlanları: Şəfi, Həsən, Tahir, Qənbər.

Qızları: Raya, Gülpəri, Telpəri.

Əliastan kişi, ata-babalarının yollarını davam etdirib, heyvandarlıqla məşğul olub. O, öz işini yaxşı bilən və zəhmətkeş kişi olubdu. Onun oğlu Həsən müəllim, Tahir isə ali təhsilli baytar həkimidir. Əliastan kişi kiçik oğluna atasının adını qoymuş və hazırda Qənbər babasının adını daşıyır. Əliastan kişi 1984-cü ildə Eyvazalılar kəndində dünyasını dəyişib və Peyğəmbər ziyarətgahı qəbirstanlığında qardaşı Şahpələngin qəbri yanında dəfn olunubdur.

**Şəfi** Əliastan oğlu, Tatalılar kənd sakini Tamilə xanımla ailə qurubdu. Bu ailədə üç oğul, üç qız dünyaya gəlibdi. Oğlanları: İldırım, Zabit, Şahin, qızları: Ulduza, Ruhiyyə, Nuridə.

İldırım Şəfi oğlu, Afaq adlı xanımla ailəlidir. Onların Nuranə, Lamiyə və Uğur adlı üç övladları var. Nuranə xanım Sumqayıt Dövlət Universitetinin fizika fakültəsini bitirib. Lamiyə, Xaliq adlı oğlanla ailə qurub, onların bir oğlu var.

Zabit Şəfi oğlu, Eyvazalılar kənd sakini Tünzalə xanımla ailəlidir. Onların Emin və Eminə adlı iki uşaqları var.

Şahin Şəfi oğlu, Eyvazalılar kənd sakini Vüsalə xanımla ailə qurub. Bu cütlükdən Tamilə və Hüseyn adlı övladları dünyaya gəlibdi. Zabitin qızı Ulduza, Tatalılar kəndində yaxın qohumu olan Loğmanla evlidir, onların iki qızı, bir oğlu var. Ruhiyyə, Şaiq adlı oğlanla evli olub, bir oğlu var. Ruhiyyənin

həyat yoldaşı dünyasını dəyişibdi. Zabitin kiçik qızı Nuridə, Tatalılar kəndində İlham adlı oğlanla ailəlidir, iki qızı, bir oğlu var.

**Həsən** Əliastan oğlu, Yaşadığı Eyvazalılar kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Həsən Bəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun (indiki Gəncə Dövlət Universiteti) riyaziyyat fakültəsinə daxil olub. Həsən müəllim, İnstitutu bitirdikdən sonra yaşadığı Eyvazallar kənd orta məktəbində riyaziyyat müəllimi işləyib. O, hazırda təqaüdçüdür. Həsən müəllim, Avşar tayfasından Naibə (Nəsibə) xanımla evlənib, ailə qurubdu. Həsən müəllimin dörd oğlu, bir qızı anadan olubdu.
Oğlanları: Zabil, Ramil, Kamil, Aydın, qızı: Gültac.
Həsən müəllim hazırda ailəsi ilə birlikdə doğulduğu kənddə yaşayır.

Zabil Həsən oğlu, öz xalası qızı Sevinc xanımla evlənib, onların Kənan və Raminə adlı iki uşaqları var.

Kamil Həsən oğlu, həmkəndlisi Eyvazalılar kənd sakini Şəlalə xanımla evlənib, ailə qurub, Gülyanaq və Xədicə adlı iki azyaşlı övladları var.

Ramil Həsən oğlu, Nahidə adlı xanımla ailə qurub, Ramin və Fərid adlı iki oğlu dünyaya gəlib. Nahidə xanım 2018-ci ildə ömrünün 26-cı baharında dünyasını dəyişib. Uşaqlar azyaşlıdı.

Aydın Həsən oğlu, Eyvazalılar kənd tam orta məktəbini bitirdikdən sonra Gəncə Dövlət Universitetinin coğrafiya fakültəsini bitirib. Hazırda yaşadığı kənd orta məktəbində ixtisası üzrə müəllim işləyir. Hələ ki, subaydı, ailə qurmayıb. Aydın müəllim həm də ehtiyatda olan hərbi zabitdir. Hərbi xidmətdə zabit kimi xidmət göstəribdi. Həsən müəllimin ye-

ganə qızı Gültac xanım, həmkəndlisi Fəxrəddinlə ailə qurub, Məhəmməd adlı bir oğlu var.

**Həsən** müəllimin söylədiklərindən: - Mənim atam Əliastan 1915-ci ildə İmişli rayon Budaqlı tayfasında anadan olub. Hələ uşaq yaşlarında atasını itirən atam, nəsildə yadda qalan kişilərdən olub. Babamız Qənbər, İrandan talançılığa gəlmiş quldurlar tərəfindən atışmada öldürülüb. Nənəm Pərzad arvad yetim qalmış beş uşağını Eyvazalılar kəndində atasının, qardaşlarının yanında böyüdə bilmişdi. Atam Əliastan ucaboy, Suyu şirin, zarafatcıl, mehriban, ehtiyacı olana əl tutmağı bacaran bir adam idi. Demək olar ki, atamı bütün tərəkəmə camaatı Kəlbəcərdən tutmuş Bərdə, Yevlax, Ağcabədi, İmişli, Laçın və s. yerlərdə hamı tanıyırdı. Atam xeyirxah adam idi. Onun xeyirxahlığı şəxsən mənə və övladlarıma da keçib. Atam II Dünya Müharibəsinə getməyib, müharibə dövründə başsız qalan ailələrə həmişə əl tutub, kömək etmişdi. O, əlindən gəlini el-obasından əsirgəməmişdi. Atam əsil tərəkəmə kişisiydi. Onun yaxşı cins atı, buxara papağı, şux geyimi olardı. Demək olar ki, ömrünün sonuna qədər at belində gəzdi. O, iki övladını oxudub ali təhsil verdi. Atam dindar adam deyildi, amma əsil müsəlman idi. Oruc tutub, namaz qılmasada, müsəlmançılığa aid nə varsa hamısını bilirdi. Onun amalı və and yeri islamın döyüşən və dönməz oğlu İmam Hüseyn idi. Atam bu dünyada etdiyi əməlləri ilə o dünyasını qazanmışdı.

Atam başına gələn bir əhvalatı bizə danışmışdı. O, deyirdi:- Yazın oğlan çağıydı, tərəkəmə obaları Kəlbəcərin "İstisu" yaylağına köçmüşdü. Bizim yaylaq Ermənistanın Cermuk şəhərinin sərhədində yerləşirdi. O yerlərin qarı gec əriyərdi. Obalar bir müddət aşağılarda qalardı ki, yuxarıda qar ərisin,

yurd yerinə köçmək mümkün olsun. Biz bu yurda dib yurd deyirdik. Atam dib yurda baxmaq üçün silahını götürüb, atını minib qalxır yaylağa. "Ayı çınqılı" deyilən yerdən keçir, amma baxır ki, qar o qədər qalındı ki, at qarı yara, gedə bilmir. Vəziyyəti belə görəndə geri dönməli olur. Atam geriyə qayıdarkən çınqıllın ayağında yeni qış yuxusundan ayılmış bir ayının qarda eşələndiyini görür. Ayı atamı görmürmüş, atam yavaş-yavaş ayıya yaxınlaşıb tüfəngini ayağa çəkib ayını nişan alır. Hənirtiyə ayı başını qaldıranda silahın ona tuşlandığını görüb çıxılmaz vəziyyətə düşür. Ara məsafə eləydi ki, ayı atamın üstünə atıla bilməzdi. Ayı nə edəcəyini bilmirdi. Ayı atama baxır-baxır birdən əlləriylə gözünü örtür. Atam deyirdi ki, bu çox acınacaqlı bir səhnə olmaqla yanaşı, həm də həyatla ölüm arasında yaranan dəhşətli mənzərə idi. Bir xeyli baxdıqdan sonra ürəyimdə mərhəmət hissi oyandı, silahımı yendirib yavaş-yavaş uzaqlaşdım. Yol boyu ayının hərəkətləri məni düşündürürdü. Aman Allah, canlıya bir bax, ölümünün son anında əlləriylə gözlərini örtdü. O sanki öz acı taleyinin sonunu belə görməmək üçün gözlərini bağladı. Atam deyirdi yol boyu fikirləşdikcə, ömürün nə qədər şirin, ölümün isə o qədər acı olmasını duyub kədərləndim. Bir xeyli yol gedəndən sonra geriyə dönüb baxdım, ayı bir qayanın üstündə durub hələ də arxamca baxırdı.

Atamın yaxşi səsi varıydı. Qarabağ camaatının mayası "Zabulla" yoğrulduğu üçün, atam da həmişə zabul üstə zümzümə edərdi. Az oxuyardı, amma yaxşı, məlahətli oxuyardı. Atamın səsi istər-istəməz adamın diqqətini özünə cəlb edərdi. Atam, dövlət, pul düşgünü olmayıb, olan pulunu da tez xərcləyərdi, uşaqlara pul verərdi. Elə buna görədə məhlədə uşaqların hamısı ona baba deyərdilər. Bizim bu gün fira-

van yaşamağımız, insanlığın nə olduğunu bizə öyrətməsi, qoyub getdiyi halallığın saf təməlidir.

Həsən müəllim riyaziyyat müəllimi olmağına baxmayaraq, poeziyanın vurğunu olmaqla yanaşı, xeyli sayda şeirlərin müəllifidir. Buna baxmayaraq, o, şeirlərini mətbuat orqanlarında çap elətdirməyib. Həsən müəllimin bir şeirini təqdim edirəm.

Allahım nə idi mənim günahım,
Getdi Qarabağım, yurdum, torpağım.
Yandırsın cismimi, yandırsın ahım,
Selə dönüm qoy çaylara axım hey,
Qəmli-qəmli bu dünyaya baxım hey.

Məni basıb zəmanənin istisi,
Qəlbim yanır candan çıxmır tüstüsü.
Keçsəydi ələ qəsbkarın irisi
Od ələyib, şimşək olub çaxam hey,
Qəmli-qəmli bu dünyaya baxım hey.

Qarışıbdı bu dünyanın mayası,
Çox dəyişib uca dağı, qayası.
Saralıbdı nərgizləri, laləsi,
Fırça alıb əlvan rənglər yaxam hey,
Qəmli-qəmli bu dünyaya baxım hey.

**Tahir** Əliastan oğlu, yaşadığı kənddə dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Şamaxı Kənd Təsərrüfatı Texnikomunun baytarlıq fakültəsinə daxil olub. Texnikomu qurtardıqdan sonra yaşadığı kənddə baytar həkimi işləyə-işləyə,

Rusiya Federasiyasında Xarkov Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültəsində qiyabi təhsil alıb. Tahir, ali təhsilli baytar həkimi kimi fəaliyyət göstərib.

Tahir, Ziyafət adlı xanımla ailə qurub, üç övladı dünyaya gəlib.

Oğlu: Rahib, qızları: Gülər, Sürəyyə.

Rahib, Beyləqan rayon İmamverdilər kənd sakini Sevda xanımla evlidi və Tahir, Ziyafət adlı iki uşaqları var. Burada göründüyü kimi, Tahirin qızı anası Sürəyyanın, nəvələri isə nənə, babasının adını daşıyır.

Tahirin qızı Gülər, dayısı oğlu Kəmaləddinin həyat yoldaşıdı. Onların Nərmin, Təhminə və Fateh adlı övladları var. Tahirin ikinci qızı Sürəyya, Mehdilər tirəsində Pənahın oğlu Əhlimanla ailəlidir, iki qızı və bir oğlu var. Beyləqan şəhərində yaşayır.

**Qənbər** Əliaslan oğlu, babası Qənbərin adını yaşadır. O, əmisi Şahpələngin qızı Pərizad xanımla ailə qurub, üç oğlu var.

Oğlanları: Elmir, Əliastan, Asim.

Qənbər də öz növbəsində oğluna atasının adını qoyubdu. Budaqlı elatında adlar həmişə təkrar olunub, dünyasını dəyişən insanların adını yaşadan yeni nəslin nümayəndələri olublar.

Qənbərin böyük oğlu Elnur, həmkəndlisi Nuranə xanımla ailə qurub, Elay və Gülay adlı övladları dünyaya gəlib.
Əliastan, Aişən xanımla ailəlidir, Asim isə subaydı.

Əliastan kişinin qızı Raya, ailəli olub, ancaq övladı olmayıb. Gülpəri, ana qohumu Paşanın həyat yoldaşıdır, iki oğlu, iki qızı var. Ailənin kiçik qızı Telpəri Xalası oğlu Füzuli ilə ailə qurub, iki oğlu, iki qızı var.

**Aslanov Şirin** Qənbər oğlu (1920-1989), Budaqlı elatında anadan olubdu. Onun dünyaya gəldiyi qırxıncı günündə atası quldurlar tərəfindən qətlə yetirilibdi. Demək olar ki, o atasını görmədi. Ata nəvazişindən uzaq oldu. Anası Pərizad ona həm ana oldu, həm də ata. Pərizad arvad, Qənbərdən sonra heç kimlə ailə həyatı qurmadı. Bütün varlığı ilə balalarını böyüdə bildi. Ən kiçik oğlu Şirin də yaşa doldu, qardaşlarının köməyinə çatdı. II Dünya Müharibəsi başladı. Şirin könüllü olaraq cəbhəyə gedən cavanlardan biri oldu. O, Berlinə qədər döyüş yolu keçmiş, bir neçə dəfə yaralanmağına baxmayaraq müharibənin sonuna qədər döyüşmüşdür. Şirin müharibədən sağ-salamat qayıtdı və Eyvazalılar Məmmədyarın qızı Gilə xanımla ailə həyatı qurdu. Şirin də qardaşları kimi müharibədən əvvəl Budaqlıdan Eyvazalılar kəndinə köçmüşdü. Onların bu kəndə bağlılığı ana babaları Bəbəş kişi, dayısı Cəlilə görə olmuşdu. Şirinin dörd oğlu, iki qızı olub.
Oğlanları: İnqilab, Zahir, Ramiz, Faiq, qızları: Leyla, Reyhan.
Şirin kişinin birinci həyat yoldaşı rəhmətə getmiş, ikinci dəfə Qəmər xanımla evlənmiş və kiçik qızı Reyhan, ikinci həyat yoldaşı Qəmərdən dünyaya gəlmişdi. Şirin K/T-ı Texnikumunun aqronomluq fakültəsini bitirmiş və kolxozda müxtəlif vəzifələrdə çalışmışdı. Şirin 1989-cu ildə Eyvazalılar kəndində dünyasını dəyişmiş və Peyğəmbər ziyarətgahı qəbirstanlığında qardaşlarının yanında dəfn olunmuşdur.

**İnqilab** Şirin oğlu, Eyvazalılar kəndində dünyaya göz açıb, atasına layiq bir övlad ola bilib. İnqilab həm də dəliqanlı cavan olubdu. O, xalası qızı Güllü xanımla evlənib, ailə qurub və beş övladı dünyaya gəlib.
Oğlanları: Malik, Babək, Siyavuş, Həzi, qızı: Gülnar.



*Şəkildə soldan Zahir, Şirin, Faiq*

Malik İnqilabın böyük oğludu, Füzuli rayon sakini Xumar xanımla evlidi. Bu cütlüyün Şirin, Xuraman, Zülfiyyə, Güllü adlı övladları var.

Babək İnqilab oğlu, Aygün xanımla evlidi, Sevil, Emil adlı uşaqları doğulubdu. Siyavuş, Aytən xanımla ailəlidir, Ayxan, İbrahim, Gülşən adlı uşaqları dünyaya gəlib. Ailənin kiçik oğlu Həzi, Lalə xanımla ailə qurub və Kərim adlı bir oğlu var.

Zahir Şirin oğlu, ailənin ikinci oğludu. O, Beyləqan rayon sakini Zibeydə xanımla ailəlidir. Zahirin üç övladı var.

Oğlu: Tofiq, qızları: Günəş, Abuzər.

Zahir hazırda övladları ilə birlikdə Beyləqan şəhərində yaşayır.

**Ramiz** Şirin oğlu (1958-2020), Stepanakert Pedaqoji İnstitutunu bitirib, müəllim işləyib. O, ömrünün sonuna qədər Eyvazalılar kənd tam orta məktəbin direktoru vəzifəsində ça-

lışıb. Ramiz müəllim, Nazilə adlı xanımla ailə qurub, Aslan adlı bir oğlu var. Ramiz müəllimin həyat yoldaşı da ali təhsilli müəllimədir və yaşadığı kənddə müəllimə işləyir. Ramiz müəllim, 2020-ci ilin iyul ayında ürək tutmasından dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında atasının yanında dəfn olunubdu.

**Faiq** Şirin oğlu, ailənin kiçik oğludu və ata yurdunda yaşayır. Faiq, Afət xanımla ailə qurub, hələ ki, onların uşaqları yoxdu.

Şirin kişinin qızı Leyla, Ələm adlı oğlanla ailə qurub, onların iki oğlu, dörd qızı var. Şirin kişinin Qəmər xanımdan olan qızı Reyhan xanım, əmisi oğlu Zakirin həyat yoldaşıdır.

**Aslanov Həmzə**, Aslan kişinin üçüncü oğlu və Qənbərin qardaşıdır. Həmzə də Budaqlı elatının içində yaşayıb. Həmzə ömür boyu heyvandarlıqla məşğul olubdu. O, çoban olub, ancaq çox zəhmətkeş insan olubdu. Həmzənin üç oğlu, dörd qızı dünyaya gəlibdi.

Oğlanları: Afturab, Novruz, Şirəli, qızları: Tutubəyim, Məhbub, Tavad, Şövkət.

**Şirəli** Həmzə oğlu, öz əmisi Təhməzin qızı Sitarə xanımla evlənib ailə həyatı qurub. Onlar bir neçə il birlikdə yaşamaqlarına baxmayaraq övladları olmayıbdı. Şirəli, II Dünya Müharibəsinə getmiş və 1944-cü ildə döyüşlərin birində həlak olmuşdur.

**Afturab** Həmzə oğlu (1907-1970), digər qardaşları kimi Budaqlı tayfasında anadan olub və öz elatında yaşayıb. O, 1952-ci illərdə ailəsi ilə birlikdə Dünyamalılar kəndinə köçübdü. Afturab, Boşçallar tayfasından Qönçə xanımla ailə qurub, onların Teyyub (1953-1998), və Həmzə adlı iki oğlu olubdu. Afturabın həyat yoldaşı Qönçə xanım 1957-ci ildə rəhmə-

tə gedibdi. Afturab ikinci dəfə Füzuli rayon sakini Qaratel xanımla evlənibdi. Onların Məhəmməd, Sabir (Sahib 1969-1989), Nadir adlı oğlu, Minə və Maya adlı iki qızı anadan olub. Afturab 1980-cı ildə yaşadığı kənddə rəhmətə gedib və "Soltanbud" qəbirstanlığında dəfn olunubdu.

**Teyyub** Afturab oğlu, Boşçallar kənd sakini Zərxarə xanımla ailə qurub. Bu cütlükdən Rəşad, Dəyanət, Elnarə, Şəmsiyyə və Piyalə adlı beş övladı dünyaya gəlib. Teyyub evləndikdən sonra İmişli rayon Boşçallar kəndinə köçüb, həmin kənddə yaşayıb. Teyyub 1998-ci ildə elektrik cərəyanı vurması nəticəsində dünyasını dəyişib. Teyyub Boşçallar qəbirstanlığında dəfn olunubdu.

Rəşad Teyyub oğlu, Boşçallar kəndində doğulub, böyüyüb və Muradxanlı kənd sakini Röyalə xanımla ailə qurub. Onların Səma, Ramal, Teyyub və Kamal adlı övladları dünyaya gəlib.

Dəyanət Teyyub oğlu, Ağdamlı Aysun xanımla ailə qurub və Adəm, Zərxarə adlı övladları anadan olubdu.

Teyyubun qızları: Elnarə subaydı, Şəmsiyyə Boşçallar Əlzaminin həyat yoldaşıdır. Onların Əşrəf, Səyyad adlı övladları var. Piyalə xanım.

Boşçallar Zaurla evlənib, Zeynal və Süleyman adlı oğlanları var.

**Həmzə** Afturab oğlu, yaşadığı Dünyamalılar kəndində Əskinaz xanımla ailə qurub, onların Elçin, Lalə, Şəhla adlı övladları dünyaya gəlib. Həmzə hazırda Dünyamalılar kəndində yaşayır.

Elçin Həmzə oğlu, Dünyamalılar kənd sakini Xatirə xanımla ailəlidir, Şükran adlı bir oğlu var. Lalə, ata qohumu Qafar

müəllimin oğlu Rövşənin həyat yoldaşıdır. Şəhla, Əlinəzərli kənd sakini Aqşinlə evlənib, bir oğlu var.

**Məhəmməd** Afturab oğlu, Afturabın ikinci həyat yoldaşından olan oğludu. Məhəmməd Dünyamalılar kəndində doğulub boya, başa çatıb. Məhəmməd iki dəfə ailə həyatı qurubdu. Onun birinci həyat yoldaşı həmkəndlisi Bəhriyyə xanım olub. Məhəmmədin, Bəhriyyə xanımdan Turab adlı oğlu, Nigar adlı bir qızı var. Nigar, Qazax rayon sakini Azərlə evlidir, Səbanur adlı bir qızları var. Turab hələ ki, ailə qurmayıb. Məhəmməd, Bəhriyyə xanımdan ayrılıb, ancaq Turab anası ilə birlikdə yaşayır.

Məhəmməd ikinci dəfə yaşadığı Dünyamalılar kənd sakini Mərziyyə xanımla evlənib, Sahib və Əsmər adlı iki azyaşlı övladları var. Məhəmməd öz oğluna ölən qardaşının adını qoyub.

**Sabir** (Sahib) Afturab oğlu 1968-ci ildə anadan olub, orta məktəbi bitirib hərbi xidmətə gedib. Hərbi xidmətdən qayıtdıqdan sonra xəstələnib, 1989-cu ildə beyin şişindən dünyasını dəyişibdi. "Soltanbud" qəbirstanlığında dəfn olunubdu. Sabir ailə qurmadığı üçün övladları olmayıb.

**Nadir** (Allahverdi) Afturab oğlu, öz həmkəndlisi Şəfəq xanımla ailəlidir. Onların Qaratel, Vüsal, Vüsalə adlı övladları var. Nadirin övladlarından yalnız qızı Qaratel ailəlidir. Qaratel, bibisi Pərinin oğlu Elşənlə ailə qurub, İmişli rayon Ağaməmmədli kəndində yaşayırlar.

Afturabın qızları: Minə, öz həmkəndlisi Fərhad ilə ailə qurub. Onların Pərviz, Səmayə, Gülnar adlı övladları var. Maya ana qohumu Təyyarın oğlu Nəsibin həyat yoldaşıdır. Onların Təyyar, Sahil, Aytən, Ülviyyə adlı övladları var. Pəri isə İmişli rayon Ağaməmmədli kəndində Mirzəlinin həyat yoldaşı-

dır. Onların Elşən adlı bir oğlu var ki, oda dayısı Nadirin qızı Qaratellə evlidir və bir qızları var.

**Novruz** Həmzə oğlu (1922-1998), Budaqlı elatında dünyaya göz açıb, atasının himayəsində böyüyübdür. Novruz, Səmərrux adlı qadınla ailə qurubdur. Onlar uzun müddət ailə qursalar da, yaşasalar da övladları olmamışdır. Elə bu səbəbə görə də onlar öz razılıqları əsasında ayrılmışdılar. Novruz ikinci dəfə Füzuli rayon Qacar kənd sakini Savad adlı xanımla evlənib ailə qurmuş, onların övladları dünyaya gəlibdi.

Oğlanları: Həsrət, Rafiq, Oqtay.

**Həsrət** Novruz oğlu, Budaqlılar kəndində yaşayır. O, Molla Qaranın qızı İntizar xanımla evlidir. Onların Nurlan, Gülnar, Savad, Lalə və Gülsalə adlı övladları dünyaya göz açıblar. Həsrətin oğlu azyaşlıdı. Qızları: Gülnar, Kamil adlı oğlanla ailəlidir, Xəqani adlı bir oğlu var. Savad, Tatalılar tayfasında Şakirin oğlu Elvinin həyat yoldaşıdır. Onların Lətifə, Damla, Şakir adlı azyaşlı övladları var. Gülsalə Bakı Tibb Kolecinin 1-ci kurs tələbəsidir. Lalə, Hacı Qasım ocağının gəlnidir. İlqarın oğlu Vüqarın həyat yoldaşıdır.

**Rafiq** Novruz oğlu, Cəbrayıl rayon sakini, məcburi köçkün İradə xanımla evlidir. Onların Ləman, Nərmin, Müşfiq adlı övladları dünyaya gəlib. Müşfiq hərbiçidir. Ləman, BDU-nun psixologiya fakültəsini bitirib, psixoloqdu. Ləman ixtisası üzrə magistratura təhsili alıb. Nərmin, ATU-nin 4-cü kurs tələbəsidir. Gələcəyimizin həkimi olacaq.

**Oqtay** Novruz oğlu, Yardımlı rayon sakini Firəngiz xanımla ailə qurubdu. Onların Nərgiz və Novruz adlı azyaşlı uşaqları var.

Novruz kişi, 1998-ci ildə yaşadığı Budaqlılar kəndində rəhmətə gedib və Peyğəmbər qəbirstanlığında dəfn olunub-

du. Novruz kişinin həyat yoldaşı Savad xanım, 1991-ci ildə Budaqlılar kəndində dünyasını dəyişib və doğulduğu Füzuli rayon Qacar kəndində doğmalarının yanında dəfn olunubdu.

**Tutubəyim** Həmzə qızı, Dünyamalılar kəndində Qənbərlə ailə qurmuşdu. Onların Asif adlı oğlu, Səadət, Təzəgül və Tofiqə adlı övladları dünyaya gəlmişdi. Tutubəyimin həyat yoldaşı Qənbər kişi dünyasını dəyişəndən çox sonra, Hacalılar tirəsindən Hacalı kişi ilə yenidən evlənmişdi. Tutubəyimin Hacalı kişidən olan övladları haqqında Hacıalılar tirəsində ətraflı məlumat verilmişdi.

Tutubəyimin oğlu Asif ailəlidir, uşaqları var, Dünyamalılar kəndində yaşayır. Qızı Səadət xanım, Dünyamalılarda uzun müddət kolxoz sədri işləmiş Əliabbas Vəliyevin həyat yoldaşı olub. Təzəgül , Muğanlıda xalası oğlu Ağanşurun, Tofiqə isə yaşadığı Dünyamalılar kəndində Əlisahibin həyat yoldaşıdır.

**Məhbub** Həmzə qızı, Muğanlı tayfasından Cəlalın həyat yoldaşı olubdu. Onların Hacıxanım, Başxanım, Ağanşur, Əliağa və Zeynəb adlı övladları olub ki, bu nəslin davamçıları hazırda İmişli rayon Muğanlı kəndində yaşayırlar.

**Şövkət** Həmzə qızı, İmamqulular tirəsindən Abbasla ailə qurub, onların Murad və Cəvahir adlı övladları dünyaya gəlibdi. Bu nəsilin davamçıları hazırda Dünyamalılar kəndində yaşayırlar.

**Tavad** Həmzə qızı, Dünyamalılar kəndində Nəsib kişi ilə evlənib, onların Təyyar, Əntiqə adlı uşaqları olub. Bu törəmə də Dünyamalılarda yaşayırlar

Təhməz kişinin kiçik oğlu **Abbas**, Budaqlı tayfasında doğulub, boya- başa çatmışdır. Abbas kişi öz elatında Minə xanımla ailə qurmuş, onların üç oğlu olubdur.

Oğlanları: Cabbar, Məmmədqulu, Vəli.

Deyilənə görə, Abbas cavan yaşlarında dünyasını dəyişmişdir. Onun övladları əmilərinin himayəsində böyümüşdür.

**Məmmədqulu Abbas oğlu**, öz tayfasında Nisə xanımla ailə qurmuş, onların Absayad adlı yeganə bir qızları olmuşdu. Məmmədqulunun qızı Absayad, Mehdilər tirəsində Əbil kişinin oğlu Telmanın həyat yoldaşı olub. Absayadın övladları haqqında Mehdilər tirəsində ətraflı məlumat verilib.

**Vəli Abbas oğlu**, qardaşları kimi Budaqlı tayfasında doğulubdur. Vəli Ağcabədi rayon Qaradolaq kəndindən bir xanımla ailə qurmuş, onların Cümşüd və Nazir adlı iki oğlu olubdur. Vəli ailə qurduqdan sonra Ağcabədi rayon 32-lər deyilən kəndinə köçüb, ömrünün axırına qədər orada yaşamışdır. Hazırda Vəlinin törəmələri Ağcabədi şəhərində yaşayırlar.

**Cabbar Abbas oğlu**, Budaqlı tayfasında anadan doğulmuş, yaşa dolduqca babalarının yolunu davam etdirmiş, heyvandarlıqla məşğul olmuşdu. Cabbar öz tayfasından Nübar xanımla ailə qurub, onların iki oğlu, iki qızı olubdur.

Oğlanları: Firdun, Abbas, qızları Minə, Maya,

**Firdun Cabbar oğlu,** Hacıalılar tirəsindən Baxışın qızı Məşədi Gülavatın ilə ailə qurmuş, uzun müddət bir yerdə yaşamaqlarına baxmayaraq onların övladı olmamışdır. Firdun öldüyü günə qədər ailəsindən ayrılmamışdır. Firdun kişi mahir atıcı olub. Ovçuluqda ad çıxarmış adamlardan olubdur.

**Abbas Cabbar oğlu,** (1907-1990) babası Abbasın adını yaşadıb. Abbas, Səmərqə (1920-2007) xanımla ailə qurub, onların dörd oğlu, bir qızı olubdu.

Oğlanları: Təvəkgül, Vahid, Hüseyn, Əli, qızı: Səringül.

Abbas kişi, Budaqlı kolxozu dağılandan sonra bir müddət Beyləqan rayon "Qoyunçuluq" sovxozunda, Beyləqan rayon Dünyamalılar kəndində və 1969-cu ildən etibarən Beyləqan rayon Bünyadlı kəndində məskunlaşıb, yaşamışdır. O, 1990-cı ildə yaşaşadığı Bünyadlı kəndində rəhmətə getmiş və həmin kəndin qəbirstanlığında dəfn olunmuşdur. Abbas kişinin həyat yoldaşı Səmərqə xanım 2007-ci ildə dünyasını dəyişib və həyat yoldaşının yanında dəfn olunubdur.

Təvəkgül Abbas oğlu, ata qohumu Cəbrayıl kişinin qızı Tamara (1951-2017) xanımla ailə qurub, evlənib, onların: Adil, Tünzalə, Tərgül adlı övladları dünyaya gəlibdi. Təvəkgülün oğlu ,Adil Beyləqan rayon Dünyamalılar kənd sakini Sevda xanımla ailə qurub, onların Abbas, Sahib, Təvəkgül adlı üç oğlu və Tamara adlı bir qızları var. Yuxarıda göründüyü kimi ailənin övladları babasının və nənəsinin adlarını yaşadırlar. Tamara 2017-ci ildə yaşadığı kənddə rəhmətə gedib və kənd qəbirstanlığında dəfn olunubdur. Təvəkgülün qızları: Tünzalə xanım, Beyləqan rayon Dünyamalılar kənd sakini İlqarın həyat yoldaşıdır, onların iki oğlu var. Tərgül də Beyləqan rayon Dünyamalılar kənd sakini Bəhruzla ailə qurub. Onların bir oğlu,iki qızı dünyaya gəlibdir.

**Vahid Abbas** oğlu, Yaşadığı kənddə həmkəndlisi Zeynəb xanımla ailə qurub, onların Məhəbbət, Sərhəd adlı iki oğlu, Giləxanım adlı bir qızları var. Məhəbbət Beyləqan rayon I Şahsevən kənd sakini Nuran xanımla ailə qurub, onların Ömər, Zeynəb adlı iki övladları dünyaya göz açıbdı. Vahidin oğlanları hələ ki, ailə həyatı qurmayıblar, qızı Giləxanım Beyləqan rayon II Aşıqlı kəndində ərdədir, iki oğlu var.

**Hüseyn Abbas oğlu**, Beyləqan rayon Bünyadlı kəndində anadan olub, həmin kənd tam orta məktəbi bitirib və Azər-

baycan Politexnik (indiki Texniki Universitet) İnstitutunun mexanika fakültəsinə daxil olub. Hüseyn İnstitutu bitirdikdən sonra ixtisası üzrə mexannik işləmişdi. Hüseyn, dayısı qızı Radə xanımla ailə qurmuş, onların Ramil və Yasəmən adlı övladları anadan doğulubdur. Ailənin böyük oğlu Ramil 690 balla Bakı Ali Neft məktəbinə daxil olub, hazırda 5-ci kursda təhsil alır. Hüseynin qızı Yasəmən xanım Bakı Avroasiya Universitetinin filologiya fakültəsini bitiribdir, Azərbaycan dili - ədəbiyyat müəllimidir. Yasəmən xanım həmkəndlisi Tahirin həyat yoldaşıdır, Raul və Nargilə adlı övladları var.

**Əli Abbas** oğlu, ailənin kiçik oğludur həmkəndlisi Gülnarə xanımla ailəlidir. Bu cütlüyün Elgün, Elşən və Aygün adlı üç övladı var. Əlinin qızı Aygün xanım həmkəndlisi Vasifin həyat yoldaşıdır, Əminə və Zülfiyyə adlı iki qızları var.

Abbas kişinin qızı Səringül Beyləqan rayon Dünyamalılar kənd sakini Ələddinlə ailə qurub, onların Coşqun, Qardaşxan və İlkanə adlı üç övladları var...

## İMAMQULULAR TİRƏSİ

Apardığım araşdırmalara əsasən bildirirəm ki, İmamqulular tirəsi Budaqlı tayfasında XIX əsrin sonunda yaranan sonuncu tirədir. Çünki, araşdırmalar göstərir ki, bu tirə elə Hacı İmamqulu dövründən sonra yaranıb. Belə ki, bu tirənin adamlarının yarısı Kərbəlayı Şirinlinin qolu olmaqla, bir hissəsi isə Təhməzli tirəsindəndir. Mənə belə gəlir ki, Hacı İmamqulu Məkkə ziyarətindən dönüb Hacı titulu alandan sonra ətrafına toplaşan yaxın törəmələri, sonradan İmamqulular adlanmışdı. Mənim fikrimcə, İmamquluların ulu babaları Kərbəlayı Şirinli tirəsinin də babası olan Qulu kişidir. Çünki, İmamqulular, Kərbəlayı Şirinlilərin qan qohumudu. Həm Kərbəlayı Şirinli, həm də İmamquluların çox hissəsi Qulu soyadını daşıyırlar. Bu tirənin bizə gəlib çatan yaxın qolu İsmayıl kişi Qulunun nəvəsi və Hacı Hüseynin qardaşı Həsənin övladlarıdı. Yəni Həsən kişi Hacı İmamqulunun babasıdı. İsmayılın üç oğlu, anadan olub.

Oğlanları: Hacı İmamqulu, Abdulhüseyn, Abbas.

İsmayıl kişi hələ öz sağlığında oğlu İmamqulunu həcc ziyarətinə göndərmişdi. Hacı İmamqulu Hacı titulu aldıqdan sonra öz tirəsinin ağsaqqalı kimi tanına bilmişdi. Hacı İmamqulu elat tayfalarında sayılan kişilərdən olub. O, Budaqlı tayfasında sayılan ağsaqqallarla oturub- duran sözünü və özünü bilən kişi olub. Elat camaatı həmişə onun yolunu gətirib.

**Hacı İmamqulu**, Mələksuma xanımla ailə qurub, onların Əntiqə adlı bir qızı olub. Əntiqə xanım əmisi Abbasın oğlu Muradın həyat yoldaşıdır. Hacı İmamqulunun nəslinin davamçısı həm də qardaşı Abbasın törəmələridi.

**Abdulhüseyn**, Hacı İmamqulunun doğma qardaşıdır. O, qardaşı ilə birlikdə Budaqlı tayfasında yaşayıblar. Abdulhüseyn elat tayfasında Göyçək xanımla ailə qurub evləniblər. Onların dörd oğlu, bir qızı anadan olub.
Oğlanları: Bəbir, Həsən, Hüseyn, Rasət, qızı: Mehri.

Abdulhüseynin böyük oğlu Bəbir, 1941-ci ildə II Dünya Müharibəsi başlayanda müharibəyə gedib və döyüşlərin birində həlak olub. Bəbir ailə həyatı qurmadığı üçün övladı olmayıbdı.

Abdulhüseyn kişi təsərrüfata bağlı adam olub. O, yük heyvanlarından daha çox dəvəyə meyilli olubdu. Abdulhüseyn kişi həm də dəvələrinə qarşı çox diqqətli imiş. Dəvənin vaxtında yemlənməsinə, suvarılmasına şəxsən özü baxarmış. Bir sözlə Abdulhüseyn özü ac qala bilərdi, ancaq dəvələrini ac qoymazdı. Yaşlı insanların dediklərinə görə Abdulhüseyn dünyasını dəyişəndən sonra, dəvələr yeddi gün alaçığın yanına gəlib ağlayırmışlar. Abdulhüseynin ölümündən sonra, dəvələrə onun böyük oğlu Bəbir baxıbdır.

**Həsən** Abdulhüseyn oğlu (1929-2009), Budaqlı tayfasında dünyaya göz açıb, tayfanın içərisində böyüyüb. Abdulhüseyn kişinin oğlu Həsən günlərin birində otlaq sahəsində qoyun otardıqları zaman üç nəfər dostu ilə birlikdə bir quzu tapırlar. Cavan uşaqlar dörd nəfər olduğu üçün quzunu kəsib dörd yerə bölürlər. Həsən payına düşən əti gətirib verir anası Göyçək xanıma. Göyçək xanım əti doğrayıb doldurur qazana, bişmək üçün qoyur ocağın üstünə. Nahar vaxtı Abdulhüseyn kişi gəlib görür ki, qazanda nə isə bişir. Yoldaşından soruşur:

- Göyçək bişirdiyin nədir?
- A kişi quzu əti bişirirəm.

- Arvad mən ki, quzu kəsməmişəm, kim verib?
- Ay kişi Həsən gətirib, deyir çöldən tapmışıq.

Abdulhüsen kişi oğlu Həsəni çağırıb yanına deyir:

- Oğul, quzunu hardan tapmısınız?
- Ata, örüşdə qoyun otaran vaxt tapmışıq.
- Oğul yaxınlığınızda qoyun sürüsü var idi?
- Ata, varıydı.
- Heç soruşdunuz ki, bu quzu sizindir ya, yox?
- Yox, soruşmadıq.
- İndi başa düş ki, bu qazanda bişən ət haramdı.

Abdulhüseyn kişi qazanı götürüb atır itin qabağına. Həsənə tövsiyyə edir ki, mən haram tikə yeməmişəm, sizə də məsləhət bilmirəm. Həmin gündən etibarən Abdulhüseyn kişinin övladları atalarının halal yolunu tutdular. Həsən, Kəbirli tayfasından Sura xanımla ailə qurub. Onların dörd oğlu bir qızı dünyaya gəlib.

Oğlanları: Qafar, Sucəddin, Vilayət, İsmayıl, qızı: Tahirə.

Həsən kişi, təbabəti yaxşı bilən, sınıq, çıxıq və onurğa sürüşmələrini müalicə edən kişi olubdu. Həsən kişi, etdiyi yaxşılığın qarşılığını güdməyib. O, təmənnasız xidmət göstərib. Həsənin bu alicənablığına görə ona İmam Həsən adı veriblər. Amma, onu da deyim ki, onun düzgün yolda olması, əyrilik, haramxorluq, paxıllığın nə olmasını bilmədiyi və dediyi haqq sözündən dönmədiyinə görə o, tərs Həsən ləqəbini qazanmışdı. Həsən kişini gözü götürməyənlər rəhbər işçilərə demoqoqluq edəndə deyərdilər, bu kişiyə ləkə yapışmaz, çalışın əqidəniz onunku qədər olsun. Düz söz danışan adam çoxunun xoşuna gəlməz. Həsən kişinin ömrü boyu heç kimə pisliyi keçmədi. Həsən kişi 2009-cu ildə yaşadığı Dünyamalı-

lar kəndində dünyasını dəyişib və "Soltanbud" kənd qəbirstanlığında dəfn olunub.

**Qafar** Həsən oğlu, ailənin böyük oğludu, Dünyamalılar kənd orta məktəbini bitirdikdən sonra Əlibayramlı Pedaqoji Texnikumunu (indiki, Şirvan şəhəri) bitirib müəllim işləmişdi. Qafar müəllim təhsilini davam etdirmiş, APİ-nin ibtidai metodika fakültəsini bitirərək ali təsil almışdı. Qafar müəllim 1998-ci ildən 2016-ci ilə qədər Budaqlılar yaşayan kənd orta məktəbində müəllim işləyibdi. Hazırda təqaüdçüdür.

Qafar müəllim, molla Adilin bacısı Sahibə xanımla ailə qurub, onların Ramil, Rövşən, Emil, Gülşən adlı övladları dünyaya göz açıb.

Ramil, İlahə adlı xanımla ailə qurub, Gülnar adlı bir qızı var.

Rövşən, Təhməzli tirəsindən qan qohumu Lalə xanımla ailə qurub, Amil adlı bir oğlu var. Emil, Vüsalə xanımla ailə qurub, Səbanur adlı bir qızı var. Qafarın qızı Gülşən xanım, Ağcabədi rayon sakini Əkbərlə ailəlidir, onların Əli, Ülvi adlı iki oğlu dünyaya göz açıb.

**Sücəddin** Həsən oğlu (1956-2011), orta təhsilini Dünyamalılar kəndində almış, Sovet dövründə Rusiyada Rastov Dəmir Yol İnstitutunu bitirmişdi. Mühəndis kimi Beyləqan şəhərində əmək fəaliyyətinə başlamışdı. Sücəddin Gülsüm xanımla ailə qurmuş, onların Ceyhun və Günel adlı övladları anadan doğulmuşdu. Sücəddin 2011-cı ildə dünyasını dəyişib, "Soltanbud" kənd qəbirstanlığında dəfn olunubdu. Günel ailəlidir, bir oğlu var. Günel, APİ-nin tarix fakültəsini bitirib, müəllimədir. O, ailəsi ilə Rusiya Federasiyasında yaşayır. Sücəddinin oğlu Ceyhun Yeni ailə qurub, hələ ki, övladları yoxdu. Beyləqan şəhərində yaşayır.

**Vilayət** Həsən oğlu, 1958-ci ildə Beyləqan rayon Dünyamalılar kəndində anadan olub. Vilayət APİ-nin Filologiya fakültəsini bitirib. İnstitutu bitirdikdən sonra başqa-başqa orta məktəblərdə dil ədəbiyyat müəllimi işləmişdi. Vilayət müəllimin şahmata olan həvəsi onu Beyləqan rayon Şahmat Məktəbinə gətirdi. Onu da deyim ki, şahmat onun uşaqlıqdan məşğul olduğu peşə olub. Vilayət müəllim, Respublikanın əməkdar məşqçisi-müəllimi olmaqla şahmat üzrə Respublika dərəcəli hakimdi.

Vilayət müəllim, Beyləqan rayon "Qaradağlı" kənd sakini Aybəniz xanımla evlənib ailə qurmuş, onların Aqşin, Raul, Aynur adlı üç övladı dünyaya gəlib.

Aqşin Vilayət oğlu təzə ailə qurub, hələ ki, övladı yoxdu. Aqşin Azərbaycan İdman Akademiyasının I kursunda qiyabı təhsil alır.

Raul Vilayət oğlu, Avrasiya Universitetinin Ərəbşünaslıq fakültəsini bitirib. Raul, Gülarə adlı xanımla evlənib, Ramal adlı bir oğlu var. Raul, atası kimi şahmat həvəskarı olub, atasından lazımi səviyyədə bəhrələnə bilib və 2016-cı ildə Gürcüstanın Batumi şəhərində keçirilən 16-yaşa qədər olanlar arasında 3-cü yerin qalibi olubdu. Raul hazırda Təhsil Respublika İdman Mərkəzində şahmat üzrə baş məşqçi vəzifəsində çalışır. O, öz yetişdirmələri ilə birlikdə Albaniya, Bolqarıstan, Ruminiya, İspanya, Estoniya, Türkiyə və. sair xarici dövlətlərdə şahmat yarışında olub və Respublikamıza 30-a yaxın medal gətirmişdi. Raulun yetişdirmələrindən Raul Muxtarov dünya çempionu, Nərmin Kərimzadə, Xanım İsmayılova Avropa çempionu adını qazanıblar.

Aynur Vilayət qızı, Budaqlı tayfasından Zalov Sərdarın həyat yoldaşıdır. Onların Nuray və Səid adlı iki oğul övladı

var. Aynur xanım, APİ-nin ibtidai metodika fakültəsini bitirib, müəllimədir.

Vilayət müəllim öz uşaqlıq xatirələrini yada salıb mənimlə xeyli söhbət etdi. Onun söylədiklərindən:

- Hələ uşaq vaxtlarında hiss edirdim ki, bizim qohumlara Budaqlılar deyə müraciət edirdilər. Mən bir gün bunun səbəbini atamdan soruşdum ki, bizə niyə Budaqlılar deyirlər? Atam öz atasının adının Abdulhüseyn olduğunu, İmişli rayon Əliqulular kəndindən köçüb gəldiklərini, uşaqlıq illərində “Tək Saqqız” deyilən yerin yaxınlığında yaşadıqlarını dedi. Abdulhüseyn kişi, şair təbiətli, bədahətən şeir deyən, dəvəçiliklə məşğul olan adam olduğunu demişdi. Abdulhüseyngil ailədə dörd qardaş, bir bacısı olduğunu demişdi.

Bir dəfə Mustafa adlı bir adamın ona pul borcu olduğunu, ancaq borcu heç cürə qaytarmadığını görən Abdulhüseyn bədahətən ona bir şeir demişdi.

Hacalı oğlu peyman Mustafa,
Gönü qalınsan heyvan Mustafa.
Belinə basıblar köhnə palanı,
Hər gün üzə çıxır böhtan, yalanı.

Deyilənə görə Əliyev Hacalı Abdulhüseynin bütün şeirlərini əzbər bilirmiş. Abdulhüseyn kişi halallığı sevən, haram tikə yeməyən kişi olubdu. Abdulhüseyn kişi həmişə dəvə saxlayıb. Yeri gələndə dəvələr vasitəsilə icarə haqqı almaqla yük də daşıyıbdı.

Bir dəfə atam Həsən, uşaqlıq dövründən bizə bir xatirə danışdı:

O, deyirdi yaz vaxtı idi, obalar yavaş-yavaş yaylağa köç gedirdilər. Müəyyən məsafədə alaçıqlar qurulub qoyun sürüsünün gəlməsini gözləyirdilər. Həsən obadan xeyli aralıda olur və görür ki, bir sürü ilan gəlir. Amma ilanların çoxu yaralıdı. Atı minib çapır obaya, gördüklərini atasına danışır. Həmin dəqiqə Abdulhüseyn deyir ki, belə şeylər çox olub, ilanlar ilan müharibəsindən gəlir. Onlar qabaqlayıcı tədbirlər görür və ilanların yolu qarşısında çökəklər qazıb, ayran, südlə doldururlar. Doğrudan da ilanlar gəlib ayran, süd içib, yollarını dəyişiblər. Bu rəvayətlər Vilayət müəllimin yaddaşından qalan xatirələrdi.

**İsmayıl** Həsən oğlu, Dünyamalılar kəndində anadan olub və həmin kənddə orta məktəbi qurtarıb. İsmayıl, keçmiş sovet dövründə Saratov Dövlət Hüquq İnstitutunu bitirmiş və Saratov şəhərində vəkil kimi işə başlamışdı. İsmayıl müəllim Saratov Vilayət Vəkillər kollegiyasının üzvüdür. Hazırda Rusiya vətəndaşı olmaqla, tanınmış vəkil kimi fəaliyyət göstərir. O, Dünyamalılar kənd sakini Zenfira xanımla ailə qurub, Həsən və Roman adlı iki oğlu var.

Həsən İsmayıl oğlu, Saratov Dövlət Hüquq İnstitutunun 4-cü kurs tələbəsidir. Roman isə orta məktəb şagirdidir.

Tahirə Həsən qızı, Dünyamalılar kəndində dünyaya göz açıb, böyüyüb və əmisi oğlu Yusiflə ailə qurub, onların Pərvanə adlı bir qızı var. Pərvanə, Beyləqan rayon Bünyadlı kənd sakini Hüseynlə evlənib, Araz adlı bir oğlu var.

**Hüseyn** Abdulhüseyn oğlu, (1936-2012) Budaqlı elatında anadan olub. Hüseyn ata-baba yolunun davamçısı olmuş, həmişə heyvandarlıqla məşğul olmuşdu. Bir az cavanlığında dalaşqan olduğu üçün ona dəli Hüseyn də deyərdilər. Hü-

seyn həm də ağac çalan adam olub. O, Murtulu qızı Səkinə (1940-1996) xanımla ailə qurub, altı övladı dünyaya gəlibdi.

Oğlanları: Abdulhüseyn(Fazil), Nazim, Adil, Nadir, Rəhman, qızı: Mahirə.

Hüseyn İmişli rayon Əliqulular kəndində yaşamış və 2012-ci ildə həmin kənddə rəhmətə getmiş, Murtulu kənd qəbirstanlığında həyat yoldaşının yanında dəfn olunmuşdu. Hüseynin həyat yoldaşı Səkinə xanım 1996-cı ildə dünyasını dəyişmiş, Murtulu kənd qəbirstanlığında dəfn olunmuşdu.

Abdulhüseyn (Fazil) Hüseyn oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub. Ona babasının adı qoyulub. O, İmişli rayon Şahverdilər kənd sakini Xanımla ailə qurub, hazırda Şahverdilər kəndində yaşayır. Abdulhüseyn göründüyü kimi babasının adını yaşadır. Bu cütlüyün Aynur, Aytən, Aişən və Aytac adlı dörd qızı anadan olubdu.

Abdulhüseynin qızları, Aynur, Bərdə rayon sakini Nazimlə ailəlidir, hələki övladları yoxdu. Aytən, İlkinin həyat yoldaşıdır, Dilarə və Nəriman adlı iki övladı var. Aişən, yaşadığı kənddə Ceyhunun həyat yoldaşıdı, Elcan, Aylin adlı övladları var. İlkin N-saylı hərbi hissədə hərbiçidi. Aytac, Amil adlı oğlanla təzə ailə qurub, övladları yoxdu.

Nazim Hüseyn oğlu (1960-2020), qardaşı ilə birlikdə İmişli rayon Şahverdilər kəndində yaşamışdı. O, Şahverdilər kəndində Zöhrə xanımla evlənmiş, onların Cəlal, Babək və Jalə adlı övladları dünyaya gəlmişdi. Nazim 2020-ci ilin yanvarında yaşadığı kənddə rəhmətə getmiş və kənd qəbirstanlığında dəfn olunmuşdu.

Cəlal Hüseyn oğlu, yaşadığı kənddə Tünzalə xanımla evlənib, Hüseyn və Gülay adlı övladları var. Babək hələ ki, subaydı.

Nazimin qızı Jalə, Ramil adlı oğlanla ailəlidir, Nizam adlı bir oğlu var. Bu ailə, Rusiya vətəndaşıdır və Samara şəhərində yaşayırlar.

Adil Hüseyn oğlu, bibisi Mehrinin qızı Göyçək xanımla evlənib, Əli, Şövqiyyə, Ülviyyə, Mehriban adlı övladları var. Bu ailə İmişli rayon Boşçallar kəndində yaşayırlar.

Əli Adil oğlu, əmisi qızı Səkinə xanımla evlidir. Onların Göyçək, Ləman və Adil adlı övladları var. Burada göründüyü kimi, iki azyaşlı övladlar baba-nənəsinin adını daşıyır. Ümumiyyətlə, Budaqlı elatında ad götürmək həm əzəldən, həm də müasir zamanda dəbdədir.

Nadir Hüseyn oğlu, Əliqulular kəndində anadan olub, hazırda ata yurdunda yaşayır. Nadir, Beyləqan rayon Tatalılar kənd sakini Solmaz xanımla ailə qurubdu. Onların Nəciməddin, Aidə və Səidə adlı övladları var. Nəciməddin Sumqayıt Müəllimlər Universitetinin 3-cü kursunda təhsil alır. Nadirin qızı Səidə, Tatalılar kənd sakini Əkbərin həyat yoldaşıdı və əkiz oğlanları var.

Rəhman Hüseyn oğlu, Əliqulular kəndində anadan olub, hazırda həmin kənddə qardaşı Nadirlə qonşu yaşayır. Rəhman, Beyləqan rayon Tatalılar kənd sakini Rəsmiyyə xanımla ailəlidir, onların Rəşad və Səkinə adlı iki övladı var. Rəşad BDU-nin tarix fakültəsini bitiribdi. O, hazırda ixtisası üzrə magistratura təhsili alır.

Mahirə Hüseyn qızı Tatalılar kənd sakini Həsrət adlı oğlanla ailəlidir. Onların Abbas və Zülfiyyə adlı iki övladı dünyaya gəlibdi. Bu ailə Tatalılar kəndində yaşayır.

**Rasət Abdulhüseyn** oğlu, Budaqlı elatında anadan olub, Hacı İmamqulunun qardaşı oğludur. O, Budaqlı kolxozu birləşəndən sonra qardaşı ilə birlikdə Dünyamalılar kən-

dinə köçüb, Zülfünaz xanımla ailə qurub. Rasət təbiətcə sakit, heç kəslə işi olmayan və kolxoz işində çalışan adam olubdu. Rasətin on övladı anadan doğulub.
Oğlanları: Vilǝddin, Valeh, qızları: Sevda, Xatirə, Ülkər, Urmiyə, Gülnarə, Gülər, Dilarə, Sevinc.

Rasət kişi hazırda İmamqulular nəslinin 81 yaşlı nümayəndisi kimi Dünyamalılar kəndində yaşayır.

**Viləddin** Rasət oğlu, Dünyamalılar kəndində anadan olub. Orta məktəbi qurtardıqdan sonra sənədlərini BDU-nə verib və kitabxanaçılıq fakültəsini bitirib. Uzun müddət kolxozun komsomol təşkilatında və digər vəzifələrdə işləyibdi. Villəddin hazırda Bakı şəhərində yaşayır və şirkət işçisidir. Viləddin birinci Şahsevən kənd sakini Elza xanımla evlidir. Onların Elməddin və Elvin adlı iki oğlu var.

Elməddin Viləddin oğlunun həyat yoldaşı Şəkili qızı Yazgül xanımdır. Onların Rəsul adlı bir oğlu dünyaya gəlib.
Elvin Viləddin oğlu, ana qohumu Gülşən xanımla ailə qurub. Onların Uğur və Orxan adlı iki azyaşlı oğlu var.

**Valeh** Rasət oğlu, nənəsinin adını yaşadan qan qohumu Göyçəklə ailə qurub. Onların Şövqiyyə, Murad və Rasət adlı övladları dünyaya gəlib. Rasət kişinin demək olar ki, bütün törəmələri Dünyamalılar kəndində yaşayırlar.

Rasətin qızları: Sevda Sevindik adlı oğlanla evlidir, Samir və Səbinə adlı övladları var. Xatirə, Habillə ailəlidir, Azər adlı bir oğlu var.

Ülkər xanım Elmanın həyat yoldaşıdır, Asim, Nurlan, Türkan adında övladları var. Ülkərin oğlu Nurlan hərbiçidir. Hərbi Akademiyanı bitirib, hazırda orduda xidmət edir. Nurlan Aprel döyüşlərində iştirak edib. Ülkərin qızı Türkan XDU-nin İngilis dili fakültəsini bitirib.

Rumiyyə xanım, yaşadığı Dünyamalılar kəndində Mübarizlə evlidir. Onların iki oğlu, bir qızı var. Gülnarə Sabirlə ailə qurub, Əliyar, Aliyə, Röyalə adlı övladları var. Gülər, Rövşənlə evlidir, bir qızı və bir oğlu var. Dilarə, kəndçisi Nadirlə ailə qurub, iki oğlu, bir qızı var. Sevinc, Xəlil adlı oğlanla ailəlidir və iki qızı var.

**Abbas** Hacı İmamqulunun kiçik qardaşıdır. O, qardaşları ilə birlikdə Budaqlı elatında yaşayıblar. Abbas, Şövkət xanımla evlənib, onların Murad adlı oğlu, Cavahir adlı qızı olubdur.

Murad Abbas oğlu, əmisi Hacı İmamqulunun yeganə qızı Əntiqə xanımla ailə qurub, onların yeddi övladı dünyaya gəlib.

Oğlu: Əli Vahid, Məmməd, Elşad, Abbas, qızı: Naibə, Səkinə. Abbasın nəvə-nəticələri hazırda Beyləqan rayon Dünyamalılar kəndində yaşayırlar...



***Kəlbəcər yaylağı***

# YETİM MƏHƏMMƏD



*Məhəmməd, həyat yoldaşı Güldəstə.*

Bu ilin qış fəsli, keçən illərdən fərqli olaraq, sərt keçməsinə baxmayaraq, şaxtalı, qarlı günlər artıq arxada qalmışdır. Baharın gəlişi ilk gündən öz xoş təravətini, isti nəfəsini elat camaatının üzünə sanki, nur kimi çiləyirdi. Tərəkəmələr qazma daxmalardan çıxıb bir az aralıda alaçıqlar qurmuşdular. Qışdan çıxmış obaların sakinləri, kimi yorğan çırpır, kimi paltar yuyur, kimisi nehrə çalxayır, süd mayalayır, dələmə tuturlar, bir sözlə, yazın yeni müjdəsi el-obaya bayram əhval-ruhiyyəsi gətirmişdir.

Məhəmməd kişi hər gün olduğu kimi bu gün də səhər-səhər qoyun-quzunu əmişdirib seçdikdən sonra, ömür-gün

yoldaşı Güldəstənin süfrəyə qoyduğu nehrə yağını, təzə düzəldilmiş pendirlə bir dürmək düzəldib şirinçayla şirinçayla və sağmal qoyun sürüsünü otlaq sahəsinə otarmağa apardı. Qoyun sürüsü otlaq sahəsinə yayılıb yazın yaşıl otuna elə cəhd gəlmişdir ki, elə bil heyvan neçə gündür acıymış. Bir qoyunun başı belə yuxarı qalxmırdı. Məhəmməd kişinin obadan aralandığı heç 2-3 saat deyildi ki, diqqətini obadan çıxan bir atlı cəlb elədi. Əlini gözünün üstünə qoyub baxıb gördü ki, obadan bir atlı atlandı, atını bir başa çapa-çapa sürünün yanına gəlir. Gələn atlı ona çatıb uca səslə salam verdi.

- Ay Məhəmməd, muştuluğumu ver, oğlun oldu deməsi, onu nə qədər sevindirsə də, o qədər də ömrünün keçmişinə, keçirdiyi iztirablı, keşməkeşli həyat yollarına, ağrılı-acılı günlərinə qaytardı.

Məhəmməd kişi 1875-ci ildə elat mahalının Budaqlı tayfasında anadan olmuşdu. O, Budaqlı tayfasının Mehtilər tirəsindəndir.

Məhəmməd kişi doğulduğu gündən ata üzü görməmiş, hələ ana bətnində olarkən atası Tanrıverdi, cavan yaşında qəflətən dünyasını dəyişmişdir. Elə ilk gündən göz açıb gəldiyi dünya, yaşadığı günlər onun üzünə gülməmiş, ona həyatının qayğılı günlərini yaşatmışdır. Dayısı Ağadədənin himayəsində yaşadı Məhəmməd kişi. Tay-tuşları kimi oynamadı, sevinib-gülmədi, istədiyi kimi yeyib, içib gəzə bilmədi. Bir dəfə olsun əyninə təzə libas geyinməyən, fərəhlənə bilməyən Məhəmməd kişi, heç dünyaya nə üçün gəldiyini də başa düşmürdü. Obanın uşaqları atam gəldi deyib ata qabağına qaçanda, ata nəvazişi görəndə Məhəmməd kişi dərin fikirlərə qərq olub boynunu büküb öz yetim dünyasını yaşayırdı. Hərdən çəkilib uşaq dünyasına xəyallara dalırdı, İlahi nədir

mənim günahım, atamı əlimdən alacaqdınsa məni nə üçün yaradırdın, məni yaradırdınsa atasız qoyub ürəyimə niyə dağ çəkirdin?! Xəyal dünyasında da özünə yer tapa bilmirdi, Məhəmməd kişi.

- Ay Məhəmməd, oğlun olub deyirəm, niyə dinmirsən, elə bil bu dünyanın  xərc-xəsarətini səndən alıblar, ay kişi səndən xələt istəyirəm. Məhəmməd bir anlıq səksənib xəyaldan ayıldı.

- Bağışla, sən Allah ay Fərhad, nə edəcəyimi bilmədim bir anlıq fikirə getmişəm.

- Bax, sürüdə gördüyün o yekə qoç sənə muştuluq, nə vaxt istəsən götürə bilərsən.

- Sağ ol Məhəmməd, böyük oğlan olsun böyüdüb bəhrəsin görəsən.

- Çox sağ ol ay Fərhad, Allah sənin də balalarını xoşbəxt eləsin, sənə də bir oğul payı versin.

Fərhad tək Budaqlı tayfasında yox, Təhlə mahalının sayılan, seçilən və çox böyük nüfuza malik olan bir el ağsaqqalının, Hacı Qasımın oğlu idi. O, Hacı Qasımın qoyun sürülərinə, qaramalına, dəvə gəllahına və at ilxısına nəzarət edirdi. Hacının bütün var-dövlətinin hesabatını oğlu Fərhad aparardı. Məhəmməd kişi də elə Hacının sağmal qoyun sürüsünün birini otarardı. Onu da deyim ki, öz halallığı, zəhmətkeşliyi, düzgünlüyü ilə Məhəmməd kişi Hacı Qasımın  böyük hörmətini və rəğbətini qazanmışdır. Dəfələrlə Hacı Qasım qeyd etmişdir ki, yetim olmağına baxmayaraq, maddi cəhətdən çox şeyə ehtiyacı olduğu halda mən Məhəmməddən etibarsızlıq, əli əyrilik, oğurluq görmədim. Bu insan anadan doğulanda elə halal doğulub. Məhəmməd kişi də etiraf edirdi ki, ömrüm boyu Hacı Qasıma xidmət göstərdim, haram tikəsin

yemədim, həmişə Hacıdan hörmət, ehtiram gördüm, bir mənim yox, bütün çobanlarının, onun xidmətində duranların hamısına atalıq qayğısı göstərirdi. Hacı Qasımın kiminsə haqqını kəsdiyini eşitmədim, kiminsə nöqsanını üzünə vurmurdu, o sözünü dolayısınca çatdıra bilirdi. Biz Hacının böyüklüyünü elə onun səbrində görürdük.

Fərhad sağollaşıb getdi. Məhəmmədin sevindiyindən əl-ayağı yerə dəymirdi. Niyə də dəysin axı, o ömrünün 50-illiyində ilk dəfə olaraq artıq oğul atasıydı. Məhəmmədi xəyallar yenə keçmişinə, əzablı günlərinə qaytardı. O, yetimliyin acısını dadmış, düşəndə dərdini heç kəsə aça bilməmiş, hisslərini içində boğmağı bacarmışdı.

Məhəmməd kişi heç özü də bilmədən rəhmətlik atasının acı taleyini yaşayırdı. O, sonralardan bilmişdir ki, onun atası da körpəlikdən atadan yetim qalmışdır. Tanrıverdinin də atasının adı Məhəmməd olubdu. Məhəmməd anadan olanda, ona cavan dünyadan köçmüş babasının adını qoyublar. Dörd bacının ən kiçik tək qardaşı olan atası Tanrıverdi də öz atasının üzünü görə bilməmişdir. Çünki, o qızlardan sonra anadan doğulub və son beşik olubdur. Məhəmməd həmişə Allaha əl açıb deyərdi:

- İlahi nədir verdiyin bu dərd, yetimlik elə bizim boyumuza biçilib?!

Sonra düşünüb deyərdi:- Ey yeri-göyü yaradan böyük Allah, məsləhət sənindir, özün bilərsən.

Məhəmmədin atası Tanrıverdi rəhmətə getdikdən sonra cavan anası, bir-iki ildən sonra başqa bir kişi ilə ailə həyatı qurmuşdu. O, zamanlar dul qadınları tez ərə verirdilər, elin-obanın qınağına gəlməmək üçün, adət belə idi. Heç kəs istəməzdir ki, dul qadınlar haqqında söz-söhbət yayılsın, xoşa gəl-

məz sözlər deyilsin. Buna görə də Məhəmmədi dayısı Ağadədə öz himayəsinə götürmüş, bacısı Dursunu başqa bir mahaldan Bünyadlı tayfasından olan Məmiş kişiyə ərə vermişdi. Atadan yetim qalan Məhəmməd iki yaşından sonra demək olar ki, anadan da yetim qalmış, onun ana nənəsi Hürzad arvad min əzabla qayğısını çəkmiş, göz yaşları içərisində körpə nəvəsini qoynunda böyütmüşdür.

- Salam aleykum ay Məhəmməd, gözlərin aydın olsun, oğlun olub, oğul yox ey ay kişi, Allah sənə bir arxa, kömək göndərib. Məhəmməd yenə qulağına gələn səsə səksəndi, qarşısında hündür bədənli, qalın səsli çoban yoldaşı Firidunu gördü.

- Aleykumə salam Ay Firidun, çox sağ ol, Allah sənə də bir övlad qismət eləsin, Məşədi Gülabatın bacının qucağı uşaq görsün, evinizdən körpə səsi gəlsin. Bir neçə illər öncə ailə həyatı quran Firidunun övladı yox idi. Onun da əlləri göydə qalmışdı ki, İlahi mənim yurdumu boş qoyma, mənə rəhmin gəlsin, ocağım boş qalmasın.

- Allah ağzından eşitsin ay Məhəmməd, gecə-gündüz Allaha duaçıyam yalvarıram, nəzir deyirəm ki, bəlkə Tanrı yadına sala.

- Salar-salar ay Firidun, bu gün məni sevindirən Allahım, inşallah bir gün də səni sevindirər.

- İnşallah, dedi Firidun.

- Ay Məhəmməd, sən get evə birdən qonaq-qaran olar.

- Sağ ol ay Firidun, qoy gedim, dayım qızı da çox intizarda qalmasın.

Məhəmməd çomağını çiyninə alıb qoyun sürüsünün örüş sahəsindən obaya sarı getməyə başladı. Yol boyu yenə fikirlər onu gah dağdan arana, gah da arandan dağa aparmağa

başladı. Fikirləri hərdən haçalaşır, yaşayıb gəldiyi günləri bir-bir gözünün qənşərində canlandırır və yenə də şükür bugünkü günə deyirdi. Məhəmməd böyüsə də, ailə qursa da uşaqlıq dövrü onun xəyalından silinmək bilmirdi. O, elə bilirdi ki, atasının ölümü onun ocağının sönməsi deməkdir. O, öz uşaqlıq dünyasına sığışa bilmirdi, atasızlıq onun qəlbini dağlayır, sevinc dünyasına qovuşdura bilmirdi. Məhəmməd də istəyirdi başqaları kimi ata qucağında otursun, onun nəvazişini çəkən olsun. Məhəmməd xoşbəxt günlərini axtarırdı. Ancaq xoşbəxtliyini tapana qədər öz bədbəxtlik ömrünü yaşadı. Bəlkə də bu ömür payı onun alın yazısı idi. Amma bu alın yazıları da müxtəlif olur, birinə dəm gətirəndə, başqasına qəm gətirir, birinə xoş gün qismət edirsə digərinə göz yaşları verir. Məhəmməd kişinin bəxtinə elə göz yaşları qismət olmuşdu. Onun bu körpə, sınıq ürəyi bu acı həqiqəti görə-görə böyüyürdü. Məhəmməd də böyüdü, ancaq həyatın əzablı yollarından keçə-keçə, bir qarnı ac, bir qarnı tox. Allahına sığındı, Məhəmməd kişi. Düşüncələr içində yaşayırdı, "hər qaranlıq gecənin, bir işıqlı sabahı olar" deyib atalar. Bir gün gələr həyat mənim də üzümə gülər deyirdi Məhəmməd. Tanrı onu qorudu, atasının, babasının yarımçıq ömrünü də yaşadı Məhəmməd. O, 1875-ci ildə Budaqlı tayfasında düyaya göz açdı. Atasının üzünü görməyən Məhəmməd doxsan il ömür sürdü, oğul-qız, nəvə-nəticə sahibi oldu. Ferma itlərinin hürüşməsi onu yenə şirin xəyalından ayırdı, başını qaldırıb gördü ki, artıq bir neçə gün əvvəl, yaşıl çəmənlikdə tikdiyi alaçığın qabağındadır.

Məhəmməd kişi demək olar ki, uşaq yaşlarından əmək fəaliyyətinə başlamışdır. Onun başqa yolu da yox idi. O başa düşürdü ki, mütləq işləməli, yaxşı çalışmalı bir qarın çörək

üçün bir kimsəyə möhtac olmamalı idi. Onun yaşının az olmasına baxmayaraq, hündür boyu, yoğun biləkləri, yaşına uyğun olmayan çevikliyi ilə başqalarından fərqlənirdi. Hələ, uşaq yaşlarında Məhəmməd kişiyə quzu sürüsünü etibar edirdilər. O, işinin öhdəsindən gəlməyi bacaran, özündən yaşda böyük olanlardan heç də fərqlənməyən bir cavanıydı . On beş yaşı olan Məhəmmədə artıq qoyun sürülərini otarmağı etibar etməyə başlamışdılar. O, özünü artıq cavanlar sırasında görürdü, ancaq başqaları kimi ona nə sevmək, nə də ki, sevilmək qismət olmamışdır. Onu himayəsində saxlayan dayısı Ağadədə kişi günlərin birində quldurlar tərəfindən güllələnib öldürüldü.

Ağadədə mahalda qoçaqlığı ilə, yüksək atıcılıq qabiliyyəti ilə seçilən igid kişilərdən biri idi. Onun ulu babası Ağadədə, Şuşadan Mehdiqulu xanın nəslindəndir. Ağadədənin atası Yahya, bəy oğlu olub. Yahya Budaqlı elatından evlənib və sonralar da bu tayfanın içərisində yaşayıbdır. O zamanlar Cənubi Azərbaycandan quldur dəstələri Araz çayını keçərək Mil, Aran Qarabağ torpaqlarına dəstə halında tez-tez hücum çəkib, köçəri tayfaların qoyun sürülərini, qaramal, dəvələrini çapıb, talayıb aparırdılar. Bu kimi hallar həmişə fəslin yaz və payız aylarında baş verirdi ki, bu da köçəri tayfalarının yaylağa köçməsi və yaxud yaylaqdan geri dönməsi ərəfələrində baş verirdi. Ağadədə kişi də bu anların birinin qurbanı olmuşdur. İrandan keçən quldur dəstəsi Qızıl Qaya istiqamətində yaylağa köç gedən Hacı Qasımın qoyun sürüsünə Yelli Gədiyində basqın etmiş iyirmi atlıya qarşı müqavimət göstərmişdir. Özünə düzgün səngər seçən Ağadədə kişi son gülləsinə qədər quldurlarla atışmış, qarşı tərəfdən bir nəfəri öldürmüşdür. Gülləsi qurtaran Ağadədə kişini quldurlar mü-

hasirəyə almış və hər quldur ona bir güllə vurmuşdur. Quldurların başçısı orada demişdi:



***Məhəmməd kişinin nəvə, nəticələri.***

- Belə igidi öldürməzdik, əgər onun öldürdüyü oğlan, doqquz bacının bir qardaşı olmasaydı.

Həyata bir cavan oğlan kimi yenicə müstəqil addım atmaq istəyən Məhəmməd kişinin dərdinin üstünə fələk bir dərd də yüklədi. Bir tərəfdən dayısının faciəli ölümü onu çox sarsıtsa da, onu arxasız, köməksiz qoysa da digər tərəfdən onun igidliyi, qorxmazlığı ilə həmişə fəxr etdi, öyündü Məhəmməd kişi. Dayısının da ailə yükü, üç qızı, bir oğlu onun himayəsində qalmışdır...

Alaçığın qabağında samovar qaynayır, ocaq üstə asılmış qazanda nə isə qaynadırlar, evdən bir az kənarda yaşıl otun üstündə salınmış xalçaların üzərinə xırda döşəkçələr düzül-

müşdür. Gəlinlər, qızlar deyib gülür, hərəsi bir iş görür, bir sözlə obada bayram şənliyi canlanırdı.

Məhəmməd istədi alaçığa girsin yeni doğulmuş körpəsinin üzünü görsün, dayısı qızı Güldəstəyə ehtiram göstərsin, başını yuxarı qaldıranda bir az aralıda salınmış xalçanın üstündə oturub mütəkkəyə dirsəklənmiş Hacı Qasım ağanı gördü. Tərəkəmə camaatının el ağsaqqalına, ağbirçəyinə həmişə böyük hörməti olub, onun yolunu gətiriblər. Heç vaxt qadınlar, kişilər ağsaqqal yanında qucağına uşaq götürməz, uşağın üzündən öpməzdilər. Gəlinlər yaşmaq vurardılar. Hacı Qasım da dünyanı görə-görə gəlmiş, elinin, tayfasının qeyrətini çəkmiş, onun ağır yükünü öz çiyinlərində gəzdirən el ağsaqqalı idi. Alaçığın yan çadırının bir tərəfini qaldırmışdılar ki, günəşin işığı içəri düşsün, alaçıq havalansın. Məhəmməd kişinin gözləri içəridə həyat yoldaşı Güldəstənin gözlərinə sataşdı və bu baxışla ürəyinin hisslərini xanımına ötürə bildi. O dönüb Hacıya doğru getdi. Hacı Qasım yerindən qalxıb:

- Ay Məhəmməd, təbrik edirəm, gözün aydın olsun, bayram günündə bu körpə elimizə, obamıza sevinc gətirdi. Baxırsanmı, hamı deyib-gülür, maşallah, Allah saxlasın. Daha bu gündən sonra özünü yetim sayma ha, bu oğul böyüyəcək sənin də obamızın da adına layiq oğul olacaq. Bu təzə kişiyə də bir maya dəvə bağışlayıram. Qədəmləri uğurlu olsun. Uşaqlara tapşırmışam bax bu çəmənlikdə bir böyük süfrə açsınlar, qonaqlığı da mən özüm verəcəm. İstəyirəm bu gün hamı şənlik eləsin, sənin sağ əlin olmayanların başına. Ətrafda olanlar hamısı bir ağızdan dedilər

- Amin!

- Sən də buyur əyləş mənim yanımda ay Məhəmməd, sən artıq bu gündən oğul atasısan.

Hacı Qasım Hacılar tayfasında yüksək mal-mülkə sahib olan bir mülkədar idi. Hacı Qasımın səxavətinə, möminliyinə dünyagörüşlü olmasına, hər kəsin öz yerini bilən ağsaqqal olduğuna görə Məhəmməd kişi ona pənah gətirmişdi. O heç zaman yetimlərin qəlbin sındırmaz, onların üzərindən öz atalıq qayğısını əsirgəməz və deyərdi ki, yetimlər biz mülkədarlara, dindarlara Allahın əmanətidir.

Məhəmməd kişi bir az qəhərlənərək Hacı Qasıma öz təşəkkürünü bildirdi:

- Hacı, Allah sizə uzun ömür versin, elimizdən, başımızın üstündən əskik olmayasınız. Siz onsuz da həmişə kasıblara, yoxsullara arxa durmusunuz. Çobanlara, naxırçılara başqa xidmət göstərənlərə hər zaman dəstək olmusunuz, heç kəsi bir dəfə də olsun darda qoymamısınız, bugünkü güzəranımız da elə sizin sayənizdədir.

Məhəmməd kişi çox gec ailə qurub evlənmişdir. O ailə həyatı quranda təxminən qırx beş yaşından yuxarı idi. Bir gün el ağsaqqalları, el ağbirçəkləri bir yerə toplaşıb məsləhət edib qərara gəldilər ki, elə öz dayısı qızı Güldəstəni Məhəmmədə alsınlar, başsız qalan ailəni də başına yığıb dolandırsın. Bilirdilər ki, onsuz da bu ailənin də ağırlığı Məhəmməd kişinin üzərinə düşür. Onun alın yazısı nə qədər acı olsa da əzab çəkdi, zülmə qatlaşdı, ancaq sarsılmadı. Dayısının qalan iki qız balasını himayəsində böyütdü. Dayısı qızı Tavadı Məmmədalıya ərə verdi. Məmmədalı həm də Tavadın xalası oğluydu. Kiçik qız Afayadı ögey qardaşı Həsrətə el adəti ilə toy edib ərə verdi. Dayısı Ağadədənin bir oğlu Rəsulu da evləndirdi, ona Veysəlli camaatından Kazım bəyin qızı Durna xa-

nımı aldı. Onları ev elədi, öz böyüklük borcunu yerinə yetirdi. Onun həyatının ağır günləri artıq geridə qalmışdır. Məhəmməd kişi demək olar ki, Ağadədənin yoxluğunu, onun övladlarına yük etmədi. Onların qayğılarını həmişə öz çiynində daşıdı, Məhəmməd kişi. Artıq Məhəmməd kişinin evindən uşaq səsi gəlir, həyatı canlanır, üzü gülür, bu ilki bahar artıq ona xoş müjdəsini vermişdir. Ancaq uşağın hələlik adı qoyulmamışdır. O, zamanlar təzə doğulan uşağın adını ağsaqqallar, ağbirçəklər qoyardı. Budaqlı tayfasının çox hörmətlə sayılan, el anası, ağbirçəyi Məşədi Bəyaz idi. O, bir gün Məhəmmədin alaçıq evinə qədəm qoydu və hal-əhval tutandan sonra dedi:

- Ay Güldəstə, bu uşağa ad qoymaq lazımdır, oğul gərək öz adıyla böyüsün.

- Ay Bəyaz bacı, sən bilən məsləhətdir, elimizin obamızın ağbirçəyi yol göstərəni sənsən, necə deyirsən elə də olsun deyib, Güldəstə başını aşağı tikdi.

- Çox sağ ol, ay gəlin, üzün ağ olsun, sizin hamınızdan çox razıyam, həmişə yolumu gətirmisiniz, hörmətimi saxlamısınız.

- Ay gəlin, belə bir atalar sözü var: -“ağsaqqal, ağbirçək yolunu gətirənlər öz gələcəyinin təməlini qoyar”.

- Sağ ol Bəyaz bacı, həmişə bizə dəstək olmusan, bir mənim yox ey, bütün el-obanın nənəsisən. Allah sənə uzun ömür versin, səni eldən əskik eləməsin.

- Yaxşı özünüz bir ad seçmisiniz?
- Yox, ay bacı, ayıb olar siz olan yerdə.
- İstəyirəm uşağa elə babasının adını qoyam.
- Nə deyirəm, ay bacı, Allah səndən razı olsun,

- Adını mən verdim, ömrünü Allah versin deyib, Məşədi Bəyaz alaçıqdan çıxdı.
Beləliklə, uşağa həyatdan vaxtsız köçmüş babasının adı qoyuldu. Oğlanın adını qoydular Tanrıverdi. Ad qoyma münasibətilə qonaqlıq verildi və hər kəs öz xeyir-duasını verib getdi.

Tərəkəmə tayfaları köçəri həyat sürürdülər. Onlar yayda yaylağa, qışda işə qışlağa dönərdilər. İllər eynilə təkrar olunur, günlər bir-birini qovur, aylar keçir, dəyişən yalnız vaxt, zaman, ömürdən azalan günlər olur. Zaman öz hökmündə qalır, onu cilovlayıb saxlamaq mümkün olmadığı kimi Tanrının hökmünə də qarışmaq olmur. Məhəmməd kişinin gec evlənməsinə baxmayaraq, onun yeganə arzusu, istəyi o idi ki, övladları çox olsun. Soruşandaki:

- Ay Məhəmməd, neynirsən çox uşağı? Fikirləşmədən deyirdi:

- Təkliyin əlinin suyunu görmüşəm, yetimliyin nə olduğunu görmüşəm, çox uşağın ziyanı yoxdur. Uşaqlar tək mənə yox, elə özləri də bir-birinə arxa olacaqlar.

Məhəmməd kişi bu ağrıları görmüşdü, onun doğma nə qardaşı, nə bacısı, nə də əmisi yox idi. Tanrı ona öz səxavətini əsirgəmədi, onun ardıcıl olaraq beş oğlu, üç qızı oldu. Hamısını böyüdə bildi. Oğlanları onun ümidini doğrulda bilib, atalarının yolun layiqincə gətirə bildilər. Həmişə deyərdi mənim oğlanlarım, qızlarım çalışın övladınız çox olsun. Uşaqlar sizə ziyan gətirməyəcək. Düşməniniz olmasın, olsa belə, sizin çoxluğunuzu görüb üstünüzə gələ bilməyəcək.

Məhəmməd kişi işində məsuliyyətli idi, yalan danışmadığı, haram tikə yemədiyi üçün Hacı Qasım onu baş çoban tə-

yin etmişdi. Məhəmmədin oğlundan sonra ardıcıl üç qızı olmuşdu. Safa, Tükəz və Rəfiqə. Çoban yoldaşları deyəndə ki:

- Ay Məhəmməd, bu nə işdi evdə qızların sayı çoxalır.

Məhəmməd isə gülüb deyərdi:

- Ay kişilər, bunlar qız deyil ey, Allaha qurban olum, bunlar qızıldı başımdan tökür. Yaşlı adamlar həmişə söhbət arası belə deyərdilər:

- Ata-anaya qız lazımdı, heç olmasa öləndə bizi doyunca ağlar.

Məhəmməd kişi balaca qızı çox əzizləyib deyərdi:

- Balama qurban olum, ayağı düşərli oldu, özündən sonra anadan dörd qardaşı doğuldu.

Daha ona yetim Məhəmməd deyənlər də yoxuydu. Ardıcıl üç qızdan sonra onun oğlanları dünyaya gəldi. Məhəmmədin ailəsinin güzəranı zaman-zaman yaxşılığa doğru getməkdəydi. Məhəmməd kişinin ikinci oğlu dünyaya gəldi. Onun adını Xudaverdi qoydular. Artıq demək olarki hər yerdə kolxozlar qurulmuşdu. İnsanların hüquq bərabərliyi yaşanırdı. Məhəmməd kişini kolxozun qoyun sürüsünə briqadir qoymuşdular. Hər şey dövlətin, hökumətin ixtiyarındaydı. Elə ki insanların güzəranı yaxşılaşırdı, müharibə başladı. Məhəmməd kişinin yaşı çox olduğu üçün II dünya Müharibəsinə aparmadılar. Amma, arxa cəbhədə qalanlar beş adamın yerinə işləyirdilər. Cavanlar müharibəyə getmişdi, işçi qüvvəsi azalırdı. Buna baxmayaraq, arxa cəbhədə qalanlar yorulmadan çalışırdılar. Məhəmməd kişi ən ağır işləri gördüyü kimi, həm də yaxşı yeyən kişiydi. O, bir oturuma bir quzunun yarım şaqqasını yeyə bilirdi. Onun iki litr tutan bir mis qavlaması varıydı. Bu qavlamada Məhəmməd kişi qatıq-süd doğraması ilə yanaşı, təzə əridilmiş yağ doğraması yediyinin şahidi olmu-

şam. Məhəmməd kişi mənim babamdı. Onunla oturub-durmaq, əlindən tutub gəzmək mənə qismət oldu. Mən babamın ən çox sevdiyi nəvələrdən biri ola bildim.



**Yuxarı soldan Hacıalılar Əsədulla, Məhəmmədin** ***oğlanları Tofiq, Xudaverdi, aşağıdan Böyükağa, Məhəmmədin baldızı oğlu İngilis, bacısı oğlu Azay.***

Müharibədən iki il keçmişdi ki, 1943-cü ildə Məhəmməd kişinin əkiz oğlanları anadan doğuldu. Uşaqların birinin adını Əliağa, digərinin adını isə Böyükağa qoydular. Məhəm-

məd kişi bir erkək qurban kəsib camaata payladı. Sevinə-sevinə həyat yoldaşı Güldəstəyə dedi:

- Ay arvad, Allahın başına dönüm, bir yandan alanda, bir yandan da verəndi.

Atamın üzünü görməsəm də bu oğullarımı mənə qol-qanad verdi, arxa göndərdi.

Güldəstə körpələrini əmizdirib, iki çubuğa bağlanmış kəndirin üzərinə adyal atıb hər başına bir ağac qırığı taxıb yüyrük düzəltdi. Körpələri ayaq-baş yüyrüyə qoyub yelləməyə başladı və dedi:

- Ay kişi, Allahın səbri gendi, heç kəsi darda qoymayıb, sən ürəyini düz saxla, Allah səni heç zaman darda qoymaz.

- Ay dayıqızı, mən həmişə Allahıma sığınmışam. Doğrusu heç Allahdan başqa ayrı kimsəm də olmayıb.

-



*Məhəmmədin ekiz oğlanları Əliağa, Böyükağa*

Onlar bir az söhbətləşdilər, keçən günlərini yadlarına saldılar. Həyatda yaxşı insanlara, həyatdan köçüb gedənlərə dua oxudular. Əkizlər beşikdə mışıl-mışıl yatır, Məhəmmədlə Güldəstə onlara baxıb fərəhlənirdilər. Güldəstə heç vaxt həyat yoldaşının adını dilinə gətirməzdi. Nədənsə çoxları beləydi, sanki həyat yoldaşlarından ya utanırdılar, ya da ki, böyüklərdən həya edirdilər. Güldəstə yenə üzünü tutub Məhəmmədə:

- Ay kişi, Allah imkan versin bu uşaqları böyüdüb bir yana çıxarda bilək.

- Ay arvad, bəlkə demək istəyirsən ki, daha uşaq bəsdi, hələ həyatımız bundan sonra üzümüzə güləcək.

- Ay kişi, oğuldan oğlun var, qızdan da qızın, yaşın da az deyil, özünü cavan oğlan kimi göstərirsən.

Məhəmməd kişi qəzetdən səliqə ilə kəsib qatladığı kağız parçasının birini sığallayıb, yan cibindən tənbəki torbasını çıxardı və bir bükümlük tütünü qəzetə büküb eşmə düzəltdi. Yanan ocağın altından köz götürüb eşməsini yandırdı və bığ altı gülümsünüb dedi:

- Ay arvad, hələ mənim yetmiş yaşım yoxdu, mənə nə olub axı.

- Demirəm ki, bir şey olub ey, amma cavan da deyilsən ay kişi.

- Ay Güldəstə, Vallah müharibə qurtarmasa mən də qurtaran deyiləm. Vətən üçün oğul böyütmək lazımdı.

Güldəstə, Məhəmməd kişidən xeyli kiçik olsada, öz həyat yoldaşına dəstək ola bilirdi. Həm öz ailəsinə, həm də bacı, qardaşlarının böyüməsində böyük zəhməti olmuşdu. Güldəstə ailə canlı olmaqla böyük, kiçik yerini bilən, qohum-qonşunun köməyinə çatan xanım idi. O hələ körpəlikdən ev



*Məhəmməd kişinin oğlu Tanrıverdi, qızı Rəfiqə, nəvə və nəticələri.*

işlərinə alışmışdı. Onun əlindən gəlməyən iş yoxuydu. Güldəstə evdarlıqla yanaşı təbabəti yaxşı bilirdi. Anası ona çox şey öyrədə bilmişdi. Boğaz ağrısı, qızılca, sətəlcəm olanları çox asanlıqla sağalda bilirdi. Güldəstə el arasında mamaça kimi tanınmış xanım idi. Yaylaq vaxtı və yaxud qışlaq dövründə doğulan uşaqların çoxunu o tutardı. Yaz ayları olanda onun yanına gəlib qan aldıranlar adamların sayı, hesabı olmazdı. Güldəstənin övladları və nəvələri həkim tanımazdılar. Ailədə kim xəstələnsə müalicəsini Güldəstə özü edərdi.

Güldəstə xanım mənim nənəm idi. Mən göy öskürək, çiçək xəstəliyinə tutulmuşam, ancaq həkimə aparmayıblar. Bu xəstəlikdən məni məhz nənəm sağaldıb. Nənəmin bir çantası var

idi. O çanta otlarla, yağlar və məlhəmlərlə dolu olardı. Yadımdadı demək olar ki, nənəmin arxasınca hər gün adam gəlirdi. Onu xəstə yanına aparırdılar və yaxud yanına xəstə gətirərdilər. Güldəstə nənəm bu işləri təmənnasız görərdi. Gördüyü işlərin müqabilində haqq ummazdı. Elat tayfasında Güldəstənin həm ağbirçək kimi, həm də təbib kimi böyük hörməti olubdu. Hərdən Məhəmməd kişi deyərdi:



***Məhəmmədin oğlanları: soldan: Əliağa, Böyükağa, nəvələri Elşad, Davud, Nizami.***

- Ay dayıqızı, bu peşəndən əl çək, ailə-uşağına bax, ora, bura çox getmə.

O isə deyərdi:

- Ay kişi, çölçülükdü, həkim yoxdu, bu camaatı da başa düşmək lazımdı. Heç kəs əlindən gələni eldən-obadan əsirgəməz. Təbiblik mənə Allah-Təla tərəfindən verilib. Mənim

əlimdən gələni qohumdan, qonşudan əsirgəməyə haqqım yoxdu.

- Ay arvad bir az qorxuram ey, birdən peşmançılıq olar.

- Ay kişi heç nə olmaz, Allahı çağırıb işimi görürəm. İnşallah bu günə qədər əlimdən xəta çıxmayıb, heç çıxmayacaq da. Güldəstə xanım həm mehriban, həm də zəhimli arvad idi. Onun sözünü nə övladları, nə də gəlinləri qaytara bilməzdi. Sözünü bir dəfə deyən adam olub. Güldəstə xanım, namaz qılan, oruc tutan ibadət əhli olubdu. O qoymazdır ki, evə haram tikə girsin.

Yenə həyat Məhəmməd kişi deyən kimi oldu, zaman keçdi əkizlər yeriməyə başladılar, böyüdülər. II Dünya Müharibəsinin ağır günləri arxada qaldı. Sovet İttifaqının Faşizmi üzərində qələbəsinin sevinci demək olar ki, Məhəmməd kişinin sevinci ilə üst-üstə düşdü. Müharibə bir ay idi qurtardığı, Məhəmmədin bir oğlu da anadan doğuldu, onun adını Tofiq qoydular. Tofiq həm də Məhəmməd kişinin son beşiyi oldu.

II Dünya Müharibəsinin başa çatması Azərbaycanın bütün bölgələri kimi Muğan çölünə də xoş əhval-ruhiyyə gətirmişdi. İnsanlar bir-birini muştuluqlayır, müharibəyə gedənlərin sağ-salamat qayıtmasını arzulayırdılar. Elat tayfalarından müharibəyə gedənlərin sayı çox idi.

Məhəmməd kişi uzun müddət yanında işlədiyi, onun xüsusi etimadını qazandığı Hacı Qasımın oğlu Fərhadın kiçik qızı Münəvvər xanımı (1933-1973) el adəti ilə toy edib oğlu Tanrıverdiyə (1925-1988) gəlin gətirdi. Həmin vaxt Fərhad Budaqlı kolxozunun sədri işləyirdi. Müharibədən sonra insanların üzü gülürdü. Elat camaatı yaylağa köçmüşdü. “Murad Təpə” yaylağında, “Daş körpü” adlanan yurdda Məhəmməd kişi

böyük oğlu Tanrıverdiyə iki gün toy çaldırdı, evinə gəlin gətirdi. Bu gəlin onun ailəsinə gələn birinci gəliniydi.



*Tanrıverdi, həyat yoldaşı Münəvvər.*

O zamanlar Göyçə mahalında tanınmış aşıq Qoşunalı, öz dəstəsi ilə toy məclisini aparmışdı. Aşıq Qoşunalı məşhur zurna çalan idi. Toy başlayır, aşıq Qoşunalı görür ki, qoyun sürüsü dağın döşünə otlağa, yayılıb şirin-şirin otlayır. Aşıq Qoşunalı deyir:

- Şahlar, o gördüyün qoyun sürüsünü qara zurnada arxaca endirsəm nə verərsən?

Şahlar Budaqlı tayfasında sayılan adamlardan idi. O, ferma müdiri, həm də təzə gəlinin dayısıydı. Şahlar dedi:

- Aşıq, sürünü arxaca endirə bilsən, ürəyin istəyən heyvanı sürüdən tuta bilərsən.

Aşıq Qoşunalı doğrudan da qara zurnada bir hava çalıb bütün sürünü arxaca gətirə bilib. Həmin qoyun sürüsü Məhəmməd kişinin qoyun sürüsüydü. Aşıq Qoşunalı deyib:

- Şahlar, sözün varmı?

- Qoşunalı, kişinin sözü bir olar, bəyəndiyin heyvanı göstər tutsunlar nişana vur, toydan sonra gedəndə apararsan.

Belə də olur, toy adamları aşıq Qoşunalının bu məharətinə əhsən deyib ənam veriblər.



***I cərgədə ortada Tanrıverdi, solunda bacısı Rəfiqə, sağda qızı Şəkura, yuxarı cərgədən sağdan qızı Kubra, oğlu Vaqif, gəlinləri Ağgül, Ramilə.***

Tanrıverdinin beş oğlu, beş qızı anadan olub.
Oğlanları: Vaqif, Raquf, Məmməd, Ramil, Şahin, qızları: Zenfira, Kubra, Şəkura, Rəbiyyə, Yadigar.
Qızlardan ikisi Rəbiyyə və Yadigar körpə yaşında rəhmətə getmişdi. Tanrıverdinin böyük qızı Zenfira Tuğ kəndində, ən

kiçik qızı Şəkura xanım Füzuli şəhərində yaşayırdılar. Qalan övladları Beyləqan şəhərində yaşayırlar. Tanrıverdinin ilk övladı qız oldu, Zenfira. Məhəmməd kişinin qızlarının üçü də ərə getmişdi. Evdə qız qalmadığına görə Məhəmməd və Güldəstə ilk nəvələrini özləri saxladı, doğma qızları kimi böyütdülər. Zenfiranı gəlin köçürəndə belə, öz evlərindən yola saldılar. Zenfiranın əmiləri ona bacı kimi baxırdılar. Məhəmməd kişinin nəvələri artdıqca onun sevinci, fərəhi də artırdı.

Tanrıverdinin həyat yoldaşı Münəvvər xanım, 03.09.1973-cü ildə İmişli rayon Əliqulular kəndində, qırx yaşında dünyasını dəyişdi. Münəvvər "Ənbərə" qəbirstanlığında qaynanəsi Güldəstənin qəbri yanında dəfn olunub. Tanrıverdi isə 1988-ci ilin fevralın 17-də, Beyləqan şəhərində rəhmətə gedib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdur.

**Vaqif** Tanrıverdinin böyük oğludur. O, 1953-cü ildə İmişli rayon Əliqulular kəndində anadan olub. Vaqif ailəsi ilə birlikdə 1975-ci ildə İmişlidən indiki Budaqlılar kəndinə köçənlərdən biridir. O, atasının dayısı Rəsul kişinin qızı Ağgül xanımla ailə qurubdu. Vaqif 1985-ci ildə Füzuli şəhərinə köçüb, Füzulinin işğalına qədər orada yaşamışdı. Vaqif 1992-ci ildən etibarən məcburi köçkün kimi Beyləqan şəhərində yaşayır. Onların Samir, Rəşad adlı oğlu və Nahidə adlı bir qızı var.

Samir Vaqif oğlu dayısı İmamverdinin nəvəsi Aygün xanımla ailə qurub, onların Asim adlı oğlu, Aytac, Dürrə adlı iki qızı anadan olubdu.

Rəşad Vaqif oğlu ana qohumu Gülnar xanımla ailə qurub, onların Münəvvər və Miramin adlı iki övladı var. Rəşad hazırda Bakı şəhərində yaşayır. Nahidə, Füzuli rayon Veysəlli kənd sakini Ələkbərlə ailə qurub, onların Sevgi, Nuranə,

Damla adlı üç qız övladı dünyaya göz açıb. Nahidə hal-hazırda ailəsi ilə birlikdə Füzuli rayon Qayıdış qəsəbəsində məskunlaşıbdır.



*Tanrıverdinin nəvə və nəticələri.*




*Məhəmməd kişinin nəvə, nəticələri, toy şəkili.*

**Raquf Budaqlı** Tanrıverdinin ikinci oğludu, 15.08.1957-ci ildə İmişli rayon Əliqulular kəndində anadan olub. Əliqulular kənd orta məktəbini bitirib.

1980-cı ildə Şuşa Kənd Təsərrüfatı Texnikumunu, 1990-ci ildə Politexnik İnstitutunu qurtarıbdı. Raquf, Zəngilan rayon Malatkeşin kəndində tanınmış ağsaqqal Sadıq kişinin qızı Ramilə xanımla ailə qurub. O, əmək fəaliyyətinə 1980-cildə Beyləqan şəhərində başlayıb. Kənd təsərrüfatı sahəsində, Texniki peşə məktəbində, Kapital Bankda müxtəlif vəzifələrdə çalışmışdı. Raquf Budaqlı şair-publisistdir, dörd kitabın müəllifi, AYB-nin üzvü, AYB-nin Beyləqan bölməsinin sədr müavini, "Novator" qəzetinin baş redaktoru və Prezident təqaüdçüsüdür.

Raquf Budaqlının iki oğlu, bir qızı var.

Oğlanları: Pərviz, Rahil, qızı Pərvanə.

**Tarverdiyev Pərviz** Raquf oğlu, 20.03.1983-cü ildə Beyləqan şəhərində anadan olub,



Beyləqan şəhər 3 saylı orta məktəbini bitirib, 2001-2002-ci illərdə hərbi xidmətdə olub, 2003-cü ildə DİO-da polis sıralarına qəbul olunaraq, Zəngilan rayon polis şöbəsində polis nəfəri kimi işə başlayıb, 2009-cü ildə Azərbaycan Respublikası DİN-nin Polis Akademiyasına daxil olub, 13.03.2013-cü ildə polis zabiti kimi DİN-nin Xocavənd rayon polis şöbəsində əmək fəaliyyətini davam etdirmişdi. 2016-cı ildən eti-

barən DİN-nin Beyləqan rayon polis şöbəsində İTB-də sahə rəisi vəzifəsində çalışır.

Pərviz bibisi Şəkuranın qızı Günel xanımla ailə qurub, onların Ramal adlı bir oğlu, Gültəkin və Səma adlı iki qızı var. Pərvizin qızı Gültəkin xanım, Azərbaycan Dillər Universitetinin İngilis dili fakültəsinin II kursunda təhsil alır. Pərviz, ailəsi ilə birlikdə Beyləqan şəhərində atası ilə bir ailədə yaşayır.

**Rahil** Raquf oğlu, 1985-ci ildə Beyləqan şəhərində doğulub və 3 saylı orta məktəbin məzunu olubdu. Rahil Beynəlxalq Universitetin İqtisadiyyatın hüquqi tənzimlənməsi fakültəsini bitirib, iqtisadçıdır. O hazırda Bank olmayan Kredit təşkilatında çalışır. Rahil, əmisi Məmmədin qızı İlahə xanımla ailəlidir.

**Pərvanə** Raquf qızı, atasının dayısı oğlu Yaşarla evlənib, onların bir oğlu, iki qızı var.



***Məhəmmədin nəvəsi Zenfira, solunda oğlu Azər, sağında qardaşı Məmməd.***

**Məmməd** Tanrıverdi oğlu ailənin üçüncü oğludur. Məhəmməd kişi öz sağlığında böyük oğlu Tanrıverdinin üçüncü oğluna öz adını qoymuşdu. Babasının adını daşıyan Məhəmməd, babası Məhəmmədin nəvazişi ilə böyüdü, onun etimadını doğrulda bildi. Nəvə Məhəmməd hazırda Beyləqan şəhərində yaşayır, Zərifə xanımla ailə qurubdu. Onların bir oğlu və bir qızı var. Oğlu Sənan Azərbaycan Kooperasiya Universitetinin maliyyə kredit fakültəsini bitirib, iqtisadçıdır. O, hazırda Bank olmayan Kredit təşkilatında çalışır. Yaxın qohumu Rövşən Budağın qızı Süsən xanımla evlidir, bir oğlu Səid, bir qızı Sona dünyaya göz açıb. Mamedin qızı İlahə xanım əmisi Raquf Budaqlının kiçik oğlu Rahilin həyat yoldaşıdır. Məhəmməd hazırda Beyləqan şəhərində yaşayır.

**Ramil** (Ramiz) Tanrıverdi oğlu, 1964-cü ildə İmişli rayon Əliqulular kəndində anadan olub. Orta təhsilini Beyləqan rayon "Şərq" qəsəbəsində başa vurub. O, bibisi Safanın qızı Nazənim xanımla evlənib, ailə qurub. Onların Rəvan, Yaməddin.

Rəvan Ramil oğlu, Arzu xanımla ailə qurub, onların Rabil, Aysun adlı iki övladı var. Ülvi və Yaməddin hələ ki, subaydırlar.

Ülvi adlı oğlu, Aişən adlı bir qızı var. Ramil ailəlikcə Beyləqan şəhərində yaşayır, sürücü işləyir.

**Şahin** Tanrıverdi oğlu, ailənin kiçik oğludur, ata qohumu Nəzakət xanımla ailə qurub. Onların Emil, Sahilə və Sənarə adlı övladları anadan doğulubdu. Sahilə, Aşıqlı tayfasından Azər adlı oğlanla ailə qurub. Onların Əli adlı oğlu, Məhbubə adlı qız övladı var. Sahilənin həyat yoldaşı Azər hərbi qulluqçudur. Sənarə, öz xalası oğlu Rahiblə ailəlidir, Xədicə adlı bir qızı var.

Şahin orta ixtisaslı inşaat mühəndisidir, hazırda “N” saylı hərbi hissədə çalışır. Emil Şahin oğlu hərbiçidi, Müddətdən artıq hərbi xidmətdə çalışır subaydı. Emil  Qarabağ müharibəsində ön cəbhədə döyüşmüş və Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlının alınmasında iştirak edib.



*Raquf Budaqlının ailə üzvləri*



*Məhəmmədin nəvəsi Şahinin toy şəkilindən.*

Məhəmməd kişi savadsız olsa da həmişə müdrik, savadlı insanların əhatəsində olmuşdu. Çoban olmasına baxmayaraq, insanlığı, saflığı hər şeydən üstün tutardı. Buna görə də onun bəylərin, Hacıların yanında hörməti varıydı. Ömrü boyu halallıq onun həyat meyarı oldu. Övladlarına da bu yolu tutmasını deyərdi. Məhəmməd kişinin oğlanları böyüdükcə onlara toy elədi, evləndirdi başqa-başqa tirələrdən gəlinlər gətirdi. O, həmişə övladlarına tövsiyə edərdi:

- Ey mənim övladlarım, olanları keçmişdə qoymasan, gələcəyə bir adım belə ata bilməzsən.

**Xudaverdi** Məhəmməd oğlu (1939-2016), Budaqlı tayfasında anadan olubdu. O, böyüdükcə atasına kömək etmiş, ömrü boyu dədə-babasının yolunu gedərək heyvandarlıqla məşğul olmuşdu. Məhəmməd kişi sağlığında Xudaverdini Murtulu tayfasından Nuruş kişinin qızı Ballı (1948-2020) xanımla evləndirmiş, "Murad Təpə" yaylağında onlara toy çaldırmış, el ağsaqqallarının xeyir-duasıyla evinə bir gəlin də gətirmişdi. Məhəmməd kişi sağlığında nəvələrini görə bildi. Xudaverdinin beş oğlu, dörd qızı oldu:

Oğlanları: Elşad, Ərşad, Mübariz, Etibar, Ehtiram.

Qızları, Sahibə, Əkula, Nazilə, Nazimə.



*Xudaverdi, həyat yoldaşı Ballı, oğlu Ərşad*

**Elşad** Xudaverdi oğlu, ailənin böyük oğludur. Elşad, Beyləqan rayon Bünyadlı kənd sakini Səadət xanımla ailə qurubdu. Onların Müşfiq, Xudaverdi və Elşən adlı üç oğul övladı dünyaya göz açıb. Ailənin hamısı Beyləqan şəhərində ya-

şayır. Elşadın böyük oğlu Müşfiq, bibisi Sahibənin qızı Sahilə xanımla evlənib, Ömər və Müşfiqə adlı iki övladı var. Müşfiq hərbiçidi, tibbi təhsil alıb və ixtisası üzrə çalışır.

Xudaverdi Elşad oğlu, Fidan adlı xanımla təzə ailə qurubdu. O, hərbiçidir "N" saylı hərbi hissədə xidmət edir. Elşən subaydı. Elşadın övladları Müşfiq və Xudaverdi bir hərbiçi olaraq II Qarabağ Müharibəsi başlandığı gündən müharibəyə qatılmış, torpaqlarımızın işğaldan azad olunmasında fəal iştirak etmişdirlər. Xudaverdi Şuşanın alınmasında döyüşmüşdü.

**Ərşad** Xudaverdi oğlu, Budaqlı ziyalılarındandır, iki ali təhsil alıb. O, həm hüquqşünas, həm də mühəndisdir. Ərşad, 1992-ci ildə Mahaçqala Dövlət Universitetinin hüquq fakültəsinin qiyabi fakültəsinə qəbul olmuş, 1997-ci ildə həmin Universitetini bitirmişdi. Ərşad 1997-ci ildə Azərbaycan Neft Akademiyasına əyani fakültəsinə daxil olmuş və 2001-ci ildə Akademiyanı bitirmişdi. O, Kəbirli tayfasından Eldar kişinin qızı Billurə xanımı sevib və ailə qurub. Onların iki oğlu Ümid, Emil, iki qızı Minurə və Zəhra dünyaya göz açıb. Ərşadın həyat yoldaşı Billurə xanım da ibtidai sinif müəlliməsidir. Ailənin böyük oğlu Ümid Sumqayıt Dövlət Universitetini bitirib, böyük qızı Minurə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika fakültəsinin II kursunda ali təhsil alır. Ərşadın kiçik oğlu məktəblidi və kiçik qızı Zəhra, 09 iyul 2012-ci ildə Beyləqan şəhərində anadan olub. Hər iki ailənin razılığı ilə Zəhra, övladı olmayan dayısı Elşənə övladlığa verilibdi. O hazırda dayısı Elşən dünyasın dəyişməsinə baxmayaraq, həmin ailənin tərkibində yaşayır. Zəhra isə hələ də övladlığa götürüldüyünü bilmir.

**Mübariz** Xudaverdi oğlu, ata qohumu Şirinin qızı Lalə xanımla ailə qurub, Beyləqan şəhərində yaşayırlar. Bu cütlüyün Ariz və Ballı adlı iki övladı anadan olub. Ariz, Dünyamalılar kəndindən Mənsurə adlı xanımla təzə ailə qurub. Ballı, Beyləqan rayon I Aşıqlı kənd sakini Asif adlı oğlanla evlidir, Bakı şəhərində yaşayır.

**Etibar** Xudaverdi oğlu, Dilağarda tayfasından Elmanın qızı Şərqiyyə xanımla ailə qurub, Sayalı və Elgiz adlı iki övladı dünyaya göz açıbdı. Etibarın qızı Sayalı Sumqayıt Dövlət Universitetinin kimya-biologiya fakültəsinin II kursunda təhsil alır. Ailə Beyləqan şəhərində yaşayır.

**Ehtiram** Xudaverdi oğlu, xalası qızı Aygün xanımla ailə qurub, onların Ülfət və Aytac adlı iki övladı anadan olub. Aytac, bibisi Nazimənin oğlu Şamilin həyat yoldaşıdır, hələ ki, övladları yoxdu. Ülfət hərbi xidmətini başa vurdaqdan sonra fərdi əməklə məşğuldu, hələ ki, subaydı.

Xudaverdi 2016-ci ildə Beyləqan şəhərində dünyasını dəyişmiş və Peyğəmbər qəbirstanlığında dəfn olunmuşdu. Xudaverdinin həyat yoldaşı Ballı, 2020-ci ildə Beyləqan şəhərində rəhmətə gedib və Peyğəmbər qəbirstanlığında həyat yoldaşının yanında dəfn olunubdu.

Xudaverdinin qızları Sahibə, Əbil kişinin oğlu Əliylə, Əkula, Nəsib kişinin oğlu Mariflə, Nazilə isə Bibisi Tükazın oğlu Ariflə ailəlidirlər. Onlar haqqında yuxarıda ailə tərkiblərində məlumat verilib.

Xudaverdinin kiçik qızı Nazimə Ağcabədi rayon Salmanbəyli kənd sakini Kamil İlyas oğlu ilə ailə qurub, Şamil və Nahid adlı iki oğlu var. Şamil, dayısı Ehtiramın qızı Aytac xanımla evlidir. Nahid isə hərbiçidir, hələ ki, subaydı.

**Əliağa Məhəmməd** oğlu (1943-2015) Talıbxanlı tayfasından İsrafilin qızı

Siyatellə evlənib. Məhəmməd kişini el-obada hamı yaxşı tanıdığına görə kimin qızına elçi getsə ona yox sözünü deyən olmadı. Yazın gözəl vaxtında "Şirin-Qum" deyilən Mehdilər yatağında Məhəmməd kişi mağar qurdu toy çaldırdı, evinə üçüncü gəlnini gətirdi. Əliağanın beş oğlu, üç qızı anadan oldu.

Oğlanları: Eyvaz, Nizami, Davud, Oktay, Natiq.

Qızları: Gülbəniz Zülfiyyə,Yeganə.

**Eyvaz** Əliağa oğlu, ana qohumu, Talıbxanlı tirəsindən Mirzə kişinin qızı Arifə xanımla ailə qurub. Eyvazın Sədi adlı oğlu,



*Əliağa, həyat yoldaşı Siyatel*

Nigar və Gülər adlı iki qızı anadan olubdu. Nigar və Gülər ailəlidirlər. Eyvaz ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır.

Nizami Əliağa oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub, hazırda Beyləqan şəhərində yaşayır. Nizami, əslən Cəbrayıl rayonundan olan, Beyləqan vətəndaşı İradə xanımla ailə qurdu. Onların Fərid, Nicat və Arzu adlı üç övladı var ki, onlar subaydı, bir ailənin tərkibində yaşayırlar.

**Davud** Əliağa oğlu, Almaniyanın Boon şəhərində yaşayır. O, milliyətcə gürcü qızı olan Meryam xanımla ailə qurub, Leyla və Sara adlı iki qızı anadan olubdu. Uşaqlar azyaşlıdı. **Oqtay** Əliağa oğlu, qardaşı Davudla birlikdə Almaniyada yaşayır. Oqtay milliyətcə türk qızı olan Songül xanımla ailəlidir. Onların Yasin və Səidnaz adlı iki azyaşlı övladı var.

**Natiq** Əliağa oğlu, Xocavənd rayon sakini Yeganə xanımla ailə qurub. Onların Eltürk və Aişə adlı iki övladı anadan olub. Natiq ailəsi ilə birlikdə Beyləqan şəhərində ata ocağında yaşayır.

Əliağa 2015-ci ildə Beyləqan şəhərində dünyasını dəyişib. O, Peyğəmbər qəbirstanlığında qardaş və bacılarının yanında dəfn olunub.

Əliağanın böyük qızı Gülbəniz Bakı şəhər sakini Aydınla ailə qurub, Zaur adlı bir oğlu var. Bakı şəhərində yaşayırlar.

Əliağanın ikinci qızı Zülfiyyə xalası oğlu Mürşüdlə evlidir. Onların Elman, Eltun adlı iki oğlu var. Əliağanın kiçik qızı Yeganə xalası oğlu Seymurun həyat yoldaşıdır. Onların Ömər və Elmir adlı övladları var.

Məhəmməd kişinin dördüncü gəlini öz bacısı Güllünün nəvəsi Azay kişinin qızı Cahan (1948-1997) xanım oldu. Məhəmməd kişi 1964-cü ilin payız fəslində oğlu Böyükağaya iki gün böyük toy məclisi çaldırdı. Bu məclisə iki dəstə musiqi ansamblı gətirtmişdi. Böyükağanın böyük toy məclisində xa-

nəndə olaraq Azərbaycanın xalq artisti, professor Arif Babayev və Eynulla Əsədov iştirak edib. Məhəmməd kişi həmişə Allahına şükür edən adam olubdur. Övladları böyüdükcə, oğlanlarına toy etdikcə o, fərəhlənər, keçmişdə qalan xəyallarla yaşamaq istəməz, gələcək haqqında fikirləşir, duyğulara qapılmır və öz işlərini doğru-düzgün qura bilirdi. Onun yeganə arzusu bütün övladlarının balalarını, xoş gününü görmək idi. O, bu arzusuna da çatdı. Böyükağa gənc yaşlarında heyvandarlıqla məşğul oldu. O, avtomobil sürücülük məktəbini oxuyub, sürücülük vəsiqəsi aldı. Böyükağa uzun müddət sürücü peşəsində çalışdı. O, İmişli rayonundan Beyləqana ilk köçənlərdən olmuşdu. Böyükağanın iki oğlu, beş qızı anadan oldu.

Oğlanları: Xaliq, Malik.

Qızları: Reyhan, Heyran, Bəsurə, Ulduza və Könül.

**Xaliq** Böyükağa oğlu, İmişli rayon Əliqulular kəndində anadan olub. Xaliq orta məktəbi bitirdikdən sonra Bakı İlahiyyat Universitetində təhsil aldı, lakin bu sahədə çalışmadı. Xaliq, Siyəzən rayon sakini Nuranə xanımla ailə qurdu və Bakı şəhər Qaradağ rayonunda yaşayır. Onların Nihad, Cahan adlı övladları dünyaya gəlib. Göründüyü kimi, Xaliqin qızı Cahan, nənəsinin adını yaşadır.

**Malik** Böyükağa oğlu, ata yurdunda atası ilə bir ailədə yaşayır. Malik, bibisi Safanın nəvəsi Sevinc xanımla ailə qurub, İlkin və Pərvin adlı iki övladı var. Bu ailə Beyləqan şəhərində yaşayır.

**Reyhan** Böyükağa qızı ailənin böyük övladıdır. Reyhan 1-ci Şahsevən kənd sakini Yaşar müəllimlə ailə qurubdu. Onların Tural adlı oğlu, Günel və Rəfiqə adlı qızları anadan olubdu. Tural BDU-ni, Günel ADPU-nin ibtidai metodika fakültəsini,

kiçik qızı Rəfiqə ATU bitirib həkim işləyir. Günel və Rəfiqə hər ikisi ailəlidir, Bakı şəhərində yaşayırlar. Reyhan ailəsi ilə birlikdə Bakı şəhərində yaşayır. Reyhanın həyat yoldaşı Ya şar müəllim 2020-ci ildə dünyasını dəyişib.

**Bəsurə** Böyükağa qızı, bibisi Safanın kiçik oğlu İlhamla ailə qurub, onların iki övladı Rəşadət və Səfurə dünyaya gəlib. Oğlu Rəşadət tibbi təhsil alıb, diş həkimidir. O, Rəqsanə adlı xanımla ailə qurub, İnci adlı bir qızı var. Səfurə, Bakı Qızlar Universitetinin dil-ədəbiyyat fakültəsini bitirib, hazırda ixtisası üzrə magistratura təhsili alır.



***Böyükağa, həyat yoldaşı Cahan,***

**Bəsurə** Böyükağa qızı, bibisi Safanın kiçik oğlu İlhamla ailə qurub, onların iki övladı Rəşadət və Səfurə dünyaya gəlib. Oğlu Rəşadət tibbi təhsil alıb, diş həkimidir. O, Rəqsanə adlı xanımla ailə qurub, İnci adlı bir qızı var. Səfurə, Bakı Qızlar

Universitetinin dil-ədəbiyyat fakültəsini bitirib, hazırda ixtisası üzrə magistratura təhsili alır.

**Heyran** Böyükağa qızı, ata qohumu Şahinlə (1958-2000) ailə qurub, Mahirə, Nəsir adlı iki övladı var. Heyranın həyat yoldaşı Şahin, ali təhsilli mühəndis idi. Şahin, 2000-ci ildə 42-yaşında Bakı şəhərində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında dəfn olunubdu. Uşaqlar isə anasının və babalarının himayəsində böyüdü. Ailənin böyük övladı Mahirə xanım BDU-nin biologiya fakültəsini, ixtisası üzrə magistratura təhsilini əla qiymətlərlə başa vurub. Mahirə xanım hazırda  Slavyan Universitetində müəllim kimi fəaliyyət göstərir. Heyranın oğlu Nəsir, Azərbaycan Dövlət Aqrar Universitetini bitiribdi. Ailə Bakı şəhərində yaşayır. **Ulduza** Böyükağa qızı, Füzuli rayon sakini İsfahanla evlənib və Mehralı, Aysel adlı iki övladı dünyaya gəlib. Ulduzanın qızı Aysel ADPU-nin tarix fakültəsini bitirib, ixtisası üzrə magistratura təhsili alır. **Könül** Böyükağa qızı , ailənin son beşiyidir. Könül elat camaatından Zahid adlı oğlanla ailəlidir. Onların Səmayə adlı qızı, Murad adlı bir oğlu var. Ailənin böyük qızı Səmayə Bakı Biznes Universitetində ali  təhsil alır.

Məhəmməd kişinin övladlarından hal-hazırda yalnız 77 yaşlı Böyükağa kişi yaşayır. Böyükağanın həyat yoldaşı Cahan, 1997-ci ildə Beyləqan şəhərində dünyasını dəyişib və Peyğəmbər qəbirstanlığında əzizlərinin yanında dəfn olunubdu.

**Tofiq** Məhəmməd oğlu, ailənin kiçik övladıdır. Məhəmməd kişi kiçik oğlu Tofiqin böyük toyunu görə bilmədi. Məhəmməd kişi dünyasını dəyişəndə oğlu Tofiq hərbi xidmətdə idi.



***Böyükağa, həyat yoldaşı Cahan, qızı Heyran, Könül, nəvəsi Tural***

Amma Məhəmməd kişi oğlu Tofiqi dayısı Ağadədənin nəvəsi Təzəgül xanıma nişanlamışdı. Tofiq (1945-2013) hərbi xidmətdən sonra dayısı qızı ilə ailə həyatı qurdu və onların dörd oğlu, iki qızı oldu.

Oğlanları: İlqar, İftixar, Vüqar, Elçin.

Qızları: Mətanət, Yaqut.

Tofiq hərbi xidmətə qədər atasının yanında heyvandarlıqla məşğul olub. O, ailə qurduqdan sonra Budaqlılar kəndinə köçdü və mexanizator işlədi. Tofiq zəhmətkeş, əməksevər öz əlinin zəhmətilə dolanan adam olub. Tofiq 2013-cü ildə Beyləqan şəhərində dünyasını dəyişib, Peyğəmbər qəbirstanlığında doğmalarının yanında dəfn olunubdu.

**İlqar** Tofiq oğlu, Xocavənd rayon Əmirallar kənd sakini Reyhan xanımla ailə qurub. Onların bir oğlu Tofiq, iki qızı Nərmin, Nəzrin anadan olub. Nərmin ADPU-nin kimya fa-

kültəsinin III kursunda ali təhsil alır. Babasının adını yaşadan Tofiq isə hərbi xidmətdədir.

**İftixar** Tofiq oğlu, "N" saylı hərbi hissədə hərbi qulluqçudur. O, 1-ci Qarabağ müharibəsində döyüş yolları keçibdi. Hal-hazırda da hərbi xidmətini davam etdirir. İftixar dayısı Arifin qızı Aygün xanımla evlidir. Onların Afiq və Sadiq adlı iki oğul övladı var. İftixar Beyləqan şəhərində yaşayır.



***Şəkildə Tofiq, həyat yoldaşı Təzəgül və övladları***

**Vüqar** Tofiq oğlu, Beyləqan şəhərində yaşayır, Tatalılar tayfasından Əkbərin qızı Aytəkin xanımla ailə qurub. Onların Elvin, Elton və Cəsur adlı üç azyaşlı oğlu var.

**Elçin** Tofiq oğlu, Beyləqan şəhərində ata ocağında yaşayır, "N" saylı hərbi hissədə müddətdən artıq hərbi qulluqçu kimi xidmət edir. 2016-cı il aprel döyüşlərinin iştirakçısıdır. Elçin Dilağarda tayfasından Aynur xanımla ailə qurub, onların Elcan və Eltac adlı iki azyaşlı oğlu var. Elçin II Qarabağ

müharibəsində iştirak edib. O, Füzulinin alınmasından başlayaraq Şuşa şəhərinin azad olunmasında xüsusi xidməti olmuşdu.

Tofiq kişinin qızı, Mətanət, Füzuli rayon Kürdmahmudlu kənd sakini Ariflə evlidir, Murad adlı bir oğlu var. Yaqut isə qan qohumu Azər müəllimin həyat yoldaşıdır.

Məhəmməd kişi doxsan yaşında rəhmətə gedib. Yetim Məhəmməd Budaqlı tayfasının Mehtilər tirəsindən olub. O, həyatın bütün çətinliklərinə sinə gərən, öz halal zəhməti ilə ucalan insan olub. Həyatda atası, anası, doğma qardaş-bacısı olmayan Məhəmməd kişinin bugünkü nəsli, oğul-uşaq, nəvə-nəticə və kötücəsi 230 nəfərdən çoxdur. Məhəmməd kişi doxsan il yaşadı, doxsan ildə bir dəfə də olsun yaylaqdan qalmadı və bir dəfə olsun belə həkimə müraciət etmədi. Məhəmməd kişi çox sağlam adamıydı. Ona öldüyü gün bəyan olmuşdu. Məhəmməd kişi 1965-ci il iyun ayının 16-da günorta evə gəlib, gəlinlərə bildirib ki, özümü yaxşı hiss etmirəm, bu gün mənim ömrümün son günü ola bilər. Oğlu Böyükağaya deyib:

- Oğul, atı min təcili Kamran kişini yanıma gətir.

Kamran kişi kəndin hesabdarı olmaqla həm də quran əhliydi. Kamran Əliqulular tayfasında hörmətli ağsaqqallardan biriydi. Çox keçməmiş Kamran kişi gəlmişdi. Məhəmməd kişidən soruşmuşdu:

- Məhəmməd kişi, nə olub xeyirdimi məni çağırtdırmısan.

Məhəmməd kişi, Kamrana yer göstərdi, o əyləşəndən sonra dedi:

- Kamran, dünya ölüm-itim dünyasıdı, özümü yaxşı hiss etmirəm, qulağım eşidə-eşidə mənə Qurani-Kərimdən Yasin surəsini oxu.

Kamran kişi deyib:

- Məhəmməd, deyirsən oxuyum, Quran ölüyə də lazımdı, diriyə də, ancaq sənin heç nəyin yoxdur axı.

Kamran kişi quranı oxuyub getdi. Məhəmmədin ömür-gün yoldaşı Güldəstə, həmin vaxt Ermənistanın Cermuk şəhərində, xəstəxanada yatan nəvəsi Zenfiranın yanında idi. Zenfiranın ayağına iynə batmışdı. O, xəstəxanada ayağından əməliyyat olunmuşdu. Məhəmməd kişi sanki, ömrünün tükəndiyini görürdü. Ürəyində olan son sözünü demək üçün gözləri Güldəstəni axtarırdı. Amma onu yanında görə bilmədi. Məhəmməd dedi:

- Ay gəlinlər, gün batıb, Güldəstəni mən bir də görmüyəcəm, qonşuluqdan Əziz bacını çağırın yanıma.

Əziz arvad, Məhəmmədin bacısı gəlini sayılırdı. O, yaşlı dünya görmüş xanımıydı. Məhəmmədin övladları ona bibi deyirdilər. Əziz nənə oturdu Məhəmmədin yanında. Məhəmməd dedi:

- Əziz, Güldəstəni görə bilmədim halallıq alam. Qapımda olan halal mülkümdən ona iki balalı inək verirəm, bu uşaqların mülkünə qarışmır. Həmin heyvanları Güldəstəyə göstərib mən əvəzdən ondan halallıq alarsan. Məhəmməd oğlanlarını yanında otuzdurub vəsiyyətini elədi və dünyasını dəyişdi. Məhəmməd ömrünü elə yaylaqda, "Murad Təpə" yaylağında başa vurdu. Elat tayfalarının yaylaq qəbirstanlığında dəfn olundu. Məhəmməd kişinin həyat yoldaşı Güldəstə nənə, özündən 6 il sonra 1971-ci ilin payızında Budaqlılar kəndində dünyasını dəyişdi. Güldəstə "Ənbərə" qəbirstanlığında dəfn olunubdu Məhəmmədin qızları Tükaz Təhməzli tirəsindən Nərçə ilə, Rəfiqə Mehdilər Salman kişinin oğlu Fərmayıl ilə

ailə qurublar. Tirələrdə onlar haqqında geniş məlumat verilmişdi.

**Safa** (1928-2013), Məhəmməd kişinin böyük qızıdı. Safa Tatalılar tayfasından Sadığın oğlu Azayla evlənib ailə qurmuşdu. Safa, ailə qurduğu gündən etibarən ailəsi ilə birlikdə Budaqlı elatında yaşamışdı.

II Dünya Müharibəsindən sonra onlar Beyləqan şəhərində yaşamış və "Qoyunçuluq" sovxozunda çalışmışdılar. Safanın üç oğlu, dörd qızı anadan olubdur. Oğlanları: Qüdrət, Şakir, İlham, qızları: Ağca, Şamama, Həqiqət, Nazənim.

Safa, səksən üç il ömür yaşadı. Qadın olmağına baxmayaraq, kişi kimi yaşadı. O, həyat yoldaşı ilə bərabər çalışdı, özlərinə ev tikdilər və övladlarını layiqincə böyüdə bildilər. Safanın həyat yoldaşı Azay kişi, 2006-cı ildə Beyləqan şəhərində rəhmətə getdi və Cərcis Peyğəmbər qəbirstanlığında dəfn olunubdu. Safa 2013- cü ildə Beyləqanda dünyasını dəyişdi və həyat yoldaşının qəbri yanında dəfn olunubdu.

**Qüdrət** (1953-2015), Safanın böyük oğludur. Qüdrət, uzun müddət sürücü işləmiş, Azərbaycanın müstəqillik dövründən sonra budaqlılar yaşayan kəndin mexanniki vəzifəsində çalışıbdır. O, xalası Tükazın qızı Filyar xanımla ailə həyatı qurub. Onların iki oğlu, dörd qızı olubdu.

Oğlanları: Məhəmməd, Anar.

Qızları: Sevinc, Vəfa, Sevil, Afaq.

Qüdrət, 2015-ci ildə dünyasını dəyişib və ata, anasının qəbri yanında dəfn olunubdu. Onun böyük oğlu Məhəmməd, dindar olmaqla Cərcis Peyğəmbər ziyarətgahında axundun müavinidir. Məhəmməd Azərbaycan İlahiyyat Universitetində dini təhsil alıb.

**Şakir**, ali təhsilli iqtisadçıdır və uzun müddət Bankda, poçta və sığorta idarəsində məsul vəzifələrdə işləyibdir. Hazırda Bakıda yaşayır. Şakir, Tanrıqullar tayfasından Süleymanın qızı Reyhan xanımla ailə qurub və iki qızı bir oğlu olubdur. Oğlu: Elnur, qızları, Samirə, Güldəstə. Şakirin qızı ana nənəsi Güldəstənin adını daşıyır. Onun övladları ailəlidirlər və nəvələri var.



***Safa Məhəmməd qızı, övladları ilə nəvəsinin toy məclisindən.***

**İlham**, Safanın kiçik oğludur və Beyləqanda yaşayır. İlham dayısı Böyükağanın qızı Bəsurə xanımla evlidir, onların bir oğlu bir qızı anadan olubdur.

Oğlu: Rəşadət, qızı Səfurə.

İlham sürücü işləyir. Onun oğlu diş həkimi, qızı isə müəllimədir. Ağca, ailəli olub, Nərgiz adında bir qızı var. Həqiqət və Nazənim evlidirlər, övladları var. Nazənim dayısı Tanrıverdinin oğlu Ramil ilə ailəlidir. Şamama ailəlidir iki qızı var.



*Soldan Şakir, Raquf, İlham  Cıdır düzü 1986-cı il.*

Məhəmməd kişinin ömür yolları çox mürəkkəb olmuşdu. Onu sanki Tanrı zaman-zaman sınağa çəkmişdir. Məhəmmədin anası Dursun ərə getdikdən bir müddət sonra əri Məmiş dünyasını dəyişdi və anadan bir olan bacısı Telli də atadan yetim qaldı. Məhəmməd on-on iki yaşına qədər bir müddət anasının yanında yaşadı. O, anasını yalqız qoymadı.

Məhəmməd kişinin bacısı Telli, böyüdü, Lələkişi adlı kişiylə ailə qurdu və Bünyadlı kəndində yaşadı. Onun Hüsən, Həsən Niyaz adlı oğlu, Bəyim və Samovar adlı iki qızı olub ki, onların törəmələri hazırda Beyləqan rayon Bünyadlı kəndində yaşayırlar.

Yetim Məhəmmədin anası Dursun, sonralar Hacılı tayfasında həyat yoldaşı rəhmətə getmiş Əlinağı kişiyə ərə getdi. Onların iki qızı bir oğlu oldu.

Oğlu: Həsrət, qızları: Güllü, Aftab .

Uşaqlar azyaşlı olan vaxtı Əlinağı kişi də rəhmətə getmişdi. Məhəmməd yetim qalan qardaş və bacılarına da həmişə kömək olmuşdu. Düzdür Həsrətin atadan bir olan qardaşı Əhədin də onların üzərində böyük zəhməti olmuşdu.

Məhəmməd bacısı Güllünü (1884-1954), əslən Martunu (indiki Xocavənd) rayon Muğanlı kəndindən olan Həşim adlı kişiyə ərə vermiş, onların Azay və İbad adlı iki oğlu olmuşdur. İbad cavan vaxtlarında iki sovetlik işçisini güllələyib öldürmüşdü. Ona uzun müddətli həbs cəzası verib Sibirə göndəriblər. İbad Sibirdə rəhmətə gedib, ancaq onun nəşini gətirib İmişli rayonunda dəfn ediblər. İkinci oğlu Azay, Ağcabədinin "Kəhrizli" kəndindən Qaratel xanımla evlənib, Əliqulular kəndində yaşayıblar. Azayın üç qızı olubdur.

Qızları : Cahan, Fatma, Lalə.



***Azay kişi, böyük qızı Cahan xanım.***

Azay kişinin böyük qızını Məhəmməd kişi oğlu Böyükağaya gəlin gətiribdir. Azay kişi, Əliqulular kəndində dünyasını dəyişib və "Ənbərə" qəbirstanlığında dəfn olunubdur.

İkinci bacısı **Aftab (1886-1964),** Hacılı tirəsindən Əbdülrəhim kişiyə ərə getmiş, onların üç övladı olmuşdur. Əbdülrəhim və onun kiçik yaşlı uşaqları vəba xəstəliyindən rəhmətə getmiş, bir oğlu Gəray salamat qalmışdı. Aftab, əri Əbdülrəhim öləndən sonra Muradxanlı kəndində Sevdimalı (1890-1980) kişiyə ərə gedib, onların beş oğlu olubdur.

Oğlanları: Gəray, Bəbir, Bədəl, Mehdiqulu, Məhəmmədəli.

Aftabın birinci oğlu Gəray yanında getmiş və qardaşları ilə birlikdə Muradxanlı kəndində yaşamışdılar.

**Gəray** (1910-1998), atası rəhmətə getdikdən sonra, anası ərə gedib və atalığı Sevdimalı kişi onu öz oğlu kimi qəbul edibdir. Doğrudan da bu qardaşların ögeylikləri heç vaxt bilinməmişdir. Gəray kişi də qardaşlarına qarşı səmimi olmuşdu. Gəray, savadlı adam olmuşdu. O, kənddə hesabdar vəzifəsində işləmiş və sayılan insan olubdur. Onun iki həyat yoldaşı olubdur. Birinci həyat yoldaşı Mayanın (1913-1987) Nəsib və Tamilə adlı övladları dünyaya gəlibdir. Nəsib, Kimya Elmlər Namizədidir və Elmi Tədqiqat İnstitutunda fəaliyyət göstəribdir. O, hazırda təqaüdçüdür. Gərayın ikinci həyat yoldaşı Qunçadan (1924-1984) iki oğlu Arif, Asif və bir qızı Ofelya anadan doğulubdur. Asif yaşadığı kənddə müəllim işləyir. Gəray, 1998-ci ildə İmişli rayon Muradxanlı kəndində dünyasını dəyişib və həmin kəndin qəbirstanlığında dəfn olunubdur.

**Bəbir** Sevdimalı oğlu, Aftabın Sevdimalı kişidən olan böyük oğludur. Bəbir öz elat camaatından Maya xanımla ailə

qurub, onların yeddi oğlu, iki qızı olub. Ailə üzvləri hamısı Muradxanlı kəndində yaşayır.

Oğlanları: Rəşid, Murtuzəli, Əlövsət, Mütəllim, Şirzad, Yusifəli, Daşqın.

Qızları: Aftab, Əzizə.

Ailənin böyük oğlu Rəşid riyaziyyat müəllimi olub, ancaq vaxtsız dünyasını dəyişib.

**Bədəl** (1925-1999), Məhəmməd kişinin bacısı oğludur. O, dayısı Həsrətin qızı Güllü (1930-2016) ilə evlənib, ailə qurublar. Bədəl kişi ömrü boyu heyvandarlıqla məşğul olubdur. Onların üç oğlu, dörd qızı olubdur.

Oğlanları: Vahid, Ərəstun, Sürəddin.

Qızları: Cəmilə, Zinyət, Arifə, Yaqut, Mehparə.

Bədəlin böyük oğlu Vahid, Stepanakert (İndiki Xankəndi) Pedaqoji İnstitutunun Filologiya fakültəsini bitirib, ədəbiyyat müəllimidir. Vahid, Məhəmməd kişinin nəvəsi Zenfiranın qızı Tavadla evlidir. Onların İlkin və Türkan adlı iki övladı var. İlkin evlidir, Uğur və Mətin adlı iki oğlu var Beyləqan şəhərində yaşayır. Türkan isə Elşad adlı oğlanla ailə qurub, bir oğlu və bir qızı var. İmişli şəhərində yaşayır. Vahid müəllim doğulduğu Muradxanlı kəndində yaşayır. Bədəl kişi 1999-cu ildə yaşadığı kənddə rəhmətə gedib və qardaşının qəbri yanında dəfn olunubdur.

Bədəl kişinin həyat yoldaşı Güllü 2016-ci ildə Muradxanlı kəndində dünyasını dəyişib və həmin kəndin qəbirstanlığında, həyat yoldaşının yanında dəfn olunubdu.

**Mehdiqulu** (1928-2007), Aftabın dördüncü oğludur, Muradxanlı elatında anadan olubdur. O, Nuriyyə (1936-2016) adlı xanımla evlənibdir. Onların üç oğlu iki qızı olub.

Oğlanları: Əliəşrəf, Zöhrab, Mirzəli, qızları: Ruqiyyə.

Mehdiqulunun oğlu Əliəşrəf, yaşadığı kənd orta məktəbində müəllim işləyir.

Mehdiqulu 2007-ci ildə Muradxanlı kəndində rəhmətə gedib və kənd qəbirstanlığında qardaşlarının yanında dəfn olunubdur.

**Məhəmmədəli** (1930-2016), Aftabın kiçik oğludur. O, qardaşları ilə eyni məkanda yaşamaqla, Adilə xanımla evlənib, ailə qurublar. Onların dörd oğlu, dörd qızı olubdur.

Oğlanları: Raqif, Əsgər, Vaqif, Akif.

Qızları: Əsmər, Elza, Məhfuzə, Nərminə.

Məhəmmədəlinin oğlu Raqif və qızı Əsmər xanım Muradxanlı kənd tam orta məktəbində müəllim işləyirlər. Məhəmmədəli 2016-cı ildə Muradxanlı kəndində dünyasını dəyişib və yaşadığı kənd qəbirstanlığında qardaşlarının yanında dəfn olunubdur.



**Əliyev Həsrət Əlinağı oğlu (1890-1948)**, Məhəmmədin anadan bir qardaşıdı. Həsrətin də toyunu Məhəmməd edibdir. İki qardaş həm də bacanaqdılar. Həsrətin iki oğlu, üç qızı olubdu. Oğlanları: Surxay, İldırım

Qızları: Güllü, Sürəyya, Mənsurə (hər üçü rəhmətə gedibdir).

Həsrət dünyadan tez köçübdü. Bu ailənin də ağırlığı yenə yetim Məhəmmədin üzərinə düşübdü. Güllü bibisi oğlu Bədələ ərə gedib, İmişli rayon Əlipənahlı kəndində yaşamışdı və həmin kənddə rəhmətə getmişdir. Sürəyya, xalası oğlu Sadayla, Mənsurə isə ana qohumu Aydınla evli olublar.

**Əliyev Surxay həsrət oğlu**, 1938-2021) Hacılı tirəsindən Hüseynin qızı Sədəflə evlənib ailə qurmuş, onların dörd oğlu, üç qızı olubdur.
Oğlanları:- Akif, Arif, Zülfi, Yaşar, qızları:- Afayət, Rəsmiyyə, Kifayət. Surxayın böyük qızı Afayət nənəsinin adını yaşadır, ata qohumu Əlinağının oğlu Qənimətin həyat yoldaşıdır. Surxayın böyük oğlu Akif, ali təhsilli müəllimdir, atası ilə birlikdə İmişli rayon Əliqulular kəndində yaşayırlar. O, bibisi qızı İradə xanımla evlidir və iki oğlu var. Akifin oğlanları



***Surxay və Böyükağa qoyun qırxını vaxtı***

Akim və Surxay hər ikisi ali təhsillidir. Akifin həyat yoldaşı İradə xanım müəllimədir, ingilis dili fənnini tədris edir. Surxayın qızı Kifayət bibisi oğlu Eminin həyat yoldaşıdır. Surxay 2021-ci ildə yaşadığı İmişli rayon Əliqulular kəndində 83 yaşında dünyasını dəyişib və kənd qəbirstanlığında dəfn olunmuşdur.



**Əliyev İldırım** Həsrət oğlu (1946-2004), uşaq yaşlarında atasını itirmişdi. O, qardaşı Surxayın himayəsində böyüdü, Hacılı tirəsindən Vəli kişinin qızı Pakizə xanımla ailə qurubdu. Bu cütlükdən onların dörd oğlu, üç qızları olub.

Oğlanları: Həsrət, Namiq, Xəqani, Elşən.

Qızları: Şəhla, Aygün, Aynur.

İldırımın övladlarının hamısı evlidir, Beyləqan rayon "Şərq" qəsəbəsində yaşayırlar. İldırım 2004-cü ildə yaşadığı "Şərq" qəsəbəsində rəhmətə gedib və Peyğəmbər qəbrstanlığında doğmalarının yanında dəfn olunubdu.

**II Dünya Müharibəsində alman faşist işğalçılarına qarşı döyüşmüş Budaqlılar:**

Əliyev Ələsgər Alıhüseyn oğlu- müharibədə həlak olub.
Əliyev Əjdər Səfəralı oğlu - müharibədə həlak olub.
İbrahimov İbiş Allahverdi oğlu- müharibədə həlak olub.
İbrahimov Müseyib Allahverdi oğlu
Əliyev Məhəmmədəli Qasım oğlu – müharibədə həlak olub
Əliyev Qulam Qasım oğlu
Əliyev Surxay Abdulla oğlu
Əliyev Humay Şirin oğlu – müharibədə həlak olub
Süleymanov Süleyman Hüseynalı oğlu – müharibədə həlak olub.
Quliyev Seyfəli Növzər oğlu – müharibədə həlak olub.
Abdullayev İdayət Məhəmməd oğlu

Abdullayev Abdulla Məhəmməd oğlu.
Aslanov Şirəli Həmzə oğlu – müharibədə həlak olub.
Aslanov Aslan Təhməz oğlu – müharibədə həlak olub.
Quliyev Əliş Zülfiqar oğlu – müharibədə həlak olub.
Zalov Əli Səlim oğlu – müharibədə həlak olub.
Aslanov Şirin Qənbər oğlu.
Babayev Rəsul Ağadədə oğlu.
İsmayılov Məhəmməd Əbdüləzim oğlu.
İsmayılov İsgəndər Abbasqulu oğlu – müharibədə həlak olub.
Süleymanov Həmid Rza oğlu – müharibədə həlak olub.
Gözəlov Abbas Mirzalı oğlu.
Quliyev Şirin Növzər oğlu
Süleymanov Zəkaray Qəhrəman oğlu.
Süleymanov Şəvahət Qəhrəman oğlu.
Quliyev Bəbir Abdulhüseyn oğlu- Müharibədə həlak olub.
Quliyev Teymur Kərim oğlu- Müharibədə həlak olub.

## BUDAQLI QARABAĞ ŞƏHİDLƏRİ




**Şəhid Mehdiyev Ramiz Fərman oğlu,** 1957-ci ildə imişli rayon əliqulular kəndində anadan olub. 1965-1975-ci ildə əliqulular kənd orta məktəbində oxuyub. 1977-1979-cu illərdə SSR-i dövründə həqiqi hərbi xidmətdə olub. O, Birinci Qarabağ Müharibəsi başlandığı ilk gündən könüllü olaraq döyüşlərdə iştirak etmişdir. Ramiz iki dəfə düşmən mühasirəsinə düşməyinə baxmayaraq, döyüş yoldaşları ilə mühasirəni yarıb çıxa bilmişdilər. Ramiz 20.09.1993-cü ildə Xocavənd istiqamətində gedən döyüşdə şəhid olub, Peyğənbər qəbirstanlığı, şəhidlər xiyabanında dəfn olunubdu. Ailəlidir 4 övladı var.



**Şəhid Nəsirov Elşən Qara oğlu**, 18 aprel 1968-ci ildə Beyləqan şəhərində anadan olmuş, Beyləqan şəhər I saylı orta məktəbi bitirmiş, sovet ordusu sıralarında hərbi xidmətdə olub. Dağlıq Qarabağ münaqişəsi başlayan vaxt könüllü olaraq hərbi xidmətə getmişdi. Elşən Yuxarı Veysəlli, Qacar, Divanallar kəndlərinin müdafiəsində iştirak etmiş və Füzuli rayon Qacar kəndi uğrunda gedən döyüş zamanı 18.04.1993-cü ildə şəhid olmuşdu. Elşən

Peyğəmbər qəbirstanlığında dəfn olunmuşdu. Elşən Nanə adlı xanımla ailə qurub, Pəri adlı qızı yadigar qalıb. Hazırda Beyləqan rayon 5 nömrəli tam orta məktəb şəhid Elşən Nəsirovun adını daşıyır.




**Şəhid Zalov Tahir Mövsum oğlu**, 1974-cü ildə Beyləqan şəhərində anadan olub, 1981-ci ildə şəhər 1-saylı orta məktəbin birinci sinifinə gedib və 1991-ci ildə orta məktəbi bitirib. 31 avqust 1992-ci ildə Beyləqan hərbi komisarlığından həqiqi hərbi xidmətə çağrılıb. Xidməti dövründə Dağlıq Qarabağda erməni speratçılarına qarşı döyüşlərdə iştirak edib. Tahirin son döyüşü "Qızıl Qaya" uğrunda gedən döyüş olubdu. O, 14 avqust 1993-cü ildə son döyüş zamanı itkin düşübdü. Tahirin xatirəsi bütün Vətən fədailəri kimi xalqının qəlbində yaşayır. Ruhu şad olsun!



**Şəhid Aslanov Adil Mətləb** oğlu, 4 mart 1973-cü ildə Beyləqan rayon Eyvazalılar kəndində anadan olub, 1981-ci ildə Eyvazalılar kənd orta məktəbinin I ci sinifinə gedib və 1991-ci ildə orta məktəbi başa vurub, həmin ili 1991-ci ildə Beyləqan rayon hərbi komisarlığı tərəfindən həqiqi hərbi

xidmətə çağrılıb. Hərbiyə getdiyi ilk gündən işğalçılara qarşı döyüşlərdə müntəzəm olaraq iştirak edib. Adil 5 aprel 1993-cü ildə Xocavənd rayon "Şişqaya" istiqamətində gedən döyüşdə itkin düşmüş, şəhidlik zirvəsinə ucalmışdır.



**Şəhid Əhlimanlı Tural Yaşar oğlu,** 14 iyun 1991-ci ildə Beyləqan şəhərində anadan olub. 1997-2007-ci ildə 4 sayl Beyləqan şəhər orta məktəbinin də orta təhsil alıb. Tural, Təfəkkür Universitetində ali təhsil almış, iqtisadçı kimi əmək fəaliyyətinə başlamışdı. Tural, leytenant rütbəli zabit kimi hərbi xidmətinə başlamışdı. O, Tovuz bölgəsində xidmət zamanı düşmənin gülləsinə tuş gəlib. Tural 04 fevral 2015-ci il tarixində də Tovuz bölgəsində yerləşən N saylı hərbi hissədə şəhid olub, Beyləqan rayon Cərciz Peyğənbər qəbrstanlığında dəfn olunubdu.



**Şəhid Abdullayev Nurlan İnqılab oğlu,** 26.01.1992-ci ildə Beyləqan şəhərində anadan olub. Milli Qəhrəman Namiq Abdullayev adına I saylı orta məktəbi bitirb. O Azərbaycan milli ordusunda həqiqi xidməti başa vurduqdan sonra N saylı hərbi hissədə Müddətdən Artıq hərbiçi kimi xidmətə başlamışdı. 2016-ci ildə aprel döyüşlərində vuruşmuşdu. Nurlan

II Qarabağ müharibəsində Vətəni işğaldan azad etmək üçün ön cəbhədə vuruşmuş, 30.09. 2020-ci il tarixində qəhrəmancasına şəhid olmuş, Cərciz Peyğəmbər qəbirstanlığı, Şəhidlər Xiyabanında dəfn olunub. Ailəlidir, bir qızı var.



**Şəhid Nəsirov Qara Eldəniz** oğlu,1999-cu ildə Beyləqan şəhərində anadan olub, əmisinin adını daşıyan Elşən Nəsirov adına tam orta məktəbi bitirib. Azərbaycan ordusunda həqiqi hərbi xidmət borcunu yerinə yetirib. Qara, II Qarabağ müharibəsi başladıqda könüllü olaraq döyüşə qatıldı və ağır döyüş yolları keçdi. Qara, Füzuli, Cəbrayıl Xocavənd döyüşlərində qəhrəman əsgər kimi vuruşdu və Daşaltı uğrunda gedən 07.11.2020-ci ildə döyüşdə qəhrəmancasına şəhid oldu. İgid şəhidimiz 09.11.2020-ci ildə Peyğəmbər ziyarətgahı, Şəhidlər Xiyabanında dəfn olunub.

**Şəhid Quluyev Orxan Bəxtiyar** oğlu, 25.07.1997-ci ildə Beyləqan rayon Aşqallar kəndində anadan olub. 2003-cü ildə Aşqallar kənd tam orta məktəbin I-ci sinifinə gedib və 2014-cü ildə orta məktəbi bitirib. 2015-ci ildə həqiqi hərbi xidmətə çağrılıb, ilkin mərhələdə Qaradağ rayon "Çankaçal" qəsəbəsində minaların düzülməsi və zərərsizləşdirilməsi haqqında 3 aylıq kursu bitirib. 2016-cı il aprel döyüşlərində Tərtər rayon istiqamətində gedən döyüşlərdə düşmənə qarşı vuruşub. Orxan Quluyev II Qarabağ müharibəsi başladığı andan könüllü olarar cəbhəyə gedib, döyüşlərə qatılmışdı.



Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə vuruşmuş və sücayyət göstərmişdi. 14 oktyabr 2020-ci ildə Cəbrayıl rayon "Bullan" dağ yüksəkliyinin alınması uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdu. Qrxan Quluyev ölümündən sonra Vətən uğrunda döyüşdüyünə görə, Cəbrayıl uğrunda gedən döyüşlərə görə və Cəbrayılın alınmasına görə medalları ilə təltif olunub. Şəhid Qrxan Quluyev Beyləqan rayon Xalac qəbrstanlığında dəfn olunub.

**I Qarabağ müharibəsində döyüşən Budaqlılar:**

1 .Əliyev Vahid (İlqar) Qasım oğlu.
2. Əliyev Əhəd Qasım oğlu
3. Əliyev Mehman Qasım oğlu
4. İbrahimov Vaqif Müseyib oğlu
5. Süleymanov Rövşən Qəhrəman
6. Süleymanov Nazir Yunis oğlu
6 . Babayev Nəsib Allahverdi oğlu
7. Süleymanov Emin Saday oğlu
8. Təhməzov Elxan Camal oğlu
9. İbrahimov Fəxri Kamal oğlu
10. Təhməzov Əjdər Allahverdi oğlu
11. Süleymanov Vüqar Dərgah oğlu
12. Babayev Eldar İmanverdi oğlu
13. Babayev Niyaz Allahverdi oğlu

14. Quliyev İlham Həşim oğlu
15. Mehtiyev Mahir Fərman oğlu
16. Mehdiyev Tahir Fərman oğlu
17. Məmmədov Bəhruz Tofiq oğlu
18. Süleymanov Səyyad Məhəmməd oğlu
19. Quliyev İkram Həşim oğlu
20. Zalov Əli Yaqub oğlu.
21. Ağalarov Elçin Ağalar oğlu.
22. Fərmanzadə Elnur Salman oğlu
23. Tarverdiyev İftixar Tofiq oğlu
24. Əliyev Vidadi Qənimət oğlu.
25. Quliyev Rafiq Xəlil oğlu
26. Quliyev Fikrət Həşim oğlu
27. Mehdiyev Anar İnqilab oğlu.
28. Əliyev Vahid Qənimət oğlu.
29. Quliyev İsrafil Əjdər oğlu.
30. Quliyev İmamət Əjdər oğlu.

**II Qarabağ müharibəsində döyüşən Budaqlılar.**

Tarverdiyev Elçin Tofiq oğlu.
Tarverdiyev Natiq Əliağa oğlu.
Xudaverdiyev Müşfiq Elşad oğlu.
Xudaverdiyev Xudaverdi Elşad oğlu.
Salmanzadə Zahir Salman oğlu.
Salmanzadə Elnur Salman oğlu.
Babayev Kənan Arif oğlu.
Babayev Ruslan Qulu oğlu.
Babayev Orxan Nəsib oğlu.
Quliyev İlham Həşim oğlu.

Babayev Elmir Kazım oğlu.
Tarverdiyev Emil Şahin oğlu.
Tarverdiyev Ülvi Ramiz oğlu.
Mehdiyev Ramiz Teymur oğlu
Mehdiyev Fərmayıl Tahir oğlu.
Qədirov Yasin Ədil oğlu.
Süleymanov Vasif Əliş oğlu.
Əliyev Vüqar Əvəz oğlu.
Əliyev Ələsgər Vahid oğlu.
Yaqublu Xaliq Nurəddin oğlu.
Babayev Cabir Sabir oğlu.
Əliyev Nurlan Vahid oğlu.
Aslanov Babək Yaqub oğlu.
Əliyev Mirkənan Nazim oğlu.
Əliyev Samir Yavər oğlu.

## BUDAQLI YAZARLARI:

### İNQİLAB MİSKİN
### (şair publisist)



İnqilab Mehdiyev( Miskin) 1940-cı ildə Budaqlı tayfasında anadan olub. Ali təhsillidir, Budaqlının ilk ziyalılarından biridir. İnqilab müəllim uzun müddət İmişli rayon Əliqulular kəndində müəllim, direktor müavini, kənd sovetinin sədri vəzifələrində çalışıb. İnqilab müəllimin "Ömür yolu" və "Sənsiz günlərim" adlı kitabları nəşr olunubdur.

### SON NƏFƏS

Ay ellər dərdimi sizə söyləyim,
Soruşmayın məndən, niyə dolmuşam.
Anlayın siz məni, keçdiyim yaşdan,
Yetmişimdə yaman kövrək olmuşam.

Deyirəm keçsə də yaşım yetmişi,
Sanki, yenidən uşaqlaşmışam.
Soraqladım ötüb keçən keçmişi,
El köçüb elə bil yurdda qalmışam.

Yağış yağır, meşələr gəlir cana,
Mən də islanmışam suya batmışam.
Çağırsam da gələnim yoxdu haya,
Qaralmışam, bulud kimi dolmuşam.

Dağın zirvəsində qartallar süzər,
Elə bil onlara şikar olmuşam.
Dəyişən halım da qəlbimi üzür,
Qanadı qırılmış quşa dönmüşəm.

Dünya bələnibdir gülə, çiçəyə,
Mənim də qəlbimə xəzan əsibdi.
Güman qalmayıbdı daha heç nəyə,
Solubdur güllərim viran olmuşam.

Təbəssüm dodağımdan yox olubdu,
Sevincin  yerini qəmə vermişəm.
Bircə gümanım var, sizə qalıbdı,
Düşmüşəm taqətdən halsız olmuşam.

Bir həyat vermisən nəfəslə mənə,
Aldığım nəfəsə peşman olmuşam.
Verdiyini geri, qaytarım sənə,
Miskinəm, kədər əlindən solmuşam.

## OĞUL PAYI, QIZ PAYI

Gör nələr eşidib, nələr görmüşəm,
Eşidib söylənən hər kəlamı mən.
Sevinir analar oğul doğanda,
Qız doğan analar sevinmir nədən?

Oğul düşmən toxmağıdır deyirlər,
Qız nədən bu qədər ucuz sayılır.
Bax, toxmaq yerini dəyişsə birdən,
Qız doğan analar onda sevinər.

Övlad çox şirin paydı, İlahidən,
İstər oğul olsun, istərsə də qız.
Onları əziz tutun siz hər şeydən,
Atalar, analar qalmasın sonsuz.

Oğul-qızın öz yeri var həyatda,
Tapılmaz dünyada onların tayı.
Ata, ana borcun verin həyatda,
Şirindi oğul payı, həm qız payı.

Nədən sarsılır qız doğan analar?
O qızlardı həyatdakı sonalar.
Qızlar gələcəkdə, olar analar,
Verər bizə oğul payı, qız payı.

Bu dünyanın acı-şirin dadı var,
Yaxşılar seçilər, pisi atılar.
Hər ocağa, bir ocağın payı var,
Əziz olur oğul payı, qız payı.

Həyatda anadır gözəllik tacı,
Anadır mehriban, qardaşa bacı.
Anasız dünyamız zəhərdən acı,
Gözəldir oğul payı, qız payı.

Analar olmasa həyat da solar,
Kainat özü də mənasız olar.
Miskin deyir, dünyamız yetim qalar,
Verməsəniz oğul payı, qız payı.

## QƏRİBSƏYƏN YERLƏRİM

Bir dağ tanıyıram, Çaldağdı adı,
Beşiyim olubdur yemlikli çala.
Elçi daşı yadımda əbədi qaldı,
Yadımdadır, qara birçəkli tala.

Sürüyə bənzəyir Pəri çınqılı,
Yamac boyu səpələnib sərvə-sər.
Bir yanda dayanır Ayı çınqılı,
Sirrini verməyir, Çal dağdan betər.

Topuş taxtasında yaşıl məkanda,
Neçə igidimin cəsədi yatır.
Olub məkanımız keçmiş zamanda,
Ulu babamızın ruhu ordadır.

İlahi, bəs bu adları kim verib,
Bu dağlara, çınqıllara, düzlərə.
Satanlar satıbdır, alanlar alıb,
İnanmıram bundan sonra düzələ.

Tutulub nitqimiz nədən dinmirik,
Bəlkə də, bizim də səhvimizmi var.
Yox, sözlər öz sözümdür bilirik,
Öz dilimdə çağrılıbdır bu adlar.

Demə Çaldağ görürmüş indimizi,
Adları dəyişir yurdun, yuvanın.
Bundan sonra nələr gözləyir bizi,
Gözləyirik dəyişsinlər qalanın?

Yox-yox dəyişə bilməz nankorlar,
Ulu keçmişimiz verib adları.
Adım var hər qayasında, daşında,
Dəyişə bilməzlər bizim adları.

Bu gün kimlər deyir torpaq mənimdir,
Söylədiyim cənnət-məkan olan yer.
Oyanın ay xalqım bu yer bizimdir,
Düşmən tapdağında əsir qalan yer.

Murad təpə, Qızıl boğaz, Çöplü göl,
Babalarım yaşayıbdır bu yerdə.
Lilpar, Çaldağ, Qara arxac, Qara göl,
Qotur suda dincəliblər bu yerdə.

Darıxmayın, qəribim, bir az dözün,
Yatanlar da qoy yuxudan oyansın.
Deyirəm qurtaran yeridir sözün,
Döyüşsün, vuruşsun torpağın alsın.

## HARAY

Yurd-yuvama murdar ayaq basılır,
El-obamın gedən yolu kəsilir,
Sərvətimiz parça-parça satılır,
Çatın harayıma elim hardasan!

Zəngilanı Xan Araza tökdülər,
Qubadlını yerlə-yeksan etdilər.
Millətimi dağdan, daşdan tökdülər,
Oyansana qaçaq Nəbim hardasan!

Laçın kimi, Laçınımı vurdular,
Hər kahada gizli səngər qurdular.
Qoca, cavan qoymadılar, qırdılar,
Vətən gedir, Soltan bəyim hardasan!

Cıdırında at oynadır yağılar,
Vurulan yaralar çətin sağalar.
Qovdular bəyləri, qaçıb ağalar,
Gir döyüşə İbrahim xan, hardasan!

Ağdam işğal olub, yurdu talanır,
Oğuz yurdlarında tonqal qalanır.
Qadınlar saç yolub, şivən qoparır,
Gecikmə gəl Qaçaq Kərəm hardasan!

Şalvartı yaylağın bu gün dardadır,
Qızıl boğaz, Dəli dağın dardadır.
Çal dağ, çöplü gölün gözü yoldadır,
Qaçaq düşmüş Qardaşxanım hardasan!

Qarabağım yasa batıb nə vaxtdı,
Viran olub Pənah xanın şah taxtı.
Əl açaraq yalvarıram nə vaxtdı,
Yaradanım, Ulu Tanrım hardasan!

Cəbrayılın Xan çinarı ağlayır,
Dül-Düldə nənəmiz sinə dağlayır.
Hacı Qaraman ocağı ağlayır,
Gəl dadıma qaçaq Nazar hardasan!

Kəlbəcərim dəvə kimi bozluyur,
Dədə Şəmşir sizdən kömək gözlüyür.
Bəhmən, Sücaət döyüş gözləyir,
Xilaskarım, qoç Koroğlum hardasan!

Dinlə Füzuli, şəbi-hicran deyir,
Əşrəfdən yurduna kömək diləyir.
Ağabala sizdən giley eləyir,
Ey İllacım, Mehdi bəyim hardasan!

Bəsdi, köçənləri haya çağırdım,
Demirəm ki, sizi toya çağırdım.
Birləşməyə, doğru yola çağırdım,
Qalx ayağa, Azərbaycan hardasan!

## ƏYİLMƏZ ANA
### (Bacım qızı Fənarə xanıma)

Ağsaqqal, ağbirçək el arasında,
Həmişə sayılıb bir varlıq kimi.
İstər xeyir olsun, istər şərində,
El ilə bir olub, biləndər kimi.

Dinləyin, söyləyim mən olanları,
Deməyin yalandı, yadakı doğru.
Bir taleyin başına gələnləri,
Bir ana görmüşəm, bilməyib qorxu.

Bir ana görmüşəm çiynində tüfəng,
Gecə keşik çəkib, kişi yerinə.
Bir ana görmüşəm əlində çomaq,
Sürü də otarıb çoban yerinə.

Bir ana görmüşəm ayaqda çarıq,
Qadın yaraşığı, tüfül yerinə.
Bir ana görmüşəm başında papaq,
Bir qadın isməti yaylıq yerinə.

Bir ana görmüşəm belində qatar,
Balalar böyüdüb, ata yerinə.
Bir ana görmüşəm belində kəmər,
Evinə nur saçıb, lampa yerinə.

Bir ana gördüm ailə başında,
Balasın qoruyub kişi yerinə.
Bir ana görmüşəm əlində ələk,
Çörək də bişirib, gəlin yerinə.

Bir ana görmüşəm uca dağ kimi,
Sinəsin gəribdi hər çətinliyə.
Bir ana görmüşəm başı dumanlı,
Saçına qar yağıb, dağın yerinə.

Analar umur övladlar sizdən,
Bax indi siz keçin ana yerinə.
Qaytarın anaya nəyiniz varsa,
Döşündən əmdiyin südün yerinə.

## SON İSTƏK

***(Həyat yoldaşım Raya xanıma)***

Eşidin ay elim, ay obam, məni,
Ciyərim od tutub yandırır məni.
Söndürməz ağrımı aran məlhəmi,
Ala yaylaqlara qaldırın məni.

Mindirməyin məni rahat miniyə,
Mindirin çubuq yüklü dəvəyə.
Layla çalsın, səsi yayılsın göyə,
Yaylaqda yuxudan oyadın məni.

Yolda nəfəs alım, Dib yurdda düşüm,
Yallarda düşürün, bir az sürüşüm.
Lilparda su verin qoyun üşüyüm,
O qarlı Çal dağa yetirin məni.

Adım var hər qayasında, daşında,
Cavanlığım keçib bulaq başında.
Yemlikli çalada, Taxta Başında,
Atamın yurduna çatdırın məni.

Zalım fələk saldı məni bu dərdə,
Əridi gül bədənim, pərdə-pərdə.
Kimsə düşməsin, mən düşən dərdə,
Aparın, loğmana, təbibə məni.

Verilən  fərmanı Yaradan verir,
İllər xəstəsiyəm, yaram qan verir.
Miskin, dağlara de, yarım can verir,
Qoy alsın qoynuna o dağlar məni.

## RAQUF BUDAQLI
## (şair-publisist)



Tarverdiyev Raquf Tarverdi oğlu Azərbaycan Yazıçılar Birliyinin üzvü, Yazıçılar Birliyinin Beyləqan bölməsinin katibi, "Novator" qəzetinin baş redaktoru və Prezident təqaüdçüsüdür. Onun müxtəlif dövrlərdə "Məni hara səsləyirsən ay dünya", "Tale yükü", "Zamanın hökmü" adlı şeirlər kitabları çap olunub. Raquf Budaqlının "Budaqlı Elatı" adlı 4-cü kitabı artıq oxucuların ixtiyarına verilir.

### HACI QASIM BABA

*Tanınmış el ağsaqqalı, Budaqlı Hacı Qasım babamım əziz xatirəsinə.*

Bir ömür yolunda nələr edibdi,
Üç dəfə Məkkəyə, Həccə gedibdi,
Ömrünü Vətənə, xalqa veribdi,
Bir mahal bağlıdır bu təmiz ada,
El ağsaqqalı, Hacı Qasım baba.

Dağda yaylağı var, Mildə qışlağı,
Kəhrizlər vurdurub meyvəli, bağı,
Qarabağ, Mil, Muğan onun oylağı,
Yolunu  saxlayıb bütün el- oba ,
El ağsaqqalı, Hacı Qasım baba.

Sayılmış, seçilmiş ağsaqqal olub,
Çox çətin işləri yoluna qoyub,
Kasıba, yoxsula əl tutan olub,
Dar gündə çatarmış, həmişə dada,
El ağsaqqalı, Hacı Qasım baba.

El  ağsaqqalı, hacılar  hacısı,
Yüz para kəndin olubdu  başçısı.
Özü Budaqlıdı, Oğuz, tayfası,
Bağlıdı irsimiz, Dədə Qorquda,
El ağsaqqalı, Hacı Qasım baba.

Bir nəslin yaşayır nəvən, nəticən,
Rahat yat ay baba, məzarında sən,
Ocağın sönməyib, bilmək istəsən,
Ruhundan güc alır, Raquf dünyada,
El ağsaqqalı, Hacı Qasım baba.

## ÖZÜM TƏRƏKƏMƏ, TAYFAM BUDAQLI

Göz açdım cahana mən qonaq gəldim,
Bağ salıb becərdim, barını dərdim.
Aranda doğuldum, dağında gəzdim,
Yaylaqlar dolandım dərəli, dağlı,
Özüm tərəkəmə, tayfam Budaqlı.

Doğuldum Muğanda, yaşadım Mildə,
Dolandım Vətəndə obamda, eldə.
Oxuyub yazmışam ana dilimdə,
Süfrəm açıq olub, evim qonaqlı,
Özüm tərəkəmə, tayfam Budaqlı.

Görmüşəm dərələr, sıldırım qaya,
Dağlardan sel axıb tökülən çaya.
Baxmışam zirvədən günəşə, aya,
Gəzdiyim oylaqlar çeşmə bulaqlı,
Özüm tərəkəmə, tayfam Budaqlı.

Qara Budaq, Oğuz mənim kökümdü,
Ömür karvan yolu, gedən köçümdü.
Dünya bir mənzərə sonu ölümdü,
Yaranıb möcüzə, həm də maraqlı,
Özüm tərəkəmə, tayfam Budaqlı.

Bir ömür yaşadım həyatda dolğun,
Əzəldən yurduma, obama vurğun.
Yaş üstə yaş gəlir, ömrümə uyğun,
Bu xalqın oğludur Raquf Budaqlı,
Özüm tərəkəmə, tayfam Budaqlı.

## AQİL İNSAN

*(Çox hörmətli ağsaqqalımız İnqilab müəllimin mənə göndərdiyi məktubuna cavab olaraq)*

Hərarətim qalxıb qırxa, ağrı çəkir əzalarım,
Qovuşduğum bu yaşımda, bəyan oldu xətalarım.
Bir kimsədən sormaq olmur, nə olacaq cəzalarım,
Zaman verir, ömür verir, yeri deyir hələ yenə,
Ucalmısan aqil insan, dahilərin zirvəsinə.

Allahına kor baxanlar, bu dünyadan nə umacaq,
Ağsaqqala kəm baxanlar, öz payını bol alacaq.
Ulu Tanrı bir can verib, vaxtı gəldi bil, alacaq,
Sorulanda sorğu-sual, düşməyəsən zildən bəmə,
Ucalmısan aqil insan, dahilərin zirvəsinə.

Xeyrin-şərin bəzəyisən, mən demirəm Tanrı bilir,
Sənli məclis təravətli, deyən-gülən birdə gülür.
Ürəyim də səninlədir, hər an ritmin sənlə vurur,
Duyan beyin, yazan barmaq, yazmaz inan elə-belə,
Ucalmısan aqil insan, dahilərin zirvəsinə

Gördüyümüz xırda işdir, böyük işlər qabaqdadır,
İncimə gəl ustad məndən, sənin yerin olacaqdır,
Böyüklüyün-böyüklüyü, nə puldadır, paradadır,
Halal qandan, halal süddən toplanıbdır gilə-gilə,
Ucalmısan aqil insan, dahilərin zirvəsinə.

Sifətindən nur tökülür, çöhrəsinə baxan olsa,
Daxilində bir dünya var, Raquf kimi duyan olsa,
Yaxşı oğul, yaxşı qohum, arxanda bir elin olsa,
Dünya qədər adın yaşar, hörmət artar ildən-ilə,
Ucalmısan aqil insan, dahilərin zirvəsinə.

## MÜƏLLİM

***( Hörmətli dayım Fətulla müəllimə)***

Ağsaqqal, ziyalı, şəxsiyyət kimi,
Xalqımın özü, sözüsən, müəllim.
Yaşa yaddaşlarda, olduğun kimi,
Ucasan gözüm önündə, müəllim.

Hikmətli sözlərin örnəyim olub,
Verdiyin məsləhət köməyim olub,
Bu günkü günüm də əməyin olub,
Ucasan gözüm önündə, müəllim.

Zəhmətin çox olub nələr bitirdin,
Alim, şair, sənətkarlar yetirdin,
Nə öyrətdin mən də onu götürdüm,
Ucasan gözüm önündə, müəllim.

Borcluyuq hər zaman həyatda sizə,
Elm bəxş etdilər müəllimlər bizə,
Möhtacam hər zaman köməyinizə,
Ucasan gözüm önümdə, müəllim.

Yaş artır, üstünə yaş gəlir hər gün,
Dünyaya gələnlər köçəcək bir gün,
Həyatda mövqeyin olubdur düzgün,
Ucasan gözüm önündə, müəllim.

Qocaldın dünyanı sən görə-görə,
Günləri vermədin bil, hədər yerə,
Ucalmısan ölməzliyin zirvəsinə,
Ucasan gözüm önündə, müəllim.

Bağ saldın becərdin, oldun bağbanı,
Yığdın meyvəsini, dərdin barını,
Raquf, qaytar ustadların haqqını,
Ucasan gözüm önündə, müəllim.

## ŞAİR QOCALSADA, SÖZÜ QOCALMAZ

Yaş gələr yaş üstə, ömür azalar,
Şair qocalsada sözü qocalmaz.
Yazıb-yaratdığı yadigar qalar,
Şair qocalsada sözü qocalmaz.

Hakim kəsilibdir söz dünyasına,
Sığınar özünə, öz dünyasına.
Yazılar tarixin  düz dünyasına,
Şair qocalsada sözü qocalmaz.

Ruhundan güc alar sözü şairin,
Cahanda tox olar gözü şairin,

Allaha yaxındır  özü şairin,
Şair qocalsada sözü qocalmaz.

Haqqın çarçısıdır, mayası haqdan,
Təbinə güc verər böyük Yaradan.
Arzusu, diləyi ulu Tanrıdan,
Şair qocalsada sözü qocalmaz.

Nəfsi düşməz bu dünyanın malına,
Haram hopmaz nə ruhuna, qanına.
Fələk qıysa bir gün Raquf, canına,
Özün qocalsanda sözün qocalmaz.

## QARIŞAN DÜNYAMIZ KAŞ Kİ DÜZƏLƏ

Yurd  yerimin göyəribdi daşları,
Dayanmır gözümün axan yaşları.
Bizim gözəllərin kiprik, qaşları,
Boyanıb sürməyə məclisə gələ,
Qarışan dünyamız kaş ki düzələ.

Sac asılmır, təndir daha qalanmır,
Sarı bülbül gül başına dolanmır.
Dünya işin qaydasına salanmır,
Görməli günümüz gələcək hələ,
Qarışan dünyamız kaş ki düzələ.

Köçü getmir, alaçığı qurulmur,
Nə varlığı, nə yoxluğu duyulmur.
Dəbdən düşüb papaq başa qoyulmur,
Ağır dərddi kürəyimdə bu şələ,
Qarışan dünyamız kaş ki düzələ.

Gedənlər getdilər, geri dönmədi,
Odlanan ürəyim yandı, sönmədi.
Bəlkə sabahını Raquf görmədi,
Xoş günlər dilədi Vətənə, elə,
Qarışan dünyamız kaş ki düzələ.

## HƏR YOLDAN ÖTƏNƏ MÜƏLLİM DEMƏ

Gördüyün insanı ədəblə dindir,
Hər yoldan ötənə müəllim demə.
Bilirəm ixtiyar, bu haqq sizindir,
Hər yoldan ötənə müəllim demə.

Müəllimin haqqın alma əlindən,
Toxunma ruhuna, vurma belindən,
Dürr tökülər kəlməsindən, dilindən,
Hər yoldan ötənə müəllim demə.

Hər kəsin peşəsi xoşdur özünə,
Düzgün yanaşın müəllim sözünə,
Söyləyin hər kəsin adın üzünə,
Hər yoldan ötənə müəllim demə.

Fəhləyə qardaş de, rəhbərə yoldaş,
Qonşuya can de, bil özünə sirdaş,
Soyadın çağır, unutma qardaş,
Hər yoldan ötənə müəllim demə.

Bölüyü bənzətmə böyük qoşuna,
Sərçəni tay tutma, zümrüd quşuna,
Çobana bəy demə, gəlməz xoşuna,
Hər yoldan ötənə müəllim demə.

Dəllala tacir de, mal alıb satar,
Sevər peşəsini aqronom, baytar,
Müəllimin adın özünə qaytar,
Hər yoldan ötənə müəllim demə.

Loğmana təbib de, ya da ki, həkim,
Cahilə müəllim deməkdən çəkin,
Rəisə cənab de, siz olun mətin,
Hər yoldan ötənə müəllim demə.

Raquf, zəmanədən nədir gileyin,
Xalqından yeganə budur diləyin,
Əmi de, dayı de istəsən bəy de,
Hər yoldan ötənə müəllim demə.

## BU DÜNYA DÜŞÜBDÜR GÖZÜMDƏN MƏNİM

Nadanlar, cahillər meydan sulayır,
Düzələn deyillər sözümdən mənim.
Elə bil dünyaya çökübdür zülmət,
Bu dünya düşübdür gözümdən mənim

Bayquşlar  oxuyur qartala meydan,
Çaqqallar pələngə verməyir aman,
Tülküyə gör necə şans verir zaman,
Sözüm də bezibdir özümdən mənim.

Qarğa nəğmə deyir, bülbül susubdur,
Quzğunlar zirvədə yuva qurubdur,
Yaşılbaş sonalar boynun burubdur,
Yollar da küsübdür izimdən mənim.

Ormanlar ceyransız, cüyürsüz qalıb,
Qanqal boy atıbdı, bənövşə solub,
Aslanın  saqqalın  pişiklər  yolub,
Gəlməyir söz demək, üzümdən mənim.

## GEDƏYDİM  KAŞ

Neçə ildi düşmür yolum,
Tutulubdu qıçım, qolum,
Daşlarına qurban olum,
Dağlar, sənə gedəydim kaş.

Qoyun qalxa yamaclara,
Axşam enə arxaclara,
Ağdərədən, Qaraxaça,
İstisuya gedəydim kaş.

Ötüb keçəm dərələrdən,
Sular içəm çeşmələrdən,
Qarabağa, Kəlbəcərdən,
At belində gedəydim kaş.

Yol gedəydim çay qırağı,
Dərəm yemlik, quzuqulağı,
Addım-addım yaylaqları,
Ayaq yalın gəzəydim kaş.

Muradtəpə, Çaxmaqqaya,
Şiş qayadan yenəm çaya,
Yedəyimdə ağca maya,
Kəngərliyə gedəydim kaş.

Günlər keçir zaman-zaman
Çəkilməyir göydən duman,
Raquf, ömür versə aman,
Dağlar, sənə gedəydim kaş.

## DÜNYA

*Cavankən dünyasını dəyişmiş,*
*Xala oğlu Vəzirin əziz xatirəsinə.*

Dalıram xəyala, hər səhər-axşam,
Qatırsan zəhəri, sən bala dünya,
Elə dərd verirsən, tapılmır dərman,
Baxmırsan qocaya, cavana, dünya.

Həyatı dərk edib, duyandan bəri,
Görmüşəm nə qədər nakam gedəni.
Talehə yazılmış, saylı günləri,
Çox zaman bölürsən yarıya, dünya.

Çapırsan atını, hey sola- sağa,
Çəkirsən insanı, yaman sınağa.
Apardın yaxşını, erkən məzara,
Gəlmirsən ilqara, imana, dünya.

Bir ömür vermişdin, aldın yarısın,
Aldın əllərindən  ciyərparasın,
Qoydun gözü yaşlı, ana-bacısın,
Döndərdin baharın xəzana, dünya.

Kimi yüz yaşayır, kimisi əlli,
Biri şən yaranır, birisi qəmli,
Nə gəlişi bəlli, nə gedişi bəlli,
Gedənlər qayıtmır, arxaya, dünya.

## ZİYADXAN BUDAQ
## ( Şair-publisist)



Budaqov Ziyadxan Qurban oğlu, 20.02.1957-ci ildə Gürcüstan Respublikasının Bolnisi rayon Kəpənəkçi kəndində anadan olub, 1973-cü ildə yaşadığı kənddə tam orta məktəbi bitirib, 1974-1981-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib, 1987-1989-cu ildə Bolnisi rayon Xalq Təhsili şöbəsində metodist işləmişdir. 1989-cu ildə ailəlikcə Bakı şəhərinə köçmüş, 1990-cı ildə "Fəhlə yolu" çoxtirajlı qəzetin redaksiyasında çalışmışdır.

1991-1992-ci illərdə "Sirlər xəzinəsi" qəzetinin xüsusi müxbiri, 1993-1997-ci illərdə "Boz at" kiçik müəsisəsinin direktoru, 1998-2000-ci ildə "Ayka" LTD şirkətində hüquqşünas-məsləhətçi vəzifəsində çalışmış, 2000-ci ildən etibarən Bakı şəhər Binəqədi rayon 30 saylı məktəbində müəllim, təlim-tərbiyə üzrə direktor müavini, 2009-cu ilin sentyabr ayından Bakı Şəhəri üzrə Təhsil idarəsində metodist vəzifəsində çalışmışdır.

Ziyadxan Budaq, Borçalı mahalında yaşayan "Budaqlı" tayfasındandır, onun "Sabaha uzanan əllər", "Saz üstündə", "Yel dağında qalan izlər", "Könlümün dedikləri", "Bir kəndin naxışları", "Bir ömrün zirvə yolu", "Mən elə bağlıyam",

“Talelər”, “Çiçək yağışı”, Zamanın sorağında” Son ümid” adlı kitabların müəllifidir. AYB-nin üzvü, “Qızıl qələm” və “Araz” Ali Ədəbi Media mükafatları laureatıdır, Bakı şəhərində yaşayır, ailəlidir, dörd övladı, yeddi nəvəsi var.

## BU YURD

Bu yurd oğuz yurdudur, mehirlidir qucağı,
Bir sirr dolu soraqlıdır itib-batan uzağı.
Gəl nəfəs ver təzədən şölələnsin çırağı,
Sən, ay Vətən övladı, arzuya dön, dilək ol!

Bu yurd hünər yurdudur, baş əyibdir fələklər,
Yarı yolda yorulub yersiz küləklər.
Güc böyüdür hələ də beşikdəki bələklər,
Bu qüdrətə tapın sən, əyilməyən bilək ol!

Bu yurd Qorqud yurdudur, dünya görmüş qocadır,
Şamanlığa qol açıb, bəzirgandır, xocadır.
Bir nəzər sal, yaxşı bax, zamanından ucadır,
Tanrının nur payıdır, sən də burda mələk ol!

Bu yurd ozan yurdudur qopuzunda dillənər,
Ümman eşqi hay salar, selə dönər, sellənər.
Kərəm kimi alışar, sevgisində bəllənər,
Bu cəlala yaraş sən, bir nəğməli ürək ol!

Bu yurd səni gözləyir, yollarında gözü var,
Oğul ümid yeridir, deyiləsi sözü var.
Iblis qonşu donunda sayagəlməz üzü var,
Ayıq dayan, mətin dur, hər addımda gərək ol!

Oğul-yurdun zinəti, yurd-oğulun qeyrəti,
Gərək oğul qoruya bu birliyi, vəhdəti.
Istəsən ki, ucaltsın oğulluğun şöhrəti,
Həm bu yurda arxalan, həm bu yurda kömək ol!

## TƏBİƏT İNSANIN ÖZÜYMÜŞ ELƏ

Dağları nənəmin muncuq düzümü,
Qayası babamın səbri, dözümü.
Təzədən tanıdım burda özümü,
Təbiət insanın özüymüş elə.

Çəmənlər süfrədi, çiçəklər baldı,
Yer üzü ovqatdı, göy üzü haldı.
Bir göyçək camalda bir qara xaldı,
Təbiət insanın özüymüş elə.

Özülü torpaqdan, mayası haqdan,
Götürüb yükünü oddan, ocaqdan.
Uzaqdan başlanıb, yolu uzaqdan,
Təbiət insanın özüymüş elə.

Ülfəti ümmandı, mehri dərindi,
Ofsunu şipşirin, sehri dərindi.
Gördüm sevgisinin nəhri dərindi,
Təbiət insanın özüymüş elə.

Şeirdir, süzülüb qələmdən gəlir,
Duyğudan ayrılır, kəlamdan gəlir.
Özü bir aləmdir, aləmdən gəlir,
Təbiət insanın özüymüş elə.

## TƏBİƏTİN QOYNUNDA

Bir istək yolumda çırağa döndü,
Alova çevrildi, ocağa döndü.
Çöllərə üz tutdum, qucağa döndü,
Hazırmış yorğanım, döşəyim burda.

Gözəllik könlümü hədəfə aldı,
Atdı kəməndini toruna saldı.
Çiçəklər yanımda gözətçi qaldı,
Yamanca çəkildi keşiyim burda.

Burda bir dünyalıq harayım qalıb,
Bir dəli sevdadan sarayım qalıb.
Hələ çəkilməmiş bir yayım qalıb,
Gör nələr danışdı beşiyim burda.

Dağlar uğurumun qazancı oldu,
Dil açdı ruhumun dilmancı oldu.
Sonra da əynimə yapıncı oldu,
Qoymadı soyuqdan üşüyüm burda.

Şeirimi çəmənin adına yazdım,
Qaymaq çiçəklərin dadına yazdım.
Torpağın ən dərin qatına yazdım,
Quruldu öz evim, eşiyim burda.

## ATASIZLIĞIM

Ömrümün tufanı ömrümə qənim,
Çəkilmir başımdan dumanım, çənim.
Kimə arxalanım, kimə güvənim?!
Sinəmi dağlayır atasızlığım.

Ümidim boy verib cücərməz daha,
Qəmimlə gedirəm üzüsabaha.
Ölümmü ucuzdur, ölümmü baha?
Yolumu bağlayır atasızlığım.

Şirini acıdır atasız ömrün,
Varmı gözəlliyi butasız ömrün?
Növrağı pozulub qadasız ömrün,
Sel kimi çağlayır atasızlığım.

Ağırdır, əzabdır mətahım mənim,
Yoxdur ümid yerim, pənahım mənim.
Nə idi Ya Rəbbim, günahım mənim?!
Sonumu haqlayır atasızlığım.

İndi taleyimin dostu, yoldaşı,
Bir soyuq məzardı, bir də başdaşı.
Dərdimi suvarır gözümün yaşı
Zamanı saxlayır atasızlığım.

## SON SÖZ

Yanaqda sellənən göz yaşıyam mən,
Bir dərin möhnətin yoldaşıyam mən.
Ölən sevgimizin başdaşıyam mən,
Ağlasan da olar, ağlamasan da.

Döndüm pərvanəyə eşqin odunda,
Bir ömür yaşadım sevgi adında.
Mən necə deyim ki, saxla yadında,
Saxlasan da olar, saxlamasan da.

"Yox"una gözümü yummuram daha,
Eşqin dəryasına cummuram daha.
Mən səndan məhəbbət ummuram daha,
Dağlasan da olar, dağlamasan da.

Dəyib yetişibdir bəhərim mənim,
Sahilsiz ümmandır qəhərim mənim.
Gözdən uzaqlaşıb kəhərim mənim,
Haqlasan da olar, haqlamasan da.

Yolları qarışan güzaram indi,
Çəkilməz bir dərdəm, azaram indi.
Tək qalmış, kimsəsiz məzaram indi,
Yoxlasan da olar, yoxlamasan da.

Ömür mənim üçün ah-aman yeri,
Mən də bu dünyanın qəm daman yeri!
Nə ümid yeri var, nə güman yeri,
Bağlasan da olar, bağlamasan da.

## SƏN MƏNƏ OĞUL DE

Sən mənə oğul de, özümü tapım,
Bir ömrü sovurub yelə vermişəm.
Səyirdim atımı, təzədən çapım,
Çox şeyi yandırıb külə vermişəm.

Sən mənə oğul de, hələ gec deyil,
Mənasız ötməsin ömrün illəri.
Bəxtim qismətimlə hələ öc deyil,
Boş keçən günləri qaytarım geri.

Sən mənə oğul de, qaynayım, daşım,
Vüqarlı dolanım, qürurlu gəzim.
Sən mənə oğul de, bənd-bərə aşım,
Sellərin səsinə qarışsın səsim.

Sən mənə oğul de, mən də öyünüm,
Barı bircə dəfə qınımdan çıxım.
Elə istəyirəm, ay ömrüm-günüm,
Üfüqdən boylanım, şəfəqdən baxım.

Sən mənə oğul de, Vətən, ay Vətən,
Qayaya çevrilim, kəsəyə dönüm.
Sən mənə oğul de, Vətən, ay Vətən,
Bircə gün əynində bəzəyə dönüm.

## RÖVŞƏN BUDAQ
**(şair-publisist)**



Süleymanov Rövşən Qəhrəman oğlu 1964-cü ildə Beyləqan şəhərində anadan olub, gənc yaşlarından ədəbi yaradıcılıqla məşğul olub. Rövşən Budaq Azərbaycan Yazıçılar Birliyinin üzvü, AYB- nin Beyləqan bölməsinin mətbuat katibi, "Novator2 qəzetinin redaktoru, Prezident təqaüdçüsü, Beynəlxalq Rəsul Rza mükafatı laureatıdır. "İlahi məhəbbəti", "Məni könlünə qaytar", "Dünya məndən haqq umur", "Səma qatarları" və "Uzaq ulduzlar" kitabının müəllifidir.

### GƏLMİSƏN
**( Raquf Budaqlıya)**

Bu dünyanın ilmə-ilmə, tər sözün,
Naxış-naxış, hörə-hörə gəlmisən.
Eldən-elə keçdiyin yol uzunu,
Ulusunu görə-görə gəlmisən.

## BUDAQLI ELATI

Dərs almısan ustadların əlindən,
Od almısan Qədim Oğuz elindən.
Uluların dürlü-dürlü dilindən,
Kəlmələri dərə-dərə gəlmisən.

Ər yetirib Budaqlının bağçası,
Mərd igidi, hacıların hacısı.
Hacı Qasım ağamın söz boxçasın,
Könüllərə sərə-sərə gəlmisən.

Salur Qazan Dərbənddən ta Arana,
Tonqal çatdı, nişan verdi Turana.
Yaxıb kafir yurdun, qoyub viranə,
Ağ atını sürə-sürə gəlmisən.

Qara Budaq xan soyundan güc aldı,
Hünər meydanında ərtək ucaldı.
Zəfər yürüşündə qələbə çaldı,
Koroğlutək çəkib nərə gəlmisən.

Dönüb Təbriz, Naxçıvan obamıza,
Xan oğlu xan Pirbudaq babamıza.
Beyləqana, Budaqlı odamıza,
Tayfa-tayfa, tirə-tirə gəlmisən.

Dədə Qorqud ocağından söz dərib,
Rövşən Budaq, sənə şeir göndərib.
Mehdilərin soy ağacın göyərdib,
Budaq, binə quran yerə gəlmisən.

## OĞUZ YURDUM

Nərgiztəpə Oğuz yurdum,
Ulusum Dədə Qorqudum.
Ta qədimdən binə qurdum,
Qarabağa gedən yolda.

Uca Haqdan təpər aldı,
Sapand atdı, izi qaldı
Qara Çoban arxac saldı.
Qarabağa gedən yolda.

Bayandur xan şülən verdi,
Xan Qazan dövranın sürdü.
Köksünü yağıya gərdi,
Qarabağa gedən yolda.

Xocavənd doğma oylağım,
Aranım, dağım, yaylağım.
Ucalıb üçrəng bayrağım,
Qarabağa gedən yolda.

Vətəni qoruyan əsgər,
Yurd eşqi qəlbimi didər.
Qoç igidlər qurban gedər,
Qarabağa gedən yolda.

Qoca Qorqud haqqa varar,
Hay salar, haray qoparar.
Bizi zəfərə aparar,
Qarabağa gedən yolda.

## ALLAHIN ALTINDA, YERİN ÜSTÜNDƏ

Ey Adəm övladı gör nələr olur,
Allahın altında, Yerin üstündə.
Çiçəklər tapdanır, cocuqlar solur
Allahın altında, Yerin üstündə.

Cahan kafirləri tələlər qurur,
Dünyalar dağıdır, evlər uçurur,
Ürəklər dağlayır, könüllər qırır
Allahın altında, Yerin üstündə.

Bu bəşər aləmi olub oyuncaq –
Müsəlman elləri cəbhə boyunca,
"Oliqarx" dişində yemik doyunca
Allahın altında, Yerin üstündə.

Səbr daşım çatlayıb, içim qovrulur,
Ellər pərəm düşüb, yurddan qovulur,
Şəhərlər talanır, külü sovrulur
Allahın altında, Yerin üstündə.

Ey əliqanlılar, ağzıqanlılar
Etdiyin günahın haqqı danılar,
Tökdüyün bu nahaq qanlar anılar,
Allahın altında, Yerin üstündə.

Bu qara buludlar bir gün ötəcək,
Bu cahan davası sona yetəcək,
Cəhalət qeyb olub, zillət bitəcək,
Allahın altında, Yerin üstündə.

## BUDAQLI ELİ

Biz, Budağın budağı,
Budaq ulu babamız.
Ulu yurdun ocağı,
Oğuz eli obamız.

Göz açandan cahana,
Bağlanmışıq Turana.
Candan bağlıyıq cana,
Odlar yurdu odamız.

Od almışıq qorundan,
Güc almışıq zorundan.
Sülən verib varından,
Bayandur xan babamız.

Dədəmiz Qorqud gəlib,
İgidlərə ad verib.
Göy Tanrıdan söz dərib,
Bar verib söz bağımız.

Qara Budaq elimdi,
Qılınc vuran əlimdi.
Ormanımdı, çölümdü,
Aranımız, dağımız.

Xan Qazanın eşqinə,
Qardaşı Qara Günə.
Yurdunda qurdu binə.
Gül açdı torpağımız.

Kökdən göyərdi Budaq,
Dünyaya gəldi Budaq.
Ad aldı Qara Budaq,
Dikəldi papağımız.

Böyüdü igid oldu,
Yaşadı, yaşa doldu.
Elimizə ad oldu,
Budaqlı el adımız,
Budaqlı elatımız.

## ANA MƏHƏBBƏTİ

Bir ana ürəyi üşüyür bu yaz,
Qaranlıq gecədə, soyuq çadırda.
Bir ana köksündə dolaşır ayaz,
Çiskinli bir bahar ötür bayırda.

Bir ana gecələr darıxır yaman,
Gözləri yollara dikilir yenə.
Nə gecə qurtarır, nə ötür zaman,
Yuxusu göylərə çəkilir yenə.

Bir ana xəyalı dönüb keçmişə,
Qayıdır o ötən günlərə sarı.
O gənclik çağları gəlib görüşə,
Bir anlıq çovğun dönəydi barı.

Bir ana gözləri həsrətlə dolub,
Göz yaşı asılıb yanaqlarından.
Niskilli nəzəri göylərdə qalıb,
Bir laylay donubdu dodaqlarında.

Bir ana bu gecə yaman darıxır,
Dan yeri ağarır ağ saçlarında.
Üfüqdə parlayan Günəşə baxır,
Bir ümid göyərir baxışlarında.

## ZAMANIN DOĞANAĞI

İlişir zamanın doğanağında,
Yer şarı laxlayır sağanağında.
Qovğa var fələyin buğanağında.
Yaxşılar içində qurbanlıq seçir.
Bu dünya fırlanıb içimdən keçir.

Oxunan havalar külək kimidir,
Çalınan oyunlar kələk kimidir.
Öz dərdim özümə bələk kimidi,
Bəşərin ağrısı qəllbimə köçür,
Bu dünya fırlanıb içimdən keçir.

Cahanın mənəmlik tayı bir şələ,
Qurulmuş işlərin sonunda tələ.
Kölə yağıların şahı da kölə,
Manqurdlar cəhənnəm şərbəti içir,
Bu dünya fırlanıb içimdən keçir.

Cahan sultanları sığmır cahana.
Şərqin ən möhtəşəm irsi viranə.
Allahın dini də əldə bəhanə.
Mömінin ərşinin kafirlər ölçür.
Bu dünya fırlanıb içimdən keçir.

Müsəlman aləmi odlar içində,
Bir ibrət götürək bu son seçimdə.
Xain qonşuların barbar köçündə.
İblisin dəryazı aləmi biçir,
Bu dünya fırlanıb içimdən keçir.

Alıb ağuşuna qəflət yuxusu,
Bizi dara çəkir rüşvət qorxusu.
Tənbəllik azarı, şəhvət duyğusu,
Kiminə kef verir, kiminə ecir,
Bu dünya fırlanıb içimdən keçir.

Hələ ki, fatehlər yolunu azıb,
Qılıncla dünyanın qəbrini qazıb.
Hələ ki, fırlanır Tanrı nə yazıb,
Bir gün yaranmışlar, bir gün də köçür,
Bu dünya fırlanıb içimdən keçir.

## SÖZSÜZ ZAMAN

Söz sarınmış yumaq kimi,
Diyirlənib, tindən keçir.
Nənəmin baş barmağından,
Cəhrənin iyindən keçir.

Qarı nənəm söz əyirir,
Fırladır cəhrənin pərin.
Alt dodağı yer süpürür,
Döndərir haqqın təkərin.

Bu nə kələf, bu nə əriş,
Bu arğacdan necə keçim.
Aşığa ilişən kiriş,
Əldə qalıb söz əlçimim.

Mənə söz toxuyan qarı,
Başına corab hörürsən.
Haqq əyilməz şərə sarı,
Allahı arada gör sən.

Sözü uzat, tut ucundan,
İlmə qaçdı, xana qaldı.
Söz mülkü yol ayrıcında,
Haqq sözüm zamana qaldı.

Sözlərimi yozan qafil,
İlan kimi dilimi çal.
Haqqımı eylədin batil,
Qurdla qiyamətə qal.

## DÜNYA MƏNDƏN HAQQ UMUR

Ey Tanrı, ey Yaradan,
Aləmdə haqq yaradan.
Haqqı üzmə aradan,
Qoy gedim üzü haqqa.

Yüküm özümdən ağır,
Səhvim üstümə yağır.
Məni göylərə çağır,
Qoy gedim üzü haqqa.

Duyğularım söz əkir,
Bu daş, bu eşq, bu fikir.
Fələk haqqı kəm çəkir,
Qoy gedim üzü haqqa.

Əlimdə cənnət dəni,
Suçum var, əfv et məni.
Yolumdan çək bu çəni,
Qoy gedim üzü haqqa.

Ya təzədən doğulum,
Ya nurunla yuğrulum.
Tanrım sənə qul olum,
Qoy gedim üzü haqqa.

Keçdiyim izlər çamır,
Saçlarımdan tər damır.
Dünya məndən haqq umur,
Qoy gedim üzü haqqa.

**BEYLƏQAN QALASI**

Gəlir aram-aram zınqırov səsi,
Ötür bu yerlərdən dəvə karvanı.
Tapdanır torpağın isti sinəsi,
İzləyir yolçular qoca sarvanı.

Hardasa bir həzin bayatı səsi,
Yayılır obada beşik başında.
Sevdalı Mücürün sevgi nəğməsi,
Yazılır Beyləqan qala daşında.

Bir şair dünyası əbədi yaşar,
Bu odlar diyarı, qoca şəhərdə.
Bir sənət dünyası sədləri aşar,
Nur saçar Günəştək o qoca Şərqdə.

İgidlər ox atdı, qılınc oynatdı,
Doğma Beyləqanı qorudu şərdən.
Fitnəkar yağılar aranı qatdı,
Rüzigar dolandı  qədim şəhərdən.

Dünya öz çarxında, öz dövranında,
Arazın suları axır yenə də.
Beyləqan yaşayır təzə donunda,
Səyyahlar maraqla baxır yenə də.

Ulu Mücirəddin, iz qoyub burda,
Müqəddəs ruhu da burda dolanır.
İnci-mirvaritək söz qoyub burda,
Əbədi atəştək qəlblərdə yanır.

## DAĞLARDA QALDI

Doğma oylağımdan düşdüm aralı,
Gənclik təravətim dağlarda qaldı.
Torpağım yaralı, elim yaralı,
Tükənməz sərvətim dağlarda qaldı.

Al-əlvan don geyir geniş ormanlar,
Dolanır dağları bəyaz dumanlar.
Könlümdə yurd salıb ən şirin anlar,
Sevgim, məhəbbətim dağlarda qaldı.

Tuş olub dağların səhər mehinə,
Batardıq çəmənin billur şehinə.
Düşərdik ən gözəl ətrin sehrinə,
Misilsiz cənnətim dağlarda qaldı.

Yalçın qayaları, tərlan oylağı,
Çınqıllı daşlardan sızar bulağı.
Bir yanda kəkotu, quzuqulağı,
Ən dadlı nemətim dağlarda qaldı.

Zirvədən süzülən şəlaləsiylə,
Axan gur çayların təranəsiylə,
Sehirli "Göyçəgöl" əfsanəsiylə,
İlahi qüdrətim dağlarda qaldı.

Dağıldı xaniman, əsdi küləklər,
Saraldı çəmənlər, soldu çiçəklər.
Puç oldu ümidlər, ən xoş diləklər,
Müqəddəs niyyətim dağlarda qaldı.

Neçə obalarım, elim talandı,
Neçə şəhərlərim alışdı, yandı.
Göy üzü qaraldı, zaman dayandı,
Qarabağ şöhrətim dağlarda qaldı.

Alınmaz qalaydı hər dağım, daşım,
Tanrı köməyimdir, dağlar sirdaşım.
Düşməni məhv edər əsgər qardaşım,
Haqqım, ədavətim dağlarda qaldı.

## ZAHİD BUDAQLI



Əliyev Zahid Hacalı oğlu, 1958-ci ildə İmişli rayon Əliqulular kəndində anadan olub. ADNA-nı bitirib. Müxtəlif vaxtlarda ADNA-sı və BDU-də müəllim işləyib. Beynəlxalq İxtiraçılıq və biznes İnstitunda Psixologiya və Parapsixologiya fakültəsinin rəhbəri və müəllimi, eyni zamanda "Budaqlı" Psixoloji kömək mərkəzinin rəhbəridir.

Azərbaycan Milli Elmlər Akademiyasının fəlsəfə, hüquq və sosialogiya İnstitunun 2011-ci ildən doktorantıdır. "Hər ömür bir əsərdir" şeirlər kitabının müəllifidir. Zahid müəllim "Qızıl Qələm" mükafatı laurantı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Şimali Amerika Yazıçılar Birliyinin fəxri üzvüdür, 30 nəşr olunmuş kitab müəllifi və yüzdən çox klassik əsərin müəllifidir.

### KÖNLÜM

Qönçə idin, gül olmadın,
Açılmadan solan könlüm.
Dalıb şirin arzulara,
Xəyallara dalan könlüm.

Kədər üçünmü yarandın,
Öz içindən yandın, yandın.
Haqq, ədalət axtarırdın,
Tapdı səni yalan könlüm.

Taleyinə sazaq düşdü,
Qəmin qucaq-qucaq düşdü.
Sevinc səndən qaçaq düşdü,
Kədərlə dost olan könlüm.

## MƏNƏM

Bağban idim bağım vardı,
Səs yetməyən dağım vardı,
Hay-haraylı çağım vardı,
İndi səssiz qalan mənəm.

Varlılar tək varlı idim,
Karlılar tək karlı idim.
Vəfalıydım varlı idim,
İndi sanki yalan mənəm.

Od-alovum külə dönüb,
Ocağımın közü sönüb.
Şah vüqarım yerə enib,
Xəyəllara dalan mənəm.

Zalım dövran bəd gətirdi,
Gül-çiçək yox, qəm gətirdi.
Dərd üstünə dərd gətirdi,
İçin-için yanan mənəm.

## YADINDAMI

Yadindamı ötən günlər,
Sən mənimiydin, mən sənin.
Sən unutsan gülüm əyər,
Mən unuda bilmədim.

Yadıdamı ilk görüşdə,
Yağış yağdı üstümüzə.
Mənə dedin aydınlıqdı,
Batan olmaz eşqimizə.

Yadındamı bir dəstə gül,
Gətirmişdim sənin üçün.
Əvəzində şəkil verdin,
Mənə əzab vermək üçün.

Yadındamı bir gün qəfil,
Bilmədəm çıxdım yoluna.
Yadındamı gördüm səni,
Başqası girmiş qoluna.

Yadındamı dedin mənə,
Yalnız ürəyim sənindir.
Mən elə səninəm yenə,
Sənin ürəyin kimindir?

## ÜRƏYİMƏ

De niyə beləcə susub durmusan,
Elə bil qərq olub gəmin dəryada.
Bir qızın adını tutub durmusan,
Nə yaman dərd olub sənə dünya da.

Əlindən nə gələr qəmdən savayı,
Eh, özü bilər, sevmir-sevməsin.
Sənki sevdin onu, məndən savayı,
Qəm yemə sən, Allah bilmir-bilməsin.

Gəl unut bu gündən dünəni unut,
Bəsdir dediyinə qulaq asmışam.
Sən Allah, bu gündən özünü ovut,
Bil artıq, bil onu mən unutmuşam.

Sevirəm deməkdən yoruldum, ona,
Özüm də bilmirəm, sən de neyləyim.
Nə səndə insaf var, nə məndə dözüm,
Unut sən o qızı, unut ürəyim.

## BİR SOYUQ QIŞ GÜNÜ

Bir soyuq qış günü düşdün yadıma,
Ocağın odundan isinməz oldum.
Ömürlük yazıldın eşq yaddaşıma,
Qəlbimdən əbədi silinməz oldun.

Bir soyuq qış günü düşdün yadıma,
Ağladım göz yaşım gözümdə dondu.
Danışmaq istədim xəyallarınla,
İsti baxışların üzümdə dondu.

Bir qış gör nə yaman soyuqdu belə,
Yoxsa bu soyuğu indi duymuşam.
Canımı isidən sən idin demə,
Mən indi bilmişəm sənsiz qalmışam.

## İTİRMİŞƏM MƏN

Hələ də sevirəm səni ürəkdən,
Unutmaq istədim bacarmadım mən.
Görən nə vaxt bitər bu acı, bu qəm,
Səninlə sevgimi itirmişəm mən.

De, başqa nə verdin mənə kədərdən,
Eşqimə hədiyyən saçlarımda dən.
Sənsizlik ağırdı mənə ölümdən,
Səninlə sevgimi itirmişəm mən.

Oxşar günlərimdən bezdim, usandım,
Artıq ömrü başa yetirmişəm mən.
Tək səni düşündüm, tək səni andım,
Səninlə sevgimi itirmişəm mən.

Gözlədim yolunu sən gedən gündən,
Bu eşqi  sən niyə saldın gözündən?
Səndən başqasını sevə bilmirəm
Səninlə sevgimi itirmişəm mən.

## ATMA TALE ÜSTÜNƏ

Əlindən gələni de,
Atma tale üstünə.
Sənin tale dediyin,
Durub mənim qəsdimə.

Atma tale üstünə.
Hər olanı, keçəni.
Onun boynuna yıxma,
Başımıza gələni.

Deyib təsəlli vermə,
Qismətimiz beləymiş.
Yalan bu peyman, ilqar,
Əhdimiz belə imiş.

Tale üstünə atma,
Tale neyləsin ki, sən.
Verdiyin əhdə, anda,
Xəyanət eyləmisən.

Göz yummusan hər şeyə,
Aç gözünü mənə bax.
Mənə qarşı etdiyin,
Qarşına çıxar bir vaxt.

## ALIŞDI YANDI KÖNLÜM

Gözlərinin xumarında,
Tellərinin hamarında,
Bir sevginin qumarında,
Alışdı-yandı könlüm.

Ya ayrılıq, ya ölüm,
Fərqi yoxdu mən ölüm,
Bir vüsal həsrətiylə,
Alışdı-yandı könlüm.

Başıma kül ələndi,
Səni sevən ürəyim.
Əlinlə güllələndi,
Alışdı-yandı könlüm.

Həsrət nə yaman bildim,
Aman, ay aman dedim.
Qismət Allahdan dedim,
Alışdı-yandı könlüm.

## VÜSAL MURAD
### ( Gənc şair )



Quliyev Vüsal Mirələm oğlu, 16 dekabr 1986-cı ildə Beyləqan rayon Aşıqlılar kəndində anadan olub, 1993-cü ildə Beyləqan rayon Xalac kənd tam orta məktəbinin 1-ci sinfinə gedib, 2004-cü ildə həmin məktəbin 11-ci sinfini bitirərək ADPU-nin filologiya fakültəsinə qəbul olub. 2008-ci ildə həmin universiteti bitirərək həqiqi hərbi xidmətə getmiş, 2009-cu ildən hal-hazırki dövrə qədər Beyləqan rayon Xalac kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat fənnini tədris edir. Şair-publisist Vüsal müəllim, AYB-nin Beyləqan bölməsində "Araz ədəbi birliyi" və Gənc Yazarlar Birliyinin üzvüdür. O, ailəlidir, iki övladı var.

### MUĞAMAT

Uçmağa qanadı xoş xəyalların,
Dostudur kamanın, həm də ki tarın.
Vaxtilə Xan kimi bir sənətkarın,
Ən yaxın sirdaşı oldu muğamat.

Keçdi süzgəcindən çox nəsillərin,
Hər zaman əzbəri oldu dillərin.
Elə növüdür ki, qardaş güllərin,
Nə saraldı, nə də soldu muğamat.

Kənar musiqiyə keçilməz səddi,
Milli dəyərlərə tamam bələddi.
Səhvləri etməyə kimin nə həddi,
Doğrunu göstərən yoldu muğamat.

Sanki ovsunuyla çəkir diqqəti,
Getdikcə artmaqda onun qüdrəti.
Zərif telləriylə bizim milləti,
Kökünə bağlayan qoldu muğamat.

Yaşlı da, cavan da yaşar bu səslə,
Hamı qulaq asar böyük həvəslə.
Bir də görərsən ki, çıxan nəfəslə,
Udulub qəlblərə doldu muğamat.

Kimsə deyə bilməz gəldi-gedərdi,
Sevincdi, kədərdi, qeyrət, hünərdi.
Vüsal, arxayın ol, çəkmə bu dərdi,
Doğma vətənində boldu muğamat.

## VİCDAN KEŞİYİNDƏ

Sanma ki, bu yerdə düzü danıram,
Nə şöhrətpərəstəm, nə acqarınam.
Səhərlər yuxudan tez oyanıram,
Tənbəllər sayağı yatan deyiləm.

Gözümdən uzaqdır dünyanın varı,
Unuda bilmirəm vəfasız yarı.
Sonunda üzümüz qəbirə sarı,
Vicdanı paraya satan deyiləm.

Çox şükür Tanrıya əməllərim düz,
Yaxşıyla yamanı seçə bilir göz.
Ay zalım balası vurma mənə üz,
Halalı harama qatan deyiləm.

Sədaqət, ləyaqət  həyat amalım,
Yolumu göstərir ağıl, kamalım.
Fərqi yoxdu ölüm, yada ki, qalım,
Çirkabın içinə batan deyiləm.

Vüsalam tərəzi olacaq əlim,
Yalan söz danışa bilməyir dilim.
Haqq tərəf olacaq daima yerim,
Haqsızın tərəfin tutan deyiləm.

**ATADIR**

Qabar əllərlə zəhməti,
Hər zaman çəkən atadır.
Hər ağır vəziyyəti,
Yoluna salan atadır.

Yaddan çıxarma bircə an,
Yaxın olub oduna yan,
Bil ki, sənə təkcə güman,
Qeydinə qalan atadır.

Dərd-qəm aşıb çalğayanda,
Göz önünü bağlayanda,
Kövrələrək ağlayanda,
Könlünü alan atadır.

Yıxılı evin dirəyi,
Ailəsinin köməyi,
Övladlarının örnəyi,
Arxada duran atadır.

Yaxşıyla yamanı bilən,
Öyüd verib yol göstərən,
Sevincini sənlə bölən,
Həmrəyin olan atadır.

Vüsal, dərk et bu sözləri,
Eylə dilinin əzbəri,
Zillənərək hey gözləri,
Yolunda solan atadır.

## HEÇƏ GETMƏZ ŞƏHADƏTIM

*(Şəhid Orxan Quliyevin əziz xatirəsinə ithafən)*

Nümunədir cəsarətin,
Döyüşlərdə oldun mətin.
Fəxrisən, Orxan, millətin,
Hər kəs üçün bir iftixar,
Bu gedişdə əzəmət var.

Vətənin torpaq, daşını,
Qorudun dik tut başını.
Ata, ana, qardaşını,
Ucaltdın sən zirvələrə,
Sipər olub güllələrə.

Göylərdən alov yağırdı,
Vətən köməyə çağırdı.
Bilirəm dözmək ağırdı,
Ana, özünə etmə zülüm,
Deyildir bu adi ölüm.

Düşmən aşdı öz həddini,
Ay ata, əymə qəddini.
Dövlətinin sərhəddini,
Azad edib pərpa etdi,
Balan dünyadan şad getdi.

Qardaşım, olma nagüman,
Düşmənə vermədim aman.
Pərişan olduğun zaman,
Bax bütövləşdi dövlətim,
Heçə getməz şəhadətim.

## SƏMA ŞƏMS



Tarverdiyeva Səma Pərviz qızı 06 iyun 2005-ci ildə Beyləqan şəhərində anadan olub. Səma Şəms təxəllüsü altında şeirlər və hekayələrin müəllifidir. Səma Şəms Beyləqan şəhər Təbiət və Humanitar fənlər təmayüllü liseyin XI sinif şagirdidir. O, uşaqlıqdan bədii yaradıcılıqla məşğul olur və rəsm həvəskarıdır. Şeirləri və hekayələri dövrü-mətbuatda müntəzəm olaraq çap olunmaqdadır.

## *HEKAYƏLƏR*

## TARİXDƏ QALAN İZ

Səhər-səhər yuxudan oyanmaq mənim üçün əziyyətə çevrilmişdi. Dərslərin ağırlığı, yuxusuzluq, həyəcan, qısası tələbə həyatı. Uzun müddətdir ki, bir kitabın cazibəsinə düşmüşəm. Nisbi yorulduğumu hiss etdim. Stolun başından qalxıb pencəyimi geyindim. Bir az təmiz hava almaq üçün həyətə düşdüm. Hava hələ qaralmamışdı. Məhləmizdə həmişəki kimi sakitçilik idi. Bizim məhlə dalan və darısqal olduğu üçün çox adam olmurdu. Sabah dərsdə yazacağım mövzu baradə düşünməyə başladım. Düşünə-düşünə gedirdim ki, bir də gördüm ki, məhləmizin sonuna çatmışam. Bu zaman rəsm divarında küncdə yazılan yazını gördüm. Keçmiş xatirələri-

miz, yeni ümidlərimiz olmalıdır. Bu divarı bizim məhlənin uşaqları öz boyaları ilə boyamışdılar. Rənglər o qədər cəlbedici görünürdü ki, rəsmi sevən insanlar fırçalarını, boyalarını götürüb gəlirdilər həmin lövhədə rəsm çəkməyə. Göyqurşağı rənginə boyanmış divarın küncündəki bu yazı mənə unutduğum bir hekayəni xatırlatdı. Yəqin ki, hər bir kəsin həyatında əvəz olunmaz dediyi və ya heç unutmadığı bir xatirəsi ola bilər. Əlbəttə bu xatirələr insandan-insana dəyişir. İnsanlar müxtəlif təfəkkürlü olduğu üçün xatirələr də müxtəlif olur. Yaddaşda qalan bəzi xatirələr insanı hədsiz sevindirdiyi halda, bəzi xatirələr isə insana sonsuz kədər bəxş edə bilir. Mən də sizə unutmadığım həmin hekayəni bölüşmək istəyirəm...

Nərgiz, bizim məhəllədə sadə bir ailədə dünyaya göz açmışdı. Evlərinin ilk sevinci olmaqla ata-anasının sevinc mənbəyidir. Xarakter cəhətdən mehriban, səmimi olan Nərgiz, təkcə ailəsinin yox, sinif yoldaşlarının da sevimlisinə çevrilmişdi. Qiymətləndirmə zamanı aldığı yüksək qiymətlərlə müəllimlərinin dərin rəğbətini qazanmışdı. Nərgiz, maddi durumlarının yaxşı olmadığını bildiyi üçün, bütün hallarda yaşıdlarından fərqlənməyə daha çox səy göstərirdi.

Məktəbin tətilə çıxmasına az qalmışdı. Tənəffüs bitdikdən sonra şagirdlər hər birisi öz yerlərində əyləşdilər. Müəllim hələ gəlməmişdi. Bir azdan qapı döyüldü, içəri yuxarı sinif şagirdlərindən bir qız daxil oldu. O, müəllimin bir az gecikəcəyini və uşaqların sinifdə sakit durmasını tapşırıb otaqdan çıxdı. Təxminən beş dəqiqədən sonra Sevinc müəllimə üzündə böyük təbəssümlə sinif otağına daxil oldu. Sevinc müəllimə ilk öncə dərsə gecikdiyi üçün üzr istədi, daha sonra isə gecikməyinin səbəbinin onlarla bağlı olduğunu, 9-cu siniflər arasında inşa yarışması keçiriləcək (hər il məktəbimizdə 9-cu

siniflər üzrə inşa yarışması keçirilir), deyə sözə başladı. Uşaqlar mən istəyirəm ki, bizim sinif bu yarışmada birinci olsun. Sevinc müəllimənin sinifində istedadlı şagirdlər çox olduğu üçün hər yarışmada məhz onun sinifi birinci yeri tuturdu. Sevinc müəllimə, şagirdlərin hər birinin iştirak etmək məcburiyyətində olduğunu və sabah yazılmış inşaları yığacağını dedikdən sonra, inşada yazılacaq mövzuların adını söylədi:

I mövzu: Qəhrəmanlar unudulmur.

II mövzu: Hər şey Vətən üçün.

Müəllim sözünü bitirdikdən sonra Nərgiz hansı mövzunu seçəcəyinə qərar vermişdi. Evə çatan kimi işim ilk növbədə bu inşanı yazmaq olacaq deyə öz-özünə fikirləşdi. Dərs bitdikdən sonra uşaqlar yazacağı inşaları müzakirə edirdilər. Nərgiz məktəbin kitabxanasında çox vaxt keçirdiyi üçün söz ehtiyatı zəngin idi. Elə buna görə də bir-birindən gözəl inşa yazma qabiliyyəti də var idi. Bayram tədbirlərində xüsusi olaraq tədbirlərin aparıcısı mütlər Nərgiz olardı. Uşaqlar seçəcəkləri mövzu barədə qəhrəmanlar haqqında danışırdılar. Aktiv olmayan yeganə uşaq Nərgizin parta yoldaşı Sənan idi. Təbiətcə həddən artıq sakit və utancaq olan Sənan inşa yazmağı heç xoşlamazdı. Müəllim şagirdlərə inşa tapşırığı verəndə Nərgiz çox zaman uşaqlara köməklik edərdi. Sənanın köməklik istəmədiyini bildiyi üçün Nərgiz onun inşasını özü yazır və müəllim görmədən dəyişirdi.

Tənəffüs bitdikdən sonra Nərgiz öz yerində əyləşdi, dəftərinin bir ucuna qeyd yazdı:- "Sənan üçün inşa yazmağı unutma". Səhər yenicə açılmışdı. Yenicə çıxmış günəşin şöləsi ətrafı nura boyamışdı, günəşin parıltısı insana xüsusi zövq verirdi. Nərgiz pəncərəni açıb ətrafdan gəlib-keçən qonşulara

həvəslə tamaşa edir, həm də təmiz hava alırdı. Nərgiz bu gün özünü halsız hiss etdiyi üçün yenidən qayıdıb yatağına uzandı. Bir az keçməmiş anası qapını açıb içəri girdi, qızının halsız olduğunu görüb əlini alnına qoydu. Nərgizin hərarəti yüksək idi. Bu halı görən ana dərhal geri qayıdıb əlində bir stəkan su və bir parastomal həbi gətirib qızına verdi. İmmunitet cəhətdən zəif olan Nərgiz tez-tez xəstələnirdi. Nərgizin bu halını görən anası qızının məktəbə getməsini məsləhət bilmədi. Nərgiz isə bu gün inşa yazacağını deyib astadan mızıldandı. Anası balaca qardaşı ilə inşanı göndərəcəyini və müəllimə xəbər verəcəyini deyib qonaq otağına keçdi. Nərgizin ayağa durmağa halı yox idi. Odur ki, yatağında uzandı.

Səhəri gün Nərgiz özünü daha yaxşı hiss edirdi. O, çantasını götürüb məktəbə getdi. Məktəblə evləri arasında az məsafə varıydı. Sinifə girəndə uşaqların əl çalıb güldüyünü, dünənki yarış barəsində danışdıqlarını eşitdi. Ən yaxın rəfiqəsi Arzu onu qucaqlayıb təbrik etdi. Yarışda birinci yeri tutduğunu, sinif adından Sevinc müəllimin diplom aldığını dedi. Nərgiz də öz növbəsində Arzunu və bütün sinif yoldaşlarını təbrik etdi. Həmin an gözü parta yoldaşı Sənana sataşdı və Sənanın adına yazacağı inşanı unutduğunu xatırladı. Yazdığı qeydi unutduğu üçün özünü qınadı və çox pis oldu. Ancaq Sənan bikef görünmürdü, qarşısındakı rəngli boyalarla dəftərinə rəsmi çəkirdi. Onun rəsmləri sərgidə hər zaman xüsusi olaraq göstərilirdi. Rəsmi sevdiyi üçün məktəbdən kənar, sinifdən xaric kurslara yazılmış, məktəbin yarışlarında dəfələrlə iştirak etmişdi. Bu an Nərgizin gözü önündə hələ uşaq yaşlarında olan bir xatirə canlandı. Bir dəfə Nərgiz atası ilə velosiped sürmək üçün parka getmişdi. Onunla yaşıd bir uşağın velosipedin üstündə otura bilmədiyini görüb atasına: - Mən

velosipedi köməksiz sürürəm, ancaq görürsən o uşaq heç velosipedə minməyi bacarmır, deyib atasına gülümsünür. Atası Nərgizin balaca əllərindən tutub deyir: - Bax qızım heç kim mükəmməl deyil. Sənin gözəl bacardığın elə bir şey ola bilər ki, mən onu bacarmaram. Mənim bacardığım elə şeylər olar ki, sən onu bacarmarsan. Mən insanları çox vaxt kitaba bənzədirəm. Hər kitabın başqa məzmunu, obrazları müxtəlif hadisələrlə əhatəli olduğu kimi, insanlar da başqa-başqa xarakterlərə, bacarıqlara malikdir. Çalış belə işlərə görə başqalarını qınama. Mən necə ki, sənin əlindən tutmuşam, sən də həmin insanların əlindən tutmağı bacarasan. Həmin gündən sonra Nərgiz daha heç kimə gülmədi, atasının dediyi kimi dostlarının əlindən tutmağı bacardı. Düzdü Nərgiz inşa yazmağı unutmuşdu, lakin atasına verdiyi sözü unutmamışdı. Elə buna görə də sinif yoldaşları onu çox sevir və ona dəyər verirdilər...

Nərgiz 9-cu sinifi əla qiymətlərlə bitirdi. Müəllimləri Nərgizin dərslərdə fəallığını, bacarığını görüb, onu həkimliyə yönləndirmişdilər. Bu seçimdən Nərgiz də məmnun idi və hər gün böyük həvəslə dərslərinə hazırlaşırdı. Hər şey qaydasında cərəyan etdiyi halda günlərin birində Nərgizin atasının işləri çətinə düşdü. Atasının min-bir əziyyətlə tikdirdiyi dükanında oğurluq oldu. Dükandakı bahalı malların oğurlanması və dükanın ziyana düşməsi yaxşı olmayan durumlarını daha da çətinləşdirmişdi. Buna görə də Nərgiz 9-cu sinifin imtahanlarını müvəffəqiyyətlə verib sənədlərini Tibbi kollecinə verdi və Tibbi kollecinin tələbəsi oldu...

Nərgiz tələbəlik illərini xalasıgildə keçirdi. Zaman keçdi Tibbi Kollecini bitirdikdən sonra xalasının köməkliyi ilə xəstəxanaların birinin cərrahiyyə şöbəsində əmək fəaliyyətinə

başladı. Əvvəllər onun üçün çətin olsa da artıq qan qoxusuna öyrənmişdi. Hər gün yeni insanlar tanıyır, onların dərdlərini bölüşür və bacardığı qədər əlindən gələn köməkliyi etməyə çalışırdı.

Nərgiz həmişə olduğu kimi bu gün də işə vaxtında gəlmiş, işin başlanığıcında baş həkimlə birlikdə xəstələrin yoxlanmasına köməklik edirdi. Bu gün televizorda alt yazı olaraq keçən xəbəri oxudu.  Düşmən bu gün səhər saat 6-00 radələrində təkrar olaraq atəşkəsi kobud sürətdə pozaraq ordumuzun döyüş bölmələrinə və mülki əhali yaşayan yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Ordumuz düşmənin bütün atəş nöqtələrini cavab atəşi ilə susdurmuşdu. Cəbhədə baş verən xəbərlər haqqında ətraflı məlumatlar bir azdan canlı yayımda veriləcək. Telekanalları izləyin. Nərgizin atası əslən Qarabağlı idi. Xəbəri oxuyarkən Nərgizin əlləri titrədi, gözləri doldu. Gözünü bir nöqtəyə zilləyib, donub qalmışdı. Həkimin əlini qolunda hiss etduyi zaman özünü ələ almağa çalışdı. Nərgiz özünə gəldikdən sonra cəbhədə döyüşən əsgərlərə dua etdi. 27-ildir çəkdikləri Vətən həsrətinə son qoyulması üçün Allaha yalvardı. “Hələ keçən əsrlərdən bizim xalqımız çox çətin sınaqlardan keçib, amma heç kəs xalqımızın iradəsini qıra bilməyib. Zaman-zaman xalqımıza mənsub olan torpaqlarımızın işğalı ilə barışmayan mərd oğullarımız, vətən uğrunda savaşıb qəhrəman adını qazanmış, canlarının bahasına doğma torpaqlarımızı qorumuş və şəhidlik zirvəsinə yüksəlmişdilər. Şanlı döyüşçülərimiz Vətənin səsinə səs verdilər, gözlərini qırpmadan döyüşə atıldılar. Onlar Vətən borclarını yerinə yetirdilər. Biz isə bu günümüz üçün əbədi Qəhrəmanlarımıza borcluyuq”.

- "Allah bütün şəhidlərimizə rəhmət eləsin". Mən bilirəm ki, şəhidlər ölmürlər, onlar hər zaman xalqın qəlbində yaşayırlar. Hər bir vətəndaş bu fədakarlığı unutmamalı və heç kim də unudulmamalıdır. Bu bizim mənəvi borcumuzdur.

Xəstəxanada hər kəs müharibə haqqında danışırdı. Xəbərlərdə düşmənə ağır zərbə endirildiyini, düşmən ordusunun zərərsizləşdirilməsi haqqında məlumatlar canlı yayımda göstərildikdən sonra Nərgiz artıq özünü ələ ala bilmişdi. Çalışdığı peşə ona soyuqqanlı olmağı öyrətmişdi. Amma Qarabağ qəlbimizə vurulmuş elə bir yaradır ki, bu yaranı sağaltmaq üçün illər lazım olacaq. Yaşanan acı hadisələr unudulmur, əksinə zaman keçdikcə daha da ağırlaşır və dözülməz olur.

İşin başlanmasından təxminən yarım saat keçmişdi ki, orta yaşlı bir qadın, qucağında ağlayan bir uşaqla içəriyə daxil oldu. Bu uşaq 3-4 yaşlarında olardı. Uşağın geyindiyi şalvarın sağ ayağı dizlərindən yuxarıya qədər qatlanmışdı. Dizi qan içində olan uşağı dərhal əməliyyat stoluna uzatdıq. Həkim təmkinlə uşağın yarasını yuyub təmizləməyə başladı. Uşağın qışqırtı ilə ağlaması, ayağını tez-tez çəkib boşlaması həkimin işinə çətinlik yaradırdı. Nərgiz uşaqa doğru əyilib həkimə sarğı vurmaqda köməklik edirdi. Ardıcıl çalan telefonun səsini eşitsədə onu aça bilmirdi. Nərgiz işini bitirdikdən sonra zəngin iş yoldaşı tərəfindən gəldiyini gördü və ona zəng etdi. İlk zəngə telefonu açmasada ikinci cəhddə telefonu açdı. Həyəcanlı bir səslə:

- Nərgiz tez birinci mərtəbəyə düş, iki şəhidimiz var, üç ağır yaralı, bir azdan xəstəxanamıza gətirəcəklər deyib telefonu bağladı.

Nərgiz telefonunu cibinə qoyub qaçaraq aşağı düşdü. Bir neçə həkim qapıda gətiriləcək yaralıları gözləyirdi. Bir az keçməmiş təcili yardım maşınları həyəcan siqnalı ilə qapıya çatdı. Xəstələri maşından düşürüb xərək vasitəsilə ehtiyyatla əməliyyat otağına apardılar. Uzun əməliyyatdan sonra iki yaralı onlar üçün hazırlanan xüsusi otağa aparıldı. Bir yaralı isə çox qan itirdiyi üçün onu xilas etmək olmadı. Şəhidin ailəsinə xəbər verildi. Yaralıların bütün xərcləri dövlət tərəfindən ödənilirdi. Yaralı olaraq xəstəxanaya çatdırılan və xəstəxanada şəhid olmuş, şəhidin soyunduğu geyimini yığışdırmaq Nərgizə tapşırılmışdı. Nərgiz qanlı hərbi geyimi qatladıqca əlləri titrəyirdi. Bu zaman geyimin cibində görsənən qana bulanmış kağız parçasını gördü. Bu mənzərə qarşısında donub qaldı. Kağız parçasında gözəl qızım yazısını oxudu. Yazı gözəl və səliqəli xətlə yazılmışdı. Nərgiz kağızı əksi tərəfə çevirdi və balaca bir qız uşağının məsum baxışlarını öz üzərində hiss etdi. Gözlərindən axan acı göz yaşlarından da xəbəri olmadı. Bir cüt məsum gözlərin onun baxışında donub qalmışdı. Dövlət bayrağına and içən əsgər andını doğrultmuşdu.

Nərgiz qapını açıb dəhlizə çıxdı. Geyimin cibindən tapdığı şəkili baş həkimə təhvil verdi. Amma bu şəkil Nərgizə çox tanış gəlirdi. O, bildirdi ki, bu balaca uşağın gözləri onun hafizəsindən silinməyəcək. Amma Nərgiz bu qızı görmək, şəhidin ailəsini tanımaq istəyirdi. Şəhidin kimliyi məlum idi. Odur ki, Nərgiz araşdırıb evlərinin yerini öyrəndi. Ara sakitləşdikdən sonra bu evə baş çəkməyi özünə borc bildi. Nərgiz işini qurtardıqdan sonra ağır yaralıların yerləşdirildiyi otağa keçdi. Ehtiyaclarını soruşmaq üçün xəstələrə yaxınlaşdı. Ona gülümsəyən gözləri həmin an tanıdı. Bu insan Nərgizin 9-il-

lik sinif yoldaşı Sənan idi. Sənan ağır yaralanmışdı, buna baxmayaraq möhkəm və iradəli görünürdü. Sənan əli ilə yanındakı oturacağı göstərib Nərgizin əyləşməsini xahiş etdi. Nərgiz də stulda əyləşib öz növbəsində onun halını soruşdu. Bir az söhbət etdikdən sonra Sənan dedi:

- Bilirsən mənim üçün maraqlı olan nədir?!-, deyə yeni bir söhbət açdı.

- Yadındadı bizim məktəbdə inşa yarışması keçirilmişdi. Mövzular hələ də yaddaşımdan silinməyib. "Qəhrəmanlar unudulmur" bir də "Hər şey Vətən üçün"

Nərgiz həmin yarışmanı xatırladı, hətta unutduğu inşanıda. Daha sonra Sənan sözünə davam etdi:

- Sevinc müəllimə o inşa üçün məni çox danladı, mən də onun könlünü almaq üçün ona Vətən məzmunlu bir tablo çəkib bağışlamışdım. Düzdür, həmin gün mənə tapşırılan inşanı yazmamışdım, amma indi Azərbaycan tarixinə dostlarımla birgə yeni bir səhifə yazdım. Bu gün məmnunam ki, doğma yurdumuz Qarabağa gedən yolda silahdaşlarımla birgə vuruşdum. İnşallah tez bir zamanda ata yurdun Şuşaya getmək sənə də nəsib olacaq. Qarabağın barıt qoxusunun belə özgə gözəlliyi var, deyib gülümsədi.

Nərgiz, sevinc göz yaşlarını saxlaya bilmədi. Sənana və digər palatada yatan yaralı əsgərlərə təşəkkür etdi. Onların timsalında Ali Baş Komandana və bütün Azərbaycan ordusuna minnətdarlığını bildirdi. Sənan da öz növbəsindən onun yazdığı bütün inşalar üçün Nərgizə təşəkkürünü bildirdi. Həmin gün Nərgizin inşanı yazmağı unutduğunu və bunun üçün bikef olduğunu hiss edib, ancaq heç bir söz deməyib. İndisə bu qədər dəyərli bir inşanı yazmamağı özünə bağışlaya bilmirdi. Necə olursa olsun bu inşanı yazmalıyam. Bu ha-

disə Sənana o qədər təsir etmişdir ki, hər il inşa yarışmasının keçirildiyi gün gözəl şəkil çəkib və həmin şəkilləri şəhid övladlarına bağışlayacağını düşündü. Sənan xatirələrini bölüşdükcə Nərgiz anladı ki, onun sakit və bir qədər də utancaq tanıdığı oğlandan əsər-əlamət qalmayıb. O, indi möhkəm iradəli Azərbaycan əsgəridir.

Baş verən hadisələrdən iki ay keçmişdi. Nərgiz özünə borc bildiyi o şəhid qızını görmək üçün yola çıxdı, amma ilk öncə şəhidimizin qəbrini ziyarət etmək üçün "Şəhidlər xiyabanı"na getdi. Şəhidlər xiyabanının girişində dayanmış bir mömündən yeni şəhid olmuş şəhidlərin qəbrlərinin yerini soruşdu. Axtardığı şəhidin qəbrini tapıb önündə dayandı. Üçrəngli Azərbaycan bayrağı şəhidin məzarı üstündə dalğalanırdı. Nərgiz, cib dəsmalını çıxarıb məzarın daşını silib təmizlədi və özüylə gətirdiyi tər qərənfilləri qəbrin üstünə qoydu. Məzarın sinə daşı üstündə Bəxtiyar Vahabzadənin bir bənd yazılmış şeirini oxudu:

"Niyə yaşayıram mən, niyə sənsiz?
Nə yerə baxıram, nə göyə sənsiz.
Mən ki, kor olmuşam hər şeyə sənsiz,
Kor gözün üstündə qaşı neylərəm"...

"Şairin deyimi ilə şəhidin həyat yoldaşından xatirə" sözü yazılmışdı.

Nərgizin gözlərindən axan göz yaşları onu boğur və damla-damla süzülüb yanaqlarına tökülürdü. O, bir anlıq bu sıxıntıdan qəhərlənməyə başladı. Nərgiz özünü ələ alıb həm qarşısında dayandığı şəhid üçün, həm də bütün şəhidlərə Allahdan rəhmət dilədi...

Əlində bərk-bərk tutduğu ünvanı olduğu evin qarşısında dayandı. Azərbaycanın üçrəngli şanlı bayrağı evin qarşısında

dalğalanırdı. Asta-asta addımlarla evin qapısına yaxınlaşdı və iki dəfə qapını döydükdən sonra qapı açıldı. Qapını açan xanımı tanımaq, onun üçün çətin olmadı. Harada görsə bu xanımı tanıyardı. Bu xanım, şəhid və yaralılar gəlməzdən bir az öncə, ayağı zədələnmiş qızını həkimə göstərmək üçün gəlmişdi. Şəkil qana bulandığı üçün o qızı tanıya bilməmişdi. Xanım da Nərgizi tanıdı və onu evinə dəvət etdi. Nərgiz xalının üzərində oturub oyuncaqları ilə oynayan qıza yaxınlaşdı və əyilib onun yanaqlarından öpdü. Bu balaca qızın gözlərinə baxdı və həmin an şəkildəki məsum baxışları onun gözlərində canlandı. Bu körpə qız balacadı, nə baş verdiyini hələ anlamır, ancaq gələcəkdə bir Azərbaycanlı kimi o da atası ilə fəxr edəcək, qürur duyacaq. Xəstəxanaya gələn vaxt gözləri gülən xanım sanki qocalmışdı, gözlərində kədər hisləri aydın görünürdü. Amma Nərgiz, bu xanımın baxışlarında Azərbaycan qadınlarına məxsus bir məğrurluğu, dəyanət və dözümü gördü.

Bu hekayə mənim dostum Nərgizin başına gələn əhvalatdı. Onun hər an yanında olmuşam, sevincinə, kədərinə şərik olmuşam. Dünyaya gec gəldiyim üçün atam mənim adımı Arzu qoyubdu. Mən dünyaya gəlişimlə onların arzularını reallaşdırmışam. Artıq tələbəyəm, müəllim olmaq üçün ilk addımlarımı atıram. İndi bu bəzəkli divarın qarşısında dayanmışam. Divardakı rəngə, yazılmış gözəl yazıya baxıram." Keçmiş xatirələrimiz, yeni ümidlərimiz olmalıdır". Mən baş qəhrəman olmasam da şahidi olduğum canlı xatirələri yaddaşımda saxlayıb, gələcəkdə şagirdlərimə danışmağı bu xatirələri canlı yaşatmağı özümə borc bilirəm. Xalqıma və millətimə layiqli vətəndaş olacağıma, doğma Vətən üçün vətənpərvər, soykökümə bağlı vətəndaş yetişdirəcəyimə nail olacam...

# ŞEİRLƏR

## VƏTƏN

Vətən! anam qədər mənə əzizdir,
Vətən! ana yurdun ab-havasıdır.
Torpağını sevən, yurdunu sevən,
Qəhrəman igidin xoş sədasıdır.
Anadan doğulan ər oğulların,
Udduğu havası, göy səmasıdır.
Vətən müqəddəsdi, doğma əzizdi,
Bəşər övladının ilk kəlməsidir.

Canlarından keçdi igid oğullar,
Vətənin uğrunda şəhid oldular.
Bir evdə iki şəhid olan qardaşlar,
Həyatda silinməz izlər qoydular.
Döyüşlərdə gözlərini qırpmadan,
Düşmənin önündə məğrur durdular.
Bir yerdə döyüşən atayla, oğul,
Düşmənin səngərin birgə yardılar.

Vətən fədailəri, ey, Vətən oğlu,
Vətən! doğma yurdu sevənlərindi.
Döyüşə girəndə qorxu bilmədən,
Meydanda sözünü deyənlərindi.
Körpə balasını evində qoyub,
Könüllü döyüşə gedənlərindi.
Göz yaşı içində qoyub ananı,
Bir ölüm yolunu seçənlərindi.

*Dekabr 2020.*

## DOSTUM

Məhəbbətlə, sevinclə
Xatirəmdə qalırsan.
Hər gün salıb yadıma,
Anıram səni, dostum.
Görüşümə gələndə,
Necə də xoşbəxtəm.
Bahar çiçəyi tək,
Qəlbimdə parlayırsan.
Dostluq bir ürəkdi,
İki bədəndə.
Ürəkdən sevinirəm,
Hər an səni görəndə.

## GÜVƏNC YERİM

Güvənc yerim,
Atam, anam.
Tərbiyəni
Babalardan
Dahilərdən
Almalıyam.
Müəllimlərə,
Böyüklərə,
Baxmalıyam.
Ağsaqqala,
Ağbirçəyə,
Hörmət edib,
Baş əyərək,
Hər an yada
Salmalıyam.

## DÖYÜŞƏCƏK QARDAŞLARIM

"İgid ölər, adı qalar"-
Düz deyibdir babalarım.
Doğma Vətənim uğrunda,
Döyüşəcək qardaşlarım.

Zamanı gəlib çatacaq,
Yatanlar da oyanacaq,
Hamı ayağa qalxacaq,
Döyüşəcək qardaşlarım.

Yaxınlaşır qələbəmiz,
Sevinəcək hər birimiz,
Gələcəkdir xoş günümüz,
Döyüşəcək qardaşlarım.

## MÜƏLLİMLƏR

Müəlimlər, dahisiniz,
Öyrətdiniz elmi bizə.
Bunun üçün hər birimiz,
Minnətdarıq daim sizə.

Qoyub əlimin üstünə,
Öz mübarək əllərini,
Öyrədibdir "əlifbanı"
Mənə elmin sirrlərini.

Anam qədər çox əzizdi,
Bizim müəllimlərimiz.
Hər kəlməsi bir ləzizdi,
Onu sevir hər birimiz.

## YENİ İL

Dostlar gəldi təzə il,
Məhəbbətlə, sevinclə.
Şaxta baba güldürür,
Bizi şirin gülüşlə.
Yanındadı qar qızı,
Bir əlin də əsası,

Sevindirir o bizi
Çiynində var torbası,
Uşaqlara pay verir,
Gətirdiyi sovqatdan,
Nəvələr də dinləyir,
Onu qəlbdən ürəkdən.
Oynayıb biz gülürük,
Hər yeni il gələndə ,
Hamımız şənlənirik.
Təzə il tətillərində

## QANLI GECƏ
***(20 yanvar faciyəsinə)***

Bu gecəmiz, qanlı gecə,
İnsanlar fəryad içində.
Göylərə qalxıb ah-nalə,
Ölənlər, al qan içində.

Nədir bizim günahımız,
Üstümüzə tank sürdülər.
Niyə görmür Allahımız?!
Dinc xalqımı öldürdülər.

Çıxartmayaq yadımızdan,
Tarixin bu səhfəsini,
Unutmayaq əzizlərim,
Ucaldaq haqqın səsini.

Şəhid olan soydaşlarım,
Mənim doğma el-obamdı.
Ölən bacı, qardaşlarım,
Göz yaşlarım, fəryadımdı.

## VERƏCƏM ŞƏFA, XALQIMA

Müəllim oldun, ya həkim,
Ağır zəhmət çəkməlisən.
Olsan rəssam ya da hakim,
Düzgün qərar verməlisən.

Peşələrin olmaz pisi,
Onu özün seçməlisən,
Qəlbindəki olan hissi,
Anlayaraq bilməlisən.

Gün gələcək böyüyəcəm,
Çatacağam hər, arzuma,
Oxuyub həkim olacam.
Verəcəm şəfa, xalqıma.

## RƏŞADƏT TƏBİB

*(gənc şair)*



Təhməzov Rəşadət İlham oğlu 1987-ci ildə Beyləqan rayonunda anadan olub. 1994-cü ildə Beyləqan rayonu N.Allahverdiyev adına 1 saylı tam orta məktəbində 1-ci sinfə gedib. 2005-ci ildə həmin məktəbi bitirib.

2006-cı ildə Loğman tibb kollecinə qəbul olub. Kolleci bitirdikdən sonra ixtisası üzrə əmək fəaliyyətinə başlayıb, ailəlidir, iki qızı var.

### GƏL ŞAİR

*(Raquf Budaqlıya)*

Hər görəndə gələcəyəm deyirsən,
Yolun düşsə biz tərəfə, gəl şair.
Hörmət ilə mənə qiymət verirsən.
İş yerində gözləyirəm, gəl şair!

Dəyərlisən, el-obaya gərəksən,
Kimsəsizə, kasıblara dayaqsan.
Yerin vardı, gözüm üstə biləsən,
İş yerində gözləyirəm, gəl şair!

Diş ağrısı hər adamda olandır,
Çürük dişlər sağlamlığa ziyandır.
Deyirsən ki, ağrıları  dayandır,
İş yerində gözləyirəm, gəl şair!

Şeirlərin  olub  dillər  əzbəri,
İşin yoxsa zəhmət çəkib gəl bəri.
Zərin qədrin bilər onun zərgəri,
İş yerində gözləyirəm, gəl şair!

## QARIŞAN  DÜNYAMIZ ÇƏTİN DÜZƏLƏR
***(Raquf Budaqlının eyni adlı şeirinə nəzirə)***

Gedişi yox, gəlişi yox yurdlara,
O yolları alaq basıb, ay şair.
Torpaq qalıb yağılara, yadlara,
Qız, gəlinlər axı necə bəzənər?
Qarışan dünyamız çətin düzələr.

Saclar paslanıbdır, uçub təndiri,
Yağ çalxayıb, tutan yoxdu pendiri
Keçmir doğanaqdan ipi, kəndiri,
İnanmıram haqq-hesabı üzələr,
Qarışan dünyamız çətin düzələr.

Yurdum qalıb düşmənlərin əlində,
Bu dərdi də daşıyan çox, belində.
Dinən kimi oturdurlar yerində,
Çox biləni dardan asar gədələr,
Qarışan dünyamız çətin düzələr.

Yaxşılar gedibdi, yaman qalıbdı,
Dünyanın üzünü virus alıbdı.
Milləti zülümə, dərdə salıbdı,
İmkan yoxdu çıxıb çöldə gəzələr,
Qarışan dünyamız çətin düzələr.

Ömürdən doğranıb tökülür illər,
Bülbülsüz açılmır, bükülür güllər.
Nəğmələr oxumur, danışmır dillər,
Bəlkə günahkardı aciz bəndələr.
Qarışan dünyamız çətin düzələr.

## QINAMA DÜNYANI

Qınamağın yeri yoxdu,
Şair, qınama dünyanı.
Bilirsən ki, sonu yoxdu,
Şair, qınama dünyanı.

Dünya yalanlarla dolu,
Düzəlməyə yoxdu yolu.
Boş görünür sağı, solu,
Şair, qınama dünyanı.

Yaşamırıq insan kimi,
İman yoxdu, itib dini.
Tərpətmə gəl sarı simi
Şair, qınama dünyanı.

Duyğuların haqdan gəlir,
Ruhumuza qida verir,
Olanları dünya görür,
Şair, qınama dünyanı.

*13.01.2020.*

**ANA**

Dalıb xəyallara düşünürəm mən,
Qara saçlarına nə tez düşdü dən.
Görmək istəmirəm gözlərində qəm,
Dünyadan qiymətli varımsan ana,
Sən mənim ürəyim, canımsan ana.

Əllərində qırış, gözündə eynək,
Sənə ana deyim, yoxsamı mələk.
Əyməsin qəddini, belini fələk,
Qəlbimdən sızılan sözümsən ana,
Sən mənim ürəyim, canımsan ana.

Kaş ki, uşaqlığım geri dönəydi,
Atam sevinəydi, anam güləydi.
Səhvim üstə hərdən məni döyəydi,
Gecələr laylamı çalmısan ana,
Sən mənim ürəyim, canımsan ana.

Bu gün qeyd edirik yeni yaşını,
Göylərə ucaltsın Tanrı başını.
Qoy dizin üstə qoyum başımı,
Damarımda axan qanımsan ana,
Sən mənim ürəyim, canımsan ana.

## DOST

Çalışıb dostunu düzgün seçəsən,
Dostluğa dəyəri verə biləsən.
Dar gündə dadına yetməyənləri,
Dağlardan gur axan selə verəsən.

İnsanlar tanıdım yaxşısı çoxdur,
Adam var ədəbi, dəyəri yoxdur.
Vəfası, səfası olmayan dostla,
Oturub-durmağın mənası yoxdur.

Dostum çoxdu, onlar var olsun,
Qardaşlıq yolunda min budaq olsun.
İnsanlıq qalacaq fani dünyada,
Ürək dostlarımın canı sağ olsun.

## OFELYA SƏMƏDQIZI



Əliyeva Ofelya Səməd qızı, 1963-cü ildə İmişli rayon Əliqulular kəndində anadan olub. 1970-ci ildə İmişli rayon Muradxanlı kənd orta məktəbinin 1-ci sinifinə gedib və 1980-cı ildə orta məktəbi bitirib. 1981-ci ildə bir illik Tibb bacısı ixtisası üzrə kurs bitirib. O, gənclik illərindən bədii yaradıcılıqla məşğul olub, xeyli sayda şeirlərin müəllifidir. Ofelya xanım Beyləqan şəhərində xalası oğlu ilə ailə qurub, Beyləqan şəhərində yaşayır, üç övladı var.

### ANA OĞUL YOLU GÖZLƏYİR

1993-cü ilin iyun ayında "Qızıl qaya" ətrafında gedən döyüşlər zamanı itkin düşmüş şəhid Tahir Mövhsüm oğlu Zalov, bir saatlığa anası ilə görüşmək üçün evə gəlmişdi. O, bir stəkan çay içib evdən çıxmaq istəyəndə , həyətə sarı çönüb öz əli ilə əkdiyi ərik ağacına baxdı. Anası Adilə xanım soruşdu:

- Oğul, nəyə baxırsan?

Ana, əriyə baxırdım, hələ kaldı, mənim ərik payımı ağacın üstündə saxlarsınız. Allah qoysa qələbə çalıb geri qayıdacağam.

Oğul, yaxşı yol! İnşallah tezliklə qayıdarsan. Ərik payını ağacın üstündə saxlayacam. Amma bu gediş Tahirin son

gedişi oldu. O, bir daha geriyə dönmədi. 1993-cü ildən etibarən, şəhid anası Adilə xanım dünyasını dəyişdiyi 2017-ci ilə qədər oğul yolu gözlədi. Hər il ərik yetişəndə ağacdan əriyi dərmədi, oğlunu gözlədi ki, bəlkə qayıdıb gəldi. Ancaq ana bu dünyadan oğul deyə-deyə getdi. Ana və oğulun ruhları axirət dünyasında görüşə bildi. Bu canlı mənzərənin şahidi olan Ofelya xanım, ananın ürək ağrılarını qələmə ala bilmişdi.

## OĞUL QAYIT GƏL

Payıza dönübdür baharım, yazım,
Qalıbdır qəfəsdə kamanım, sazım.
Yolunu gözləyir oğulum, qızım,
Gözlərim yoldadır oğul, qayıt gəl.

Sən gedəndə bağda ərik kalıydı,
Sənin sözün mənə şəkər, balıydı.
Bir gözəldə, bəlkə gözün varıydı?!
Gözlərim yoldadır oğul, qayıt gəl.

Xonça tutub sənsiz onu açmadım,
Sənsiz oğul, gecələr də yatmadım.
Yatsam belə şirin yuxu tapmadım,
Gözlərim yoldadır oğul, qayıt gəl.

Sənsiz həyat zəhər kimi acıdır,
Qardaş ağlar, saçın yolan bacıdır.
Bütün dərddən oğul dərdi acıdır,
Gözlərim yoldadır oğul, qayıt gəl.

Ömür tükənir ay oğul,  gəlmədin,
Nəvə payın mənə niyə vermədin?
Ərik soldu oğul, gəlib  dərmədin,
Gözlərim yoldadır oğul, qayıt gəl.

Yollara baxmaqdan tutulub gözüm,
Dizlərim bükülüb, qalmayıb dözüm.
Quruyub göz yaşım, tükənib sözüm,
Gözlərim yoldadır oğul, qayıt gəl.

## DEYƏ BİLMİRƏM

*(Yaxın qohumum Raquf Budaqlıya,*
*həyatdan cavan getmiş anasının diliylə)*

Yurd etmişəm məzarlığın düzünü,
Kaş görəydim oğul, sənin üzünü.
Qəlbimdəki saxladığım sözümü,
Oğul, məzardayam deyə bilmirəm.

Eşitmişəm dövlətin var, varın var,
Övladların, bir mehriban yarın var,
Gəlinə  verməli  suallarım var,
Oğul, məzardayam verə bilmirəm.

Doymadım nəvədən, nə də ki, yardan,
Yazıq deyir mənə, baxan kənardan.
Görmək istəyirdim, bəs görüm hardan?
Oğul, məzardayam görə bilmirəm.

Fələk necə qıydı, bu gənc çağımda,
Öldürdü körpəmi öz qucağımda.
Həyat yoldaşım da yoxdu yanımda,
Oğul, məzardayam gələ bilmirəm.

## QURBANAM ANA

*(Anam Səltənət xanım, kənddəki evimizi satıb, Bakıya gedəndə kövrəlib yazmışam)*

Qurban olum obasına, elinə,
Qırov düşüb elə bilki, telinə.
Göz yaşı bənzəyir yağış selinə,
Gözünün yaşına qurbanam, ana.

Atamın məzarı sənsiz qalıbdı,
Dörd tərəfin yağtikanlar alıbdı.
Qapındakı güllərin də solubdu,
Solan güllərinə qurbanam, ana.

Sən gedəndə bağçan barla doluydu,
Getdiyin yol, Həzrəti-Əli yoluydu.
Elə bildim bu dünyanın sonuydu,
Getdiyin yollara qurbanam, ana.

On övlad böyütdün əziyyətlə sən,
Əzablı yol keçdin zəhmət ilə sən.
Namusla, qeyrətlə, ismət ilə sən,
Qadın qeyrətinə qurbanam, ana.

## VÜSALƏ HÜSEYNQIZI



Quliyeva Vüsalə Hüseyn qızı 13.02.1977-ci ildə Beyləqan şəhərində anadan olub. O, Beyləqan rayon I saylı tam orta məktəbi bitiribdi. Vüsalə Gəncə Dövlət Universitetinin biologiya fakültəsinə qəbul olmuş, lakin müəyyən səbəblərdən 3-cü kursda Universitetdə təhsilini dondurmuş, sonralar isə davam etdirməmişdi. Vüsalə uşaqlıq dövründən şeirlər yazmağa başlamışdı.

### OĞUL

Gəlişin bir sevinc gətirdi bizə,
Al-əlvan çiçəklər səpildi düzə.
Arxasan bacın Jaləyə, Nərgizə,
Gözümün işığı, nurusan oğul.

Adın Kamran, öz babanın adıdı,
Gedən yolun babaların yoludu.
Yaranmışlar Allahının quludu,
Gözümün işığı, nurusan oğul.

Oğul böyü çat arzuna, murada,
Mərd oğul ol, yaraşasan adına.
El-oba yığışıb gəlsin toyuna,
Gözümün işığı, nurusan oğul.

## ÇƏTİNDİR

Saqqal ağarsa da, baş ağarsa da,
Ağbirçək, ağsaqqal olmaq çətindir.
Kim istəsə o kürsüdə əyləşər,
Ağsaqqal adını almaq çətindir.

Baxıram aynada qocalmış üzə,
Cavanlıq neyləyim baxmayır sözə.
Ağaran saçlarım düşəndə gözə,
Xoşa gəlib gülümsəmək çətindir.

Günlər ötüb keçir aylar içində,
Dəyişən mən oldum illər içində.
Qocalıq gözəldi güllər içində,
Tikanlı gülü də üzmək çətindir.

Hər insana nəsib olmaz qocalıq,
Çoxlarına qismət olmaz ucalıq.
Yaş artsa da yaraşmayır xocalıq,
Ağbirçək, ağsaqqal tapmaq çətindir.

## AĞLARAM

Niyə incidirsən könlümü mənim,
Dərd gəlibsə çəkə-çəkə, ağlaram.
Cavan yaşda axı nədir günahım?
Göz  yaşımı tökə-tökə ağlaram.

Gələnlər köçəcək fani dünyadan,
Verdiyi bir can var, alar Yaradan.
"Nigaran qalanda ana baladan",
Ruhum sızlar, nalə çəkib ağlaram.

Vüsaləyəm, deməmişəm sözümü,
Dərd əlindən fəda etdim özümü.
Ağlamaqdan kor etmişəm gözümü,
Xəstə canım əldən gedir, ağlaram.

# MÜNDƏRİCAT

Müəllif sözü....4
Ön söz, bir tayfanın ömür yolu....7
Ulu babamız. Budaq dədə....12
Təhlə tərəkəmələri....14
BUDAQLI ELATI
Yadda qalan xatirələr....29
**Tanınmış el ağsaqqalları**
Hacı Astan....33
Hacı Alı....36
Hacalılar tirəsi....46
Hacı Qasım....46
El anası Məşədi Bəyaz....93
Haci Ağalar....186
Hacı ismayıl....189
Kərbəlayı Mehdilər tirəsi....198
Kərbəlayı Şirinli tirəsi....280
Təhməzli tirəsi....328
Hacı İmamqulular tirəsi....387
Yetim Məhəmməd....398
Budaqlının Qarabağ şəhidləri....448
I-II Qarabağ müharibəsində döyüşmüş Budaqlılar....452
BUDAQLI YAZARLARI
İnqılab Miskin....455
Raquf Budaqlı....465
Ziyadxan Budaq....477
Rövşən Budaq....484
Zahid Budaqlı....496

Vüsal Murad........................................................................503
Səma Şəms ..........................................................................508
Rəşad Təbib .........................................................................525
Ofelya Səmədqızı.................................................................530
Vüsalə Hüseynqızı ..............................................................534

RAQUF BUDAQLI

# BUDAQLI ELATI

“Elm və təhsil” nəşriyyatının direktoru:
**N.MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 08.01.2022
Şərti çap vərəqi 30,5. Sifariş № 489
Kağız formatı 70x100 1/16. Tiraj 300

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4